TARİX VƏ ONUN PROBLEMLƏRİ

3



I Türkoloji qurultay - 100

BAKI - 2026

“Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır”.

Heydər ƏLİYEV

TARİX VƏ ONUN PROBLEMLƏRİ

1997-114

HİSTORY AND İTS PROBLEMS ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ

NƏZƏRİ, ELMİ, METODİK JURNAL

ISSN 2708-0641 (print)
2708-065X (online)

3

I Türkoloji qurultay - 100

ADİLOĞLU
BAKI – 2026

Baş Redaktor **-** **Əsməd İmamməmməd qızı Muxtarova**
tarix elmləri doktoru, Bakı Dövlət Universiteti

Baş redaktorun müavini **-** **İsmayıl Məhəmməd oğlu Məmmədov**
tarix elmləri doktoru, Bakı Dövlət Universiteti

Məsul katib **-** **Məmmədağa Ələkbər oğlu Baxışov**
tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti

Elm sahələri üzrə redaktorlar:
Tarix və Antropologiya üzrə redaktor – **Qabil Əli oğlu Əliyev**
tarix elmləri doktoru, Bakı Dövlət Universiteti

Siyasi elmlər üzrə redaktor – **Məmmədli Sabir Rza oğlu**
siyasi elmlər doktoru, Bakı Dövlət Universiteti

Redaksiya heyəti (əlifba sırası ilə)

Axundova Nərgiz Çingiz qızı – *AMEA-nın həqiqi üzvü, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu*
Andrzej L.Bonusiak – *tarix elmləri doktoru, Jeşuva Universitetinin Tarix İnstitutu (Polşa)*
Barış Özdal – *siyasi elmlər doktoru, Bursa Uludağ Universiteti (Türkiyə)*
Danish Miroslav – *tarix elmləri doktoru, Bratislava Komenski Universiteti (Slovakiya)*
Dostiyev Tarix Meyrut oğlu – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Əliyeva Sevinc İsrafil qızı – *tarix elmləri doktoru, Bakı Mühəndislik Universiteti*
Əlizadə Hikmət Əbdül oğlu – *pedaqoji elmlər doktoru, Bakı Dövlət Universiteti*
Hacıyev İsmayıl Muxtar oğlu – *AMEA-nın həqiqi üzvü, AMEA Naxçıvan bölməsi*
Hacıyev Sani Tofiq oğlu – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Hatice Palaz Erdemir – *tarix elmləri doktoru, Manisa Calal Bayar Universiteti (Türkiyə)*
Hüseynova İradə Mehtiqulu qızı – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Hüseynova Lalə Cavid qızı – *tarix elmləri doktoru, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi sənədlər arxivi*
İsgəndərov Anar Camal oğlu – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Qasımlı Musa Cəfər oğlu – *AMEA-nın müxbir üzvü, Bakı Dövlət Universiteti*
Quliyeva Nərgiz Məlik qızı – *tarix elmləri doktoru, AMEA Arxeologiya və Antropologiya İnstitutu*
Kvitsiani Johni Jokiyevich – *tarix elmləri doktoru, İ.V.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" Elmi-Tədris İnstitutu (Gürcüstan)*
Mahmudov Yaqub Mikayıl oğlu – *AMEA-nın həqiqi üzvü, Bakı Dövlət Universiteti*
Mamoulia Georges Quramovich – *tarix elmləri doktoru, Sosial Elmlər üzrə Ali Araşdırmalar Məktəbi (Fransa)*
Mirabdullayev Adil Mirabdulla oğlu – *siyasi elmlər doktoru, Bakı Dövlət Universiteti*
Mohammad Salmansızadeh – *tarix elmləri doktoru, Təbriz Universiteti (İran)*
Turichın İqor Victoroviç – *tarix elmləri doktoru, Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu (Rusiya)*
Vəlixanlı Nailə Məmmədəli qızı – *AMEA-nın həqiqi üzvü, Azərbaycan tarixi müzeyi*
Yusifzadə Sevinc Ziya qızı – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*
Zeynalov İbrahim Xudaverdi oğlu – *tarix elmləri doktoru, Bakı Dövlət Universiteti*

Web-sayt: https://tarixveonunproblemleri.az/
Redaksiya ilə əlaqə: TarixVeOnunProblemleri@gmail.com
Şəhadətnamə № 0060079 (1997)
©Lisenziya ser.AB - №22477

MÜNDƏRİCAT

	I TÜRKOLOJİ QURULTAY – 100	
ZEYNALOV İ.X., RUİNTƏN S.F.	*I Türkoloji Qurultayın keçirildiyi tarixi şərait*	5-15
HACIYEV İ.	*Birinci Türkoloji Qurultay: Türk xalqlarının mədəni həyatında baş vermiş əlamətdar hadisə kimi*	16-24
MARİFLİ A.	*Türk dünyasının mədəni-humanitar yaddaşı: Birinci Bakı Türkoloji qurultayı*	25-30
NƏCƏFOVA K.	*Sovet işğal rejiminin antimilli siyasəti və I Türkoloji Qurultayın Azərbaycanda keçirilməsinə dair*	31-38
YOLOĞLU G.	*I Ümumittifaq Türkoloji Qurultayın keçirilməsinə təkan verən tarixi amillər*	39-45
ƏLİYEV Q.Ə.	*I Türkoloji qurultayda Türk dünyasının tarixi məsələləri*	46-54
ИСМАЙЛОВА С.А.	*Историко-политическое значение Первого тюркологического съезда*	55-60
ALLAHVERDİYEVA F.	*The Scholarly and Cultural Objectives of the 1926 Baku Turkological Congress and Their "Pan-Turkist" Interpretation in Subsequent Soviet Political Discourse*	61-70
	QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR	
BAXŞƏLİYEV S.F.	*İlk Rəşidi Xəlifəsi Əbu Bəkr Sidq*	71-76
RÜSTƏMOV R., SƏMƏDOV O.	*Osmanlı imperiyası: Fəth edilən ərazilərdə sosial bərabərlik və humanist siyasətin formalaşması prosesi*	77-83
	YENİ DÖVR	
ƏSƏDOVA R.	*Cəbrayıl (Karyagin) qəzasının Rusiya imperiyasının inzibati quruluşunda yeri*	84-90
ƏLİYEVA K.Q.	*Sürməli qəzasında pambıqçılığın inkişafı (XIX əsrin son onillikləri)*	91-97
КУЛИЕВ М.Р.	*Великий полководец Эхсан хан Кенгерлинский-Нахичеванский в картине военного художника, академика В.Д.Машкова*	98-101
	MÜASİR DÖVR	
MƏMMƏDOV N.R.	*Ermənistanın işğalı nəticəsində Azərbaycan sənayesinə dəymiş zərər*	102-109
BƏŞİROV Q., PİRİYEVA A.	*Sovet imperiyasında sürətləndirilmiş stalinçi sənayeləşdirmənin yekunları və nəticələri (1928-1940)*	110-116
ƏHMƏDOV B.Ş.	*Keçmiş Ermənistan SSR-in Aşağı Qaranlıq (Martuni) rayonunun inzibati ərazi bölgüsü (1930-1988-ci illər)*	117-126
ABDULLAYEV İ.H.	*Azərbaycan SSR-də ağır sənayenin müasir istehsal sahələrinin yaranması (1969-1982-ci illərdə)*	127-131
MƏMMƏDLİ S., EHAB İSMAEL	*"X" platforması (keçmiş "Twitter") üzərindən diplomatik gedişlərin müasir xarici siyasətə təsiri*	132-138
RUİNTƏN K.F.	*Diplomatiyanın ontoloji mahiyyəti: realist, liberal və konstruktivist yanaşmaların müqayisəli təhlili*	139-147
İSMAYILOV Ş.N.	*Müstəqillikdən sonra Azərbaycanın xarici siyasətinin formalaşması və inkişafı*	148-153
AXUNDOVA T.R., MƏMMƏDLİ Ə.O.	*Türkiyədə müdafiə sənayesinin inkişafı və regional təhlükəsizlikdə rolu*	154-161
BAXIŞOV M.Ə.	*Latın Amerikası ABŞ-nin xarici siyasətində (XX əsrin sonu – XXI əsrin birinci rübü)*	162-167
CƏFƏROV T.	*Qərbi Avropa ölkələrində Azərbaycan diasporunun təşkilatlanması və səciyyəvi xüsusiyyətləri*	168-178
CƏFƏROV E., MURADLI E.	*Müasir siyasi təbliğatın internet alətləri*	179-185

HAQVERDİ Ü.	*Əhalinin təbii və mexaniki hərəkətinin nəzəri-konseptual əsasları*	186-193
ABBASZADƏ N.	*Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin yeni mərhələsi (2003-2023-cü illər)*	194-199
BAXŞIYEVA Y.	*Cənubi Qafqazda hidroəməkdaşlıq potensialı: məqsədlər və prinsiplər*	200-204
MƏMMƏDLİ H.	*Dinin tarixi təkamülü: cəmiyyətdə transformasiyası*	205-209
АЛИЕВА С.С.	*Ислам и политика в мусульманском мире*	210-213
АХМЕДОВА З.А., ДЖАВАДОВА Л.Г.	*Цифровая трансформация медиа и проблемы информационной достоверности*	214-218
BABASHOVA S.	*India's strategic position and perspectives in international relations*	219-223
MİRZAZADA Kh.	*From Hydrocarbons to Renewables: The Green Energy Strategy of Azerbaijan – Challenges for Sustainability, Diversification, Resilience and Continuity*	224-231
ИМАНЛЫ А.	*Мирная доктрина Ильхама Алиева: приоритеты мира, безопасности и стабильности в современной международной политике*	232-236
HƏSƏNOVA G.	*Azərbaycan – ÇXR münasibətləri: iqtisadi tərəfdaşlığın "Kəmər-Yol" modeli*	237-241
ТАЛЫБЗАДЕ Э.С.	*Энергетическая стратегия Рима и Мадрида в контексте ерансформации европейской политики на Южном Кавказе*	242-249
ГАДЖИЕВ И.	*Развитие общеобразовательной школы в Азербайджане в годы Отечественной войны*	250-254
MAMEDOV H.	*Влияние биполярной системы на развитие международного права в эпоху холодной войны*	255-258
HƏSƏNLİ A.	*31 mart soyqırımı*	259-264
İBRAHİMOV N.R.	*Suverenlikdən regional liderliyə, post-müharibə dövründə Azərbaycanın yüksəlişi*	265-271
ARXEOLOGİYA, ETNOQRAFİYA, MUZEYŞÜNASLIQ		
AVŞAROVA İ.N.	*"Kəllə kultu" ilə bağlı inanclar Azərbaycanın tunc dövrü dəfn adətlərində*	272-276
İSMAYILOVA A.	*IX-XIII əsrlərdə Naxçıvanın iqtisadi mədəni əlaqələrində şirli keramikanın rolu*	277-282
MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, TARİXİ ÇOĞRAFİYA, DEMOQRAFİYA, METODİKA		
HAJIGADIRLI A.	*The Caucasus Policy of the Russian and Ottoman Empires in the First Half of the 18th Century in Turkish Historiography (Based on the books "History of Turkey 3. The Ottoman Empire" and Ahmet Shimshirgil's Kayı-VII Ottoman History. Against the Holy League)*	283-290
BAYDAROV Z.N.	*The political system and governance of Azerbaijan during the Seljuk period in Turkish historiography*	291-295
YUBİLEYLƏR, XATİRƏLƏR		
MUXTAROVA Ə.İ.	*Tarix yazan və tarixi yaşayan ömür yolu*	296-297
MUXTAROVA Ə.İ., RUİNTƏN S.F.	*Zirvədən görünən və zirvədə görünən ömür yolu: Professor Qabil Əliyev - 70*	298-300

I Türkoloji qurultay - 100



UOT 94(479.24); UOT 94

İBRAHİM ZEYNALOV
Bakı Dövlət Universiteti Tarix fakültəsinin dekanı,
tarix elmləri doktoru, professor
ORCID ID: 0000-0002-5503-4801
ibrahimzeynalov@bsu.edu.az

SEVİNC RUİNTƏN
Bakı Dövlət Universiteti
Türk xalqları tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
ORCID ID: 0000-0002-8211-1577
sevinjruintan@bsu.edu.az

I TÜRKOLOJİ QURULTAYIN KEÇİRİLDİYİ TARİXİ ŞƏRAİT

DOI: https://doi.org/10.36719/2708-065X/114/5-15


I Türkoloji Qurultay Türk dünyasında yeniləşmə hərəkatlarının elmi zəminlə qovuşduğu mühüm mərhələlərdən biri olmuşdur ...

Akademik Şahin Mustafayev [4, s.10].

2026-cı ildə bütünlükdə Türk dünyası çərçivəsində I Türkoloji qurultayın 100-cü ildönümü qeyd edilməkdədir. Türk tarixinin şübhəsiz ən paradoksal hadisələrindən biri olan I Türkoloji qurultay keçirildiyi dövrdə bolşeviklərin siyasi məqsədlərinə – sovetləşməyə xidmət etmək üçün nəzərdə tutulmuş olmasına baxmayaraq, eyni zamanda türkologiyanın inkişafı baxımından uzun müddətli elmi nəticələrə də gətirib çıxardı. Elmi-tarixi ədəbiyyatlarda mahiyyəti və əhəmiyyəti ilə bağlı biri digərini təkzib edən kifayət qədər fikirlərin mövcud olması səbəbindən (məsələn, "Qərb imperializminə qarşı mübarizənin bir vasitəsi"; "türkologiyanı "müstəmləkəçi siyasi aləti" olmaqdan çıxararaq sosializm quruculuğuna xidmət edən bir elmə çevirməsi"; "sadəcə elmi qurultay deyil, sovet ideologiyasının beynəlxalq proyeksiyası olması" və s.) hazırki məqalədə məsələ müqayisəli təhlil şəklində nəzərdən keçirilmiş, qurultay sovet ideologiyasının "idarəolunan modernləşmə" siyasəti və türk ziyalılarının intellektual intibah cəhdlərinin kəsişmə nöqtəsi kimi göstərilmişdir. Qeyd edilmişdir ki, qurultay "sadəcə elmi bir toplantı" deyil, daha çox Mərkəzi hökumətin "dünya inqilabı hədəfli ideoloji laboratoriyası" olmuşdur. Məqalənin hazırlanması zamanı Türkoloji qurultayın rus və Azərbaycan dillərində nəşr edilmiş stenoqram materiallarından, Beynəlxalq Türk Akademiyası tərəfindən 2026-cı ildə qurultayın yubileyi münasibətilə nəşr edilmiş "100 ilin ardından: Bakı Türkoloji qurultayı" və "Belgeler Işığında 1926 Birinci Bakü Türkoloji Kurultayı" kitablarından, həmçinin mövcud elmi-tarixi ədəbiyyatlardan istifadə edilmişdir. Araşdırma nəticəsində belə qənaətə gəlinmişdir ki, I Türkoloji qurultayı -qarşıya qoyulan məqsəd və hədəfləri, həmçinin sonrakı nəticələri baxımından- müəyyən mənada SSRİ Mərkəzi hökumətinin milli siyasətində "Troya atı" hesab etmək mümkündür. Bütün bu deyilənlər baxımından hazırki məqalənin "sadəcə yubiley məqaləsi" deyil, həm də SSRİ milli siyasətinin arxitekturasını doğru-düzgün anlamaq istəyən araşdırmaçılar üçün bir bələdçi ola biləcəyini hesab edirik.

Açar sözlər: I Türkoloji qurultay, SSRİ Mərkəzi hökumətinin milli siyasəti, "pozitiv diskriminasiya imperiyası", SSRİ Mərkəzi hökumətinin milli siyasətində "Troya atı".

Giriş. 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji qurultay üzərindən 100 il keçməsinə baxmayaraq, irsinin hələ də araşdırılması ümumilikdə türk xalqlarının mədəni inteqrasiyası və qurultayda müzakirə olunan elmi-mədəni məsələlərin günümüzdə belə əhəmiyyətini qoruyub saxlaması baxımından aktual olan məsələlərdəndir. XX əsr Türk dünyasının ortaq elmi fikrini formalaşdıran ən əlamətdar hadisələrdən biri olan I Türkoloji qurultay, həmçinin türkologiyanın gələcək onilliklər üçün inkişaf vektorlarının qeyd edildiyi bir toplantı olmuşdur. Əgər hadisənin zaman çərçivəsi nəzərə alınmasa, bütün bu deyilənlər bəlkə də bir o qədər təəccüblü olmaya bilərdi. Amma qurultayın zamanlaması, marksizm ideologiyasının hakim olduğu SSRİ-də keçirilməsi kimi faktlar əsassız olmayaraq, onun SSRİ Mərkəzi hökumətinin bir növ "Troya atı" olub olmadığı sualını yaradır. Bu mənada, bütün olub-bitənləri, həmçinin şübhələrimizi doğru-düzgün anlamaq üçün, qurultayın keçirildiyi tarixi şəraitin nəzərədən keçirilməsinin əhəmiyyətli olacağını hesab edirik.



Şəkil 1. *Qurultaydan görüntülər*
Mənbə: 4, s.336-337

I Türkoloji qurultayın keçirildiyi dövrdə (26 fevral – 3 mart 1926) dünyada və SSRİ-də mövcud vəziyyət. Mənbə və ədəbiyyatlarda I Türkoloji qurultay, I Bakı Türkoloji Qurultayı, I Ümumittifaq Türkoloji qurultayı, I Beynəlxalq Türkoloji qurultay kimi fərqli adlarla qeyd edilən; icitimai-siyasi xadim, pedaqoq, naşir, cədidçilik və türkçülük ideyalarının görkəmli nümayəndələrindən biri İsmayıl bəy Qaspıralı (1851-1914) və alman əsilli rus türkoloq, şərqşünas, etnoqraf, arxeoloq Vasili Vasilyeviç Radlovun (1837-1918) şərəfinə keçirilən qurultay iştirakçılarının sırasında Türkiyə, Almaniya, Macarıstan, Fransa, Finlandiya və İsveç nümayəndələrinin də olması baxımından, mahiyyəti etibarilə həqiqətən beynəlxalq statuslu qurultay olmuşdur. Beynəlxalq Türk Akademisyası tərəfindən 2026-cı ildə qurultayın yubileyi münasibətilə nəşr edilmiş "100 ilin ardından: Bakı Türkoloji qurultayı" kitabında qeyd edilir ki, "türk dillərinin və mədəniyyətinin elmi əsasda müzakirə ediləcəyi genişmiqyaslı toplantının keçirilməsi" ideyasını tanınmış şərqşünas, türkoloq alim Aleksandr Samoyloviç hələ 1923-cü ildə "Maarif və Mədəniyyət" jurnalının 10-cu sayında dərc olunmuş məqaləsində, eləcə də 1924-cü ilin martında təqdim etdiyi məruzədə irəli sürmüşdü. Daha sonra, 1924-cü ildə qurultay məsələsi Azərbaycan tərəfindən gündəmə gətirilərək SSRİ hökumətinə təqdim edilmiş, 1925-ci ilin avqustunda isə SSRİ Xalq Komissarları Soveti Türkoloji qurultayın çağırılmasına dair qərar qəbul etmişdi. Latın əsaslı yazı sisteminə dair problemlərin həlli zərurəti I Azərbaycan Ölkədaxili Tarix (краеведение) Qurultayında (21-24 sentyabr 1924-cü il) da səsləndirilmiş, həmçinin SSRİ EA və SSRİ Şərqşünaslar Cəmiyyəti bu mövzunu SSRİ XKS qərarından təxminən 6 ay əvvəl də gündəmə gətirmişdilər [4, s.20-21].


Dövr baxımından - dünyada müstəmləkəçilik əleyhinə hərəkatların genişləndiyi, SSRİ-də sosializm quruculuğu proseslərinin həyata keçirildiyi zamanda baş tutmuşdu. SSRİ-də Mədəni inqilab siyasəti çərçivəsində savadsızlığın aradan qaldırılması, əlifba dəyişikliyi (latınlaşdırma / латинизация), "formaca milli, məzmunca sosialist" mədəniyyətin yaradılması uğrunda mübarizə, dünyəviləşmə və s. proseslər həyata keçirilirdi. Çar hökuməti tərəfindən həyata keçirilən ruslaşdırmaya qarşı çıxan yeni hökumət SSRİ-də yaşayan bütün xalqlar və dillər üçün milli inkişaf siyasəti qəbul etmişdi. Lakin SSRİ-ni təşkil edən bəzi xalqların ümumiyyətlə yazılı dili yox idi, müsəlman xalqlar isə ərəb əlifbasından istifadə edirdilər. Buna görə də, SSRİ-nin bütün müsəlman və buddist xalqlarının dilləri,

eləcə də əvvəllər öz yazılı dili olmayanların latın əlifbasına keçirilməsi qərara alındı. Qeyd edilməlidir ki, eyni zamanda rus dilinin də latın əlifbasına keçirilməsi nəzərdə tutulurdu. Rus dilinin latınlaşdırılması layihəsinin müəllifi, tanınmış sovet dilçisi Nikolay Yakovlev 1930-cu illərin əvvəllərində yazırdı ki, *"İttifaq daxilində rus dilinin işğal etdiyi ərazi pravoslavlığı yayan çar missionerlərinin ruslaşdırma fəaliyyətinin qalığı olaraq qalır. Rus əlifbasının ərazisi hazırda Oktyabr İnqilabının Latın əlifbasını qəbul edən ölkələrlə eyni əlifbaya əsaslanan əlifbaların olduğu Qərbi Avropa ölkələri arasında bir əngəl olaraq qalmaqdadır"* [9]. 14 yanvar 1930-cu ildə RSFSR Xalq Komissarlığının Elm Baş İdarəsi (Главнаука НКП РСФСР) nəzdindəki Rus əlifbasının latınlaşdırılması üzrə alt komissiya bəyan edirdi ki, *"rus əlifbasının latınlaşdırılması SSRİ-nin bütün xalqları üçün rus yazısının və çapının vahid beynəlxalq latın əsaslı əlifbaya keçidi kimi başa düşülməlidir... Beynəlxalq latın əsaslı əlifba SSRİ proletariatının Qərb və Şərq proletariatı ilə birliyini gücləndirəcək və inkişaf etdirəcək... Bu, milli formalarının bütün müxtəlifliyinə baxmayaraq, SSRİ-nin bütün xalqlarının siyasi birliyinin və onların mədəniyyətinin proletar məzmununun vəhdətinin əyani ifadəsi olacaq"* [16, c.133-134]. Lakin az sonra -26 yanvar 1930-cu ildə- Siyasi Büro Elm Baş İdarəsindən (Главнаука НКП) rus əlifbasının latınlaşdırılması ilə bağlı müzakirələrin dayandırılmasını tələb edən "Latınlaşdırma haqqında" qərar qəbul etdi və bundan sonra latın əlifbası komissiyası ləğv edildi. Və 1931-ci ildə Siyasi Büronun 2 iyul tarixli qərarı ilə *"dövlətin gücünün və resurslarının səmərəsiz və boş yerə israf edilməsi təhdidinin qarşısının alınması"* məqsədilə rus əlifbasının "islahatı" ilə bağlı "hər hansı bir islahat və ya müzakirə" tamamilə qadağan edildi [14]. Rusiya tarixçiləri A.Arteyev və Y.Xlıbov bununla bağlı yazırlar ki, *"... 1930-cu ilin yanvarında Stalinin sədrliyi ilə Ümumittifaq Kommunist Partiyası (Bolşeviklər) Mərkəzi Komitəsinin Siyasi Bürosu rus əlifbasının latınlaşdırılması məsələsindən imtina etmək qərarına gəldi. Guya lider və müəllim dünya inqilabının qeyri-müəyyən müddətə təxirə salındığını anlayıb "bir ölkədə sosializm qurmaqla" kifayətləndi"* [9].

Bəhs edilən dövrdə türk xalqlarına münasibətdə latınlaşma din və millətçilik əleyhinə mübarizənin mühüm vasitələrindən biri, ideoloji qırılma xətti hesab edilirdi: 1) ərəb əlifbasından imtina milli keçmişlə əlaqənin kəsilməsilə nəticələnməli idi; 2) kommunizm ideologiyasının yayılması baxımından əhəmiyyətli idi. Bütün bunlarla yanaşı, "dünya inqilabı" aspektindən baxıldıqda latın əlifbası həm də Şərq xalqlarını dünya proletarları ilə yaxınlaşdıracaq "dünya inqilabı əlifbası" olaraq görülürdü [8]. 1920-ci illərdə latınlaşdırılmış türk əlifbası mətbuatda *"Oktyabr əlifbası", "proletar inqilabının silahı"* adlandırılırdı. Maraqlıdır ki, ölkədə "Oktyabr əlifbası" adlı təyyarənin hazırlanması üçün ianə toplama kampaniyası da başladılmışdı [11]. Lakin bu, çox davam etmədi. Rus əlifbasının latınlaşdırılmaması qərarından az sonra, 1933-cü ilin yazında "rus yazısından istifadə edən xalqların da əlifbasının latınlaşdırılmaması haqqında" qərar qəbul edildi [14]. 1936-cı ildə isə "məqsədəuyğun olmadığı üçün" məsələ ÜİK(b)P Siyasi Bürosunun gündəliyindən də çıxarıldı, "latınlaşdırma" dayandırıldı, əks proses – "kirilləşdirmə" vəya "kirilizasiya" (кирилизация) həyata keçirildi [16, c.133-134]. Əlifba məsələsində istiqamətin belə sürətli dəyişmə səbəblərini araşdıran rusiyalı araşdırmaçı T.O.Atayev səbəblərdən ən mühümü kimi beynəlxalq vəziyyəti qeyd edir: *"Az əvvəl latınlaşdırma ilə məşğul olanlar indi də kirilizasiya ilə məşğul idilər... geosiyasi qarşıdurmanın mədəni sahəsində "latınlaşdırılmış" kapitalizm "kirilləşdirilmiş" Sovet İttifaqına qarşı qoyuldu*" [10].

I Türkoloji qurultayın keçirildiyi ərəfədə SSRİ-də milli siyasət. SSRİ-nin milli siyasəti ilk günlərdən inanılmaz dərəcədə ziddiyyətli və dəyişkən olmuşdur. Bu siyasət formal olaraq "xalqların bərabərliyi və beynəlmiləlçilik" şüarları altında aparılsa da, əslində mərkəzləşdirilmiş ruslaşdırma, milli elitaların repressiyası və ittifaq respublikalarının iqtisadi-siyasi asılılığına əsaslanırdı. Belə ki, Çar Rusiyası zamanında millətçilik bolşeviklər üçün bir məqsəd deyil, çarizmi devirmək üçün istifadə etdikləri bir vasitə olmuşdu. Milləti "burjua qalığı" hesab edən bolşeviklər, onun sosializm quruculuğu prosesində aradan çıxmalı olacağını proqnozlaşdırırdılar. Onlara görə, millətçilik qeyd-şərtsiz "düşmən" elan edilməli, ona qarşı mübarizə aparılmalı idi. Lakin mövcud reallıq, yəni kəndlilərin üstünlük təşkil etdiyi bir dövlətdə hakimiyyətə gəlmələri onların fikirlərində dəyişiklik etmələrinə səbəb oldu və onlar müxtəlif millətləri qurmaq istədikləri dövlətin tərkibinə daxil etməklə vəziyyəti öz xeyirlərinə dəyişməyə çalışdılar: imperializmə qarşı mübarizədə bolşeviklər həm ölkə daxilində, həm də ölkədən kənarda milli-azadlıq hərəkatları timsalında müttəfiq tapmış oldular [12].

Ümumilikdə SSRİ-nin Mərkəzi hökuməti milli siyasətinin əsası kimi ideoloji baxımdan V.İ.Lenin tərəfindən irəli sürülən "xalqların öz müqəddəratını təyinetmə" hüququnu elan etsə də, bu yanaşmanın rejimi təhdid edən qüvvəyə çevrilə biləcəyini də unutmurdu. Və bu baxımdan, "xalqların öz müqəddəratını təyinetmə"sini yalnız sosializm çərçivəsində və Mərkəzi hökumətə (Moskvaya) tabelik şərti ilə mümkün hesab edirdi: SSRİ-də rus dili millətlərarası ünsiyyət dili kimi təbliğ edilir, rus mədəniyyəti və tarixi mərkəz kimi ön plana çıxarılırdı. Kanadalı araşdırmaçı Sean Waite yazır ki, ruslaşdırma siyasəti həyata keçirən sovet hökuməti etnik siyasət çərçivəsində "sovet xalqı" adı ilə yeni, vahid bir cəmiyyət yaratmaq məqsədilə milli özünüdərkin zəiflədilməsinə çalışır və bu siyasəti "mədəni inqilab" adı altında həyata keçirirdi [24]. Bu mənada, Türkoloji qurultayı keçirən Mərkəzi hökumət "ola biləcəyini unutmadığı təhdidi" nəzarətə alaraq, onu zərərsizləşdirmək, sosializm quruculuğu prosesində ondan özünün xeyrinə istifadə etmək istəyirdi. Bu məqsəddən yola çıxaraq, SSRİ Mərkəzi hökuməti türk müsəlman xalqlarına münasibətdə *müvəqqəti olaraq* İslam ənənələrinə göz yuman, "elmi və mədəni türkçülüyü" dəstəkləyən siyasət yürütməyə (türk ədəbi dillərinin inkişafı, milli muxtariyyətlərin yaradılması vs. – İ.Z., S.R.) üstünlük verdi[*]. Burada yeri gəlmişkən qeyd etmək istərdik ki, bolşeviklər "kommunist millətçiliyi"ni (национал-коммунизм) millətçi hərəkatlardan daha təhlükəli hesab edirdilər.



Azerbaycan Heyetinin 25 Şubat 1926 tarihli oturumu tutanağından alıntı.

Konu: Çobanzade'nin organizasyon bürosunun olası çeşitleri üzerine bildirisi. 1/ Enstitü, 2/ Büro, 3/ Akademi.

Karar: 1/ Aşağıdaki karar geçirilsin: Kurultay, cumhuriyetlerde Türkoloji meseleleriyle meşgul olacak bilim merkezleri kurmak ve cumhuriyetlerdeki merkezlerin çalışmalarını koordine etmek amacıyla SSCB çapında bir bilim merkezinin kurulmasını arzu eder.-

Alıntı tasdik olunur:

/Mamedzade/ /imza/


MOSKOVA

BÜTÜN BİRLİK (SSCB) KOMÜNİST PARTİSİ MERKEZ KOMİTESİ. STALİN'E

TÜRKOLOJİ KURULTAYINI YÖNETME KOMİSYONU TOPLANTISINDA GELECEK İÇİN ÖNGÖRÜLEN MERKEZLERE İLİŞKİN ŞU İBARE ÖNERİLMİŞTİR: "KURULTAY, CUMHURİYETLERDE TÜRKOLOJİ MESELELERİYLE MEŞGUL OLACAK BİLİM MERKEZLERİ KURMAK VE CUMHURİYETLERDEKİ MERKEZLERİN ÇALIŞMALARINI KOORDİNE ETMEK AMACIYLA TÜM BİRLİK (SSCB) ÇAPINDA BİR BİLİM MERKEZİNİN KURULMASINI ARZU EDER." SÖZ KONUSU İBAREYİ İLETİR, TALİMATLARINIZI RİCA EDERİZ. KARAYEV. MİRZOYAN.

No 31/Ş
26 Şubat 1926.

Şəkil 2: "SSRİ respublikalarında Türkoloji mərkəzlərin yaradılması təklifi ilə bağlı qərarınızı gözləyirik"
Mənbə: 5, s.138-139



93

Deşifre.

BAKÜ MOSKOVA 27 Şubat 1926. No 2926.
BAKÜ
AZERBAYCAN KOMÜNİST PARTİSİ MERKEZ KOMİTESİ

Gelen sayı: 31/Ş
28 Şubat 1926.

KARAYEV VE MİRZOYAN'IN DİKKATLERİNE. İLGİ: No 31/Ş. CUMHURİYET MERKEZLERİNİN KURULMASINA KARŞI OLMAMAKLA BİRLİKTE BÜTÜN BİRLİK ÇAPINDA BİR MERKEZİN KURULMASINA KATİYEN KARŞIYIZ. NİTEKİM MERKEZ KOMİTE KURULTAYI YÖNETME KOMİSYONUNUN 1102/S SAYILI YÖNERGESİNE TERS DÜŞMEKTEDİR. MERKEZ KOMİTE SEKRETERİ KASİOR. No 725/Ş. ŞİFRELEYEN ÇEREPANOVA.

Deşifre edilmek üzere teslim alındı: 28 Şubat 1926. 9.
Deşifre edildi: 28 Şubat 1926. 11.
GLEBOV.

149

Şəkil 3: "Respublikalarda mərkəzlərin yaradılmasına etiraz etməməklə, qəti şəkildə SSRİ-də vahid mərkəzin yaradılmasına qarşıyıq"
Mənbə: 5, s.148-149.

Qurultaydan az sonra SSRİ Mərkəzi hökumətinin siyasətində *ideoloji geridönüş* baş verdi. Sovet hakimiyyəti möhkəmləndikcə, partiya az əvvəl tolerant yanaşdığı "bolşevik türkçülüyünü" birbaşa təhlükə kimi qəbul etdi. Nəticə olaraq, ümümtürk inteqrasiyası əvəzinə, sərt demarkasiya siyasətinin həyata keçirilməsinə üstünlük verildi. Türk xalqları azərbaycanlı, özbək, qazax, qırğız, türkmən və s. adlarla bölündülər, siyasi və mədəni elitaları, ziyalıları repressiyalara məruz qaldılar. 30-cu illərin sonunda isə latın əlifbası kiril əlifbası ilə əvəz edildi. Ümumilikdə, tədqiqatlar göstərir ki, SSRİ-də dil və əlifba islahatı filoloji deyil, mahiyyət etibarilə ideoloji nəzarətə yönəlmiş siyasi qərar ol-

[*] *Bolşevik türkçülüyü – 1917-1920-ci illərdə Sovet hökuməti ilə solçu türk hərəkatları arasında siyasi ittifaqı ehtiva edən termindir. Məqsədi: imperialist dünyanın vahid anti-bolşevik cəbhə yaratmasının qarşısını almaq, türkçülük hərəkatını dünya inqilabı məcrasına yönləndirmək olmuşdur (- İ.Z., S.R.). Lakin bolşevikər hər nə qədər "ittifaq qurmağa" çalışsalar da, prosesləri hər zaman ciddi nəzarət altında saxlamağa çalışırdılar. Bu baxımdan, qurultayda irəli sürülən "SSRİ respublikalarında Türkoloji mərkəzlərin yaradılması təklifi"nə Mərkəzi hökumətin "Respublikalarda mərkəzlərin yaradılmasına etiraz etməməklə, qəti şəkildə SSRİ-də vahid mərkəzin yaradılmasına qarşıyıq" deyə cavab verməsi təsadüfi olmamışdır [Bax: Şəkil 2 və Şəkil 3; 5, s.138-139, 148-149].*

muşdur. Bu mənada, qırğız araşdırmaçı Pavel Dyatlenki hesab edir ki, SSRİ-də latınlaşma – modernləşmənin inqilabi impulsu, dünya inqilabına doğru bir addım, "millət-dövlət" sovet modelinin qələbəsi [15, c.81], kirilləşdirmə isə unitar dövlətin möhkəmlənməsi simvolu [15, c.89] olmuşdur.

Problemin tarixı araşdırmalarda əksi. SSRİ-ni "pozitiv diskriminasiya imperiyası" ("Affirmative Action Empire") adlandıran amerikalı tarixçi Terry Martin SSRİ-nin milli siyasəti ilə bağlı yazır ki, *bolşeviklər ümid edirdilər ki, əgər Sovet hakimiyyəti millətçiliyin tələblərini müəyyən qədər ödəyərdisə, milli hərəkatların "sinifüstü" birliyi parçalanar, milli şüarların cəlbediciliyi neytrallaşdırılar, bununla da bolşevik ideologiyasının qəbul edilməsi üçün daha əlverişli şərait yaranardı. Bundan əlavə, belə bir siyasət Rusiya imperiyasının xarabalıqları üzərində yaranmış yeni dövlətin imperialist xarakterli olmadığının göstəricisi ola bilərdi. Belə ki, bolşeviklər "imperiya" damğasının Sovet hakimiyyəti üçün mənfi nəticələrə gətirib çıxara biləcəyini hesab edirdilər* [17, c.58; 20, c.14-15]. Və məhz elə bu baxımdan da, Sovet hökumətinin qəbul etdiyi ilk aktlardan biri, bütün xalqların bərabərliyi və suverenliyi prinsipinə əsaslanan "Rusiya xalqlarının hüquq bəyannaməsi" olmuşdu [13, c.39-41]. Nəticədə, millətlərin birləşməsi məsələsi uzunmüddətli perspektiv kimi müəyyənləşdirilərək, SSRİ-nin "etnofederalist dizaynı" (ya da "etnofederal quruluşlu SSRİ") Kommunist partiyasının faktiki mərkəzçi rəhbərliyi altında mürəkkəb bir təkamül prosesindən keçdi, dövlətin modenrləşdirilməsinə cəhd edildi [22, c.101].

SSRİ-nin milli siyasətinin formalaşmasına həmçinin onun xarici siyasətinin də mühüm təsiri olduğu fikrində olan araşdırmaçılar da az deyil. Onların qənaətinə görə, etnik qrupların, millətçiliyin dəstəklənməsi SSRİ-nin qərb sərhəddi ilə bölünmüş millətləri (ukraynalıları, belorusları, həmçinin polyakları, finləri, yəhudiləri), həmçinin Şərq xalqlarını sovet hakimiyyətinə cəlb edəcəyi, bununla da SSRİ-nin qərb və şərq qonşularına təsir imkanları artmış olacağı baxımından da xüsusi önəmli addım olmuşdur [17, c.58-59; 20, c.20-21]. Müəlliflərin bu yanaşması qurultayın açılış toplantısında SSRİ MİK və Azərbaycan SSR Xalq Komissarları Şurası adından qurultaya təbrik sözünü çatdıran Q.Musabəyovun sözləri ilə bir daha təsdiqini tapmış olur: *"... millətlərin öz müqəddəratını müəyyənləşdirmək şüarını irəli sürən Oktyabr inqilabı geridə qalmış türk-tatar xalqlarına dünya mədəniyyətinə, tərəqqiyə qoşulmaq imkanı vermişdir ... Türkoloji qurultay həmin elmi irəliləyişin möhkəm bünövrəsini qoymalıdır. Lakin bu bünövrənin ilk təməl daşı ... proletariatın böyük rəhbərinin yoldaş Leninin inqilabi təlimi olmalıdır... bu Türkoloji qurultay sərhəddin o biri tərəfində olan türk-tatar xalqları kütlələrinin birləşməsi və tam enerjilərilə bugünki məşəqqətli həyatlarının intibahına başlamaları üçün güclü təkan olacaqdır..."* [1, s.21].

Qeyd edilən prinsiplərə əsaslanan siyasət 1923-cü ilin aprelində RK(b) Partiyasının XII qurultayında və həmin ilin iyun ayında Mərkəzi Komitənin xüsusi iclasında təsdiq edilərək həyata keçirilməsinə başlanılmışdı. İlk illərdə "milliləşdirmə" adlandırılan bu siyasət, az sonra "yerliləşdirilmə" (коренизация) adı ilə həyata keçirildi. "Yerliləşdirmə" 1922-1937-ci illərdə sovet hakimiyyətinin əsas siyasi kampaniyalarından biri olmuşdu. Bu siyasətin mahiyyəti ondan ibarət idi ki, milli respublikalarda "gəlmə xalqlarla" müqayisədə yerli xalqlara üstünlük verilir, milli azlıqların nümayəndələri rəhbər vəzifələrə təyin edilir, milli muxtariyyətlər yaradılırdı. Rusiyalı araşdırmaçı Perepelkin bu siyasətin "böyük dövlət şovinizmi"nin (великодержавный шовинизм) aradan qaldırılması məqsədilə həyata keçirilirdiyi düşüncəsindədir. Təbii ki, bu kampaniyanın müsbət nəticələri oldu, lakin qısa zaman sonra çatışmazlıqlar da özünü göstərməyə başladı. Nəticədə, az əvvəl "zülm altında olan xalqlar"ın təəssübünü çəkən sovet hökumətində sinfi repressiyalar etnik təmizləmə siyasətinə çevrilmiş oldu. Bu baxımdan, amerikalı tarixçi Flora Roberts də araşdırmalarında qeyd edir ki, SSRİ-də milli quruculuğun mahiyyəti hər bir milli azlığa, kiçik olsa belə, öz ərazini vermək; əvvəllər olub-olmamasından asılı olmayaraq, vahid və standartlaşdırılmış milli dilin inkişaf etdirilməsi, həmin dildə geniş mədəni və təhsil proqramlarının həyata keçirilməsindən ibarət olsa da, "formaca milli, məzmunca sosialist" formulu Sovet İttifaqında istifadə edilən bütün dillərin hamısının eyni mesajları çatdıra biləcəyini vurğulayırdı: azlıqların dilləri, yerli adət-ənənələr, həyat və geyim tərzləri yalnız sosialist mahiyyətini daşımalı olan formalar idilər [23].

SSRİ-nin milli siyasətinin araşdırmaçıları bu siyasətdəki dalğalanmaları təsvir etmək üçün "sarkaç" (rus dilində "mayatnik", ingilis dilində "pendulum" – İ.Z., S.R.) metaforasından istifadə edirlər

(E.A.Pain, A.N.Şerbak vb.). Məsələn, Rusiya araşdırmaçısı K.Pain yazır ki, totalitar siyasi rejimlərdə dövlət idarəçiliyində subyektivliyin, siyasi özbaşınalığın təzahürü üçün böyük imkanların olması səbəbindən, SSRİ-nin milli siyasəti də kəskin "dalğalanmalara" məruz qalmışdır [18, c.64]. Belə ki, 1920-ci illərdə SSRİ Mərkəzi hökuməti "əvvəllər zülm altında olmuş xalqları" dəstəkləyirdisə, 1937-1938-ci illərdə "böyük terror" dövründə bunun tam əksi olaraq, etnik azlıqların sıxışdırılması siyasətinə keçildi. Amerikalı sosiloq R.Kollinzin "etnik mənsubiyyətin geosiyasi nəzəriyyəsi"nə əsaslanan Rusiya araşdırmaçıları hesab edirlər ki, SSRİ-nin milli siyasətinin "yumşaq dalğalarının" sovet tarixinin nisbətən dinc dövrlərində, "sərt dalğalarının" isə müharibə və münaqişə dövrlərində baş verdiyini düşünmək mümkündür [18, c.63].

SSRİ-nin milli siyasəti araşdırmaçıları arasında tamamilə ziddiyyətli fikirlərin olduğu görünməkdədir. Məsələn, Çeçen əsilli alman sovetoloqu Əbdürrəhman Avtorxanov "Kremlin imperiyası" kitabında Stalinin siyasətinin əsas məqsədinin "milli ucqarların təkrar müstəmləkəyə çevrilməsi", həmçinin ruslaşdırma və milli azlıqların assimilyasiyası olduğunu yazır [19]. Amerikalı tarixçi Terry Martin isə yuxarıda adı çəkilən araşdırmasında bunun tamamilə əksini, yəni SSRİ-də 1920-1930-cu illərdə milli azlıqlar üçün imtiyazlı şərait yaradıldığını qeyd edir. SSRİ-nin milli siyasətinin inkişafını sarkaç hərəkətlərinə bənzədiyini qeyd edən E.Pain isə, öz növbəsində, biri digərini istisna edən bu iki fikrin hər ikisində həqiqət olduğunu bildirir[*] [19].

Türkiyəli araşdırmaçı Fikret Türkmən qurultayın keçirildiyi günlərdə Qafqaz millətçilərinin yayın orqanı olan "Yeni Kafkasya" jurnalına istinadən yazır ki, *"qurultay, Sovetlər Birliyində yaşayan türklərə latın yazısına keçməyi diqtə etmək üçün Moskvanın hazırladığı bir komediyadır. Qurultaydan əvvəl latın əlifbasına keçilməsi ilə bağlı Moskvadan direktiv verilmişdi... qurultayda bununla bağlı qərar qəbul edilməsinə ehtiyac yoxdu. Qərar çox əvvəldən Moskvada qəbul edilmişdi"* [7, s.31]. Bununla bağlı, Türkmən daha sonra digər türkiyəli araşdırmaçı Mustafa Tökerə istinadən maraqlı bir məsələyə diqqət çəkərək yazır ki, *"Atatürk Fuad Köprülünü Bakıya göndərərkən, "imperialistlərin hərflərini qəbul etməyək, hazırda istifadə etdiyimiz hərflər üzərində israr edək" demişdi ... Amma Köprülü Bakıda latın hərflərinin qəbulu və ərəb əlifbasından imtina fikrini müdafiə edir... Türkiyəyə geri döndükdən sonra Atatürk onu bu münasibətlə təbrik etmişdi"* [7, s.31].

Ümumilikdə isə, araşdırmamızın bu hissəsini, Beynəlxalq Türk Akademiyası araşdırmaçılarının qənaəti ilə yekunlaşdırmaq istərdik: *"Bu dövrdə Sovet millət siyasətinin ehtiyacları ilə türk xalqlarının mədəni modernləşmə axtarışlarının kəsişdiyi mühit formalaşmış, dil islahatı, əlifba müzakirələri, standart yazı dili axtarışları və folklorun sistemli şəkildə toplanması I Türkoloji Qurultayın elmi bazasını hazırlamışdır* [4, s.19]. *... Bu illərdə əlifba müzakirələri texniki məsələ çərçivəsini aşaraq modernləşmə, sekulyarlaşma və milli kimlik müzakirələrinin simvolik göstəricisinə çevrilmişdi. Ərəb əlifbasından latın əlifbasına keçid həm sovet hakimiyyətinin ideoloji hədəfləri, həm də türk xalqlarının çağdaş dünyaya açılma istəyi ilə əlaqələndirilmişdi* [4, s.20].

Nəticə. Yuxarıda deyilənləri ümumiləşdirərək ilk olaraq qeyd edə bilərik ki, I Türkoloji qurultay həqiqətən də təsadüfi bir elmi toplantı deyil, dövrün siyasi reallıqlarının nəticəsi olaraq keçirilmişdir. Qurultayın keçirilməsində SSRİ Mərkəzi hökumətinin məqsədi – millətlərin loyallığını qazanmaq, onları öz təsir dairəsində saxlamaq idi. Qurultayda iştirak edən milli ziyalılarının (*mütləq çoxluq olmasa belə* - İ.Z., S.R.) məqsədi isə bu dövrü milli mədəniyyəti, dili və tarixi kimliyi qoruyub

[*] *Yuxarıda deyilənləri yekunlaşdıraraq qeyd etməyi lazım bilirik ki, etnosiyasi proseslərin dalğavari xarakteri yalnız SSRİ-də deyil, ümumilikdə dünya miqyasında bir çox məsələlərdə müşahidə olunur. Bu xarakter dövlətlərin milli siyasətində özünü daha aydın şəkildə göstərməkdədir. Belə ki, ziddiyyət istənilən dövlətin milli siyasətinin daxili təbiətində mövcuddur. Milli siyasət bir tərəfdən, universal qanunvericiliyin, yəni bütün subyektlər vəya vətəndaşlar üçün ümumi qanunvericiliyi qorunmasını təmin etməlidirsə, digər tərəfdən də əhalinin mədəni müxtəlifliyinin nəzərə alınmasına cavabdehlik daşıyır. Bu, antik dövrün klassik imperiyalarında da belə olub, yeni və müasir dövr imperiyalarında da belə olmuşdur. SSRİ-də bu baxımdan istisna olmamışdır. Haqqında bəhs edilən dövrdə SSRİ-nin milli siyasəti "yumşaq və sərt dalğalar arasında" hərəkət edən sarkaç kimi fəaliyyət göstərirdi. Yumşaq dalğa - yerliləşdirmə (korenizasiya, azlıqların hüquqları); sərt dalğa – ruslaşdırma, mərkəzləşdirilmiş assimilyasiya siyasətində özünü göstərirdi. Bu reaktiv dövr çoxmillətli dövlət quruculuğu prosesində yerli dillərin/mədəniyyətlərin təşviqi ilə birləşdirici qüvvə kimi rus dilinin və mədəniyyətinin tətbiq edilməsini nəzarətlə balanslaşdırmağa yönəlmişdi.* – İ.Z., S.R.

saxlamaq üçün fürsət görmələri idi. Bu baxımdan qurultayda mərkəzin təyin etdiyi "bolşevik çərçivəsi" ilə milli ziyalıların arzularının toqquşma və uzlaşma nöqtələrinin olması təsadüfi deyildi (məsələn, bolşeviklər latın qrafikasını inqilabi modernləşmə, beynəlmiləlləşmə və dünya inqilabına hazırlıq; milli ziyalılar isə milli özünüdərk məqsədilə dəstəkləyirdilər – İ.Z., S.R.)). Bu baxımdan, I Türkoloji qurultayı *"fərqli hədəflərin irəli sürüldüyü ortaq platforma"* olaraq da dəyərləndirmək mümkündür. Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev də qurultayın yubileyi münasibətilə Akademiya tərəfindən nəşr etdirilmiş "100 ilin ardından: Bakı Türkoloji qurultayı" kitabına yazdığı öz sözdə bu fikri bir daha təsdiq edir: *"Qurultay Türk dünyasının müxtəlif coğrafiyalarını təmsil edən alimləri vahid elmi platformada bir araya gətirmiş; dil, əlifba, folklor, tarix, ədəbiyyat və etnoqrafiya kimi sahələr üzrə aparılan müzakirələr vasitəsilə modernləşmənin elmi-fikri çərçivəsinin formalaşmasında mühüm rol oynamışdır. Qurultayda müzakirə edilən məsələlər türk xalqlarının öz dil və mədəni irsinə çağdaş elmi metodologiya əsasında yanaşmaq iradəsinin açıq ifadəsi kimi çıxış edir"* [4, s.10]. Burada incə 1 məqam da qeyd edilməlidir ki, Mərkəzi hökumət türk xalqlarını tamamilə bir-birindən təcrid etmək deyil, onları bir-birinə bağlı, lakin eyni zamanda bir-birindən asılı olmayan (məsələn, bir-birindən fərqlənən latın qrafikalı əlifbalara yönəltməklə, yerli dialektləri süni şəkildə ədəbi dilə çevrilməklə və s.), "formaca milli, məzmunca sosialist" modeli vasitəsilə idarə etməyə çalışırdı. Başqa sözlə, SSRİ Mərkəzi hökuməti bolşeviklər üçün təklükəli ola biləcək "ortaq türk kimliyi"ni məhv etməyə, onları "sovet-milli kimliyinə" transformasiya etməyə çalışırdı. "Parçalama" siyasəti Stalin dövrünün milli-dövlət quruculuğu prosesində də özünü açıq şəkildə göstərirdi: 30-cu illərin əvvəllərinə qədər türk adlandırılan millət sonradan azərbaycanlı, qazax, qırğız, özbək, türkmən və s. adlarla adlandırıldı. Bolşeviklərin "dünya inqilabının əlifbası latın əlifbası olmalıdır" yanaşması onların dünya proletarlarını birləşdirmək düşüncəsinin bir parçası idi və bu baxımdan, qurultay mahiyyəti etibarilə sadəcə "türkologiya toplantısı" deyil, tam da "sovet ideologiyasının beynəlxalq proyeksiyası, psixoloji müdafiə mexanizmi" hesab edilə bilər.

Bütün bu deyilənlər baxımından, I Türkoloji qurultayın Türk tarixinin ən paradoksal hadisələrindən biri olduğunu söyləsək, səhv etmiş olmayacağımızı düşünürük: Qurultayın rəsmi məqsədi sosialist mədəniyyətini inkişaf etdirmək olsa da, paradoksal olaraq, xalqların milli özünüdərk şüurunun yüksəlişi platformasına çevrildi:

(1) ***Elmi formulların siyasi hədəfləri*** – qurultay rəsmən elmi məqsədlər (dilçilik, əlifba) daşısa da, əslində Sovet İttifaqındakı türk xalqlarını İslam dünyasından, ərəb qrafikalı ortaq mədəniyyətdən qoparmaq, onları bir-birindən ayırmaq üçün düşünülmüş siyasi layihə idi.

(2) ***İştirakçıların qurultay sonrası faciəsi*** – qurultayda bir-birini kəskin tənqid edən tərəflər - həm "mütərəqqi latınçılar", həm də "mühafizəkar ərəb qrafikası tərəfdarları" fərq qoyulmadan 1930-cu illər repressiyalarının qurbanı oldular.

(3) ***"Ziddiyyətli inteqrasiya"*** – Qurultayda türk xalqlarını yaxınlaşdırmaq, ortaq dil bazası yaratmaq ideyaları irəli sürülsə də, qısa müddət sonra hər bir türk xalqı üçün süni şəkildə fərqli qrammatıka və əlifba sistemləri tətbiq edilməklə onlar bir-birindən daha da uzaqlaşdırıldılar.

(4) ***Milli kimliyin inkarı*** – Qurultayda ortaq türk ədəbi dili məsələsi müzakirə edilsə də, "pantürkizm təhlükəsi"ndən ehtiyat edən sovet rejimi türk xalqlarının keçmiş ortaq ədəbi dil mirasını *(məsələn, Cağatay və ya Osmanlı türkcəsi zəminində)* "burjua və feodal qalığı" elan etdi.

Məqalənin əvvəlində qeyd etdiyimiz daha 1 məsələyə aydınlıq gətirmək istərdik. Qurultayla bağlı əks fikirlərin irəli sürülməsi hər zaman sırf subyektiv səbəblərlə bağlı olmamışdır. Belə ki, qurultayın müasiri milli ziyalılar (məsələn, B.Çobanzadə və d.) hadisələrlə bağlı dövrün ideoloji tələbləri, "cəsarətli ümidlər", sosialist modernləşməsinin vəd etdiyi illüziyalar kontekstində; hadisənin post-faktum araşdırmaçıları isə nəticələrə əsasən mülahizələr irəli sürmüşlər və bu baxımdan hər müəllifin "özünə görə haqlı" olduğunu düşünmək mümkündür. Azərbaycanlı türkoloq Tofiq Hacıyevin qeyd etdiyi kimi, *"... qurultay nümayəndələri rus hökumət dairələrinin türkün taleyinə hazırladığı dramın səhnəarxası faciə məzmunundan xəbərsiz idilər"* [2, s.137]. "Səhnəarxası faciə"nin konkret nəticələri isə özünü çox gözlətmədi: 1929-1930-cu illərdə qurultayın iştirakçılarına qarşı repressiyalar həyata keçirildi; latınlaşma azaldıldı, proqnozlaşdırılan "tərəqqinin geridönüşü" baş verdi; ideoloji qadağalar artdı və ən əsası da, türkologiya məqsədli şəkildə tamamən dilçilik məcrasına yönəldildi.

Təəssüf ki, hətta 35-ci ilini yaşadığımız müstəqilliyimiz dövründə belə, türkoloq deyərkən hələ də dilçi alimlərimizdən, onların araşdırmalarından bəhs edilməkdədir [2, s.145].

Son olaraq qeyd edək ki, Türkoloji qurultayın əhəmiyyətindən bəhs edərkən, ilk növbədə, fikrimizcə, onun türk xalqları arasında milli kimliyin və mədəni oyanışın inkişafında fundamental bir mərhələyə çevrilməsi, dövrün aparıcı ziyalılarını birləşdirdiyi qeyd edilməlidir. Qazaxıstan Yazıçılar Birliyinin sədri Mereke Kulkenov haqlı olaraq bildirir ki, *"... 100 il əvvəl keçirilən bu qurultay türk xalqlarının ilk dəfə olaraq bir-birini yaxın, qardaş kimi tanıdığını, dillərinin bir-birini dəstəkləyən və zənginləşdirən sistemlər olduğunu bəyan etdiyi ilk zirvə olub"* [3]. Belə ki, müasir türk xalqları arasında elmi, ədəbi və akademik əməkdaşlığın dərinləşdirilməsi üçün bir model təqdim etmiş olan I Türkoloji qurultayda qaldırılan ortaq türk əlifbası, ortaq türk dili, ortaq türk tarixi, ortaq türk ədəbiyyatı, ortaq türk terminologiyası kimi məsələlər, üzərindən 100 il keçməsinə baxmayaraq, günümüzdə də müvafiq sahə mütəxəssisləri üçün bir növ yol xəritəsi əhəmiyyətini daşımaqdadır. Bu mənada araşdırmamızı yenə də Beynəxlaq Türk Akademiyası tərəfindən nəşr edilmiş kitabdan bir fikirlə tamamlamaq istərdik: "*Nəticə etibarilə, I Türkoloji Qurultay təkcə öz dövrünə aid elmi toplantı deyil, Türk dünyasının müasir kimliyinin formalaşmasında, dil siyasətlərində və mədəni istiqamətərində dərin izlər buraxmış tarixi dövrdür. Qurultay elmi izahın siyasi təzyiqlərlə iç-içə keçdiyi bir çağda belə türk dilinin və mədəniyyətlərinin bütöv şəkildə tədqiq oluna biləcəyini nümayiş etdirmişdi. Təsirləri bəzən sürətlə ortaya çıxmış, bəzən basdırılmış, lakin uzunmüddətli perspektivdə qalıcı olmuşdur. Aradan keçən 100 ildən sonra da Qurultayın mirası həm akademik tədqiqatlarda, həm də Türk dünyasının mədəni inteqrasiya axtarışlarında hələ də istiqamətverici rol oynamaqdadır*" [4, s.25].

ƏDƏBİYYAT

1. 1926-cı il I Bakı Türkoloji qurultayı (Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri: Kamil Vəli Nərimanoğlu, Əliheydər Ağakişiyev. Bakı, Çinar-Çap, 2006, 570 s.
2. İbrahim Zeynalov, Sevinc Ruintən. SSRİ Mərkəzi hökumətinin milli siyasəti kontekstində I Türkoloji qurultaya baxış / I Türkoloji qurultayın 100 illik yubileyinə həsr olunmuş "Türk dilləri, ədəbiyyatları və tarixlərinin tədrisi müasir çağırışlar kontekstində" beynəlxalq elmi konfransın materialları. Bakı, 29-30 iyun 2026. Bakı, BDU Nəşr Evi, 2026, s.134-148.
3. Merkele Kulkenov repressiyaya məruz qalan Birinci Türkoloji Qurultay iştirakçılarından danışdı. - https://www.youtube.com/watch?v=7Se7ibmLbOc [18.06.2026].
4. 100 Yılın Ardından: Bakü Türkoloji Kurultayı. Astana: Türk Akademiyası, 2026. – 376 s. - https://turkicacademy.org/izdaniya/kniga/100-ilin-ardindan-baki-turkoloji-qurultayi [18.06.2026].
5.Belgeler Işığında 1926 Birinci Bakü Türkoloji Kurultayı. Astana, Uluslarası Türk Akademisi, 2026, 496 s. - https://turkicacademy.org/izdaniya/kniga/pervyj-tyurkologicheskij-sezd-1926-goda-v-baku-v-svete-arhivnyh-dokumentov-belgeler-isiginda-1926-birinci-baku-turkoloji-kurultayi [18.06.2026].
6. Prof.Dr. Şahin Mustafayev: "Birinci Türkoloji Kurultayı, Türk Halklarının Latin Alfabesine Geçisi Gibi Önemli Bir Görevin Üstesinden Gelmiştir" / Turkic Academy, 28.02.2026. - https://turkicacademy.org/tu/meropriyatie/profdr-sahin-mustafayev-birinci-turkoliji-kurultay-turk-halklarinin-latin-alfabesine-gecisi-gibi-onemli-bir-gorevin-ustesinden-gelmistir [18.06.2026].
7. Fikret Türkmen. 1926, Bakü I. Türkoloji Kongresinin Öncesi ve Sonrasında Türkiyede Yapılan Çalışmalar / I Türkoloji qurultayın 90 illiyinə həsr olunmuş Beynəlxalq konfransın materialları: Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar. I hissə. 14-15 noyabr 2016-cı il. Bakı, Elm və təhsil, 2016, s.29-33. – https://dilcilik.az/kitabxana/arasdirmalar/I-cild.pdf [18.06.2026].
8.Алфавит Октября. Итоги введения нового алфавита среди народов РСФСР: сборник статей / под общ.ред. Н.Нурмакова; Центр. ком. нов. алф. при Президиуме ВЦИК. - М.; Л.: Власть советов, 1934. - 165 с. : табл. - https://www.flickr.com/photos/112083457@N03/30794274344/in/album-72157677726080666/ [18.06.2026].

9. Артеев А., Хлыбов Е. На «алфавит Октября» / Регион, Ежемесячный журнал о Республике Коми, 01.10.2018. - https://ourreg.ru/2018/10/01/na-alfavit-oktjabrja/ [18.06.2026].
10. Атаев Т.О. Политический подтекст латинизации письменности. - https://idmedina.ru/books/materials/faizhanov/4/world_ataev.htm#_ftn10 [18.06.2026].
11.Васильев А.Д. Аэроплан «Октябрьский алфавит»… Астана, «Гылым» баспасы, 2016, 682с.
12. Гаврилова В.В. Национально-государственное строительство в СССР как продолжение царской национальной политики // Пермский Государственный Архив социально-политической истории. - https://www.permgaspi.ru [18.06.2026]..
13. Декреты Советской власти. Т.1. 25 октября 1917 г. – 16 марта 1918 г. / Ин-т марксизма-ленинизма при ЦК КПСС, Ин-т истории акад. Наук СССР. Москва, Политиздат, 1957, 640 с. - https://docs.historyrussia.org/ru/nodes/9057#mode/inspect/page/57/zoom/4 [18.06.2026].
14. Дмитриев Сергей. Латинизация русского языка. К истории одной загадки // Литературная газета, 21 августа 2025 г. - https://lgz.ru/article/latinizatsiya-russkogo-yazyka-k-istorii-odnoy-zagadki/ [18.06.2026].
15.Дятленко П. Языковые реформы в Центральной Азии: тренды – цели – итоги // Вестник Евразии, 2008, №4, с.80-109. - https://cyberleninka.ru/article/n/yazykovye-reformy-v-tsentralnoy-azii-trendy-tseli-itogi [18.06.2026].
16. Ермаков А.В. Русская латиница – нонсенс или закономерность развития? / Текст в культурном, историческом, языковом пространстве: материалы Международной заочной научно-практической конференции. Москва, 19 марта 2017 года. Москва, Московский финансово-юридический университет МФЮА, 2017, с.131-135.
17. Миллер А.И. Советское наследие «империи положительного действия» // журнал «Политическая наука», 2004, №3, с.57-69. - https://cyberleninka.ru/article/n/sovetskoe-nasledie-imperii-polozhitelnogo-deystviya/viewer [18.06.2026].
18. Паин Э.А. «Этнополитический маятник» и его проявления в политике государственного сталинского антисемитизма в СССР // Koinon, Том 2. №1, 2021, с.61-80. - DOI: 10.15826/koinon.2021.02.1.003. - https://journals.urfu.ru/index.php/koinon/article/view/5259 [18.06.2026].
19. Паин Э. Маятник национальной политики: от коренизации к этническим чисткам // МБХ медиа, 20.11.2019. - https://mbk-news.appspot.com/sences/mayatnik-nacionalnoj-politiki/ [18.06.2026].
20. Терри Мартин. Империя положительной деятельности. Нации и национализм в СССР, 1923-1929. Москва, РОССПЭН, Фонд «Президентский центр Б.Н.Ельцина», 2011, 855 с. - https://history.org.ua/LiberUA/978-5-8243-1523-3/978-5-8243-1523-3.pdf [18.06.2026].
21. Первый Всесоюзный тюркологический съезд. 26 февраля – 5 марта 1926 г. (Стенографический отчет). Баку, «Нагыл Еви», 2011, 552 с.
22. Тульчинский Г.Л. Национальная политика как фактор создания и распада СССР // Вопросы философии, 2021, №12, с.101–111. - https://publications.hse.ru/pubs/share/direct/559569379.pdf [18.06.2026].
23. Flora Roberts. Soviet Policy on Nationalities, 1920s-1930s. – Uchicago Library, Aug.22, 2011. - https://www.lib.uchicago.edu/collex/exhibits/soviet-imaginary/socialism-nations/soviet-policy-nationalities-1920s-1930s/ [18.06.2026].
24. Sean Waite. Assessing Soviet nationality policy: a state vested with the power to define, build and destroy nations / Published on 18th August, 2020. - https://britishonlinearchives.com/posts/category/articles/377/assessing-soviet-nationality-policy-a-state-vested-with-the-power-to-define-build-and-destroy-nations#:~:text=Lenin%20devised%20the%20'Soviet%20nationality,form%2C%20socialism%20in%20content'. [18.06.2026].

ИБРАГИМ ЗЕЙНАЛОВ
Декан исторического факультета Бакинского государственного университета,
Доктор исторических наук, профессор

СЕВИНДЖ РУИНТАН
Доцент кафедры истории тюркских народов Бакинского государственного университета,
Доктор философии по истории

ИСТОРИЧЕСКИЙ КОНТЕКСТ ПЕРВОГО ТЮРКЛОГИЧЕСКОГО СЪЕЗДА

В 2026 году во всем тюркском мире отмечается столетие Первого тюркологического конгресса. Несомненно, это одно из самых парадоксальных событий в тюркской истории: конгресс, несмотря на то, что был призван служить политическим целям большевиков, в частности, процессу советизации, также оказал долгосрочное влияние на развитие тюркологии в научной сфере. Учитывая существование многочисленных, зачастую взаимоисключающих, интерпретаций в научной и исторической литературе относительно его природы и значения, например, что он был «средством борьбы против западного империализма»; что он превратил тюркологию из «колониального политического инструмента» в науку, служащую социалистическому строительству; что его целью было разорвать связь между тюркскими народами и отчуждать их от собственной истории; или что он был «не просто научным конгрессом, а международной проекцией советской идеологии», настоящая статья рассматривает этот вопрос посредством сравнительного анализа. Конгресс представлен как точка пересечения советской идеологической политики «управляемой модернизации» и усилий по интеллектуальному возрождению тюркской интеллигенции.

В статье утверждается, что Конгресс был не «просто научным собранием», а скорее функционировал как «идеологическая лаборатория» центрального советского правительства, ориентированная на цель мировой революции. В исследовании используются стенографические записи Тюркологического конгресса на русском и азербайджанском языках, тома «Спустя 100 лет: Бакинский тюркологический конгресс» и «Первый Бакинский тюркологический конгресс 1926 года в свете документов», опубликованные Международной тюркской академией в 2026 году по случаю столетия конгресса, а также существующая научная и историческая литература.

В заключение исследования делается вывод, что с точки зрения заявленных целей, задач и последующих последствий Первый тюркологический конгресс в определенном смысле можно рассматривать как «троянского коня» в рамках национальной политики центрального советского правительства. В свете этих соображений, настоящая статья задумана не просто как юбилейное издание, но и как руководство для исследователей, стремящихся более точно и всесторонне понять архитектуру советской национальной политики.

Ключевые слова: Первый тюркологический конгресс, национальная политика центрального советского правительства, «империя позитивной дискриминации», «троянский конь» национальной политики центрального советского правительства.

IBRAHIM ZEYNALOV
Dean of the Faculty of History, Baku State University,
Doctor of Historical Sciences, Professor

SEVINJ RUINTAN
Associate Professor of the Department of History of Turkic Peoples, Baku State University,
Doctor of Philosophy in History

HISTORICAL CONTEXT OF THE FIRST TURKOLOGICAL CONGRESS

In 2026, the centenary of the First Turkological Congress is being commemorated throughout the Turkic world. Undoubtedly one of the most paradoxical events in Turkic history, the Congress, despite having been intended to serve the Bolsheviks' political objectives particularly the Sovietiza-

tion process-also produced long-term scholarly consequences for the development of Turkology. Given the existence of numerous, and often mutually contradictory, interpretations in the scholarly and historical literature regarding its nature and significance for example, that it was "a means of struggle against Western imperialism"; that it transformed Turkology from a "colonialist political instrument" into a science serving socialist construction; that its purpose was to sever communication among Turkic peoples and alienate them from their own history; or that it was "not merely a scholarly congress, but an international projection of Soviet ideology" the present article examines the issue through a comparative analysis. The Congress is presented as a point of intersection between the Soviet ideological policy of "managed modernization" and the intellectual revival efforts of Turkic intellectuals.

The article argues that the Congress was not "merely a scholarly gathering", but rather functioned as an "ideological laboratory" of the central Soviet government, oriented toward the goal of world revolution. The study draws upon the Russian and Azerbaijani language stenographic records of the Turkological Congress, the volumes "After 100 Years: The Baku Turkological Congress" and "The First Baku Turkological Congress of 1926 in the Light of Documents", published by the International Turkic Academy in 2026 on the occasion of the centenary of the Congress, as well as the existing scholarly and historical literature.

The study concludes that, in terms of its stated objectives, goals, and subsequent consequences, the First Turkological Congress may, in a certain sense, be regarded as a "Trojan horse" within the nationalities policy of the central Soviet government. In light of these considerations, the present article is intended not merely as a commemorative centenary publication, but also as a guide for researchers seeking to understand the architecture of Soviet nationalities policy more accurately and comprehensively.

Keywords: First Turkological Congress; nationalities policy of the central Soviet government; "affirmative discrimination empire"; "Trojan horse" in Soviet nationalities policy.

Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilib.

I Türkoloji qurultay - 100



UOT 94(479.24); UOT 94

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsinin sədri, akademik
Naxçıvan Dövlət Universitetinin professoru
haciyev.i1951@gmail.com

BİRİNCİ TÜRKOLOJİ QURULTAY: TÜRK XALQLARININ MƏDƏNİ HƏYATINDA BAŞ VERMİŞ ƏLAMƏTDAR HADİSƏ KİMİ

DOI: https://doi.org/10.36719/2708-065X/114/16-24

Məqalədə 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın keçirilməsi zərurəti, qurultayın keçirilməsi, tərkibi, müzakirə olunan məsələlər, qəbul edilən qərarlar, bunların tarixi əhəmiyyəti faktik materiallar əsasında araşdırılmışdır. Aydın olur ki, Qurultayın iclaslarında türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası, mədəniyyəti müzakirə edilmişdir. Qurultayda latın qrafikalı əlifbaya keçidin elmi-metodik prinsipləri ətraflı şəkildə işlənib hazırlanmışdır. Beləliklə, məlum olur ki, Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşüb. Çünki Bakı Türkoloji Qurultayı yalnız dilçilik hadisəsi olmamış, türk dünyasının elmi və mədəni birliyinin formalaşmasında xüsusi rol oynamışdır.

Açar sözlər: Türkoloji Qurultay, türk xalqları, Bakı, ortaq əlifba, ortaq dil, terminologiya, tarix, mədəniyyət.

Giriş. Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay əhatə dairəsinə, müzakirə olunan məsələlərin əhəmiyyətinə, türk xalqlarının qarşısında duran vacib məsələlərin müzakirəsinin aparılması və mühüm qərarların qəbul edilməsinə, həm də bir mədəniyyət hadisəsinə görə böyük tarixi əhəmiyyəti olmuşdur. Birinci Türkoloji Qurultay XX əsrdə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşmüşdür.

Qurultay türk xalqlarının tarixində ilk böyük miqyaslı beynəlxalq tədbir idi. Burada türk xalqları üçün mühüm əhəmiyyət daşıyan əlifba, dil, ədəbiyyat, tarix, folklor, etnoqrafiya məsələləri sistemli şəkildə müzakirə olunmuşdur. Qurultay türk xalqlarının milli özünüdərk prosesini gücləndirmişdir. Qurultay türk xalqlarının ortaq köklərə, dil ailəsinə və mədəni dəyərlərə malik olduğunu ortaya qoymuşdur. Latın qrafikalı əlifbaya keçid məsələsinin müzakirəsi və bu istiqamətdə qəbul edilən qərarlar sonrakı illərdə türk xalqlarının mədəni inkişafına böyük təsir göstərmişdir. Keçirilən Qurultay türk xalqları arasında elmi və mədəni həmrəyliyin əsasını qoydu. Nəticədə sonrakı illərdə türk dünyasında keçirilən ortaq konfranslar, müəyyən edilmiş elmi layihələr və mədəni proqramlar həmin ənənənin davamı kimi dəyərləndirilə bilər. Birinci Türkoloji Qurultay təkcə elmi hadisə deyil, türk dünyasının intellektual birliyinin rəmzidir, ortaq gələcəyimizin elmi təməlidir.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Birinci Türkoloji Qurultayın 100 illiyinin dövlət səviyyəsində qeyd olunması haqqında sənədin imzalanması türkoloji irsə və ümumilikdə türk

dünyasının ortaq elmi-mədəni dəyərlərinə verilən böyük önəmin ifadəsidir. Qurultayın türk xalqlarının həyatında və inkişafındakı əhəmiyyətini xüsusi vurğulayan Sərəncamda deyilir: "Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır".

1926-cı il 26 fevral – 6 mart tarixlərdə keçirilən Qurultay həm elmi, həm siyasi cəhətdən böyük əhəmiyyət daşıyırdı. Qurultay türk xalqlarının tarixində ilk bu cür geniş miqyaslı tədbir idi və Azərbaycanın türkoloji mərkəzə çevrilməsinə imkan yaratdı. Həmçinin sonrakı dövrlərdə aparılan araşdırmalar üçün də bir mənbə rolunu oynadı. 131 nəfər nümayəndənin iştirak etdiyi qurultayda 17 iclas keçirilmiş və Türk dünyasının dilinə, əlifbasına, tarixinə, etnogenezinə, etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə həsr olunmuş 38 məruzə dinlənilmişdir.

Birinci Türkoloji Qurultay türk xalqlarının inteqrasiyası, inkişafı, Türk dünyası birliyi üçün mühüm tədbir idi və çox böyük milli özünüdərk, milli dirçəliş mərhələsi kimi yadda qaldı.

Birinci Türkoloji Qurultayın təşkili, tərkibi və keçirilməsi. 1925-ci ilin avqustunda SSRİ Xalq Komissarları Soveti Ümumittifaq Türkoloji Qurultayının çağırılması haqqında qərar qəbul etdi. İlk dəfə qurultayın çağırılması məsələsi hələ bir il əvvəl Azərbaycan SSR hökuməti tərəfindən SSRİ rəhbərliyinə təqdim edilmişdir. SSRİ hökumətinin Türkoloji Qurultayın çağırılması barədə qərarından altı ay əvvəl latın əlifbasına keçilməsi məsələlərinin həll edilməsi zərurəti birinci Azərbaycan Yerli Diyarşünaslıq Qurultayında və SSRİ Elmlər Akademiyasının və Ümumittifaq Şərqşünaslıq Birliyində qaldırılmışdı (Birinci, 2016: 52).

SSRİ XKS-in qərarı ilə Qurultayın çağırılmasına hazırlıq üzrə təşkilat komitəsi yaradıldı. Təşkilat Komitəsinin tərkibinə Səməd Ağamalıoğlu (sədr), M.Pavloviç, Həbib Cəbiyev, Vasili Bartold, Aleksandr Samoyloviç, Cəlaləddin Qorxmazov, Q.Broydo, Tyuryakulov, Zifeld, Fitred, Bəkir Çobanzadə, Aşmarin, Odabaş, Novşirvano, Əhməd Baytursunov, Yusifzadə seçildilər.

Azərbaycanda Yeni Türk Əlifbası (YTƏ) Komitəsi yaradılmışdı. YTƏ Komitəsinin fəaliyyəti və savadsızlığın ləğv edilməsi sahəsində əldə edilən uğurlar Sovet İttifaqının ərəb əlifbasından istifadə edən digər xalqları içərisində maraq oyatdı. YTƏ Komitələri Dağıstan, Qaraqalpaq Muxtar Respublikasında və digər yerlərdə təşkil olundu. Əlifba məsələsini müzakirə etmək üçün türkdilli xalqların qurultayını çağırmaq zərurəti meydana çıxdı. Azərbaycan YTƏ Komitəsi "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" ilə birlikdə ilk türkoloji qurultay çağırmaq qərarına gəldi. Hökumət onun keçirilməsinə 100 min manatadək pul ayırdı (ARDA, 3-4).

Qurultayın keçirilməsi üçün müxtəlif şəhərlər müzakirə olunsa da, üstünlük Bakı şəhərinə verilmişdi. Birinci Türkoloji Qurultayın Bakıda keçirilməsi tamamilə qanunauyğun idi, çünki həmin dövrdə bir çox elmi-mədəni sahələrdə olduğu kimi türkologiya elmində də Azərbaycan öndə gedirdi. Ölkədə bu istiqamətdə tanınmış və nüfuzlu söz sahibləri, elm adamları çoxdan bəri səmərəli fəaliyyət göstərirdi. Yeni əlifbanın qəbulu ilk dəfə burada gerçəkləşdirilmiş, 20-ci illərin əvvəllərindən başlayaraq həmin sahədə artıq müəyyən təcrübə də qazanılmışdı. Azərbaycan paytaxtında digər türk respublikalarındakı ilə müqayisə olunmayacaq qədər inkişaf etmiş elmi-türkoloji mühit formalaşmışdı. Başqa bir səbəb isə Azərbaycanın "Şərqin qapısı" olması idi. Burada baş verən hər bir hadisə ən azı həm İranda, həm də Türkiyədə görünür, bütövlükdə isə Şərq xalqlarının diqqətini çəkirdi (525-ci qəzet, 2025: 8.7).

Qurultay Şərqdə birinci olaraq ərəb əlifbasını latın qrafikası ilə əvəz etməyə təşəbbüs göstərmiş Azərbaycan paytaxtı Bakıda, İsmailiyyə binasında 1926-cı ilin fevralın 26-da açıldı (Azərbaycan tarixi, 2008: 231). Fevralın 26-dan martın 5-dək davam edən qurultayda 131 nümayəndə (93 nəfəri türk dilli idi, 20 nəfəri beynəlxalq elmi ictimaiyyətinin nümayəndəsi) iştirak etmiş, 17 iclas keçirilmiş, Türk dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdir (I Türkoloji, 2016: 21). Qurultayda Sovetlər Birliyində yaşayan türk dilli xalqların əksəriyyəti təmsil olunmuşdur. Birinci Ümumittifaq Türkoloji Qurultayda ölkələr üzrə iştirak edən nümayəndələr aşağıdakı kimidir:

Azərbaycan – 22 nəfər (o cümlədən 3 nəfər Naxçıvandan), Krım – 6 nəfər, Tatarıstan – 8 nəfər, Rusiya Federasiyası – 26 nəfər, Türkmənistan – 5 nəfər, Qazaxıstan – 2 nəfər, Dağıstan – 6 nəfər, Başqırdıstan – 5 nəfər, Özbəkistan – 11 nəfər, Adıgey vilayəti – 2 nəfər, Türkiyə Cümhuriyyəti – 5 nəfər, Gürcüstan – 6 nəfər, Şimali Osetiya – 3 nəfər, Rostov – 3 nəfər, Yakutiya – 2 nəfər, Ermənistan – 2 nəfər, Qaraçay, Ukrayna, Xakasiya, Kislovodsk, Çuvaş, Çeboksarı, Abxaziya, Çeçenistan, Həştərxan, Oyrat diyarı, Almaniyanın hər birindən 1 nəfər (cəmi 11 nəfər) (Məmmədli, 2026: 46-50).

Qurultayda Azərbaycan nümayəndələri aşağıdakılar idi: Səmədağa Ağamalıoğlu, Mustafa Quliyev, Əhməd Repinov, Bəkir Çobanzadə, Ruhulla Axundov, Fərhad Ağazadə, Nikolay Aşmarin, Aziz Ubeydullin, Həbib Cəbiyev, Hənəfi Zeynallı, Artur Zilfeldt, Müseyib İlyasov, Pənah Qasımov, Cabbar Məmmədzadə, Cəlil Məmmədquluzadə, Həsən Musayev, Hüseyn Musayev (Naxçıvan), Xurşid Fərid, Xalid Xocayev, İbrahim Şəbüstəri (Naxçıvan), Ayna Sultanova, Həmid Sultanov (Naxçıvan) (Məmmədli, 2026: 46-47).

Moskva və Sankt-Peterburqdan görkəmli şərqşünaslar S.R.Oldenberq, A.N.Samoyloviç, M.P. Pavloviç, P.N.Poppe və b., Berlin və Kildən Radebolt Valter, Menzel Teodor Teodoroviç, Türkiyədən Mehmet Fuad Köprülüzadə qurultayın işində iştirak edirdilər (Azərbaycan tarixi, 2008: 231).

İclasa Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlu sədrlik etmişdir. Qurultayı o açmış, Sovet Sosialist Azərbaycanında ilk Türkoloji Qurultayın təntənəli iclasını açıq elan etmişdir. Teodor Menzel Səmədağa Ağamalıoğlunu belə xarakterizə edir: Rəsmi təhsili yüksək olmasa da, müdrik baxışlara, zəhmli idarəçilik qabiliyyətinə, parlament etikasına, hakimiyyətə malik idi. Latın əlifbasına olan fanatik simpatiyasına baxmayaraq, hər zaman obyektiv və məsuliyyətli davranırdı (Məmmədli; 2026: 55).

Qurultayın açılışında Səmədağa Ağamalıoğlu demişdir: "...birbaşa məsələyə keçmədən əvvəl sizə məlumat verməliyəm ki, əvvəlcə xan istibdadı və məsuliyyətsiz feodallar sistemi, daha sonra isə rus çarizmi tərəfindən incidilən Azərbaycan ilk dəfədir ki, tarixi fəaliyyət səhnəsinə taleyini öz arzularına uyğun şəkildə qurub-yaradan azad xalq kimi qədəm qoyur. Və əgər azərbaycanlılar, türkmənlər, özbəklər, keçmiş Romanov imperiyasının bütün kiçik xalqları mövcud olmağa, düşünməyə, asudə nəfəs almağa başlamışlarsa, bu, Böyük Oktyabr inqilabının iradəsilə baş verib... Azərbaycanlılar onların bəxtinə düşən və dünyada ilk türkoloji qurultayın onların doğma torpağında açılmasından ibarət olan səadəti qiymətləndirməyi bacaracaqlar... Mənə elə gəlir ki, indiyədək heç bir elmi qurultay geniş zəhmətkeş kütlələrinin diqqətini bu qədər cəlb etməyib. İlk dəfədir ki, biz bu cür qurultaya xalq kütləsinin belə möhtəşəm diqqəti ilə rastlaşırıq və bu da qurultayda baxılan və həll edilən məsələlərin türk-tatar xalqları üçün əməli baxımdan nə qədər canlı olduğunu göstərir" (525-ci qəzet, 2025: 8.7.).

Qurultayın gündəliyindəki ilk məsələ təşkilati məsələlərlə bağlı idi. Rəyasət Heyətinin tərkibi, Rəyasət Heyətinin fəxri üzvləri, mandat komissiyası, redaksiya komissiyası, katibliyin seçilməsi üçün söz Əbdül Cabbarova verilmişdir. Uyğun olaraq 22 nəfər, 6 nəfər, 5 nəfər, 6 nəfər və 5 nəfərin namizədlikləri irəli sürülmüş və onlar yekdilliklə seçilmişlər (Первый, 2011: 9-11).

SSRİ və Azərbaycan SSR hökuməti adından qurultayı təbrik edən Qəzənfər Musabəyov demişdir: "Millətlərin öz müqəddəratlarını müəyyənləşdirmək şüarını irəli sürən Oktyabr İnqilabı geridə qalmış türk-tatar xalqlarına dünya mədəniyyətinə, tərəqqiyə qoşulmaq imkanı vermişdir. Həqiqətən də, biz bu xalqların mədəniyyət sahəsində qüdrətli irəliləyişinin şahidiyik. Türkoloji Qurultay həmin elmi irəliləyişin möhkəm bünövrəsini qoymalıdır" (Первый, 2011: 12).

O, hakimiyyətin Qurultay qarşısına qoyduğu ən mühüm vəzifələri aşağıdakı şəkildə göstərmişdir:

"...Birinci – sovet ərazisindən kənarda olan elmi-mədəni aləmlə səciyyəvi, sıx və bilavasitə əlaqələr; ikincisi – yerli diyarşünaslıq cəmiyyətinə onun elmi fəaliyyət axarına yönəldilməsi sahəsində yardım göstərilməsi; üçüncüsü – türk-tatar xalqlarının sosial-siyasi həyatının və onların inqilabi hərəkat tarixinin son dərəcə diqqətlə araşdırılması" (Первый, 2011: 13).

SSRİ MİK nəzdində yaradılmış Ümumittifaq Şərqşünaslıq Assosiasiyasının rəhbəri Nikolay Pavloviç Birinci Türkoloji Qurultayın məhz Azərbaycanda keçirilməsini, eləcə də ona (Qurultaya)

hakimiyyətin verdiyi önəmi qiymətləndirərək demişdi: "Bu Qurultayın böyük Sovet İttifaqının tərkibinə daxil olan Azərbaycan Respublikasında çağırılması da Sovet hakimiyyətinin, fəhlə-kəndli hakimiyyətinin milli siyasətinin prinsiplərinin böyüklüyünə sübutdur, yoxsa belə bir Qurultay hər hansı başqa ölkədə ola bilərdimi? Məgər siz Sovet İttifaqından kənarda Bartold, Elmlər Akademiyasının nümayəndələri Oldenburq, Krımski və b. elm nəhənglərinin savadsızlığı aradan götürməyə kömək edə biləcək bütün yolları müzakirə etmək üçün zəhmətkeş kütlələrinin nümayəndələri ilə birlikdə toplaşdığı başqa bir qurultay görmüsünüzmü?" (525-ci qəzet, 2025: 8.7).

Milli siyasətin bu və ya digər dövlətin taleyində ölüm-qalım məsələsi olduğunu xatırladan N.Pavloviç çarizmin çökməsindən nəinki məzlum xalqların, elə rusların özlərinin də xilas olduğunu nəzərə çarpdırmışdı.

Zaqafqaziya hökumətinin üzvü Mirzə Davud Hüseynovun çıxışı türk xalqlarının Sovetlər Birliyindəki coğrafi, sosial-siyasi və mədəni yeri, çəkisi, əhəmiyyəti barədə Qurultaya verilmiş bir mesaj idi. Qurultay rus-sovet şovinizminin təsiri altında keçirilsəydi M.D.Hüseynov açıq danışa bilməzdi.

Qurultayda dinlənilən məruzələr və müzakirə olunan məsələlər. Birinci Türkoloji Qurultay XX əsrin əvvəllərində türkoloji elmi-mədəni mühitin ən aktual məsələlərinə: dilçilik, latın əlifbası, orfoqrafiya, tarix, ədəbiyyat, folklor, incəsənət, etnoqrafiya, terminologiya, metodika sahələrində ən aktual problemlərin həllinə, mövcud səviyyəsinə və inkişaf etdirilməsi yollarına işıq salan mühüm baxışlar sisteminin əməli-nəzəri ifadəsidir.

Qurultayın gedişində 38 elmi məruzə edilmişdir. Onlar arasında bəziləri xüsusi diqqəti cəlb edir. Belə ki, V.V.Bartold "Türk xalqlarının tarixinin müasir vəziyyəti və öyrənilməsinin yaxın vəzifələri, S.F.Oldenberq "Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları", A.A.Miller "Türk xalqlarının təsviri sənəti haqqında", F.M.Köprülüzadə "Türk xalqlarının ədəbi dillərinin inkişafı", A.N.Samoyloviç "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri", B.V.Çobanzadə "Türk ləhcələrinin yaxın qohumluğu haqqında", H.B.Zeynallı "Türk dillərində elmi terminologiya sistemi haqqında", S.Y.Malov "Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri", F.R.Ağazadə "Türk dillərində düzgün yazı", N.F.Yakovlev "Türk millətlərinin sosial və mədəni şəraitləri ilə bağlı əlifba sisteminin qurulması problemləri", C.M.Məmmədquluzadə "Türk xalqlarının əlifba sistemləri haqqında", N.N.Poppe "Türk dillərinin altay dilləri ilə qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti", T.T.Menzel "Balkan türkləri ədəbiyyatının öyrənilməsinin yekunları və perspektivləri", A.Ş.Şərəf "Ərəb və latın sistemli şriftlər və onların türk-tatar xalqları üçün tətbiqi məsələləri" və b.

Birinci Bakı Türkoloji Qurultayında türk dillərinin aşağıdakı yeddi böyük problemi müzakirə obyekti oldu: Əlifba məsələsi, İmla orfoqrafiya problemi, Termin məsələsi, Tədris-metodika məsələsi, Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri, Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi, Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

Qurultayda iştirak edən görkəmli türkoloqlardan biri akademik V.V.Bartold olmuşdur. Akademik V.V.Bartold İsmailiyyə binasında keçirilən Birinci Türkoloji Qurultayın yeganə ən yüksək elmi dərəcəli iştirakçısı idi.

Fevralın 27-də keçirilən ikinci iclasda V.V.Bartold "Türk xalqlarının tarixinin öyrənilməsinin mövcud vəziyyəti və ən yaxın vəzifələri" mövzusunda məruzə etmişdi (Первый, 2011: 26-41). Bartold məruzəsində qeyd etmişdir ki, "...türkologiya sahəsinə aid edilən elmi fənlər arasında türk tayfaları və xalqlarının tarixi xüsusi yer tutur. Yaşadıqları tarixi dönəmlər boyu türklər, cüzi istisna ilə, öz dillərində tarixi ədəbiyyatlarını yarada bilməmişlər. Əlbəttə ki, köçəri türk tayfalarının tarixi mədəni qonşuları tərəfindən bizə məlumdur; türklər fəth etdikləri ölkələrdə məskunlaşaraq oturaq həyata keçib, türk sülalələrinin hakimiyyəti altında mədəni dövlətlər yaratmışlar... Bütün türk dövlətləri arasında yalnız Osmanlı İmperiyasının tarixini daha çox türk tarixi mənbələrinə əsaslanaraq öyrənmək mümkündür..." (Məmmədli, 2026: 66-67).

Akademik V.Bartold türk xalqlarının tarixi haqqında çox geniş və əhatəli məlumat vermişdir. Onun məruzəsində Orxon tarixi yazılı abidələrinin kəşfi və oxunması, professor Pelyonun tədqiqat-

larında dilçilik araşdırmaları, sanbilər, avarlar, yakutlar, çuvaşlar, hunlar, bulqarlar, xəzərlər, qırğızlardan bəhs edilmiş, bir sıra tədqiqatçıların araşdırmaları önə çəkilmişdir. "Oğuz" və "uyğur" sözlərinin eyni mənşədən olduğu iddia olunsa da, onlar arasında fərqlər mövcuddur. Mahmud Kaşğarinin yazdığı əsərdən, türklərin islamı könüllü qəbul etmələrindən, türklərin Orta Asiyanı fəth etmələrindən, müsəlman dünyasında türklərin əhəmiyyətli yer tutmasından, türk tayfalarının məskunlaşmalarından bəhs etmişdir. V.Bartoldun məruzəsi çox geniş olduğundan onların izahını vermək burada imkan xaricindədir.

Bartold yekunda ifadə edir ki, türk xalqları böyük bir mədəni toplumdur ki, bu xalqlar Qərb mədəniyyətini mənimsəmək və öz milli irsini qorumaq kimi ikiqat çətin bir missiya qarşısındadır (Первый, 2011: 41).

Qeyd edək ki, Qurultayda ilk elmi məruzənin ona həvalə olunması alimin türkologiyada söz sahibi olmasının təsdiqi idi. Akademikin yalnış təəssürat və məlumatsızlığı nəticəsində "türkologiyaya dəxli olmayan şəxs" saydığı Əli bəy Hüseynzadə qurultayla bağlı qeydlərində onun məruzəsindən bəhs edərək yazmışdı: "...səhər saat 10-da Bartold ərəb və fars qaynaqları əsasında Teymur tarixindən bəhs etdi. VII yüzillikdə Orhun yazıları ilə özlərini Türk adlandıran bir xalq tarix səhnəsinə çıxır. Yeni araşdırmalara görə, Çin ədəbiyyatında indiyə qədər məlum olmayan bir sıra vəsiqələr aşkar edilib ki, onlar Türk tarixinin ilk dövrlərinə işıq salmağa imkan verir. Bundan sonra o, "Qırğız" istilahının filoloji kökündən söz açdı. Bartoldun qənaətinə görə türklər islamiyyəti öz istəkləri ilə, heç bir təzyiq olmadan qəbul etmişdilər. Çin, Yava, Sumatra və Afrikada islamiyyətin yayılması da eyni şəkildə baş tutmuşdu. İslamı hər bir xalq qəbul edə bilər. Bartold burada türkmən kəlməsinin etimologiyası üzərində də dayandı" (525-ci qəzet, 2026: 6.3.).

Qeyd edilməlidir ki, Mərkəzi Asiya və Azərbaycan türklərinin qədim tarixinin zəngin ədəbi-mədəni irsinin öyrənilməsi Bartold yaradıcılığının aparıcı istiqamətlərindən biri olmuşdur. Onun rəhbərliyi ilə 1912-ci ildə N.Gəncəvi məqbərəsində ilk dəfə elmi prinsiplərlə qazıntı işləri aparılmışdı. Bartold 1924-cü ildə Azərbaycan Dövlət Universitetində - Şərq fakültəsində "Müsəlman dünyasının tarixində Xəzəryanı vilayətlərin yeri haqda" mövzusunda məruzə etmişdi. Onun ən böyük xidmətlərindən biri də türk xalqlarının monumental folklor abidəsi olan "Kitabi Dədə-Qorqud" dastanın rus dilinə mükəmməl tərcüməsinin hazırlanması idi.

Qurultayın siyasi və elmi əsaslarının formalaşmasında İ.N.Borozdinin "Tatar mədəniyyəti sahəsində ən son elmi kəşflər", A.S.Übeydullinin "Türk-tatar xalqlarında tarixi ədəbiyyatın inkişafı", S.İ.Rudenkonun "Türk tayfalarının etnoqrafiyasının öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri", D.Messaroşun "Anadolu və Balkan türklərinin etnoqrafiyasının müasir vəziyyəti və gələcəkdəki vəzifələr", B.V.Çobanzadənin "Türk ləhcələrinin yaxın qohumluğu haqqında", N.N.Poppenin "Altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti", A.N.Genkonun "Türk dillərinin Yafəs dilləri ilə münasibəti haqqında", N.İ.Aşmarinin "Türkologiyanın keçmişi və indiki vəziyyəti haqqında bəzi qeydlər", S.Y.Malovun "Qədim türk dillərinin öyrənilməsi", A.N.Samoyloviçin "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın perspektivləri, Q.F.Çursinin "Qafqaz türklərinin etnoqrafik öyrənilməsində yaxın vəzifələr", F.V.Karl Müllerin "Türk xalqlarının təsviri sənəti haqqında", U.Əliyevin "Türk dillərinin öyrənilməsi metodları", R.A.Açaryanın "Türk və erməni dillərinin qarşılıqlı təsiri" mövzularındakı məruzələri mühüm rol oynamışdır.

Tarixi taleləri müxtəlif olan türkdilli xalqları birləşdirən etnogenezləri, milli-mənəvi mədəniyyətləri və dillərinin tipoloji eyniliyidir. Birinci Ümumittifaq Türkoloji Qurultayı sovet məkanında türk xalqlarının dil, yazı və mədəniyyət siyasətinin müəyyənləşdiyi mühüm hadisə idi.

Cəlaləddin Qorxmazov tərəfindən təqdim edilən və türk dilləri ilə bağlı yeddi əsas məsələ müzakirə olunmuşdur: Əlifba məsələsi; Yazı-Orfoqrafiya problemi; Terminologiya məsələsi; Tədris-metodologiya məsələsi; Qohum və qonşu dillərlə qarşılıqlı təsir və əlaqə məsələləri; Türk dillərinin ədəbi dili məsələləri, ortaq ədəbi dil; Türk dillərinin böyük dil nəzəriyyəsi və tarixi problemləri.

Əsas müzakirə mövzuları. Türk dilləri ilə bağlı məsələlər müzakirə edilərkən əsas müzakirə mövzuları üç istiqamətdə müəyyən edilmişdi:

1. Əlifba məsələsi - ərəb qrafikasından latın qrafikasına keçidin zərurəti və onun təhsil, maarif və mətbuat sahəsindəki təsirləri.

2. Ədəbi dilin standartlaşdırılması – türk xalqlarında dialekt müxtəlifliyinin aradan qaldırılması və vahid ədəbi dilin formalaşdırılması.

3. Elm və mədəniyyətin təşkili – nəşriyyat işləri, dilçilik araşdırmaları və ortaq elmi əlaqələrin qurulması

Türk maarifçilərinin XIX yüzillikdən bəri apardığı yeni əlifba məsələsi iki qola şaxələnmişdi: ərəb və latın qrafikası. Azərbaycanın və ümumtürk dünyasının tanınmış maarifçiləri, mütəfəkkirləri M.F.Axundov, İ.Qaspiralı, A.Baytursunov, Ü.Hacıbəyli, M.Şahtaxtinski, H.Cavid, F.Köçərli, V.Xuluflu və başqaları ərəb əlifbasının moderinləşdirilməsi, islah edilməsi və ya latın qrafikası ilə əvəz olunması məsələsini müxtəlif dövrlərdə müzakirə mövzusuna çevirmişlər (Məmmədli, 2026: 149).

Hələ M.F.Axundovun əlifba layihələrini təqdim etdiyi vaxtdan ziyalılarımızın bir hissəsi ərəb əlifbasından imtina məsələsini qəbul etmirdilər və bütün xalqların öz keçmişindən, bu əlifba ilə yaranmış irsindən və digər türk xalqlarından ayrılması ilə nəticələnəcəyi qənaətində idilər. Lakin Birinci Türkoloji Qurultay iştirakçıları bu qənaətdə idilər ki, ərəb əlifbası ilə çap olunan nəşrlər əhalinin çox kiçik bir hissəsi tərəfindən oxunur. Qarşıda savadı olmayan çoxmilyonluq kütlə durur və bu kütlə üçün həmin ədəbiyyat əlçatmazdır. Odur ki, bir ovuc ziyalını yox, elə həmin çoxmilyonluq kütləni düşünmək lazımdır.

Məlumdur ki, bu dövrdə SSRİ-nin xalqları ərəb əlifbasından istifadə edirdi. Birinci Türkloji Qurultayın ən mühüm tarixi qərarlarından biri latın əlifbasına keçid məsələsinin gündəmə gətirilməsi oldu. Qurultay bunu türk xalqlarının qarşısında duran əsas məsələ kimi qeyd edərək latın əlifbasının ərəb əlifbasına nisbətən üstünlüklərini göstərir, yeni əlifbaya keçid prosesinin necə həyata keçirilməsini xalqların öz öhdəsinə qoyurdu.

Qurultayda N.İ.İlminskinin, N.F.Yakovlevin, L.İ.Jirkovun, C.Məmmədzadənin, A.Şərəfin, N.T.Türyakulovun, U.Əliyevin, A.İbrahimovun, F.Ağazadənin, R.İnoqamovun, S.M.Əfəndiyevin, Ə.Baytursunovun, H.S.Ayvazovun, Q.Tınstanovun, İ.Qoraçaylenin, S.Ağamalıoğlunun, Y.D.Polivanovun, T.Menzelin, J.Kastanyenin və başqalarının məruzə və çıxışlarında əlifba məsələsinin mahiyyəti, onun tərkibində olan ərəb və latın qrafikasının yeri və rolu, islah edilməsi, dəyişdirilməməsi və dəyişdirilməsi geniş müzakirə edilmişdir.

Uzun müzakirələrdən sonra Qurultay nümayəndələrinin gəldiyi ümumi nəticə bundan ibarət oldu ki, təklif olunan yeni latın əlifbası həm ərəb əlifbası, həm də onun islah olunmuş variantı ilə müqayisədə daha çox üstünlüklərə malikdir. Qurultayın 4 mart tarixli 13-cü iclasında əlifba məsələsi səsə qoyuldu. Bu tarixi səsvermə nəticəsində 101 nəfər latın əlifbası tərəfdarlarının təklifinə, 7 nəfər ərəb əlifbası tərəfdarlarının təklifinə səs verdi, 9 nəfər nəfər isə bitərəf qaldı (Первый, 2011: 419). Bu, türk xalqlarının savadlanması, dünyaya inteqrasiyası və milli kimliyinin möhkəmlənməsi yolunda atılmış cəsarətli bir addım idi.

Birinci Türkoloji Qurultayda müzakirə olunan əsas mövzulardan biri "Orfoqrafiyanın əsas prinsipləri və onların sosial əhəmiyyəti" məsələsi olmuşdur. Orfoqrafiya yalnız texniki yazı qaydalarının cəmi deyil, dilin ictimai həyatdakı funksionallığını, yazı mədəniyyətinin ötürülməsini təmin edən mühüm sistemdir (Məmmədli, 2026: 232).

Orfoqrafiya məsələsi Qurultayın 7-ci iclasında (1 mart 2026-cı il) müzakirə edilmişdir. İlk öncə Lev Şerba çıxış etmişdir. O, orfoqrafiyada ümumi və keçərli qaydalar vermək mümkün olmadığından ən düzgün yolu fonetik və etimoloji prinsipləri birləşdirməkdə görürdü (Первый, 2011: 337). Tədqiqatçılardan Ömərov, Manafov, Alparov, Əliyev, Yumanqulov, Ağazadə, Samoyloviç çıxış etmişlər. Müzakirələrdə Ömərov Şerbanın təklif etdiyi fonetik prinsipin üzərində dayanmış, etimoloji prinsipin müsbət və mənfi tərəflərindən bəhs etmişdir. Urmanov çıxışında orfoqrafiya məsələsini əlifba problemi ilə vəhdətdə öyrənilməsini qeyd edib. Martın 1-də keçirilən 2 iclasda rus türkoloqu Şerbanın və Q. İbrahimovun məruzələri ətrafında çıxışlar oldu.

Qurultay iştirakçıları orfoqrafiyanın tarixi inkişafını, müxtəlif türk dillərində formalaşmış yazı ənənələrini və onların praktik tətbiqində meydana çıxan problemləri nəzərdən keçirərək, elmi prinsiplərə əsaslanan vahid orfoqrafik sistemin zəruriliyini qeyd etmişlər.

Birinci Türkoloji Qurultayda orfoqrafiya məsələlərinin müzakirəsi göstərdi ki, türk dillərində yazı sisteminin inkişafı fonetik prinsiplərin tətbiqi ilə sıx bağlıdır. Qurultay iştirakçıları ərəb əlifba-

sının türk dillərinə uyğun gəlmədiyini və fonetik uyğunsuzluqlar yaratdığını qeyd edərək, latın əlifbasına keçidin orfoqrafiya problemlərini köklü şəkildə həll edə biləcəyini vurğulamışlar (Elm, 2026: 6. 2.).

Terminologiya məsələsi müzakirə edilmiş və qeyd edilmişdir ki, türk xalqları arasında vahid terminoloji sistem mövcud deyildi. Terminologiya sistemində ərəb və fars mənşəli sözlərin say dinamikası isə Azərbaycan dilinin keçdiyi mürəkkəb tarixi proseslərlə üzvi surətdə bağlı olmuşdur. Lakin XX əsrin əvvəllərində baş vermiş dəyişikliklər, elm və mədəniyyətin inkişafı dilin lüğət tərkibinə və sözlərin semantikasına ciddi təsir göstərmişdir. Yeni söz və terminlər yaranmışdır.

Terminologiya ilə bağlı qurultayda H.Odabaş, A.Zifeld, B.Çobanzadə, H.Zeynallı, F.Bayt-ursunov, B.Suleyev, Ş.Manatov və b. məruzə və çıxışlarında termin yaradıcılığı, elmi terminologiya sistemi, termin sisteminin müxtəlifliyi, termin yaradıcılığında türk sözlərindən istifadə və b. məsələlərdən bəhs edilmişdir.

Qurultayda türk dillərinin ədəbi dili məsələləri müzakirə edilmişdir. Müzakirələrdə ədəbi dilin formalaşması, normaya salınması və sabitləşdirilmiş dil formasını ifadə etdiyini qeyd etmişlər. Ədəbi dil ilə bağlı ilk məruzəni M.F.Köprülüzadə etmişdir (Məmmədli, 2026: 269). Köprülüzadə bildirirdi ki, türk xalqları tarix boyu ortaq əbədi dil potensialına malik olub. B.Berdiyev, A.Samoyloviç, N.Türkyakubov, H.Ayvazov, H.Cəbiyev və b. məruzə və çıxışlarda ədəbi dilin formalaşmasından, onun inkişaf tarixindən bəhs etmişlər. Türk ədəbi dilinin norma və üslub xüsusiyyətləri, eləcə də türk xalqlarının ana yurdu məsələsi də müzakirə obyekti oldu.

Birinci Türkoloji Qurultayda müzakirə olunan məsələlərlə əlaqədar mühüm qərarlar qəbul edildi. Bu qərarlar sırasında ortaq əlifba, ortaq ədəbi dil, ortaq terminologiya kimi məsələlər xüsusilə mühüm yer tuturdu.

Nəticə. Birinci Türkoloji Qurultayda müzakirə olunan məsələlər və qəbul edilən qərarların çox böyük tarixi əhəmiyyəti olmuşdur. Çünki zaman keçdikcə bu mötəbər elmi toplantının yalnız öz dövrü üçün deyil, bütövlükdə Türk dünyasının gələcək inkişafı üçün strateji əhəmiyyət daşıdığı təsdiqlənmişdir. Bu qurultay həm elmi, həm siyasi cəhətdən olduqca böyük əhəmiyyət daşıyırdı. Burada türk xalqlarının bir çox ortaq elmi problemi, onların tarixi, mədəniyyəti müzakirə edilmişdir ki, onların içərisində ən əsası yeni əlifbaya keçid məsələsi idi.

1923-cü ildən Azərbaycanda yeni türk əlifbasının dövlət əlifbası kimi qəbul edilməsinə baxmayaraq, məhz bu qurultaydan sonra rəsmi şəkildə yekdilliklə latın qrafikalı əlifbaya keçid gerçəkləşdi. Buna qədər respublika ərazisində ərəb yazısından istifadəyə də geniş yer verilirdi. Qurultayın qərarına əsaslanaraq 1929-cu il yanvarın 1-dən Sovet hökuməti ərəb əlifbasının istifadəsinə qadağa qoydu.

Qurultayın qərarı ilə Sovetlər birliyinə daxil olan digər türk respublikalarında da ərəb əlifbasının yerinə latın qrafikalı yazıya keçildi. Azərbaycan SSR latın qrafikalı əlifbaya keçdikdən 5 il sonra Türkiyə Cümhuriyyəti də bu əlifbaya keçdi.

Qurultayın qərarı nəticəsində bütün türk respublikaları ərazisində 1929-1939-cu illərdə latın qrafikalı əlifbadan istifadə edildi. Lakin 30-cu illərin sonunda Sovet İttifaqı rəhbərliyi tərəfindən latın qrafikalı əlifbanın dəyişdirilməsi yönündə işlərə başlanıldı. 1939-cu ildə isə SSRİ-nin milli respublikalarında ümumi kiril əlifbasından istifadə qərarı qəbul edildi.

Otuzuncu illərin sonunda qurultayın bir çox iştirakçısı pantürkçülük, millətçilik, əks-inqilabi fəaliyyətdə günahlandırıldı, repressiya edildi və öldürüldü. Ümumiyyətlə qurultayın 100-dən artıq iştirakçısı müxtəlif formada repressiyalara məruz qaldı.

Azərbaycan XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Birinci Türkoloji Qurultaya dövlət səviyyəsində hüquqi qiymət verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə Birinci Türkoloji Qurultayın 80, 90 və 100 illik yubileylərinə həsr olunmuş Beynəlxalq konfranslar keçirildi. Sərəncamda deyildiyi kimi, XX yüzilliyin sonlarına doğru Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsi ilə, Azərbaycan dilinin rəsmi dövlət dili statusu qəti surətdə təsbit edildi.

Tariximizdə öz əbədi möhürünü vuran, dəyərli töhfələrini verən Birinci Türkoloji Qurultayda qaldırılan qlobal məsələlər bu gün də olduqca aktualdır və əhəmiyyətlidir. Azərbaycan 1991-ci ildə

öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Türk dünyası ilə siyasi-iqtisadi və mədəni-ədəbi əlaqələrini geniş şəkildə qurmuş və bu sahədə bir sıra uğurlu nəticələr əldə etmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (2008). Yeddi cilddə, VI cild. Bakı, Elm: 568
2. "Azərbaycan" qəzeti. 2026-cı il
3. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 103, siy. 3, iş 35
4. Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəfləri (2016). Elmi sessiyanın materialları (10 iyun 2016-cı il). Bakı, Elm və təhsil: 460
5. Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları (I hissə, 14-15 noyabr 2016-cı il). Bakı, Elm və Təhsil: 482.
6. 525-ci qəzet. 2026-cı il.
7. Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixli Sərəncamı. "Azərbaycan" qəzeti, 2025, 23 oktyabr.
8. "Elm" qəzeti. 2026-cı il.
9. "Ədəbiyyat qəzeti". 2026-cı il.
10. "Xalq qəzeti". 2026-cı il.
11. Xəlilov, B. (1999). Birinci Beynəlxalq Türkoloji Qurultay. Bakı, Elm: 212
12. İbrahimov, E. (2026). Birinci Türkoloji Qurultayda ortaq əlifba, imla və ədəbi dil məsələləri. Xankəndi: 240.
13. Qasımov, C. (2019). Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər. Bakı, "Gənclik": 748.
14. Menzel, T. (2017). 1926, Bakı I Türkoloji Qurultayı. Konya, Nişan: 14-15.
15. Məmmədli, N. (2026). 1926-cı il I Türkoloji Qurultayı tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda. Bakı, "Elm və təhsil": 828.
16. Первый Всесоюзный Тюркологический съезд (2011). Стенографический отчет. 26 февраля – 5 марта 1926 г. Баку, "Nağıl evi": 552.

ИСМАИЛ ГАДЖИЕВ
Председатель Нахчыванского отделения НАНА, академик
Профессор Нахчыванского государственного университета

ПЕРВЫЙ ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД: КАК ЗНАМЕНАТЕЛЬНОЕ СОБЫТИЕ В КУЛЬТУРНОЙ ЖИЗНИ ТЮРКСКИХ НАРОДОВ

В статье на основе фактических материалов исследованы причины необходимости созыва и проведения I Тюркологического съезда, состоявшегося в Баку в 1926 году, его состав, круг обсуждавшихся вопросов, принятые решения и их историческое значение. Установлено, что на заседаниях съезда рассматривались вопросы истории, литературы, языка, алфавита, этнографии и культуры тюркских народов. На съезде были всесторонне разработаны научно-методические принципы перехода на алфавит на основе латинской графики. Таким образом, становится очевидным, что Первый Тюркологический съезд вошёл в историю как одно из наиболее значимых событий культурной жизни тюркских народов, в том числе азербайджанского народа, в XX веке. Поскольку Бакинский тюркологический съезд был не только лингвистическим событием, но и сыграл особую роль в формировании научного и культурного единства тюркского мира.

Ключевые слова: Тюркологический съезд, тюркские народы, Баку, общий алфавит, общий язык, терминология, история, культура.

ISMAYIL HAJIYEV
Chairman of the Nakhchivan Branch of ANAS, academician
Professor of Nakhchivan State University

THE FIRST TURKOLOGICAL CONGRESS: A LANDMARK EVENT IN THE CULTURAL LIFE OF THE TURKIC PEOPLES

This article examines, on the basis of factual materials, the necessity for convening the First Turkological Congress held in Baku in 1926, its organization and composition, the issues discussed, the resolutions adopted, and their historical significance. It becomes clear that the history, literature, language, alphabet, ethnography, and culture of the Turkic peoples were discussed during the sessions of the Congress. At the Congress, the scientific and methodological principles for the transition to a Latin-based alphabet were developed in detail. Thus, it becomes evident that the First Turkological Congress has gone down in history as one of the most significant events in the cultural life of the Turkic peoples, including the Azerbaijani people, in the twentieth century. Because the Baku Turkological Congress was not merely a linguistic event; it also played a significant role in the formation of the scientific and cultural unity of the Turkic world.

Keywords: Turkological Congress, Turkic peoples, Baku, common alphabet, common language, terminology, history, culture.

Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilib.

I Türkoloji qurultay - 100



UOT 94(479.24); UOT 94

AKİF MARİFLİ
Özbəkistandakı H.Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi,
tarix üzrə fəlsəfə doktoru
akif.marifli@gmail.com

TÜRK DÜNYASININ MƏDƏNİ-HUMANİTAR YADDAŞI: BİRİNCİ BAKI TÜRKOLOJİ QURULTAYI

DOI: https://doi.org/10.36719/2708-065X/114/25-30

Məqalədə 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay yalnız dilçilik və əlifba islahatı hadisəsi kimi deyil, türk xalqlarının ortaq tarixi yaddaşının, mədəni-humanitar yaxınlaşmasının və intellektual əməkdaşlığının mühüm mərhələsi kimi təhlil olunur. Qurultayın meydana gəldiyi tarixi şərait, XIX əsrin sonu – XX əsrin əvvəllərində türk-müsəlman dünyasında maarifçilik, cədidçilik, mətbuat, məktəb və dil islahatları ilə əlaqəsi araşdırılır. Ortaq və ya uyğunlaşdırılmış latın qrafikalı əlifba ideyası texniki yazı məsələsindən daha geniş – kitab, təhsil, mətbuat, elmi ünsiyyət, qarşılıqlı ədəbi təsir və mədəni inteqrasiya problemi kimi şərh edilir. Məqalədə həmçinin 1930-cu illərin repressiyalarının bu humanitar-intellektual şəbəkəyə vurduğu zərbə və Qurultayın müasir türk dünyası üçün tarixi yaddaş mənbəyi kimi əhəmiyyəti qiymətləndirilir. Məqalədə I Türkoloji qurultay həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasının mədəni-humanitar inteqrasiyası siyasəti kontekstində nəzərdən keçirilir.

Açar sözlər: Birinci Türkoloji Qurultay, Bakı, Azərbaycan, mədəni-humanitar əlaqələr, tarixi yaddaş, ortaq türk əlifbası, maarifçilik, türkologiya.

Giriş. 1926-cı il 26 fevral-6 mart tarixlərində Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay XX əsr türk dünyasının elmi və mədəni tarixində nadir miqyaslı hadisələrdən biri olmuşdur. Qurultayda 131 nümayəndənin iştirakı, türk xalqlarının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı, mədəniyyəti, orfoqrafiyası və əlifbası ilə bağlı məsələlərin eyni platformada müzakirəsi onun sırf filoloji toplantı olmadığını göstərir [1; 2]. Bu hadisəyə mədəni-humanitar və tarixi prizmadan yanaşdıqda Qurultay türk xalqlarının parçalanmış coğrafiyalar arasında yenidən elmi ünsiyyət qurmaq, ortaq mədəni yaddaşın mənbələrini müəyyənləşdirmək və modernləşmə dövrünün çağırışlarına birlikdə cavab axtarmaq cəhdi kimi görünür.

Qurultayın mərkəzində dil dayansa da, dil burada yalnız qrammatik sistem deyildi. Dil məktəbin, kitabın, mətbuatın, ədəbiyyatın, tarixi yaddaşın və xalqlar arasında qarşılıqlı anlaşmanın daşıyıcısı idi. Buna görə əlifba, terminologiya və orfoqrafiya ətrafında aparılan müzakirələr mahiyyət etibarilə humanitar inkişafın gələcəyi haqqında müzakirələr idi. Qurultayın müasir əhəmiyyəti də məhz bundadır: yüz il sonra türk dövlətləri arasında genişlənən mədəni, elmi və təhsil əlaqələri həmin tarixi təcrübəni yeni şəraitdə yenidən düşünməyə imkan verir.

Qurultaya aparan tarixi yol: maarifçilikdən ümumtürkoloji dialoqa. Birinci Türkoloji Qurultayın intellektual kökləri XIX əsrin ikinci yarısında türk-müsəlman xalqları arasında başlayan maarif-

çilik və modernləşmə proseslərinə gedib çıxır. Mirzə Fətəli Axundzadənin əlifba layihələri, İsmayıl bəy Qaspıralının "dildə, fikirdə, işdə birlik" düsturu, üsuli-cədid məktəbləri, milli mətbuatın genişlənməsi və ana dilində təhsil uğrunda mübarizə müxtəlif türk bölgələrində oxşar problemləri gündəmə gətirmişdi [3; 4].

Azərbaycan və Türküstan bu prosesin iki mühüm mərkəzi idi. Bakı və Tiflis mətbuatının Türküstana çatması, Türküstan ziyalılarının İstanbul, Kazan, Krım və Qafqaz intellektual mühiti ilə əlaqələri ideyaların sərhədlərdən daha sürətlə hərəkət etdiyi ortaq humanitar məkan yaradırdı. Azərbaycanda da maarifçilik, teatr, mətbuat və yeni məktəb hərəkatı dil məsələsini cəmiyyətin modernləşməsi ilə bağlayırdı.

Bu səbəbdən 1926-cı ildə Bakıda alimlərin, müəllimlərin, şərqşünasların, yazıçıların və ictimai xadimlərin bir araya gəlməsi təsadüfi deyildi. Bakı artıq Şərqlə Qərbin, Qafqazla Türküstanın, Rusiya elmi məktəbi ilə türk-müsəlman intellektual ənənəsinin kəsişdiyi şəhərlərdən birinə çevrilmişdi. Qurultay bu uzunmüddətli mədəni dövriyyənin institusional ifadəsi oldu.

Birinci Türkoloji Qurultay mədəni-humanitar platforma kimi. Qurultayın proqramı onun humanitar miqyasını aydın göstərirdi. Burada türk xalqlarının yalnız əlifbası deyil, tarixi, etnogenezi, etnoqrafiyası, ədəbiyyatı, dil quruluşu, terminologiyası və tədris problemləri müzakirə olunurdu [1; 2]. Başqa sözlə, Qurultay türk xalqlarının özlərini elmi vasitələrlə tanıması və bir-birini daha yaxından öyrənməsi üçün platforma yaratmışdı.

Bu baxımdan Qurultayın ən böyük tarixi nəticələrindən biri "ortaq problemlər" düşüncəsini formalaşdırması idi. Müxtəlif türk xalqlarının nümayəndələri öz dillərinin və mədəniyyətlərinin fərdiliyini qorumaqla yanaşı, onların qohumluğunu və qarşılıqlı əlaqəsini elmi müzakirənin predmetinə çevirirdilər. Belə bir yanaşma mədəni birliyi siyasi eyniləşdirmə ilə qarışdırmırdı; əksinə, müxtəlifliyi ortaq tarixi-mədəni irsin tərkib hissəsi kimi görməyə imkan verirdi.

Qurultayda dünya şöhrətli şərqşünasların iştirakı da türkologiyanı lokal maraq sahəsindən beynəlxalq elmi müstəviyə çıxarırdı. V.V.Bartold, A.N.Samoyloviç, Fuat Köprülü, Əli bəy Hüseynzadə, Bəkir Çobanzadə və digər alimlərin eyni elmi məkanda iştirakı fərqli məktəblərin dialoqunu təmin edirdi [2; 5]. Bu dialoq türk xalqlarının mədəni irsinin dünya humanitar elminin predmetinə çevrilməsi baxımından əhəmiyyətli idi.

Ortaq əlifba: hərflərdən daha geniş mədəni layihə. Birinci Türkoloji Qurultayın ən çox müzakirə edilən mövzusu əlifba olsa da, bu məsələni sadəcə ərəb qrafikasından latın qrafikasına keçid kimi təqdim etmək onun tarixi məzmununu daraldır. Əlifba məsələsinin arxasında savadlanma, məktəb, kitab nəşri, mətbuat, terminologiya, elmi biliklərin yayılması və türk xalqları arasında mətnlərin qarşılıqlı oxuna bilməsi dayanırdı [1; 11].

Qurultayda latın qrafikasını müdafiə edənlərlə islah edilmiş ərəb yazısını qorumaq istəyən alimlər arasında ciddi polemika mövcud idi. Əhməd Baytursunov və Qalimcan Şərəf kimi alimlərin etirazları göstərir ki, proses yekdil və sadə olmayıb [1; 3]. Bu fikir ayrılığı Qurultayın elmi dəyərini azaldan deyil, əksinə artıran cəhətdir: yazı islahatı mədəni yaddaşın davamlılığı, təhsil xərcləri və ictimai uyğunlaşma kimi məsələlərlə birlikdə müzakirə olunurdu.

Mədəni-humanitar baxımdan ortaq əlifba ideyası "hamının eyni danışması" layihəsi deyildi. Daha real məna türk dillərinin fonetik xüsusiyyətlərini qorumaqla onların yazı sistemlərini bir-birinə yaxınlaşdırmaq, qarşılıqlı oxunaqlılığı artırmaq və mədəni dövriyyəni asanlaşdırmaq idi. Ortaq prinsiplər əsasında qurulan əlifba kitabın Bakıdan Daşkəndə, Daşkənddən Kazana, Aşqabada və digər mərkəzlərə daha rahat hərəkət etməsi demək idi.

Buna görə əlifba mədəni infrastrukturdur. Yazı yaxınlığı ortaq ədəbi irsin qarşılıqlı mənimsənilməsinə, terminoloji əməkdaşlığa, tərcüməyə, müəllim və tələbə mübadiləsinə, elmi nəşrlərin yayılmasına xidmət edə bilər. Qurultayın ortaq əlifba müzakirələrinin uzunmüddətli humanitar mənası məhz burada görünür.

Tarixi yaddaş, ədəbiyyat və ortaq mədəni məkan. Türkoloji Qurultayın gündəliyində tarix və ədəbiyyat məsələlərinin yer alması təsadüfi deyildi. Dilin elmi öyrənilməsi klassik mətnlərin, folklorun, yazılı abidələrin və tarixi mənbələrin tədqiqi ilə birbaşa bağlı idi. Türk xalqlarının keçmişini

öyrənmək üçün Orxon-Yenisey abidələrindən Mahmud Kaşğariyə, Yusif Balasaqunludan Nəvai və Füzuliyə qədər geniş mətn korpusuna müraciət zəruri idi.

Azərbaycan və Özbəkistan arasındakı mədəni yaxınlıq bu kontekstdə xüsusi nümunədir. Nizami Gəncəvi və Əlişir Nəvai müxtəlif ədəbi dillərdə yaratsalar da, onların əsərləri ortaq Şərq humanist ənənəsinin, etik-fəlsəfi düşüncəsinin və bədii yaddaşının mühüm sütunlarıdır. Füzuli ilə Nəvai ədəbi məktəblərinin qarşılıqlı müqayisəsi də türk xalqları arasında tarixi mədəni əlaqələrin sərhədləri aşdığını göstərir.

Qurultayın ruhunda ortaq mədəniyyət vahidlik deyil, qarşılıqlı tanınma idi. Bu yanaşma bu gün də əhəmiyyətlidir. Türk dünyasının mədəni inteqrasiyası milli mədəniyyətlərin fərqliliyini aradan qaldırmaq deyil, həmin fərqliliklərin ortaq tarixi kontekstdə anlaşılmasına şərait yaratmaq deməkdir.

Qurultaydan sonra: ümidlər, institusional addımlar və qırılma. Bakı Qurultayından sonra yeni türk əlifbasının yayılması istiqamətində təşkilati işlər genişləndi. 1927-ci ildə Ümumittifaq Yeni Türk Əlifbası Mərkəzi Komitəsinin yaradılması və müxtəlif türk respublikalarında, o cümlədən Özbəkistanda strukturların fəaliyyət göstərməsi əlifba məsələsinin geniş coğrafiyada institusional xarakter aldığını göstərirdi [12].

Lakin 1920-ci illərin ikinci yarısında yaranmış bu elmi-humanitar dinamika uzunömürlü olmadı. 1930-cu illərdə siyasi mühit sərtləşdi, milli elmi məktəblərin bir çox nümayəndəsi repressiyalara məruz qaldı.

Repressiyaların mədəni nəticəsi fiziki itkilərlə məhdudlaşmadı. Elmi məktəblərin davamlılığı pozuldu, müəllim–tələbə əlaqələri qırıldı, bəzi əlyazmalar və layihələr dövriyyədən çıxdı, türk xalqları arasında müqayisəli humanitar tədqiqatlara ideoloji şübhə ilə yanaşılmağa başlandı. Sonradan türk dillərinin böyük hissəsinin kiril qrafikasına keçirilməsi 1920-ci illərdə formalaşmaqda olan yaxın yazı məkanını da dəyişdirdi.

Bu səbəbdən Qurultayın tarixində iki paralel xətt görünür: bir tərəfdə elmi əməkdaşlıq və mədəni yaxınlaşma ümidi, digər tərəfdə isə totalitar siyasətin yaratdığı qırılma. Tarixi prizmadan Qurultayın tam mənzərəsi yalnız bu iki xətti birlikdə nəzərə aldıqda görünür.

Müasir dövrdə Qurultayın mədəni-humanitar mirası. Birinci Türkoloji Qurultayın yüzilliyi onun irsini yeni tarixi şəraitdə qiymətləndirmək üçün imkan yaradır. Bu gün müstəqil türk dövlətləri elmi və mədəni əməkdaşlığı öz suveren qərarları əsasında qururlar. Buna görə 1926-cı ilin ideyalarını mexaniki şəkildə təkrarlamaq deyil, onların humanitar məzmunundan yararlanmaq daha məqsədəuyğundur.

Müasir ortaq türk əlifbası müzakirələrinin tarixi yaddaşı məhz Bakı Qurultayına qədər uzanır [11]. Lakin ortaq əlifbanın dəyəri yalnız simvolik birlikdə deyil, praktik mədəni əlaqədədir: gənc nəslin digər türk dillərində mətnləri daha asan oxuması, ortaq rəqəmsal resursların hazırlanması, klassiklərin paralel nəşrləri, terminoloji bazaların uyğunlaşdırılması və universitetlərarası türkoloji proqramların genişləndirilməsi.

Belə yanaşmada Birinci Türkoloji Qurultay muzeyləşdirilmiş keçmiş deyil, gələcək humanitar əməkdaşlığın tarixi təcrübəsidir.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyi və Prezident İlham Əliyevin türk dünyasının mədəni-humanitar inteqrasiyası siyasəti. Birinci Türkoloji Qurultayın tarixi irsinin müasir dövrdə yenidən aktuallaşdırılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin türk dünyası ilə bağlı həyata keçirdiyi mədəni-humanitar siyasətin mühüm istiqamətlərindən biri kimi nəzərdən keçirilə bilər. Bu baxımdan dövlət başçısının 22 oktyabr 2025-ci il tarixində imzaladığı "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam xüsusi tarixi və siyasi əhəmiyyət daşıyır [15]. Sərəncamın konseptual məzmunu göstərir ki, Azərbaycan dövləti 1926-cı il Qurultayına yalnız tarixi-elmi hadisə kimi deyil, türk xalqlarının mədəni inteqrasiyasının mühüm mərhələsi kimi yanaşır. Sənəddə türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı məsələlərin Qurultayda sistemli şəkildə müzakirə edilməsi, həmçinin latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçid məsələsinə xüsusi diqqət ayrılması vurğulanır. Beləliklə, yüzillik yubileyinin dövlət səviyyəsində keçirilməsi tarixi yaddaşın bərpası ilə yanaşı, Qurultayın mədəni-

humanitar ideyalarının müasir türk dünyasının inteqrasiya prosesləri ilə əlaqələndirilməsi kimi də qiymətləndirilə bilər.

Prezident İlham Əliyevin bu məsələyə yanaşmasının mühüm xüsusiyyətlərindən biri Birinci Türkoloji Qurultayın irsini müasir türk dövlətləri arasında əməkdaşlığın tarixi-intellektual qaynaqlarından biri kimi təqdim etməsidir. 2025-ci il 6-7 oktyabr tarixlərində Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd olunması təşəbbüsünün irəli sürülməsi və bu çağırışın Zirvə Görüşünün Bəyannaməsində əksini tapması yubileyin artıq yalnız Azərbaycan daxilində deyil, ümumtürk miqyasında əhəmiyyət daşıyan mədəni-humanitar hadisəyə çevrildiyini göstərir [15].

Bu siyasətin davamı 2026-cı ildə keçirilən yubiley tədbirlərində də özünü göstərmişdir. Prezident İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilmiş Türk Dünyası Həftəsinin iştirakçılarına 29 iyun 2026-cı il tarixli müraciətində Qurultayı türk xalqlarının mədəni inteqrasiyası ideyasının formalaşması baxımından müstəsna əhəmiyyətə malik elmi-mədəni forum kimi səciyyələndirmişdir [16]. Dövlət başçısının yanaşmasında dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyət türk dünyasının ortaq mənəvi dəyərləri kimi təqdim edilir. Bu isə 1926-cı ildə irəli sürülmüş elmi-humanitar ideyalarla müasir inteqrasiya siyasəti arasında tarixi varisliyin qurulduğunu göstərir.

Xüsusi diqqət çəkən məqamlardan biri Prezident İlham Əliyevin Birinci Türkoloji Qurultayın irsini Türk Dövlətləri Təşkilatının müasir fəaliyyəti ilə əlaqələndirməsidir. Prezidentin 2026-cı il müraciətində Türk Dövlətləri Təşkilatının ortaq humanitar məkan yaratmağa yönəlmiş layihələrinin ideya əsasları ilə Birinci Türkoloji Qurultayda səsləndirilmiş mütərəqqi fikirlər arasında tarixi bağlılıq göstərilir [16]. Bu yanaşma Qurultayın yüzillik yubileyinə sadəcə xatirə tədbiri kimi deyil, türk dünyasının gələcək mədəni-humanitar əməkdaşlığının perspektivləri baxımından yanaşıldığını göstərir.

Bu kontekstdə ortaq türk əlifbası məsələsi də xüsusi əhəmiyyət qazanır. 1926-cı ildə Bakıda aparılan müzakirələrin mərkəzi mövzularından biri olmuş ortaq və ya uyğunlaşdırılmış latın qrafikalı yazı sisteminin yaradılması ideyası yüz il sonra yeni siyasi və texnoloji şəraitdə yenidən aktuallaşmışdır. Müasir mərhələdə bu ideya yalnız yazı sistemlərinin yaxınlaşdırılması məsələsi deyil, türk xalqları arasında informasiya mübadiləsinin genişləndirilməsi, elmi və ədəbi əsərlərin qarşılıqlı əlçatanlığının artırılması, ortaq rəqəmsal informasiya məkanının formalaşdırılması və gənc nəsillər arasında mədəni ünsiyyətin gücləndirilməsi baxımından mühüm humanitar məna daşıyır.

Prezident İlham Əliyevin Birinci Türkoloji Qurultayın yüzillik yubileyinə münasibətində tarixi yaddaş məsələsi də mühüm yer tutur. Dövlət başçısı Qurultay iştirakçılarının böyük hissəsinin 1930-cu illərin repressiyalarına məruz qalmasını türkoloji elmə vurulmuş ağır zərbə kimi qiymətləndirir və repressiya qurbanlarının xatirəsinin ehtiramla yad edilməsinin vacibliyini vurğulayır [15; 16]. Bu yanaşma Xalid Səid Xocayev kimi görkəmli alimlərin irsinin yenidən öyrənilməsinə də əlavə elmi və mənəvi məzmun verir. Xalid Səidin taleyi türk xalqlarının ortaq elmi-mədəni əməkdaşlıq ideyasının sovet totalitarizmi dövründə qarşılaşdığı faciəli qırılmanın ən parlaq nümunələrindən biridir.

Beləliklə, Prezident İlham Əliyevin təşəbbüsü ilə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin dövlət və beynəlxalq türk əməkdaşlığı səviyyəsində qeyd olunması Azərbaycanın türk dünyasına münasibətdə həyata keçirdiyi siyasətin mədəni-humanitar komponentinin mühüm təzahürü kimi qiymətləndirilə bilər. Bu siyasətdə tarixi yaddaşın qorunması, ortaq mədəni irsin öyrənilməsi, türkoloji elmin inkişafı, ortaq humanitar məkanın genişləndirilməsi və türk dövlətləri arasında mənəvi-mədəni əlaqələrin möhkəmləndirilməsi bir-birini tamamlayan istiqamətlər kimi çıxış edir.

Bu baxımdan Birinci Türkoloji Qurultayın 100 illiyi yalnız 1926-cı ildə Bakıda keçirilmiş tarixi toplantının yubileyi deyil, eyni zamanda bir əsr əvvəl formalaşmış elmi-mədəni həmrəylik ideyasının müstəqil türk dövlətlərinin yeni əməkdaşlıq şəraitində yenidən mənalandırılmasıdır. Azərbaycanın bu prosesdə fəal mövqeyi isə Bakının yüz il əvvəl olduğu kimi, XXI əsrdə də türkoloji elmi fikrin, mədəni dialoqun və türk dünyasının humanitar inteqrasiyasının mühüm mərkəzlərindən biri kimi mövqeyinin davam etdirilməsinə xidmət edir.

Nəticə. Birinci Bakı Türkoloji Qurultayı türk dünyasının XX əsr tarixində yalnız dilçilik konqresi və ya əlifba islahatı toplantısı deyildi. O, müxtəlif coğrafiyalarda yaşayan türk xalqlarının alim

və ziyalılarının ortaq humanitar problemlər ətrafında görüşdüyü, tarix, dil, ədəbiyyat, etnoqrafiya, məktəb və mədəniyyət məsələlərini birlikdə müzakirə etdiyi böyük intellektual platforma idi.

Mədəni-humanitar prizmadan Qurultayın əsas mirası ünsiyyət ideyasıdır. Ortaq əlifba bu ünsiyyətin vasitələrindən biri, kitab və mətbuat onun daşıyıcısı, türkologiya isə elmi dili idi. Tarixi prizmadan isə Qurultay XIX əsr maarifçilik hərəkatlarının davamı, 1920-ci illərin modernləşmə axtarışlarının kulminasiya nöqtəsi və 1930-cu illərin repressiyaları ilə qırılan bir intellektual xəttin mühüm mərhələsidir. Bu gün Qurultayın yüzillik irsinə müraciət edərkən əsas məqsəd keçmişin siyasi modellərini təkrarlamaq deyil. Əsas məqsəd həmin toplantının elmi dialoq, qarşılıqlı hörmət, mədəni yaddaşın öyrənilməsi və xalqlar arasında bilik mübadiləsi ideyasını müasir şəraitdə davam etdirməkdir. Bu baxımdan Birinci Türkoloji Qurultay Azərbaycanın türk dövlətləri ilə mədəni-humanitar əməkdaşlığının da tarixi istinad nöqtələrindən biri kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. Первый Всесоюзный тюркологический съезд, 26 февраля – 6 марта 1926 г.: Стенографический отчет. Баку, 1926. -Переиздан: Баку, «Нагыл еви», 2011, 552 с.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. “Birinci Türkoloji Qurultay–100”, 2026.
3. Oral Mustafa. “1926 Bakü Türkoloji Kongresi (I. Türkoloji Kongresi).” Türk Dünyası Ansiklopedisi, 30 Aralık 2024. Yayınlayam Kurum: Atatürk Araştırma Merkezi, 15 s.
4. Lazzerini, E. J. Ismail Bey Gasprinskii and Muslim Modernism in Russia, 1878–1914. University of Washington, 1973.
5. Öner, M. The Turkish Delegation at the 1926 Baku Turkological Congress // Turkology, No.1, 2026. DOİ: 10.59849/2313-5204.2026.1.62
6. Birinci Türkoloji Qurultayın stenoqrafik materialları və nümayəndə siyahıları. Bakı, 1926.
7. Erbay, F. Halid Said Hocayev, Yeni Elifba Yollarında Eski Duygu ve Hatıralarım. Ankara: Türk Dil Kurumu, 2006 // Electronic Turkish Studies, 2007, v.2, n.3, p.249. DOİ:10.7827/TurkishStudies.127
8. Toker, M. Halid Said Hocayev ve Yeni Elifba Yollarında Eski Hatıra ve Duygularım Adlı Eseri // Türk Dünyası Dil ve Edebiyat Dergisi, 1996, № 2, s.409-418.
9. Xalid Səid. Yeni əlifba yollarında əski xatirə və duyğularım. Bakı-Qrım-Türkistan. Bakı-Türkmənistan-Özbəkistan. Bakı: Yeni Əlifba Komitəsi, 1929, 147 s.
10. Xocayev, X.S. Mahmud Kaşğarinin “Divanü lüğat-it-türk” əsərinə dair tədqiqatları. Azərbaycan elmi nəşrləri, 1930-cu illər.
11. Ələkbərli, F. Ortaq türk əlifbasına dönüş: tarix və çağdaşlıq // Türkologiya, №4(85), 2017, s.88-101.
12. Yeni Türk Əlifbası Mərkəzi Komitəsinin fəaliyyəti və ümumtürk əlifba siyasətinə dair dövrü mətbuat və arxiv materialları; həmçinin Journal of Turkic Civilization Studies-də dərc edilmiş tədqiqatlar.
13. Huseynova, M. The First Turkological Congress in Baku and the Issue of Orthography // Philology and Art Studies, 2026.
14. “1926 Birinci Bakü Türkoloji Kongresi ile İlgili Belgelerin Araştırılması.” Akademik Tarih ve Düşünce Dergisi, 2024/2025.
15. Əliyev, İlham. “Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 22 oktyabr 2025.
16. Əliyev, İlham. “Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin iştirakçılarına”. Bakı, 29 iyun 2026.

АКИФ МАРИФЛИ
Доктор философии (PhD) по истории,
Азербайджанский культурный центр имени Г. Алиева в Узбекистане

КУЛЬТУРНО-ГУМАНИТАРНАЯ ПАМЯТЬ ТЮРКСКОГО МИРА: ПЕРВЫЙ БАКИНСКИЙ ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД

В статье Первый тюркологический съезд, состоявшийся в Баку в 1926 году, рассматривается не только как событие в области языкознания и реформы алфавита, но и как важный

этап формирования общей исторической памяти тюркских народов, их культурно-гуманитарного сближения и интеллектуального сотрудничества. Исследуются исторические условия, в которых был созван съезд, а также его связь с просветительством, джадидизмом, развитием печати, школьного образования и языковыми реформами в тюркско-мусульманском мире конца XIX - начала XX века. Идея общего или унифицированного алфавита на основе латинской графики интерпретируется значительно шире, чем исключительно технический вопрос письменности, - как проблема, непосредственно связанная с книгоизданием, образованием, прессой, научной коммуникацией, взаимным литературным влиянием и культурной интеграцией. В статье также оценивается ущерб, нанесённый политическими репрессиями 1930-х годов этой гуманитарно-интеллектуальной сети, и раскрывается значение съезда как важного источника исторической памяти для современного тюркского мира. Кроме того, Первый тюркологический съезд рассматривается в контексте политики Президента Азербайджанской Республики Ильхама Алиева, направленной на укрепление культурно-гуманитарной интеграции тюркского мира.

Ключевые слова: Первый тюркологический съезд, Баку, Азербайджан, культурно-гуманитарные связи, историческая память, общий тюркский алфавит, просветительство, тюркология.

AKIF MARIFLI
PhD in History,
Azerbaijani Cultural Center named after H. Aliyev in Uzbekistan

THE CULTURAL AND HUMANITARIAN MEMORY OF THE TURKIC WORLD: THE FIRST BAKU TURKOLOGICAL CONGRESS

The article examines the First Turkological Congress, held in Baku in 1926, not merely as an event concerned with linguistics and alphabet reform, but as an important stage in the formation of a shared historical memory, cultural and humanitarian rapprochement, and intellectual cooperation among the Turkic peoples. It explores the historical circumstances that gave rise to the Congress and analyzes its relationship with the movements of enlightenment, Jadidism, the development of the press, educational reform, and language modernization in the Turkic-Muslim world from the late nineteenth to the early twentieth century. The idea of a common or harmonized Latin-based alphabet is interpreted in a broader context than that of a purely technical writing reform, being considered as an issue closely linked to books and publishing, education, the press, scholarly communication, mutual literary influence, and cultural integration. The article also assesses the destructive impact of the political repressions of the 1930s on this humanitarian and intellectual network and evaluates the significance of the Congress as a source of historical memory for the contemporary Turkic world. Furthermore, the First Turkological Congress is examined within the context of the policy pursued by President of the Republic of Azerbaijan Ilham Aliyev aimed at strengthening cultural and humanitarian integration across the Turkic world.

Keywords: First Turkological Congress, Baku, Azerbaijan, cultural and humanitarian relations, historical memory, common Turkic alphabet, enlightenment, Turkology.

Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilib.

I Türkoloji qurultay - 100



UOT 94(479.24); UOT 94

KƏMALƏ NƏCƏFOVA

t.ü.f.d., Bakı Dövlət Universitetinin dosenti,
Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini
kamalanacafova@bsu.edu.az

SOVET İŞĞAL REJİMİNİN ANTİMİLLİ SİYASƏTİ VƏ I TÜRKOLOJİ QURULTAYIN AZƏRBAYCANDA KEÇİRİLMƏSİNƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/114/31-38

Çağdaş türkologiya elminin prelüdü olan I Türkoloji Qurultay türk ədəbi dili, əlifba və terminologiya məsələlərində, həmçinin tarix, ədəbiyyat istiqamətlərində çox önəmli və ibrət dolu bir başlanğıc kimi tarixləşmişdir. 1920-ci il 28 aprel çevrilişindən başlayan, 30-cu illərdə isə, daha geniş müstəvidə hücuma keçən sovet işğal rejimi, elə ilk gündən milli müstəqillik düşüncəsi, milli varlıq təfəkkürü, totalitar ideologiyaya qarşı demokratik ideyaların daşıyıcısı olan insanlara qarşı çevrilmişdi. Əlbəttə ki, cəmi 23 ay yaşamasına baxmayaraq milli dövlətçilik tariximizdə xüsusi yeri olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə geniş vüsət alan milli özünüdərk, istiqlal və demokratiya ənənələrini birdən-birə məhv etmək mümkün deyildi. Sovet hökumətinin bu istiqamətdə həyata keçirilməsi nəzərdə tutulan çoxməqsədli proqramlarından biri də I Türkoloji Qurultayın keçirilməsi olmuşdur. Qurultay eyni zamanda, adı çəkilən sahələr üzrə 100-dən artıq iştirakçı seçmə alim və mütəfəkkirin həbsi və məhv edilməsi ilə bitən prosesin başlangıcı kimi yaxın tarixin ən böyük ziyalı-alim soyqırımı sənədidir. Elmi məqalədə mənbələr və elmi ədəbiyyatlar əsasında I Türkoloji Qurultayın Bakıda keçirilməsini şərtləndirən amillər, qurultaya hazırlıq işləri və əsas nəticələri təhlil olunur.

Açar sözlər: Azərbaycan, maarifçilik hərəkatı, əlifba islahatı, etnik-mədəni dəyərlər, türkoloji qurultay, sovet milli siyasəti.

Giriş. Beynəlxalq miqyasda böyük əks-səda tapmış I Türkoloji qurultay dünya miqyasında Azərbaycanın türkologiya elminə qiymətli töhvəsi, Türk dünyasının çoxəsrlik dövlətçilik və zəngin mədəniyyət tarixinin elmi cəhətdən öyrənilməsinin mükəmməl proqramıdır. I Türkoloji qurultay eyni zamanda, olduqca mürəkkəb bir şəraitdə keçirilməsinə rəğmən, türk xalqlarının elmi-mədəni birliyinə, ortaq milli-mədəni dəyərlərinin inkişaf etdirilməsinə, inteqrasiya proseslərinin dərinləşdirilməsinə imkanlarının son həddində geniş üfüqlər açan ictimai hadisədir.

Tədqiqatçılar ümumiyyətlə türkologiyanın inkişafını 4 mərhələyə bölürlər: 1) ən qədim zamanlardan XVIII əsrin sonunadək; 2) XVIII əsr; 3) XIX əsrin sonu – XX əsrin əvvəlləri; 4) XX əsr [15, s.391-393]. Bu mərhələləri xarakterizə edən önəmli tədqiqatlar vardır ki, hər biri özlüyündə həmin mərhələnin intibah dövrü hesab olunur. Məsələn, 1-ci mərhələnin ən vacib mənbələri "Orxon-Yenisey" yazılı abidələri, "Törəyiş", "Koç", "Kitabi Dədə-Qorqud", "Manas" dastanları, M.Kaşqarinin "Divani lüğət-it-türk", Yusif Balasaqunlunun "Kutatqu bilik", Əbülqazi Bahadır xanın "Şəcərəyi-tərakimə", Fəzlullah Rəşidəddinin "Oğuznamə" və b. əsərləridir. 2-ci mərhələni müəyyən edən ən vacib əsər Filip İohan Tabbert Stralenberqin 1730-cu ildə çap etdirdiyi və Ural-Altay nəzəriyyə-

sini irəli sürdüyü "Avropa və Asiyanın şimal-şərq hissəsi" əsəridir. 3-cü mərhələnin ən vacib tədqiqatları V.V.Radlovun, Q,Vamberinin, V.Tomsenin, M.Kazımbəyin, P.Melioransinin tədqiqatlarıdır. Bunların içərisində V.V.Radlovun lüğətşünaslıq sahəsində xüsusi yer tutan və türkologiya sahəsində milli türkoloqların birinci nəslinin yetişməsində xüsusi rolu olan dörd cildlik "Türk dillərinin lüğət təcrübəsi" adlı əsəriidir. Bu mərhələnin ən tanınmış milli türkoloqları M.Kazımbəy, N.F.Katanov, H.Feyzixanov, Ə.Nasiri, Ş.Mərcani, Ş.Sami, Ə.V.Paşa, Ş.S.Buxari, Ə.Midhət və başqalarıdır. Ə.B.Hüseynzadənin, Ə.B.Ağaoğlunun, Z.Göyalpın, Y.Akçuranın, Z.V.Toğanın və diğərlərinin sayəsində XX əsrin əvvəllərində formalaşan türkçülük hərəkatı özünün mümkün üstün mərhələsinə çatdı. XX əsrin 30-cu illərində artıq B.Çobanzadə, M.F.Köprülü kimi güclü milli türkoloqlar yetişmişdi. 4-cü mərhələnin ən əsas hadisəsi 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultaydır ki, onu türkologiyanın inkişafında intibah dövrü adlandırırlar [15, s.394].

Qeyd etmək lazımdır ki, XIX yüzilliyin ortalarında müsəlman Şərqində əlifba islahatı ideyası ilk olaraq görkəmli maarifçi ziyalı Mirzə Fətəli Axundzadə tərəfindən qaldırılmış, maarifçilik ideyaları əsasında formalaşan və əsası Həsən bəy Zərdabi tərəfindən qoyulan Azərbaycan milli hərəkatının bütün mərhələlərində müzakirə olunan, böyük fikir ayrılıqları yaratmayan azsaylı məsələlərdən biri olaraq qalmışdı. Təsadüfi deyil ki, ziyalı zümrəsinin ikinci nəslinin görkəmli nümayəndələri olan Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və Əlimərdan Topçubaşovun yön verdiyi Azərbaycan milli hərəkatı növbəti mərhələsinə keçmiş, islam ümmətçiliyindən türk millətçiliyinə tarixi keçid məhz Azərbaycanda baş vermişdir. Məhz adı keçən ziyalılarımızın yorulmaz ictimai-siyasi fəaliyyətinin nəticəsi idi ki, 1906-ci ildə Nijni-Novqorodda keçirilən Rusiya müsəlmalarının I qurultayı xüsusi qətnamə ilə Bakını Rusiyada yaşayan türk-müsəlman xalqların siyasi mərkəzi elan etdi. [13, s.16] Rusiya imperiyasının süqutundan sonra 1917-ci il aprelin 15-20-dək Bakıda keçirilən Qafqaz müsəlmanlarının I qurulyayında məhz Aərbaycanın milli-demokratik ziyalılarının təkidli tələbi ilə Rusiyanın gələcək idarə forması federativ demokratik respublika təklif olunmuş, türk xalqlarına ərazi muxtariyyəti verilməsi tələbi irəli sürülmüşdü. Qurultayda çıxış edən A.Əfəndizadə məktəb və ana dilində ümumi, məcburi ödənişsiz təhsil məsələsi haqqında öz zəmanəsi üçün olduqca mütərəqqi fikirlər irəli sürmüşdü [1, s.165]. Lakin maarifçi-ziyalılarımızın bütün səylərinə baxmayaraq, Azərbaycanda əlifba və dil məsələləri əməli surətdə və dövlət səviyyəsində ancaq Azərbaycan Xalq Cümhuriyyəti dövründə öz həllini tapmışdır.

Məhz cümhuriyyət dövründə maarifçi ziyalıların on illərlə arzusunda olduqları əlifba islahatını reallaşdırmaq üçün tarixi imkan və şərait yarandı. Belə ki, Azərbaycan Parlamentinin 1919-cu il 21 mart tarixli xüsusi qərarı ilə Xalq Maarif Nazirliyinə millət vəkili Xudadat bəy Məlikaslanovla birgə mövcud ərəb əlifbasının islahatı üzrə Xüsusi Hökumət Komissiyasının yaratmaq barədə tapşırıq verildi. Bu qərara əsasən Xudadat bəy Məlikaslanovun sədrliyi ilə Xalq Maarif Nazirliyi yanında ərəb əlifbasının islahı üzrə Xüsusi Komissiyası yaradıldı [1, s.340]. Bu qərarla Azərbaycan Xalq Cümhuriyyəti hökuməti maarifçilik və təhsilin millileşdirilməsi sahəsində siyasətin gerçəkləşdirilməsinə xidmət edən vacib addım atmış oldu. Əlifba islahatı işinə önəm verilməsi məhz bu ümummilli vəzifədən irəli gəlirdi və maarifçilik, xalq təhsilinin millileşdirilməsi sahəsində Hökumətin qarşısında duran vəzifələrin həyata keçirilməsinə birbaşa xidmət etməli idi. Qısa zaman kəsiyində Komissiya tərəfindən M.Şaxtatli, F.Ağazadə, A.Əfəndizadə, A.Tağizadə və H.Seyidov tərəfindən hazırlanmış beş müxtəlif layihə hazırlanıb Azərbaycan Parlamentinə təqdim olundu [1, s.341]. Lakin təqdim olunan əlifba layihələrindən ancaq müəllim Abdulla bəy Əfəndizadənin hazirladiği variant Azərbaycan Parlamenti tərəfindən bəyənildi və yeni əlifba üçün əsas kimi qəbul olundu. A.Əfəndizadənin 1919-cu ildə latın əlifbasına keçidin zəruriliyi ilə bağlı 1919-cu ildə Bakıda "Son türk əlifbası"adlı dərsliyi də nəşr olunur. Dərslikdə ərəb və latın əlifbalarının müqayisəli şəkildə təhlil edərək, birincinin ana dilimizə uyğunsuzluğu, latın əlifbasının isə, münasib olduğu zəngiz dil faktları ilə əsaslandırımışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin əlifba islahatı sahəsində başladığı ilk əməli addımlar 1920-ci il 28 Aprel istilası səbəbindən yarımçıq qaldı.

Əsas hissə. Sovet hakimiyətinin həyata keçirdiyi bütün sosialistcəsinə dəyişikliklər kimi mədəniyyət sahəsində gedən inqilabi yenilikləri də birmənalı qiymətləndirmək mümkün deyil. Azərbaycan Xalq Komissarları Sovetinin təhsil ana dilində olan məktəblərin açılmasını nəzərdə tutan

1920-ci il 12 may tarixli dekretindən sonra əlifba islahatı məsələsi yenidən qaldırıldı. Əlifba dəyişikliyi sovet hökumətinin daxili siyasətinə uyğun gəldiyindən, Xalq Komissarları Sovetinin sədri N.Nərimanov maarifçi ziyalı kimi yaranmış əlverişli vəziyyətdən bacarıqla istifadə edir, xalqın maariflənməsi yolunda daha çox işlər görməyə çalışırdı. Azərbaycan Xalq Təhsil Komıssarlığının kollegiyası 5 yavar 1921-ci il tarixli qərar qəbul edir. Qərarda deyilir:1.Köhnə müsəlman şirfti yenisi ilə əvəz edilsin; 2.Yeni, latın əlifbasının tətbiqi üzərində qərar tutulsun. Bütün idarə və təşkilatlarda kargüzarlığı yeni əlifba ilə aparmaq üçün 1921-ci ilin martında Azərbaycan İnqilab Komitəsi tərəfindən Fövqəladə Komitə yaradılır [6, s.39].

Görkəmli pedaqoq Fərhad Ağazadənin Xalq Təhsili Komissarı Dadaş Bünyadzadəyə yazdığı məktubdan da məlum olur ki, 5 mart 1922-ci il tarixli iclas protokoluna əsasən F.Ağazadə, S.Ağamalıoğlu, Ə.Pepinov, H.Şaxtatiniski, A.Əmirov, X.Məlikaslanov, A.Tağızadə və M.N.İsrafilbəyovdan ibarət yeni komissiya yaradılması nəzərdə tutulur. Komissiya görkəmli türk professoru Məhəmməd Əli Eynibəy və professorlar P.Juze, V.Tomaşevski və Lopatenskinin materialları ilə tanış olaraq latın əlifbasının qəbul edilməsi üzərində dayanmışdır. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun imzaladığı Xüsusi dekretlə 1922-ci ilin aprelində Bakıda Azərbaycan Mərkəzi İcariyyə Komitəsinin sədri S.A.Ağamalıoğlunun da yaxından iştirakı etdiyi Yeni Türk Əlifba Komitəsi yaradıldı. Komitənin latın qrafikası əsasında hazırladığı Azərbaycan əlifbasının layihəsi ”Yeni yol“ qəzetində ümumxalq müzakirəsinə çıxarıldı [1, s.341].

Yeni əlifba ideyası sürətlə hər Azərbaycanın hər tərəfinə yayılır, bütün bölgələrdə yerli əlifba komitələri yaranır və ən əsası əhali latın qrafikalı yeni əlifbaya maraq göstərirdi. Bu işdə yerli ziyalıların xidməti böyük idi. Bu barədə C.Məmmədquluzadə ”Yeni yol“ qəzetində xalqa mütamadi olaraq məlumat verirdi. Yeni yol“ qəzetinin 28 sentyabr 1922-ci il tarixli sayında “Komitə işləri barədə” silsilə yazılarının birində yazırdı: “İki həftə əvvəl İrəvandan aldığımız rəsmi kağız Ərmənistanda yaşayan türklərin yeni əlifbanı xoşlamaları və qəbul etmələrini bildirirdi. Haman şəhərdə bu əlifbanı yaymaq və istəyənlərə öyrətmək üçün xüsusi komitə seçilib ciddiyyətlə işə başlamışdır. Beş gün sonra Naxçıvandan gələn xəbər orada da yeni əlifba komitəsi açılıb, işə başlamasını bildirirdi. Bu komitə yeni əlifbanı Ordubad və Şərur mahallarında yaşayan türklərin arasında da yaymağı öhdəsinə almışdır. Bu şəhərlərə göndərilən 300 əlifba kitabçasının kifayət etmədiyi xəbərini verib, haman kitabdan yenə istəyirlər. Bakıda yeni əlifba ilə çıxan qəzet və jurnalların onlara da göndərilməsini xahiş edirlər” [6, s.8].

“Yeni yol“ qəzeti N.Nərimanovun yeni əlifba sahəsindəki təşəbbüsünü və fəaliyyətini belə qiymətləndrirdi: ”Birinci dəfə olaraq N.Nərimanov yoldaşın təşəbbusu ilə Azərbaycanda yeni əlifbanı keçirmək üçün komitə düzəldi. Ondan sonra yeni əlifba fikrinin kütlə arasına girməyə başladığı zaman Azərbaycan qəzalarında şöbələri təşkil olundu” [6, s.11]. Oxşar proseslər Türkiyədə və zəif formada Türküstanda da gedirdi. Qeyd etmək lazımdır ki, əlifba islahatı kiril əlifbasının özü üçün də nəzərdə tutulurdu. Keçmiş SSRİ məkanında vahid əlifba yaratmaq məqsədilə L.İ.Jirkov, A.V.Lunaçarski, N.Yakovlev və digərlərinin fikir və ideyaları elə ideya olaraq da qaldı. Müxtəlif bəhanələrlə türk xalqlarının əlifbasını dəyişməyə çalışan sovet hökuməti öz kiril əlifbasının dəyişdirilməsini aşagıdakı səbəblərə görə müxtəlif bəhanələrlə əngəlləyirdi: 1) Yeni əlifbaya keçid 200 illik rus mədəniyyəti tarixi ənənəsini geri çəkəcək, tənəzzülə uğradacaq; 2) Külli miqdarda vəsait sərf olunacaq; 3) Kütlə savadsızlaşacaq və s. [9, s.30].

Yeni əlifba təşəbbüsünü ən çox dəstəkləyən ziyalılar C.Məmmədquluzadənin redaktorluğu ilə çıxan “Yeni yol” qəzetində dərc olunan məqalələrdə öz fikirlərini əsaslandırırır və xalqa bunun əhəmiyyətini izah edirdilər. Məsələn, Cəlil Məmmədquluzadə “Yeni yol” qəzetinin 28 sentyabr 1922-ci il tarixli sayında çıxan “Yeni əlifba nə istəyir?” başlıqlı məqaləsində ərəb qrafikalı əlifbanın dilimizə vurduğu ziyanları sadalayaraq yazırdı: “Ərəb-fars kəlmələrinə, şivələrinə elə alışmışıq ki, öz dilimizin gözəl qanunlarını və qaydalarını o tərkiblərə tabe edir və dilimizi öldürürük” [10].

Əslində isə ard-arda həyata keçirilən islahatlar mədəniyyətimizə ciddi ziyan vururdu. 200 illik rus mədəniyyəti və ədəbiyyatına toxunmaq istəməyən və kommunist maskası altında gizlənən rus millətçiləriləri türk-müsəlman xalqlarının 1000 ildən artıq yazılı mənbələrə malik olan mədəniyyətinə divan tuturdu. 1924-cü ildən yeni türk əlifbasının əski əlifba ilə bərabər paralel tətbiq olunması

barədə, 1925/1926-cı tədris ilindən isə, birinci dərəcəli məktəblərdə tədris olunması haqqında qərar qüvvəyə mindi. Bundan bir az əvvəl isə, 20 oktyabr 1923-cü il tarixli "Yeni türk əlifbasının dövlət əlifbası kimi qəbul edilməsi" haqqında Az.MİK-in sədri S.Ağamalıoğlu, Az.XKS-nin sədri Q.Musabəyov və AK(b)P MK-nin katibi Ə.Xanbudaqovun imzası ilə dekret verildi. 1924-cü ilin sentyabrında Rusiya Federasiyasında, Qafqazda və Türküstanda yaşayan türk dilində danışan xalqların əlifbasının dəyişdirilməsi məqsədilə bir qrup ziyalı təbliğat aparmaq üçün Krıma ezam olundu. S.Ağamalıoğlunun rəhbərliyi ilə C.Məmmədquluzadə, X.S.Xocayev, V.Xuluflu və P.Səfərov 1924-cü ilin sentyabrın 2-də Bakıdan Krıma yola düşdü [9, s.27-31]. Səfər 45 gün çəkdi. S.Ağamalıoğlu Krımda professor Bəkir Çobanzadə ilə tanış olub onu Yeni Əlifba Mərkəzi Komitəsinə rəhbərlik etmək üçün Bakıya dəvət etdi. Dəvət məmnuniyyətlə qəbul olundu. Bu barədə Adil Babayev yazır: "Azərbaycanın görkəmli alimlərinin və xadimlərinin səyi nəticəsində köhnə ərəb əlifbasını dəyişdirərək, dilimizin fonetik qanunları ilə uyğunlaşa bilən bir əlifba seçmək məsələsi ümumdövlət işinə çevrildi. Əlifba seçmək adi texniki iş deyil, mühüm elmi problemdir. Buna görə də yeni əlifbanı tədqiq etmək və həmin əlifba zəminində vahid orfoqrafiya yaratmaq kimi bir işə ümumiyyətlə türkologiyanı və xüsusilə, Azərbaycan dilini kamil bilən bir alim rəhbərlik etməli idi. Doğrudur, o vaxt bizdə layiqli adamlar var idi. Lakin bunların bəzisi dilçi deyildi, bəzisi də elmi cəhətdən aşağı səviyyədə idi" [6, s.39].

Məhz belə bir çətin şəraitdə Az.MİK-in sədri S.Ağamalıoğlu Krım Universitetinin professoru B.Çobanzadəni Azərbaycan Dövlət Universitetində dərs deməklə yanaşı yeni türk əlifbasının elmi rəhbərliyinə razı sala bildi. Sovet hökumətinin siyasətinə gəlincə, o, türk dilində danışan xalqları İslam dünyasından ayırmaq üçün onların əlifbasını dəyişmək istəyirdi və burada əlifbanın latın və ya kiril qrafikalı olmasının onun üçün elə də böyük bir fərqı yox idi. Ümumittifaq Türkoloji qurultayın çağırılması ideyasının əsası isə, ilk dəfə Şərqşünasların Ümumittifaq Elmi Assosasiyası (Leninqradda (Sankt-Peterburqda) yerləşirdi, sədri prof. M.N.Pavloviç idi) tərəfindən qoyulmuşdur. Professor A.Samoyloviç 21 mart 1924-cü il tarixli məktubunda türk dilində danışan xalqların latın və ya kiril əlifbasına keçməsi üçün qurultay çağırılmasını təkid edir. Məruzəçilər və iştirakçıların dəqiq siyahısı verir. Lakin sənədlər ölkənin siyasi rəhbərliyinin bu barədə dəqiq qərarının olmadığını göstərir. Məsələn, Azərbaycan K(b)P MK-nin katibi Ə.Babayev İ.Stalinə ünvanladığı gizli şifrəli teleqramda yazırdı: "Nümayəndələrin böyük qrupu yeni əlifbaya qarşı çıxacaq. Lakin qabaqcadan aldığımız məlumata görə nümayəndələrin yarıdan çoxu yeni əlifbanı seçəcəkdir. Fərziyyəmizə görə qurultayda kommunistlərin böyük bir qrupu olacaqdır. AK(b)P MK təşkilat və rəhbərlik məsələsi ilə əlaqədar bir sıra tədbirlər görür. Göstərişlərinizi gözləyirik" [6, s.41]. Qurultayı hazırlayan komissiyanın üzvü Həbib Cəbiyevin hesablamalarına görə, iştirakçılardan 76 nəfər latın əlifbasına, 30 nəfər islah edilməli olan ərəb əlifbasına səs verəcək, 28 nəfər isə, tərəddüd edəcəkdi. Bu barədə digər fərziyyələr də mövcud idi. Qurultayqabağı dövrdə bütün hadisələr SSRİ Xarici İşlər Naziri G.Çiçerinin birbaşa nəzarəti altında idi.

SSRİ MİK-in Rəyasət Heyəti 15 dekabr 1925-ci ildə I Türkoloji Qurultayın Bakıda keçirilməsi haqqında qərar qəbul edildi. Azərbaycan MİK Rəyasət Heyətinin 2 may 1925-ci il tarixli iclasında I Türkoloji Qurultaya hazırlıqla bağlı Azərbaycan tədqiq - tətbiq cəmiyyəti tərəfindən müəyyən edilmiş Xüsusi komissiyanın yaradılması və onun tərkibi haqqında qərar qəbul edildi.

Bilavasitə sovet hökumətinin dövlət maraqlarından iraəli gələn konkret siyasi məqsədlərə cavab verə biləcək qurultayın keçirilməsinə hazırlıq, əsas məruzəçilərin müəyyənləşdirilməsi və digər məsələlərlə bağlı yaradılan Xüsusi Komissiyanın 8 fevral 1926-cı il tarixli iclasında aşağıdakı məsələlər müzakirə edildi:

1. Türkoloji qurultaydan əvvəl Azərbaycan müəllimlərin qurultayının çağırılması;
2. Türkoloji qurultayda ediləcək məruzələrin tezislərinin hazırlanması;
3. Türkoloji qurultayda rəsmi nümayəndələrdən başqa kənar adamların iştirakı;
4. Türkoloji qurultaya Azərbaycan nümayəndələrinin çağırılması;
5. Türkoloji qurultaya gələcək qonaqların yerləşdirilməsi;
6. Türkoloji qurultayın nümayiş və sərgi işləri [9, s.35].

Türkoloji qurultaydan əvvəl Azərbaycan müəllimlərin qurultayının çağırılması olduqca vacib bir məsələ idi. Müəllimlərimizi, ümumiyyətlə ziyalılarımızı Türkoloji qurultayla bağlı maarifləndir-

mək məqsədi daşıyırdı. Bu səbəbdən Xalq Maarif Nazirliyi və Maarif İşçilər İttifaqı Azərbaycan müəllimlərin qurultayının 15 fevral 1926-cı il tarixində çağırılmasını qərara alır. Qurultayın keçirilməsinə hazırlıq işlərini öz öhdəsinə götürən Xüsusi Komissiya isə I Türkoloji qurultaya Azərbaycandan nümayəndələr seçmək üçün ayrı-ayrı qəzalara məsul işçiləri göndərilməsi haqqında qəbul edir. Xüsusi Komissiya əlifba, türk-tatar məktəblərində tədris işlərini, termin və imla məsələlərini, müzakirə edərək I Türkoloji qurultayın qarşısında duran vəzifələrin bir qisminin həllinə köməklik göstərdi. Xüsusi Komissiyanın iclasında müvafiq komissiyaların yaradılması məsələsi də müzakirə olundu. Məsələn, əlifba komissiyasına S.Ağamalıoğlu (sədr), C.Məhəmmədzadə (məruzəçi), termin komissiyasına Ruhulla Axundov, Hənəfi Zeynallı və Bəkir Çobanzadə, tədris komissiyasına Bala Əfəndizadə, Fərhad Ağazadə və Bəkir Çobanzadə seçildi. Bu komissiyalar I Türkoloji qurultayın məruzələri və bu məruzələrin tezisləri ilə məşğul idi. Xüsusi Komissiya I Türkoloji qurultayda iştirak edəcək nümayəndələrin kimliyini və sayını müəyyən etməli, qurultayın nümayiş və sərgi işlərini təşkil etməli idi.

Beləliklə, sovet hakimiyyətinin 1920-ci ildən həyata keçirməyə başladığı geniş mədəni-siyasi quruculuq siyasətinin tərkib hissəsi olan qurultayın keçirilməsinə hazırlıqla əlaqədar görülən çoxsaylı tədbirlər, təşkilati işlərə calb edilmiş milli xadimlərin və yerli kommunistlərin nüfuz və bacarığı onun istər sovet dövründə olsun, istərsə də, müasir dövrdə böyük əhəmiyyət kəsb etməsinin göstəricilərindən biridir. Bu işə nəzarət edən Mərkəzi partiya orqanların iclas protokollarının "tam məxfi" qrifi ilə işarələnməsindən aydın olur ki, bu qurultay qarşısına bu qurultay qarşısına daha geniş və ən müxtəlif xarakterli məqsəd və vəzifələr qoymuş, onun gedişi ən ciddi şəkildə tənzimlənmiş, nəticələri və qəbul edəcəyi qərarlar isə, əvvəlcədən müəyyənləşdirilmişdir [14, s.71].

1926-cı il fevralın 26-da Azərbaycan tədqiq - tətbiq cəmiyyəti və Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Bakıda Birinci Ümumittifaq Türkoloji Qurultayı çagırdı. Qurultay Maarif sarayında, indiki Azərbaycan Milli Elmlər Akademiyasının binasında keçirildi. 131 nəfər nümayəndənin 98 nəfəri türk, 33 nəfəri isə qeyri millətlərin nümayəndəsi idi [6, s.44].

I Türkoloji qurultayın stenoqramında 131 nəfər nümayəndə haqqında rəsmi məlumat vardır. Lakin bu mötəbər tədbirdə daha çox iştirakçının olması qənaətindəyik. Qurultayda 17 iclasda Türk dünyasının tarixi, etnogenezisi, etnoqrafiyası, dili, ədəbiyyatı və mədəniyyəti ilə bağlı 38 mütəxəssis məruzəsi dinlənilmiş, partiya-dövlət orqanlarının rəhbər şəxsləri iştirak etmişdir [14, s.8]. V.Bartold, F.Köprülüzadə, Ə.Hüseynzadə, A.Krımski, N.Poppe, N.Aşmarin kimi tanınmış türkoloq və şərqşünas alimlərin I Türkoloji qurultayda iştirakı onun öz dövrü üçün olduqca əhəmiyyətli və mötəbər bir tədbir olmasından xəbər verir. Məhşur türkoloq Radlovun və İsmayıl bəy Qaspıralının şərəfinə keçirilmiş qurultayın məhz Bakıda keçirilməsinin səbəblərinə gəlincə, bu sovet partiya–dövlət rəhbərliyi tərəfindən qəbul olunmuş sırf siyasi qərar idi. Akademik Vasili Bartold bu barədə belə deyir: "...Sabiq Rusiyada pək az şəhər vardır ki, Bakı kimi inqilabdan sonra iqtisadi və mədəni əhəmiyyəti əvvəlkindən daha ziyadə artmış olsun. Bu hadisənin səbəblərindən bəhs etməklə danmaq olmaz ki, əksər əhalisi türk olan cümhuriyyətlərin həpsinə nisbətən Azərbaycan cümhuriyyəti və onun paytaxtı Bakı şəhəri Darülfünun həyatını ümumiyyətlə, elmi həyatı daha yüksək səviyyədə saxlamağa müvəffəq olmuşdur; Digər tərəfdən, coğrafi mövqeyinə görə, Bakı istər Moskvadan, Leninqraddan, istərsə də Krım, Tatarıstan, Türkmənistan və s. cümhuriyyətlərdən gələnlər üçün əlverişlidir" [9, s.47].

Şərqşünaslığın mərkəzinin Leninqrad olduğu halda, I Türkoloji qurultayın Bakıda keçirilməsi elmi deyil, qurultayqabağı ictimai-siyasi hadisələr, mövcud durum, Bakının "Şərqin qapısı" olması və s. kimi, siyasi səbəblərlə əlaqədardır.

Türkoloji Qurultayın 12-ci iclası 4 mart 1926-cı ildə H. Cəbiyevin sədrliyi ilə açıldı. Əlifba məsələsi Qurultayın ən proetit mövzusu olduğu üçün buradakı məruzələrin sayı da əvvəlkilərə nisbətən çox idi. Qurultayın 9-cu iclasının yarısı, 10-cu, 11-ci iclasları əlifba haqqında məruzələr, 12-ci iclas bütünlüklə, 13-nün isə yarısı məruzələrin müzakirəsinə həsr edilmişdi. Məruzəçilər Qurultay nümayəndələri dəvət edilmiş alimlər idi. Amma müzakirələrdə salondakı mütəxəsislər də çıxış edirdi. İlk çıxışı Azərbaycanda ilk yeni əlifba hərəkatının görkəmli nümayəndələrindən biri Azərbaycan dilinin və xalq maarifinin yorulmaz təbliğatçısı, Yeni Türk Əlifbası Komitəsinin üzvü və yeni türk əlifbası layihəsinin hazırlanmasının fəal iştirakçısı Fərhad Rəhim oğlu Ağazadə (1880-1931) etdi.

O, əlifba məsələsi ilə çox məşğul olduğundan bu sahəni yaxşı öyrənmiş və milli maraqlar mövqeyindən çıxış edərək, düzgün qərara gəlmişdi. 2022-ci il yanvarın 6-da Yeni Türk Əlifbası Komisyonun sədri seçilmişdi. Elə həmin ildə Fərhad Ağazadə "Nə üçün ərəb əlifbası türk dilinə yaramır?" adlı əsər yazmışdı. Burada o elmi şəkildə dilimizin fonetik sistemi səslərimizin ərəb əlifbasınsda əks olunmaması kimi məsələləri sübut edirdi. Qurultaydakı çıxışında demək olar ki, əvvəlki mövqeyində çıxış edən Fərhad Ağazadə Azərbaycan dilində çıxış etdi və sonda öz məruzəsinin qısa xülasəsini rus dilində Qurultay iştirakçılarına çatdırdı. O qısa xülasədə deyirdi: "Ərəb əlifbasını elə islah etmək olar mı ki göstərilən nöqsanlar oradan qaldırılmış olsun? Əgər bu əlifbada hər hansı defektlər vardırsa elə dedektlər ki, onları aradan qaldırmaq mümkün deyil, onda rəvadır mı ki, biz bir pis vəziyyətdən çıxıb başqasına düşək? Məqsədə uyğun olardı ki, ərəb əlifbasına heç toxunmayaraq, onu qədim ədəbi abidələrdə və dini kitablarda olduğu kimi saxlayaraq, mədəniyyətimizin gələcək inkişafı üçün elmin, incəsənətin bütün tələblərinə cavab verən bir əlifba qəbul edək" [6, s.111-112]. O dilimizin orfoqrafiya qaydalarının tərtibi üçün 9 tezis irəli sürürdü: 1) Türk dilində bütün sözlər, o cümlədən ərəb dilindən alınmış sözlərvahid bir qaydada heç bir istisna olmadan yazılmalıdır; 2) Mədəni dillərdə qəbul edilmiş bütün prinsiplərdən türk (Azərbaycan) dili üçün ən əlverişlisi fonetik prinsipdir; 3) Bu gündən bütün ərəb sözləri ərəb dili fonetikasına və orfoqrafiyasına xas olan öz xüsusiyyətlərini itirir və türk dilinin fonetik tələblərinə tabe olur; 4) Türk-tatar dünyasında mövcud olan əlifbalar içərisində Azərbaycanda qəbul edilmiş yeni əlifba istisnasız olaraq fonetik yazının bütün tələblərinə cavab verir (sonra bu əlifbanın 4 üstün cəhədini göstərir – A.B.); 5) Fonetik orfoqrafiyanı yaratmaq üçün bütün şərtlər (7 bənddən ibarət olaraq) məruzədə verilmişdir; 6) Türk dillərinə keçməyə başlamış Avropa sözləri türk dillərinin fonetik qanunlarına tabe olur; 7) Türk dili üçün səmərəli fonetik orfoqrafiya yaranması məqsədilə türk-tatar vilayətləri üçün qrup halında lüğətlər tərtib edilməsi zəruridir. Bu lüğət bütün, türk-tatar dillərinin fonetik orfoqrafiyasını əhatə edir. Sonra Həbibulla Odabaş və Əbdürrəhman Səədi tatarca danışırlar. Çıxış üçün Əhməd Baytursuna söz verilir [6, s.78-79].

I Türkoloji Qurultayda əlifba məsələsinə həsr edilmiş müzakirələrlə əlaqədar Qurultayın qətnaməsi qəbul edildi. Qətnamə latın əlifbasının lehinə 101, əleyhinə 7 səslə qəbul edilmişdi. Qorxmazovun sədrliyi ilə Azərbaycan və bütün Zaqafqaziya, Özbəkistan, Qırğızıstan, Dağıstan, Türkmənistan, Yakutstan M.R., Şimali Qafqazın muxtar vilayətləri: Qaraçay, Balkar, Kobardin, İnquş, Çeçen, Adigey-Çərkəz, Asetin, Türkmən muxtar rayonu nümayəndələri adından təklif edilirdi: 1. Qurultay hesab edir ki, yeni türk əlifbasının qəbulu və onun tətbiqi metodları hər bir respublikanın, hər bir xalqın öz işidir; 2.Qurultay Azərbaycanın və başqa muxtar Respublikaların böyük və müsbət təcrübəsinin əhəmiyyətini yüksək qiymətləndirir. Qurultay bütün türk-tatar xalqlarına təklif edir ki, bu işi özlərində uğurla tətbiq etmək üçün Azərbaycanın və başqa Respublikaların böyük və zəngin təcrübəsindən istifadə etsinlər. Kazan tatarı Qalimcan Şərəfin yeni türk əlifbasına qarşı qaldırdığı 4 təklif nəzərə alınmadı.

Türk dillərinin yeddi böyük problemi müzakirə olundu: 1) əlifba məsələsi; 2) imla – orfoqrafiya problemi; 3) termin məsələsi; 4) tədris – metodika məsələləri; 5) qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri; 6) türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi; 7) ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemlərinin müzakirə olunduğu I Türkoloji qurultayda yüzlərlə alimin uzun illərdən bəri apardığı gərgin zəhmət və səy habelə 6 gün ərzində 600 nəfərin keçirdiyi 13 iclasın nəticəsi öz bəhrəsini verdi. Yeni türk əlifbası qəbul edildi. I Türkoloji Qurultayda qəbul edilən yeni əlifba əfsuslar olsun ki, özünə yer tuta bilmədi. 1928-ci ildə Azərbaycan MİK və XKS türk əlifbasının məcburi tətbiqi haqqında qərar verdi. SSRİ ərazisində yaşayan türk xalqlarının isə yeni türk (latın) əlifbasına keçməsi üçün SSRİ MİK və XKS-in 7 avqust 1929-cu il qərarı həlledici rol oynadı. Yəni Azərbaycanda 1929-cu il yanvarın 1-dən SSRİ-də yaşayan başqa türk xalqları 1940-cı il yanvarın 1-dən yeni türk əlifbasına keçdilər [5, s.9-10]. Azərbaycan xalqı 1939-cu ildə rus əlifbasına keçərkən dilimizin heç bir fonetik qanunu nəzərə alınmadı və dilimizdə olmayan səslərin işarələri "щ, ц, я, ю, е" və s. Hətta "мягкий знак" (yumşaq işarə) dilimizə tətbiq edildi. 1939-cu il iyulun 7-14-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında rus əlifbası heç bir dəyişiklik və maneə görmədən Azərbaycan yazı sistemindən latın əlifbasını sıxışdı-

rıb çıxardı. Qəbul edilmiş qərar Leninin Azərbaycan və bütün türk xalqlarının "Sovet xalqlarının qardaş birliyində daha yaxşı iştirak etmək üçün atılacaq növbəti inqilabi addım kimi rus əlifbasına keçməyi nəzərdə tuturdu" [6, s.126-127].

Nəticə. Birinci Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoymuş hadisələrdən biridir. Bunu qurultayda ciddi şəkildə geniş müzakirə olunmuş bütün məsələlər üzrə qəbul olunmuş qərarlar isbat edir. Həmin qərarların öz aktuallığı uzun illər qoruyub saxlamış, latın qrafikalı yeni əlifbaya keçidin elmi-metodik prinsipləri işlənib hazırlanmışdır. Latın qrafikalı yeni əlifbayanın ilk tətbiqinə məhz Azərbaycanda başlanılması hələ XIX əsrdən etibarən burada mütərəqqi ziyalıların əlifba islahatı uğrunda fəal şəkildə apardıqları mübarizənin nəticəsi idi. Lakin sovet hökuməti çox keçmədi ki, bunların ardıcıl gerçəkləşdirilməsinin qarşısını aldı. Yalnız Azərbaycan müstəqilliyini bərpa etdikdən və öz taleyinin həqiqi sahibi olduqdan sonra əlifba islahatı gerçəkləşmiş oldu. Beləliklə, istər XX əsrin 20-ci illərinin sonunda, istərsə də SSRİ-nin süqutundan və müstəqilliyin bərpasından sonra keçmiş türkdilli sovet respublikaları içərisində latın qrafikalı yeni əlifbaya keçidin məhz Azərbaycanda başlanması dərin ictimai-siyasi və tarixi kökləri olan hadisə idi.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası 2 cilddə. Təkmilləşdirilmiş 2-ci nəşr. 1-ci cild. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, 440 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası 2 cilddə. Təkmilləşdirilmiş 2-ci nəşr. 2-ci cild. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, 472 s.
3. Birinci Türkoloji qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - https://president.az/az/articles/view/70396
4. I Türkoloji qurultay: görünən və görünməyən tərəflər. Elmi sessiyanın materialları (10 iyun 2016-cı il). Bakı: Elm və təhsil nəşriyyatı, 2016, 100 s.
5. 1926-cı il Bakı Türkoloji qurultayı. Bakı: ÇİNAR-ÇAP nəşriyyatı, 2006, 570 s. - https://ru.scribd.com/document/944027685/1926-C%C4%B1-Il-I-Bak%C4%B1-Turkoloji-Qurultay%C4%B1-321 [21.09.2026].
6. Babayev A. Türkoloji qurultay və Azərbaycanda türkologiya. Bakı: Elm, 2016, 336 s.
7. Cəfərov N. Birinci Türkoloji Qurultayın yüzilliyi ərəfəsində düşüncələr. Azərbaycan: jurnal, 2025, №10, s. 90-105.
8. Çobanzadə B. Seçilmiş əsərləri. Beş cilddə. V cild. Bakı: Bakı Şap Evi, 2007, 264 s.
9. Qacarlı C. I Türkoloji qurultayda dil məsələləri. Bakı: Azərnəşr, 2005, 144 s.
10. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. II hissə. Bakı, elm, 2012, 389 s.
11. Məmmədova E. I Türkoloji qurultay və dil məsələləri. Elmi iş (humanitar elmlər üzrə aylıq elmi jurnal), 2019, №10/49, s.31-34.
12. Məmmədquluzadə C. Yeni əlifba nə istəyir? // "Yeni yol" qəzeti, 28 sentyabr 1922, №2.
13. Наджафова К. Участие интеллигенции в Азербайджанском национальном движении. АДДФПИ, Баку, 2015, 30 с.
14. Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar mövzusunda beynəlxalq konfransın materialları. I hissə. Bakı, 14-15 noyabr 2016-cı il. Bakı: Elm və təhsil nəşriyyatı, 2016, 484s.
15. Xəliolov B. Dil, Ədəbiyyat, Mədəniyyət. Bakı: Şərq-Qərb, 2007, 484 s.

КЯМАЛЯ НАДЖАФОВА
Заместитель декана по научным делам Исторического факультета Бакинского Государственного Университета, доктор философии, доцент

ОБ АНТИНАНСИОНАЛЬНОЙ ПОЛИТИКЕ СОВЕТСКОГО ОККУПАЦИОННОГО РЕЖИМА И ПРОВЕДЕНИИ ПЕРВОГО ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА В АЗЕРБАЙДЖАНЕ

Первый тюркологический съезд, ставший прелюдией к современной науке тюркологии, вошел в историю как очень важное и поучительное начало в вопросах турецкого литератур-

ного языка, алфавита и терминологии, а также в направлениях истории и литературы. Советский оккупационный режим, начавшийся с переворота 28 апреля 1920 года и перешедший в более широкое наступление в 1930-х годах, с самого первого дня боролся с носителями демократических идеи и национальной независимости. Конечно, невозможно было внезапно разрушить традиции национального самосознания, независимости и демократии, получившие широкую популярность в период существования Азербайджанской Демократической Республики, которая занимала особое место в нашей истории национальной государственности, несмотря на то, что просуществовала всего 23 месяца. Одной из многоцелевых программ советского правительства, направленных на реализацию планов в этом направлении, было проведение Первого Тюркологического съезда. Съезд также является крупнейшим документом геноцида интеллектуалов и ученых в новейшей истории, поскольку он положил начало процессу, завершившемуся арестом и уничтожением более 100 отобранных ученых и мыслителей, участвовавших в нем. В научной статье на основе источников и научной литературы анализируются факторы, приведшие к проведению Первого тюркологического съезда в Баку, подготовительная работа к съезду и его основные результаты.

Ключевые слова: Азербайджан, просветительское движение, алфавитная реформа, этнокультурные ценности, Первый Тюркологический съезд, советская национальная политика.

KAMALA NAJAFOVA
Deputy Dean for Scientific Affairs the Faculty of History BSU
PhD in History, Associate Professor

ON THE ANTI-NATIONAL POLICY OF THE SOVIET OCCUPATION REGIME AND THE HOLDING OF THE FIRST TURKOLOGICAL CONGRESS IN AZERBAIJAN

The 1st Turkological Congress (a prelude to the modern science of Turkology) has gone down in history as a highly significant and instructive milestone regarding the Turkic literary language, alphabet, and terminology, as well as the fields of history and literature. The Soviet occupation regime, which began with the coup of April 28, 1920, and launched a broader offensive in the 1930s was, from the very outset, directed against individuals who embodied the concepts of national independence and national identity, as well as democratic ideas standing in opposition to totalitarian ideology. Naturally, it was impossible to instantly eradicate the traditions of national self-awareness, independence, and democracy that had flourished during the era of the Azerbaijan Democratic Republic - a period that, despite lasting only 23 months, holds a special place in the history of our national statehood. One of the multi-faceted programs the Soviet government intended to implement in this regard was the convening of the First Turkological Congress. At the same time, the Congress stands as a testament to the greatest genocide of intellectuals and scholars in recent history-marking the beginning of a process that culminated in the arrest and elimination of over a hundred select scholars and thinkers in the relevant fields. Based on primary sources and scholarly literature, this paper analyzes the factors that led to the holding of the 1st Turkological Congress in Baku, the preparations for the event, and its key outcomes.

Keywords: Azerbaijan, Enlightenment movement, alphabet reform, ethno-cultural values, Turkological Congress, Soviet nationalities policy.

Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilib.

I Türkoloji qurultay - 100



UOT 94(479.24); UOT 94

GÜLLÜ YOLOĞLU
Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
"Türk xalqlarının tarixi və etnologiyası" şöbəsinin müdiri,
filologiya üzrə fəlsəfə doktoru, tarix elmləri doktoru, dosent
yologlugullu@gmail.com

I ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAYIN KEÇİRİLMƏSİNƏ TƏKAN VERƏN TARİXİ AMİLLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/114/39-45

Təqdim olunan məqalədə XX əsrin ən mühüm elmi-ictimai hadisələrindən biri olan 1926-cı il I Ümumittifaq Türkoloji Qurultayına fərqli və tənqidi prizmadan yanaşılır. Tədqiqatda qurultayın yalnız rəsmi qərarları və elmi məruzələri deyil, həm də onun hazırlanma prosesi, siyasi-ideoloji fonu, iştirakçı alimlər arasında gedən gizli qarşıdurmalar araşdırılır. Xüsusilə hadisələrin "pərdəarxası" prosesləri – sovet hakimiyyətinin türkolojiyə münasibəti, ortaq əlifba ideyasının siyasi mahiyyəti, milli ziyalıların və siyasi mühacirlərin mövqeyi, eləcə də bu proseslərin sonrakı repressiyalarla əlaqəsi elmi şəkildə təhlil edilir. Məqalədə qurultayın türk xalqlarının elmi, mədəni inkişafındakı rolu və taleyüklü nəticələri obyektiv şəkildə dəyərləndirilir. Məqalə tarixçilər, türkoloqlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Açar sözlər: Türkoloji Qurultay, Bakı (1926), latınlaşdırma, sovet ideologiyası, pərdəarxası proseslər, milli ziyalılar.

Giriş. Bildiyimiz kimi, XX əsrin əvvəlləri türk xalqlarının milli-mədəni oyanış dövrü kimi tarixə düşmüşdür. Bu dövrdə elmin, mədəniyyətin və ictimai fikrin inkişafı ilə yanaşı, türk xalqlarının ortaq mənəvi dəyərlərinin, dil və ədəbiyyat birliyinin qorunması məsələləri də ön plana çıxmışdır. Məhz belə bir tarixi şəraitdə 1926-cı ildə Bakıda keçirilən I Ümumittifaq Türkoloji Qurultay təkcə elmi hadisə deyil, həm də siyasi və ideoloji baxımdan mühüm ictimai hadisə kimi yadda qalmışdır. Qurultayda müxtəlif respublika və bölgələrdən gələn alimlər türk dillərinin tədqiqi, ortaq əlifba və ortaq terminologiya məsələlərini müzakirə etmiş, tarix, etnoqrafiya, ədəbiyyat məsələləri də türkologiya elminin bir hissəsi kimi diqqətə çatdırılmışdır. Lakin səhnə arxasında baş verən hadisələr, ideoloji təzyiqlər, mərkəzi hakimiyyətin nəzarət mexanizmləri və milli müstəqillik ideyalarına qarşı yönəlmiş gizli siyasi proseslər bu böyük elmi toplantının gedişinə və nəticələrinə ciddi təsir göstərmişdir.

Ümumittifaq Türkoloji Qurultay, adından da göründüyü kimi, ümumittifaq miqyasda keçirilirdi. Buna baxmayaraq ittifaqdan kənardan da buraya qoşulanlar vardı. Əlbəttə ki, belə böyük miqyaslı Qurultayın məhz Bakıda keçirilməsi üçün həm siyasi, həm də elmi zəmin olmalı idi. Ümumittifaq səviyyədə qəbul olunan görkəmli ictimai-siyasi xadim, yazıçısı, publisist, həkim, Azərbaycan SSR-in 1-ci Xalq Xarici İşlər Komissarı, Azərbaycan SSR İnqilab Komitəsinin Sədri, Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1-ci Sədri, ZSFSR İttifaq Sovetinin 1-ci Sədri, SSRİ Mərkəzi İcraiyyə

Komitəsi Rəyasət Heyətinin ZSFSR-dən 1-ci Sədri Nəriman Nərimanov (1870-1924) 1920-ci il sentyabrın 12-də Şərq Xalqlarının Bakıda keçirilən I Qurultayının çağırılmasının fəal təşəbbüsçüsü və təşkilatçısı olmaqla bərabər, I Ümumittifaq Türkoloji Qurultayın çağırılmasında da böyük rol oynamışdır. Nəriman Nərimanov da ərəb əlifbasının dəyişdirilməsi problemini həm maarif, həm də mədəni inkişaf məsələsi kimi gündəmə gətirmiş, bu sistemin qüsurlarını qeyd etmiş, lakin məsələnin həllini kiril əlifbasının qəbulunda görmüşdür. Hətta o, dəyişdirilmiş və Azərbaycan fonetikasına uyğunlaşdırılmış əlifba ilə bir sıra əsərlər də yazmışdır. Qurultayda isə müzakirəyə çıxarılacaq əsas məsələlərdən biri Azərbaycan, eləcə də Sovet məkanında yaşayan türk xalqların ərəb əlifbasından latın qrafikalı əlifbaya keçmək məsələsi idi...

Qurultayın keçirilməsi, nümayəndələr, təbrik və çıxışların bir çoxu göstərirdi ki, bu qurultay Moskvanın ciddi nəzarəti altında təşkil olunmuşdur. Belə ki, S.Ağamalıoğlu "Sovet Sosialist Azərbaycanında Birinci Türkoloji Qurultayın birinci təntənəli iclasını açıq elan" edərək deyir: "Yoldaşlar, işə keçməzdən əvvəl sizə bildirməliyəm ki, əvvəlcə xan despotizmi və məsuliyyətsiz feodallar sistemi tərəfindən əzab çəkən, daha sonra isə rus mütləqiyyətinin zülmü altında olan Azərbaycan xalqı tarix səhnəsinə ilk dəfə olaraq azad bir xalq kimi, öz taleyini öz iradəsi ilə yaradan bir xalq kimi çıxır. Rus proletar inqilabının bəxş etdiyi milli özünütəyinetmə ideyası həyata keçirilməkdədir. Əgər azərbaycanlılar, türkmənlər, özbəklər və keçmiş Romanov imperiyasının bütün kiçik xalqları bu gün mövcuddursa, düşünür və nəfəs alırlarsa, bu, Böyük Oktyabr İnqilabının iradəsi sayəsindədir.

Biz burada, bu inqilabın rəhbərlərinin xatirəsini ehtiramla yad etmədən və ilk növbədə onun dahi təşkilatçısı, yoldaş Ulyanov–Leninin xatirəsini anmadan heç bir tarixi əhəmiyyətli işə başlaya bilmərik. Onun xatirəsini ayağa qalxmaqla yad etməyi xahiş edirəm" (Hamı ayağa qalxır) (14, s.6).

Moskva öz istəyini elə təqdim etmişdir ki, sanki qurultayın çağırılması da, orada qoyulan əsas məsələlər də türk-tatar xalqlarının öz istəkləri, öz iradələri ilə hazırlanmışdır. Ağamalıoğlunun çıxışında da, sonrakı dövrlərdə türk xalqlarının bəzi alimlərinin də çıxışlarında bunu izləmək olar: "İlk dəfə olaraq burada türk-tatar xalqlarının nümayəndələri öz qardaşlıq Qurultaylarında bir araya gəlmək imkanı əldə edirlər; bu Qurultayda onların uzun müddətdir həllini gözləyən mədəni məsələləri müzakirə olunacaq və həll ediləcəkdir. Bu günədək türk-tatar xalqlarının tarixində bu xalqların nümayəndələrinin həyatın irəli sürdüyü dinc mədəni məsələləri müzakirə etmək üçün toplandığı belə böyük bir hadisə heç vaxt baş verməmişdir" (14, s.15). Lakin təkcə Qurultay nümayəndələrinin siyahısına, gəldikləri yerlərə və təmsil etdikləri təşkilatlara baxmaq kifayətdir ki, prosesin mərkəzdən idarə olunduğu aydın olsun.

SSRİ Mərkəzi İcra Komitəsi yanında Ümumittifaq Şərqşünaslıq Elmi Assosiasiyasının sədri Mixail Pavloviç (Mixail Lazaroviç Veltman) (1871-1927) (Qurultay sənədlərində yanlış olaraq T.Pavloviç yazılmışdır – G.Y.) həm Assosiasiya, həm də Nərimanov adına Moskva Şərqşünaslıq İnstitutu adından Qurultay iştirakçılarını salamladıqdan sonra deyir: "Bu qurultay Sovet hökumətinin milli siyasətinin mərhələlərindən yalnız biridir..." (14, s.26). Onun çıxışı göstərir ki, əsas məqsəd bir mərkəz ətrafında birləşən xalqların iqtisadi və mədəni bərabərliyinin bariz nümunə kimi ortaya qoyulmasında Qurultayın rolunu vurğulamaqdır. Lakin türklük fədailəri, siyasi sayıqlıqlarını emosiyalarına qurban verənlər sonradan özləri qurbana çevrilirlər.

Çar Rusiyasının əlifba siyasəti (kirillə latının mübarizəsi). M.F.Axundovun ərəb əlifbasını dəyişmək cəhdləri uğursuz olsa da, 1917-ci il Oktyabr inqilabından sonra Çar Rusiyasının ruslaşdırma və xristianlaşdırma siyasətində əsas vasitə olan kiril əlifbasının latın qrafikası ilə əvəzlənməsi məsələsi dövrün tələblərindən birinə çevrilmişdir. Əlbəttə ki, hər şey Çar Rusiyasındakından fərqlənməli idi. 1917-ci ilin sonu 1918-cu ilin əvvəlində kilsənin dövlətdən, məktəbin kilsədən ayrılması haqqında dekretlər qəbul olundu. Bu tək xristianlara aid deyildi. Müsəlmanlar da mollaxanalardan əl çəkib sivil məktəblərdə təhsil almalı idilər. Bütün işlər Dövlət Xalq Təhsili Komissarlığına tapşırıldı. Əslində kiril əlifbasının latın qrafikası ilə əvəz olunması yeni məsələ deyildi.

I Pyotrun özü və çevrəsində qısa yazışmalar rus dilində latın əlifbası ilə gedirdi. XVII əsrdə bu, dəb halını almışdır (7; 16). Rusiya İmperiyasında daim "rus yazısı hansı əlifbaya əsaslanmalıdır?" sualı ətrafında mübahisələr yaranmışdır. Qərb yönümlü alimlərin bir çoxu Pyotrun islahatlarına əsaslanaraq hesab edirdilər ki, əlifba da latın qrafikası əsasında hazırlanmalı idi. Onlar I Pyotrun "düşündüyü", lakin

dar çevrədə həyata keçirə bildiyi bu işi başa çatdırmağa çalışırdılar. Slavyanofillər isə belə hesab edirdilər ki, I Pyotrun əməllərini layiqli davam etdirməyin yeganə yolu bütün Çar Rusiyası xalqlarının kiril əlifbasına keçməsini təmin etmək olardı və bu yöndə doğrudan da xeyli iş görmüşdülər... Hətta XIX əsrdə polyakların, litovların və Reç Pospolitaya parçalanarkən Rusiyanın payına düşən ərazilərdəki digər əhalinin də kiril əlifbasına keçməsi üçün layihə hazırlanmışdı.Bundan sonra Polşanın ruslaşdırılması siyasəti başlamışdı. Bunun üçün Litva və Belarusda rus dilində ibtidai məktəblər açılmış, əhalininin pravoslav ruhunda maarifləndirilməsinə başlanmışdı. Katoliklərə dövlət vəzifələrində çalışmağa icazə verilməmişdi. Ona görə də sürgündən sonra bəzi polyak, litva və ukraynalılar geri dönməmişdilər, Rusiyanın iç əyalətlərində məskunlaşmışdılar. Qeyd edək ki, məşhur bəstəkar Dmitri Şostakoviç və yazıçı Aleksandr Qrin məhz belə sürgün üsyançıların övladları olmuşlar... Üstəlik də sürgün olunanların ailələrindən tələb edirmişlər ki, iki il ərzində torpaqlarını satsınlar. Satılan torpaqları isə yalnız pravoslav ruslar ala bilərdilər. Kişi əhaliyə yaşayış yerindən yerli hakimiyyət orqanlarının icazəsi olmadan 30 verst aralanmaq qadağan idi. Əhaliyə ailə bayramları, yas mərasimləri keçirmək də yasaq olunmuşdur. Çünki bir neçə adamın bir yerə toplanmasına izin verilmirdi. İctimai yerlərdə, rəsmi yazışmalarda polyak, Litva və Ukrayna dilindən istifadəyə, yas saxlamağa görə də cərimə təyin olunmuşdur. 1864-cü ildən latın qrafikalı əlifbadan istifadə etməklə litva dilində mətn çap etmək də yasaq idi. Həmin dövrdə Şərqi slavyan xalqları öz yazılarında polyak orfoqrafiyasının qanunlarından istifadə edirdilər. Əvəzində əhali İ.Kornilov tərəfindən tərtib olunmuş kiril əlifbasından istifadəyə məcbur edilirdi. Yəni ruslar tərəfindən əsl zorakı assimilyasiya siyasəti aparılırdı və bu prosesdə əsas alətlərdən biri də kiril əlifbası idi (4, s.54).

Bu zorakılıq siyasəti Litva əhalisindən də yan keçmədi. Lakin Kiçik Litva adlandırılan Şərqi Prussiyadan gizlin yollarla latın qrafikalı əlifba ilə litov dilində kitablar daşınırdı. Bu kitablar Şərqi Prussiyada və ABŞ-da çap olunurdular (4, s.54).

Polşa Krallığında da vəziyyət eyni idi. Polşa Krallığı 1815-ci il Vyana Konqresindən sonra Rusiya İmperiyasının hakimiyyəti altında muxtariyyət aldı. Lakin tezliklə verilən azadlıqlar məhdudlaşdırılmağa başlandı. Pul vahidi, ölçü və çəki vahidləri dəyişdirildi. Senzura gücləndirildi, Adam Mitskeviç, Yuliuş Slovatski kimi yazıçı və şairlərin əsərləri qadağan olundu... Polyaklar üçün də kiril qrafikası əsasında əlifba tərtib edildi, lakin xalqın etirazı bu layihənin həyata keçməsini yarıda qoydu.

Rusiya İmperiyasının dərinliklərində, əyalətlərdə məsələyə münasibət fərqli idi. 1840-cı ildə Kazan quberniyasında kerəşen tatarların, yəni vatiz olunmuş, xaç suyuna salınmış tatarların bir çoxu İslam dinini qəbul edir. Peterburqda bunun səbəbini onunla izah edirlər ki, pravoslav tatarlar rus dilini bilmirlər, kilsə kitablarını və ayinlərini anlamırlar. Bunun üçün isə tatarların kiril əlifbasına keçmələri lazımdır. 1847-ci ildə dini kitabların tatar dilinə tərcüməsi üçün xüsusi göstəriş verildi. Bu işə qatı rus milliyyətçisi Nikolay İlminski nəzarət edirdi.

XIX - XX əsrin ilk yarısında polyak latınından belarus dilindəki yazıda da istifadə olunurdu. Belarus dili yazı dilinin fonetik sisteminə keçmişdi. 1900-cü ildə cz, sz və z č, š və ž ilə əvəz olundu. Yeni hərflərdən "Naša Niwa" qəzeti istifadə etdiyinə görə, arada həmin əlifba "naşenskiy" adlandırılırdı. Əvvəlkinə isə "velikolitovskiy" deyirdilər.

XIX – XX əsrlərdə Ukrayna dili üçün latın qrafikalı əlifbanın iki variantı vardı: İosif Lizinskinin 1834-cü ildə tərtib etdiyi "polyaklaşdırılmış" əlifba və çox slavisti Yozef İreçekin 1859-cu ildə tərtib etdiyi "çexləşdirilmiş" əlifba.

1833-cü ildə Moskvada naməlum müəllifin "Новыя усовершенствованныя литеры русскаго алфавита" və ya "Орыт wedeniya novыh russkih liter" yazısı çap olundu. Burada müəllif rus dili üçün belə bir əlifba təklif edirdi: Aa, Bb, Cc (цэ), Dd, Ee, Ff, Gg, Hh, Iıı, Jj (жэ), Kk, Ll, Mm, Nn, Oo, Pp, Rr, Ss, Tt, Uu, Vv, Zz, Чч, Шш, Ыы, Юю, Яя (3, s. 76).

1842-ci ildə K.M.Kodinski "Упрощеніе русской грамматики" ("Uproscenie ruscoi grammatichi. — СПб., 1842") ("Rus qrammatikasının sadələşdirilməsi") kitabında rus dili üçün latın əlifbası təklif edir (11). O, 1857-ci ildə "Преобразование и упрощение русскаго правописания" ("Rus yazısının dəyişdirilməsi və sadələşdirilməsi") adlı kitabında yenə də latın qrafikasının tətbiqini təklif edir (12). Kodinskinin təklif etdiyi əlifba rumın, macar və fransız əlifbalarının qarışığı idi: Aa, Bb, Cc, Dd, Ee, Ff, Gg, Hh, İi, Jj, Ll, Mm, Nn, Oo, Pp, Qq, Rr, Ss, Tt, Uu, Üü, Vv, Xx, Yy, Zz. Qəliz

diqrafları olan (cz (ц), sz (ш), sc (щ), hi (ы)) olan əlifba ilə sözlərin oxunuşunda və yazılışında çətinliklər yaranırdı. Məsələn, "рыбы" ("balıqlar") sözü bu əlifbada belə yazılırdı: rhibhi. Soyadların sonundakı –ов, -ев isə "-of", "-ef" kimi yazılırdı... Bir sözlə, bu əlifba yazını daha da qəlizləşdirirdi.

1845-ci ildə V.Belinski difraqramları çıxardaraq rus latınını irəli sürdü (8). 1862-ci ildə Yulian Kotkovski öz broşüründə bütün slavyanlara polyak əlifbasından istifadə etməyi təklif etdi. 1871-ci ildə Zasyadko da öz təklifini verdi. Beləliklə, latın qrafikalı rus əlifbasının tərəfdarlarının hərəsi bir əlifba təklif edirdi (10, s.77-78). Yəni Oktyabr inqilabına qədər Çar Rusiyasında latın qrafikalı əlifbaya keçmək üçün istər Azərbaycan (əsasən M.F.Axundovun timsalında), istərsə də digər xalqların ziyalıları tərəfindən kifayət qədər ciddi cəhdlər olmuşdur.

"Dünya inqilabı – dünya əlifbası". Ruslar üçün latın qrafikalı əlifba. Əlifba islahatı da geniş vüsət almışdı. Kiril əlifbası da köhnəliyin qalığı kimi aradan qaldırılmalı idi. 1918-ci ildə əlifbada islahat apararaq **i**, **Ѳ**,**ѣ**, **ѵ** kimi hərfləri, eyni zamanda samitlə bitən sözlərin sonundakı «**Ъ**» işarəsini çıxartdılar. Lakin bu ilkin mərhələ idi...

RSFSR-nin Xalq Maarifi Komissarı (1917-1929) A.V.Lunaçarski (1875-1933) rusların və eləcə də bütün dünya xalqlarının latın qrafikalı əlifbaya keçməsinin tərəfdarı idi. A.V.Lunaçarskiyə görə, dünya inqilabı azad bəşəriyyətə dünya əlifbası – latın qrafikalı əlifba gətirməli idi... Onun şahidliyinə görə, V.İ.Lenin (1870-1924) də bu əlifbanın tərəfdarı idi. Lakin V.Lenin birdən-birə latın qrafikalı əlifbaya keçməyi haqlı olaraq təhlükəli hesab edirdi: "Əgər biz tələsik yeni əlifbanı həyata keçirməyə başlasaq, ya da mütləq bizimkinə uyğunlaşdırılması lazım gələn latın əlifbasını tələsik daxil etsək, səhv edə bilərik və vandalizmdə günahlandırılaraq tənqid hədəfinə çevrilərik" (13, s.21-22).

Deməli, dünya xalqlarının vahid latın qrafikalı əlifbaya keçməsi SSRİ-nin geniş miqyaslı planlarından biri idi.

1919-cu ildə A.Lunaçarskinin də bilavasitə əli olmaqla Xalq Maarifi Komissarlığının Elmi şöbəsi respublikanın bütün xalqlarının latın qrafikalı əlifbaya keçməsini təklif etdi. Artıq yeni hakimiyyət bir sıra yeni addımlar atmış, yeni təqvim stilinə, ölçü və çəki sisteminə keçmişdi. Bu hərəkat 1921-ci ildən Azərbaycanda və Şimali Qafqazda (İnquşetiya, Şimali Osetiya və Kabarda) da başladı. Təbii ki, yeni quruluş köhnəliyi aradan qaldırmaq məqsədilə apardığı islahatların bəzilərini elm, mədəniyyət adı altında təqdim edirdi. Belə olduqda mərkəzi hakimiyyət müəyyən qədər tənqidi hücumlardan kənarda qala bilərdi. Onu da qeyd edək ki, Qurultayın açılışında Azərbaycan nümayəndə heyətinin və digər respublikaların adından Rəyasət Heyətinin fəxri üzvləri qismində irəli sürülmüş adların arasında Əlibəy Hüseynzadə, Mustafa Quliyev, Nikolay Marr və digərləri ilə yanaşı Anatoli Lunaçarskinin də adı vardı.

1929-cu il avqustun 7-də SSRİ MİK-nin və Xalq Komissarları İttifaqının "SSRİ-nin ərəb yazılı xalqlarının yeni latın qrafikalı əlifbası" başlıqlı qərarı ilə latın qrafikasına keçidə rəsmi status verildi. 1930-cu ildən digər xalqların da bu əlifbaya keçməsi geniş vüsət aldı. 1929-1939-cu illər arası SSRİ-nin yazısı olan 72 xalqından 50-si latın qrafikalı əlifbaya keçmişdi. Burada mari, mordva və udmurtların keçmədiyi bildirilir. Bəzi mənbələrdə 66 xalqın bu əlifbaya keçdiyi göstərilir (abaza, abxaz, beluc, bep, inquş, itelmen, komi, şuqnan, dunqan və s.). Bu dillərin bir çoxunun günümüzdə yazısı yoxdur. Aleut, ərəb, korey və udmurt dilləri üçün də latın qrafikalı əlifba layihələri tərtib olunmuş və təsdiqlənmişdir. Lakin onlar həyata keçirilmədi...

SSRİ xalqlarının latın qrafikalı əlifbaya keçid kompaniyası 1920-ci ildən 1930-cu illəri əhatə edirdi. 1929-cu ildə RSFSR-nın Xalq Maarifi Komissarlığı rus əlifbasının latın qrafikası əsasında tərtibi ilə bağlı məsələlərin işlənmədi üçün komissiya yaratdı. Komissiyanın 14 yanvar 1930-cu il iclasının protokolundan: "Rusların yaxın vaxtda latın əsaslı vahid beynəlmiləl əlifbaya keçməsi qaçılmazdır".

Erməni, gürcü və idiş dilləri latın qrafikasına keçmədilər. Əslində onlar almanlarla birgə heç 1936-cı ildə başlayıb 1940-cı ildə başa çatan kirilləşdirməyə də qoşulmadılar...

1929-cu ildə RSFSR Xalq Maarifi Komissarlığı professor N.F.Yakovlevin başçılığı və dilçilərin, kitabçıların, poliqrafiya mühəndislərinin iştirakı ilə 13 nəfərdən ibarət Komissiya yaratmışdı. Komissiya 1930-cu ilin yanvarında işini başa çatdırdı. Türkcə "yeni əlifba", rus dilində "yanalif" kimi tələffüz olunan bu əlifba belə idi: **Aa, Вв, Cc, Çç, Dd, Ee, Əə, Ff, Gg,Ꞓꞓ, Hh, Ii, Jj, Kk, Ll, Mm,**

Nn, □□, Oo, Өө, Pp, Qq, Rr, Ss, Şş, Tt, Uu, Vv, Xx, Yy, Zz, Ƶƶ, Ьь; apostrof da vardı. Latın dilində olmayan səslər əlavə işarələr şəklində verilirdi. Məsələn, [ы] **ь** kimi, [ч] **c** kimi), ya da diakritik işarəli hərflərlə: [ш] və [дж] **ş** və **ç** kimi. Yekun sənəddə rus latını üçün bir-birindən yalnız «ы», "ё", "ю"», "я" və "ь" daxil edilməsi ilə fərqlənən üç variant təklif edilirdi. Lakin 25 yanvar 1930-cu ildə İ.Stalin rus əlifbasının latınlaşdırılması məsələsinin dayandırılması haqqında göstəriş verdi...

Nəticə. Beləliklə, 1917-ci il Oktyabr inqilabından sonra əlifba islahatı məsələsi yalnız türk və müsəlman xalqları üçün deyil, rus dili üçün də müzakirə obyektinə çevrilmişdi. Bolşeviklər mədəniyyət və dil sahəsində "bütün köhnə formaları dağıdaraq yeni, beynəlmiləl sistem" yaratmaq niyyətində idilər. 1920-ci illərdə SSRİ-də bir çox alim və dilçi, xüsusilə Nikolay Marr və onun məktəbi, yazı sisteminin beynəlmiləlləşdirilməsini təklif edirdilər. Onların fikrincə, latın qrafikası texnoloji cəhətdən daha çevik və dünya elmində daha çox istifadə olunduğu üçün "proqressiv" sayılırdı. 1920–1930-cu illərdə hətta rus dili üçün latın əlifbası layihələri hazırlanmışdı. Bu layihələrdə kiril hərfləri latın işarələri ilə əvəz edilirdi. Məsələn: "Ш" üçün **š**, "Ч" üçün **č**, "Ж" üçün **ž**, "Я" üçün **ja** və s. kimi variantlar təklif olunmuşdu. 1929-cu ildə SSRİ-də "Latınlaşdırma Komitəsi" (Комитет по латинизации) fəaliyyət göstərirdi və bəzi dövri mətbuatda rus yazısının latınlaşdırılması müzakirə edilirdi. Lakin 1930-cu illərin ortalarından etibarən Stalinin milli siyasəti dəyişdi: latın qrafikalı əlifbalar ləğv edildi, bütün xalqlar kiril qrafikasına keçirildi.

Ruslar üçün latın əlifbasına keçid ideyası qısa müddət müzakirə olunsa da, mərkəzi hakimiyyətin milli və ideoloji maraqları bu planı tamamilə dayandırılmışdı. Nəticədə, kiril yazısı sovet imperiyasının "vahid mədəniyyətinin" əsas atributuna çevrilmiş və rus dili bütün SSRİ üçün mədəni hegemon rolunu oynamışdı.

ƏDƏBİYYAT

Latın qrafikalı ədəbiyyat (Azərbaycan və ingilis dillərində)

1. Frings A. Playing Moscow off against Kazan. Azerbaijan manoeuvering to Latinization in the Soviet Union // Ab Imperio, 2009, № 4.
2. Yoloğlu G. I Ümumittifaq Türkoloji Qurultay və Türk Dünyası // Ədəbiyyat qəzeti, 2016, 2 aprel, № 12 (5031), s. 30-31.
3. Yoloğlu G. I Ümumittifaq Türkoloji Qurultayın pərdəarxası məqamları: dünya inqilabı və dünya əlifbası // "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq Konfransın (14-15 noyabr 2016) materialları. Bakı: Elm və təhsil, 2016, s. 75-79.
4. Yoloğlu G. "Rusiya yaşayacaqmı?". Bakı: Qanun nəşriyyatı, 2015, 144 s.

Kirill qrafikalı ədəbiyyat (Rus dilində)

6. Frings A. Соревнование моделей: татарская делегация на Тюркологическом съезде в Баку в 1926 г. // Этнографическое обозрение, 2005, № 6.
7. Бердников Л.И. Ментор для русского царя. Культурно-исторический феномен щегольства в Петровскую эпоху. Часть третья: Франц Лефорт // Новый журнал, 2005, № 239.
8. Грот Я.К. Спорные вопросы русского правописания от Петра Великого доныне: филологическое разыскание Я. Грота. Санкт-Петербург: тип. имп. Акад. наук, 1873, 164 с.
9. Исаев М.И. Языковое строительство в СССР: Процессы создания письменностей народов СССР. Москва: Наука, 1979, 351 с.
10. Кодинский К.М. Преобразованіе и упрощеніе рускаго правописанія. Санкт-Петербург: тип. Имп. Акад. наук, 1857, 32 с.
11. Кодинский К.М. Упрощение русской грамматики: [О замене русского алфавита латинским]. Санкт-Петербург: Типография штаба военно-учебных заведений, 1842, 56 с.
12. Кононов А.Н. Тюркское языкознание в СССР на современном этапе. Итоги и проблемы // Проблемы современной тюркологии: материалы II Всесоюзной тюркологической конференции 27-29 сентября 1976 г., г. Алма-Ата. Алма-Ата: Наука Казахской ССР, 1980, с.13.
13. Луначарский А.В. Латинизация русской письменности // Культура и письменность Востока. Москва, 1930, № 6, с. 20-26.

14. Первый Всесоюзный Тюркологический Съезд, 26 февраля - 5 марта 1926 г. (Стенографический отчет). Баку: Нагыл Еви, 2011, 552 с.
15. Первый Всесоюзный тюркологический съезд. 26 февраля — 5 марта 1926 г. Стенографический отчет. Баку: Бакинский рабочий, 1926.
16. Пётр I. Письма и бумаги императора Петра Великого. Т. 1: (1688–1701). Санкт-Петербург: Государственная типография, 1887, 605 с.
17. Самойлович А.Н. Тюркское языкознание, филология, руника. Москва: Восточная литература, 2005, 1053 с.

ГЮЛЛЮ ЙОЛОГЛУ
Заведующий кафедрой «История и этнология тюркских народов»
Института истории и этнологии им. А.А. Бакиханова Национальной академии наук Азербайджана,
Доктор философии по филологическим наукам, доктор исторических наук, доцент

ИСТОРИЧЕСКИЕ ФАКТОРЫ, ДАВШИЕ ТОЛЧОК ПРОВЕДЕНИЮ I ВСЕСОЮЗНОГО ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА

В данной статье представлен критический и многоаспектный анализ I Всесоюзного тюркологического съезда 1926 года в Баку, рассматриваемого как одно из поворотных научно-общественных событий XX века. В отличие от традиционных исследований, акцентирующих внимание лишь на официальных резолюциях, автор переносит фокус на «закулисные» процессы: детально изучаются этапы подготовки съезда, скрытые идеологические противостояния и дискуссии среди ученых-участников. В работе научно эксплицируется амбивалентное отношение советской власти к тюркологии, вскрывается политическая подоплека проекта единого латинизированного алфавита, а также анализируются позиции национальной интеллигенции и политической эмиграции. Особое место уделено причинно-следственной связи между решениями съезда и последующими сталинскими репрессиями. В заключении дается объективная оценка судьбоносных результатов съезда и его амбивалентной роли в научном, культурном и геополитическом развитии тюркских народов.

Ключевые слова: Тюркологический съезд, Баку (1926), латинизация, советская идеология, закулисные процессы, национальная интеллигенция.

GÜLLÜ YOLOĞLU
Head of the Department of "History and Ethnology of Turkic Peoples"
of the A.A.Bakikhanov Institute of History and Ethnology of the Azerbaijan National Academy of Sciences,
PhD in Philology, Doctor of Historical Sciences, Associate Professor

HISTORICAL FACTORS THAT PROMPTED THE HOLDING OF THE 1ST ALL-UNION TURCOLOGICAL CONGRESS

This article provides a critical and multifaceted analysis of the 1926 First All-Union Turkological Congress in Baku, viewed as one of the pivotal scientific and social events of the 20th century. Unlike traditional studies that focus solely on official resolutions, this paper shifts its focus to the "behind-the-scenes" processes: the preparation phases, hidden ideological confrontations, and intense discussions among participating scholars are examined in detail. The study scientifically explicates the Soviet regime's ambivalent attitude toward Turkology, uncovers the political underpinnings of the unified Latinized alphabet project, and analyzes the stances of national intellectuals and political emigrants. Special attention is dedicated to the causal relationship between the decisions of the

Congress and the subsequent Stalinist repressions. The paper concludes with an objective evaluation of the fateful outcomes of the Congress and its complex role in the scientific, cultural, and geopolitical development of Turkic peoples.

Keywords: Turkological Congress, Baku (1926), Latinization, Soviet ideology, behind-the-scenes processes, national intellectuals.

Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilib.

I Türkoloji qurultay - 100



UOT 94(479.24); UOT 94

QABIL ƏLIYEV
tarix elmləri doktoru, professor
Bakı Dövlət Universiteti,
Azərbaycan Universiteti,
https://orcid.org/0000-0002-2372-5907
qabilalioglu1956@gmail.com

I TÜRKOLOJİ QURULTAYDA TÜRK DÜNYASININ TARİXİ MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/114/46-54

1926-cı ildə Bakıda Birinci Türkoloji Qurultayın keçirilməsi və orada müzakirə olunan problemlər: türk xalqlarının tarixi, etnoqrafiyası, dili, ədəbiyyatı, əlifbası və s. öz dövrü üçün çox böyük tarixi hadisə idi. Qurultayda alınan qərarlar türk dünyası tarixi və etnoqrafiyasının tədqiqi, terminologiya hazırlanması, latın əlifbasına keçilməsi və s. sahələr üzrə perspektivləri müəyyən etdi. Təqdim edilən məqalədə Qurultayın tarixi əhəmiyyəti və bu mötəbər forumda dinlənilmiş məruzələrin Türk dünyası tarixinin və etnoqrafiyasının öyrənilməsi üçün açdığı imkanlar araşdırılmışdır.

Açar sözlər: Türkoloji qurultay, Türk dünyası tarixi, türk xalqlarının etnoqrafiyası, yazılı qaynaqlar, arxeoloji qazıntılar, maddi mədəniyyət nümunələri.

Giriş. Birinci Türkoloji Qurultay (rəsmi adı: Birinci Ümumittifaq Türkoloji Qurultay – Q.Ə.) 1926-cı il 26 fevralın 26-dan martın 6-na kimi Azərbaycanın təşəbbüsü ilə[1] Bakı şəhərində keçirilmişdir. Bu mötəbər forumda SSRİ ərazisində yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı məruzələr dinlənilmiş, bir sıra mühüm əhəmiyyətə malik qərarlar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birinci Türkoloji Qurultayın 100 illiyi haqqında 22 oktyabr 2025-ci il tarixli sərəncamında bu mötəbər tədbir çox yüksək qiymətləndirilmişdir: "Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır" [1].

Bakı şəhərində İsmailiyyə binasında işə başlayan bu qurultayda həlledici səslə 131 nəfər nümayəndə, o cümlədən 20 nəfər xarici qonaq iştirak etmiş, 17 iclas keçirilmişdi. Xarici nümayəndələrdən

[1] *Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 2 may 1925-ci il tarixli iclasında türkoloji qurultayın çağırılmasının zəruri və təcili bir məsələ olduğu haqqında qərar qəbul edildi. Türkoloji qurultayı hazırlamaq üçün Təşkilat komitəsi yaradıldı [2; 7, c.8].*

2 nəfər alim İstanbuldan (Türkiyədən – Q.Ə.), 2 nəfər alim Almaniyadan, 1 nəfər alim Avstriyadan, 1 nəfər alim Macarıstandan, 1 nəfər alim İrandan iştirak etmişdi [8, c.37]. Qurultayda türklərin, bütövlükdə Türk Dünyasının tarixinə və etnoqrafiyasına, türk dili, ədəbiyyatı və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdi.

Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, xüsusən də Azərbaycan xalqının mədəni həyatında baş vermiş çox əlamətdar hadisələrdən biri olmuşdur. Qurultayın işində Sovet İttifaqında yaşayan 24 milyonluq türk xalqlarının 93 nəfər nümayəndəsi ilə yanaşı, xarici alimlər: dilçilər, tarixçilər, etnoqraflar, ədəbiyyatşünaslar və digər elm sahələrinin görkəmli mütəfəkkirləri iştirak etmişdilər. Türk xalqlarının mədəni inteqrasiyasında mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm qurultay ilk növbədə geniş gündəliyi, böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin müzakirə olunduğu, onların həyata keçirilməsi üçün perspektivlərin müəyyən edildiyi nəhəng forum idi.

Qurultayda Türk dünyası tarixi məsələləri. Birinci Türkoloji Qurultayda dinlənilən ilk elmi məruzələr türk xalqlarının tarixi, mədəniyyəti, etnoqrafiyası haqqında olmuşdur [16, c.21-96]. Onların arasında bəziləri qurultay iştirakçılarının diqqətini daha çox cəlb etmişdi. Xüsusən görkəmli türkoloq-şərqşünas, akademik Vasili Bartoldun "Türk xalqlarının tarixinin müasir vəziyyəti və öyrənilməsinin yaxın vəzifələri" adlı məruzəsi [9, c.21-32] böyük maraqla qarşılanmışdı. Şərqşünaslıq Assosiasiyasının üzvü İlya Borozdinin "Tatar mədəniyyəti sahəsində ən yeni kəşflər" [10, c.33-38], Əziz Qubaydulinin "Türk-tatar xalqlarının tarixi ədəbiyyatının inkişafı" [11, c.39-57], akademik Sergey Oldenburqun "Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları" [15, c.352-360], görkəmli etnoqraf və sənətşünas Aleksandr Müllerin "Türk xalqlarının təsviri sənəti haqqında" [14, c.76-80] adlı məruzələri də qurultay iştirakçılarının diqqətini cəlb etmişdi.

Birinci Türkoloji Qurultayın nüfuzlu iştirakçılarından olan akademik Vasili Bartold öz məruzəsində gənc sovet türkologiyasının inkişafı üçün əsas metodoloji istiqamətləri müəyyənləşdirdi. Məruzəçi çıxışının lap başlanğıcında tarixi türkologiyanın xüsusi statusu olduğunu qeyd etdi: "Türkologiya sahəsinə aid edilə bilən elmi fənlər arasında türk tayfa və xalqlarının tarixi xüsusi yer tutur" [9, c.21]. Alim vurğuladı ki, Türk dünyası tarixinin tam dəyərli tədqiqi üçün sadəcə filoloji biliklərə malik türkoloq olmaq kifayət deyildir. V.Bartold təkidlə bildirirdi ki, türklərin tarixinin dərindən öyrənilməsi qonşu elm sahələri üzrə də geniş hazırlıq tələb edir. Araşdırılan dövrdən asılı olaraq, tədqiqatçı çinşünaslıq, ərəbşünaslıq və ya iranşünaslıq metodlarına yiyələnməli, o dillər üzrə mənbələrdən istifadə etməyi bacarmalıdır: "Şərqi Asiyada, xüsusən də Monqolustanda yaşayan türklərin dili (onlar burada çox güman ki, artıq X əsrdə sıxışdırılıb çıxarılmışdılar) bizə demək olar ki, yalnız Çin mənbələrindən məlumdur. Orta Asiyanın qərb hissəsinə köçən və müsəlman mədəniyyətinin təsirinə tabe olan türklər haqqında məlumatları biz ərəb və daha çox fars mənbələrindən alırıq" [9, c.21].

Görkəmli alim orta yüzilliklərin ərəb, fars, Çin və Avropa dillərində olan tarixi əsərlərə müraciət edən tədqiqatçılara tövsiyə edirdi ki, həmin mətnlərə ciddi elmi tənqidi yanaşmaq lazımdır. O, məruzəsində Çin mənbələri əsasında aparılan tədqiqatlara istinad edərək yeni eranın I əsrində Çinin şimalında yaşayan syanbi tayfalarının türk olmaları, çuvaşların Qərbə yürüş edən ən qədim türk tayfaları olmaları, bu tayfaların e.ə. III əsrdə Çin qaynaqlarında adı çəkilən hunların varisləri olmaları haqqında maraqla qarşılanan mülahizələr irəli sürmüşdü [9, c.22, 23].

V.Bartoldun qırğızlar haqqında məlumatları da öz dövrü üçün elmi yenilik idi. O, Çin, sonra da ərəb mənbələri əsasında qırğızların əvvəllər Yeniseyin yuxarı axarı boyunda yaşadıqlarını, sonralar isə tədricən cənub-qərbə – Semireçyeyə doğru hərəkət etdiklərini və indi də, əsasən, burada yaşayan xalq olduğunu, dillərinin türk, antropoloji cəhətdən isə türklərdən fərqli, açıq rəngli saçlara malik olduqlarını, slavyanlara bənzədiklərini bildirdi [9, c.23].

V.Bartold məruzəsinin sonunda türk xalqlarının tarixi üzrə Şərq əlyazmalarının etibarlı kataloqlarının yaradılmasının zəruriliyini qeyd etdi. Məruzəçi SSRİ türk xalqlarının yazılı abidələrinin sistemli şəkildə toplanması, qorunması və təsvir edilməsinin, həmçinin mərkəzi akademik institutlar ilə müttəfiq respublikalardakı yeni elmi mərkəzlər arasında fəaliyyətin əlaqələndirilməsinin vacibliyini xüsusi vurğuladı. V.Bartoldun çıxışı diqqəti əlifba islahatı (latın əlifbasına keçilməsi – Q.Ə.) ilə bağlı sırf siyasi müzakirələrdən türk xalqlarının ümumi tarixi və mədəni irsinin dərindən və sistemli

şəkildə öyrənilməsinə yönəldərək qurultaydakı müzakirələrə yeni istiqamət verdi. Təsadüfi deyil ki, qurultayda V.Bartoldun məruzəsində irəli sürdüyü məsələlər üzrə qətnamə hazırlamaq üçün 7 alimdən ibarət komissiya yaradıldı [16, c.66].

Birinci Türkoloji Qurultayda V.Bartolddan sonra çıxış edən İ.Borozdin "Tatar mədəniyyəti sahəsində ən yeni kəşflər" adlı məruzəsində türk xalqlarının tarixi haqqında son dövrdə dərc olunmuş əsərlərə qiymət verdi, həmçinin maddi mədəniyyət abidələrinin geniş miqyasda tədqiq edilməsi zəruriliyinə diqqəti cəlb etdi. Məruzəçi SSRİ-nin türk xalqlarının tarixi talelərinin kifayət qədər və dolğun araşdırılmadığını qeyd etdi və xüsusi vurğuladı ki, yazılı mənbələrin məlumatları ilə tamamlanmayan boşluqları doldura bilən maddi mədəniyyət abidələri çox az tədqiq edilmişdir: "Xəzərlərin, Volqa bolqarlarının, Cənubi Rusiya çöllərinin tez-tez dəyişən sakinlərinin, Orta Asiya türk tayfalarının, Azərbaycan sakinlərinin və s. xalqların qədim abidələrinin tədqiqi zəruri tələbatdır" [10, s.42].

İ.Borozdin məruzəsində "Rusiyanın cənubunda geniş yayılan, Qafqaz və Krıma güclü nüfuz edən həddən artıq maraqlı Xəzər mədəniyyəti" haqqında bilgilərin "yalnız çox kasad, əksər hallarda ziddiyyətli mənbələr əsasında bərpa edildiyindən" bəhs etmiş, akademik P.Kokovtsovun yenidən elmi dövriyyəyə gətirdiyi "yəhudi yazısı"nın Xəzər xaqanlığının tarixini öyrənmək baxımından bir mənbə kimi əhəmiyyətini yüksək qiymətləndirmişdi. Qeyd etmək maraqlıdır ki, P.Kokovtsov bu sahədə elmi araşdırmalarını sonrakı onillikdə də uğurla davam etdirmiş, "X əsrdə Yəhudi-Xəzər yazışması" adlı qiymətli əsərini çap etdirmişdi [12]. Bu əsərin sonunda müəllif Xəzər xaqanlığı və xəzərlər haqqında XI-XII əsrlərə aid yəhudi qaynaqlarını da dərc etdirmişdi [12, c.127-134].

İ.Borozdin məruzəsində İsveç arxeoloqu Ture J.Arne tərəfindən yazılmış "La Suede et l'Orient" adlı əsərdən bəhs etmiş, Xəzər tacirlərinin Skandinaviya yarımadası ilə Ərəb Xilafəti arasındakı ticarət münasibətlərində oynadıqları vasitəçi rolu haqqında müəllifin mülahizələrini xüsusi qeyd etmişdi. Arne əsərində diribaş norman vikinqləri və Skandinaviya tacirlərinin uzaq cazibədar Şərqə mal dalınca getmələri və öz mallarını aparmaları haqqında bəhs edərkən, runik yazılarında bu tacirlərin tez-tez Saerkland (Sarkəl ölkəsi – Xəzər xaqanlığı) səfərlərindən danışıldığı haqqında bilgi vermişdi. Arne bu yeri çox incəliklə, yəni Şimal və Şərq tacirlərinin görüş yeri olan Xəzər ölkəsi kimi açıqlayır. İsveçli arxeoloq eyni zamanda, məşhur "varyaqlardan yunanlara" qədər olan yoldan heç də az əhəmiyyətə malik olmayan Volqa yolunun önəminə diqqəti cəlb etmişdi. İ.Borozdin məruzəsində ayrıca vurğulamışdı ki, Arnenin əsərində və digər tədqiqatlarda xəzərlərin tarixi rolu haqqında getdikcə daha çox bəhs olunsa da, onların keçmişi, sosial-siyasi və mədəni quruluşlarının fərqləndirici xüsusiyyətləri hələ də yetərincə işıqlandırılmamışdır [10, s.42]. Məruzəçi çıxış yolu kimi, Kalmıkiya və Dağıstanda xəzərlərin şəhər və məskənlərinin olduğu yerlərə arxeoloji ekspedisiyalar göndərməklə tədqiq edilməsinə diqqətin artırılmasını vacib saymışdı.

Məruzədə bolqar tayfalarının Volqa boyundakı zəngin mədəniyyətinin tarixi-arxeoloji baxımdan daha səmərəli şəkildə araşdırılmasından da məmnunluqla bəhs edilmişdi. Bolqar şəhərində (Qazan yaxınlığında – Q.Ə.) son zamanlarda Qazan Arxeologiya və Tarix cəmiyyətinin, həmçinin professor Başkirovun 1919-cu ildəki ekspedisiyaları tərəfindən aparılan qazıntıların daha sistemli şəkildə davam etdirilməsi zəruriliyi xüsusi vurğulanmışdı. Məruzədə həmçinin bolqarlarla bağlı bir sıra məsələlərin hələ də son həllini tapmadığı, qədim bolqar əşyaları sahəsində tədqiqatları genişləndirmək və dərinləşdirməyin böyük əhəmiyyətə malik olduğu bildirilmişdi [10, s.42-43].

İ.Borozdinin məruzəsində Monqol imperiyasının yaranmasının dünya tarixinə təsiri haqqında fikirləri günümüzdə də öz aktuallığını saxlayır. Məruzəçi Çingiz xanın Çinin dərinliklərindən başlayıb, Orta Asiyadan, Rusiya düzənliklərindən keçərək, Qərbi Avropa hüdudlarınadək davam edən yürüşlərini möhtəşəm adlandırmış, nəticədə bir sıra zəngin mədəni ənənələri özündə ehtiva edən maraqlı, özünəməxsus bir mədəniyyət yarandığını vurğulamışdı. Mongol istilalarının yalnız "hər yerin və hər şeyin" od və qılıncla məhv edildiyi sırf dağıdıcılıqdan ibarət olmadığını xüsusi qeyd etmişdi [10, c.43]. Məruzəçi təəssüflə bildirmişdi ki, əksər hallarda tatarların və onların yaratdıqları mədəniyyətin təsviri birtərəfli və bayağı şəkildədir. Avropa müəlliflərinin çoxunun əsərlərində "istilaçı tatarların vəhşiliyi və mədəniyyətsizliyi" qırmızı xətt kimi fərqlənir. Əslində isə tatar abidələrinin diqqətlə və dərindən araşdırılması tamamilə bunun əksini sübut edir. Məruzəçi bu tezisinin təsdiqi üçün Qızıl Ordu dövlətinin paytaxtları – Köhnə Saray və Yeni Saray şəhərlərinin yerlərində aparılmış

arxeoloji qazıntıların nəticələrini nümunə kimi göstərdi. Professor Ballodun apardığı bu qazıntıların həmin yaşayış məntəqələrinin o dövrdə abad və çiçəklənən Şərq şəhərləri olduğuna dəlalət etdiyini bildirdi. Məruzəçi Orta Asiyadan Volqaboyu və Krıma gedən ticarət yollarının sistemli şəkildə tədqiq olunmasını, həm də arxeoloji ekspedisiyalarla yanaşı, arxeoqrafik ekspedisiyalar təşkil edilməsini zəruri saydığını qeyd etdi [10, c.38]. İ.Borozdin məruzəsinin sonunda qeyd etdi ki, tatar mədəniyyətinin öyrənilməsi sahəsində hələlik çox az iş görülmüşdür və böyük tədqiqat işlərinə tələbat vardır.

Görkəmli tarixçi və şərqşünas Əziz Qubaydulinin "Türk-tatar xalqlarında tarixi ədəbiyyatın inkişafı" adlı geniş həcmli məruzəsi Birinci Türkoloji Qurultayda tarix üzrə ən maraqlı çıxışlardan biri kimi qarşılandı. Məruzədə Sovet İttifaqında yaşayan türk-tatar xalqlarının nümayəndələri tərəfindən yazılmış türk tarixinə dair əsərlər təhlil edildi. Alim türk xalqlarının tarixşünaslığının təkamülünə dair ətraflı analitik icmal təqdim etmişdi. Ə.Qubaydulin qədim abidələrdən, orta əsr xronikalarından başlayaraq, XIX əsrdə və XX əsrin əvvəllərində Qərbi Avropa tarix elminin təsiri altında yazılmış tarixi əsərlər əsasında türk etnoslarının tarixi təfəkkürünün və ədəbiyyatının inkişaf yolunu şərh etdi. Məruzədə ilk növbədə Abasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəri yüksək qiymətləndirilmiş, müəllifi haqqında "tamamilə avropalıdır və onun düşüncə tərzi də bizə Avropa və rus tarixçilərini xatırladır" – deyə bəhs olunmuşdu [11, c.40].

Ə.Qubaydulinin məruzəsində XIX əsrin 60-cı illərindən başlayaraq Volqaboyu tatarlarında başlanan oyanış və dini-islahatçı hərəkat fonunda tarixi keçmişə marağın artdığından bəhs etmiş, Mərcani kimi tarixçinin meydana çıxdığını bildirmişdi. Mərcaninin tarix nəzəriyyəsi, İslam və Orta Asiya tarixi, xüsusən də Şərqi Avropa türk-tatarlarının tarixi üzrə əsərlərini yüksək qiymətləndirmişdi [11, c.40-41]. Məruzəçi Volqaboyu tatarlarının və bolqarlarının tarixi və etnoqrafiyası haqqında Mərcaninin ardıcılları: Xusain Faisxanov, Kayum Nasıri tərəfindən yazılmış əsərləri də geniş təhlil etmiş, onların müsbət məziyyətlərini diqqətə çatdırmışdı [11, c.42-43].

Məruzəçi 1905-ci il inqilabının təsiri ilə çarizmin mətbuat azadlığına imkan yaratmasından sonra Volqaboyu, Krım və Uralda tarixi əsərlərin yazılması sahəsində böyük uğurlar qazanıldığını xüsusi vurğulamışdı. O, Yusuf Akçurinin "Tarix və elm" adlı əsəri, Aynuddin Axmarovun Volqaboyunun türk xalqları: tatar, bolqar və çuvaşlardan, Munir Qadinin başqırdlardan bəhs edən məqalələri haqqında da məlumat vermiş, onları yüksək dəyərləndirmişdi [11, c.43-45]. Ə.Qubaydulin məruzəsində Zəki Validinin 1912-ci ildə çapdan çıxmış "Türklərin və tatarların tarixi" adlı əsərinin təhlilinə də geniş yer vermişdi. Zəki Validinin bu əsərində siyasi tarixə daha çox diqqət yetirdiyini qeyd etmiş, mənbələrə tənqidi yanaşmasını, ixtibaslar verməsini müsbət cəhət kimi qiymətləndirmişdi [11, c.47]. Məruzəçi II Dumanın üzvü olmuş radikal əhval-ruhiyyəli molla Qadi Atlası tərəfindən yazılmış tarixi əsərləri də təhlil etmiş, xüsusən də onun iri həcmli "Kazan xanlığının tarixi" adlı əsərini türk-tatar tarixşünaslığında ciddi yenilik saymışdı. Qadi Atlasının əsərində qədim tatar dilində olan ilkin mənbələrdən, o cümlədən Sahib-Girey xanın yarlığından istifadə etməsini müsbət cəhət kimi qeyd etmişdi [11, c.48].

Məruzənin son bölümündə Oktyabr çevrilişindən sonrakı dövrdə tarix elminin inkişafında yeni dövr başladığı, türk-tatar məktəblərində öz xalqlarının milli tarixinin tədrisinə geniş imkan yaradıldığı xüsusi vurğulandı. Həmçinin Sovet dövründə Azərbaycan türklərinin, özbək, qazax, qırğız xalqlarının nümayəndələri tərəfindən yazılmış tarixi əsərlər, həmçinin nəşr olunmuş ilkin mənbələr, bədii ədəbiyyat nümunələri haqqında geniş məlumat verildi [11, c.49-53].

Məruzəçi sonda həmkarlarını təsviri salnaməçilikdən və tarixə dini-sülalə yanaşmasından uzaqlaşmağa çağırdı. O, marksist elmi-tədqiqat metodunun tətbiqini, sosial-iqtisadi ilkin şərtlərin və xalq kütlələrinin tarixi inkişafda rolunun araşdırılmasının, həm də türk xalqlarının həyatını, dillərini bilən gənc türk mütəxəssisləri tərəfindən araşdırılmasının vacibliyini qeyd etdi. Ə.Qubaydulin arxiv materiallarının, folklorun, əlyazmaların sistemli şəkildə toplanmasının və türk dilinə çevrilərək nəşr edilməsini, rus və Avropa tarixçilərinin türk xalqlarının tarixi haqqında ən vacib əsərlərinin türk dilinə tərcümə edilməsini təklif etdi [11, c.57].

Akademik Sergey Oldenburq məruzəsinin əvvəlində vurğuladı ki, "türk xalqlarının qeyri-adi dərəcədə mürəkkəb etnik tərkibini nəzərə alsaq, ölkəşünaslıq onlarda müstəsna əhəmiyyət kəsb edir. Çünki türk xalqlarının məişətində onların uzunmüddətli mövcudluğu dövründə toplanmış bütün xüsu-

siyyətləri yalnız ən diqqətli diferensiasiya və detallaşdırma sayəsində ayırd etmək mümkündür" [15, c.352]. Məsələn, yer adlarını dəqiq müəyyənləşdirmək lazımdır, çünki onlara əsasən çox mühüm tarixi nəticələr çıxarmaq olar. Daha sonra, bu və ya digər xalqın harada və nə zaman məskunlaşma səbəblərini aydınlaşdırmaq üçün hər hansı bir ərazinin planını anlamaq lazımdır və s. Bütün bunları ölkəşünaslıq yerinə yetirə bilər. Ölkəşünaslıqla məşğul olmaq kütləvi hal almalı, elmi termindən adi bir hadisəyə çevrilməlidir.

Məruzəçi xüsusi qeyd etdi ki, şəhər və kəndləri fəhlə və kəndli gənclərin fəal iştirak etdiyi yerli ölkəşünaslıq dərnəklərinin sıx şəbəkəsi ilə əhatə etmək lazımdır. Bu dərnəklərin fəaliyyətinin canlılığı üçün yerlərdə məktəb müəllimlərinin fəal iştirakı etməsi, dərnək üzvlərinin məktəblə birbaşa əlaqəsi vacibdir. Bu dərnəklər öz vəsaitləri hesabına mövcud ola bilər və kənardan işçiləri cəlb etmək üçün yalnız kiçik subsidiyalarla kifayətlənə bilərlər [15, c.356-357].

S.Oldenberq həmçinin vurğuladı ki, daha böyük mərkəzlərdə isə nisbətən böyük kitabxanalar və muzeylərin yaradılması lazımdır. Ölkəşünaslıq üçün onların əhəmiyyəti çox böyükdür və onların fəaliyyəti ölkəşünaslıq hüdudlarından kənara çıxır. Türk respublikalarında isə elmi məsləhətlər verə biləcək və xüsusi kurslarda vaxtaşırı ölkəşünaslıq kadrları hazırlayacaq Ölkəşünaslıq İnstitutlarına ehtiyac vardır.

Qurultayda türk xalqlarının etnoqrafiyası məsələsi. Birinci Türkoloji Qurultayda türk xalqlarının etnoqrafiyası haqqında üç məruzə dinlənildi. Q.Çursinin "Qafqaz türklərinin etnoqrafik baxımdan öyrənilməsinin ən yaxın vəzifələri", macar etnoqrafı Dyula (Yuli) Mesaroşun "Anadolu və Balkan türklərinin etnoqrafik baxımdan öyrənilməsinin müasir vəziyyəti və ən yaxın vəzifələr", Sergey Rudenkonun "Türk tayfalarının etnoqrafik baxımdan öyrənilməsinin müasir vəziyyəti və ən yaxın vəzifələr" adlı məruzələrində türk xalqları və tayfalarının etnoqrafiyası haqqında çox önəmli məsələlərdən bəhs edildi.

ZSFSR MİK-in nəzdində Cənubi Qafqaz Elmi Assosiyasının Etnoqrafiya şöbəsinin müdiri Q.Çursin məruzəsində bildirdi ki, Qafqazda 50-yə qədər müxtəlif xalq yaşayır və onların 10-a yaxını türkdillidir [19, c.72]. Məruzəçi bu xalqların təsərrüfat həyatı və ictimai məişətinin tipoloji aspektlərinə toxunaraq, onların ictimai inkişaf səviyyəsi baxımından heç də eyni səviyyədə olmadığını vurğuladı, ailə və mənəvi mədəniyyət sahəsində də oxşar və fərqli xüsusiyyətlərə diqqəti cəlb etdi. Q.Çursin qurultay iştirakçıları qarşısında Qafqazın türk xalqlarının etnoqrafiyasını planlı və sistemli şəkildə öyrənmək üçün konkret vəzifələr irəli sürdü. İlk növbədə bu xalqlardan bəhs edən biblioqrafik göstəricilərin, ərəb, fars və digər dillərdə olan mənbələrin toplanıb nəşr edilməsini, ayrıca elmi-tədqiqat institutu və türk xalqları etnoqrafiyası muzeyi yaradılmasını təklif etdi [19, c.75-76]. Bütövlükdə ciddi araşdırma təsir bağışlayan bu məruzədə müəllifin Qafqazın türk xalqlarının yerli, köklü deyil, sonradan gəlmə olmaları haqqında mülahizəsi çox yanlış olmaqla bərabər, həm də heç bir ciddi mənbəyə istinad etmədən irəli sürdüyü tezis idi. Ona görə də, sonrakı dövrdə bu mülahizə ciddi tənqid olunmuşdur [5, s.175].

Görkəmli macar türkoloqu, etnoqrafı və folklorşünası Dyula (Yuli) Mesaroş məruzəsinin əvvəlində diqqətə çatdırdı ki, Anadolu və Balkan türklərinin mədəniyyəti və məişətinin öyrənilməsi istiqamətində Türkiyədə böyük işlər görülməsinə başlanmışdır. Ankarada yeni yaradılmış Etnoqrafiya muzeyinin Anadolu türklərinin maddi və mənəvi mədəniyyətinə aid nümunələrin toplanmasında böyük uğur qazandığını vurğuladı [13, c.66]. Məruzəçi Şərqi Anadolunun qədim sakinləri olan alarodi tayfaları və onların Qafqaz xalqları ilə yaxınlığı haqqında urartuşünasların araşdırmaları haqqında məlumatı da maraqla qarşılandı.

D.Mesaroş məruzəsində uzun müddət ərzində Anadolu və Balkan türklərinin akademik nöqteyi-nəzərdən az öyrənilmiş olaraq qaldığını vurğuladı. Osmanlı imperiyasında xalq kütlələrinin folkloru ilə yalnız XIX əsrin sonlarına yaxın məqsədyönlü şəkildə maraqlanmağa başlanıldığını bildirdi. Alim Anadolu və Balkan türklərinin genişmiqyaslı, sistemli şəkildə etnoqrafik və folklor materiallarının toplanmasının zəruriliyini xüsusi qeyd etdi. Bu regionlarda yaşayan türk xalqların etnoqrafiyasının ciddi araşdırılmasının etnik prosesləri, türk tayfalarının miqrasiya yollarını, eləcə də onların Kiçik Asiya və Balkanların yerli əhalisi ilə qarşılıqlı əlaqələrini izləmək üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirdi [13, c.69-70].

Bununla bərabər, macar alimin məruzəsində Anadolunun ən qədim sakinlərinin Avropadan gəlmiş hind-alman tayfaları olması, türk tayfalarının isə yalnız XI əsrdən etibarən Səlcuq yürüşləri zamanı Kiçik Asiyada məskunlaşması haqqında mülahizələri [13, c.68] müasir dövrdə ciddi qəbul edilmir və haqlı olaraq tənqid olunur [5, s.176].

Avrasiyanın köçəri xalqlarının tarixi, mədəniyyəti və antropologiyası üzrə qiymətli araşdırmaların müəllifi, görkəmli rus və sovet etnoqrafı, arxeoloqu və antropoloqu Sergey Rudenko Birinci Türkoloji Qurultayda "Türk tayfalarının etnoqrafik baxımdan öyrənilməsinin müasir vəziyyəti və ən yaxın vəzifələr" və "İnqilab dövründə SSRİ-də antropologiyanın ən böyük uğurları" adlı məruzələrlə çıxış etdi [17] S.Rudenko ilk məruzəsində türk etnoslarının çox geniş bir coğrafiyada – Aralıq dənizi sahillərindən Asiyanın ən ucqar şimal-şərqinə, Orta Volqaboyundan Tyan-Şan və Pamir dağlarına qədər böyük ərazidə yaşadıqlarını qeyd etdi. O, təqdim etdiyi bu məruzəsində SSRİ-də yaşayan türk xalqlarının etnoqrafik tədqiqinə sistemli elmi yanaşmanın örnəyini təqdim etdi.

Məruzəçi öz çıxışında bir neçə kritik əhəmiyyətli istiqaməti vurğuladı, ilk növbədə anlayışların fərqləndirilməsi zəruriliyini bildirdi. Alim qeyd etdi ki, "Türk dünyası" haqqında bütöv bir anlayış kimi əsasən linqvistik nöqteyi-nəzərdən danışmaq olar. O diqqətə çatdırdı ki, türk xalqlarının dili, mədəniyyəti və fiziki (antropoloji – Q.Ə.) tipi çox vaxt bir-biri ilə birbaşa və sıx bağlı olmadan, müstəqil şəkildə inkişaf edir [18, c.58]. Məruzəçi bəyan etdi ki, 1926-cı ilə qədər türk xalqları və tayfalarının etnoqrafik cəhətdən öyrənilməsi pərakəndə və sistemsiz şəkildə, həm də çox vaxt tək-tək tədqiqatçıların qüvvəsi ilə aparılmışdır ki, bu da vahid etnoqrafik mənzərənin yaradılmasına imkan verməyibdir. Görkəmli alim bütövlükdə türk xalqlarının etnoqrafiyasının zəif araşdırıldığını qeyd etməklə yanaşı, paleoetnoqrafik tədqiqatlara xüsusi diqqət yetirilməsi zəruriliyini vurğuladı: "türk dünyası sahəsində paleoetnoloji tədqiqatlar hələlik yalnız rüşeym halındadır. Türklərin məskunlaşdıqları ərazilərdə ... qüsursuz və planlı şəkildə paleoetnoloji ekspedisiyaların təşkili birinci növbədə həll edilməli məsələ olmalıdır" [18, c.64]. Bu tədqiqatların Türk dünyasının məişət formalarının təkamülünü və genezisini öyrənmək üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı.

Məruzəçi türk xalqlarının məişətindən bəhs edərkən, onların ilk növbədə köçəri maldar olduqlarını, maldarlıq təsərrüfatında da atçılığın önəmli yer tutduğunu qeyd etmişdir: "Köçəri türklərin təsərrüfatında qaramal və qoyun saxlanması da mühüm, lakin tabe rol oynayır. Onlarda bolluq, vardövlət at ilxılarının sayı ilə ölçülür" [18, c.60]. Daha sonra türklərin təsərrüfat həyatı haqqında – "Əkinçilik, xüsusən də bağçılıq və bostançılıq qədim türk dünyasına yaddır" – deyə bəhs etmişdir [18, c.61].

Müasir dövrdə Azərbaycan etnoqrafiyası üzrə araşdırmalarda S.Rudenkonun bu fikirlərini bütün türk xalqlarına şamil etməsini tamamilə haqlı olaraq yanlış hesab edilir [5, s.175]. Çünki Azərbaycan ərazisində Sovet dövründə aparılmış arxeoloji tədqiqatlar bu yerlərdə yeni eradan əvvəl VII-VI minilliklərdən etibarən əhalinin oturaq həyata keçdiyi, əkinçilik və sənətkarlıq sahələrinin inkişaf etdiyini sübut edir. Bununla yanaşı, S.Rudenko da məruzəsində Türk dünyasında bu cür tədqiqatlar aparılmasını, xüsusi etnoqrafik xəritələrin yaradılmasını, türk xalqlarının məişətində yox olmaqda olan elementlərin qeydə alınmasını, folklor nümunələrinin toplanmasını, həmçinin köçəri və oturaq türk xalqlarının maddi mədəniyyətinin – yaşayış yerləri, geyimləri, təsərrüfat həyatının ətraflı təsvirini nəzərdə tutan genişmiqyaslı proqram təklif etmişdi [18, c.64-65].

S.Rudenkonun birinci məruzəsinin tam mətni və onun müzakirəsinin gedişində səslənən mülahizələr qurultayın rəsmi stenoqrafik hesabatında qeydə alınaraq nəşr edilmişdir [18, c.58-65].

"İnqilab dövründə SSRİ-də antropologiyanın ən böyük uğurları" adlı ikinci məruzəsində S.Rudenko diqqəti türk xalqlarının fiziki tipinə, sanitariya-gigiyena şəraitinə və demoqrafik proseslərinə yönəltdi və bununla Sovet fiziki antropologiyasının əsası qoyuldu [17]. Onun qurultaydakı bu məruzəsi[2] Sovet şərqşünaslığı və etnoqrafiyasının genişmiqyaslı institusional inkişafının başlanğıc nöqtəsi oldu. Məruzədə səslənən tezislər onilliklər boyu ölkəşünaslıq üzrə tədqiqatların standartlarını müəyyən etdi. Onlar antropoloji, linqvistik, məişət və təbiət elmləri sahəsindəki tədqiqatları özündə

[2] *S.Rudenkonun ikinci məruzəsinin mətni Birinci Türkoloji Qurultayın stenoqrafik hesabatında dərc olunmamışdır.*

birləşdirirdi. Məruzə türk xalqlarının antropoloji tədqiqinə və Sovet antropologiyasında bu istiqamətin inkişafına mühüm töhfə oldu.

Qurultaydan dərhal sonra S.Rudenkonun ümumi rəhbərliyi altında ilk böyük kompleks akademik ekspedisiyalar fəaliyyətə başladı. Onların içərisində SSRİ Elmlər Akademiyasının 1926-cı ilin yayında Qazaxıstana, 1928-ci ilin yayında isə Başqırdıstana göndərdiyi ekspedisiyalar xüsusilə böyük əhəmiyyətə malik idi.

Professor Aleksandr Müllerin məruzəsində ənənəvi olaraq dilçilik və mətnşünaslığa yönəlmiş türkoloji araşdırmalar sahəsində o zamanadək nadir hallarda diqqət yetirilən, lakin türk xalqlarının mədəniyyətində mühüm yer tutan təsviri sənət məsələsindən bəhs edildi. Görkəmli alim ilk növbədə, köçəri həyat sürən və İslamı qəbul etmiş türk xalqlarının canlı varlıqların, xüsusən də insanın təsvir edilməsinə qoyulan dini qadağalar səbəbindən, inkişaf etmiş təsviri sənət ənənələrindən məhrum olmaları haqqında qərarlaşmış stereotiplərə qarşı çıxdı. A.Müller konkret təsvirlərdən (insanlar, heyvanlar, totemlər) mücərrəd həndəsi və nəbati naxışlara keçidi ətraflı şəkildə təhlil etdi. Qədim piktoqramların və məişət təsvirlərinin daha çox Şimali Qafqazda qaranoqaylar arasında qorunub saxlandığını, zaman keçdikcə xalçaçılıq, tikmə və oyma sənətinin ən mürəkkəb ornamentlərinə çevrildiyini vurğuladı [14, c.77-78].

Məruzəçi müxtəlif məişət əşyaları, xüsusən də Rus Muzeyində öyrənilməsinə rəhbərlik etdiyi Şərq xalçaları nümunəsində, həmçinin geyim və silah bəzəkləri timsalında müxtəlif türk etnosları – Mərkəzi Asiya köçəriləri, Qafqaz və Volqaboyu xalqları arasında dərin genetik əlaqələrin və ümumi estetik köklərin olmasını qeyd etdi. Görkəmli etnoqraf bu sahədə çalışan tədqiqatçıları kompleks yanaşma tətbiq etməyə – qədim türk abidələrində arxeoloji qazıntılar zamanı aşkar edilən maddi mədəniyyət nümunələrini müasir etnoqrafik materiallarla müqayisəli təhlil etməyə çağırdı [14, c.79].

A.Müller məruzəsində türk xalqlarının milli kimliyinin öyrənilməsinə onların vizual irsinin tədqiqi olmadan nail olmağın qeyri-mümkünlüyünü sübut edərək qurultayın üfüqlərini əhəmiyyətli dərəcədə genişləndirdi. Onun çıxış etdiyi Etnoqrafiya komissiyasının işinin yekunlarına əsasən, türk tayfa və xalqlarının incəsənət abidələrinin geniş miqyasda toplanması, kataloqlaşdırılması və qorunub saxlanmasının zəruriliyi haqqında qurultayın martın 6-da keçirilən sonuncu – 17-ci iclasında ayrıca qətnamə qəbul edildi [14, c.407-408], məruzənin mətni isə Birinci Türkoloji Qurultayın rəsmi stenoqrafik hesabatına daxil edildi [14, c.76-79].

The Political and Scholarly Context of the 1926 Baku Turkological Congress. The holding of the 1926 Baku Turkological Congress coincided with a period during the first decade of Soviet rule when the approach to the national question was relatively complex. Within the framework of Soviet national policy in the 1920s, certain opportunities were created for the development of local languages, national cadres, and cultural institutions. At the same time, this policy was implemented under the broader political and ideological control of the Soviet state. Therefore, it is insufficient to explain the environment in which the Congress was held solely in terms of national-cultural revival or solely in terms of Sovietization; the interaction between these two processes must also be taken into account.

The decision to hold the Congress in Baku was also related to the geographical and intellectual position of the Azerbaijan SSR. Since the beginning of the twentieth century, Baku had been one of the important cultural centers in which Turkic-Muslim intellectuals were active. The city's connections with Russia, the Caucasus, Iran, the Ottoman Empire/Turkey, and Central Asia had made it one of the spaces where various intellectual currents intersected.

The inclusion of the study of Turkic languages, alphabet reform, linguistics, terminology, literature, education, and other scholarly and cultural issues on the Congress agenda demonstrates its significance for the institutional development of Turkological scholarship. At the same time, the fact that the event was held under Soviet rule made it impossible to consider it entirely outside the political context. The organization and activities of the Congress should therefore be approached from scholarly, national-cultural, and state-policy perspectives alike.

For this reason, in determining the historical nature of the Congress, it is important to distinguish the context of 1926, in which it was held, from the political circumstances of the subsequent 1930s. The differences in the assessments given to the same event at different political stages are precisely related to these changing contexts..

Language, Alphabet, and the Cultural Rapprochement of the Turkic Peoples at the Congress. One of the main characteristics of the 1926 Baku Turkological Congress was the extensive discussion of questions concerning language and writing. The issue of the alphabet was not merely technical in nature. The writing system was directly connected with education, literacy, the development of books and the press, the formation of scholarly terminology, and opportunities for communication among different Turkic peoples. From this perspective, the prominent place given to the alphabet issue on the Congress agenda can be associated with the modernization and educational needs of the period.

The mutual affinity of the Turkic languages and their study also constituted one of the scholarly directions of the Congress. The study of the linguistic characteristics of different Turkic peoples contributed to the development of broader Turkological research. At the same time, discussions concerning common terminology and writing systems also brought the idea of cultural rapprochement to the forefront. However, when determining the specific meaning of this rapprochement, it is necessary to distinguish scholarly and cultural cooperation from the idea of political unity.

The Congress's discussions on language and alphabet were also significant from the perspective of subsequent Soviet national policy. The changes introduced in the writing systems of the Turkic languages beginning in the late 1920s, followed later by the transition of the alphabets of various Turkic peoples to Cyrillic scripts, also demonstrated the political and administrative dimensions of language policy. In this regard, the discussions of the 1926 Congress provide important material for a comparative study of subsequent language policies.

Thus, the discussion of language and alphabet issues at the Congress had scholarly, educational, and cultural-unity dimensions. It was precisely this multilayered character that created the conditions for the Congress to be interpreted in different ways in subsequent periods.

The "Pan-Turkism" Discourse Regarding the Congress. The association of the 1926 Baku Turkological Congress with "Pan-Turkism" in subsequent historiography and political discourse constitutes one of the central problems addressed in this article. The important issue here is to distinguish between the scholarly and cultural initiatives that existed at the time when the Congress was held and the subsequent political assessment of the event. In Soviet political discourse, the evaluation of certain forms of national ideas within the categories of "bourgeois nationalism" and "Pan-Turkism" became particularly stringent in the late 1920s and during the 1930s.

The fact that some of the Congress participants expressed views concerning the linguistic and cultural development of the Turkic peoples does not, in itself, demonstrate that all of them supported a unified Pan-Turkist political program. Rather, it is necessary to distinguish between the ideological positions of the participants and to analyze their earlier activities and specific statements separately. In this regard, it is necessary to distinguish between the use of the concept of "Pan-Turkist" as a subsequent political accusation and its intellectual meaning in the late nineteenth and early twentieth centuries.

The presentation of "Pan-Turkism" as a dangerous political orientation in Soviet political discourse developed in parallel with changing attitudes toward national-cultural activities. The policy of developing national languages and cultures, which had been supported to a certain extent during the earlier period, was subsequently replaced by more centralized mechanisms of control. Under these circumstances, ideas concerning linguistic and cultural rapprochement among the Turkic peoples could also be assessed through the prism of political threat.

From this perspective, when examining the discourse of "Pan-Turkism" concerning the Congress, the central question should not be formulated as "Was the Congress Pan-Turkist?", but rather as how and at what historical stage the scholarly and cultural activities of the Congress came to be associated with the political category of "Pan-Turkism." Such an approach makes it possible to examine the history of the event without equating the Congress itself with subsequent political accusations.

The Islamic Factor: The Relationship Between Turkic and Religious Identity. The relationship between national and religious identities in the worldview of Turkic-Muslim intellectuals constituted one of the important issues from the late nineteenth to the early twentieth century. For the Turkic-Muslim population of the Russian Empire, Islam was not only a religious faith, but also an important element of social and cultural life and one of the sources of solidarity among different communities. At the same time, as national ideas developed, language, ethnic affiliation, and historical memory increasingly emerged as key components of identity.

From this perspective, it would be inappropriate to present the relationship between Turkism and Islamism either as one of confrontation or as complete identity. Different intellectuals sought to reconcile these two forms of identity in different ways. Ali Bey Hüseynzade's formula of "Turkification, Islamization, and Modernization" is one of the important examples in Azerbaijani and, more broadly, Turkic-Muslim intellectual history in which these three directions were presented as mutually complementary components. In subsequent periods, however, the development of national statehood, secularization, and the influence of Soviet ideology altered the content of these relationships.

Taking the Islamic factor into consideration separately in the analysis of the 1926 Turkological Congress is important because a significant part of the social and intellectual environment in which the Congress emerged had been shaped by the activities of earlier generations of Turkic-Muslim intellectuals. Nevertheless, the place occupied by religious issues in the Congress's specific agenda needs to be determined separately on the basis of primary sources. A distinction should be made between the presence of the Islamic factor in the broader historical context and its specific place on the Congress's agenda.

This approach also prevents the relationship of Turkism and Pan-Turkism with Islam from being presented as a single, uniform model. The interaction between national and religious identities changed at different historical stages, while Soviet atheistic policies introduced a new political framework into this relationship.

Conclusion: *The Place of the Baku Congress in the History of Turkological Scholarship and National Identity.* The 1926 Baku Turkological Congress was one of the important scholarly platforms at which issues concerning the linguistic, literary, educational, and cultural development of the Turkic peoples were discussed at an international level in the early twentieth century. The prominent place occupied by questions of language and alphabet on the Congress agenda was one of the principal factors determining its role in the development of Turkological scholarship. At the same time, the gathering of representatives of different Turkic peoples on a common scholarly platform constituted an important indication of the processes of national-cultural rapprochement taking place during the period.

The study demonstrates that distinguishing between the concepts of Turkism, Pan-Turkism, and Turanism is an important methodological prerequisite for determining the historical nature of the Congress. Bringing all forms of national-cultural activity that expanded among Turkic-Muslim intellectuals in the late nineteenth and early twentieth centuries under a single political category of Pan-Turkism may oversimplify the ideological diversity of the period.

The subsequent association of the Congress with "Pan-Turkism" in Soviet political discourse should, in turn, be examined as a separate historical process. In particular, the changing attitude toward the activities of national intellectuals during the 1930s and the use of accusations of "Pan-Turkism" within mechanisms of political persecution indicate that there was a certain distance between the scholarly and cultural activities of 1926 and their subsequent political interpretation. Therefore, assessing the history of the Congress outside the context of the period in which it was held and solely on the basis of subsequent political accusations would constitute a methodologically limited approach.

The significance of the Baku Turkological Congress can also be assessed from the perspective of the formation of national identity. The joint discussion of questions concerning language, history, culture, and education represented a scholarly expression of processes related to the development of the national and cultural self-awareness of the Turkic peoples. The Islamic factor, meanwhile, makes it possible to consider that these processes developed within the broader Turkic-Muslim intellectual environment. Nevertheless, the place occupied by religious issues on the specific agenda of the Congress should be determined separately through an analysis of primary sources.

Thus, the centenary of the 1926 Baku Turkological Congress provides an opportunity to reconsider not only its role in the history of Turkological scholarship, but also its place in the history of national identity, language, culture, and political ideology in the twentieth century. Examining the distinction between the scholarly and cultural objectives of the Congress and the "Pan-Turkist" meaning subsequently attributed to it in Soviet political discourse makes it possible to demonstrate how the event acquired different meanings at different historical stages.

REFERENCES

1. Bennigsen, Alexandre; Broxup, Marie. The Islamic Threat to the Soviet State. London, 2011, 182 p.
2. Hirsch, Francine. "Toward an Empire of Nations: Border-Making and the Formation of Soviet National Identities." The Russian Review, Vol. 59, No. 2, 2000, p. 201.
3. Hüseynova, Mahirə. Birinci Türkoloji Qurultayın ən yeni dövr türkoloji təfəkkürün inkişafında rolu. Baku: Müəllim, 2026, 498 p.
4. Xəlilov, Buludxan. Türkologiyanın tarixi: XX əsrin 20–30-cu illəri. Baku, 2016, 235 p.
5. Khalid, Adeeb. The Politics of Muslim Cultural Reform: Jadidism in Central Asia. Berkeley: University of California Press, 2011, 335 p.
6. Landau, Jacob M. Pan-Turkism: From Irredentism to Cooperation. London, 1995, 275 p.
7. Menzel, Theodor. 1926 Bakü 1. Türkoloji Kongresi. Translated by Doç. Dr. Bekir Direkci. Konya: Palet Yayınları, 2017.
8. Nərimanoğlu, K. V. "1926-Bakü Türkoloji Kurultayı Üzerine." In 1926 Bakü Türkoloji Kurultayı Tutanaklar (26 Şubat–6 Mart 1926). Translated by Prof. Dr. Mustafa Öner. Ankara: Türk Dil Kurumu Yayınları, 2008.
9. Qayıbov, S. I. "Bakü Türkoloji Kurultayı Bildirilerinin Satır Aralarında Halk Bilimi Meseleleri" // Hacettepe Üniversitesi Türkiyat Araştırmaları (HÜTAD), No.19, 2013, pp.207–220.

10. Sartori, Paolo. "What Went Wrong? The Failure of Soviet Policy on Shari'a Courts in Turkestan, 1917–1923." Die Welt des Islams, Vol. 50, Nos. 3–4, 2010, pp. 400–401.
11. Zenkovsky, Serge A. Pan-Turkism and Islam in Russia. Cambridge: Harvard University Press, 2020, 345 p.
12. İsmail Bey Gasprinskii (Gaspirali): The Discourse of Modernism and the Russians. In The Tatars of Crimea: Return to the Homeland. Duke University Press, 1998. 397 p.

FƏRİDƏ ALLAHVERDİYEVA
Bakı Dövlət Universitetinin müəllimi

1926-CI İL BAKI TÜRKOLOJİ QURULTAYININ ELMİ-MƏDƏNİ MƏQSƏDLƏRİ VƏ ONLARIN SONRAKI SOVET SİYASİ DİSKURSUNDA "PANTÜRKİST" İNTERPRETASİYASI

1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay XX əsrin əvvəllərində türk xalqlarının dil, ədəbiyyat, təhsil və mədəni inkişafı ilə bağlı elmi müzakirələrin mühüm mərhələlərindən biri olmuşdur. Qurultayın 100 illiyi ərəfəsində onun yalnız türkoloji elmin inkişafı baxımından deyil, həm də dövrün milli-mədəni və siyasi ideyalarının qarşılıqlı münasibəti kontekstində araşdırılması xüsusi aktuallıq kəsb edir. Məqalədə 1926-cı il Bakı Türkoloji Qurultayının elmi-mədəni məqsədləri ilə sonrakı Sovet siyasi diskursunda Qurultaya və onun iştirakçılarına münasibətdə formalaşdırılan "Pantürkizm" interpretasiyası müqayisəli şəkildə təhlil edilir.

Tədqiqatda XIX əsrin sonu – XX əsrin əvvəllərində türkçülük, Pantürkizm və Turançılıq ideyalarının formalaşması və məzmun dəyişiklikləri nəzərdən keçirilir, bu anlayışların eyniləşdirilməsinin yaratdığı metodoloji problemlərə diqqət yetirilir. Eyni zamanda Rusiya imperiyasında türk-müsəlman ziyalılarının milli-mədəni fəaliyyəti, dil və əlifba məsələləri, türk xalqları arasında mədəni yaxınlaşma təşəbbüsləri və onların 1926-cı il Qurultayının ideya-siyasi fonunun formalaşmasındakı rolu araşdırılır. Qurultayın gündəliyi, çıxışları və qəbul olunmuş qərarlar əsasında onun əsas məqsədlərinin türkoloji elmin inkişafı, dil və əlifba məsələlərinin müzakirəsi, təhsil və mədəni əməkdaşlığın genişləndirilməsi ilə bağlı olduğu müəyyənləşdirilir.

Məqalədə həmçinin türkçülük və İslam amilinin qarşılıqlı münasibəti nəzərdən keçirilərək, milli və dini identikliyin dövrün türk-müsəlman ziyalılarının düşüncəsində tutduğu yer təhlil olunur. Sonrakı mərhələdə, xüsusilə 1930-cu illərdə, "Pantürkizm" ittihamının siyasi diskursda və repressiya praktikasında istifadəsi araşdırılır. Bununla da Qurultayın ilkin elmi-mədəni gündəliyi ilə onun sonrakı Sovet siyasi interpretasiyası arasındakı fərqlərin müəyyənləşdirilməsi məqsədi qarşıya qoyulur. Tədqiqat göstərir ki, 1926-cı il Bakı Türkoloji Qurultayının tarixi mahiyyətinin qiymətləndirilməsi üçün onun keçirildiyi dövrün elmi, milli-mədəni və siyasi kontekstlərini, eləcə də sonrakı dövrlərdə hadisəyə verilmiş ideoloji şərhləri bir-birindən fərqləndirmək zəruridir.

Açar sözlər: Bakı Türkoloji Qurultayı, türkçülük, Pantürkizm, Turançılıq, İslam amili, türk-müsəlman ziyalıları, Sovet siyasi diskursu, milli kimlik.

ФАРИДА АЛЛАХВЕРДИЕВА
Преподаватель Бакинского Государственного Университета

НАУЧНО-КУЛЬТУРНЫЕ ЦЕЛИ БАКИНСКОГО ТЮРКОЛОГИЧЕСКОГО СЪЕЗДА 1926 ГОДА И ИХ «ПАНТЮРКИСТСКАЯ» ИНТЕРПРЕТАЦИЯ В ПОСЛЕДУЮЩЕМ СОВЕТСКОМ ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ

Первый Тюркологический съезд, состоявшийся в Баку в 1926 году, стал одним из важных этапов научных дискуссий, связанных с языковым, литературным, образовательным и культурным развитием тюркских народов в начале XX века. В преддверии 100-летия Съезда осо-

бую актуальность приобретает его изучение не только с точки зрения развития тюркологической науки, но и в контексте взаимосвязи национально-культурных и политических идей рассматриваемого периода. В статье в сравнительном аспекте анализируются научно-культурные цели Бакинского тюркологического съезда 1926 года и «пантюркистская» интерпретация, сформировавшаяся в последующем советском политическом дискурсе в отношении Съезда и его участников.

В исследовании рассматриваются формирование и изменения содержания идей тюркизма, пантюркизма и туранизма с конца XIX – начала XX века, а также уделяется внимание методологическим проблемам, возникающим вследствие отождествления данных понятий. Наряду с этим исследуются национально-культурная деятельность тюрко-мусульманской интеллигенции в Российской империи, вопросы языка и алфавита, инициативы по культурному сближению тюркских народов и их роль в формировании идейно-политического контекста Бакинского съезда 1926 года. На основе повестки дня Съезда, выступлений его участников и принятых решений определяется, что его основные цели были связаны с развитием тюркологической науки, обсуждением вопросов языка и алфавита, а также расширением образовательного и культурного сотрудничества.

В статье также рассматривается взаимосвязь тюркизма и исламского фактора, анализируется место национальной и религиозной идентичности в мировоззрении тюрко-мусульманской интеллигенции рассматриваемого периода. На последующем этапе, особенно в 1930-е годы, исследуется использование обвинений в «пантюркизме» в политическом дискурсе и репрессивной практике. Тем самым ставится задача выявить различия между первоначальной научно-культурной повесткой Съезда и его последующей советской политической интерпретацией. Исследование показывает, что для определения исторического значения Бакинского тюркологического съезда 1926 года необходимо разграничивать научный, национально-культурный и политический контексты периода его проведения, а также идеологические интерпретации, сформировавшиеся в последующие периоды.

Ключевые слова: Бакинский тюркологический съезд, тюркизм, пантюркизм, туранизм, исламский фактор, тюрко-мусульманская интеллигенция, советский политический дискурс, национальная идентичность.

Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilib.

UOT 94

SAMİR BAXŞƏLİYEV
tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin dosenti
ORCİD İD: 0000-0003-4054-2974
baxshaliev81@mail.ru

İLK RƏŞİDİ XƏLİFƏSİ ƏBU BƏKR SİDQ

DOI: https://doi.org/10.36719/2708-065X/114/71-76

İslam peyğəmbəri öz misiyasını tamamlayaraq dünyasını dəyişdikdən sonra müsəlmanların üzləşdiyi problemlərdən biri Məhəmməd Peyğəmbərin vəfatından sonra dini hökmlərin tətbiqi səlahiyyətinin kimə və hansı əsaslarla verilməsi məsələsi idi. Əbu Bəkrin xəlifə seçilməsi, hakimiyyətin Peyğəmbər ailəsindən olmayan kənar bir şəxsə verilməsi niyyətinin qalması sonrakı dövrlərdə İslam dünyasında ciddi fikir ayrılıqlarının və məzhəb parçalanmasının yaranmasına səbəb oldu. Əbu Bəkir Sidqin müsəlmanlar arasında ən hörmətlilərindən biri idi və İslama xidmətləri çox idi. Lakin Əli İbn Əbu Talib də müsəlmanlar arasında, ən azı elə, Əbu Bəkrin özü qədər nüfuzlu idi və İslama xidməti Əbu Bəkirdən heç də az deyildi. Əbu Bəkr qətiyyətli və prinsipial mövqe nümayiş etdirərək dövlətin birliyini qorumağı əsas prioritet kimi müəyyən etdi. O, daxili qarşıdurmaların genişlənməsinin qarşısını almaq üçün sərt, lakin məqsədyönlü siyasi addımlar atdı və mərkəzi hakimiyyətin nüfuzunu yenidən gücləndirdi.

Açar sözlər: İslam, Əbu Bəkr, Əli İbn Əbu Talib, xəlifə, Ərəb xilafəti.

Giriş. İlk İslam dövlətində idarəçilik sistemi, dövlətin siyasi həyatı ilə əlaqədar məsələlər hər zaman diqqət mərkəzində olmuşdur. Lakin İslam tarixində elə problemlər var ki, ya indiyədək geniş təhlil olunmamışdır, ya da yanaşmalar ziddiyyətli və ya birtərəfli olmuşdur. Bu bir həqiqətdir ki, ilk ərəb xəlifələri haqqında həm ilk mənbələrdə, həm də tarixi ədəbiyyatlarda məlumatlar o qədər də geniş deyil, yaxud da obyektiv yanaşmadan uzaqdır. Belələrindən biri də Əbu Bəkr Sidq Məhəmmədin həyat və fəaliyyəti, onun Peyğımbərin birinci Xəlifəsi seçilməsidir. Hazırkı yazıda problemin araşdırılması istiqamətində obyektiv yanaşmalar, müqayisələr əsasında yeni fikirlər və yanaşmalar sərgilənir.

Tədqiqatın metodoloji əsası. Mövcud elmi ədəbiyyat və ilk mənbələrdəki geniş məlumatlara əsaslanaraq müxtəlif yanaşmaları hərtərəfli təhlil etməkdir. Bu zaman çoxsaylı məlumatlar araşdırılmış, aparılmış müqayisələr əsasında əldə edilmiş əsas nəticələr ümumiləşdirilmişdir.

İslam dövlətinin ilk xəlifəsi. İslam peyğəmbəri öz misiyasını tamamlayaraq dünyasını dəyişdikdən sonra müsəlmanlar iki əsas problemlə üzləşdilər. Bunlardan birincisi, Məhəmməd Peyğəmbərin vəfatından sonra dini hökmlərin tətbiqi səlahiyyətinin kimə və hansı əsaslarla verilməsi məsələsi idi. İkinci problem isə Peyğəmbərdən sonra, yeni qurulan İslam dövlətinə kimin rəhbərlik edəcəyi məsələsi idi.

Birinci problemin həlli ikinci problemin həllindən bilavasitə asılı idi. Çünki ilk İslam dövlətində həm siyasi, həm də ki, dini rəhbərlik eyni şəxs tərəfindən həyata keçirilməli idi. Lakin müsəlmanlar ikinci problemin həlli zamanı dini və siyasi baxımdan dərin böhranla üzləşdilər. Belə ki, Qurani-Kərimdə dövlət başçısının seçilməsinə dair aydın bir hökmün olmaması, bu məsələnin dinin əsas qaydalarından olmadığını və seçimin açıq şəkildə müsəlmanların öhdəliyinə verildiyini göstərir. Bu səbəbdən də Məhəmməd Peyğəmbər özündən sonra varisinin kim olacağına dair heç bir göstəriş verməmişdi.

Əsası yenicə qoyulan İslam dövlətində ciddi fikir ayrılıqlarına və siyasi parçalanmalara səbəb məhz İslam Peyğımbərinin özündən sonra varis təyin etməməsi olmuşdur. Mövcud vəziyyəti biraz da mürəkləşdirən müsəlmanların bir hissəsinin İslam Peyğəmbərinin vəfatından əvvəl öz siyasi varisini təyin etdiyi qənaətində olmaları idi.

Göründüyü kimi, məhz varislik məsələsi İslam dünyasında günümüzə qədər davam edən siyasi və dini münaqişərə səbəb olmuşdur. Məhəmməd Peyğəmbərin varislik məsələsinin əsas məqamları üzərində aparılan təhlillərimizə əsaslanaraq söyləyə bilərik ki, İslam peyğəmbəri özündən sonra siyasi rəhbərliyi açıq şəkildə heç kimə həvalə etməmişdir. Peyğəmbərin vəfatı barədə xəbəri öyrənən Yəsrib (Mədinə) sakinləri olan Ənsarlar (İslam tarixində Məkkədən Mədinəyə köçən mühacirlərə yardım edənlərə verilən ad) ilə Məkkəli müsəlmanlar olan mühacirlər (İslam tarixində müşriklərin təyziqi ilə Mədinəyə köçən Məkkə sakinlərinə verilən ad) arasında İslam cəmiyyətinin liderliyinin kimə verilməsi məsələsi üzərində münaqişə yarandı. Halbuki, elə bu münaqişə səbəbindən onlar Məkkəli və Mədinəli olmaqla iki fərqli namizəd irəli sürə bilərdilər.

Ancaq bu hal da gənc müsəlman dövlətinin birliyini əbədi olaraq poza bilərdi. Çünki Məhəmməd Peyğəmbərin vəfatından sonra yalançı peyğəmbərlər ortaya çıxaraq dini rəhbərlik iddiasında oldular. Vəziyyət belə olduqda, dini ideologiya ətrafında formalaşan dövlətdə daxili qarşıdurmaların baş vermə ehtimalı artırırdı. Müsəlman mənbələrinin yalançı peyğəmbərlər adlandırdığı bu cür təqlidçilərin təbliğatı, ərəblərin böyük əksəriyyəti tərəfindən qəbul edilmiş İslam dininin geniş yayılmış prinsiplərini təhrif edərək onun mövqeyini zəiflədir və bəzi bədəvi qəbilələrin İslamdan uzaqlaşaraq öz ənənəvi dinlərinə yenidən qayıtmalarına fürsət verirdi.

Eyni zamanda İslam Peyğəmbərin dini və siyasi üstünlüyünü tanıyan bəzi bədəvi ərəb qəbilələrinin onun varisini rədd etmələri, yeni bir təhlükə və qeyri-sabitlik vəziyyəti yaratmışdı. Bu qəbilələrin əksəriyyəti iqtidar boşluğundan istifadə edərək dövlətin zəkat və sədəqə kimi vergi öhdəliklərini verməkdən imtina etdilər. Məhəmməd Peyğəmbər dövründə vergilər İslamın prinsiplərinə əsaslanırdı, amma yeni hakimiyyətin vergi siyasəti hələ də qeyri-müəyyən olduğundan, tarixən müstəqil olan ərəb qəbilələrinin belə ehtiyatlı davranışı anlaşılandır.

Əvs və Xəzrəc qəbilələrindən olan ənsarlar İslama xidmətlərini əsas gətirərək xəlifənin öz aralarından seçilməsini tələb etdilər. Bu məqsədlə, Bəni Səidə kölgəliyində toplaşaraq, öz namizədləri Səad ibn Ubadanı rəhbərliyə namizəd göstərdilər. Onlar Xəlifənin öz aralarından seçilməsini istəyirdilər. Lakin Mədinənin ən böyük və çox qüdrətli bi iki qəbiləsi siyasi rəhbərliyin müəyyənləşdirilməsi məsələsində razılığa gələ bilmədilər. Çünki hər iki qəbilə xəlifənin özlərindən seçilməsini istədiklərinə görə müsəlmanlara Əvs və Xəzrəcilərdən olan Useyd ibn Hudeyr ilə Sə'd ibn Ubadənin şəxsində iki ayrı əmirin birlikdə rəhbərlik etməsini tələb etdilər [11, s.132-133].

Bəni Səidədə baş verənlərin ciddiliyini anlayan Əməvilər dövrünün dövlət xadimi Muğirə ibn Şu'bə Əbu Bəkirlə Ömər İbn Xəttaba məlumat verərək onlardan məsələyə müdaxilə etmələrini istədi. Sə'd ibn Ubadənin tərəfdarlarının say çoxluğu səbəbindən Əbu Bəkir ilə Ömər yığıncaq olan yerə gəldikdə tərəflər arasında qızğın mübahisənin şahidi oldular. Əbu Bəkr, Ömər və Əbu Ubeydə ibn Cərrah xəlifə seçimi müzakirələrinə qatıldıqdan sonra, həm ənsarlar, həm də mühacirlər İslamın qüdrətlənməsindəki xidmətlərini önə çəkərək, dövlət başçılığına ən layiqli tərəfin özləri olduğunu bildirdilər. Fikirlərin haçalandığı və mübahisələrin qızışdığı zaman Əbu Bəkr ənsarlara müraciət edərək dedi: "Ey Ənsarlar! Şübhəsiz ki, bu irəli sürdüyünüz, dediyiniz bütün fəzilət və keyfiyyətlərin hamısı sizdə mövcuddur. Sizin Allahın dini qarşısındakı ali xidmətləriniz inkar olunmazdır. Allah öz dininə və Elçisinə kömək etmək üçün sizi seçmişdir. Rəsulullahın sizin yurdunuza köçüb gəlməsini nəsib etmişdir. Allah Rəsulu ilə birlikdə öz yurd-yuvasını tərk edib hicrət edənlərdən sonra fəzilətinə görə sizdən daha üstün olan heç kim yoxdur. Rəsulullaha kömək etdiniz, bu yolda vuruşdunuz, siz izzət və şərəf sahibi insanlarsınız. Lakin ərəblərə liderlik haqqı Qureyşindir. Ərəblər Qureyşdən olmayanın idarəsinə boyun əyməzlər. Hər kəsə məlumdur ki, Qureyş nəsəb baxımından ərəblərin seçilmişidir. Biz əmirlər, siz isə vəzirlərsiniz. Heç bir iş sizin məsləhətiniz xaricində görülə bilməz" [1, s.279].

Əbu Bəkr müraciətinin sonunda Ənsar camaatına Ömər ibn Xəttab ilə Əbu Ubeydə ibn Cərrahı göstərərək, onlardan birini dövlət başçısı seçmələrini tövsiyə etdikdə vəziyyətin gərginləşməsini istəməyərək dərhal Əbu Bəkrə beyət etdiyini bəyan etdi və bunun ardınca Əbu Bəkrin Allahın dini yolunda fədakarlığını çox yaxşı bilən digər müsəlmanlar da onu İslam dövlətinin yeni Xəlifəsi kimi qəbul etdilər [2, s.18].

Beləliklə, Sadoğulları məhəlləsində ki, Xəlifə seçimi yığıncağında Əbu Bəkr Sidq Məhəmməd Peyğımbərin birinci Xəlifəsi seçilərək ilk yaranan İslam dövlətinin başına keçdi.

Əli ibn Əbu Talibin məsələyə münasibəti. Əbu Bəkrin xəlifə seçilməsi İslam dövlətində Peyğəmbərin vəfatından sonra yaranmış ilk ciddi siyasi böhranın qarşısını müəyyən dərəcədə alsa da, hakimiyyətin Peyğəmbər ailəsindən olmayan kənar bir şəxsə verilməsi niyyətinin qalması sonrakı dövrlərdə İslam dünyasında ciddi fikir ayrılıqlarının və məzhəb parçalanmasının yaranmasına səbəb oldu.

Belə ki, Əli ibn Əbu Talibin İslam Peyğəmbəri dəfn edilməmiş, tez-tələsik Əbu Bəkr Sidqin xəlifə seçilməsinə münasibəti İslam tarixşünaslığında mübahisəli məsələlərdən biri hesab edilir. Əli ibn Əbu Talib İslam Peyğəmbərinin həm əmisi oğlu, həm də kürəkəni idi. O, uşaq yaşlarından Məhəmməd Peyğəmbərin himayəsində böyümüşdü [3, s.258].

VIII–IX əsrdə yaşamış ərəb tarixçi Əbu Məhəmməd Əbdülməlik ibn Hişam şərhçisi olduğu "Sirət Məhəmməd Rəsulillah" əsərində dövrün siyasi vəziyyətini təhlil edərək "Haşimilərin xəlifəliyə namizəd olan Əlinin İslam Peyğəmbərindən sonra müsəlman dövlətinin başına keçmək istədiyini" yazır [6, s.392].

Mövzu ilə bağlı başqa bir IX əsr ərəb tarixçisi Müslüm ibn Quteybə müəllifi olduğu "El-İmame ves-Siyase" əsərində Əbu Bəkir və onu seçənlərin Əli İbn Əbu Taliblə mövzü ilə bağlı dialoqunu qeyd edir: "Rəsulullahın vəfatından sonrakı ikinci gün məsciddə Hz. Ömər camaatı Hz. Əbu Bəkrə ümumi beyət etməyə çağırdı. Hz. Əli istisna olmaqla, orada olanların hamısı birlikdə və yüksək səslə Hz. Əbu Bəkrə sədaqət andı içərək beyətlərini bildirdilər. Hz. Əbu Bəkr Mədinə əhalisinin əksəriyyətindən beyət aldıqdan sonra Hz. Əlini məscidə dəvət etdi və ondan nə düşündüyünü soruşdu. Hz. Əli onunla məsləhətləşilmədiyi üçün narahat və məyus olduğunu açıq şəkildə ifadə etdi. Daha sonra belə dedi: "Siz mühacirlər bu məsələ ilə bağlı olaraq Hz. Məhəmmədin aranızdan çıxdığını və Əbu Bəkrin də ona yaxın olduğunu əsas gətirərək ənsara qarşı sərt mövqe tutdunuz. Halbuki mən də Rəsulullahın Əhli-beytindən biri kimi, kim olursa-olsun, bu işə hamıdan daha yaxın və daha layiqli olduğumuza dair eyni dəlilləri irəli sürə bilərəm" [5, s.90-91].

Bunun üzərinə mühacirlərdən Əbu Ubeydə və ənsardan Bəşir ibn Səd Hz. Əliyə onun belə bir niyyətindən xəbərdar olmadıqlarını bildirdilər və hamının qəbul etdiyi qərarı onun da qəbul etməsini istədilər. Hz. Əbu Bəkr də Hz. Əliyə haqq verdiyini, lakin artıq camaatın ona beyət etdiyini söylədi. Hz. Əli isə cavabında Əhli-beytə mənsub olduqları üçün bu işdə ən çox haqq sahibi olduqlarını ifadə etdi və beyət etmədən oradan ayrıldı" [5, s.90-91].

Mövzu ilə bağlı IX əsrdə yaşamış islam tarixçisi və mütəfəkkiri Məhəmməd ən-Naşi əl-Əkbəri də özünün "Məsail əl-İmamə" əsərində nüfuzlu səhabələrdən olan İslam Peyğəmbərinin əmisi Abbas ibn Əbdülmüttəlibin, xalası oğlu Zübeyr ibn Əvvamın, İslamı qəbul edən ilk qeyri-ərəb müsəlmanlardan olan Salman əl-Farisin və Haşimilərdən ibarət olan böyük bir qrupun da xilafətin Əli İbni Əbu Talibə verilməsinin tərəfdarı olduqlarını qeyd edir [9, s.63].

Bu yerdə tərəflərdən heç birinin mövqeyini müdafiə etmədən, tarixçi baxış prizmasından sözügedən məsələyə münasibət bildirmək istərdik. Əbu Bəkr Sidqin tez-tələsik Xəlifə seçilməsi erkən İslam icmasında yaranmış siyasi boşluğun aradan qaldırılmasına yönəlmiş addım kimi təqdim olunsa da, bu prosesdə Peyğəmbər ailəsinin və bir çox aparıcı səhabələrin iştirak etməməsi məsələnin obyektiv qiymətləndirilməsini çətinləşdirir.

Əbu Bəkir Sidqin əsas xidmətləri. Heç şübhəsiz ki, Əbu Bəkir Sidq müsəlmanlar arasında ən hörmətlilərdən biri idi və İslama xidmətləri çox idi. Lakin Əli İbn Əbu Talib də müsəlmanlar arasında, ən azı elə, Əbu Bəkrin özü qədər nüfuzlu idi və İslama xidməti Əbu Bəkirdən heç də az deyildi.

Qaynaqlardan da gördüyümüz kimi, İslam Peyğəmbərinin dəfni ilə şəxsən özü məşqul olan Əli ilk Xəlifənin seçilməsi yığıncağında iştirak etməmişdi. Bu səbəbdən də onun xəlifə seçilməsi fikri kifayət qədər müdafiə olunmadı. Lakin apardığımız təhlillər bizə belə bir fikri söyləməyə əsas verir ki, əgər Əli İbn Əbu Talib Bəni Səidə kölgəliyində baş verən ilk İslam xəlifəsinin seçilməsi yığıncağına qatılmış olsaydı, heç şübhəsiz ki, hadisələrin inkişafı və nəticə fərqli istiqamətdə olacaqdı.

Beləliklə İslam tarixində Əbu Bəkr əs-Siddiq ləqəbi ilə məhşur olan Abdullah ibn Osman Məhəmməd peyğəmbərdən sonra müsəlmanların ilk rəhbəri olmuşdur. O, Rəşidi xilafətinin ilk xəlifəsi olaraq 632–634-cü illərdə Ərəb dövlətinə hökmdarlıq etmişdir [15, s.46)].

Müsəlmanların yeni qüreyşli rəhbərinə "xəlifə" adı verildi. Bu ad "Peyğəmbərin varisi" mənasını ifadə edir. Lakin müsəlmanların bir qismi bu adı qəbul etmədi. Belə ki, Bəni Səidə kölgəliyində İslam peyğəmbərindən sonrakı rəhbərin müəyyənləşdirilməsi prosesi müsəlmanlar arasında fikir ayrılıqlarına səbəb olduğundan dövrün bəzi qaynaqlarında bu hadisə "tələsik qərar" mənasını verən "əl-fəltə" kimi qeyd edilir [13, s.69].

Tarixin mübahisəli məqamlarından biri olan Bəni Səidə hadisəsi Əbu Bəkrə yönələn tənqidləri artırsa da, o, dövrünün ən ədalətli rəhbərlərindən biri idi. O, hakimiyyətinin ilk günlərində dövlət xəzinəsinə yük olmamaq üçün əvvəlki kimi ticarətlə məşğul olmağa davam etmişdi. Lakin Xəlifənin ikinci bir işlə məşğul olması idarəçilikdə çətinlik yarada bilərdi. Bu səbəbdən də Ömər İbn Xəttabın təşəbbüsü ilə Əbu Bəkrə dolanışığını qarşılayacaq qədər maaş ayrılmışdı.

Əbu Bəkrin idarəçilik siyasətində mühüm prinsiplərindən biri də vacib qərarlar qəbul etməzdən əvvəl başda Ömər İbn Xəttab olmaqla səhabələrin nüfuzlu nümayəndələri ilə məsləhətləşməsi idi. Ancaq bu məsləhətləşmələrin nəticələri hər zaman olduğu kimi tətbiq edilmirdi. O, bəzən ümumi fikirdən fərqli mövqe tutaraq, doğru hesab etdiyi qərarları qətiyyətlə həyata keçirirdi. Məhz onun bu qətiyyəti sayəsində bir çox məsələlər müsəlmanların xeyrinə həll edilmişdir. Əbu Bəkr Xəlifə seçildiyi ilk gündən xüsusi qeyd edirdi ki, O, yalnız Məhəmməd peyğəmbərin yolunu və göstərişlərini davam etdirən bir rəhbərdir.

Bu səbəbdən onun xəlifə kimi ilk addımı, Peyğəmbərin xəstələnməsi səbəbindən icrası yarımçıq qalmış Üsamə ibn Zeydin komandanlığı altında təşkil edilmiş ərəb ordusunu 632-ci ilin iyul ayının əvvəlində Bizans imperiyasının Havran vilayətində yerləşən Mütə istiqamətinə göndərmək oldu. Lakin çətin siyasi şərait ilə əlaqədar ordu Şam istiqamətinə yönəldi və üsyan etmiş bəzi qəbilələri itaət altına alaraq xeyli qənimətlər ilə iki ay sonra Mədinəyə geri qayıtdı [12, s.191].

Əbu Bəkirin hakimiyyəti dövrünün ən mühüm hadisəsi. Riddə (dindən dönənlərlə müharibələr) savaşları olduğunu desək, yanılmarıq (- S.B.). Əbu Bəkrin xəlifə seçilməsindən sonra Ərəbistan yarımadasının, demək olar ki, bütün bölgələrində Mədinədə formalaşmış müsəlman hakimiyyətinə qarşı ciddi siyasi və dini xarakterli üsyanlar baş verdi. Tarixdə "Riddə müharibələri" adı ilə tanınan bu hadisələr İslam dövlətinin ilk böyük daxili böhranı hesab olunur [4, s.34].

Üsyan edən tayfaların bir qismi peyğəmbərlik iddiası irəli sürən şəxslərin ətrafında birləşərək İslamdan uzaqlaşdı və Mədinə hakimiyyətinə qarşı silahlı müqavimət göstərdi. Digər qəbilələr isə dini baxımdan İslamı qəbul etdiklərini bildirsələr də, siyasi olaraq Mədinənin hakimiyyətini tanımadıqlarını elan etdilər.

Bununla yanaşı, bəzi tayfalar İslam çərçivəsində qalmağa davam etsələr də, zəkatın mərkəzi hakimiyyətə verilməsindən imtina etdilər. Müsəlmanların ilk Xəlifəsi baş verən bu hadisələri yalnız dini ayrılıq kimi deyil, həm də yeni formalaşan İslam dövlətinin siyasi birliyinə qarşı təhlükə kimi qiymətləndirdi. Əbu Bəkr üsyan və irtidada (dindən dönmə) qalxan qəbilələrlə yanaşı, həm də zəkat verməyi rədd edənlərə qarşı mübaribə aparmağı zəruri hesab edirdi. Onun bu mövqeyi Ömər İbn Xəttab və bəzi nüfuzlu səhabələrin narazılıqlarına baxmayaraq, icra edilmişdi. Əbu Bəkrin əmri ilə İslam hərb tarixinin ən məşhur sərkərdələrindən biri olan Xalid ibn Vəlidin rəhbərlik etdiyi dörd min nəfərlik ordu yalançı peyğəmbərləri məğlub etdi. Həmçinin, Nəcran, Yəmən, Hədrəmut, Bəhreyn və Oman bölgələrində baş verən üsyanlar, valilərdən alınan əlavə qüvvələrin dəstəyi ilə yatırıldı [7, s.97-98].

Xüsusən yalançı peyğəmbər Müsəyliməyə qarşı baş verən döyüşlər olduqca sərt və qanlı oldu. Onun tərəfdarları müsəlman qoşunlarına kəskin müqavimət göstərirdilər. Bu döyüşlər zamanı bir çox müsəlman həlak oldu. Həlak olanlar arasında çox sayda Quran hafizləri də (Quranı əzbər bilən) var idi. Qaynaqlarda olan məlumata əsasən təkcə Müsəyliməylə döyüşdə 70 hafiz həlak olmuşdu və bu vəziyyətin mürəkkəbliyini anlayan Əbu Bəkr "əgər bu cür davam edərsə, bir Quranı itirəcəyik" deyərək Quran ayələrinin bir kitab halında toplanmasına göstəriş verdi [14, s.67].

Məhz Xəlifə Əbu Bəkrin sərgilədiyi qətiyyətli idarəçilik siyasəti Riddə üsyanlarının yatırılmasında həlledici rol oynadı və nəticədə ilk İslam dövlətinin Ərəbistan yarımadasındakı siyasi mövqeyi daha da gücləndi. Əbu Bəkr Siddiqin hakimiyyət illəri həm də ilk İslam fəthlərinin başlandığı dövr hesab edilir. İlk Xəlifənin dövründə müsəlman fəthləri əsasən iki əsas istiqamətdə aparılırdı. Bunlardan birincisi şərq istiqaməti idi ki, burada müsəlmanlara Sasanilər imperiyası müqavimət göstərsə də,

Xalid İbn Vəlidin rəhbərlik etdiyi ərəb qoşunu onları məğlub edərək Fərat çayının qərbində yerləşən ərazilərin böyük hissəsini özlərinə tabe edə bildilər [4, s.48].

Bizans imperiyası ilə savaşlar. İkinci istiqamət kimi formalaşan cəhət isə şimal cəbhəsində müsəlmanların Bizans imperiyası ilə savaşlarıdır. Tərəflər arasında ilk böyük döyüş, 24 avqust 634 cü ildə Şam və Fələstin istiqamətindəki hərbi yollar üzərində strateji əhəmiyyətə malik olan Əcnadeyn bölgəsində baş verdi və 40 minlik ərəb ordusu 90 minlik Bizans ordusunu məğlub etdi [16, s.25].

Lakin Əbu Bakrin bu qələbəni görməyə ömürü yetmədi. Belə ki, döyüş zamanı qəfilətən Mədinədən çapar gələrək Əbu Übeydə ibn Cərraha müsəlmanların ilk xəlifəsi vəfat etdiyini bildirən məktub təqdim etdi. İslam peyğəmbərindən sonra iki il, üç ay on gün müsəlmanlara hökmdarlıq etmiş Əbu Bəkr miladi təqvimi ilə 634 cü ilin avqust ayının 7-də xəstələnmiş və təxminən on beş gün davam edən xəstəlikdən sonra axşam o da vaxtı vəfat etmişdi [8, s.312].

Erkən dövr İslam tarixçisi Abdullah Vâkid əl-Eslemînin verdiyi məlumata görə, Əbu Bəkr vəfatından on beş gün əvvəl soyuq bir gündə qüsl almış, bundan sonra soyuqlamış və qızdırmaya tutularaq vəfat etmişdi [10, s.243].

Nəticə. Məqalənin sonunda qeyd etmək istərdik ki, Əbu Bəkrin xilafəti erkən İslam tarixində mühüm və həlledici dönüş nöqtəsi kimi qəbul edilir. Yuxarıda da qeyd etdiyimiz kimi, Məhəmməd peyğəmbərin vəfatından sonra müsəlman icması həm siyasi, həm də sosial baxımdan çətin və qeyrisabit bir dövrə daxil olmuşdu. Bu mərhələdə müxtəlif bölgələrdə yaranan narazılıqlar və bəzi qəbilələrin mərkəzi hakimiyyətdən uzaqlaşma cəhdləri İslam dövlətinin birliyi üçün ciddi təhlükə yaradırdı.

Belə bir mürəkkəb şəraitdə Əbu Bəkr qətiyyətli və prinsipial mövqe nümayiş etdirərək dövlətin birliyini qorumağı əsas prioritet kimi müəyyən etdi. O, daxili qarşıdurmaların genişlənməsinin qarşısını almaq üçün sərt, lakin məqsədyönlü siyasi addımlar atdı və mərkəzi hakimiyyətin nüfuzunu yenidən gücləndirdi. Onun rəhbərliyi ilə dövlət idarəçiliyində nizam-intizam bərpa olundu, siyasi sabitlik təmin edildi və parçalanma meylləri aradan qaldırıldı.

Eyni zamanda bu dövr yalnız böhranların idarə olunması ilə deyil, həm də İslam dövlətçiliyinin əsaslarının formalaşması ilə yadda qaldı. Əbu Bəkrin həyata keçirdiyi idarəçilik siyasəti gələcək Rəşidi xilafətinin inkişafına zəmin yaratdı və İslam dövlətinin təşkilati strukturunun möhkəmlənməsində mühüm rol oynadı.

ƏDƏBİYYAT

1.Dr. Elnur Nəsirov. İslam Tarixi. I c. Bakı: Nurlar nəşriyyatı. - 2014. - 512 s.
2.Dr. Hakkı Dursun Yıldız. Doğuştan Günümüze Büyük İslâm Tarihi. II cilt. İstanbul: Çağ Yayınları, - 1989. - 628 s.
3.Doç. Dr. Feyza Betül Köse. İslam Tarihi I cılt. Atatürk Üniversitesi Açıköğretim Fakültesi Yayinları, İstanbul: - 2023. - 392 s.
4.Dr. Hakkı Dursun Yıldız. Doğuştan günümüze büyük İslam tarihi. II cilt. İstanbul: Çağ yayinları, - 1992. - 633 s.
5.Ekrem Sağıroğlu. Hz. Ali. İstanbul: Düşün Yayıncılık, - 2016. - 256 s.
6.Yəhyayev Şahin. İbn Hişam-Əs-sirətun-nəbəviyyə. I cild. Bakı: Mirasnəşr MMC., - 2012. - 612 s.
7.Hasan Yılmaz. Hz. Muhammed, Halifelik, Dört Halife ve Hz. Hasan. Ankara: Elips Kitap, - 2016. - 143 s.
8.Hayati Ülkü. İslam Tarihi. I cilt. İstanbul: Çelik Yayınevi, - 2016. - 632 s.
9.Profesör Ahmet Akbulut. Sahabe Dönemi İktidar Kavgası. Ankara: Otto Yayin, - 2016. - 336 s.
10.Prof.Dr.Murat Sarıcık. Cananın can dostu Hz. Ebu Bekir (r.a). İstanbul: Nesil Yayınları, - 2011. - 319 s.
11.Беляев Е.А. Ислам и Арабский халифат в раннем Средневековье. Москва: Издательство Наука, - 1966. - 279 с.
12.Большаков О.К. История Халифата. т.I. Ислам и Аравия 570–633 гг. Москва: Издательство «Восточная литература», - 2000. - 312 с.
13.Кныш А.Д. Ислам в исторической перспективе: начальный этап и основные источники. Казань: Издательства Казанского университета, - 2015. - 192 с.

14.Марданшин Марат. История ислама (с углублённым изучением истории и культуры ислама). Казань: Издательство «ЯЗ», - 2012. - 225 с.
15.Родионов М.А. Ислам классический. Санкт-Петербург: Издательско-торговый дом «Летний сад», - 2001. - 256 с.
16.Хайати Улькю. История ислама. Стамбул: Издательство «Эркам», -2018. -494с.

САМИР БАХШАЛИЕВ
Доктор философии по историческим наукам,
доцент Бакинского государственного университета

ПЕРВЫЙ ХАЛИФ РАШИДОВ АБУ БАКР СИДК

После того, как Пророк Ислама завершил свою миссию и ушел из жизни, одной из проблем, с которыми столкнулись мусульмане, стал вопрос о том, кому и на каких основаниях следует предоставить полномочия для исполнения религиозных постановлений после смерти Пророка Мухаммеда. Избрание Абу Бакра халифом, намерение передать власть постороннему лицу, не принадлежащему к семье Пророка, привело к серьезным разногласиям и межконфессиональным расколам в исламском мире в последующие периоды. Абу Бакр Сиддик был одним из самых уважаемых мусульман и много сделал для ислама. Однако Али ибн Абу Талиб был по меньшей мере столь же влиятелен среди мусульман, как и сам Абу Бакр, и его заслуги перед исламом были не меньше, чем у Абу Бакра. Абу Бакр продемонстрировал решительную и принципиальную позицию, определив сохранение единства государства как свой главный приоритет. Он предпринял жесткие, но целенаправленные политические шаги для предотвращения распространения внутренних конфликтов и укрепления авторитета центрального правительства.

Ключевые слова: ислам, Абу Бакр, Али ибн Абу Талиб, халиф, Арабский халифат.

SAMIR BAKHSALIYEV
PhD in History,
Associate Professor, Baku State University

THE FIRST RASHID CALIPH ABU BAKR SIDQ

After the Prophet of Islam completed his mission and passed away, one of the problems faced by Muslims was the issue of who should be given the authority to implement religious rulings after the death of the Prophet Muhammad and on what grounds. The election of Abu Bakr as caliph, the intention to transfer power to an outsider who was not from the Prophet's family, led to serious disagreements and sectarian divisions in the Islamic world in the following periods. Abu Bakr Siddiq was one of the most respected among Muslims and had many services to Islam. However, Ali Ibn Abu Talib was at least as influential among Muslims as Abu Bakr himself, and his services to Islam were no less than Abu Bakr. Abu Bakr demonstrated a resolute and principled position, defining preserving the unity of the state as his main priority. He took tough but purposeful political steps to prevent the spread of internal conflicts and re-strengthened the authority of the central government.

Keywords: Islam, Abu Bakr, Ali Ibn Abu Talib, caliph, Arab Caliphate.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 iyun 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Aynur Hüseynova, t.e.d. İsmayıl Məmmədov.

UOT 94(560)

RÜFƏT RÜSTƏMOV
Bakı Dövlət Universiteti
Türk filologiyası kafedrasının müdiri, professor
rufatrustamov45@mail.ru

ORXAN SƏMƏDOV
Bakı Dövlət Universiteti
Şərqşünaslıq fakültəsinin tələbəsi
Orxansamedovvahab@gmail.com

OSMANLI İMPERİYASI: FƏTH EDİLƏN ƏRAZİLƏRDƏ SOSİAL BƏRABƏRLİK VƏ HUMANİST SİYASƏTİN FORMALAŞMASI PROSESİ

DOI: https://doi.org/10.36719/2708-065X/114/77-83

Bu məqalədə Osmanlı dövlətçilik ənənəsində tolerant baxışın yaranması, tətbiqi və zamanla davamlı bir idarəçilik siyasətinə çevrilməsi araşdırılır. Tarix boyu türk dövlətlərində bəzi hallarda fəth edilən ərazilərin dağıdılması, mənimsənilməsi və kölәlik ticarətinin davam etdirilməsi kimi hallar müşahidə olunmuşdur. Osmanlı dövlətinin bu zənciri qırması konkret siyasi hadisələr silsiləsi ilə başlamış və daha sonra müəyyən dövlətçilik ənənələrinə sadiq qalınaraq davam etdirilmişdir. Məqalənin məqsədi bu siyasi hadisələri aşkar etmək, onları tarixi mənbələr əsasında əsaslandırmaq və Osmanlı dövlətçilik ənənəsinə yeni bir baxış təqdim etməkdir.

Açar sözlər: Osmanlı imperiyası, Gelibolu fəthi, tolerant idarəçilik siyasəti, Balkanlar, Osmanlı dövlət idarəçiliyi.

Giriş. Türk xalqları yaşadıqları coğrafi mühit və tarixi şəraitin təsiri altında güclü həyatda qalma instinktinə malik toplumlar kimi formalaşmışdır [6]. Bu xüsusiyyət onların siyasi və dövlətçilik ənənələrində də öz əksini tapmışdır. Belə ki, tarix boyu mövcud olmuş türk dövlətlərinin əksəriyyəti güclü hərbi təşkilatlanmaya əsaslanan siyasi qurumlar olmuş və dövlət idarəçiliyində hərbi güc mühüm rol oynamışdır. Bu xüsusiyyət dövrünə görə inkişaf etmiş ordu sistemlərinin formalaşmasında, digər dövlətlər üzərində əldə olunan hərbi qələbələrdə və cəmiyyətin həyat tərzində güc amilinin ön planda tutulmasında özünü göstərmişdir. Bundan əlavə, türklərin dini dünyagörüşü də bu düşüncə tərzinin formalaşmasına müəyyən təsir göstərmişdir. Xüsusilə Tengriçilik inanc sistemində igidlik, cəsarət və qəhrəmanlıq kimi keyfiyyətlərin yüksək qiymətləndirilməsi bu xüsusiyyətlərin sosial və siyasi həyatın mühüm elementinə çevrilməsinə səbəb olmuşdur. Yazılı mənbələrdə və arxeoloji tapıntılarda türk igidlərinin qəhrəmanlıqları haqqında məlumatların geniş yer alması da bu ənənənin türk toplumlarının siyasi və hərbi mədəniyyətində mühüm yer tutduğunu göstərir. Bununla yanaşı, türklərin düşmənə qarşı sərt və qətiyyətli davranışı da tarix boyu qeyd olunan xüsusiyyətlərdən biri olmuşdur. Bu davranışın formalaşmasına müxtəlif siyasi, sosial və hərbi amillər təsir göstərmişdir. Lakin zaman keçdikcə bu xüsusiyyət təkcə zəruri hərbi davranış forması olaraq qalmamış, müəyyən mənada hərbi ənənəyə və mədəni stereotipə çevrilmişdir. Türk toplumlarının hərbi gücü və döyüş qabiliyyəti haqqında formalaşmış bu təsəvvür həm onların öz siyasi davranışına, həm də digər dövlətlərin türklərə münasibətinə təsir göstərmişdir. Nəticə etibarilə, müəyyən dövrlərdə türk dövlətlərinin xarici siyasətində hərbi gücə əsaslanan yanaşma mühüm yer tutmuş və bu yanaşma dövlət idarəçiliyinin əsas elementlərindən birinə çevrilmişdir [3].

Böyük Hun, Səlcuq, Monqol və Teymuri dövlətlərinin siyasi davranış modeli. XIII əsrdə yaranmış Monqol İmperiyası qısa müddət ərzində Avrasiyanın böyük bir hissəsini öz nəzarəti altına almışdır [3]. Bu imperiyanın qurucusu Çingiz Xan olmuşdur. Monqolların fəthləri nəticəsində imperiyanın sərhədləri Şərqi Asiyadan başlayaraq Orta Asiya, İran və Şərqi Avropaya qədər geniş əraziləri əhatə etmişdir. Monqol dövlətinin gücünün əsas səbəblərindən biri çevik və yaxşı təşkilatlanmış ordu sistemi idi. Ordunun əsasını atlı döyüşçülər təşkil edir, hər bir döyüşçü bir neçə atdan istifadə

edirdi ki, bu da uzun məsafələri sürətlə qət etməyə imkan verirdi. Orduda sərt intizam hökm sürürdü və əmrlərə tabe olmayan şəxslər ağır şəkildə cəzalandırılırdı [5, s.72].

Müqavimət göstərən şəhərlərə qarşı isə son dərəcə sərt tədbirlər görülür, bəzən kütləvi qırğınlar həyata keçirilirdi. 1221-ci ildə Nişapur şəhərinin işğalı zamanı baş verən hadisələr bu siyasətin ən tanınmış nümunələrindən biri hesab olunur. XIV əsrin ikinci yarısında yaranmış Teymurilər İmperiyasının qurucusu məşhur sərkərdə Əmir Teymur olmuşdur. O, 1370-ci ildə hakimiyyətə gələrək qısa müddətdə Orta Asiya, İran, İraq, Qafqaz və Hindistanın şimalına qədər uzanan geniş əraziləri öz hakimiyyəti altına almışdır. Teymurilər dövlətinin əsas gücü güclü və nizam-intizamlı ordu sisteminə əsaslanırdı. Əmir Teymurun ordusu əsasən atlı döyüşçülərdən ibarət idi və sürətli hücum taktikalarından istifadə edirdi. Bununla yanaşı, düşmən üzərində psixoloji təsir yaratmaq məqsədilə sərt cəza üsullarından da istifadə olunurdu. Üsyan edən şəhərlərə qarşı ağır tədbirlər görülürdü [5, s.90]. 1387-ci ildə İranın İsfahan şəhərində baş verən qırğın və bəzi mənbələrdə insanların kəllələrindən qüllələrin düzəldilməsi barədə məlumatlar bu siyasətin ən məşhur nümunələrindən biri hesab olunur.XI əsrdə yaranmış Səlcuq İmperiyası türk tarixində mühüm rol oynamış böyük dövlətlərdən biri hesab olunur. Dövlət xüsusilə Alp Arslan və Məlikşah dövründə güclənmiş və Orta Asiya, İran, İraq, Suriya və Anadolunun böyük hissəsini əhatə edən geniş ərazilərə sahib olmuşdur. Səlcuq dövlətinin hərbi gücü əsasən atlı türk döyüşçülərindən ibarət olan ordu sisteminə əsaslanırdı [7]. Bu döyüşçülər sürətli hücum və manevr taktikasından istifadə edərək döyüş meydanında üstünlük əldə edirdilər. Dövlət hakimiyyətinə qarşı çıxan və ya üsyan edən şəxslərə qarşı isə sərt cəzalar tətbiq edilirdi. Orta əsr mənbələrində bəzi hallarda üsyan və xəyanət edən şəxslərə qulaq və ya burun kəsilməsi kimi cəzaların tətbiq edildiyi qeyd olunur. Tarixdə ilk böyük türk dövlətlərindən biri hesab olunan Böyük Hun İmperiyası e.ə. III əsrdə meydana çıxmışdır. Bu dövlətin ən məşhur hökmdarı Mete Xan olmuşdur və o, e.ə. 209-cu ildə hakimiyyətə gələrək müxtəlif köçəri tayfaları birləşdirərək güclü bir dövlət yaratmışdır [8]. Hunların hakimiyyəti dövründə dövlət Orta Asiyanın geniş ərazilərinə yayılmışdır. Hun dövlətinin əsas gücü çevik və güclü ordu sisteminə əsaslanırdı. Ordunun əsasını atlı döyüşçülər təşkil edir və onlar ox və yaydan istifadə edərək sürətli hücum taktikaları tətbiq edirdilər. Dövlət daxilində hərbi intizam böyük əhəmiyyət daşıyırdı və hökmdarın əmrlərinə tabe olmaq bütün döyüşçülər üçün vacib sayılırdı. Bu qaydalara tabe olmayan şəxslərə qarşı sərt cəzalar tətbiq olunurdu Yuxarıda qeyd olunan dövlətlərin hər biri fərqli dövrlərdə mövcud olsa da, onların siyasi və hərbi davranışlarında müəyyən ortaq xüsusiyyətlər müşahidə olunur. Bu dövlətlərin əksəriyyəti güclü hərbi təşkilatlanmaya əsaslanmış və dövlətin siyasi gücü əsasən hərbi qüvvə üzərində qurulmuşdur. Fəth edilən ərazilərin idarə olunmasında hərbi üstünlük və siyasi hakimiyyətin qorunması əsas məqsəd hesab edilirdi. Bununla yanaşı, üsyan və müqavimət hallarında sərt cəza tədbirlərinin tətbiq olunması da həmin dövrün dövlətçilik ənənələrində geniş yayılmış idarəçilik üsullarından biri idi. Bu xüsusiyyətlər göstərir ki, orta əsr türk dövlətlərinin siyasi davranış modellərində hərbi güc və sərt idarəçilik mühüm yer tutmuşdur.

Osmanlı dövlətinin digər türk dövlətlərindən ilkin dövrdə fərqlənən xüsusiyyətləri. XIV əsrin əvvəllərində meydana çıxan Osmanlı dövləti əvvəlki türk dövlətlərindən bəzi xüsusiyyətlərinə görə fərqlənməyə başlamışdır. Bu fərqin əsas səbəblərindən biri dövlət idarəçiliyində İslam dininin və şəriət qaydalarının mühüm yer tutması idi. Osmanlı dövlətində siyasi hakimiyyət yalnız hərbi gücə deyil, eyni zamanda dini legitimliyə də əsaslanırdı [1]. Osmanlı sultanları öz hakimiyyətlərini yalnız siyasi lider kimi deyil, həm də İslam dünyasının qoruyucuları kimi təqdim edirdilər. Dövlət idarəçiliyində şəriət qanunları mühüm rol oynayır, dini alimlər və qazılar hüquqi məsələlərin həllində iştirak edirdilər [2]. Bu vəziyyət dövlət hakimiyyətinin yalnız güc üzərində deyil, eyni zamanda dini və mənəvi əsaslar üzərində qurulmasına səbəb olmuşdur. Osmanlı siyasi düşüncəsində sultanın mövqeyi də xüsusi əhəmiyyət daşıyırdı. Orta əsr İslam siyasi fəlsəfəsində hökmdar bəzən "Allahın yer üzündə kölgəsi" kimi təsvir edilirdi. Bu anlayış sultanın hakimiyyətinin yalnız siyasi deyil, eyni zamanda ilahi nizamın qorunması ilə bağlı olduğunu ifadə edirdi. Bu cür dini legitimlik dövlət hakimiyyətinə olan inamı artırır və idarəçilik sisteminin daha sabit şəkildə fəaliyyət göstərməsinə şərait yaradırdı. Bu xüsusiyyətlər Osmanlı dövlətinin idarəçilik modelinin əvvəlki bəzi türk dövlətlərinin siyasi davranış modellərindən müəyyən mənada fərqlənməsinə səbəb olmuşdur. Beləliklə, Osmanlı

dövlətində hərbi güc mühüm rol oynamaqda davam etsə də, dövlət siyasətinin formalaşmasında dini və hüquqi prinsiplərin təsiri daha aydın şəkildə hiss olunmağa başlamışdır.

Osmanlı dövlət idarəçiliyinin diqqət çəkən xüsusiyyətlərindən biri də əvvəlki hökmdarların müəyyən etdiyi dövlətçilik ənənələrinə böyük hörmətlə yanaşılması idi. Osmanlı sultanları, xüsusilə dövlətin ilk inkişaf mərhələlərində və Sultan Süleyman dövrünə qədər olan dövrdə, özlərindən əvvəl hakimiyyətdə olmuş hökmdarların müəyyən etdiyi qayda və prinsipləri asanlıqla dəyişməyə meyilli olmurdular. Dövlət idarəçiliyində "atalardan qalma ənənə" anlayışı mühüm yer tutur və bu prinsip dövlət hakimiyyətinin davamlılığını təmin edən əsas amillərdən biri kimi qəbul edilirdi. Osmanlı siyasi düşüncəsində silsilə, mərtəbə və idarəçilik qaydalarına ciddi şəkildə riayət olunurdu. Dövlət idarəçiliyində formalaşmış üsul və qaydaların qorunması yalnız siyasi sabitliyi təmin etmir, eyni zamanda əvvəlki nəsillərin dövlətçilik təcrübəsinin gələcək nəsillərə düzgün və keyfiyyətli şəkildə ötürülməsinə imkan yaradırdı. Bu səbəbdən Osmanlı dövlətində ənənə və idarəçilik prinsiplərinin qorunması dövlət sisteminin mühüm dayaqlarından biri hesab olunurdu. Osmanlının ilkin dövrdə fərqlənən xüsusiyyətlərindən biri kimi timar və iskan siyasətinin sistemli şəkildə tətbiqini aid etmək lazımdır. Bu siyasət yalnız inzibati və iqtisadi idarəetmə mexanizmi deyildi, eyni zamanda fəth olunan ərazilərdə hakimiyyətin möhkəmləndirilməsi, yerli əhalinin razılığının təmin olunması və yeni fəthlər üçün əlverişli şəraitin yaradılması baxımından da mühüm rol oynayırdı. Timar sistemi çərçivəsində dövlət torpaqları xidmət müqabilində sipahilərə verilirdi və bu da mərkəzi hakimiyyətin geniş ərazilərdə nəzarətini təmin edirdi. Sipahilər təkcə hərbi qüvvə kimi çıxış etmirdilər, onlar eyni zamanda yerli idarəetmədə əsas rol oynayır, asayişi qoruyur, vergiləri toplayır və kənd təsərrüfatının davamlılığını təmin edirdilər [1]. Bu isə fəth olunmuş ərazilərdə sabitliyin yaranmasına gətirib çıxarırdı. Sabitlik isə yerli əhali üçün təhlükəsizlik və nizam-intizam mühiti yaradırdı ki, bu da onların yeni hakimiyyətə daha tez uyğunlaşmasına və müəyyən mənada razılığın formalaşmasına səbəb olurdu. Belə bir şərait Osmanlı dövlətinə həmin ərazilərdə möhkəmlənməyə və eyni zamanda yeni fəthlərə yönəlməyə imkan verirdi. Eyni zamanda timar sisteminin tətbiqi torpaqların boş qalmasının qarşısını alır və iqtisadi həyatın davamlılığını təmin edirdi. Kənd təsərrüfatının inkişafı və istehsalın artması həm dövlətin gəlirlərini artırır, həm də yerli əhalinin yaşayış səviyyəsinə müsbət təsir göstərirdi. Bu cür iqtisadi sabitlik sosial gərginliyin azalmasına gətirib çıxarırdı. Yerli əhalinin həyat şəraiti yaxşılaşdıqca onların Osmanlı idarəçiliyinə münasibəti də daha müsbət olurdu. Bu isə bir tərəfdən həmin ərazilərdə möhkəmlənməni sürətləndirir, digər tərəfdən isə yeni fəthlər üçün iqtisadi baza yaradırdı.İskan siyasəti isə bu prosesi daha da gücləndirirdi. Dövlət tərəfindən həyata keçirilən planlı köçürmələr nəticəsində strateji əhəmiyyətli ərazilərə əhali yerləşdirilirdi. Bunun nəticəsində həm sərhəd təhlükəsizliyi möhkəmlənir, həm də boş torpaqlar istifadəyə cəlb olunurdu. Eyni zamanda yerli əhali ilə yeni məskunlaşan qruplar arasında müəyyən sosial tarazlıq yaranırdı. Bu isə qarşıdurma risklərini azaldır, Osmanlı hakimiyyətinə qarşı müqaviməti zəiflədir və nəticədə yerli əhalinin razılığının formalaşmasına şərait yaradırdı. Beləliklə, dövlət həmin ərazilərdə daha möhkəm yerləşir və bu ərazilər gələcək fəthlər üçün dayaq nöqtəsinə çevrilirdi. Xüsusilə Balkanlarda həyata keçirilən iskan siyasəti bu baxımdan xüsusi əhəmiyyət daşıyırdı. Anadolu əhalisinin bu ərazilərə köçürülməsi nəticəsində mərkəzi hakimiyyətə bağlı sosial baza formalaşırdı. Bu isə idarəetməni asanlaşdırır, eyni zamanda üsyan ehtimalını azaldırdı. Belə bir demoqrafik və sosial struktur Osmanlının həmin ərazilərdə daha möhkəm yerləşməsinə şərait yaradır və bu bölgələri yeni fəthlər üçün etibarlı arxa cəbhəyə çevirirdi. Beləliklə, timar və iskan sistemlərinin birlikdə tətbiqi Osmanlı dövlətinin erkən dövrdə uğurlu genişlənməsinin əsas səbəblərindən biri olmuşdur. Bu sistemlər vasitəsilə fəth olunan ərazilərdə sabitlik yaranır, yerli əhali ilə münasibətlər nisbətən balanslı şəkildə qurulur və bütün bunlar yeni fəthlər üçün əlverişli şərait yaradırdı.

Osmanlı dövlətində tolerant siyasətin başlanğıcı. Orhan Qazi dövründə, 1354-cü ildə Gelibolunun fəthi zamanı İstanbul hələ Bizans imperiyasının nəzarəti altında idi. Bu səbəbdən Osmanlı ordusunun Avropa torpaqlarına keçidi əsasən dəniz yolu ilə mümkün olurdu. Eyni zamanda Osmanlı dövlətinin bütün hərbi qüvvələrini qısa müddət ərzində Avropa tərəfinə çıxarması praktik olaraq mümkün deyildi. Bu vəziyyət Osmanlıların Trakya bölgəsində hərbi fəaliyyətini müəyyən dərəcədə məhdudlaşdırır və onların bölgədə daha ehtiyatlı siyasət yürütməsini zəruri edir-

di. Belə bir şərait Osmanlı dövlətini fəth edilən ərazilərdə yerli əhali ilə münasibətlərdə daha mülayim və inteqrativ idarəçilik siyasəti tətbiq etməyə sövq etmiş ola bilər. Gelibolunun fəthi zamanı yerli əhaliyə təhlükəsizlik və müəyyən imtiyazların verilməsi, şəhərdə geniş qarət və zorakılıq hallarının baş verməməsi bu siyasətin ilk nümunələrindən biri kimi qiymətləndirilə bilər [4]. Bu yanaşma bölgədə yaşayan əhali arasında Osmanlı hakimiyyətinin sabitlik və təhlükəsizlik gətirəcəyi düşüncəsinin formalaşmasına təsir göstərmişdir. Nəticədə Balkan bölgəsində yaşayan bəzi icmalar Osmanlı hakimiyyətinə daha az müqavimət göstərmiş və imperiyanın Avropa istiqamətində genişlənməsi müəyyən mənada daha sürətli şəkildə həyata keçirilmişdir. Beləliklə, ilkin mərhələdə zəruri siyasi və hərbi şəraitdən irəli gələn bu yanaşma sonrakı dövrlərdə Osmanlı dövlət idarəçiliyində daha sistemli və davamlı siyasət formasına çevrilmişdir. Gelibolunun fəthindən sonra Osmanlı hakimiyyəti bölgədə yalnız hərbi nəzarətlə kifayətlənməmiş, eyni zamanda yerli əhalinin gündəlik həyatının sabitliyini qorumağa yönəlmiş siyasət həyata keçirmişdir. Tarixi mənbələrə görə şəhərdə yaşayan əhaliyə müəyyən təhlükəsizlik təminatları və imtiyazlar verilmiş, geniş qarət və zorakılıq hallarına yol verilməmişdir. Bu yanaşma bölgədə yaşayan müxtəlif icmalar arasında Osmanlı hakimiyyətinə qarşı münasibətin daha mülayim olmasına səbəb olmuşdur. Bununla yanaşı, Gelibolu və ətraf bölgələrdə müəyyən abadlıq və inzibati təşkilatlanma işləri də həyata keçirilmişdir. Şəhərin müdafiə sisteminin möhkəmləndirilməsi, yaşayış məntəqələrinin bərpası və ticarət yollarının təhlükəsizliyinin təmin olunması kimi tədbirlər bölgədə sosial və iqtisadi həyatın sabitləşməsinə kömək etmişdir. Osmanlı hakimiyyətinin fəth edilən ərazilərdə möhkəmlənməsində mühüm rol oynayan siyasətlərdən biri də iskan siyasəti idi. Bu siyasət çərçivəsində bəzi türk ailələri və tayfaları yeni fəth edilmiş ərazilərə köçürülür, bu isə həm bölgənin iqtisadi həyatının canlanmasına, həm də Osmanlı hakimiyyətinin möhkəmlənməsinə şərait yaradırdı. Bununla yanaşı, Osmanlı idarəçiləri fəth edilən ərazilərdə vergi sistemini müəyyən qaydalar çərçivəsində tətbiq edir və yerli əhalinin təhlükəsizliyini təmin etməyə çalışırdılar. Osmanlı hakimiyyəti bir çox hallarda yerli əhali ilə əməkdaşlıq etməyə üstünlük verir, onların dini və sosial həyatına birbaşa müdaxilə etməməyə çalışırdı. Bu yanaşma Osmanlı dövlətinin Balkanlarda daha sabit şəkildə möhkəmlənməsinə və fəth edilən ərazilərin idarə olunmasına mühüm təsir göstərmişdir [5].

Osmanlı dövlətində tolerant siyasətin dövlətçilik ənənəsinə çevrilməsi. 1453-cü ildə İstanbulun fəthi Osmanlı dövlətinin siyasi və hərbi mövqeyində mühüm dönüş nöqtəsi olmuşdur. Bu hadisədən sonra Osmanlı dövləti Avropa və Asiya torpaqları arasında strateji nəzarəti əldə etmiş və ordularını Avropa istiqamətində daha rahat şəkildə hərəkət etdirə biləcək mövqeyə sahib olmuşdur. Beləliklə, Osmanlı dövlətinin ərazi bütövlüyü daha da möhkəmlənmiş və hərbi imkanları əvvəlki dövrlərə nisbətən xeyli genişlənmişdir. Lakin buna baxmayaraq, Osmanlı dövlətinin fəth edilən ərazilərdə tətbiq etdiyi tolerant idarəçilik siyasəti davam etdirilmişdir [1]. Sultan II Mehmed (Fatih Sultan Mehmed) fəth edilmiş bölgələrdə sabitliyin və ictimai nizamın qorunması baxımından bu siyasətin daha faydalı olduğunu görmüşdür. Yerli əhaliyə müəyyən azadlıqların verilməsi və onların dini həyatına müdaxilə edilməməsi Osmanlı hakimiyyətinin yeni fəth edilən ərazilərdə daha möhkəm şəkildə qurulmasına şərait yaradırdı. Bu siyasətin mövcudluğunu təsdiq edən mühüm tarixi sənədlərdən biri də İstanbulun fəthindən sonra Galata əhalisinə verilmiş ahidnamədir. Bu sənəddə Sultan II Mehmed Galata əhalisinə dini azadlıqlar tanındığını və onların dini ayinlərini sərbəst şəkildə yerinə yetirə biləcəklərini bildirmişdir. Ahidnamənin mətnində qeyd olunur: Türk dilində: Ebulfeth Sultan Mehmet Han İstanbul'u fethederken, Galata zembillerine bir ahitname vermiştir: "Ben, ulu padişah ve ulu şahenshah Sultan Mehmet Han bin Sultan Murad'ım, yemin ederim ki, yeri göğü yaratan Pervardigar hakkı için, Hazret Peygamberin pak ve münevver ruhu için, 7 müshabbin hakkı için, 124 bin peygamberin hakkı için, dedemin ruhu için, babamın ruhu için, benim başım için, oğullarımın başı için ve kılıç hakkı için, şimdi Galata'nın halkı, atabeyleri, ulemâsı dostluğu için, kalenin anahtarlarını gönderip bana kul olmaya, itaat ve inkiyaz göstermişlerdir. Ben de kabul ettim ki, kendilerinin ayinleri ve erkânları ne şekilde ne vecire cariye yola gelirse, o usul üzere, adet ve erkânlarını yerine getireler; kiliseleri ellerinde ola ve ayinlerince okusunlar" [2, s.77]. Bu sənəd Osmanlı dövlətinin fəth edilən ərazilərdə yaşayan əhalinin dini həyatına müdaxilə etməməyə çalışdığını və onların müəyyən hüquqlarını qorumağa yönəlmiş siyasət yürütməyə çalışdığını göstə-

rən mühüm tarixi sübutlardan biri hesab olunur. Beləliklə, ilkin mərhələdə zəruri siyasi şəraitdən irəli gələn tolerant idarəçilik yanaşması sonrakı dövrlərdə Osmanlı dövlətçilik ənənəsinin mühüm elementlərindən birinə çevrilmişdir. Ahidnamədə diqqət çəkən məqamlardan biri də Sultan II Mehmedin verdiyi andın yalnız öz hakimiyyəti ilə məhdudlaşmamasıdır. Sənəddə sultan yalnız öz başı ilə deyil, eyni zamanda oğullarının başı ilə də and içdiyini bildirir. Bu ifadə verilən təminatların yalnız həmin dövr üçün deyil, gələcək dövrlər üçün də qüvvədə qalmalı olduğunu göstərir. Bu yanaşma Osmanlı dövlətində idarəçilik ənənəsinin davamlılığı ilə də əlaqələndirilə bilər. Osmanlı siyasi mədəniyyətində əvvəlki hökmdarların qoyduğu qayda və prinsiplərə hörmətlə yanaşılması mühüm yer tuturdu. Bu səbəbdən bir sultan tərəfindən verilmiş müəyyən hüquq və təminatlar sonrakı hökmdarlar tərəfindən də qorunmağa çalışılırdı. Beləliklə, Galata ahidnaməsi yalnız müəyyən bir siyasi qərarı deyil, eyni zamanda Osmanlı dövlətində formalaşmaqda olan idarəçilik ənənəsinin davamlı xarakter daşıdığını da göstərir. Bu isə tolerant idarəçilik siyasətinin tədricən Osmanlı dövlətçilik ənənəsinin mühüm elementlərindən birinə çevrildiyini göstərən mühüm nümunələrdən biri hesab oluna bilər.

Osmanlı Bizans zülmünün xilaskarı kimi. Bizans dövlətinin son dövrlərində Balkanlarda yeritdiyi siyasət əhali üçün olduqca ağır və bəzən dözülməz xarakter daşıyırdı. Xüsusilə vergi siyasəti sadə insanların həyatını ciddi şəkildə çətinləşdirirdi [3]. Əhali yalnız dövlətə deyil, eyni zamanda yerli feodallara da müxtəlif ödənişlər etməyə məcbur idi. Vergisini ödəyə bilməyənlər isə sərt cəzalarla üzləşirdi. Bəzi hallarda bu cəzalar yalnız maddi sanksiyalarla məhdudlaşmır, fiziki zorakılıq və təzyiq formasında da özünü göstərirdi. Yerli idarəçilər və feodallar geniş səlahiyyətlərə malik olduqları üçün çox vaxt bu imkanlardan sui-istifadə edirdilər. Kəndlilər ağır əmək öhdəliklərinə məcbur edilir, onların əməyindən maksimum dərəcədə istifadə olunurdu. Ən kiçik itaətsizlik belə cəzasız qalmırdı və bu da cəmiyyət daxilində qorxu mühitinin formalaşmasına səbəb olurdu. İnsanlar yalnız iqtisadi deyil, eyni zamanda psixoloji baxımdan da təzyiq altında yaşayır, mövcud vəziyyət onları getdikcə daha ümidsiz hala salırdı. Bundan əlavə, Bizansın zəifləməsi ilə idarəetmədə nizamsızlıq daha da artmışdı. Yerli hakimlər çox vaxt öz maraqları naminə hərəkət edir, bu isə əhali üzərində təzyiqi daha da gücləndirirdi. Siyasi qeyri-sabitlik, daxili çəkişmələr və davamlı qarışıqlıqlar insanların həyatını daha da ağırlaşdırırdı. Üsyan ehtimalı olan bölgələrdə sərt cəza tədbirlərinin tətbiqi isə qorxu və qeyri-müəyyənlik mühitini daha da dərinləşdirirdi. Belə bir vəziyyətdə Osmanlı dövlətinin Balkanlara daxil olması bir çox insan üçün əvvəlki ağır şəraitlə müqayisədə fərqli bir mərhələnin başlanğıcı kimi görünməyə başladı. Osmanlının gətirdiyi nizam və asayiş, idarəetmədə müəyyən qaydaların mövcudluğu və həyatın daha sabit şəkildə davam etməsi əhali üçün əvvəlki xaotik və təzyiq dolu mühitdən ciddi şəkildə fərqlənirdi [4]. Bu, xüsusilə gündəlik həyatın daha təhlükəsiz və proqnozlaşdırıla bilən hala gəlməsi ilə özünü göstərirdi. Eyni zamanda Osmanlı idarəçiliyində müəyyən sistemin və qaydaların mövcud olması əhali üçün əvvəlki özbaşınalıqdan fərqli bir mühit yaradırdı. Yerli idarəçilərin nəzarət altında saxlanılması, nizam-intizamın qorunması və idarəetmənin daha sabit şəkildə həyata keçirilməsi insanların həyatına müəyyən bir rahatlıq gətirirdi. Bu isə əvvəlki dövrlə müqayisədə əhali arasında daha çox təhlükəsizlik hissinin formalaşmasına səbəb olurdu.Bundan əlavə, Osmanlı hakimiyyəti altında iqtisadi fəaliyyətin nisbətən sabitləşməsi və sosial münasibətlərin daha qaydalı şəkildə qurulması əhali üçün daha yaşana bilən bir mühit yaradırdı. Əvvəllər mövcud olan daimi təzyiq və qeyri-müəyyənlik hissi müəyyən dərəcədə zəifləyirdi və insanlar gündəlik həyatlarını daha rahat şəkildə davam etdirə bilirdilər.Bu səbəbdən bəzi hallarda Osmanlının gəlişi əhali tərəfindən sanki onları mövcud çətinliklərdən qurtaran, daha nizamlı və sabit həyat vəd edən bir qüvvə kimi qəbul olunurdu. Xüsusilə əvvəlki ağır şərait fonunda Osmanlı idarəçiliyi yerli əhali üçün yeni bir nəfəs kimi dəyərləndirilirdi və bu da dövlətin bölgədə daha sürətli möhkəmlənməsinə şərait yaradırdı.

Nəticə. Aparılan araşdırma göstərir ki, Osmanlı dövlətində fəth edilən ərazilərə münasibətdə formalaşan tolerant idarəçilik siyasəti təsadüfi bir yanaşma deyildi. Bu siyasətin ilkin nümunələri Gelibolu hadisəsi ilə bağlı olaraq ortaya çıxmışdır. Həmin dövrdə mövcud olan siyasi və hərbi şərait Osmanlı dövlətini fəth edilən ərazilərdə yerli əhali ilə münasibətlərdə daha mülayim və ehtiyatlı siyasət yürütməyə sövq etmişdir. Sonrakı dövrlərdə bu yanaşma Osmanlı dövlətinin Balkan siyasə-

tində davam etdirilmiş və fəth edilən bölgələrdə iskan siyasəti, təhlükəsizliyin təmin edilməsi və yerli əhali ilə əməkdaşlıq kimi tədbirlər vasitəsilə daha sistemli şəkildə tətbiq olunmağa başlamışdır. 1453-cü ildə İstanbulun fəthi isə bu siyasətin daha da möhkəmlənməsinə səbəb olmuşdur. Fatih Sultan Mehmed tərəfindən verilmiş ahidnamələr və yerli əhaliyə tanınmış hüquqlar göstərir ki, Osmanlı dövlətində tətbiq olunan tolerant idarəçilik modeli artıq müəyyən siyasi ənənəyə çevrilmişdi. Bu mərhələdən sonra həmin siyasət yalnız zəruri şəraitdən doğan bir yanaşma deyil, eyni zamanda dövlət idarəçiliyinin mühüm prinsiplərindən biri kimi qəbul olunmağa başlamışdır. Beləliklə, Osmanlı dövlətinin idarəçilik modeli əvvəlki bəzi türk dövlətlərinin siyasi davranış modellərindən müəyyən mənada fərqlənmişdir. Hərbi güc Osmanlı dövlətində də mühüm rol oynasa da, fəth edilən ərazilərdə sabitliyin qorunması, yerli əhali ilə münasibətlərin tənzimlənməsi və sosial nizamın təmin edilməsi dövlət siyasətinin əsas elementlərindən birinə çevrilmişdir. Bu xüsusiyyət Osmanlı dövlətinin digər türk dövlətlərindən fərqlənən və onun uzun müddət mövcud olmasına təsir göstərən mühüm amillərdən biri kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. İnalcık, Halil. *Osmanlı İmparatorluğu: Klasik Çağ (1300–1600).* İstanbul: Yapı Kredi Yayınları, 2003, 387 s.
2. İnalcık, Halil. *Fatih Devri Üzerine Tetkikler ve Vesikalar.* Ankara: Türk Tarih Kurumu Yayınları, 1954, xi, 245 s.
3. Shaw, Stanford J.; Shaw, Ezel Kural. *History of the Ottoman Empire and Modern Turkey.* Cambridge: Cambridge University Press, 1976, 351 p.
4. Finkel, Caroline. *Osman's Dream: The Story of the Ottoman Empire.* London: John Murray, 2005, [xxvii], 660 p.
5. Imber, Colin. *The Ottoman Empire, 1300–1650: The Structure of Power.* New York: Palgrave Macmillan, 2002, 448 p.
6. Kafadar, Cemal. *Between Two Worlds: The Construction of the Ottoman State.* Berkeley: University of California Press, 1995, 221 p.
7. Emecen, Feridun M. *Osmanlı Klasik Çağında Siyaset ve Yönetim.* İstanbul: Timaş Yayınları, 2010, 416 s.
8. Ágoston, Gábor; Masters, Bruce. *Encyclopedia of the Ottoman Empire.* New York: Facts On File, 2009, 689 p.

РУФАТ РУСТАМОВ
Заведующий кафедрой турецкой филологии,
профессор Бакинского государственного университета

ОРХАН САМАДОВ
студент Бакинского государственного университета

ОСМАНСКАЯ ИМПЕРИЯ: ФОРМИРОВАНИЕ СОЦИАЛЬНОЙ СПРАВЕДЛИВОСТИ И ГУМАНИСТИЧЕСКОЙ ПОЛИТИКИ НА ЗАВОЁВАННЫХ ТЕРРИТОРИЯХ

В данной статье рассматривается формирование толерантного подхода в традиции Османской государственности, его применение и постепенное превращение в устойчивую административную политику. На протяжении истории в некоторых тюркских государствах наблюдались такие явления, как разрушение завоёванных территорий, присвоение имущества и продолжение работорговли. Османское государство разорвало эту традицию посредством ряда конкретных политических событий, после чего данный подход был продолжен на основе определённых государственных традиций. Цель статьи - выявить эти политические события, обосновать их на основе исторических источников и представить новый взгляд на тра-

диции государственного управления Османской империи.

Ключевые слова: Османская империя, завоевание Галлиполи, толерантная административная политика, Балканы, государственное управление Османской империи.

RUFAT RUSTAMOV
Head of the Department of Turkish Philology,
Professor of Baku State University

ORKHAN SAMADOV
Student of Baku State University

THE OTTOMAN EMPIRE: THE FORMATION OF SOCIAL EQUALITY AND HUMANISTIC POLICY IN CONQUERED TERRITORIES

This article examines the emergence of a tolerant perspective within the Ottoman tradition of statehood, its implementation, and its transformation over time into a consistent administrative policy. Throughout history, in some Turkic states, practices such as the destruction of conquered territories, appropriation of property, and the continuation of the slave trade were occasionally observed. The Ottoman state broke this pattern through a series of specific political events and later continued this approach by adhering to certain state traditions. The aim of this article is to identify these political developments, substantiate them on the basis of historical sources, and present a new perspective on the Ottoman tradition of governance.

Keywords: Ottoman Empire, Conquest of Gallipoli, tolerant administrative policy, Balkans, Ottoman state administration.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Sani Hacıyev, t.e.d. İsmayıl Məmmədov.

UOT 94(479.24)

RƏNA ƏSƏDOVA
tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA Tarix İnstitutu,
Azərbaycan Universiteti
ORCID kod: 0000-0002-0310-6201
rena-beyler@gmail.com

CƏBRAYIL (KARYAGİN) QƏZASININ RUSİYA İMPERİYASININ İNZİBATİ QURULUŞUNDA YERİ

DOI: https://doi.org/10.36719/2708-065X/114/84-90

Qarabağ xanlığı Rusiya imperiyasına birləşdirildikdən sonrakı onilliklərində regionun idarəçilik sistemində, inzibati quruluşunda ciddi dəyişikliklər baş verdi. Bu dəyişikliklər nəticəsində xanlığın cənub bölgəsi olan Cəbrayıl mahalı öncə Qarabağ əyalətinin, sonra da Şuşa qəzasının tərkibinə daxil edildi. 1874-cü ildə isə Yelizavetpol quberniyası tərkibində ayrıca qəzaya çevrildi və sonrakı dövrdə 3 sahəyə bölündü. Təqdim edilən məqalədə Cəbrayıl (Karyagin) qəzasına aid yaşayış məntəqələri, əhalisinin sayında və etnik tərkibində baş vermiş dəyişikliklər araşdırılmış, onun doğurduğu nəticələr təhlil edilmişdir.

Açar sözlər: Cəbrayıl mahalı, Karyagin qəzası, inzibati quruluş, qəza və sahələrin yaradılması, kənd cəmiyyəti, yaşayış məntəqələri.

Giriş. XIX əsrin ilk onilliklərində Azərbaycanın şimal hissəsi, o cümlədən Qarabağ xanlığı Rusiya imperiyasına birləşdirildikdən sonrakı onilliklərdə bu regionda, o cümlədən onun cənub bölgəsi olan Cəbrayıl mahalının (qəzasının) idarəçilik sistemində, ictimai-siyasi və sosial-iqtisadi həyatında çox önəmli dəyişikliklər baş verdi. Bu dəyişikliklər yerli azərbaycanlı əhalinin gündəlik həyatına, xüsusən də etno-demoqrafik proseslərə güclü təsir göstərdi. Təqdim edilən məqalədə Cəbrayıl (Karyagin) qəzasında inzibati dəyişikliklərin XIX əsrin son – XX əsrin ilk onilliklərində mövcud yaşayış məntəqələri, əhalisinin sayında və etnik tərkibində baş vermiş dəyişikliklər haqqında bilgi verilməsi, onun doğurduğu nəticələrin təhlil olunması qarşıya məqsəd qoyulmuşdur.

Cəbrayıl bölgəsi Qarabağ xanlığının cənub hissəsində yerləşirdi və xanlığın bir hissəsi kimi 1805-ci ildə Kürəkçay müqaviləsinə əsasən Rusiyaya birləşdirildi. **1822-ci ildə *Qarabağ xanlığı ləğv edilib əyalətə çevrildi,*** Cəbrayıl bölgəsi də həmin əyalətin tərkibində *nahiyə (sahə)* statusu aldı. **1840-cı il aprelin 10-da** çar I Nikolayın imzaladığı qanunla Cənubi Qafqazda yeni inzibati-ərazi bölgü tətbiq edildi. Bu inzibati bölgüyə əsasən Qarabağ əyaləti ləğv edilib ***Şuşa qəzasına*** çevrildi, Cəbrayıl nahiyəsi həmin qəzanın tərkibində saxlandı və onunla birlikdə yeni yaradılan **Xəzər vilayətinə** daxil edildi [7, c.238]. Çar I Nikolayın **14 dekabr 1846-cı il tarixli** fərmanı ilə Cənubi Qafqazda yeni inzibati bölgü tətbiq edildi, Xəzər vilayəti əsasında ***Şamaxı quberniyası*** yaradıldı. Cəbrayıl nahiyəsi də Şuşa qəzasının bir hissəsi kimi bu quberniyanın [6, c.647] tərkibinə qatıldı.

Cəbrayıl nahiyəsi ilə bağlı növbəti inzibati dəyişiklik 21 il keçdikdən sonra gerçəkləşdirildi. **1867-ci il dekabrın 9-da** çar II Aleksandrın verdiyi fərmanla ***Yelizavetpol (Gəncə – R.Ə.) quberniyası*** yaradıldı və 5 qəza, o cümlədən Şuşa qəzası onun tərkibinə daxil edildi. Həmin fərmanla qəzaların nahiyələrə bölgüsü ləğv edildi, əvəzində həmin ərazilər üzrə ayrıca polis pristavlıqları yaradıldı [11, c.383]. Cəbrayıl nahiyəsi də bu fərmanla Şuşa qəzası tərkibində polis pristavlığına çevrildi.

Əsas hissə. Rusiya çarı II Aleksandrın imzaladığı ***3 noyabr 1874-cü il tarixli qanun üzrə*** Yelizavetpol (Gəncə – R.Ə.) quberniyasının tərkibindəki Şuşa qəzasının 3 yerə bölünməsi əsasında: **Şuşa, Cavanşir və Cəbrayıl qəzaları,** Nuxa qəzasının 2 yerə bölünməsi nəticəsində **Nuxa və Ərəş qəzaları** yaradıldı [12, c.353]. Beləcə, Yelizavetpol quberniyası 8 qəzadan ibarət oldu ki, bu bölgü Rusiya imperiyasının süqutuna kimi dəyişilməz qaldı. Cəbrayıl qəzasının inzibati mərkəzi olan Cəbrayıl məntəqəsi Yelizavetpol (Gəncə – R.Ə.) quberniyasının mərkəzi olan Gəncə şəhərindən 258,5 verst məsafədə yerləşirdi.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, tədqiqatçı A.Ş.Milmanın XIX – XX əsrin əvvəlində Şimali Azərbaycanın inzibati-siyasi quruluşuna həsr olunmuş əsərində Cəbrayıl, Cavanşir və Ərəş qəzalarının 1873-cü ildə yaradılması əks olunmuşdur [9, c.157]. Yeddi cildlik Azərbaycan tarixinin 4-cü cildində isə Cəbrayıl və Cavanşir qəzalarının 1883-cü ildə yaradılması qeyd edilmişdir [1, IV c., s.165]. Azərbaycan tarixi üzrə ümumi xarakterli dərslik və dərs vəsaitlərində də bu əsərə istinad etməklə yanlış tarix təkrarlanmışdır [2, s.275; 3, s.278].

Cəbrayıl qəzasının adı Rusiya Daxili işlər nazirinin təqdimatı əsasında imperator II Nikolayın **1905-ci il martın 18-də** verdiyi fərmanla dəyişdirilib Karyagin qəzası adlandırıldı, inzibati mərkəzi də Cəbrayıl məntəqəsindən ***Qarabulaq kəndinə*** köçürüldü. Qarabulaq kəndinin adı isə dəyişdirilib ***Karyagino*** (indiki Füzuli şəhəri – R.Ə.) adlandırıldı [10, c.189]. Buna səbəb 1805-ci ildə polkovnik P.Karyaginin başçılıq etdiyi rus hərbi dəstəsinin həmin ərazidə Qacar şahzadəsi Abbas Mirzənin qoşunlarının hücumunu dəf etməsinin Rusiya hakimiyyəti tərəfindən 100 illiyinin qeyd edilməsi idi. Lakin Cəbrayıl məntəqəsi XX əsrin ilk onilliklərində bütövlükdə regionun iqtisadi mərkəzi kimi, xüsusən də Qacarlar dövləti ilə sərhəd ticarətinə nəzarət edən mühüm gömrük məntəqəsi kimi əhəmiyyətini qoruyub saxlamaqda davam edirdi.

XIX əsrin 70-ci illərinin ortalarına aid rəsmi məlumatlara görə Cəbrayıl qəzasının *ərazisi* 2 749 kv.verst və ya 3 128 kv.km, *əhalisi* 22 706 kişi, 18 623 qadın olmaqla, cəmi 41 329 nəfər idi (15, c.600-604). Qəza əhalisinin etnik tərkibində əsas yeri Azərbaycan türkləri tuturdu – 30 638 nəfər (74,1 faiz). Qəzada azərbaycanlılardan əlavə 8 793 nəfər erməni (21,3 faiz), 1 723 nəfər kürd (4,2 faiz) və 175 nəfər rus (0,4 faiz) yaşayırdı.

3 noyabr 1874-cü il tarixli qanuna görə qəza rəisi qubernator tərəfindən təyin edilir və işdən çıxarılırdı. Cəbrayıl qəzasının ilk rəisi ştabs-kapitan M.N.Purtsalidze təyin edilmişdi [5, адрес-календарь, c.43]. Qəza rəisi həm qəzanı idarə edir, həm də polis nəzarətinə rəhbərlik edirdi. Bundan əlavə, yerli vergi və mükəlləfiyyətlərin kargüzarlığı və hesablanması işlərinə rəhbərlik, kəndlərdə ictimai idarəçiliyə nəzarət də ona həvalə edilmişdi [16, c.22].

Qəza rəisinin köməkçisi polis pristavı qəza əhalisi üzərində ictimai asayişə nəzarəti həyata keçirirdi. Lakin tezliklə aydın oldu ki, polis pristavının 1-2 nəfər işçi ilə bütün qəza əhalisi üzərində ictimai nəzarəti həyata keçirməsi mümkün deyildir. Başqa sözlə, qəzaların sahələrə bölünməsi qaydasının ləğv edilməsi, artıq inzibati xərclərdən qurtulmaq üçün həyata keçirilsə də, yəni *ənənəvi üç pilləli inzibati idarənin – quberniya-qəza-sahə* bölgüsündən sahənin çıxarılması özünü doğrultmadı.

Çar III Aleksandrın imzaladığı 10 may 1888-ci il tarixli qanunla qəzaların sahələrə bölünməsi bərpa edildi. Bu qanuna görə Cənubi Qafqazın 5 quberniyasında 37 qəza 125 sahəyə bölündü [8, c.20]. Qəzaların kiçik sahələrə bölünməsi sahə rəislərinə – polis pristavlarına imkan verdi ki, yerli əhalini ciddi nəzarətdə saxlasın, hər hansı üsyankar əhval-ruhiyyənin qarşısını almaq üçün hərəkətə keçsin, həmçinin vergilərin vaxtında və tam şəkildə ödənilməsini təmin etsin.

1886-cı ildə Zaqafqaziya (Cənubi Qafqaz – R.Ə.) diyarında keçirilmiş ailə sayımına aid materiallar 1888-ci ildə nəşr edildiyinə görə, artıq bu dövrdə qəzaların yenidən polis sahələrinə bölünməsi nəzərə alınmışdı. Ona görə də, bu mənbədə ***Cəbrayıl qəzasının 3 sahədən ibarət olması*** əks olunmuşdur. ***Birinci sahəyə*** 13 kənd cəmiyyəti, 43 kənd, 2 642 həyət (külfət, ailə) daxil idi. Əhalisinin ümumi sayı 14 026 nəfər, mərkəzi *Bəhmənli* kəndi idi. Sahə pristavı bu kənddə qalırdı. Bəhmənli kəndi qəzanın inzibati mərkəzi olan Cəbrayıl məntəqəsindən 50 verstlik məsafədə idi [14, c.217-218].

İkinci sahəyə 14 kənd cəmiyyəti, 68 kənd, 3 353 həyət (külfət, ailə) daxil idi. Əhalisinin ümumi sayı 18 778 nəfər, mərkəzi *Horadiz* kəndi idi. Horadiz kəndi qəzanın inzibati mərkəzi olan Cəbrayıl məntəqəsindən 23 verstlik məsafədə yerləşirdi. Sahə pristavının olduğu yer bu kənd idi [14, c.218-22-].

Üçüncü sahəyə 13 kənd cəmiyyəti, 57 kənd, 2 770 həyət (külfət, ailə) daxil idi. Bu sahədə əhalinin ümumi sayı 14 107 nəfər, mərkəzi *Cəbrayıl məntəqəsi* idi. Sahə pristavı da, qəza rəisi kimi bu məntəqədə yerləşmişdi [14, c.220-222].

Bütövlükdə isə, 1886-cı il siyahıyaalmasına görə Cəbrayıl qəzasının əhalisi 46 911 nəfər idi. Həmin vaxt qəza üzrə 40 kənd cəmiyyəti, 168 kənd var idi və 8 765 həyət (külfət, ailə) yaşayırdı [14, c.X]. Qəza əhalisinin milli tərkibi aşağıdakı kimi idi: azərbaycanlılar – 6 880 həyət (külfət,

ailə), 19 501 kişi və 14 076 nəfər qadın olmaqla, cəmi 33 577 nəfər və ya ümumi əhalinin 71,5 faizi; ermənilər – 1 504 həyət (külfət, ailə), 6 240 nəfər kişi və 5 428 nəfər qadın olmaqla, cəmi 11 668 nəfər və ya ümumi əhalinin 24,9 faizi; kürdlər – 336 həyət (külfət, ailə), 848 nəfər kişi və 604 nəfər qadın olmaqla, cəmi 1 452 nəfər və ya ümumi əhalinin 3,1 faizi; ruslar – 45 həyət (külfət, ailə), 104 nəfər kişi və 109 nəfər qadın olmaqla, cəmi 213 nəfər və ya ümumi əhalinin 0,5 faizi [14, c.222].

1886-cı ildə keçirilmiş ailə sayımına əsasən Cəbrayıl qəzasında əhalinin sosial tərkibi haqqında da məlumat əldə etmək mümkündür. Həmin mənbəyə görə, 1880-ci illərin ortalarında Cəbrayıl qəzasında 863 nəfər kişi və 645 nəfər qadın olmaqla, cəmi 1 508 nəfər bəy ailəsi üzvü, 115 nəfər kişi və 96 nəfər qadın olmaqla, cəmi 211 nəfər müsəlman ruhani ailəsi üzvü, 231 nəfər erməni keşişi ailəsi üzvü, 37 nəfər tacir yaşayırdı [14, c.222].

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanın inzibati idarəetmə sistemində son istinad nöqtəsi ***kənd cəmiyyəti – idarəsi*** idi. Kənd cəmiyyəti kəndlilər üzərində nəzarəti həyata keçirməli, ictimai asayişi qorumalı, ən əsası isə vergi və mükəlləfiyyətlərin toplanmasını əksiksiz icra etməli idi. Kənd cəmiyyəti başçısı kənd əhalisinin Rusiya dövlətinə tabeçiliyini daha da möhkəmləndirməli, əhalinin çar mütləqiyyətindən hərtərəfli asılılığını təmin etməli idi idi. 1865-ci il avqustun 11-də Qafqaz canişini tərəfindən təsdiq edilmiş Tiflis və Kutaisi quberniyalarında *Kənd cəmiyyətləri haqqında əsasnamə* və 1866-cı il avqustun 23-də təsdiq edilmiş Bakı quberniyasında Kənd cəmiyyətləri, onların ictimai idarəsi, dövlət və ictimai mükəlləfiyyətlər haqqında əsasnamə bu məqsədə xidmət edirdi. Sonuncu Əsasnamə 1870-ci ilin aprelində Yelizavetpol (Gəncə -R.Ə.) quberniyasına da şamil edildi [1, IV c., s.167]. Bakı quberniyasında cəmisi 423 və Yelizavetpol quberniyasında 325 kənd cəmiyyəti yaradıldı. 1880-ci illərin ortalarında Cəbrayıl qəzasında 40 kənd cəmiyyəti mövcud idi.

Kənd cəmiyyətinin idarə orqanı kəndlilərin ümumi yığıncağı idi, burada kəndin başçısı kəndxuda seçilirdi. Kəndxudaya kənd üzərində inzibati-polis hüquqları verilirdi. Kənd yığıncaqlarında həmçinin kənd həyatı ilə bağlı bir sıra məsələlərə: ziyankar və pozğun üzvlərin kənd icmalarından uzaqlaşdırılması, qəyyum və himayədarların təyin edilməsi və s. işlərə baxa bilərdi. Kənd inzibati orqanlarının seçkili olmasını tətbiq edən çar hökuməti, eyni zamanda, kəndxudanın qubernator tərəfindən, onun köməkçilərinin isə qəza rəisi tərəfindən təsdiq edilməsi tələbini qoymuşdu.

Kənd cəmiyyətləri haqqında əsasnaməyə uyğun olaraq vahid kənd idarəsi yaradıldı. Kənd cəmiyyətini kəndxuda və onun köməkçiləri idarə edirdi. Kənd idarəsinə 25 yaşından yuxarı olan kəndlilər 3 il müddətinə seçilir, onları qubernator təsdiq edirdi. Kəndlilərin yığıncağının kənd məmurlarını seçmək, onları kənd cəmiyyəti üzvlüyündən çıxarmaq, ictimai torpaqlar haqqında sərəncam vermək, dövlət vergilərini qaydaya salmaq hüquqları var idi. Mühüm məsələni həll etmək üçün bütün əhalinin səslərinin 2/3 hissəsi tələb olunurdu [3, s.273-274]. Kənd idarələri qəza və quberniya idarələrinə tabe olub, heç bir müstəqilliyə malik deyildi. Kənd cəmiyyətləri haqqında əsasnaməyə görə bəylər və ağalar kəndin inzibati idarəçiliyindən kənarlaşdırıldılar, həmçinin kəndlilər üzərində polis-məhkəmə hakimiyyətindən məhrum edildilər.

Sonrakı onilliklərdə Cəbrayıl (Karyagin) qəzasında kənd cəmiyyətlərinin və kəndlərin sayında dəyişikliklər baş verdi. 1910-cu il üçün "Qafqaz təqvimi"nə görə, Karyagin qəzasında 1909-cu il yanvarın 1-nə olan məlumata əsasən ***3 sahə, 30 kənd cəmiyyəti və 173 kənd*** var idi. Yəni 1880-ci illərin ortaları ilə müqayisədə, 1909-cu ildə kənd cəmiyyətlərinin sayı 40-dan 30-a düşmüş, kəndlərin sayı isə əksinə 168-dən 173-ə qədər artmışdı. Sahələr üzrə kəndlərin və kənd əhalisinin sayında da ciddi dəyişikliklər baş vermişdi.

1909-cu il yanvarın 1-nə olan məlumata görə, 1-ci sahədə 10 kənd cəmiyyəti və 40 kənd, 2-ci sahədə 10 kənd cəmiyyəti və 61 kənd, 3-cü sahədə 10 kənd cəmiyyəti və 72 kənd mövcud idi.

1909-cu il yanvarın 1-nə olan məlumata görə 1-ci sahədə 7 556 nəfər kişi və 15 122 qadın, cəmi 15 122 nəfər, *2-ci sahədə* 18 265 kişi və 12 619 qadın, cəmi 30 884 nəfər, *3-cü sahədə* 11 421 kişi və 12 657 qadın, cəmi 24 078 nəfər yaşayırdı. Həmin il qəza üzrə əhalinin ümumi sayı 37 242 nəfər kişi və 32 832 nəfər qadın olmaqla, cəmi 70 074 nəfər idi [13, отд. стат., с.442-443].

1910-cu il üçün "Qafqaz təqvimi"ndəki statistik göstəricilər əsasında [13, ч. 1, отд. стат. с.488] tərtib olunmuş 1 saylı cədvəldə Karyagin qəzasında 1909-cu il yanvarın 1-də kənd cəmiyyətlərinin və kəndlərin sayı, həmçinin həmin kəndlərdə yaşayan əhalinin sayı və milli tərkibi əks olunmuşdur.

Cədvəldəki statistik göstəricilərdən aydın olur ki, 1909-cu ildə Karyagin qəzasının 1-ci sahəsində mövcud olan 42 kənddən 34-də yalnız azərbaycanlılar – 10 793 nəfər, 1 kənddə azərbaycanlılar və ruslar qarışıq olmaqla – 1 389 nəfər, 7 kənddə azərbaycanlılar və ermənilər qarışıq olmaqla – 2 930 nəfər yaşayırdı. 2-ci sahədə mövcud olan 61 kənddən 57-də yalnız azərbaycanlılar – 20 811 nəfər, 13 kənddə yalnız ermənilər – 10 073 nəfər yaşayırdı. 3-cü sahədə 72 kənddən 61-də yalnız azərbaycanlılar – 18 431 nəfər, 10 kənddə isə yalnız ermənilər – 5 647 nəfər yaşayırdı.

Bütövlükdə, artıq yuxarıda qeyd edildiyi kimi, **1909-cu ildə Karyagin qəzasında 37 242 nəfər kişi və 32 832 nəfər qadın olmaqla, cəmi 70 074 nəfər əhali yaşayırdı.** 1886-cı il siyahıyaalmasına görə Cəbrayıl qəzasının əhalisi 46 911 nəfər olmasını nəzərə alsaq, belə qənaət gəlmək olar ki, keçən 23 il ərzində qəza əhalisinin sayı 23 163 nəfər artmışdı.

1 saylı cədvəl

Karyagin qəzasında 1909-cu ildə sahələr üzrə kənd cəmiyyətlərinin və kəndlərin sayı, əhalisi və milli tərkibi

Kənd cəmiyyətinin adı	Kəndlərin sayı	Kişilər	Qadınlar	Cəmi	Etnik tərkibi
1-ci polis sahəsi	***42***	***7 556***	***7 556***	***15 112***	
Karyagino	3	654	735	1 389	Az-nlı və rus
Edilli	7	1 378	1 552	2 930	Az-nlı və erm.
Əbdürəhmanbəyli	4	720	823	1 543	Azərbaycanlı
Mahmudlu	6	840	812	1 652	Azərbaycanlı
Qaraxanbəyli	5	688	646	1 334	Azərbaycanlı
Alıxanlı	2	741	694	1 435	Azərbaycanlı
Şahsevən	1	479	287	766	Azərbaycanlı
Bəhmənli	4	642	549	1 191	Azərbaycanlı
Kərimbəyli	2	461	403	864	Azərbaycanlı
Qarğabazar	8	953	1 055	2 008	Azərbaycanlı
2-ci polis sahəsi	***60***	***18 265***	***12 619***	***30 884***	
Hadrut	6	2 454	1 836	4 290	Erməni
Daqasır	4	1 970	1 390	3 360	Erməni
Banazur	3	1 393	1 030	2 423	Erməni
Qarakollu	10	2 765	1 825	4 590	Azərbaycanlı
Süleymanlı	6	1 235	806	2 041	Azərbaycanlı
Ağalı	10	1 763	1 152	2 915	Azərbaycanlı
Maralyan	4	1 940	1 445	3 385	Azərbaycanlı
Quycaq	8	1 395	938	2 333	Azərbaycanlı
Daşkəsən	4	1 631	1 001	2 632	Azərbaycanlı
3-cü polis sahəsi	***71***	***11 421***	***12 657***	***24 078***	
Cəbrayıl	10	1 526	1 788	3 314	Azərbaycanlı
Əhmədli	8	726	860	1 586	Azərbaycanlı
Harakül	5	1 287	1 547	2 834	Erməni
Ağcakənd	5	1 257	1 556	2 813	Erməni
Soltanlı	5	915	942	1 857	Azərbaycanlı
Qubatlı	10	1 054	1 152	2 206	Azərbaycanlı
Xoca	8	1 331	1 394	2 725	Azərbaycanlı
Mafruzlu	8	1 076	1 247	3 323	Azərbaycanlı
Xanlıq	4	909	824	1 733	Azərbaycanlı
Ağalı	7	1 340	1 347	2 687	Azərbaycanlı
Qəza üzrə cəmi	**173**	**37 242**	**32 832**	**70 074**	

Nəticə. Rusiya imperiyası hakimiyyətinin Şimali Azərbaycanda həyata keçirdiyi inzibati dəyişikliklər müstəmləkə idarəçiliyini təkmilləşdirmək məqsədi güdürdü. Bakı və Yelizavetpol (Gəncə - R.Ə.) quberniyalarının, eləcə də digər yeni inzibati-ərazi vahidlərinin – qəzaların, o cümlədən Cəbrayıl (Karyagin) qəzasının yaradılması inzibati idarəçilikdə irəliyə doğru addım olsa da, bu inzibati dəyişikliklər Azərbaycan torpaqlarının siyasi-inzibati baxımdan bütövlüyünə ciddi xələl gətirdi. Şimali Azərbaycanın ərazisi Qafqazda yeni təsis olunmuş müxtəlif quberniyalar və Dağıstan vilayəti arasında parçalandı. Ayrı-ayrı bölgələrimiz arasında pərakəndəlik məqsədli şəkildə saxlandı.

İnzibati idarəçilikdə yarımçıq və əsaslandırılmamış qərar və fərmanlar sayəsində problemlər qalmaqda davam edirdi. Artıq yuxarıda qeyd edildiyi kimi, qəzaların sahələrə bölgüsünün 1867-ci ildə ləğv edilməsi ilə bütün yerli inzibati idarəçilik ciddi çətinliklərlə üzləşdi. Polis hakimiyyətinin qəza rəislərinin əlində toplanması vəziyyəti daha da ağırlaşdırdı [8, c.26-27]. Bütün qəza mərkəzlərində qəza idarələrinin ştatına polis vəzifələri – şəhər pristavı, onun köməkçisi və s. daxil edilməsi də vəziyyəti düzəltmədi.

Azərbaycan qəzalarında əhalinin müstəmləkəçilik siyasətinə qarşı, eləcə də maddi vəziyyətini yaxşılaşdırmaq uğrunda mübarizəsinin daha kəskin xarakter alması, çarizmi inzibati idarəetmədə növbəti addımlar atmağa məcbur etdi. Ölkəmizin hər yerində xalq çıxışları baş verməsi, qaçaq hərəkatının yayılması, hakimiyyət nümayəndələrini regionun həyəcanlı hissələrində polis nəzarətini gücləndirmək üçün qəza rəislərinə tabe edilən sahələrin yenidən təşkilinə, xüsusi pristavlıqların təsis edilməsinə icazə verildi. Çar hakimiyyət orqanlarına və yerli mülkədarlara qarşı çevrilmiş və güclənməkdə olan kəndli hərəkatı çar hökumətini Cənubi Qafqazda sahələri bərpa etməyə məcbur etdi. Cəbrayıl (Karyagin) qəzasında da 3 belə sahə yaradıldı.

Bütün bu faktlar göstərir ki, XIX yüzilliyin ikinci yarısında və XX əsrin ilk onilliklərində qəza inzibati idarəçiliyinin tərkibi və vəzifələrində ciddi dəyişiklik baş vermədi. Hətta sahələr bərpa edildikdən sonra da, qəza rəisi inzibati-polis idarəsinin başçısı kimi, əsas rol oynamaqda davam edirdi. Yerli inzibati idarə aparatının ən aşağı həlqəsi olan sahənin başçısı – polis pristavı idi. O, sahənin bütün sakinlərini tanımalı, onların siyasi sədaqətinə əmin olmalı, ilkin istintaq aparmalı, xəzinə və yerli mükəlləfiyyətlər üzrə vergilərin toplanmasını izləməli və onlardan bir çoxunu özü toplamalı, kənd idarələrinə göz qoymalı idi.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Azərbaycan tarixi. Yeddi cilddə. IV c. (XIX əsr). Bakı, Elm, 2007, 504 s. // https://lib.az/users/1/upload/files/Azerbaycan_tarixi_7_cildde%2C_cild_4.pdf (müraciət tarixi – 10.05.2026-cı il).
2. Qəniyev H.Q. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2019, 499 s.
3. Nuriyeva İ.T. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Texniki ali məktəblər üçün dərslik. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2024, 784 s.

Rus dilində

4. Административное деление губерний, областей и округов Кавказского края // Кавказский календарь на 1913 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1912, отд. статистический, с.108-126.
5. Адрес-календарь // Кавказский календарь на 1877 г., Тифлис: Гл. упр. Кавказ. Наместника, 1876, с.1-164.
6. Высочайше утвержденное положение о разделении Закавказского края. 14 декабря 1846 г. // Полное собрание законов Российской империи. Собрание 2-е, отд. 2-е, т.21, СПб.: Тип. 2-го Отд-ния Собств. её императ. величества канцелярии, 1847, ст.20 701, с.647-648.
7. Высочайше утвержденное учреждение для управления Закавказским краем. 10 апреля 1840 г. // Полное собрание законов Российской империи. Собрание 2-е, т. 15, отд. 1-е, СПб.: Тип. 2-го Отд-ния Собств. её императ. величества канцелярии, 1841, ст. 13 368, с.237-261.
8. Евангулов Г.Г. Местная реформа на Кавказе. СПб., Тип. т-ва А.В.Суворина, 1914, 67 с. // http://elib.shpl.ru/ru/nodes/47036#mode/inspect/page/32/zoom/6 (дата обрашения – 10.05.2026)

9. Мильман А.Ш. Политичесий строй Азербайджана в XIX – начале XX веков (административный аппарат и суд, формы и методы колониального управления). Баку, Изд-во Азернешр, 1966 http://web2.anl.az:81/read/page.php?bibid=330279&pno=80 (дата обрашения – 10.05.2026).
10. О переводе уездных учреждений Джебраильского уезда Елисаветполской губернии, из урочища Джебраил в селении Карабулаг и о переименовании названного селения в селение Карягино и Джебраильского уезда в Карягинский. 18 марта 1905 г. // Полное собрание законов Российской империи. Собрание 3-е, т. 25, ч. 1, 1905 г., док. №25989, СПб, Тип. 2-го Отд-ния Собств. Е.И.В. канцелярии, 1908, с.189.
11. О преобразовании управления Кавказского и Закавказского края. 9 декабря 1867 г. // Полное собрание законов Российской империи. Собрание второе, т. 42, собр. 2, 1867 г., док. №45259, СПб, Тип. 2-го Отд-ния Собств. Е.И.В. канцелярии, 1871, 476 с.; с.382-386.
12. О штатах Главного Управления Наместника Кавказского и административных учреждений Закавказского края // Полное собрание законов Российской империи. Собрание 2-е, т. 49, ч.2, 1874, док. № 54 010, СПб.: Тип. 2-го Отд-ния Собств. её императ. величества канцелярии, 1876, с.353.
13. Распределение населения Закавказья по сельским обществам и народностям // Кавказский календарь на 1910 г. Тифлис: Гл. упр. Кавказ. Наместника, 1909, отд. статистический, с.462-521.
14. Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. Тифлис, Тип. И.Мартиросианца, 1893 // http://web2.anl.az:81/read/page.php?bibid=420127&pno=222&zoom=2 (дата обрашения – 10.05.2026).
15. Таблица с показанием пространства, населения и населенности Кавказского края (по официальным сведением 1873-1876 гг.) и при ней пояснительная записка // Сборник сведений о Кавказе. Т. 4, Тифлис, Гл. упр. Кавказ. Наместника, 1878.
16. Учреждение управления Кавказского края, т.2, ч.2, СПб., Государственная типография, 1886, 32 с.

РЕНА АСАДОВА
доктор философии по истории, доцент

МЕСТО ДЖЕБРАИЛЬСКОГО (КАРЯГИНСКОГО) УЕЗДА В АДМИНИСТРАТИВНОМ УСТРОЙСТВЕ РОССИЙСКОЙ ИМПЕРИИ

В первые десятилетия после присоединения Карабахского ханства к Российской империи в системе управления и административном устройстве региона произошли серьезные изменения. В результате этих реформ Джебраильский магал, являвшийся южным регионом ханства, сначала вошел в состав Карабахской провинции, а затем Шушинского уезда. В 1874 году он был преобразован в отдельный уезд в составе Елизаветпольской губернии и в последующим периоде разделен на 3 участка. В представленной статье исследованы населенные пункты, относившиеся к Джебраильскому (Карягинскому) уезду, изменения в численности и этническом составе его населения, а также проанализированы их последствия.

Ключевые слова: Джебраильский магал, Карягинский уезд, административное устройство, создание уездов и участков, сельское общество, населенные пункты.

RANA ASADOVA
PhD in History, Associate Professor

THE PLACE OF THE JEBRAIL (KARYAGINO) DISTRICT IN THE ADMINISTRATIVE STRUCTURE OF THE RUSSIAN EMPIRE

Serious changes occurred in the management system and administrative structure of the region during the first decades after the annexation of the Karabakh khanate to the Russian Empire. As a

result of these reforms, the Jabrayil mahal, which was the southern region of the khanate, first became part of the Karabakh Province, and later the Shusha district. In 1874, it was transformed into a separate uyezd within the Elizavetpol Governorate and subsequently divided into 3 districts. The presented article examines the settlements belonging to the Jabrayil (Karyagin) districn, changes in the size and ethnic composition of its population, and analyzes their consequences.

Keywords: Jabrayil mahal, Karyagin district, administrative structure, creation of districts and areas, rural community, populated areas.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 iyun 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Hacı Həsənov, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24)

KÖNÜL ƏLİYEVA
tarix üzrə fəlsəfə doktoru
AMEA Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi
https://orcid.org/0000-0001-9424-9293
Konulqabilqizi@mail.ru

SÜRMƏLİ QƏZASINDA PAMBIQÇILIĞIN İNKİŞAFI (XIX ƏSRİN SON ONİLLİKLƏRİ)

DOI: https://doi.org/10.36719/2708-065X/114/91-97

XIX əsrin 80-90-cı illərində İrəvan quberniyasının Sürməli qəzasının təsərrüfat həyatında pambıqçılıq təsərrüfatı mühüm yer tuturdu. Mərkəzi Rusiyanın pambıq-parça istehsalı müəssisələrinin mahlıca artan tələbi bölgədə pambıqçılığın inkişafına güclü təkan vermişdi. Bölgədə pambıqtəmizləmə qurğuları da sürətlə artırdı. Təqdim edilən məqalədə Sürməli qəzasında bəhs olunan dövrdə pambıqçılıq təsərrüfatı və onunla bağlı olan emal sənayesinin inkişafının xarakterik cəhətləri rəsmi sənədlər və statistik göstəricilər əsasında araşdırılmışdır.

Açar sözlər: Sürməli qəzası, pambıqçılıq, təkmil kənd təsərrüfatı aləti və maşınları, mahlıc, pambıqtəmizləmə müəssisələri.

Giriş. Azərbaycanın qərb bölgəsi olan İrəvan quberniyasında, eləcə də onun cənub hissəsi olan Sürməli qəzasında yerli azərbaycanlı əhalinin təsərrüfat həyatında XIX əsrin sonuna doğru **pambıqçılıq** mühüm yer tutmağa başladı. Rusiya imperiyasının mərkəzi quberniyalarında və Polşa çarlığındakı pambıq-parça istehsalı müəssisələrinin ***mahlıca*** artan tələbi bu regionda pambıqçılığın inkişafına güclü təkan verdi. Bununla bağlı regionda pambıqtəmizləmə müəssisələri də sürətlə artmaqda idi. Yerli əhalinin yüzillər boyu əsas dolanışıq mənbəyi olmuş ***taxılçılıq:*** *buğda, arpa və darı* becərilməsi tədricən azalır, pambıqçılığa diqqət artırılırdı. Əkinçilik üçün çox əlverişli olan Araz düzənliyində, o cümlədən onun cənub-qərb hissəsi olan Sürməli düzündə yaşayan türk-müsəlman ailələr Araz çayından və onun qollarından çoxlu sayda kanal və arxlar inşa edərək pambıq plantasiyalarının müntəzəm suvarılmasını təmin edir, nəticədə bol məhsul götürməyə müvəffəq olurdular.

Çar Rusiyasının İrəvan xanlığını işğal etməsindən sonra yeni hakimiyyətin təmsilçiləri müstəmləkəçi təfəkkürü ilə bu yerlərin təbii imkanlarından yararlanmaq, o cümlədən inkişaf etməkdə olan pambıq-parça sənayesini ucuz xammalla təmin etmək məqsədi ilə bir sıra addımlar atdılar. Rus məmurlarının irəli sürdükləri layihələr, ticarət əkinçiliyinin müxtəlif sahələrinin vəziyyəti, o cümlədən pambıqçılığın inkişaf etdirilməsi tədbirləri haqqında Azərbaycan tarixşünaslığında həm ümumi xarakterli əsərlərdə [1, 2], həm də xüsusi tədqiqatlarda qiymətli məlumatlar əks olunmuşdur. Bu baxımdan, görkəmli alimlərimiz Ə.S.Sumbatzadə və M.Ə.İsmayılovun monoqrafiyaları [3, 4] xüsusi qeyd edilməlidir. Lakin bu əsərlərdə XIX əsrdə və XX əsrin əvvəllərində yalnız Azərbaycanın Bakı və Yelizavetpol (Gəncə – K.Ə.) quberniyaları və qismən də İrəvan quberniyasının Naxçıvan və Şərur-Dərələyəz qəzalarında kənd təsərrüfatı sahələri haqqında faktlar tədqiqata cəlb edilmişdir.

Azərbaycan Respublikası yenidən müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə, xüsusən də son illərdə Qərbi Azərbaycan – İrəvan quberniyası haqqında tədqiqatlar aparılmasına diqqət xeyli artmışdır. Nəşr edilmiş məqalə və əsərlərdə İrəvan quberniyasında siyasi vəziyyət, ermənilərin köçürülməsinin etno-demoqrafik proseslərə təsiri, erməni silahlı dəstələrinin yerli azərbaycanlı əhaliyə qarşı törətdikləri qətl və qarətlər [5, 6, 7, 8, 9] kimi məsələlər daha çox tədqiqat mövzusu olmuşdur. Yalnız İ.F.Kazımbəyli və E.T.Qarayevin monoqrafiyalarında [10, 11] XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində İrəvan quberniyasının təsərrüfat həyatının tədqiqinə nisbətən geniş yer ayrılmışıdr. Lakin bu əsərlərdə də bütün Qərbi Azərbaycan regionu üzrə təsərrüfat həyatından bəhs edildiyi üçün, Sürməli bölgəsinin iqtisadi vəziyyətinə yalnız ötəri toxunulmuşdur. Təqdim etdiyimiz məqalədə

Vətən tarixşünaslığında ilk dəfə olaraq Sürməli qəzasında pambıqçılıq təsərrüfatı və bu sahə üzrə emal sənayesinin yaranması geniş faktik material və statistik göstəricilər əsasında araşdırılmışdır.

Qərbi Azərbaycan, İrəvan quberniyası, bu yerlərin xalqımıza məxsusluğu ilə bağlı müxtəlif xarakterli tədqiqatlar aparılması zəruriliyini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışında xüsusi vurğulamışdır: "Bizim zəngin tariximiz əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq" [12].

Əsas hissə. İrəvan quberniyasında azərbaycanlı əhali pambıq bitkisi becərilməsi ilə qədim zamanlardan məşğul olsa da, pambıq məhsulu yalnız yerli tələbatı ödəmək üçün becərilirdi. Bu sahəni ticarət əkinçiliyinin mühüm sahəsinə çevirmək, Rusiya sənayesinin mahlıca tələbatını qarşılamaq üçün quberniya miqyasında inkişaf etdirmək məqsədilə ilk təşəbbüs XIX əsrin 40-cı illərində irəli sürülmüşdü. O zamankı Qafqaz canişini knyaz M.Vorontsovun göstərişi ilə Misirdən və ABŞ-dan yüksək keyfiyyətli, uzun lifli pambıq növünün çiyidi gətirdilmiş və əhaliyə paylanmışdı. Lakin bu gətirilmə növ yerli şəraitə uyğun gəlmədiyi üçün, bol məhsul vermədi və əhalinin ona marağı azaldı. Ona görə də, sonrakı dövrdə yerli, qısa lifli – *qara qoza növünün* becərilməsi davam etdirildi.

1861-ci ildə ABŞ-da vətəndaş müharibəsinin başlanması ilə Mərkəzi Rusiyaya amerikan mahlıcı ixracı kəskin şəkildə ixtisar olunduğu üçün, yenidən növbəti dəfə Cənubi Qafqazda, o cümlədən İrəvan quberniyasında pambıqçılığın inkişaf etdirilməsinə diqqət artırıldı. Həmin il quberniya miqyasında 30 000 pud pambıq lifi məhsulu götürülmüşdü. Sonrakı illərdə pambıqçılıq sürətlə inkişaf etdirilmiş və 1870-ci ildə tarlalardan 273 870 pud pambıq məhsulu əldə edilmişdi. Yerli əhali pambıqçılıqla quberniyanın düzənlik hissəsində: Sürməli, İrəvan, Eçmiədzin, Şərur-Dərələyəz və Naxçıvan qəzalarında məşğul olurdu. Bu illərdə istehsal edilmiş pambıq məhsulunun nə qədərinin Sürməli bölgəsinin payına düşdüyü mənbələrdə qeyd olunmamışdır. Lakin quberniya üzrə pambıq istehsalında daha sonrakı dövrdə Sürməli qəzasının mühüm yer tutmasını nəzərə alsaq, bu illərdə də pambıq məhsulunun əhəmiyyətli bir hissəsinin süni suvarmanın geniş yayıldığı Sürməli bölgəsinin payına düşdüyünü güman etmək mümkündür.

1880-ci illərdə İrəvan quberniyasında pambıq əkinləri yenidən azalmağa başladı. 1882-ci ildə İrəvan quberniyasında 27 151 pud çiyid səpilmiş, 74 183 pud təmizlənmiş pambıq lifi əldə edilmişdi. 1883-cü ildə 16 249 pud çiyid səpilmiş, 73 262 pud təmizlənmiş pambıq lifi əldə edilmişdi [13, за 1883 г., с.7, 8]. 1884-cü ildə isə quberniya üzrə 98 920 pud pambıq məhsulu götürülmüşdü [13, за 1884 г., с.8].

İrəvan quberniyasının 1884-cü il üzrə şərhində quberniya üzrə pambıqçılıq təsərrüfatında baş verən bu geriləmənin bütövlükdə pambıq ticarətində durğunluqdan və təmizlənmiş pambıq lifinin – mahlıcın qiymətinin aşağı düşməsindən qaynaqlandığı, əhalinin də pambıq əvəzinə, digər daha gəlirli sahələrə yönəlmələri ilə bağlı olduğu qeyd edilmişdi. Mahlıcın qiymətinin aşağı düşməsi isə amerikan növünə nisbətən, yerli qara qoza növünün aşağı keyfiyyətli olması ilə əlaqədar idi. Üstəlik, yerlərdəki pambıqtəmizləmə qurğuları pambıq lifini çiyiddən yaxşı təmizləyə bilmirdi, pambıq lifinin sıxılıb-bağlanması işi də lazımi şəkildə görülmürdü. Pambıq-parça fabriklərinin ticarət agentləri də bunları əsas göstərərək, yerli növ mahlıca ucuz qiymət təklif edirdilər.

Pambıqçılıq təsərrüfatlarının zəif inkişaf etməsinin digər mühüm səbəbi irriqasiya sisteminin çox primitiv səviyyədə olması və ya heç olmaması ilə bağlı idi. Suvarma suyu ilə bağlı problemlər yaşayan yerli sakinlər növbəti mövsümdə pambıq əkini sahələrini ixtisar etməyə məcbur qalırdı. Ona görə də, İrəvan quberniyası miqyasında pambıqçılığı inkişaf etdirmək üçün həm pambıqtəmizləmə zavodlarını daha keyfiyyətli qurğularla təchiz etmək, həm də irriqasiya sistemini inkişaf etdirmək zəruri idi.

Quberniya üzrə pambıqçılığın inkişafına növbəti təkan Mərkəzi Rusiyadan və Polşa çarlığından pambıq parça fabriki sahiblərinin və müxtəlif ticarət firmalarının 1885-ci ildə yerli pambıq istehsalçılarına pulsuz pambıq toxumu – çiyidi paylaması oldu. Həm də bu fabrik və firma nümayəndələri toplanacaq bütün məhsulu İrəvan bazarında həmin il üçün formalaşmış qiymətlə satın almağı öhdələrinə götürmüşdülər.

Rusiya toxuculuq fabriki sahiblərinin həmin dövrdə yerli əhaliyə amerikan pambığı çiyidini pulsuz paylaması gözlənən səmərəni vermədi. Bunun bir səbəbi göndərilən çiyidin keyfiyyətinin aşağı olması, digər səbəbi isə yerli əhalinin amerikan pambığını becərmək qaydasını bilmədiyinə görə, yerli növə nisbətən daha az məhsul əldə etməsi idi.

İrəvan quberniyasının 1888-ci il üzrə şərhində Rusiya fabrik sahiblərinin ABŞ-ın şimal ştatlarında əkilən və İrəvan quberniyasının iqliminə daha uyğun və daha keyfiyyətli olan 1 200 pud pambıq çiyidinin 1887-ci ildə gətirdib əhali içərisində pulsuz paylamalarının müsbət nəticə verdiyi qeyd edilmişdir [13, за 1888 г., с.16]. Həmin il pambıq əkən ailələr ***amerikan*** növünü becərməklə bol məhsul götürmüş və təmizlənmiş pambıq lifini daha baha qiymətə sata bilmişdilər.

Rus fabrikantları həmçinin Amerikadan ***pambıqtəmizləmə maşını – "cin" adlı lifi çiyiddən ayıran qurğunu*** gətirdib, əsas pambıqçılıq bölgələrində quraşdırmış və pulsuz şəkildə pambıq əkənlərin istifadəsinə vermişdilər. Rus fabrik sahiblərinin yeganə şərti, onlardan müftə pambıq çiyidi alanların və onların pambıqtəmizləmə maşınlarından pulsuz istifadə edənlərin öz məhsulunu sonda İrəvanda həmin il üçün qərarlaşmış bazar qiymətinə uyğun olaraq, yalnız onlara satmaları idi. Rusiya pambıq-parça istehsalçıları həmçinin İrəvanda *iri anbarlar* inşa etmiş və orada ***pambıq lifini sıxıb-bağlayan hidravlik maşınlar*** alıb quraşdırmışdılar.

Rusiya Dövlət Əmlakı nazirliyi də İrəvan quberniyasında pambıqçılığı inkişaf etdirmək üçün addımlar atırdı. Nazirliyin xətti ilə bir aqronom ABŞ-a ezamiyyətə göndərilmişdi ki, orada pambıqçılığın vəziyyəti ilə tanış olsun və öyrəndiyi təcrübəni quberniyada yaradılan nümunəvi pambıq tarlasında tətbiq edib, yerli pambıqçılara nümayiş etdirsin [13, за 1888 г., с.17]. 1888-ci ildə Sürməli qəzasında 11 166 desyatin sahədə pambıq əkilmişdi, amerikan növü əkənlər hər desyatindən 80 rubl, yerli növ əkənlər isə 65 rubl xalis gəlir əldə etmişdilər.

1890-cı ildə İrəvan quberniyasında 26 065 desyatin sahəyə pambıq çiyidi səpilmiş, 506 350 pud məhsul götürülmüşdü [14, с.111-112]. 1881-ci ildə quberniya üzrə 42 828 pud pambıq məhsulu götürüldüyünü nəzərə alsaq, 10 il ərzində pambıq istehsalının 12 dəfəyə qədər artdığını görmək olur. Lakin istinad verdiyimiz mənbədə qəzalar üzrə nə qədər pambıq çiyidi əkilməsi və məhsul götürülməsi haqqında məlumat verilmədiyindən, bu artımda Sürməli qəzasının payını dəqiqləşdirmək mümkün deyil. Bununla belə, 1888-ci və 1891-ci illərdə Sürməli qəzasında pambıq əkini sahəsi ilə İrəvan quberniyası üzrə 1890-cı il göstəricisinin müqayisə edilməsi, belə qənaətə gəlməyə əsas verir ki, Sürməli qəzası həmin dövrdə Qərbi Azərbaycanın başlıca pambıqçılıq mərkəzi idi.

Sürməli qəzasının İrəvan quberniyasının pambıq istehsalında belə aparıcı mövqe tutması XIX əsrin 90-cı illərində daha da möhkəmləndi. "İrəvan quberniyasının 1891-ci il üzrə şərhi"nə görə, həmin il Sürməli qəzasında 14 min desyatin sahəyə pambıq əkilmişdi. Bu, İrəvan quberniyası üzrə həmin il əkilən pambıq əkinlərinin – 27,6 min desyatin sahənin [13, за 1891 г., с.6] yarıdan çoxu demək idi. Toplanmış pambıq kəndlərdə quraşdırılmış 318 ədəd "cin" pambıqtəmizləmə qurğusu [13, за 1891 г., с.7] vasitəsilə çiyiddən təmizlənmiş, sıxılıb bağalanaraq Rusiya toxuculuq fabriklərinə göndərilmişdi.

"İrəvan quberniyasının 1892-ci il üzrə şərhi"ndə Sürməli qəzasında pambıq əkinlərinin əvvəlki ildə olduğu kimi, 14 min desyatin sahədə aparıldığı və 161 200 pud [13, за 1892 г., с.7] və ya əvvəlki ilə nisbətən 9 min pud az məhsul toplandığı əks olunmuşdur. "İrəvan quberniyasının 1893-cü il üzrə şərhi"ndə Sürməli qəzasında pambıq əkinlərinin 16 min desyatin, yəni bir il əvvələ nisbətən 2 000 desyatin çox sahədə aparıldığı və 238 200 pud və ya əvvəlki ilə nisbətən 77 200 pud artıq məhsul toplandığı, həm də məhsulun əksər hissəsinin amerikan növü olduğu qeyd edilmişdi. Həmin il quberniya miqyasında 32 291 desyatin sahədə pambıq çiyidi səpilmiş, 552 957 pud pambıq məhsulu götürülmüşdü [13, за 1893 г., с.5]. Bu da Sürməli qəzasının həmin dövrdə quberniya üzrə başlıca pambıq istehsalı mərkəzi olduğunu aydın şəkildə göstərir.

1893-cü ildə toplanmış pambığın hamısı ***"cin"*** adlı pambıqtəmizləmə qurğularında çiyiddən təmizlənmişdi. Bu qurğular pambığı sürətlə təmizləməklə, əvvəllər bu məqsəd üçün istifadə edilən *"çaqrix"* qurğularını sıradan çıxarmışdı. Lakin çaqrix qurğuları ləng işləsə də, alınan təmizlənmiş pambıq lifi uzun və elastik olurdu. Çinin mişarları isə pambıq liflərini didir və qırır, lakin çiyidləri

daha sürətlə təmizləyirdi. Elə buna görə də böyük həcmdə pambıq məhsulunu çiyiddən təmizləmək üçün çaqrixdən istifadə edilməsi artıq sərfəli deyildi.

XIX əsrin 90-cı illərinin ortalarında qəza üzrə pambıq əkinlərinin kəskin şəkildə azalması daha çox xarici faktorlarla bağlı idi. İrəvan quberniyasının 1894-cü il üzrə şərhində qeyd olunmuşdu ki, həmin il Amerikada 102 milyon pud pambıq məhsulu götürülmüşdü ki, bu da əvvəlki ildən 26 milyon pud artıq idi. Bu bolluq da, öz növbəsində pambıq lifinin satış qiymətlərinin aşağı düşməsinə səbəb olmuşdu. İrəvan bazarında 1894-cü ilin noyabrında bir pud yaxşı keyfiyyətli pambıq lifi 5,8 rubla satılırdı. 1893-cü ilin noyabr ayında isə bir pud yaxşı keyfiyyətli pambıq lifi 7,5 rubla, 1892-ci ildə isə bir pud yaxşı keyfiyyətli pambıq lifi daha baha qiymətə - 8,5 rubla satılmışdı [13, за 1894 г, с.3]. İş o yerə çatmışdı ki, İrəvan quberniyasında hasil edilən pambıq lifini yerli istehsalçılardan alıb Moskva sənaye rayonundakı pambıq-parça fabriklərinə satan moskvalı kapitalist Alekseyevin firması bazarda yaranmış vəziyyəti özü üçün əlverişli hesab etmədiyi üçün, İrəvan şəhərindəki kontorunu bağlamalı olmuşdu.

Rusiya hakimiyyəti orqanları yerli istehsalçıları həvəsləndirmək və daxili bazarı qorumaq məqsədilə 1895-ci ilin əvvəlində amerikan pambığı üzərində gömrük rüsumunu 0,7 rubl yüksəltdi. Nəticədə, İrəvan quberniyasında pambığın qiyməti az da olsa yüksəldi və 6 rubla çatdı [13, за 1894 г, с.4].

Maraqlıdır ki, dünya bazarında pambıq lifinin qiymətinin kəskin şəkildə ucuzlaşmasından narahat olan Amerikan pambıq plantatorları da 1895-ci ildə çiyid səpinini 2 dəfə ixtisar etməyi qərara almışdılar. Bu da öz növbəsində dünya bazarında pambığın qiymətinin sonrakı ucuzlaşmasının qarşısını aldı.

"İrəvan quberniyasının 1895-ci il üzrə şərhi"ndə Sürməli qəzasında pambıq əkinlərinin bir il əvvələ nisbətən 12 500 desyatin az sahədə aparıldığı, lakin 61 060 pud artıq məhsul toplandığı, həm də məhsulun əksər hissəsinin amerikan növü olduğu qeyd edilmişdi [13, за 1895 г., с.2]. Pambıq əkinlərinin belə kəskin azalması 1894-cü ildə Sürməli qəzasında pambığın məhsuldarlığının, gözləntilərin əksinə olaraq, çox aşağı düşməsi və az gəlir gətirməsi ilə əlaqədar idi. 1895-ci ildə isə iqlim şərtlərinin çox əlverişli olması, pambıq əkini sahələrinin ixtisar olunmasına baxmayaraq, yüksək məhsul toplanmasına imkan vermişdi.

"İrəvan quberniyasının 1896-cı il üzrə şərhi"ndə Sürməli qəzasında taxıl əkinlərinin bir il əvvələ nisbətən ixtisar edildiyi, pambıq əkininin isə 274 desyatin artıq ərazidə aparıldığı qeyd olunmuşdur. Həmin il qəza üzrə 3 765 desyatin sahəyə çiyid səpilmiş, 57 641 pud təmizlənmiş pambıq lifi əldə edilmişdi. Bu göstərici də, bir il əvvələ nisbətən 43 449 pud az idi [13, за 1896 г., с.2, 3]. Həmin il İrəvan bazarında təmizlənmiş pambıq lifinin bir pudu 6,5 – 8,5 rubl arasında satılmışdı. Quberniya əhalisi təmizlənmiş pambıq lifi satışından 1,5 milyon rubl gəlir qazanmışdı [13, за 1896 г., с.3].

Həmin mənbədə pambıq əkinlərinin daha çox Araz çayına yaxın gilli torpağı olan düzənliklərdə yayıldığı və mövsüm ərzində cəmi 2 dəfə suvarılmanın yetərli olduğu bildirilmişdi. Əksinə, Araz çayı vadisindən uzaqlaşdıqca, gilli torpaqların əvəzinə, əhəng qarışıq torpaqlar üstünlük təşkil etdiyindən, o yerlərdə pambıq əkinlərinin mövsüm ərzində 6 dəfəyə qədər suvarmaq tələb olunduğu qeyd edilmişdi. Bu da həmin torpaqlarda pambıq becərilməsini çətinləşdirir, süni suvarma sisteminin zəifliyi də, öz növbəsində, pambıq əkinlərinin xeyli hissəsinin quraqlıqdan məhv olmasına gətirib çıxarırdı.

Pambıq əkilən 1 desyatin sahəni suvarmaq üçün tələb olunan su, taxıl əkilən sahəyə sərf ediləndən 1,6 dəfə artıq idi [15, с.632]. Ona görə də, pambıq əkilən plantasiyaların suvarma suyu ilə təminatı çox vacib şərt idi.

"İrəvan quberniyasının 1898-ci il üzrə şərhi"ndə Sürməli qəzasında pambıq əkinlərinin 7 250 desyatin sahəni əhatə etdiyi və bu göstəricinin quberniya üzrə 22 280 desyatin pambıq əkilmiş sahənin üçdə biri qədər olduğu, qəza üzrə toplanan 145 min pud təmizlənmiş pambıq lifinin, quberniya üzrə əldə edilmiş 383 min pud təmizlənmiş pambıq lifinin üçdə birindən xeyli çox olduğu, həm də məhsulun əksər hissəsinin amerikan növü olduğu qeyd edilmişdi [13, за 1898 г, с.2].

"İrəvan quberniyasının 1899-cu il üzrə şərhi"ndə Sürməli qəzasında pambıq əkinlərinin 6 324 desyatin sahəni əhatə etdiyi və bu göstəricinin quberniya üzrə 21 054 desyatin sahənin üçdə birindən xeyli az olduğu, qəza üzrə toplanan 270 835 min pud təmizlənmiş pambıq lifinin, quberniya üzrə əldə

edilmiş 406 106 pud təmizlənmiş pambıq lifinin yarısından xeyli çox olduğu, həm də məhsulun əksər hissəsinin amerikan növü olduğu qeyd edilmişdi [13, за 1899 г., с.2]. Müraciət etdiyimiz bu mənbədə İrəvan quberniyasında 1899-cu ildə pambıq əkinlərinin əvvəlki ilə nisbətən 740 desyatin ixtisar edildiyi, lakin toplanan pambıq lifinin 1898-ci ilə nisbətən 231 106 pud çox olduğu və bu nəticənin Sürməli qəzasında bol məhsul götürülməsindən qaynaqlandığı xüsusi vurğulanmışdı.

1900-cü ildə Sürməli qəzasında 5 967 desyatin sahədə, quberniya üzrə 15 257 desyatin sahədə pambıq əkilmiş, Sürməli qəzasında 235 568 pud təmizlənmiş pambıq məhsulu götürülmüşdü [13, за 1900 г., с.2]. Bu da əvvəlki ildən 35 267 pud az idi. Buna səbəb qəza üzrə pambıq əkini sahərinin azalması idi. Bu da öz növbəsində 1899-cu ilin quraqlıq olmasına görə, pambıq tarlalarının az məhsul verməsi ilə əlaqədar idi.

Quberniya üzrə 1900-cü ildə 382 035 pud təmizlənmiş pambıq məhsulu götürülmüşdü ki, bunun da üçdə ikisini təkcə Sürməli qəzası vermişdi. Bu faktlar XIX əsrin sonunda İrəvan quberniyasının başlıca pambıq istehsalı mərkəzinin Sürməli qəzası olmasını təsdiqləyir.

Cədvəl 1.

Sürməli qəzasında və İrəvan quberniyasında XIX əsrin son onilliklərində pambıq istehsalı

İllər	*Pambıq əkilən sahə (desyatinlə)*		*Hasil edilmiş pambıq lifi (pudla)*	
	Sürməli qəzası	*İrəvan quberniyası*	*Sürməli qəzası*	*İrəvan quberniyası*
1888	11 166	22 079	170 000	338 370
1890	12 000	26 065	168 000	506 350
1891	14 000	27 605	170 000	464 000
1892	14 000	29 091	161 000	557 100
1893	16 000	32 291	238 200	552 957
1894	16 000	32 142	162 150	396 912
1895	3 491	18 583	101 090	364 177
1896	3 765	14 572	57 641	200 131
1897	4 389	14 646	197 505	386 256
1898	7 250	22 280	145 000	383 000
1899	6 324	21 054	270 835	406 106
1900	5 967	15 257	235 568	382 035

İrəvan quberniyası rəisinin 1880-1890-cı illər üzrə hesabatlarına əlavə kimi tərtib edilmiş şərhlərdəki statistik göstəricilər əsasında tərtib etdiyimiz 1 saylı cədvəldə XIX əsrin sonunda Sürməli qəzasında və bütövlükdə İrəvan quberniyası üzrə pambıq çiyidi əkini sahələrinin və toplanmış məhsulun necə dəyişdiyi əks olunmuşdur. Həmin cədvəldən aydın görünür ki, bəhs olunan dövrdə Sürməli qəzası İrəvan quberniyasının başlıca pambıq istehsalı mərkəzi idi.

XIX əsrin son onilliklərində əhali həm yerli "qaraqoza" növünü, həm də amerikan növünü əkib becərirdi. "Qaraqoza" növündən alınan təmizlənmiş pambıq lifinin uzunluğu daha qısa və qalın olduğu üçün aşağı keyfiyyətli sayılırdı və bazarda, bir qayda olaraq, amerikan növündən 1 rubl ucuz satılırdı. Məsələn, 1900-cü ildə İrəvan bazarında "qaraqoza" növündən alınan təmizlənmiş pambıq lifinin 1 pudu 9 rubl, amerikan növündən alınan təmizlənmiş pambıq lifinin 1 pudu qiyməti isə 10 rubl olmuşdu [13, за 1900 г., с.2]. Lakin pambıqçılıqla məşğul olan əhali yerli şəraitə daha yaxşı uyğunlaşdığına və müxtəlif xəstəliklərə qarşı daha davamlı olduğuna görə, "qaraqoza" növünü becərməyə üstünlük verirdi. Məsələn, "İrəvan quberniyasının 1899-cu il üzrə şərhi"ndə qeyd olunmuşdu ki, həmin il pambıq plantasiyalarına suvarma suyu kifayət qədər verilmədiyinə görə, amerikan növü çiyid

səpilmiş sahələr "çor" xəstəliyinə yoluxmuş, bu da həmin sahələrin məhsuldarlığına çox mənfi təsir etmişdi [13, за 1899 г., с.2].

İrəvan quberniyasında, eləcə də Sürməli qəzasında pambıqçılıqda tədricən muzdlu əmək tətbiqi genişlənməkdə idi. Bununla belə, quberniya miqyasında XIX əsrin sonunda pambıqçılıq təsərrüfatında muzdlu əməkdən istifadəni araşdıran məmurların hesabatına görə, quberniyada pambıq əkinlərinin üçdə iki hissəsinə qədərini kəndli özü, qalan hissəni muzdlu işçi becərirdi. 1 desyatin pambıq sahəsinin becərilməsi üçün muzdlu işçiyə 52-55 rubl pul miqdarında vəsait ödənirdi [13, за 1899 г, с.2; 13, за 1900 г., с.2].

Nəticə. XIX əsrin son onilliklərində İrəvan quberniyası üzrə, o cümlədən Sürməli qəzasında taxıl istehsalının həcmi ilə əhalinin sayındakı artım arasında nisbəti nəzərdən keçirdikdə aydın olur ki, demək olar ki, toplanan bütün taxıl məhsulu yerli əhalinin ərzaq ehtiyacına, heyvanların yemlənməsinə və növbəti əkin üçün toxumluq tədarükünə sərf edilirdi. Yəni istehsal edilən taxıl məhsulları, bir qayda olaraq, quberniya hüdudlarından kənara satılmırdı. Əgər yerli əhali müəyyən qədər pambıqçılıqla məşğul olmasaydı, dövlət vergilərini ödəmək və şəxsi ehtiyaclarını qarşılamaq üçün imkanı olmazdı.

Ona görə də, bu dövrdə yerli əhali içərisində pambıqçılıq üzrə bilikləri yaymaq çox vacib vəzifə kimi irəli sürülürdü. İbtidai kənd məktəblərində kənd təsərrüfatı şöbələrinin təşkili və pambıqçılıq üzrə biliklərin şagirdlərə çatdırılması yaxşı təşəbbüs kimi dəstəklənirdi.

1 saylı cədvəldən aydın göründüyü kimi, XIX əsrin sonunda Sürməli qəzası İrəvan quberniyası üzrə pambıq əkini və istehsalında çox önəmli yer tuturdu. Pambıq istehsalı bu dövrdə yerli azərbaycanlı əhalinin əsas dolanışıq mənbəyinə çevrilmişdi.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 3 cilddə, II c., Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1964, XI, 998 s.; Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Məsul redaktor: AMEA-nın müxbir üzvü Mahmud İsmayılov.Bakı, Elm, 2007. 504 s. + 48 s. illüstrasiya.
2. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Baş redaktor akademik Teymur Bünyadov. Bakı, "Şərq-Qərb", 2007, 544 s.
3. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку, изд-во АН Азерб.ССР, 2. 1958, 364 с.; Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку, изд-во АН Азерб.ССР, 1964, 501 с.
4. Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX – начале XX в. Баку, изд-во АН Азерб.ССР, 1964, 306 с. Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку, Элм, 1982, 116 с.
5. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Baş red. Y.Mahmudov. Bakı: Azərbaycan, 2010, 617 s.
6. Нифталиев И.В. Геноцид Азербайджанцев в Иреванской губернии (1918-1920). Баку: «Элм», 2017, 188 s.
7. Əliyeva K.Q. İğdır (Sürməli) bölgəsində erməni silahlı dəstələrinin müsəlman əhaliyə qarşı soyqırımları (1918-1920-ci illər). Bakı, «Tarix və onun problemləri», №1, 2017, s.327-333.
8. Aliyeva K.Q. İğdır (Sürmeli) bölgesi: Rusya işgalinin etnodemografiksel duruma etkisi // I. International Iğdir congress on multidisciplinary studies, November 6-8, 2018. Congress book of full texts. Iğdir, Iksad International Publishing House. 2018, Vol III. s. 2192-2196
9. Mustafa N. Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar. Bakı, "Orxan" NPM, 2025, 108 s.
10. Kazımbəyli İ.F. Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix. XIX-XX əsrin əvvəlləri. Bakı: "Turxan" NPB, 2017, 400 s.
11. Qarayev E.T. Qərbi Azərbaycan XIX əsrin ikinci yarısı – XX yüzilliyin əvvəllərində (İrəvan quberniyasının materialları əsasında). Bakı, "Parlaq imzalar" nəşriyyatı, 2024, 808 s.
12. Əliyev İ.H. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışı. 3 noyabr 2025-ci il. - https://president.az/az/articles/view/70464 [21.11.2025].

13. Обзор Эриванской губернии за 1883-1913 гг. Приложения к Всеподданнейшему отчету о состоянии Эриванской губернии за 1883-1913 гг. - http://elib.shpl.ru/ru/nodes/50133-obzor-erivanskoy-gubernii-po-godam-erivan-1884-1913 [02.11.2025].
14. Памятная книжка Эриванской губернии на 1892 год / Под ред. К.А. Волчанина. / Эривань, Эриван. губ. стат. ком., 1892, 174 с.
15. Араксская равнина (в пределах Эриванской губернии). Коммерческое обследование Р.И.Даниловича // Район Тифлисско-Карсско-Эриванской железной дороги в экономическом и коммерческом отношениях. Тифлис, Типография Я.И.Либермана, 1897, с.521-803. - https://minfin.gov.ru/common/upload/library/2023/11/main/648-e.pdf [07.02.2026].
16. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: Elm, 1987, 256s.

КОНУЛ АЛИЕВА
Доктор философии по историческим наукам,
Ведущий научный сотрудник Института истории и этнологии,
Национальная Академия Наук Азербайджана

РАЗВИТИЕ ХЛОПКОВОДСТВА В СУРМАЛИНСКОМ УЕЗДЕ (ПОСЛЕДНИЕ ДЕСЯТИЛЕТИЯ XIX ВЕКА)

В 80-90-х годах XIX века хлопководство занимало важное место в экономической жизни Сурмалинского уезда Эриванской губернии. Растущий спрос предприятий текстильной промышленности Центральной России на очищенного волокна дал мощный импульс развитию хлопководства в регионе. Также наблюдалось быстрое увеличение количества хлопкоочистительных предприятий в регионе. В данной статье на основе официальных документов и статистических данных исследованы особенности развития хлопководства и смежных перерабатывающих отраслей в Сурмалинском уезде в указанный период.

Ключевые слова: Сурмалинский уезд, хлопководство, усовершенствованные селскохозяйственные орудия и машины, хлопкоочистительные заводы.

KONUL ALIYEVA
PhD in History
Leading Researcher, Institute of History and Ethnology, ANAS

DEVELOPMENT OF COTTON GROWING IN SURMALIN DISTRICT (LATER DECADES OF THE 1800s)

In the 1880s and 1890s, cotton growing occupied an important place in the economic life of the Surmalin District of the Yerevan Governorate. Growing demand for purified cotton from textile enterprises in Central Russia gave a powerful impetus to the development of cotton growing in the region. A rapid increase in the number of cotton gins was also observed in the region. This article, using official documents and statistical data, examines the development of cotton growing and related processing industries in the Surmalin District during this period.

Keywords: Surmali District, cotton growing, improved agricultural implements and machines, cotton gins.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 may 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Hacı Həsənov, t.e.d. İbrahim Zeynaov.

UOT 94(479.24)

МУСА КУЛИЕВ

доктор философии по истории,
Ведущий научный сотрудник Института Истории, Этнографии и Археологии
Нахчыванского Отделения Национальной Академии Наук Азербайджана
Kuliyevm@yandex.ru

ВЕЛИКИЙ ПОЛКОВОДЕЦ ЭХСАН ХАН КЕНГЕРЛИНСКИЙ-НАХИЧЕВАНСКИЙ В КАРТИНЕ ВОЕННОГО ХУДОЖНИКА, АКАДЕМИКА В.Д.МАШКОВА

DOI: https://doi.org/10.36719/2708-065X/114/98-101

В статье рассказывается об исторической картине «Сдача крепости Аббас Абада 7 июля 1827 года», написанной художником В.Д.Машковым возле Нахчывана. Исследователь, впервые подвергая научному исследованию это историческое произведение, на основе документов доказал, что оно является важным источником в решении спорной проблемы в истории Нахчывана.

Ключевые слова: крепость Аббас Абад, В.Д.Машков, Калбалы хан Национальный Исторический Музей Азербайджана, картина.

Введение. Русский художник-баталист (изображавший боевые сцены) В.Машков (1792-1839) два раза приезжал в Нахчыван: первый раз побывал в Нахчыван 11-12 мая 1817 года в составе дипломатов ехавших в Иран под руководством А.П.Ермолова , а второй раз 27 июня 1827 года. В 1816-1818 годах он служил в боевой армии графа И.Паскевича [8, с.69]. Побывавший в Нахчыван в эти годы В.Машков (во второй раз пробыл в Нахчыване до окончания войны) сделал много эскизов с натуры, а потом на их основе создал акварелью исторические иллюсации.

Нужно отметить, что и в первый раз бывший в Нахчыван В.Машков рисовал картины. После выхода в отставку А.Ермолов жил в Орле и Москве. Нарисованные Машковым в те боевые годы картины А.Ермолов увез с собой и составил личную коллекцию. Он умер в 1861 году в Москве и был похоронен на родине в Орловской области. Учитывая все это мы ведем поиски в направлении Тифлис-Орел-Москва- Санкт Петербург. После смерти художника осталось много картин, по слухам дошедшим до нас, он создал картину Калбали хана I.

Созданные картины художника-баталиста не только произведения искусства, но также наглядные, исторические архивные документы.

В.Машков рисовал свои картины сопровождая любимца Российского царя Николая I, полководца, фельдмаршала И.Паскевича в его боевых походах [3, с.117].

Царь Николай I раньше служил под началом Паскевича и очень доверял ему. Он обращался к графу “отец-командир”. Веривший графу Николай I, в тяжелые для Кавказа дни назначил Паскевича на должность командующим российской армией (1827-1831 гг.) [15, с.39-40].

В истории российской империи, получивший все боевые награды еще в молодые годы И.Паскевич по происхождению был Полтавским казаком. Мы разыскали некоторую часть интересных исторических документов в фондах Грузинского Национального Архива в Тбилиси [11], проливающую свет на деятельность, представителя древнего рода, Паскевича в Нахчыване.

В Государственном Архиве Истории, в Санкт-Петербурге, находится его личный архив. В личном архиве И.Паскевича насчитывается более 3000 папок с документами [4]. Не изучив эти документы, трудно судить об оккупации Южного Кавказа. Несмотря на то, что фельдмаршал захватил многие Азербайджанские ханства, до конца своих дней он не мог забыть и всегда с уважением вспоминал и рассказывало Нахчыванской Кенгерлинской лихой кавалерии. Во времени второй русско-иранской войны в [1826-1828] и в Русско-Турецкой войне

1828-1829 годах Нахчыван был сильно разрушен. И.Паскевич убедился в отваге, гостеприимстве, верности нахчыванцев и никогда не скрывал своего уважения к ним. Он обращался к нахчыванским аксаккалам с письмом. Имеется оригинал текста [12].

Верно и то, что вторую русско-иранскую войну начал А.П.Ермолов. Через три месяца после начала войны Паскевич был откомандирован на Кавказ и начал свой военный поход на Иреванское и Нахчыванское ханство [1].

Проведенные исследования указывают на то, что и И.Паскевич и царь Николай I с уважением относились к личности Кенгерлинского Эхсан хана I [9, с .87].

Несмотря на то, что имеющиеся интересные документы, которые указывают на дружбу Эхсан хана и графа И.Паскевича некоторые исследователи и сейчас основную вину в заключении Туркменчайского сговора возлагают на Эхсан хана Для Калбали хана I и его сына Эхсан хана независимость Нахчывана была святая святых. Отстаивая независимость Нахчывана они не раз проявляли мужество и отвагу. Во времена государства Каджаров Калбали хан I одержал множество побед. Мы утверждаем это опираясь на исторический источник [13, с.1-8].

Аббас Мирза (1789-1833) был сыном Фатали шаха, в 1799 году, когда еще был жив Калбали хан I, назначается правителем в Азербайджанские ханства, которые находятся в южной части от реки Аракс. Он был храбрым полководцем и семился к тому, чтобы и Нахчыванское и Иреванское ханство по пало под их зависимость. Он командовал армией во времена Иранско-Османской войны 1821-1823 годах и в русско-иранской войне в 1804-1813, 1826-1828 годах [9, с.360]. В 1823 году возвращаясь из Мекки Калбали хан I был отравлен шербетом в Тебризе [14]. Убийство Калбали хана I и попрание прав Кенгерлинского хана в Нахчыване привело к тому, что Эхсан хан Ібыл возмушен действиями Фатали шаха.И поэтому 38 летный Эхсан хан I вел секретные переговары с графом И.Паскевичем, который обещал независимость [5, с.74-75].

Хотелось бы выразить свое отношение к одному вопросу. По Туркменчайскому вопросу написано много статей, но ни одна из этих статей не содержит столько правдивых фактов сколько написано о договоре русскими исследователями того времени и в послевоенные годы. Так как история опирается на реальные факты. Исследования поиски, лишь поиски могут открыть нам правду. И поэтому мы вновь возвращаемся к иллюсации В.Машкова относящейся к 1826-1828 году и внимательно ее рассматриваем, читаем книги и дневники того времени. Жаль, что картины В.Машкова не были серьезно исследованы. Отметим, что альбом с рисунками Машкова заменявшие уникальные исторические документы хранятся в Национальном Историческом Музее Азербайджана в книжном фонде. Одна из картин в альбоме привлекла наше внимание. Картина в черно-белом изображении называется Сдача персидской крепости Аббасабад 7 июля 1827 года. Крепость Аббасабад Азербайджанская крепость. Она находилась в 8 верстах от города в Нахчыванском ханстве. Художник ошибся в названии в те годы было много таких ошибок [11, с.25-26].

В то время Эхсан хан I был командиром Нахчывано-Кенгерлинского батальона крепости Аббасад [2, с.502].Сначала он был комендантом крепости Аббасабад, в последствии Аббас Мирза увалил его с этой должности. Последный хан Нахчывана Керим хан увидев поражение принца Аббаса Мирзы в селении Хок, принудительно переселил большую часть населения на ту сторону Аракса. Поэтому пишут что, русские войска свободна вошли в Нахчыван. Об этом знал Эхсан хан бывший под арестом в крепости. Он искал пути спасения Кенгерлинцев от переселения и был вынужден вести переговоры с сильной стороной. Как пишут некоторые он никогда не открывал двери крепости, не отдавал ключей от крепости, не перед кем не склонял головы. Хорошо, что художник Машков зарисовал этот момент и перевел его на холст. А теперь хотелось бы поделиться с вами сведениями о событиях изабpоженных на картине полученными в результате поисков.

Ключевую роль в определении людей изабpоженных на картине сыграли произведения Платона Зубова.

1. Картина последней войны с Персией 1826-1828. 1834 г [6];

2. Подвиги русских воинов в санах Кавказских 1800-1834 г. (II том, СПб.1836) [7].

Во втором томе Зубов пишет: «Зять шаха Магомедамин хан шел впереди нес ключи от крепости, чтобы вручить их за ним или его старшины (старости) и уважаемые люди области [6, с.135]. Этот том повествует о боях в крепости Аббасабад.

Заключение. Эти исторические заметки Зубова дают возможность установить личности, изображенные на картине. На белом коне граф Паскевич. Магомедамин хан кланяясь вручает ему ключи от крепости Аббасабад, рядом с ним двое старшин, за ними стоит знаменосец для сдачи боевого знамени. В стороне стоит Эхсан хан I держась за уздцы коня. Художник очень точно изобразил его кавалерийскую стать. На спине коня виден нарядный ковер. Вдали от них стоит Нахчыванско-Кенгерлинский батальон с боевыми знаменами. У Магомедамин хана много бойцов стоят сойными рядами. Хорошо видны музыканты в первом ряду приветствующие русскую армию маршем. Художник очень точно изобразил этот момент. Как Нахчыванский батальон, так и солдаты Магомедамин хана в национальных папахах и национальной одежде, так как все они азербайджанцы. Картина баталиста незаменимый источник в решении спорных вопросов в истории Нахчывана и интересная иллюсация сохранившая для изображение Эхсана хана I.

ЛИТЕРАТУРА

1. АКАК (Акты, собранные Кавказской Археографической Комиссией) Тифлис: 1878. Т VII, 994 с. Документ 436, 438.
2. АКАК. Тифлис: 1878, Т. VII.
3. Гезалов Парвин. Знамена азербайджанских ханств как источник по изучению истории государственности. Баку: 2010, 208 с.
4. Государственный Исторический Архив России. F.1018.
5. Ениколопов И. Грибоедов и Восток. Ереван: 1954, 199 с.
6. Зубов П.П. Картина последней войны России с Персией 1826-1828, СПб: 1834, 135 с.
7. Зубов П.П. Подвиги русских воинов в санах Кавказских с 1800-1834 годах. Т. III, СПб: 1887, 269 с.
8. Муравьев Н.Н. Записки// «Русский Архив» Москва: 1889, Кн. 3. Выпуск II.
9. Нагдалиев Ф.Ф. Ханы Нахичеванские в Российской Империи. Москва: 2006, 432 с.
10. Научный Центр Манускриптов Грузии. Личный Архив Смирнова. Гузанлы Джамиль. Русско-персидская война 1827-1828 гг., (машинопись) 39 с.
11. Национальный Архив Грузии. F. 11, оп.1, д 50.
12. Национальный Архив Грузии. F.2, оп.1, д. 2399.
13. СМОМПК (Сборник материалов для описания местностей и племен Кавказа). Тифлис: 1901.
14. Теймурлу Г.Г. (Бананиярский) Воспоминания (на азерб.языке). Москва: 1990, (рукопись), 8 с.
15. Шюкуров К.К. Туркменчай-1828. Историческая хроника (сокр.) (на азерб. языке). Баку: 2006, 188 s.

MUSA QULİYEV
Tarix üzrə fəlsəfə doktoru, AMEA Naxçıvan Bölməsinin
Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi

GÖRKƏMLİ SƏRKƏRDƏ I EHSAN XAN KƏNGƏRLİ – NAXÇIVANSKİ HƏRBİ RƏSSAM, AKADEMİK V.D.MAŞKOVUN ÇƏKDİYİ RƏSM ƏSƏRİNDƏ

Məqalədə XIX əsrin batalist rəssamı V.D.Maşkovun “Abbasabad qalasının 7 iyul 1827-ci ildə təhvil verilməsi”ndən bəhs edilir. Bu rəsm əsərinin Azərbaycan, həmçinin Naxçıvanın tarixindəki yeri və əhəmiyyəti əsaslandırılır.

Açar sözlər: Abbasabad qalası, I Kalbalı xan, V.D.Maşkov, Milli Azərbaycan Tarixi Muzeyi, rəsm əsəri.

MUSA GULİYEV
PhD in history
Leading researcher at the Institute of History,
Ethnography and Archaeology of the Nakhchivan Branch of the ANAS

NOTABLE COMMANDER EHSAN KHAN KANGARLI NAKHCHIVANSKI IN THE PAINTING OF V.D. MASHKOV, PAINTER OF BATTLES, ACADEMICIAN

The article deals with V.D.Mashkov's historical painting "The surrender of the Abbas-Abad Fortress" drawn on July 7, 1827, near Nakhchivan. The investigator included the painting to the sciencific exploration for the first time and proved the non-substitutive role of this historical source in the solucion of a controversy in the history of Nakhchivan by means of the documents.

Keywords: Abbas-Abad Fortress, V.D. Mashkov, Kalbali khan I, National Museum of History of Azerbaijan, painting.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 may 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçi: Akademik İsmayıl Hacıyev.

UOT: 94(479.24); UOT: 727/479.243 / “94-99”

NAZİM MƏMMƏDOV
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
“Qarabağ müharibələri tarixi və Böyük Qayıdış hərəkatı” şöbəsinin
baş elmi işçisi, tarix elmləri doktoru, professor
ORCID: 0000-0002-3114-1856
mamedov-n@yahoo.com

ERMƏNİSTANIN İŞĞALI NƏTİCƏSİNDƏ AZƏRBAYCAN SƏNAYESİNƏ DƏYMİŞ ZƏRƏR

DOI: https://doi.org/10.36719/2708-065X/114/102-109

Məqalədə Ermənistanın Azərbaycan Respublikasına qarşı apardığı hərbi əməliyyatların ağır nəticələri öyrənilmiş, həmçinin Azərbaycanın işğal olunmuş və ona bitişik ərazilərində sənaye müəssisələrinin mənimsənilməsi və dağıdılması faktları çoxsaylı mənbələr əsasında hərtərəfli təhlil edilməklə, bütövlükdə ölkə iqtisadiyyatına vurulmuş zərərin həcmi araşdırılmışdır.

Açar sözlər: Azərbaycan, Qarabağ, Ermənistan, işğal, sənaye müəssisələri, vandalizm, dəymiş zərər.

Giriş. Ermənistanın silahlı təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan ərazilərində 900-dən artıq yaşayış məntəqəsi (şəhər, qəsəbə, kənd və s.), ümumi sahəsi 9,1 mln m^2 olan 150 minə yaxın yaşayış evi və mənzil, 4 366 sosial-mədəni obyekt, 7 000 ictimai bina, 2 389 sənaye və kənd təsərrüfatı obyekti, 1025 məktəb, 855 uşaq bağçası, 927 kitabxana, 1510 mədəniyyət müəssisəsi, 183 sənaye obyekti, 127 tikinti obyekti, 3225 ticarət obyekti, 1 562 ictimai-iaşə, 1 251 xidmət obyekti, 3 472 sosial obyektlər, 4 sanatoriya-müalicə kompleksi, 798 səhiyyə müəssisəsi, o cümlədən 695 xəstəxana və digər tibb müəssisəsi, 598 rabitə obyekti dağıdılaraq məhv edilmişdir. Bundan əlavə, 5 198 km avtomobil yolu, 348 körpü, 286 km dəmir yolu xətti, 116 dəmir yolu körpüsü, 224 su anbarı, 7 568 km su xətti, ümumi uzunluğu 240 km olan kanalizasiya xətləri, 2 000 km qaz kəməri xətti, 34 ədəddən çox qaz paylayıcı qurğuları, 76 940 km elektrik xətti, 2 500 ədəd transformator, 35 min nömrəlik telefon stansiyaları və dağıdılmışdır [10, s.71]. Eyni zamanda, 4 aeroport, Bakı-Ağdam və Horadiz-Ordubad dəmiryolu xətləri, Bakı-XankəndiNaxçıvan qaz kəməri və işğal olunmuş ərazilərdə qalmışdır. Yuxarıdakı faktlardan göründüyü kimi, Ermənistanın silahlı təcavüzü nəticəsində bölgədə fövqəladə humanitar vəziyyətin yaranması, Azərbaycan xalqının tarixi milli mədəniyyət abidələrinə, regionun təbii sərvətlərinə və ekoloji durumunu bərpa edilməsi mümkün olmayan dərəcədə dəymiş ziyanlarla bərabər, ölkəyə külli miqdarda sosial-iqtisadi zərər vurulmuşdur. Xüsusi olaraq, işğal olunmuş ərazilərin sənaye infrastrukturuna dəymiş zərər 200 milyard ABŞ dolları həcmində müəyyənləşdirilmişdir.

Sənaye obyektlərinə dəymiş zərər. Ermənistanın silahlı təcavüzü və Azərbaycanın 20% ərazisinin işğalı nəticəsində bölgədə infrastruktur tamamilə məhv edilmişdir. İşğal olunmuş ərazilərdə fəaliyyət göstərən sənaye sahələri respublika iqtisadiyyatında mühüm yer tuturdu. Burada yeyinti, yüngül, tikinti materialları sənayeləri üzrə müəssisələr daha çox inkişaf etdirilmişdi. Bölgədə sənaye sahələrinin inkişafına güclü kənd təsərrüfatı xammal və yerli təbii ehtiyatlar müsbət təsir göstərirdi. Onu da xüsusi olaraq qeyd edək ki, Qarabağ sənayesi yerli xammala əsaslanırdı. İşğal edilmiş ərazilərin sənaye sahələrindən ən güclü inkişaf edənləri yerli əhalinin ərzaqla təmin olunmasında mühüm əhəmiyyət kəsb edən yağ-pendir, şərabçılıq və qismən də yüngül sənaye sahələri idi. Apardığımız tədqiqatlardan məlum olur ki, Dağlıq Qarabağın sənaye sahələri tərkibi və inkişaf səviyyəsinə görə Azərbaycan Respublikasının iqtisadi regionları arasında dördüncü yeri tuturdu (Abşeron, Gəncə-Qazax, Naxçıvan MR). İşğal olunmuş rayonların sənaye potensialı əsasən Dağlıq Qarabağ ərazisində cəmlənmişdi. Sayca ən çox sənaye və tikinti müəssisələri (137 müəssisə) vilayətin ərazisində yerləşdirilmişdi. İşğal altında olan rayonların bütün sənaye məhsullarının 40%-ə qədəri və

yaradılmış əsas fondların 18,7 %-i Dağlıq Qarabağın və sənaye məhsulunun 51%-i, əsas fondların isə 41%-i Füzuli və Ağdam rayonlarının payına düşürdü. Sənaye və tikinti sahəsində ikinci pilləni Ağdam və Füzuli inzibati rayonları yerdə qalan 5 inzibati rayonda – Laçın, Kəlbəcər, Cəbrayıl, Qubadlı və Zəngilanda sənaye zəif inkişaf etmişdi. 1988-ci il məlumatına görə Azərbaycan Respublikasının ümumi sənaye məhsulunun 2,7 faizi, əsas fondların isə 3,4 faizi işğal altında olan rayonların payına düşürdü. Eyni zamanda, bəhs olunan dövrdə işğal altında olan ərazilərin sənaye sahəsində istehsalı Azərbaycan Respublikası üzrə xüsusi çəkisi orta hesabla 14 faiz təşkil etmişdir [3, v.8].

Qeyd etmək lazımdır ki, hələ münaqişədən əvvəl Azərbaycan dövləti dağ rayonlarının, o cümlədən, Dağlıq Qarabağın məhsuldarlıq qüvvələrinin inkişaf etdirilməsi haqqında qərar qəbul etmişdi. Bununla bağlı olaraq 1980-ci illərdə Dağlıq Qarabağ və 30 il müddətində Ermənistanın işğalı altında olan digər rayonların ərazisində geniş miqyaslı tikinti işlərinə başlanılmışdı. Burada güclü tikinti təşkilatları yaradılmış, bölgəyə yeni maşın mexanizmləri və nəqliyyat vasitələri gətirilmişdi. Yerlərdə güclü tikinti materialı müəssisələri, o cümlədən, Dağlıq Qarabağda mərmər zavodu tikilmişdi. Ermənistan silahlı birləşmələrinin işğalı nəticəsində yeni tikintilər üçün gətirilmiş bütün maddi-texniki baza məhv edilmiş və nəzərdə tutulan layihələr həyata keçirilməmişdir.

Bütün bunlarla yanaşı, Azərbaycanın cəbhəyanı və Ermənistan ilə sərhədyanı rayonlarının sənayesinə külli miqdarda birbaşa və dolayı yolla zərər vurulmuşdur. Belə ki, Ermənistan ilə həmsərhəd olan rayonların bir çox məntəqələri tamamilə dağıdılmış, dinc əhali isə öz doğma yurdlarını tərk etməyə məcbur olmuş, bu rayonlarda olan sosial-iqtisadi, mədəniyyət müəssisələri, sənaye və kənd təsərrüfatı obyektləri məhv edilmişdir. Ümumiyyətlə, Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycanın Naxçıvan Muxtar Respublikasına, Ağstafa, Ağcabədi, Qazax, Tovuz, Gədəbəy, Tərtər, Beyləqan rayonlarına külli miqdarda zərər vurulmuşdur [4, v.2].

Uzun müddət Ermənistan silahlı birləşmələrinin işğalı altında olmuş rayonların ayrı-ayrı sənaye məhsullarının münaqişədən əvvəl Azərbaycan Respublikası üzrə xüsusi çəkisi belə idi: divar materialları – 11,0%, tikinti əhəngi – 7,8%, tikinti materialları – 3,0%, ayaqqabı – 11,0%, ət – 5,0%, konservlər – 6,9 %, inək yağı – 25,2%, şərab materialları – 35%, xam ipək – 13,5%, yun – 19,3%, mineral su – 15% və s. Bütün bunlarla yanaşı işğal olunmuş ərazilərdə İstisu və Turşsu mineral su qablaşdırma müəssisələri, Dağlıq Qarabağ və Ağdamdakı mərmər, mişar daşı zavodları, çoxlu keyfiyyətli və hətta keçmiş SSRİ-də məşhur olan "Ağdam" tipli şərablar və digərlərini istehsal edən şərab zavodları, yağ-pendir müəssisələri, toxuculuq və ayaqqabı fabrikləri, Qarabağ İpək Kombinatı və s. fəaliyyət göstərirdi. Bakıdakı sənaye müəssisələrinin 50-dən çox yeni filialı işğal olunmuş ərazilərdə qalmışdır [5, v.6].

Otuz il müddətində işğal olunmuş ərazilərdə, əsasən mədənçilik, toxuculuq, dəri sənayesi, qida məhsulları sənayesi və digər sənaye sahələri Ermənistan Respublikası tərəfindən istifadə edilmişdir. Təkcə bir il ərzində həmin sənaye məhsullarından Ermənistanın büdcəsinə daxil olmuş gəliri aşağıdakı cədvəldən də izləmək olar [11, s.176]:

s/s	*Sənaye sahələri*	*2014-cü il ABŞ dolları ilə*
1	Mədən sənayesi, o cümlədən:	5138347
2	Dəmir filiz	4929002
3	Digər mədənlər	219342
4	Emal sənayesi, o cümlədən:	7322207
5	Qida sənayesi	4794295
6	İçki sənayesi	992717
7	Toxuculuq sənayesi	9100
8	Xəz emalı və rənglənməsi	104367
9	Dəri ayaqqabı istehsalı	378640
10	Taxta emalı	271237
11	Nəşriyyat, poliqrafiya	53397

12	Plastmas istehsalı	14585
13	Qeyri-metal faydalı qazıntıların istehsalı	389562
14	Hazır metal məhsullarının istehsalı	102547
15	Xırda cihazların istehsalı	7280
16	Elektrik avadanlıqlarının istehsalı	75847
17	Tibbi avadanlıqların istehsalı	7285
18	Mebel avadanlıqları istehsalı	101332
Cəmi: (ABŞ dolları ilə)		**783320242**

Əgər cədvəldəki axırıncı rəqəmi otuza vursaq Azərbaycanın yeraltı və yerüstü təbii sərvətləri hesabına təkcə sənaye sahəsindən Ermənistan büdcəsinə 24 milyard ABŞ dolları daxil olduğunu görərik. İşğalçı qüvvələr işğal müddətində Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlə məşğul olmuş, təbii resursları talamış və vergi, sosial müdafiə təyinatlı vəsaitləri mənimsəmişlər.

Qarabağ, respublikamızın inkişaf etmiş sənaye regionlarından biridir. Əvvəlki illərdə olduğu kimi bəhs olunan dövrdə də, Qarabağda sənaye dinamik inkişaf etmişdir. 1987-ci ilin əvvəllərində Qarabağda sənaye istehsal fondlarının dəyəri 300 milyon manat təşkil etmişdir [18, s.205]. Bundan 140 milyon manatı Dağlıq Qarabağın payına düşürdü. 1980-ci illə müqayisədə 1987-ci ildə sənaye istehsal fondunun dəyəri 55,6 faiz artmışdır ki, bu isə ümumrespublika üzrə olan göstəricilərdən 46,5 faiz çox demək idi. 1988-ci ildə Qarabağ sənayesində 20 min nəfər fəhlə qulluqçu çalışırdı ki, bundan 10 min nəfəri Dağlıq Qarabağın payına düşürdü. Qeyd edək ki, 1988-ci ildə Qarabağda fəhlələrin sayı 1923-cü illə müqayisədə dəfələrlə artmışdı. 1987-ci ildə Qarabağ əhalisinin hər 10 min nəfərinə düşən sənaye məşğulluq göstəricisinə görə yalnız Bakı-Sumqayıt bölgələrindən geri qalırdı. Bölgənin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı minlərlə əhalinin işsiz qalması demək idi. 1940-cı illə müqayisədə 1987-ci ildə Qarabağda sənaye istehsalının həcmi 25 dəfə artaraq 450 milyon manata çatmışdır. Yeni obyektlərin istifadəyə verilməsi, müəssisələrin avadanlıq və xammalla təmin edilməsi nəticəsində bölgədə sənaye istehsalının yüksək inkişaf sürəti təmin olunmuşdur. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1987-ci illər ərzində Qarabağ sənaye istehsalının inkişaf sürətinə görə ümumrespublika səviyyəsini 3 dəfə ötüb keçmişdir. 1987-ci ilin dekabr məlumatına görə Qarabağda adambaşına 1,4 min manatlıq sənaye məhsulu istehsal olunmuşdur ki, bu da Bakı-Sumqayıt regionu istisna olmaqla Azərbaycanın yerdə qalan bütün regionlarındakı göstəricilərdən yüksəkdir [8, s.191].

Qarabağ, xüsusilə onun Dağlıq hissəsi Azərbaycanın müasir sənayeyə malik regionudur. 1970-1980-ci illərdə Dağlıq Qarabağda sənaye dinamik inkişaf etmişdir. 1980-ci illərin statistik məlumatlarına görə Dağlıq Qarabağda 52 müasir sənaye müəssisələri vardır ki, həmin müəssisələr yüzlərlə növ məmulat buraxırdı. Bəhs etdiyimiz illərdə Dağlıq Qarabağın sənaye müəssisələrində ipək məmulatları, elektrik cihazları, lüminessent lampaları, kondensatorlar, musiqi alətləri, mebel, dekorativ lövhə və suvenir məmulatları, tikinti materialları, üzlük bəzək piltələri, ayaqqabı, tikili mallar, ət və süd məhsulları, qənnadı və un məmulatları, konyak, spirt, şərab və başqa məmulat istehsal olunurdu. 1987-ci ildə Dağlıq Qarabağda 35 növ sənaye məhsullarına Dövlət Keyfiyyət nişanı verilmişdir ki, bundan 26-sı xalq istehlakı malları idi [2, s.51]. Bölgənin sənaye kompleksinin əsasını elektrotexnika, ipəkçilik, maşınqayırma, tikinti materialları sənayesi, toxuculuq, mebel, ayaqqabı, ət-süd sənayesi və digərləri təşkil edir. 1986-1988-ci illərdə Qarabağda xalq istehlakı malları istehsalının artırılmasına xüsusi diqqət yetirilmişdir. Əmək ehtiyatlarından daha səmərəli istifadə etmək üçün Dağlıq Qarabağın ermənilər yaşayan kəndlərində "Qarabağ İpək Kombinatı"nın filialları şəbəkəsi xeyli genişlənmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, 1987-ci ildə Qarabağ ipək istehsalına görə respublikamızın ikinci mərkəzi idi. Qarabağda yüngül sənaye məhlulunun 60 faizi və respublikamızın ipəkçilik sənayesinin 25 faizi Qarabağ ipək emalı sənayesinin payına düşürdü [15, s.23].

Bölgənin bir neçə rayonunda sənaye müəssisələri haqqında məlumat verməklə Ermənistan silahlı birləşmələrinin işğalı ilə necə zərər vurulduğunu izləmək olar. Belə ki, Ağdam rayonu Respublikanın inkişaf etməkdə olan sənaye mərkəzlərindən biri idi. Ağdamda yerli xammala əsaslanan ağır, yeyinti və yüngül sənaye sahələri yaradılmışdı. Rayonda ət kombinatı, yağ-pendir, konserv,

barama toxumu, şərab zavodları, xalça fabriki, mexanikləşdirilmiş daş karxanası, mexanikləşdirilmiş çörəkxana, elektrik şəbəkəsi, kənd təsərrüfatı texnikası birliyinin rayon şöbəsi, avtomaşınlara texniki xidmət stansiyası, quşçuluq stansiyası, məişət xidməti stansiyaları fəaliyyət göstərirdi. 70-ci illərdə rayonda 11 min hektar üzüm bağı salınmış və təsərrüfatlardan 37 min tondan artıq üzüm yığılmışdır ki, bu da ərazidə şərab zavodlarının yaradılmasına zəmin yaratmışdır. Eyni zamanda, həmin dövrdə Ağdamda şərabçılıq sovxozları tresti yaradılmış, istehsal olunan yüksək keyfiyyətli "Ağdam" şərabı nəinki Respublikada, İttifaqın bütün dövlətlərində istehlak olunurdu [13, s.30].

1988-ci ildə Laçın rayonunda iri dövlət müəssisələrindən olan 9 heyvandarlıq sovxozu, o cümlədən südçülük-damazlıq sovxozu, yağ-pendir zavodu, konserv zavodu, ət tədarükü və qəbulu məntəqəsi, yun və gön-dəri qəbul idarəsi, kimya birliyi, baytarlıq müalicəxanası, tikinti materialları istehsalat birliyi, ağac emalı sənayesi, yol və tikinti quraşdırma idarəsi, Sumqayıt Alüminium və Maşınqayırma zavodlarının filiallar, yüngül və yerli sənaye kombinatları, 2 asfalt zavod, beton zavod, 2 tikinti idarəsi, mərmər, əhəng, toxuculuq sexləri, 2 daş karxanası və digər müəssisələr fəaliyyət göstərirdi [18, s.180].

Zəngilan rayonu ərazisində şərabçılıq sənayesi istehsalat aqrar birliyi, sovxoz istehsalat birliyi, Respublika Dövlət Kənd Təsərrüfatı İstehsalat-Texniki Təminat Komitəsi, Meşə Təsərrüfatı sənayesi, Şərab Zavodu sənayesi, Heyvandarlıq məhsulları istehsalı müəssisələri və digər sənaye müəssisələri vardır ki, bütün bunlar Ermənistan silahlı birləşmələrinin işğalı ilə qarət edilmiş və dağıdılmışdır. Ağdam, Laçın və Zəngilan rayonlarında olduğu kimi, Azərbaycanın digər işğal olunmuş ərazilərində də qiymətli sənaye müəssisələri Ermənistan silahlı birləşmələrinin işğalı altında düşmüş və respublikamıza külli miqdarda ziyan dəymişdir [6, v.78].

Onu da qeyd edək ki, 1986-1988-ci illərdə Qarabağda ərzaq məhsulları istehsal edən sənaye müəssisələrinin istehsalında artım müşahidə edilmişdir. Məsələn, pendir və yağlı brınza istehsalı 1985-ci ildə 210 ton, 1986-cı ildə 270 ton istehsal olunmuşdursa, 1988-ci ildə artaraq 280 tona çatmışdır. 1985-ci ildə Qarabağın yağ zavodunda 935 ton yağ istehsal olunmuşdursa, 1986-cı ildə bu göstərici 945 tona və 1988-ci ildə 949 tona çatmışdır. Bəhs etdiyimiz illərdə Qarabağda artan sənaye sahələrindən biri də konyak istehsalı idi. Konyak istehsalı 1985-ci ildəki 88 min dekalitrə qarşı, 1986-cı ildə 116 min dekalitrə, 1988-ci ildə isə 150 min dekalitrə qalxmışdır. Keçən əsrin 80-ci illərin ikinci yarısında heyvandarlıq məhsulları istehsal edən sənayenin inkişafını sürətləndirmək nəzərdə tutulmuşdur. 1986-1988-ci illərdə Qarabağda yeyinti sənayesində əhalinin tələbatını ödəməli olan köməkçi sahələr – süd, ət, çörəkbişirmə, qənnadı və başqa sahələr üstünlük təşkil edirdi. Xankəndi şəhərində fəaliyyəti göstərən süd kombinatında respublikamızda quru süd zərdabı hazırlayan yeganə sex işləyirdi. Süd kombinatındakı quru süd sexində xaricdən gətirilmiş avadanlıqlar quraşdırılmışdır. Aparılan hesablamalara görə 1988-ci ildə adambaşına düşən yeyinti məhsullarının ən mühüm növlərinin istehsalı səviyyəsinə görə Qarabağ Azərbaycan SSR-nin iqtisadi rayonları arasında ilk yerlərdən birini tutmuşdur. Qeyd edək ki, bəhs olunan dövrdə Dağlıq Qarabağdakı, yeyinti məhsulları istehsalı və istehlakı ümumi Qarabağ və ümumrespublika səviyyəsini iyirmi beş faiz üstələmişdir [12, s.685].

XX əsrin 80-ci illərində bütövlükdə Azərbaycanda, o cümlədən onun Qarabağ regionunda sənayenin dinamik inkişaf etdiyini Ümummilli lider Heydər Əliyev "xalqa müraciəti"ndə öz fikirlərini ifadə edərək demişdir: "... 1970-1980-ci illərdə Azərbaycanda sənaye dinamik inkişaf etmişdir. Bu illər ərzində 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, 250-dən çox iri zavod, fabrik və istehsalat sexləri tikilmiş, sənayedə əmək məhsuldarlığı 2,1 dəfə, məhsul istehsalı 3,3 dəfə, mənfəət 3,2 dəfə, sənaye məhsuldar personalın fondlarla təchizatı 1,4 dəfə artmış, 451 adda məhsula dövlət keyfiyyət nişanı verilmişdir. Ölkəmizdə buraxılan məhsul dünyanın 65 ölkəsinə ixrac olunmuş və xalqımızın maddi rifah halı xeyli yaxşılaşmışdır" [9, s.4].

Aparılan tədqiqatlardan məlum olur ki, Qarabağda aqrar sahənin intensiv inkişafı sənayenin də dinamik inkişafına şərait yaratmışdır. Çünki bölgədə sənaye sahələri əsasən kənd təsərrüfatı məhsullarının və yerli xammalların hesabına inkişaf etdirilmişdir. Təkcə bir faktı qeyd edək ki, dekabr 1987-ci ildə Dağlıq Qarabağ üzrə sənaye məhsulu istehsalı respublikanın ümumi məhsul istehsalının 2.8 faizini, istehsal fondlarının 1,6 faizini, sənayedə çalışanların 2,8 faizini təşkil etmişdir. İqtisadi rayonun məhsul istehsalına kapital qoyuluşu artaraq, hər adama düşən istehsal məhsulla-

rının həcmi 1987-ci ildə ümumrespublika üzrə 21 manata qarşı, Vilayətdə 29,5 manat olmuşdur [1, s.226]. 1970-1980-ci illərdə Dağlıq Qarabağda 30-dan çox sənaye müəssisələri yaradılmış və il ərzində məhsul istehsalının həcmi 3 dəfə artaraq respublika səviyyəsini ötmüşdür. Dağlıq Qarabağın sənaye strukturunda adambaşına düşən yeyinti sənayesi 65,9 faiz, yüngül sənayesi 24,2 faiz, maşınqayırma və metal emalı sənayesi 6,7 faiz, meşə və ağac emalı sənayesi 1,7 faiz, tikinti materialları sənayesi 1,5 faiz artmışdır [14, s.52]. Sənaye məhsullarının müqayisəli həcminə görə yeyinti sənayesi üstünlük təşkil etmişdir. Bu ilk növbədə aqrar sektorun inkişafı ilə bağlıdır. Xankəndi ət, süd kombinatları, şərab zavodu, Əsgəran spirtsiz içkilər zavodu, Xocavənd konserv zavodu, çörək kombinatları, quru süd və süd zərdabı hazırlayan zavodlar məhsul istehsalı və onların keyfiyyət göstəricilərinə görə güclü inkişaf etmişdir. Qarabağda sənayenin inkişafı xidmət strukturlarının genişlənməsinə təkan vermişdir. 1986-1990-cı illər planında Şuşa və Xocavənddə yeni çörək zavodları, Xankəndində qənnadı fabriki, un kombinatı, şərab zavodlarının yenidən qurulması, üzüm şirəsi zavodunun tikintisi, yeni qənnadı sexlərinin tikintisi nəzərdə tutulmuşdu. Bunların həyata keçirilməsi isə Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəyə başlaması ilə baş tutmadı. 1987-ci ildə Dağlıq Qarabağda tikiş, xalça, musiqi alətləri fabrikləri, maşınqayırma, elektrotexnika, texniki təmir, elektrik lampaları, zavodları, minik avtomobillərinə texniki xidmət stansiyası və onun Əsgəran, Xocavənd, Xocalı filialları güclü inkişaf etmişdi. Bəhs etdiyimiz dövrdə Dağlıq Qarabağda tikinti sənayesi yerli xammallar hesabına inkişaf etdirilirdi. Respublikamızdakı üzlük daşın 15 faizini, tikinti daşlarının 30 faizini, mişar daşlarının 10 faizini, sənaye əhəmiyyətli gilin 10 faizini Dağlıq Qarabağ vermişdir. Bu sahədə Xankəndi tikinti materialları kombinatı, qum, çınqıl, daş, mərmər karxanaları, kərpic zavodu böyük rol oynamışdır. Xankəndi, Əsgəran, Xocavənd, Xocalı meşə və ağac emalı kombinatları, mebel fabrikləri çoxşaxəli sənaye sahələrinin inkişafında mühüm rol oynamışdır [7, s.89].

Qarabağın infrastrukturunda yüksək voltlu elektrik xətlərinin çəkilməsində və bununla elektrik təchizatı sahəsində şəbəkələr yaradılması böyük rol oynamışdır. 1988-ci ildə Qarabağ ərazisində yüksək gərginlikli elektrik xətlərinin uzunluğu 4230 kilometrə çatmışdır. Qarabağın elektrik enerjisi ilə təminatında Sərsəng Su Elektrik Stansiyası mühüm rol oynamışdır. Azərbaycan hökumətinin dərin qayğısı nəticəsini Qarabağ üçtərəfli elektrik enerjisi ilə təchiz edilmişdir. 1986-1988-ci illərdə Qarabağda elektrik enerji istehsalı 2,4 artmışdı [6, v.71]. Apardığımız təhlillərdən məlum olur ki, adambaşına düşən elektrik enerjisinin həcminə gəldikdə Dağlıq Qarabağ həm Qarabağda, həm də ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Vilayətdə adambaşına düşən elektrik enerjisi ümumrespublika səviyyəsindən 2,5 dəfə Naxçıvan MR ilə müqayisədə isə təxminən 2 dəfə çox olmuşdur [17, s.183]. Əlbəttə bu faktın özü tariximizi saxtalaşdıran erməni millətçilərinə tutarlı cavabdır. Çox təəssüflə qeyd etməliyik ki, Qarabağda sənaye müəssisələrinin əsas hissəsi Xankəndi şəhərində və Dağlıq Qarabağın ermənilərin daha çox cəmləşdiyi ərazilərdə yerləşdirilmişdir. Dağlıq Qarabağın erməni rəhbərliyi "Sənaye müəssisələri və onların filiallarının yerləşdirilməsi səlahiyyətləri"ndən istifadə edərək bölgədə qədimdən yaşayan azərbaycanlıların yaşayış məntəqələrində sənaye və onun infrastrukturu inkişaf etdirilmədi. Erməni rəhbərliyinin məqsədi süni surətdə işsizlik problemi yaradıb azərbaycanlıların bölgədən çıxarılmasına nail olmaq idi və bu məkirli niyyətlərinə nail oldular.

Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycan Respublikasının dağıdılmış və məhv edilmiş sənaye müəssisələri və dəymiş zərər haqqında məlumatı aşağıdakı cədvəldən də izləmək olar [16, s.109]:

s/s	*Rayonların adı*	*Ölçü vahidi*	*Ümumi miqdar*	*Dəymiş ümumi zərərin dəyəri (min ABŞ dolları ilə)*
1.	DQMV	ədəd	137	2 186 625
2.	Kəlbəcər rayonu	ədəd	19	225 000
3.	Ağdam rayonu	ədəd	38	413 700
4.	Füzuli rayonu	ədəd	45	946 875
5.	Qubadlı rayonu	ədəd	17	172 800
6.	Cəbrayıl rayonu	ədəd	18	171 000

7.	Zəngilan rayonu	ədəd	18	82 250
8.	Laçın rayonu	ədəd	48	834 466
9.	Tərtər rayonu	ədəd	19	3 087
10.	Beyləqan rayonu	ədəd	1	8 500
Cəmi:		**ədəd**	**360**	**5 044 303**

Apardığımız tədqiqatlardan məlum olur ki, Azərbaycanın işğal olunmuş ərazilərində 360-dan çox sənaye və tikinti obyektləri, o cümlədən 233-dən artıq sırf sənaye müəssisəsi, 127 tikinti obyekti qalmışdır ki, həmin müəssisələrin dəyəri 5 milyard ABŞ dollarından çox olmuşdur [11, s.176].

Nəticə. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan ordusunun şücaəti ilə 2020-ci il Vətən müharibəsində qazanılmış Zəfər və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam şəkildə bərpa olundu. Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın böyük iqtisadi potensiala malik əraziləridir. Uzun illər işğal altında qalan bu bölgə hazırda bərpa, yenidənqurma mərhələsindədir və sənayenin inkişafı əsas prioritetlərdən biridir. Qarabağ və Şərqi Zəngəzur zəngin təbii ehtiyatlara malikdir. Xüsusilə dağ-mədən sənayesi, tikinti materialları, enerji istehsalı və kənd təsərrüfatı məhsullarının emalı üçün geniş imkanlar mövcuddur. Kəlbəcər və Laçın rayonlarındakı qızıl, civə və digər faydalı qazıntılar sənayenin inkişafı üçün çox böyük bazadır. Mərmər, əhəngdaşı, perlit və gil yataqları da tikinti sənayesinin inkişafı üçün əlverişli şərait yaradır. Zəngin su ehtiyatları hidroenergetika sahəsinin inkişafına imkan verir, dağ çayları üzərində su-elektrik stansiyalarının qurulması enerji təminatını gücləndirir. Onu da qeyd edək ki, əlverişli iqlim və torpaq kənd təsərrüfatı məhsullarının emalına əsaslanan sahələrin – qida, konserv və yüngül sənayenin inkişafında mühüm rol oynayır. Bu amillər bölgənin iqtisadi potensialını artıraraq sənayenin davamlı tərəqqisi üçün möhkəm zəmin formalaşdırır. Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji zonası"nın yaradılması da sənaye baxımından böyük əhəmiyyət daşıyır. Günəş, külək və su-elektrik stansiyalarının qurulması enerji sənayesinin inkişafına və ekoloji tarazlığın qorunmasına xidmət edir. Bu layihələr, həm də regionun enerji müstəqilliyini artırır, sənaye müəssisələri üçün dayanıqlı enerji mənbəyini təmin edir və yeni texnologiyaların tətbiqinə şərait yaradır. Eyni zamanda "yaşıl enerji" sahəsində yaradılan iş yerləri əhalinin məşğulluğunu artırır və bölgəyə gənc mütəxəssislərin cəlb olunmasına imkan verir. Bu, həm iqtisadi, həm də sosial inkişafı sürətləndirir, insanların həyat səviyyəsinin yüksəlməsinə yol acır.

Qarabağ və Şərqi Zəngəzurda sənaye parklarının, logistika mərkəzlərinin və müasir istehsal müəssisələrinin qurulması regionu investisiya baxımından cəlbedici zonaya çevirir. Nəticədə bölgədə həm yerli, həm də xarici investisiyaların artması gözlənilir ki, bu da iqtisadi sabitliyi və davamlı inkişafı təmin edir. Regionda sənaye parklarının və logistika mərkəzlərinin yaradılması yeni iş yerlərinin açılmasına, əhalinin geri qayıdışına və sosial-iqtisadi inkişafın sürətlənməsinə şərait yaradır. Dövlət tərəfindən həyata keçirilən infrastruktur layihələri sənayenin davamlı inkişafını önə çəkir. Xüsusilə Ağdam Sənaye Parkı bu baxımdan böyük əhəmiyyət kəsb edir. Parkda fəaliyyət göstərən müxtəlif istehsal müəssisələri – qida, tikinti materialları, yüngül və emal sənayesini özündə birləşdirir. Ağdam Sənaye Parkı təkcə sənaye sahəsinin inkişafına deyil, həm də regional iqtisadiyyatın güclənməsinə, işsizliyin azaldılmasına və yerli əhalinin rifahının yüksəlməsinə töhfə verir. Bu uğurlu təcrübə Qarabağ və Şərqi Zəngəzurda sənayenin digər sahələrinə də nümunə ola bilər. Məsələn, 2021-ci ildə yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Cəbrayıl rayonunda yerləşir və kənd təsərrüfatı məhsullarının emalı, sənaye və logistika sahələrini əhatə edəcək şəkildə planlaşdırılıb. Burada işlərin gözlənilən səviyyədə irəliləməsi əsas verir ki, gələcəkdə Zəngilan və Laçın kimi digər rayonlarda da sənaye və kənd təsərrüfatı zonaları yaradılsın. Şərqi Zəngəzurda yaradılan sənaye və kənd təsərrüfatı istehsal zonaları Ağdam Sənaye Parkının modelinə investisiyaların cəlb edilməsinə və yerli sahibkarlığın inkişafına xidmət edir. Oxşar sənaye parklarının təşkili bölgədə emal sənayesinin genişlənməsinə, logistika imkanlarının artmasına və ixrac potensialının yüksəlməsinə şərait yaradır. Qeyd edək ki, bu təcrübə gənc mütəxəssislərin yetişdirilməsinə və innovativ texnologiyaların tətbiqinə imkan verir. Belə layihələr bölgədə iqtisadı sabitliyi gücləndirir, işgüzar mühiti

yaxşılaşdırır və yerli əhalinin həyat səviyyəsinin yüksəlməsinə töhfə verir. Qarabağ və Şərqi Zəngəzurda sənayenin inkişafı yalnız iqtisadi nəticələr gətirmir, həm də regionun sosial və mədəni dirçəlişinə dəstək olmaqla insanların öz doğma torpaqlarına geri dönməsinə stimul verir. Nəticə etibarilə Ağdam Sənaye Parkı və ona bənzər layihələr regionun iqtisadi inkişaf strategiyasının mərkəzi elementi olaraq, Azərbaycanın dayanıqlı sənaye potensialının formalaşmasında mühüm rol oynayır. Onu da qeyd etməyimiz yerinə düşərdi ki, 2025-ci ilin əvvəllərində Qarabağ və Şərqi Zəngəzurda 1735 yeni iş yerləri açılmış, 262 milyon manat həcmində sənaye məhsulu istehsal olunmuşdur. Bütün bu və ya digər uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqları və şəxsi nəzarəti ilə gerçəkləşir. Dövlət başçısı işğaldan azad olunmuş ərazilərdə 2026-cı ilədək 569 tədbirdə iştirak etmiş, 177 müxtəlif təyinatlı layihələrin təməlini qoymuş, 167 obyektin və infrastruktur layihələrinin açılışını etmişdir. Bütün bunlar onu deməyə əsas verir ki, bu gün Qarabağ və Şərqi Zəngəzurda sənaye sahəsi dinamik inkişaf edir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. VII cild. Bakı, “Elm” 2003, 676 s.
2. Azərbaycan rəqəmlərdə 1994-cü il. Bakı, “Təhsil”, 1995-ci il, s.51, 96.
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivində (ARPİİİSSA). F.1, s.412, i.43.
4. ARDTA. F.13, s.4, i.20, v.2, 3.
5. ARDTA. F.2029, s.1, i.9, v.6.
6. ARPİİİSSA. F.1114, s.15, i.1969, v.78.
7. Aslanova F. İşğal olunmuş Azərbaycan torpaqlarında erməni vandalizm. Bakı, 2002, s.87-90.
8. Əliyev M. Azərbaycan iqtisadiyyatı. Bakı, “Qanun”, 1989, 218 s.
9. Əliyev H. Azərbaycan XXI əsr və üçüncü minilliyin ayrıcında. Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. “Respublika” qəzeti 20 dekabr, 2000-ci il, s.1-5.
10. Həsənov L. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır nəticələri. Bakı, “Çaşıoğlu”, 2002, 306 s.
11. Kazımlı X. Azərbaycan ərazilərinə silahlı erməni təcavüzü (1988-1994). Bakı, “Elm və təhsil”, 2016, 276 s.
12. Məmmədov N. Qarabağ tarixi (1920-1990). Bakı, “Avropa”, 2020, 984 s.
13. Məmmədov N. Qarabağda ermənilərin qanlı cinayətləri: terror, vandalizm, deportasiya, işğal, soyqırımları (1988-2018). Bakı, “ADPU”, 2019, 418 s.
14. Məmmədov N. Azərbaycan SSR DQMV-də sənayenin dinamik inkişafı (1970-1985) (Rus dilində). Moskva, “Federasiya”, 2009, №3, s.51-58.
15. Səmədzadə Z. Dağlıq Qarabağ. Naməlum həqiqətlər. Bakı, “ADN”, 1995, 121 s.
16. Süleymanov E., Süleymanov V. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü. Bakı, “CBS”, 2012, 181 s.
17. Азербайджан в цифрах в 1990 году. Баку, «Наука», 1991, с.246, 263.
18. Народное хозяйство Азербайджанской ССР в 1988 году. Ст.ежиг. Баку, «Просвшения», 1990, 384 с.

НАЗИМ МАМЕДОВ

Старший научный сотрудник отдела «История Карабахских войн и движения Великого возвращения» Института Истории и Этнологии им. А.А. Бакиханова АНАН, доктор исторических наук, профессор.

УЩЕРБ АЗЕРБАЙДЖАНСКОЙ ПРОМЫШЛЕННОСТИ В РЕЗУЛЬТАТЕ АРМЯНСКОЙ ОККУПАЦИИ

В статье на основе многочисленных источников рассматриваются серьезные последствия военных действий, проведенных Арменией против Азербайджанской Республики, а также факты захвата и уничтожения промышленных предприятий на оккупированных и приле-

гающих территориях Азербайджана, и исследуется масштаб ущерба, нанесенного экономике страны в целом

Ключевые слова: Азербайджан, Карабах, Армения, оккупация, промышленные предприятия, вандализм, ущерб.

NAZIM MAMMADOV
Senior researcher, doctor of historical sciences
professor of the department "History of Karabagh wars and Great retuen movement"
of the Institute of History and Ethnology named after A.A. Bakikhanov of ANAS

DAMAGE TO AZERBAIJANI INDUSTRY AS A RESULT OF THE ARMENIAN OCCUPATION

The article studies the severe consequences of the military operations conducted by Armenia against the Republic of Azerbaijan, as well as the facts of the appropriation and destruction of industrial enterprises in the occupied and adjacent territories of Azerbaijan, based on numerous sources, and the extent of damage to the country's economy as a whole is investigated

Keywords: Azerbaijan, Karabakh, Armenia, occupation, industrial enterprises, vandalism, damage.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Mais Əmrahov, t.e.d. İbrahim Zeynalov.

UOT 94”19/...”

QABİL BƏŞİROV
Azərbaycan Dövlət Pedaqoji Univeristetinin
Tarix və coğrafiya fakültəsinin Ümumi tarix və tarixin tədrisi
texnologiyası kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
besirovqabil82@gmail.com

AFAQ PİRİYEVA
Azərbaycan Dövlət Pedaqoji Univeristetinin
Tarix və coğrafiya fakültəsinin Ümumi tarix və tarixin tədrisi
texnologiyası kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
afaq.piriyeva@bk.ru

SOVET İMPERİYASINDA SÜRƏTLƏNDİRİLMİŞ STALİNÇİ SƏNAYELƏŞDİRMƏNİN YEKUNLARI VƏ NƏTİCƏLƏRİ (1928-1940)

DOI: https://doi.org/10.36719/2708-065X/114/110-116

Məqalədə 1922-ci ildə dünyanın siyasi xəritəsinə Sovet Sosialist Respublikaları İttifaqı adı ilə daxil olan dövlətin 1920-ci illərin ikinci yarısında iqtisadi həyatın yenidən qurulması yollarının və vasitələrinin müəyyənləşdirilməsi problemi ilə üz-üzə qalması, bu problemlə bağlı partiya daxilində gedən qızğın diskussiyalar, Stalinin təzyiqləri nəticəsində ağır sənayeyə üstünlük verməklə sürətləndirilmiş sənayeləşdirmə planının qəbul edilməsi, Stalinin mövqeyinin güclənməsi məsələləri öyrənilir. İşdə sürətləndirilmiş sənayeləşdirmə dövründə imperiyanın iqtisadi-texniki geriliyinin aradan qaldırılmasına, iqtisadi müstəqilliyinin təmin olunmasına, müdafiə qabiliyyətinin gücləndirilməsinə, kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsinə imkan verən tədbirlər qeyd olunur, sənayeləşdirmə üçün lazım olan vəsaitin əldə olunması yolları göstərilir.

Məqalədə konkret faktlar əsasında göstərilir ki, SSRİ-Almaniya müharibəsinə qədərki dövrdə xalq təsərrüfatı sahəsində əldə olunmuş irəliləyişlər böyük itkilər, məhrumiyyətlər, faciəvi hadisələr hesabına əldə olunmuşdu. Qeyd olunur ki, əhalinin maddi rifahı heç də yaxşı deyildi, 1930-cu illərin əvvəllərində baş vermiş dəhşətli aclıq nəticəsində milyonlarla insan məhv oldu, sürətləndirilmiş sənayeləşdirmə kənddən şəhərə axını gücləndirdi, bu isə şəhərlərdə mənzil problemini daha da kəskinləşdirdi, kənd təsərrüfatında işləyənlərin sayı azaldı, iqtisadi problemlərin aradan qaldırılmasında məhbus əməyindən də istifadə olunurdu.

Mövzunun aktuallığı. Sovet imperiyasının tarixinin ən ziddiyyətli, mürəkkəb və təzadlı dövrlərindən birini sürətləndirilmiş sənayeləşdirmə xəttinin də daxil olduğu ilk sovet beşillikləri təşkil edir. Sürətləndirilmiş stalinçi sənayeləşdirmənin nəticələrinə və yekunlarına münasibət indinin özündə də fərqlidir. Qeyd olunan problemin araşdırılmasının davam etdirilməsi dövrün reallıqlarını aşkar etməyə, Sovet cəmiyyətinin üzləşdiyi problemlərin məzmununu başa düşməyə kömək edir.

Problemin elmi yeniliyi. Problemin araşdırılması zamanı ilkin mənbələrdən, yeni tədqiqatlardan istifadə olunmuş, faktların müqayisəli təhlili aparılmış,sürətləndirilmiş sənayeləşdirmənin yekunları və nəticələrinə düzgün münasibət bildirilməsinə cəhd edilmişdir. Məqalənin elmi əhəmiyyəti. İşin materiallarından sürətləndirilmiş sənayeləsdirmə probleminin tarixinin öyrənilməsi zamanı istifadə etmək olar.

Açar sözlər: Sovet imperiyası, sənayeləşdirmə, kollektivləşdirmə, partiya, repressiya.

Giriş. XIX əsrin sonları – XX əsrin əvvəllərində çar Rusiyasında həyata keçirilən sənayeləşdirmə siyasəti iqtisadiyyatda müəyyən irəliləyişlərin əldə olunmasına şərait yaratsa da, I Dünya müharibəsi və Vətəndaş müharibəsi sənayeləşdirmə işini dayandırdı. Yeni iqtisadi siyasət dövründə xalq təsərrüfatı əsasən bərpa olunsa da iqtisadi göstəricilər 1913-cü il səviyyəsində idi.1920-ci illərin axırlarında SSRİ sosial-iqtisadi inkişaf yolları və metodlarının müəyyənləşdirilməsi problemi ilə üz-üzə

qaldığı vaxt imperiya rəhbərliyi əsas diqqəti ağır sənayeyə verməklə sürətləndirilmiş sənayeləşdirmə xəttini seçdi.

Sosial-iqtisadi inkişaf yolları və metodları haqqında diskussiyalar. 1920-ci illərin ortalarından SSRİ-də partiya daxilində ölkə iqtisadiyyatının yenilənməsi yolları və metodları ilə bağlı başlanan diskussiyalar 20-ci illərin sonuna kimi davam etdi. Bu problemin həmin dövrdə qarşıda durması heç də təsadüfi deyildi. Bu dövrdə SSRİ aqrar ölkə idi. Belə ki, ilk sovet beşilliyinə kimi imperiyanın milli gəlirinin 20-25 faizini fabrik-zavod sənayesi, 50 faizini isə kənd təsərrüfatı verirdi. (17,s.20). Xalq təsərrüfatında işləyənlərin böyük bir hissəsi kənd təsərrüfatında çalışırdı.1926-ci ildə ölkə əhalisinin sayı 147,0 milyon nəfər idi.Əhalinin 17,9 faizini (26,3 milyon) şəhər, 82,1 faizini (120,7 milyon) isə kənd əhalisi təşkil edirdi.(11,s.37). Sovet imperiyası sənayenin inkişaf səviyyəsinə görə qabaqcıl kapitalist ölkələrindən xeyli geri qalırdı, texniki gerilik hökm sürürdü. İmperiya rəhbərliyi belə hesab edirdi ki, texniki-iqtisadi gerilik ölkənin iqtisadi müstəqilliyi, onun müdafiəsi üçün təhlükə yaradır. Məhz belə bir şəraitdə sənayeləşdirmə siyasətinə diqqət yönəltmək aktual bir məsələ kimi qarşıya çıxdı.

ÜİK(b) P -nin XIV qurultayında (dekabr 1925-ci il) qəbul edilmiş qətnamədə deyilirdi: "Elə bir yolla quruculuq işi aparılmalıdır ki, SSRİ maşın və avadanlıq idxal edən ölkədən maşın və avadanlıq istehsal edən ölkəyə çevrilsin...SSRİ-ni kapitalist dünya təsərrüfatının əlavəsinə çevrilməkdən qorumaq üçün ölkənin iqtisadi müstəqilliyi təmin edilsin, bundan ötrü ölkənin sənayeləşdirilməsi, istehsal vasitələri istehsalının inkişaf etdirilməsi xətti yeridilsin" (9, s.427).

ÜİK(b)P MK-nın 1926-cı ilin aprel plenumunda sənayenin sürətli inkişafını təkid edən Kamenev və Trotski təklif etdilər ki, varlı kəndlilər üzərinə əlavə kənd təsərrüfatı vergiləri qoyulsun, sənaye məhsullarının qiyməti artırılsın. Lakin onların mövqeyi plenum iştirakçılarının bir hissəsi tərəfindən sərt qarşılandı. Plenumda Stalin də bəzi şəxslərin sənaye quruculuğunun yüksəldilmiş planları ilə bağlı mövqeyi ilə razılaşmayaraq bildirmişdi ki, sənaye planları bürokratik düşüncə əsasında yox, xalq təsərrüfatının, ölkənin ehtiyatlarının nəzərə alınması əsasında qurulmalıdır. O, bildirirdi ki, bəzi insanlar əldə olan ehtiyatları, maliyyə imkanlarını nəzərə almadan fantastik planlar qururlar, unudurlar ki, sənaye planlarını minimum ehtiyat olmadan qurmaq olmaz, sənaye quruculuğu ilə bağlı düzgün planların hazırlanması mövcud ehtiyatlardan məqsədli istifadənin ən mühüm şərtlərindən biridir (13, s.130-132).

Plenumun qətnaməsində deyilirdi: "Qeyri istehsalçı siniflərin (burjuaziya və zadəganlar) mülkiyyətdən məhrum edilməsi,borcların ləğv olunması, sənayedə, dövlət ticarətindən (daxili və xarici) əldə olunan gəlirlərin cəmləşdirilməsi, bütün maliyyə sistemi dövlətin əlindədir, bu da imkan verir ki, sürətləndirilmiş sənayeləşdirmə üçün daxili vəsait toplanılsın" (10, s.9).

Lakin 1926-cı il ərzində və ondan sonrakı dövrdə MK üzvlərinin bir hissəsinin sənayenin inkişaf sürətinə, sənayeləşdirmə üçün vəsaitin əldə olunması yollarına münasibəti dəyişdi. Bu məsələdə İ.V.Stalin də öz mövqeyini dəyişdi. Əvvəllər sürətləndirilmiş sənayeləşdirməni fantastika adlandıran Stalin özü sonra sürətləndirilmiş sənayeləşdirmə siyasətinin rəhbərinə və ideoloquna çevrildi. Partiyanın XV konfransı (1926, oktyabr-noyabr) ölkənin inkişafı ilə bağlı daha iddialı bir vəzifə irəli sürdü: "qısa müddət ərzində sənaye cəhətdən inkişaf etmiş ölkələrə çatmaq, sonra isə onları ötüb keçmək" (10, s.72).

ÜİK(b) P -nin 1927-ci ilin dekabrında keçirilmiş XV qurultayında qeyd olundu ki, ağır sənayenin elə sahələrinin sürətli inkişafına fikir verilməlidir ki, onlar qısa müddət ərzində SSRİ-nin iqtisadi gücünü və müdafiə qabiliyyətini gücləndirsin, kənd təsərrüfatının daha yüksək texniki baza əsasında yenidən qurulmasına şərait yaratsın (10, s.281).

Ağır sənayenin sürətli inkişafına etiraz edənlər olsa da, MK-nın noyabr plenumunda (1928-ci il) bildirildi ki, texniki-iqtisadi cəhətdən kapitalist ölkələrinə o vaxt çatmaq və onları ötüb keçmək olar ki, sənayenin inkişafı və ölkənin sənayeləşdirilməsi yüksək sürətlə aparılsın (10, s.369).

Stalin MK-nın noyabr plenumundakı çıxışında (1928-ci il)ağır sənayenin həlledici rol oynamasının səbəblərindən danışarkən bildirmişdi ki, ölkəmizdə sosializmin tam qələbəsi üçün bu ölkələrə texniki-iqtisadi cəhətdən də çatmaq və onları ötüb keçmək lazımdır (18, s.27).

Partiyanın XVI konfransında (aprel 1929-cu il) bəyənilən, SSRİ-nin V Sovetlər qurultayı (may 1929-cu il) tərəfindən qəti olaraq təsdiq olunan ilk beşillik planda kapital qoyuluşunun 78 faizi ağır sənaye üçün nəzərdə tutulurdu (12, s.195).

Xırda əmtəə istehsalına kapitalizmin bərpa olunması, sənayeləşdirmə üçün kapital yığımına mane olmaq vasitəsi kimi baxan hökumət çıxış yolunu xırda təsərrüfatlarının iri kollektivlərdə birləşdirilməsində görürdü. Partiyanın XV qurultayının qətnaməsində deyilirdi ki, xırda kəndli təsərrüfatlarının iri təsərrüfatlarda birləşdirilməsi indiki dövrdə partiyanın kənddə əsas vəzifələrindən biri kimi qarşıya qoyulmalıdır (10, s.299).

Sovet cəmiyyətinin yenilənmə yolları və metodları barəsində gedən qızğın diskussiyalar nəticəsində iki fərqli variant formalaşdı: buxarinçi və stalinçi N.İ.Buxarin və onun tərəfdarları sənaye və kənd təsərrüfatının balanslaşdırılmış inkişafını, kəndlilərin könüllülük prinsipi əsasında kooperasiyalarda birləşmələrini təklif edirdilər. Onların fikrincə, sənayenin inkişafı iqtisadiyyatın digər sahələrini kölgədə qoymamalı, əhalinin yaşayış səviyyəsini aşağı salmamalıdır. İqtisadi-texniki geriliyi aradan qaldırmaq məqsədi ilə lazım olan vəsaitin əldə olunması üçün xarici kapitaldan da istifadə olunmalı, xarici ticarət inkişaf etdirilməli, mülkiyyətin yeni iqtisadi siyasət dövründə mövcud olmuş formalarından, əmtəə-pul münasibətlərindən istifadə etmək lazımdır. Buradan toplanılmış vəsaiti ağır sənayeyə yönəltmək olardı. Buxarinin təklif etdiyi variant yeni iqtisadi siyasətin davam etdirilməsini, bazar iqtisadiyyatı əsasında aqrar və sənaye bölmələrinin inkişafını nəzərdə tuturdu. Buxarini RSFSR və SSRİ Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkov, Ümumittifaq Həmkarlar İttifaqı Şurasının sədri M.P.Tomski müdafiə edirdilər. SSRİ Əmək naziri N.A.Uqlanov da buxarinçi qrupu dəstəkləyirdi.

Buxarinçilərə qarşı çıxan stalinçi qrup belə hesab edirdi ki, paralel olaraq sənaye və kənd təsərrüfatının inkişaf etdirilməsi mümkün deyil, əsas diqqəti ağır sənayeyə yönəltməklə sənayeni inkişaf etdirmək lazımdır. Stalin bildirirdi ki, sənayenin sürətli inkişafı iqtisadiyyatın sənayecə qurulmasının açarıdır (15, s.358).

Stalin 1931-ci ilin fevralında sosialist sənayesi işçilərinin konfransında bildirmişdi ki, "biz qabaqcıl kapitalist ölkələrindən 50-100 il geri qalırıq, biz bu yolu 10 ilə keçməliyik. Biz ya bunu etməliyik, ya da bizi əzəcəklər" (16, s.39).

Stalin bir sıra hallarda qısa müddət ərzində həyata keçirilməsi əslində mümkün olmayan vəzifələri qarşıya qoyurdu. Belə ki,ikinci beşillikdə elektrik enerjisi istehsalı 100 milyard kVs-a,daş kömür istehsalı 250 milyon tona, neft hasilatı 80-90 milyon tona,taxıl istehsalı isə 130 milyon tona çatdırılmalı idi. Halbuki SSRİ bu göstəricilrə yalnız 1950-ci illərdə çata bildi (3, s.339).

Sürətləndirilmiş sənayeləşdirmə variantının tərəfdarları öz məqsədlərinə çatmaq üçün zorakılıqdan da istifadə edilməsini istisna etmirdi. Stalin deyirdi: "Repressiya sosializm quruculuğu sahəsində hücumun zəruri elementidir (15, s.309).

Repressiyanın getdikcə gücləndiyi bir şəraitdə sosial-iqtisadi inkişafla bağlı alternativ variantın irəli sürülməsi heç də asan məsələ deyildi. Partiya daxilində fikir müxtəlifliyinə düşmən münasibətin artmasını M.Tomskinin 1927-ci ilin dekabrında Leninqrad vilayət konfransında dediyi sözlər də təsdiq edir: "Proletariat diktaturası şəraitində iki ,üç, hətta dörd partiya ola bilər. Yalnız bir şərtlə:bir partiya hakimiyyətdə olacaq, bütün qalanları isə həbsdə. Kim bunu başa düşmürsə, o proletariat diktaturasının, bolşevik partiyasının nə demək olduğunu başa düşmür" (2, s.136).

Sürətləndirilmiş sənayeləşdirmənin yekunları və nəticələri. 1928-ci ildən SSRİ-Almaniya müharibəsinə qədərki dövdə SSRİ-də minlərlə sənaye müəssisəsi tikilib istifadəyə verildi,güclü sənaye mərkəzləri yarandı, sənayenin ağır maşınqayırma, dəzgahqayırma, energetika, kimya, neft kimyası, avtomobil və traktor sənayesi, təyyarə istehsalı, tankqayırma kimi yeni sahələri meydana gəldi.

SSRİ sənaye məhsullarının həcminə görə İngiltərə, Fransa və Almaniyanı qabaqlayaraq Avropada birinci, ABŞ-dan sonra dünyada ikinci yerə çıxdı. Texniki-iqtisadi gerilik aradan qaldırıldı, ölkənin iqtisadi müstəqilliyi təmin olundu, müdafiə potensialı gücləndirildi. Ölkənin müdafiəsi üçün ayrılan vəsaitin həcmi ilk beşillikdəki 5,4 faizdən ikinci beşillikdə 12,7 faizə,üçüncü beşillikdə isə 25,4 faizə qaldırıldı (4, s.273).

Sürətləndirilmiş sənayeləşdirmə dövründə kənd təsərrüfatının texniki bazasının möhkəmləndirilməsi istiqamətində də bir sıra işlər görüldü. Kənd təsərrüfatının texnika ilə təchiz olunması, kolxozlara xidmət işində maşın-traktor stansiyalarının (MTS) yaradılması əhəmiyyətli rol oynayırdı.

Sürətləndirilmiş sənayeləşdirmə dövründə işsizlik ləğv olundu, fəhlə sinfinin sayı artdı, yeni şəhərlər, fəhlə qəsəbələri meydana gəldi. Ümumi əhalinin tərkibində şəhər əhalisinin payı 1926-cı ildəki 17,9 faizdən (26,3 milyon) 1939-cu ildə 32,9 faizə (56,1milyon) yüksəldi (11, s.17).

Fəhlə sinfinin sayca artımının əsas mənbəyini kənddən gələnlər təşkil edirdi. Sürətləndirilmiş sənayeləşdirmə və zorakı kollektivləşdirmə miqrasiyanı genişləndirdi. İlk miqrasiya dalğası da kəndlilərin şəhərlərə kütləvi axını ilə bağlı idi. Kənddə həyat səviyyəsinin getdikcə aşağı düşməsi,onlara münasibətdə inzibati tədbirlərdən istifadə olunması,daha yaxşı yaşamaq imkanı əldə etmək kimi məsələlər kənddən şəhərə axına təsir göstərirdi.

İlk beşilliklərdə iqtisadiyyatın yenilənməsi sahəsində əldə olunmuş bir sıra ciddi uğurlar sıxıntılar, faciələr hesabına əldə olunmuşdu.Əsas diqqətin ağır sənayeyə yönəldilməsi nəticəsində iqtisadiyyat birtərəfli inkişaf etdi. İlk beşillikdə xalq təsərrüfatının inkişafı üçün ayrılmış 64,6 milyard rublun 30 milyard rublu sənaye və nəqliyyat üçün nəzərdə tutulmuşdu (8, s.116).

Ölkə iqtisadiyyatı ekstensiv yolla inkişaf edirdi. Ekstensiv inkişaf yüksək inflyasiya ilə müşayət olunurdu. İlk beşillikdə sənaye məhsullarının pərakəndə satış qiyməti 250-300 faiz artmışd, fəhlələrin alıcılıq qabiliyyəti 40 faiz aşağı düşmüşdü (5, s.139). 1940-cı ildə fəhlələrin real əmək haqqı 1928-ci il səviyyəsində idi (4, s.277).

Sürətləndirilmiş sənayeləşdirmə illərində partiya və sovet rəhbərləri, onların fəaliyyətini təbliğ edənlər daha yaxşı yaşayırdılar. Fransız yazıçısı Andre Jid 1930-cu illərin ortalarındakı sovet cəmiyyətini xarakterizə edərək qeyd edirdi ki, SSRİ-də fəhlələri birbaşa istismar edən kapitalist səhmdarları olmasa da, fəhlələri elə incə üsullarla istismar edirdilər ki,onlar bunu hiss etmirdilər və bilmirdilər ki, kimi seçsinlər, kimin tərəfində dursunlar (12, s.230-231).

Stalin ilk iki beşilliyin 4 il 3 ayda yerinə yetirildiyini elan etsə də bu, yalan idi, beşillik planların bəzi göstəriciləri əldə olunmamışdı, bu isə əhalidən gizlədilirdi. İlk beşillikdə elektrik enerjisi, kömür, çuqun, traktor, avtomobil istehsalı planları yerinə yetirilməmişdi. Belə bir vəziyyət ikinci beşillikdə də yaranmışdı (6, s.57).

Sürətləndirilmiş sənayeləşdirmə böyük vəsait tələb edirdi. Yığım mənbələri bunlar idi:

- aqrar sahənin gəlirlərinin (vergilər, taxılın ucuz qiymətə kəndlilərdən məcburetmə yolu ilə alınması və xarici bazara çıxarılması) sənayeləşdirməyə qoyulması;
- xarici ticarət üzərində monopoliyadan (taxıl, neft, meşə materialları, xəz, dəri, qızıl satışı) gələn gəlirlər;
- kənd varlılarının əmlakının müsadirə olunması;
- araq istehsalının genişləndirilməsi, şərab-çaxır məmulatlarının qiymətlərinin artırılması;
- sənayeləşdirmə istiqrazları;
- şəhər və kənd əhalisinin tələbatının məhdudlaşdırılması;
- xalqın əmək fədakarlığı;
- həbs düşərgələrində saxlanılan məhbusların əməyindən istifadə olunması və s.

İqtisadiyyatın yenilənməsi tədbirləri içərisində kənd təsərrüfatının kollektivləşdirilməsi məsələsi də var idi. Könüllülük prinsipinin pozulması, təzyiq, hədə-qorxu, repressiya yolu ilə həyata keçirilən küttləvi kollektivləşdirmə 1937-ci ildə başa çatdırıldı. Aparılan siyasət nəticəsində kənd təsərrüfatı ölkənin üzləşdiyi sosial-iqtisadi problemlərin həlli üçün lazım olan yığım mənbəyinə çevrildi, kəndlilərin sərbəst, dövlətin göstərişi olmadan təsərrüfatla məşğul olmaq istəyən hissəsi məhv edildi, kənd təsərrüfatında xüsusi sektor ləğv olundu. Uzun müddət pasport almayan, icazə almadan yaşayış yerini dəyişə bilməyən, sərbəstliyini itirən, torpağa təhkim olunan kolxozçular faktiki olaraq təhkimli kəndliyə çevrildilər. Stalinin şəxsən özünün də tərəfdarı olduğu sürətləndirilmiş sənayeləsdirmə dövründə əsas yığım mənbəyi məhz "daxili müstəmləkə"-kəndlilər oldu.

Sovet hakimiyyətinin kəndliyə münasibətdə həyata keçirtdiyi siyasəti Stalinin ÜİK(b)P MK-nın 1928-ci il 9 İyul plenumundakı çıxışından da görmək olar. Düzdür, Stalin öz cıxışında hakimiyyətin mövqeyini müdafiə etməyə, belə bir siyasətin tətbiq edilməsini sürətləndirilmiş sənayeləşdirmə üçün lazım olan vəsaitin əldə olunması zərurəti ilə əlaqələndirir. Lakin bu, kəndlinin istismar obyektinə çevrilməsini ört-basdır edə bilmir. Stalin plenumdakı çıxışında deyirdi ki, sənayeləsdirmə üçün lazım olan yığım mənbələri fəhlə və kəndlilərdir. Kəndlilər dövlətə yalnız adı vergiləri deyil, həm də

dolayı vergiləri ödəyir, belə ki, kəndli sənaye məhsullarını nisbətən yüksək qiymətə alır, kənd təsərrüfatı məhsullarını isə nisbətən aşağı qiymətə satır. Çıxışını davam etdirərək Stalin qeyd edirdi ki, bu, bütün ölkəyə xidmət edən sənayenin, o cümlədən kəndlilərin xeyrinə onlar üzərinə qoyulan əlavə vergidir. Bu, sanki "xərac", sanki artıq vergi kimidir, biz sənayenin indiki inkişaf sürətini saxlamaq və daha da inkişaf etdirmək, kəndin rifahını daha da yüksəltmək üçün bu əlavə vergini məcburən müvəqqəti olaraq tətbiq etməyi qərara aldıq (14, s.159-160).

Lakin dolayı vergilərin tətbiq olunması heç də müvəqqəti xarakter daşımadı və çox ağır nəticələrə səbəb oldu. Stalinin 1929-cu ildə çap olunmuş "Böyük dönüş " adlı məqaləsində qeyd olunurdu ki, kolxoz və sovxozlar sürətlə inkişaf edərsə, təxminən üç il sonra bizim ölkəmiz əsas taxılçılıq rayonlarından biri olacaq (2, s.163).

Lakin Stalinin dediyi sözlər öz təsdiqini tapmadı.1932-1933-cü illərdə imperiyanın əsas taxılçılıq rayonları olan Don, Şimali Qafqaz, Aşağı və Orta Volqaboyunda, Ural və Qazaxıstanda baş vermiş dəhşətli aclıq milyonlarla insanın məhv olması ilə nəticələndi. Aclıq hökumətin kənd əhalisinə münasibətdə yeritdiyi yanlış siyasətin,zorakılığın nəticəsi idi. Hökumət hətta aclıq dövründə belə xaricə taxıl satışını davam etdirirdi. Taxıl satışından əldə olunan gəlir isə sənayeləşdirməyə qoyulurdu. Bu isə onu göstərirdi ki, rejim iqtisadi problemləri həll etmək üçün öz vətəndaşlarına "vasitə" kimi baxırdı.

Əhalinin qənaət edib yığdığı pulun sənayeləşdirmə işinə cəlb edilməsində 1927-ci ildən buraxılan istiqrazlardan da istifadə olunurdu. İstiqrazların əhali tərəfindən alınması əslində məcburi xarakter daşıyırdı və həcmi ildən-ilə artırdı. Sənayeləşdirmə istiqrazları adlanan istiqrazların məbləği 1928-ci ildəki 500 milyon rubldan 1929/30-cu ildə 1,3milyard rubla çatmışdı (1, s.273).

Sürətləndirilmiş sənayeləşdirmə üçün yığım mənbələri içərisidə məhbus əməyindən istifadə də var idi. SSRİ-Almaniya müharibəsi ərəfəsində Baş Düşərgələr İdarəsinin (ГУЛАГ) tabeliyində olan düşərgələrdə 3 milyon 500 min məhbus var idi (7, s.44). Ucuz işçi qüvvəsi kimi məhbusların əməyindən faydalı qazıntıların hasilatında (kömur, qızıl, nikel, qalay), meşə işlərində, avtomobil və dəmir yollarının, su kanallarının çəkilməsində istifadə olunurdu. Kollektivləsdirmə illərində sürgün edilmiş kəndlilərin əməyindən isə yeni torpaqların mənimsənilməsində istifadə edilmişdi. Beləliklə,məhbus əməyi ilk beşilliklərdə nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsində öz rolunu oynamışdı.

Həbsxanalarda, həbs düşərgələrində elm və texnika sahəsində işləmiş mütəxəssislər də var idi. Baş Duşərgələr İdarəsi sistemində qapalı elmi-tədqiqat və konstruktor bürosu da fəaliyyət göstərirdi. Buraya cəlb olunmuş mütəxəssis məhbuslar müxtəlif layihələr, o cümlədən müdafiə sənayesi ilə bağlı layihələr üzərində işləyirdilər. Belə şəxslərdən biri də məşhur təyyarə konstruktoru A.N.Tupolev idi.

Nəticə. Sənayeləşdirmə dövründə yeni sənaye mərkəzləri yarandı, minlərlə sənaye müəssisəsi tikildi, işsizlik ləğv olundu, kənd təsərrüfatının texniki bazası gücləndirildi, kütləvi kollektivləşdirmə başa çatdırıldı.

Sürətləndirilmiş sənayeləşdirmə üçün lazım olan vəsait daxili imkanlar hesabına əldə olundu. Belə ki, xaricə neft, taxıl, qızıl, meşə materialları, muzeylərin qiymətli sərvətləri satılırdı, daxili istiqrazlardan istifadə olunurdu.

Sürətləndirilmiş sənayeləşdirmə dövrundə iqtisadiyyatda özəl bölmə ləğv olundu, əhalinin maddi-məişət şəraitində ciddi problemlər yarandı. Stalinin rəhbərlik etdiyi partiya-dövlət aparatı kütləvi repressiyalardan istifadə edərək ictimai həyatın butün sahələrini nəzarət altına aldı, ölkədə totalitar sistem formalaşdı.

ƏDƏBİYYAT

1. Berxin I.V. SSRİ tarixi. 1917-1937. / A.Atakişiyevin redaktəsi ilə. Bakı, "Maarif", 1977, 405 s.
2. Bəşirov Q.İ. Türk xalqları tarixi. XX əsrin I yarısı. Bakı, ADPU, 2022, 221 s.
3. Боффа Дж. История Советского Союза. Т.1. М.: "Международные отношения", 1994, 627 с.
4. Вдовин А.И. История великой державы. 1922-1991. М.: "Проспект", 2018, 480 с.
5. Верт Н. История Советского государства. 1900-1991. М.: "Прогресс", 1992, 480 с. /пер. с франц.
6. Гордон Л.А., Клопов Э.В. Что это было?: размышления о предпосылках и итогах того, что случилось с нами в 30-40-е годы. М.: "Политиздат", 1989, 319 с.

7. ГУЛАГ: Экономика принудительного труда. М.: 2008, 318 с.
8. История Башкортостана XX в. /под ред.М.Б.Ямалова, Р.З.Алмаева. Уфа, БГПУ, 2007, 308 с.
9. КПСС в резолюциях и решениях съездов, конференций и пленумов ЦК. Т.3. (1922-1925). М.: "Политиздат", 1984, 496 с.
10. КПСС в резолюциях и решениях съездов,конференций и пленумов ЦК. Т.4 (1926-1929). М.: "Политиздат", 1984, 576 с.
11. Народное хозяйство СССР в 1956 г. Стат.сб. М.: "Статистика", 1956, 262 с.
12. Поцелуев В.А. История России XX столетия. М.: "Владос", 1997, 512 с.
13. Сталин И.В. Сочинения. Т.8. М.: "Политиздат", 1948, 380 с.
14. Сталин И.В. Сочинения. Т.11. М.: "Политиздат", 1949, 359 с.
15. Сталин И.В. Сочинения. Т.12. М.: "Политиздат", 1947, 349 с.
16. Сталин И.В. Сочинения. Т.13. М.: "Политиздат", 1949, 381 с.
17. Труд в СССР. Стат.сб. М.: "Статистика", 1968, 250 с.
18. Хоскинг Дж. История Советского Союза.1917-1991. /перевод с анг. М.: "Вагриус", 1994, 510 с.

ГАБИЛ БАШИРОВ
доктор философии по истории, доцент кафедры всеобщей истории и технологии преподавания истории историко-географического факультета Азербайджанского государственного педагогического университета

АФАГ ПИРИЕВА
доктор философии по истории, доцент кафедры всеобщей истории и технологии преподавания истории историко-географического факультета Азербайджанского государственного педагогического университета

ИТОГИ И ПОСЛЕДСТВИЯ УСКОРЕННОЙ СТАЛИНСКОЙ ИНДУСТРАЛИЗАЦИИ В СОВЕТСКОЙ ИМПЕРИИ (1928-1940 ГГ.)

В статье рассматривается, как государство, вошедшее в 1922 году на политическую карту мира под названием Союз Советских Социалистических Республик, во второй половине 1920-х годов столкнулось с проблемой определения путей и средств перестройки экономической жизни. Анализируются острые внутрипартийные дискуссии по этому вопросу, принятие плана ускоренной индустриализации с приоритетом тяжёлой промышленности под давлением Сталина, а также укрепление его позиций.

В работе отмечаются меры периода ускоренной индустриализации, позволившие преодолеть экономико-техническую отсталость страны, обеспечить экономическую независимость, укрепить обороноспособность и материально-техническую базу сельского хозяйства. Также показаны источники получения средств, необходимых для индустриализации.

На основе конкретных фактов в статье демонстрируется, что достижения в народном хозяйстве до войны СССР с Германией были достигнуты ценой больших потерь, лишений и трагических событий. Отмечается, что материальное положение населения было далеко не благополучным: в результате страшного голода начала 1930-х годов погибли миллионы людей. Ускоренная индустриализация усилила миграцию из села в города, что ещё больше обострило жилищную проблему. Сократилось число занятых в сельском хозяйстве, а для решения экономических задач также использовался труд заключённых.

Актуальность темы. Одним из наиболее противоречивых, сложных и неоднозначных периодов в истории Советской империи являются первые пятилетние планы, включающие курс на ускоренную индустриализацию. Отношение к итогам и результатам сталинской индустриализации остаётся различным и в настоящее время. Продолжение исследования данной проблемы способствует выявлению реалий того периода и лучшему пониманию сущности проблем, с которыми столкнулось советское общество.

Научная новизна проблемы. В ходе исследования использованы первоисточники и современные исследования, проведён сравнительный анализ фактов, предпринята попытка дать объективную оценку итогам и результатам ускоренной индустриализации.

Научная значимость статьи. Материалы исследования могут быть использованы при изучении истории ускоренной индустриализации.

Ключевые слова: Советская империя, индустриализация, коллективизация, партия, репрессии.

QABIL BASHIROV
PhD in History, Associate Professor at the Department of General History and History Teaching Technologies, Faculty of History and Geography, Azerbaijan State Pedagogical University

AFAQ PIRIYEVA
PhD in History, Associate Professor at the Department of General History and History Teaching Technologies, Faculty of History and Geography, Azerbaijan State Pedagogical University

THE RESULT AND CONSEQUENCES OF ACCELERATED STALINIST INDUSTRIALIZATION IN THE SOVIET EMPIRE (1928-1940)

The article examines how the state that entered the world political map in 1922 under the name of the Union of Soviet Socialist Republics faced the problem of determining the ways and means of restructuring economic life in the second half of the 1920s. It also studies the intense debates within the party on this issue, the adoption of a plan for accelerated industrialization with a focus on heavy industry under Stalin's pressure, and the strengthening of Stalin's position.

The work highlights measures taken during the period of accelerated industrialization that made it possible to eliminate the empire's economic and technical backwardness, ensure economic independence, strengthen defense capability, and reinforce the material and technical base of agriculture. It also outlines the sources of funding required for industrialization.

Based on concrete facts, the article shows that the achievements in the national economy before the USSR–Germany war were gained at the cost of great losses, hardships, and tragic events. It is noted that the population's material well-being was far from satisfactory. The terrible famine of the early 1930s led to the deaths of millions. Accelerated industrialization intensified migration from rural areas to cities, which further worsened the housing problem in urban areas. The number of people employed in agriculture decreased, and prison labor was also used to address economic problems.

Relevance of the Topic. One of the most controversial, complex, and contradictory periods in the history of the Soviet Empire is the era of the first Five-Year Plans, which included the policy of accelerated industrialization. Even today, there are differing views on the results and outcomes of accelerated Stalinist industrialization. Continued research on this issue helps to reveal the realities of that period and to better understand the nature of the problems faced by Soviet society.

Scientific Novelty of the Problem. In the course of the research, primary sources and recent studies were used, and a comparative analysis of facts was conducted. An attempt has been made to provide an objective assessment of the outcomes and results of accelerated industrialization.

Scientific Significance of the Article. The materials of the study can be used in the investigation of the history of accelerated industrialization.

Keywords: Soviet empire, industrialization, collectivization, party, repression.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 avqust 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Sevinc Seyidova, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24); UOT 94

BƏXTİYAR ƏHMƏDOV
Tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi
emlak2017@mail.ru

KEÇMİŞ ERMƏNİSTAN SSR-İN AŞAĞI QARANLIQ (MARTUNİ) RAYONUNUN İNZİBATİ ƏRAZİ BÖLGÜSÜ (1930-1988-Cİ İLLƏR)

DOI: https://doi.org/10.36719/2708-065X/114/117-126

Martuni rayonu 9 sentyabr 1930-cu ildə inzibati rayon kimi təşkil edilmişdir. Rayon Yeni Bəyazid rayonunun kəndlərindən yaradılmışdır. Rayon mərkəzi Martuni 1930-cu ilə qədər Aşağı Qaranlıq adlanırdı. Martuni rayonu, rayon mərkəzi də daxil olmaqla 16 kənd soveti və 19 kənddən ibarətdir.

Açar sözlər: Martuni, Aşağı Qaranlıq, Yeni Bəyazid, Qeqarkunik, Atdaşı, kənd.

Giriş. 1849-cu il iyunun 9-da Rusiya çarı II Nikolayın fərmanı ilə İrəvan quberniyası yaradıldı. 1850-ci il yanvarın 1-dən qüvvəyə minən həmin fərmanla İrəvan quberniyası 5 qəzaya – İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Yeni Bəyazid qəzalarına bölünürdü. Elə həmin tarixdən etibarən İrəvan quberniyası tərkibində təşkil olunan qəzalardan biri də Yeni Bəyazid qəzası idi ki, Göyçə mahalı bütövlükdə bu qəzanın tərkibinə daxil idi. Buraya sonralar Hrazdan, Sevan, Yeni Bəyazid, Martuni, Vardenis adlandırılmış rayonların, Kotayk rayonu Qırxbulaq bölgəsinin azərbaycanlılar yaşayan kəndləri, habelə Krasnoselsk rayonunun Göyçə gölü ətrafı əraziləri daxil idi. Yeni Bəyazid qəzası (4239 kv verst) ərazisinə görə quberniyanın ən böyük qəzası idi. Göyçə gölü ilə birlikdə ərazisi İrəvan və Şərur-Dərələyəz qəzalarının ərazisindən böyük olmuşdur. Qəza inzibati cəhətdən 4 sahəyə – nahiyəyə bölünürdü: I Dərəçiçək, II Göyçə, III Gözəldərə, IV Məzrə.

Göyçə nahiyəsi 3 kənd icmasından ibarət idi: Ağzıbir kənd icmasına Ağzıbir, Ağqala, Əyriyəng, Bığlı Hüseyn Saraclı, Qışlaq, Güləli, Noradüz, Ördəkli, Rəhmankənd (Əfəndikənd), Hacı Muxan (Hacı Avdi) kəndləri, Gölkənd kənd icmasına Yuxarı Adyaman. Aşağı Adyaman, Atamxan, Gölkənd, Vəliağalı, Təzəkənd, Çakarkar (Dəlikdaş), Eranos kəndləri, Dəliqardaş kənd icmasına Başkənd (Göyçə), Dəliqardaş, Kosaməmməd, Küzəcik, Kərimkənd, Paşakənd (Məmmədağalı) kəndləri daxil idi [11, s.28].

SSRİ-nin 1926-cı il yanvarın 1-ə olan inzibati ərazi bölgüsündə ZSFSR-in tərkibinə daxil olan Ermənistan SSR-nin inzibati cəhətdən 8 qəzadan, 936 nahiyədən və 827 kənd sovetindən ibarət olduğu bildirilirdi [12, s.21]. Həmin qəzalardan biri də Göyçə gölü hövzəsini əhatə edən Yeni Bəyazid qəzası idi.

XX əsrin 20-ci illərinin sonunda Cənubi Qafqazda inzibati-ərazi bölgüsü baxımından dəyişikliklər aparıldı və rayonlaşdırma sistemi həyata keçirildi. Həmin dəyişikliklərin gedişində qəzaların ləğv edilməsi lazım bilindi və rayonlaşdırmanın əsasında üç dərəcəli bölgü – dairə, rayon, kənd sovetləri yaradıldı [3, s. 39].

1930-cu ildə "İrəvan quberniyası" inzibati bölgüsü ləğv olundu. Ermənistan SSR-nin ərazisində 5 dairə təşkil olundu: Zəngəzur, Leninakan, Lori, Sevan və Yerevan. Göyçə gölü hövzəsinə daxil olan torpaqlar Sevan dairəsinin tərkibinə daxil idi. Bu ərazilərdə 3 rayon – Basarkeçər, Yeni Bəyazid (Kamo) və Martuni rayonları yaradıldı [3, s. 40].

Aşağı Qaranlıq (Martuni) rayonu Göyçə gölünün cənub-qərbindəki əraziləri əhatə edirdi. O Yeni Bəyazid (Kamo) və Basarkeçər (Vardenis) rayonları ilə həmsərhəd idi. Sahəsi 1 185 kv km olan bu rayonda 1981-ci il məlumatlarına görə 71 727 nəfər əhali yaşayırdı. Martuni rayonun adı əvvəl Yeni Bəyazid qəzasına daxil olan Aşağı Qaranlıq kəndinin adı idi və ancaq 1926-cı ildən etibarən belə adlandırılmışdı [4, s.301-302]. Martuni adı Aleksandr Fyodoroviç Myasnikyan adlı er-

məni sovet inqilabçısının təxəllüsü olan "Martuni" adından götürülmüşdür [8, s.180].

Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) Aşağı Qaranlıq rayonunda 1918-1987-ci illərdə adları çəkilən kəndlər – Aşağı Alçalı, Çamırlı, Xartlıq, Siçanlı, Yanıx, Yuxarı Alçalı yaşayış məskənləri ləğv olunmuşdur [5, s. 44-54].

1948-1953-cü illərdə Martuni (Aşağı Qaranlıq) rayonunun Karvansara, Mollalı, Mədinə, Qızılxaraba, Aşağı Alçalı (Artsvanist – 1968), Qaranlıq (Geğhovit – 1968) kəndlərinin azərbaycanlı əhalisi deportasiya edilmişdir [1, s. 218].

Ümumiyyətlə, 1948-1953-cü illərin deportasiyası dövründə Göyçə mahalını əhatə edən «Sevan», Kamo və Martuni rayonları ərazisində türk kəndləri birmənalı şəkildə ləğv edildi, hər üç rayon etnik tərkib etibarı ilə «saflaşdırıldı». Belə ki, Kamo (əvvəlki Kəvər) rayonunun Ağqala kəndinin 587, Ağzıbir kəndinin 1351, Başkənd kəndinin 941, Kuzəcik kəndinin 634, Hacı Muğan kəndinin 244, Martuni rayonunun (əvvəlki Aşağı Qaranlıq) Karvansara kəndinin 938, Mollalı kəndinin 439, Mədinə kəndinin 197, Qızılxaraba kəndinin 345, Aşağı Alçalı kəndinin 174, Aşağı Qaranlıq kəndinin 423, Yanıx kəndinin 181, Sevan rayonunun Ördəkli kəndinin 186, Əfəndi kəndinin 86, Çubuxlu kəndinin 37 nəfər türk əhalisinə qarşı həyata keçirilən deportasiya tədbirlərindən sonra bu rayonlarda türk izi silinmiş oldu.

1948-ci ildə nəşr olunmuş Ermənistan SSR-nin inzibati ərazi bölgüsünə görə Martuni rayonu 1930-cu il sentyabrın 9-da təşkil olunmuş, ərazisi 1185 kv.km təşkil etmişdir [6, s.64]. 20 kənd sovetində 25 yaşayış məntəqəsi olmuşdur [3, s. 132].

Kənd sovetləri və kəndlər aşağıdakılardır: Adamxan (Adamxan kəndi), Astxadzor (Astxadzor kəndi), Vaqaşen (Vaqaşen kəndi), Vardenik (Vardenik kəndi), Verin (Yuxarı) Alçalı (Verin (Yuxarı) Alçalı kəndi), Verin (Yuxarı) Getaşen (Verin (Yuxarı) Getaşen kəndi), Gözəldərə (Gözəldərə kəndi), Dzoragyuğ (Dzoragyuğ kəndi), Eranos (Heyranıs) (Eranos (Heyranıs) kəndi), Zolakar (Zolakar kəndi), Karadzi (Karadzi (Atdaşı) kəndi), Qaranlıq (Qaranlıq kəndi, Yanıx kəndi), Liçk (Liçk (Göl) kəndi), Mədinə (Mədinə kəndi, Lernakert kəndi (Kəsikbaş), Karvansara kəndi), Martuni (Martuni kəndi), Nerkin (Aşağı) Alçalı (Nerkin (Aşağı) Alçalı kəndi, Karmraşen (Karmirxarab) kəndi), Nerkin (Aşağı) Getaşen (Nerkin (Aşağı) Getaşen), Təzəguğ (Təzəguğ (Təzəkənd) kəndi), Tsakkar (Tsakkar kəndi), Tsovinar (Tsovinar kəndi).

1988-ci ildə nəşr olunmuş Ermənistan SSR-nin inzibati ərazi bölgüsünə görə Martuni rayonu 1930-cu il sentyabrın 9-da yaranmış və 1967-ci ildə yenidən təşkil olunmuşdur. Ərazisi 1185 kv.km təşkil etmişdir [6, s. 64]. 20 kənd sovetində 25 yaşayış məntəqəsi olmuşdur [3, s. 132].

Martuni rayonu 1 şəhərtipli qəsəbədən, 16 kənd sovetindən və 19 yaşayış məntəqəsindən ibarət olmuşdur. əhalisinin sayı – 67,8 min, o cümlədən: şəhər – 11,6, kənd – 56,2 min nəfərdən ibarət olmuşdur [7, s.141].

Kənd sovetləri və kəndlər aşağıdakılardır: Artsvanist (Artsvanist), Astxadzor (Astqadzor), Vaqaşen (Vaqaşen), Vardenik (Vardenik), Vardadzor (Vardadzor), Verin Getaşen (Verin (Yuxarı) Getaşen), Qexovit (Gehovit kəndi, Lernakert kəndi, Yanıx kəndi), Dzoragyuğ (Dzoragyuğ), Eranos (Eranos kəndi), Zolakar (Zolakar kəndi), Liçk (Liçk kəndi), (Mədinə), (Mədinə kəndi), Nerkin (Aşağı) Getaşen (Nerkin (Aşağı) Getaşen kəndi), Tazagyuğ (Tazagyuğ kəndi), Tsakkar (Tsakkar kəndi), Tsovinar (Tsovinar kəndi).

Ümumiyyətlə, Aşağı Qaranlıq (Martuni) rayonuna daxil olmuş və sonradan dağıdılıb xarabalığa çevrilmiş yaşayış məntəqələri barədə ətraflı məlumat verilir.

Abdalağalı – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 75 km şimal-şərqdə, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində Avdalağalu formasında qeyd edilir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [9, s.1]. Ermənilərlə yanaşı, 1897-ci ildə 10 nəfər azərbaycanlı yaşamışdır. XX əsrin əvvəllərində ermənilərin təzyiqi nəticəsində azərbaycanlılar kəndi tərk etmişlər. Toponim türk mənşəli «abdal» etnoniminə əsaslanan Abdalağalı tayfasının adından yaranmışdır. Ermənistan SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilib «Vağaşen» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayə-

tinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°08' şm.e., 45°19' ş.u. [2, s. 20].

Adamxan – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 26 km cənub-şərqdə, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Kəndin digər adı Atamxan olmuşdur. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [9, s. 22]. 1828-ci ilə qədər burada azərbaycanlılar yaşamışdır. 1828-1829-cu və 1877-1878-ci illərdə Türkiyənin Ələşkirt vilayətinin kəndlərindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmiş [13, s. 595-598]. və azərbaycanlılar deportasiya olunmuşdur. Toponim şəxs adı əsasında əmələ gəlmişdir. Ermənistan SSR AS RH-nin 3 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilib «Vardadzor» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°11' şm. e., 45°11' ş. u. [2, s. 21].

Ağqıraq – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda kənd. Martuni şəhərindən 55,5 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 2030 m hündürlükdə yerləşir. Kəndin qədim adı Ağqıraq olsa da, sonralar erməni müəlliflərinin əsərlərində Əliqırıq, Əliqrağı, Əliqraq kəndi kimi sabitləşdirilmişdir. XX əsrin ortalarında kənd Əliqırıx da adlandırılmısdır. Qafqazın 5 verstlik xəritəsində Əlikrıx kimi qeyd edilmişdir [9, s.12]. 1897-ci ildə burada ermənilərdən başqa 3 nəfər azərbaycanlı yaşamışdır. Sonradan onlar da kənddən deportasiya edilmişdir.

1828-ci ilə kimi burada yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra – 1829-30-cu illərdə ermənilər Ağqıraq kəndinə Türkiyənin Ələşkirt və Van bölgəsindən köçürülüb yerləşdirilmiş, azərbaycanlılar isə deportasiya olunmuşdur. Kəndin ərazisində türklərlə bağlı VIII-IX əsrlərə aid tarixi abidələr vardır. Toponim qədim türk dilində «kiçik, balaca», ərazicə çox da geniş olmayan mənasında işlənən «ağ» sözü ilə, sahil mənasında işlənən «qıraq» sözü əsasında formalaşmışdır. Ermənistan SSR AS RH-nin 3 noyabr 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Astğadzor» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°07' şm. e., 45°21' ş. u. [2, s.28].

Aşağı Adyaman – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 34 km cənub-qərbdə, Adyaman çayının yanında, dəniz səviyyəsindən 1960 m hündürlükdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə, Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Adyaman kəndindən köçənlər yeni yaşayış yerlərinə «Aşağı Adyaman» adı qoymuşlar. 1897-ci ildə burada 13 nəfər azərbaycanlı yaşamışdır. Ermənilər buraya 1828-1829-cu illərdə Türkiyənin Ələşkirt bölgəsindəki Topraqqala kəndindən və Muş vilayətindən köçürülmüşdür. Ermənistan SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Nerkin Getaşen» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°08' şm. e., 45°15' ş. u. [2 , s.42].

Aşağı Alçalı – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayəti ərazisində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 53 km cənub-şərqdə, Göyçə gölündən 2 km aralıda, Alçalı çayının yanında, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [9, s. 14]. XIX əsrin 20-ci illərinə qədər burada azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsindən sonra, 1829-1830-cu illərdə Türkiyənin Ələşkirt bölgəsindən köçürülüb gətirilən ermənilər burada yerləşdirilmişdir. Azərbaycanlılar həmin vaxtdan kənddən qovulmuşdur. Toponim fərqləndirici əlamət bildirən «aşağı» sözü ilə Azərbaycan dilində mənsubluq bildirən «-lı» şəkilçisi qəbul etmiş «alça» bitki adının birləşməsindən əmələ gəlmişdir. Ermənistan SSR AS RH-nin 27 sentyabr 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Ardzvanist» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayə-

tinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°09' şm. e., 45°30' ş. u. [2, s. 43].

Aşağı Gözəldərə – İrəvan quberniyasında Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 46 km cənub-şərqdə, Gözəldərə çayının sahilində, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. 1828-ci ilə qədər burada yalnız azərbaycanlılar yaşamışdır. Ermənilər buraya Türkmənçay müqaviləsindən sonra, 1828-1829-cu illərdə Türkiyənin Ələşkirt və Muş vilayətlərinin kəndlərindən köçürülüb yerləşdirilmişdir. 1897-ci ildə kənddə ermənilərlə yanaşı, 108 nəfər azərbaycanlı yaşamışdır. XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə ermənilərin təcavüzünə məruz qalan azərbaycanlılar deportasiya olunmuşdur. Hazırda orada ermənilər yaşayır. Toponim fərqləndirici əlamət bildirən «aşağı» sözü ilə «gözəl» və «dərə» sözünün birləşməsindən əmələ gəlmişdir. Ermənistan SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Vardenik» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°07' şm. e., 45°26' ş. u. [2, s. 45].

Aşağı Qaranlıq – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, indiki Ermənistan ərazisində rayon və rayon mərkəzi olmuşdur. İndi Qeqarkunik vilayətində şəhər. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 36 km cənub-şərqdə, İrəvandan 130 km məsafədə, Göyçə gölünün cənubunda, dəniz səviyyəsindən 1930 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. 1939-cu il sentyabrın 9-da rayon kimi yaradılmışdır. Toponim Azərbaycan dilində məkan mənası bildirən «-lıq» şəkilçisi qəbul etmiş, türk dilində «təpə», «qaya» mənasında işlənən «qara» sözü əsasında əmələ gəlib «təpəlik, dağlıq, qayalıq yer» mənasını bildirir. «Qara» sözü ilə «-lıq» şəkilçisi arasındakı «n» bitişdirici samit funksiyasını yerinə yetirir. Kənd, doğrudan da, qayalıq, dağlıq bir yerdə yerləşib və hər tərəf təpəlikdən, dağlıqdan ibarətdir. Kəndin relyefi adına uyğun gəlir. Toponimdəki «aşağı» sözü fərqləndirici əlamət bildirir. Yaşayış məntəqəsinin adı 1926-cı ildə dəyişdirilərək «Martuni» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°08' şm. e., 45°18' ş. u. [2, s.48].

Dəlikdaş – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 29 km cənub-şərqdə, Dəlikdaş çayının yanında, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1960 m hündürlükdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə, Qafqazın 5 verstlik xəritəsində [9, s.74] qeyd edilmişdir. Erməni ədəbiyyatında kəndin 1828-ci ildə salındığı göstərilir. Əslində, erməni tədqiqatçıları tarixi həqiqəti saxtalaşdırmışlar. Çünki 1728-ci il tarixində tərtib edilmiş «İrəvan əyalətinin icmal dəftəri»ndə Göyçə nahiyəsinin kəndlərindən birinin – Dəlikdaş kəndinin olduğu qeyd edilir. İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra ermənilər Türkiyənin Muş və Ələşkirt bölgələrindən gələrək kənddə yerləşmişlər. Toponim «dərin, dar çuxur», «mağara» mənalarında işlənən «dəlik» sözü ilə Azərbaycan dilində «dağ, qaya» mənasında işlənən «daş» sözünün birləşməsindən əmələ gəlmişdir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Kəndin adı hərfi tərcümə edilərək 1920-ci ildə «Tsaxkar» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°10' şm. e., 45°11' ş. u. [2, s.97].

Gölkənd – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 30 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1940 m hündürlükdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə, Qafqazın 5 verstlik xəritəsində [9, s. 59] qeyd edilmişdir. Erməni müəlliflərinin əsərlərində sonradan Gölkənd oykonimindəki «kənd» coğrafi nomeni ixtisar edilərək, «Göl» formasında qeyd edilmişdir.

Kənddə tarixən azərbaycanlılar yaşamışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra – 1829-1830-cu illərdə Türkiyənin Əlşkirt və Muş vilayətlərindən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmiş və azərbaycanlılar sıxışdırılmışdır. Burada ermənilərlə yanaşı, 1897-ci ildə 23 nəfər azərbaycanlı yaşamışdır. 1905-1906-cı illərdə baş verən erməni-azərbaycanlı münaqişəsi nəticəsində azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya olunmuşdur. Hazırda burada ermənilər yaşayır. Toponim Azərbaycan dilində «dənizlə bilavasitə əlaqəsi olmayan təbii su hövzəsi» mənasında işlənən «göl» sözü ilə «kənd» sözünün birləşməsindən əmələ gəlmişdir. Kəndin adı Ermənistan SSR AS RH-nin 26 aprel 1946-cı il tarixli qərarı ilə erməni dilinə kalka edilərək «Liçk» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°09' şm. e., 45°14' ş. u. [2, s.123].

Kəsikbaş – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Mədinə kəndinin yanında, Aşağı Qaranlıq kəndindən 4 km cənub-qərbdə, dəniz səviyyəsindən 2125 m hündürlükdə yerləşir. Kəndin azərbaycanlı əhalisi ermənilərin İran və Türkiyədən köçürülüb məskunlaşdırılmasından sonra yer-yurdlarını tədricən tərk etmişdir. Toponim kəsikbaş tayfasının adı əsasında əmələ gələn etnotoponimdir. Ermənistan SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Lernakert» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°06' şm. e., 45°17'0» ş. u. [2, s.167].

Kolagirən – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 50 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Erməni müəlliflərinin əsərlərində kəndin adı «Kolaqran», «Aşağı Kolagirən», «Kolanı qırılan» formalarında, Qafqazın 5 verstlik xəritəsində «Kyolanı qran» formasında [9, s. 128] qeyd edilmişdir. Ermənilər kəndə 1828-1830-cu illərdə Türkiyədən köçürülmüşlər. Kənddə 1897-ci ildə ermənilərlə yanaşı, 88 nəfər azərbaycanlı yaşamışdır. 1905-1906-cı illərdə erməni silahlı dəstələrinin törətdikləri qırğınlar nəticəsində azərbaycanlılar kənddən qovulmuşlar. Hazırda kənddə ermənilər yaşayır. Toponim «kolagirən» türk etnonimi əsasında formalaşmışdır. Ermənistan SSR AS RH-nin 3 yanvar 1935-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Tsovinar» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°09' şm. e., 45°27' ş. u. [2, s.172].

Qaranlıq – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 37 km cənub-şərqdə, dəniz səviyyəsindən 2060 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [9, s. 118]. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, Türkmənçay müqaviləsinə (1828) əsasən, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Toponim «dağ, təpə» mənasında işlənən «qara» sözünə məkan anlayışı bildirən «-lıq» şəkilçisinin birləşməsindən əmələ gəlmişdir. Orotoponimdir. Quruluşca düzəltmə toponimdir. Erm. SSR AS RH-nin 5 iyul 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Qeğhovit» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°06' şm. e., 45°17' ş. u. [2, s.192].

Mədinə – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 42 km cənub-şərqdə, Əyriçayın yanında, dəniz səviyyəsindən 2175 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [9, s. 164]. Kənddə 1873-cü ildə 208, 1886-cı ildə 296, 1897-ci ildə 346, 1908-ci ildə 429, 1914-cü ildə 752, 1916-cı ildə 736 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin təcavüzünə məruz qalmış və qırğınlar qovulmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan kənd sakin-

ləri geri qayıda bilmişlər. Burada 1922-ci ildə 85 nəfər azərbaycanlı yaşamış, 1923-1924-cü illərdə kəndə ermənilər köçürülmüşdür. 1926-cı ildə ermənilərdən başqa, kənddə 61 nəfər azərbaycanlı yaşamışdır. Kəndin yerli sakinləri olan azərbaycanlılar 1930-cu illərdə sıxışdırılaraq tarixi-etnik torpaqlarından deportasiya olunmuş və Türkiyə və İrandan gələn ermənilər kəndə yerləşdirilmişdir. Hazırda burada ermənilər yaşayır. Toponim ərəb dilində "şəhər" mənasında işlənən "mədinə" sözü əsasında əmələ gəlmişdir. Hazırda erməni dilində olan rəsmi sənədlərdə yaşayış məntəqəsinin adı "Madina" kimi yazılır. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°04' şm. e., 45°15' ş. u. [2, s.218].

Vəliağalı – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 28 km cənub-şərqdə, Göyçə gölünün yaxınlığında, dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [9, s. 48]. 1828-ci ilə kimi kənddə yalnız azərbaycanlılar yaşamışdır. Türkmənçay müqaviləsi ilə bağlı 1828-1829-cu illərdə Türkiyədən köçürülən ermənilər kənddə yerləşdirilib. Burada 1897-ci ildə ermənilərlə yanaşı, 41 azərbaycanlı yaşamışdır. 1905-1906-cı illərdə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim "Vəliağa" şəxs adına mənsubluq bildirən "-lı" şəkilçisinin artırılması əsasında formalaşan "vəliağalı" nəsil adından əmələ gəlmişdir. Kəndin adı 1920-ci ildə dəyişdirilərək "Dzoragyuğ" qoyulmuşdur. "Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında" 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°10' şm. e., 45°11' ş. u. [2, s.281].

Yanıx – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Martuni yaşayış məntəqəsindən 13 km şimal-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 2275 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [9, s. 306]. Kənddə 1873-cü ildə 194, 1886-cı ildə 245, 1897-ci ildə 303, 1908-ci ildə 360, 1914-cü ildə 730, 1916-cı ildə 423 nəfər azərbaycanlı yaşamışdır. 1919-cu ildə azərbaycanlılar erməni silahlı birləşmələri tərəfindən törədilən qırğınlar nəticəsində kənddən qovulmuşlar. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra sağ qalan azərbaycanlılar doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 66 nəfər azərbaycanlı, 1926-cı ildə 37 nəfər azərbaycanlı, 163 erməni yaşamışdır. Ermənilər kəndə 1922-1925-ci illərdə köçürülmüşdür. 1929-1930-cu illərdə azərbaycanlılar deportasiya olunmuş, kənddə yalnız ermənilər qalmışdır. Toponim Azərbaycan dilində «yanmış, susuz, quru yer» mənasında işlənən «yanıq» sözü əsasında əmələ gəlmişdir. Ermənistan parlamentinin 4 iyul 2006-cı il qərarı ilə kəndin adı dəyişdirilərək «Nşxark» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°00' şm. e., 45°14' ş. u. [2, s.283].

Yuxarı Adyaman – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qavar (Kəvər) şəhərindən 35 km cənub-şərqdə, Göyçə gölünün sahilində, dəniz səviyyəsindən 1980 m hündürlükdə yerləşir. «İrəvan əyalətinin icmal dəftəri»ndə, Qafqazın 5 verstlik xəritəsində [9, s. 7] qeyd edilmişdir. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali kəndi tədricən tərk etmişdir. Kənddə 1897-ci ildə ermənilərdən başqa, 12 nəfər azərbaycanlı yaşamışdır. XX əsrin əvvəllərində azərbaycanlılar erməni silahlıları tərəfindən deportasiya edilmişdir. Kənddə hazırda yalnız ermənilər yaşayır. Ermənilər kəndə 1828-1829-cu illərdə Türkiyənin Ələşkirt bölgəsindən köçürülmüşdür. Erm. SSR AS RH-nin 7 dekabr 1945-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Verin Getaşen» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°07' şm. e., 45°14' ş. u. [2, s.288].

Yuxarı Alçalı – İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq

(Martuni) rayonunda, indi Qeqarkunik vilayətində kənd. Vilayət mərkəzi Qa var (Kəvər) şəhərindən 53 km cənub-şərqdə, Göyçə gölünün sahilində, Alçalı çayının yanında, dəniz səviyyəsindən 1950 m hündürlükdə yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [9, s. 14]. Kənddə 1831-ci ildə 99, 1873-cü ildə 371, 1886-cı ildə 505, 1897-ci ildə 701, 1908-ci ildə 838, 1914-cü ildə 921, 1916-cı ildə 815 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə kəndin sakinləri erməni silahlıları tərəfindən törədilən qırğınlar nəticəsində qovulmuş, İran və Türkiyədən köçürülüb gətirilən ermənilər kənddə yerləşdirilmişdir. İndiki Ermənistan ərazisində sovet hakimiyyəti qurulandan sonra kənd sakinlərindən sağ qalanlar öz doğma kəndlərinə qayıda bilmişlər. 1922-ci ildə kənddə 134 nəfər azərbaycanlı, 88 erməni, 1926-cı ildə 142 nəfər azərbaycanlı, 252 erməni, 1931-ci ildə 205 nəfər azərbaycanlı, 511 erməni yaşamışdır. SSRİ Nazirlər Sovetinin «Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Hazırda kənddə yalnız ermənilər yaşayır. Toponim «alça» bitki adına «-lı» şəkilçisinin qoşulması əsasında əmələ gəlmişdir. «Yuxarı» sözü fərqləndirici əlamət bildirir. Fitotoponimdir. 1950-ci ildə Aşağı Alçalı ilə Yuxarı Alçalı kəndləri birləşdirilərək «Alçalı» kəndi adlandırılmışdır. Ermənistan SSR AS RH-nin 27 sentyabr 1968-ci il tarixli qərarı ilə kəndin adı dəyişdirilərək «Ardzvanist» qoyulmuşdur. «Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında» 7 noyabr 1995-ci il tarixli yeni Qanuna əsasən, Qeqarkunik vilayətinin inzibati ərazisinə daxil edilmişdir.

Coğrafi koordinatları: 40°09' şm. e., 45°30' ş. u. [2, s.289].

Artdaş – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indiki Qeqarkunik ərazisində mövcud olmuşdur. Kənd 1950-ci ildə ləğv edilmişdir. Toponim türk dilində «dağlıq, dağ keçidi» mənasında işlənən «art» sözü ilə «dağ, qaya» mənasında işlənən «daş» sözü əsasında yaranmışdır [2, s.310].

Aşağı Əliqırıx – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indiki Qeqarkunik vilayəti ərazisində mövcud olmuşdur. Gevond Alişanın «Sisakan» əsərində adı çəkilir. Sonradan xaraba qalıb [2, s.311].

Atqoç – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunda, indiki Qeqarkunik vilayəti ərazisində mövcud olmuşdur. XIX əsrin əvvəllərində ləğv edilmişdir. Toponim türk dilində «ad» mənasında işlənən «at» sözü ilə, «düşərgə» mənasında işlənən «koç/koş» sözünün birləşməsindən əmələ gəlmişdir [2, s.313].

Baş Gözəldərə – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Kənd Göyçə gölünün yaxınlığında, Gözəldərə çayının yanında, Gözəldərə dağının ətəyində yerləşirdi. Kəndə həm də "Yuxarı Gözəldərə" deyilirdi. Ermənilər kəndə 1828-ci ildən sonra Türkiyədən köçürülüb yerləşdirilmişdir. Kənddə 1897-ci ildə ermənilərlə yanaşı, 108 nəfər azərbaycanlı yaşamışdır. Toponim fərqləndirici əlamət bildirən "baş" (yuxarı) sözü ilə "gözəl" və "dərə" sözlərinin birləşməsindən əmələ gəlmişdir. Sonralar Baş Gözəldərə kəndi ləğv edilmiş, əhalisi Aşağı Gözəldərə kəndinə köçürülmüşdür [2, s.317].

Əhmədli – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Əyricə çayının sahilində yerləşirdi. 1826-1828-ci illərdə – Rusiya-İran müharibəsi zamanı törədilən qırğınlardan və ermənilərin bölgədə məskunlaşdırılmasından sonra azərbaycanlılar tədricən kəndi tərk etmişlər. 1897-ci ilin rəsmi statistikasına görə, kənddə 35 azərbaycanlı ailəsi (141 nəfər) yaşamışdır. 1905-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar nəticəsində kənd təkrar dağıdılmış və nəticədə, xaraba kəndə çevrilmişdir. Toponim səlcuq türklərindən olan "əhmədli" etnonimi əsasında əmələ gəlmişdir [2, s.333].

Əlikənd – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəfləri"ndə bu qədim türk yurdu "Bəd Əlinin kəndi" kimi təsniflənir. 1826-1828-ci illərdə – Rusiya-İran müharibəsi zamanı törədilən qırğınlardan və ermənilərin bölgədə məskunlaşdırılmasından sonra azərbaycanlılar kəndi tərk etmişlər. Hazırda xarabalıqdır. Toponim "Əli" şəxs

adı ilə "kənd" sözünün birləşməsindən əmələ gəlmişdir [2, s.334].

Xartlıq – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Qaranlıq kəndinin və Qaranlıq çayının yaxınlığında, Şahbulaq dağının ətəyində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [9, s. 262]. Kənddə 1873-cü ildə 144, 1886-cı ildə 162, 1897-ci ildə 190, 1914-cü ildə 282, 1916-cı ildə 269 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. 1930-cu ildə kənd xarabalığa çevrilmişdir. Hazırda xarabalıqdır. Toponim qədim türk dilində «uca, hündür, yaşlı, qoca» mənasında işlənən «qart» sözünə «-lıq» şəkilçisinin artırılması ilə əmələ gəlmişdir [2, s.345].

Karvansara – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Aşağı Qaranlıq yaşayış məntəqəsindən 10-12 km cənub-şərqdə, Mədinə kəndinin yaxınlığında, Əyriçayın sahilində yerləşirdi. Kəndin adı erməni müəlliflərinin əsərlərində «Əyriçay Karvansara» və «Əyricə Karvansara» kimi də qeyd edilmişdir. Kənddə 1873-cü ildə 168, 1886-cı ildə 205, 1897-ci ildə 309, 1904-cü ildə 341, 1914-cü ildə 441, 1916-cı ildə 294 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra əhalinin bir hissəsi doğma yer-yurdlarına qayıtmışdır. Kənddə 1922-ci ildə 78, 1926-cı ildə 45 nəfər azərbaycanlı, 1931-ci ildə 80 nəfər azərbaycanlı, 69 erməni, 29 kürd yaşamışdır. Ermənilər kəndə 1928-1930-cu illərdə köçürülmüşlər. SSRİ Nazirlər Sovetinin «Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 23 dekabr 1947-ci il tarixli qərarına əsasən, kəndin azərbaycanlı əhalisi zorla Azərbaycana deportasiya edilmişdir. Sonra kənd ləğv olunmuşdur. Toponim «ticarət yolu üzərində tikili bina» mənasında işlənən «karvansara» sözü əsasında əmələ gəlmişdir [2, s.350].

Qamışlı – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, Göyçə gölünün cənub-şərq sahillərində, keçmiş Martuni rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Aşağı Alçalı kəndindən 3 km şimal-şərqdə, Kötük çayın Göyçə gölə töküldüyü yerdən təxminən 1 km aralıda yerləşirdi. 1826-1828-ci illər aralığında baş vermiş Rusiya-İran müharibəsi zamanı kənd yerlə yeksan edilmişdir. Həmin illərdə dağıdılmış Qamışlının sağ qalan əhalisinin az qismi Aşağı Alçalıya, əksər hissəsi isə nisbətən təhlükəsiz olan Qanlı Allahverdi kəndinə pənah aparsalar da, XIX əsrin ortalarında kənd yenidən bərpa edilmişdir. Qamışlının 1873-cü ildə 93, 1898-ci ildə 161 nəfər azərbaycanlı əhalisi olmuşdur. XX əsrin əvvəllərində kənd ləğv edilmiş və yaşayış məntəqələri siyahısından silinmişdir. Toponim «qamış» bitki adına «-lı» şəkilçisinin artırılması ilə əmələ gəlmişdir [2, s.358].

Qarasaqqal – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Alçalı kəndinin yaxınlığında yerləşirdi. Kənddə əvvəlcə azərbaycanlılar yaşamış, ermənilərin bölgədə məskunlaşdırılmasından sonra əhali tədricən kəndi tərk etmişdir. Hazırda xarabalıqdır. Toponim «qarasaqqal» etnonimi əsasında düzəlmişdir [2, s.362].

Qızılxaraba – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Əyricə kəndinin yaxınlığında, Arxaşan və Əbdülasar dağları arasında yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir [348, s. 133].

Mollalı – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Aşağı Qaranlıq (Martuni) rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Martuni şəhərindən 19 kilometr şərqdə yerləşirdi. Şimaldan Alçalı, şimal-şərqdən Qamışlı, şərqdən Çamırlı, cənub-şərqdən Gödəkbulaq və Yuxarı Zağalı, qərbdən Aşağı Gözəldərə ilə həmsərhəd olmuşdur [2, s.372].

Siçanlı – Kənd İrəvan quberniyasının Novo-Bəyazid qəzasında, keçmiş Qaranlıq (Martuni) rayonunun, indiki Qeqarkunik vilayətinin ərazisində mövcud olmuşdur. Təzəkəndin yaxınlığında yerləşirdi. Kənddə 1886-cı ildə 302, 1897-ci ildə 310, 1904-cü ildə 499, 1914-cü ildə 582, 1916-cı

ildə 404 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar erməni silahlı birləşmələrinin hücumuna məruz qalmış və kütləvi qırğınlar nəticəsində kənddən qovulmuşdur. Bundan sonra kənd ləğv edilmişdir. Hazırda xarabalıqdır. Toponim oğuzların bəydili tayfasına mənsub olan «sincan» etnoniminə mənsubluq bildirən «-lı» şəkilçisinin qoşulması ilə düzəlmişdir.

Nəticə. 7 noyabr 1995-ci ildə Ermənistan Respublikasında rayon bölgüsü ləğv edilmişdi və ərazi 10 marza, yəni vilayətə bölünmüşdü: 1.Araqatsotn, 2.Ararat, 3.Armavir, 4.Vayotsdzor, 5.Qeqarkunik, 6.Kotayk, 7.Lori, 8.Sünik, 9.Tavuş, 10.Şirak və marz hüquqlu Yerevan. Beləliklə, demək olar ki, İrəvan xanlığı dövrünün inzibati-ərazi bölgüsü bərpa edilmişdi, yalnız ”mahal” sözü “marz” ilə əvəz olunmuşdu. Əslində “mərz” özü də elə türk sözüdür və “sərhəd”, habelə ”əkin yeri” mənalarını daşıyır. Keçmiş Dərəçiçək mahalının ərazisini əhatə edən Axta (Hrazdan) rayonu Kotayk marzının tərkibinə, Göyçə mahalının və Yeni Bəyazid qəzasının ərazisi, o cümlədən Basarkeçər, Yeni Bəyazid (Kamo) və Martuni rayonları Qeqarkunik marzının tərkibinə qatılmışdı.

ƏDƏBİYYAT

1. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
2. Bayramov İ., Mustafa N. Həqiqətin onomastikası. İndiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması. Birinci nəşr. – Bakı: Şərq-Qərb, – 2021. – 464 s.
3. Əhmədov Bəxtiyar. Göyçə mahalı azərbaycanlılarına qarşı deportasiyalar və soyqırımlar (XX əsr). “İdeal-Print” MMC, – Bakı: 2021. – 180 s.
4. Əsədov S. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, s.301-302.
5.Vandalizm: Tarixi adlara qarşı soyqırımı. Tərtib edən N.Mustafa. Bakı: Turxan, 2014. 128 s.
6. Армянская ССР. Административно-территориальное деление. – Ереван: АрмГИЗ, – 1948. – 80 с.
7. Армянская ССР. Административно-территориальное деление на 1-ое августа 1988 года / Президиум Верх. Совета Арм. ССР. – 6-е изд. – Ереван: Айастан, – 1988. – 206 с.
8.Большая Советская Энциклопедия, том 17, 3-й выпуск. Москва: 1974, s 180.
9. Пагирев Д.Д. Алфавитный указатель к пятивертсной карте Кавказского края. Издания Кавказского военно-топографического отдела. Тифлис, 1913. – 530 с.
10. Пагирев Д.Д. Эриванский сборник. Вып. 1. Эриван. 1892. 108 с.
11.Свод статистических данных о населении Закавказскаго края, извлеченных из посемейных списков 1886 г. Города и уезды Эриванской губернии. Тифлис: Тип. И.Мартиросианца, 1893. 974 с.
12.Территориальное и административное деление Союза ССР на 1-е января 1926 г. Народный комиссариат внутренних дел. Статистический отдел. Издательство Главного Управлений Коммунального Хозяйства НКВД. Москва: 1926. 284 с.
13. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи. Санкт-Петербург: Типография императорской Академии Наук, 1852, 1231 с. s. 595-598.

БАХТИЯР АХМЕДОВ
к.и.н., ведущий научный сотрудник Института истории и этнологии им. А.А. Бакиханова НАНА

АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОЕ ДЕЛЕНИЕ АШАГЫ (НИЖНИЙ) ГАРАНЛЫГ МАРТУНИНСКОГО РАЙОНА БЫВШЕЙ АРМЯНСКОЙ ССР (1930-1988 ГОДЫ)

Мартунинский район был организован как административный район 9 сентября 1930 года. Район был образован из сел бывших Ени Баязидского уезда. Районный центр – Марту-

ни, до 1930 года назывался Ашагы (Нижний) Гаранлыг. Мартунинский район состоял из 16 сельских советов и 19 населенных пунктов, включая районный центр.

Ключевые слова: Мартуни, Ашагы Гаранлыг, Ени Баязид, Гегаркуник, Атдашы, кенд (деревня).

BAKHTIYAR AHMADOV
PhD of History, Leading Researcher of the Institute of History and Ethnology named after A.A. Bakikhanov of ANAS

ADMINISTRATIVE AND TERRITORIAL DIVISION OF ASHAGHI (LOWER) GARANLYG OF THE MARTUNI DISTRICT OF THE FORMER ARMENIAN SSR (1930-1988)

The Martuni District was organized as an administrative district on September 9, 1930. The district was formed from the villages of the former Yeni Bayazid District. The district center is Martuni, until 1930 it was called Ashaghi (Lower) Garanlyg. The Martuni District consisted of 16 village councils and 19 settlements, including the district center.

Keywords: Martuni, Ashaghi Garanlyg, Yeni Bayazid, Gegharkunik, Atdashy, kend (village).

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Elmar Məhərrəmov, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24)

İLQAR ABDULLAYEV
Bakı şəhəri, Nərimanov rayonu, MLK-nın tarix müəllimi, tarix üzrə fəlsəfə doktoru, əməkdar müəllim
ilqar.heyderoglu@mail.ru

AZƏRBAYCAN SSR-də AĞIR SƏNAYENİN MÜASİR İSTEHSAL SAHƏLƏRİNİN YARANMASI (1969-1982-ci illərdə)

DOI: https://doi.org/10.36719/2708-065X/114/127-131

Bu məqalədə Respublikamızda 1969-1982-ci illər ərzində o dövrlər üçün çox mütərəqqi sahələr olan elektronika, cihazqayırma, radiotexnika, dəzgahqayırma və s. sahələrdə olan inkişafdan danışılır. Haqqında söz gedən məqalədə adları çəkilən mütərəqqi sahələrin inkişafı üçün Respublika rəhbərliyinin necə müvafiq addımlar atması, bu sahələrin inkişaf etdirilməsindən ötrü hansı müvafiq qərarların qəbul edilməsi də nəzərdən keçirilir. Burada göstərilən sahələrin inkişafı ilə yanaşı bu sahənin inkişafında olan nöqsanlara da toxunulmuşdur.

Açar sözlər: elmi-texniki tərəqqi, müasir istehsal sahələri, kadr, elektrotexnika, cihazqayırma.

Giriş. 70-80-cı illərdə iqtisadi-sosial inkişafın fərqləndirici xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, bu illərdə respublika sənayesinin strukturunda ciddi dəyişikliklər baş verir, yeni və müasir istehsal sahələri yaradılır, elmi-texniki tərəqqini müəyyən edən sahələr sürətlə inkişaf edir və yeniləri meydana gəlirdi. 1971-1980-cı illərdə bu sahələrdə istehsalın həcmi 2,8 dəfə artmış, elektron, radiotexnika və digər yeni sənaye sahələri işə salınmış və onların intensiv inkişafı üçün müvafiq tədbirlər görülmüşdü. Bütövlükdə mütərəqqi – yeni sahələrin xüsusi çəkisi 1969-cu ildəki 22,2 %-ə qarşı 1980-cı ildə 27,8% artmışdı [11, s.48].

Əsas hissə. Aparılan tədqiqatlar sübut edir ki, bu sahədə bir sıra strateji addımlar 70-ci illərin ortalarında atılmışdır. Belə ki, Azərbaycan KP MK Bürosunun 20 avqust 1975-ci il tarixli iclasının 132 №li Protokolu ilə tanışlıqdan aydın olur ki, burada Sovet Azərbaycanının 50 illiyi adına Bakı Aqreqat İstehsal-Konstruktor Birliyinin daha da inkişaf etdirilməsi tədbirləri haqqında Qərarın qəbul edilməsindən danışılır və burada Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin və SSRİ Aviasiya Sənayesi Nazirliyinin müvafiq qərar layihəsi qəbul olunmuşdur. Qeyd etmək yerinə düşərdi ki, Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin və SSRİ Aviasiya Sənayesi Nazirliyinin Sovet Azərbaycanının 50 illiyi adına Bakı Aqreqat İstehsal-Konstruktor Birliyinin daha da inkişaf etdirilməsi tədbirləri haqqında qərarında yerüstü kondisionerlərin yaradılması və istehsalı üzrə xüsusi mütəxəssislərin, habelə "Strij" tipli pilotsuz təyyarə - kəşfiyyatçıların hazırlanması üçün kadrların ixtisasının artırılmasını təmin etməkdən ötrü haqqında söz gedən müəssisənin nəzdində istehsalın idarə edilməsi işində Aviasiya Sənayesi Nazirliyi tərəfindən təhsil müəssisələrinin açılması nəzərdə tutulurdu [1].

Onu xüsusilə qeyd etmək yerinə düşərdi ki, vaxtı ilə Sovet Azərbaycanının 50 illiyi adına Bakı Aqreqat İstehsal-Konstruktor Birliyinin daha da inkişaf etdirilməsi tədbirlər haqqındakı qərar "tam məxfi" qrifi ilə çap edilmişdir. Təbiidir ki, 70-ci illərin ortalarında SSRİ kimi super dövlətin mövcudluğu dövründə Bakıda "Strij" tipli pilotsuz kəşfiyyatçı – təyyarənin istehsalının təşkili respublikanın gələcək inkişafına təkan idi. "1976 – 1980-cı illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-sı təkliflərinin nəzərdən keçirilməsinin nəticələri barədə" keçmiş Sov.İKP MK-nın qəbul etdiyi qərar sənayenin strukturunun təkmilləşdirilməsində, yeni – müasir sahələrin yaradılmasında mühüm addım oldu. Elmi – texniki tərəqqini müəyyən edən yeni sənaye sahələrinin artım sürəti 70-ci illərdə 1,5 dəfə yüksəlmişdi [3].

Qeyd olunan qərarda Azərbaycanda bütün xalq təsərrüfatının yeni texnika ilə təchiz edilməsinin maddi əsası olan maşınqayırmanın yeni sahələrinin sürətlə inkişaf etditrilməsi, elektrotexnika,

cihazqayırma, elektron, dəzgahqayırma və avtomobil sənayesinin güclü müəssisələrini tikmək, əvvəlki illərdə tikilmiş sənaye müəssisələrini yeni texnika ilə təchiz etmək, genişləndirmək və yenidən qurmaq nəzərdə tutulmuşdu. Müəyyən edilmiş bu proqramın həyata keçirilməsi dörd ildə (1977-1980-cıillərdə) istehsalın həcmini elektrotexnika sənayesində 12,6 %, cihazqayırmada 1,9 dəfə artırmağa imkan vermişdi [5].

70-ci ilərin II yarısında tikilmiş Bakı Məişət Kondisionerləri zavodu respublikada elektrotexnika sənayesinin əsasına çevrilmişdi. Həmin dövrdə bu müəssisə keçmiş SSRİ –də ən iri məişət kondisioneri zavodu idi və ildə 400 min süni iqlim aparatı buraxırdı [5]. Respublikamızda 1978-1979-cu illərdə radio maşınqayırma, iri elektrotermik soba zavodlarının, məişət cihazlarını avtomatik idarəetmə qurğuları istehsal edən zavodun, cihazqayırma zavodunun ikinci növbəsinin, elektron hesablama maşınlarına (EHM) xidmət edən məhəlli mərkəzin və digər müəssisələrin tikintisinə başlanmışdı.

Respublikada 70-ci illərdə əlvan metallurgiyanın çoxsahəli kompleksi də yaradılmışdı. Sumqayıtda alüminium istehsalına başlanılmış, Kirovabad (Gəncə) alüminium zavodunda alünium oksidi, sulfat turşusu və kalium sulfat alınmaqla aluniutlərin kompleks emalı dünyada ilk dəfə olaraq mənimsənilmişdi [11, s.60]. Həmçinin bu dövrdə bir çox xarici firmalar alunit filizlərindən istifadə edilməsinin Azərbaycan metallurqları tərəfindən işlənib hazırlanmış prosesi üçün lisenziya almışdılar. Ölkədə ilk dəfə olaraq Bakı alünium prokatı zavodunda mütərəqqi texnologiya – tökmə ilə prokatın birləşdirilməsi metodu vasitəsilə külçəsiz prokat texnologiyası tətbiq edilmişdi. (Yenə orada) Kirovabad (Gəncə) alüminium zavodunda istifadəyə verilmiş qurğularda boksitlər emalının yeni mütərəqqi texnologiyasının tamamilə mənimsənilməsi planlaşdırılmış və buna qismən nail olunmuşdu [12, s. 99].

70-ci illərin sonuna yaxın - 80-cı illərin əvvəllərində respublikada sənayenin strukturunda yeni yaradılan və istehsal həcmi getdikcə genişləndirilən sahələrdən biri də Gəncə alüminium zavodu idi. Bu illərdə zavodun yenidən qurulmasında və genişləndirilməsində xeyli işlər görülmüşdü. Nəticədə alüminium oksidi istehsal edən qurğuların gücü 5 dəfə, sulfat turşusu istehsal edən qurğuların gücü 2 dəfə, mineral gübrələr istehsal edən qurğuların gücünü 4 dəfə artırmaq mümkün olmuşdu.

Yeni yaradılan ağır sənaye sahələrindən hesab edilən qara və əlvan metallurgiya sahələrində də bir sıra nəzərə çarpacaq uğurlar əldə edilmişdi. Belə ki, 70-ci illərdə əlvan metallurgiya sənayesində məhsul istehsalının artım sürəti bütünlükdə ağır sənaye üzrə göstəricidən artıq olmuşdu. Qara metallurgiya müəssisələrində, xüsusilə Azərbaycan boru-prokat zavodunda təşkilati və texniki tədbirlərin həyata keçirilməsi burada polad borular istehsalının artırılmasına səbəb olmuşdu. 70-ci illərdə əlvan metallurgiya üzrə bir neçə yeni müəssisə və istehsal sahəsi işə salınmişdi. Bunlara misal olaraq Bakı Melixor qablar zavodunu, Bakı tikinti konstruksiyaları müəsssələrini misal çəkmək olar.

70-ci illərdə Azərbaycan boru prokatı zavodunda bir sıra yenidənqurma işləri həyata keçirilmiş və nəticədə bu müəssisə istehsal həcminə və texniki təchizata görə keçmiş Sovetlər İttifaqında neft boruları istehsalı üzrə ən iri müəssisəyə çevrilmişdi. Bu illərdə zavodun istehsal etdiyi məhsuldan ölkənin və 17 xarici dövlətin neft rayonlarında geniş istifadə edilirdi [11, s.48].

Sibirin neft yataqlarından istifadə olunmasına kömək göstərilməsi məqsədilə Azərbaycan boru-prokatı zavodunun əməkçiləri Ukrayna alimləri ilə birlikdə dünya praktikasında ilk dəfə olaraq Qərbi Sibir, Uzaq Şərq, Şimal şəraitində neft texniki qurğuları üçün xüsusi borular istehsalını həyata keçirmişdi. 70-ci illərin II yarısı – 80-cı illərin əvvəllərində Azərbaycanda boru-prokatı zavodunda məhsul buraxılışı xeyli artırıldı. Burada istehsalın texniki səviyyəsinin yüksəldilməsi, boru presləyən, boru yonan, texnoloji kəşfiyyat boruları istehsal edən iri sexin tikilməsi nəzərdə tutulmuşdu ki, bu da 80-cı illərin əvvəllərində tikilib başa çatdırılmışdı.

70-ci illərin sonu – 80-cı illərin əvvəllərində respublikada energetika komplekslərinin yeni mütərəqqi sahələri meydana gəlmiş, respublika rəhbərliyinin – Ulu Öndərimiz H.Əliyev cənablarının gördüyü mühüm işlərin nəticəsində Azərbaycanda 18 iri elektrik stansiyasından ibarət böyük bir energetika kompleksi yaradılmışdı. Bu elektrik stansiyaları ildə 15,2 milyard kilovat – saat elektrik enerjisi istehsal edirdi [4]. 1976-1980-cı illərdə Kür çayı üzərində 380 min kilovat saat gücündə

Şəmkir su – elektrik stansiyası və 1200 min kilovat saat gücündə Azərbaycan DRES –in və 120 min hektar torpağı suvarmaq üçün su dəryaçasının tikintisinə başlanılmışdı [6]. Sonrakı illərdə bu sahələrin istifadəyə verilməsi ilə respublikada energetika sistemi xeyli yaxşılaşmış və onun müəyyən edilmiş gücü 1,6 dəfə, elektrik enerjisinin istehsalı isə 8 milyard kilovat saat artmışdı [10, s.32]. Lakin bütövlükdə elektroenergetikanın inkişaf sürəti respublika xalq təsərrüfatının artan tələbatından geri qalırdı.

Təsadüfi deyildi ki, Respublika partiya təşkilatının XXX qurultayında hesabat məruzəsi ilə çıxış edən H.Əliyev qeyd etmişdir ki, "indi respublikada tələb edildiyindən 2 milyard kilovat saat az elektrik enerjisi istehsal edilir. Kəsir Zaqafqaziya birləşmiş sistemindən elektrik enerjisi alınması hesabına ödənilir" [10, s.32].

Bu gerilik həmin dövrdə Azərbaycan Baş Energetika və Elektrikləşdirmə İdarəsinin işindəki ciddi nöqsanların ləng aradan qaldırılması ilə bağlı idi. Həmin nöqsanlar Azərbaycan KP MK-nın qərarında da göstərilmişdi. Hər şeydən əvvəl, Baş İdarə sistemində elektrik avadanlıqlarından istifadə səviyyəsi çox aşağı idi, şəbəkələrdə elektrik enerjisi itkisi, elektrik stansiyalarında yanacaq məsrəfi çox idi.

70-ci illərin ikinci yarısından başlayaraq respublikada yeni yaradılan müəssisələrdən sayılan Sumqayıt alümünium zavodunda texniki avadanlığın modernləşdirilməsi, texnoloji proseslərin intensivləşdirilməsi sahəsində tədbirlər görülmüş, alümünium və başqa əlvan metallardan yeni məhsul növlərinin istehsalına başlanılmışdı. Danışdığımız dövrün ən xarakterik cəhətlərindən biri də əlvan metallurgiyanın sürətli inkişafı ilə bağlı idi. Alunit filizindən əsas komponentlərin kompleks alınmasını təmin etmək məqsədi ilə texnoloji proseslər yeni tələblərə uyğun qurulmuş, nəticədə 70-ci illərin II yarısında respublikada qara və əlvan metallurgiyanın inkişafında xeyli irəliləyişə nail olunmuşdu. Əlvan metallurgiyada 70-ci illərin son beş ilində məhsul istehsalı 2,2 dəfə çoxalmış, sahənin daxilində əlvan metallar prokatı, xalq istehlakı malları istehsalı daha üstün inkişaf etmişdi [7]. Belə ki, 1973-cü ildə sahə üzrə satış planı 104,5 % yerinə yetirilmiş, plandan əlavə 3,3 milyon manatlıq məhsul istehsal edilmişdi. 1974-cü ildə Əlvan Metallurgiya Birliyi üzrə məhsul istehsalı xeyli artmış və plan 102,7 % yerinə yetirilməklə, əlavə 2,1 milyon manatlıq məhsul istehsal olunmuşdu (8). 1974-cü ilin sonu üçün Gəncə Alüminium zavodunda bir neçə yeni iri sex işə salınmışdı [12, s.102].

1975-ci il üçün Birlik üzrə 95 milyon manatlıq məhsul istehsalı müəyyənləşdirilmiş, tapşırığa ilin sonuna qədər 101,5 % əməl olunmuş, plandan əlavə 754 min manatlıq məhsul istehsal edilmişdi [9].

Bütün bu tədbirlər nəticəsində 70-ci illərin sonu – 80-cı illərin əvvəllərində respublika sənayesinin strukturunda bir sıra dəyişikliklər həyata keçirilmişdir ki, bunlar da danışılan dövrdə ictimai istehsalın inkişaf sürətinin daha da artmasına, sahə, sahələr arası proporsiyaların təkmilləşməsinə, elmi-texniki tərəqqinin geniş vüsət almasına, istehsalın səmərəliliyinin yüksəlməsina, ən nəhayət, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına səbəb olmuşdu [12, s.102].

Bilavasitə mövzuya aid sənədlərin tədqiqi sübut edir ki, bəhs edilən dövrdə sənayedə - xüsusilə ağır sənayedə istehsalın səviyyəsinin yüksəldilməsi, əmək məhsuldarlığının artırılması nisbətən sonrakı dövrlərdə də respublika rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Hətta bu sahədə əmək məhsuldarlığının səviyyəsinin artırılması üçün istehsalda iki növbəli əmək sisteminin təşkili ön plana çəkilirdi. "Azərbaycan SSR-in sənaye müəssisələrindəki avadanlıqlarda növbəli işin təşkilinin faydalılıq əmsalının daha da yüksək səviyyəyə qaldırılması üçün görülən tədbirlər və bu sahədəki vəziyyət haqqında" Azərbaycan KP MK Bürosunun 31 avqust 1982-ci il tarixli iclasının 66 №li Protokolu ilə tanışlıqdan aydın olur ki, respublikanın ən böyük sənaye müəssisələrində iki növbəli iş sisteminə keçidə çox böyük önəm verilmişdir. Belə ki, burada "İttifaqneftmaş" ÜİB-in müəssisələrində avadanlıqlarda növbəli iş sisteminin tətbiqinin müsbət təcrübəsinin toplanması qeyd edilir. Azərbaycan KP MK-nın "İttifaqneftmaş" Birliyi Müəssisələrində avadanlıqlarda növbəli işin faydalılıq əmsalının yüksəldilməsində partiya rəhbərliyinin və təsərrüfat rəhbərlərinin işi haqqında" qərarını yerinə yetirərək müəssisələrin kollektivləri təşkilati, texniki, iqtisadi tədbirləri həyata keçirmişlər ki, nəticədə də metal emalı avadanlıqlarında növbəliliyin əmsalı 1982-ci ildə 1975-ci ildəkinə nisbətən 21% artmış və 1,68-ə, əsas istehsalda isə 1,71-ə çatmış, texnikada prostoya qalma bu dövr-

də 14,0 % azalmışdır. Növbəlilikdə avadanlıqlardan istifadənin faydalılıq əmsalının artması nəticəsində fondverim 9 % artmışdır. Bu istiqamətdə Keşlə maşınqayırma zavodunun eləcə də leyt. Şmidt (keçmiş) – hazırkı Səttarxan, hazırkı Bakı Neft – Mədən avadanlıqları -keçmiş Montin, hazırkı Sabunçu maşınqayırma - keçmiş Kirov, hazırkı Suraxanı - keçmiş Dzerjinski adına zavodlarda nəzərə çarpacaq uğurlar qazanılmışdır ki, burada da faydalılıq əmsalı Birliklərdə olan orta səviyyədən yüksəkdir. İstehsalda yüksək ixtisaslı kadrların hazırlığına, himayədarlığın inkişafına, qabaqcıl təcrübə məktəbinin təşkilinə ciddi fikir verilirdi. Məhsuldar əməyin mənəvi və maddi cəhətdən stimullaşdırılması sistemi tətbiq edilmişdir.

Bu istiqamətdə elektrotexnika sənayesi müəssisələrində - Bakı Məişət Kondisionerləri, "Azərkabel", "Azelektroizolit", "Elektroçentrolit" zavodlarında böyük işlər görülmüşdür. Belə ki, bu müəssisələrdə növbəli iş sisteminin əmsalı iki növbəli sistemin əmsalına yaxındır.

Lakin müvafiq sənədlərlə tanışlıqdan bəlli olur ki, o vaxtlar bu sahədə nöqsanlar da az olmamışdı. Belə ki, bir sıra nazirlik, birlik, müəssisə rəhbərləri sənayedə istehsal potensialının artırılmasına heç də lazımi diqqət və qayğı göstərmirdilər. Son beş ildə (1977-1982-ci illər) (İ.A.) respublika sənaye müəssisələrində avadanlıqlarda növbəli iş əmsalı dəyişilməmiş və 1,31% səviyyəsində qalmış, ümumiyyətlə maşınqayırma müəssisələrində isə o, cəmi 6,0 % artmış və 1,26 % səviyyəsinə çatmışdır.

Bir çox sənaye müəssisələrində isə növbəli iş əmsalı aşağı düşmüşdür. Belə ki, 1975-ci ildən 1981-ci ilə qədər əlvan metallurgiyada növbəli iş əmsalı 1,48-dən 1,45-ə, qara metallurgiyada 2,19-dan 2,02-ə, sənaye tikintisi materialları istehsalı 1,33-dən 1,31-ə, yeyinti sənyesində 1,41-dən 1,33-ə, şüşə və saxsı məmulatları istehsalı sənayesində 1,63 %-dən 1,42 %-ə düşmüşdür. Bakı mayesiz transformatorlar zavodunda, Xankəndi elektrotexnika zavodunda, Ağdam dəzgahları təchizetmə, "Bakıelektroavtomat" zavodlarında və s. müəssisələrdə bu göstəricilər daha aşağı düşmüşdü [2].

Bütün bunları nəzərə alan Azərbaycan KP MK-sı qəbul etdiyi qərarda göstərilirdi ki, respublikanın yuxarıda göstərilən nazirlik, birlik, müəssisələrində işin növbəli əsaslarda qurulması nəticəsində istehsal fondlarının səmərəliliyinin artırılması heş də lazımi tələbata, yaradımış istehsal potensialından rasional şəkildə istifadəyə imkan vermir. Buna görə də Azərbaycan KP MK-sı respublikanın sənaye nazirliyi, birlikləri müəssisə rəhbərləri qarşısına hazırda istehsalda olan avadanlıqlardan istifadə edilmə səmərəlilyinin yüksəldilməsi, dəzgah və mexanizmlərdə növbəli iş sisteminin faydalılıq əmsalının artırılması, bu işlərin həyata keçirilməsi üçün daimi nəzarətin müəyyən edilməsi kimi tələbləri qoyurdu. Beşilliyin sonuna qədər növbəli iş rejimində faydalı iş əmsalı 1,3-dən az olan sənaye müəssislərində bu göstəricini 1,6-ya, qalanlarda isə ən azı 20%-ə çatdırmaq vəzifəsi qoyulmuşdu. Bu vəzifənin həyata keçirilməsi əlavə kapital qoyuluşu olmadan sənaye məhsulları istehsalını nəzərə çarpacaq dərəcədə artırmağa, istehsalın səmərəsini yüksəltməyə, əhalinin iş yerləri ilə təmin edilməsinə imkan yaradacaqdı [2].

Nəticə. Şübhəsiz ki, bu tədbirlərin həyata keçirilməsi nəticə etibarı ilə istehsalın inkişaf etməsinə, səmərəliliyin artırılmasına səbəb olur, əhalinin yeni iş yerləri ilə təmin edilməsinə, rifah hallarının yüksəlməsinə imkan yaradırdı. Geniş miqyasda isə Respublikamızın iqtisadiyyatında çox mühüm rol oynayan ağır sənayenin, xüsusilə onun müasir sahələrinin daha da inkişaf etməsinə səbəb olurdu. Bu isə hazırda yaşadığımız müstəqillik dövründə çox böyük əhəmiyyət kəsb edir. Təbiidir ki, o dövrlərdə yuxarıda qeyd etdiyimiz sənayenin müasir sahələrinin inkişafında Respublikamızın o dövrlərdəki rəhbəri Heydər Əliyev cənablarının da böyük rolu olmuşdu.

ƏDƏBİYYAT

1. AR Pİİ SSA F.1. Siy.62, İş 74, v. 147, 149-151
2. AR Pİİ SSA F.1. Siy.70, İş 110. V.44-50
3. AR MDA, F.2941, Siy. 14, İş 51, v.79
4. AR MDA, F.2941, Siy. 14, İş 51, v.48
5. AR MDA, F.2941, Siy.10, İş 51, v. 101
6. AR MDA, F.2941, Siy. 14, İş 51, v.51-52

7. AR MDA, F.2941, Siy. 14, İş 51, v.52
8. AR MDA, F. 2941, Siy. 14, İş 97, v. 14
9. AR MDA, F.2941, Siy.10, İş 11, v. 12
10. AR KP – nin XXX qurultayının materialları. Bakı: 1981.
11. Əliyev H. Sovet Azərbaycanı, Bakı: 1981, 60 s.
12. Zeynalov İ. Azərbaycanın iqtisadi və sosial inkişafı. (70-80-cı illər). BDU nəşriyyatı, 1996, 314 s.

ИЛЬГАР АБДУЛЛАЕВ
Учитель истории ШЛК, г.Баку,
кандидат исторических наук, заслуженный преподаватель

СОЗДАНИЕ СОВРЕМЕННЫХ ПРОИЗВОДСТВЕННЫХ СФЕР ТЯЖЕЛОЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ ССР (1969-1982)

В данной статье рассматривается развитие в нашей Республике в период с 1969 по 1982 год в таких областях, как электроника, приборостроение, радиотехника, станкостроение др. которые для того времени были весьма прогрессивными. В статье анализируется, какие шаги предпринимало руководство Республики для развития указанных прогрессивных областей и какие решения были приняты для их развития. Наряду с развитием упомянутых здесь областей, обсуждаются также недостатки в их развитии. Одной из отличительных черт экономического и социального развития 70-х и 80-х годов стало то, что в эти годы произошли серьезные изменения в структуре промышленности республики. Были созданы новые и современные производственные зоны, научно-технические предприятия.

Ключевые слова: научно-технический прогресс, современные производственные отрасли, кадр, электротехника, оборудопроизводства.

ILGAR ABDULLAYEV
History teacher of the SLC, Baku,
PhD in History, Honored Teacher

ESTABLISHMENT OF MODERN PRODUCTION AREAS OF HEAVY INDUSTRY IN THE AZERBAIJAN SSR (1969-1982)

This article deals with the development in the fields of electrotechnics, device manufacturing, radiotechnics, machine tool making and so on in our republic in 1969-1982s years. It should be borne in mind that these fields were very progressive in those years. In mentioned article it is also spoken how the leadership of the republic took appropriate steps to develop the above mentioned progressive fields and besides it, making appropriate decisions for this purpose has also been taken into account in the article too. Alongside with the development in these fields some shortcomings have also been touched upon.

Keywords: scientific- technical progress, modern production areas, a cadre, electrotechnies, device manufacturing.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 iyun 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.

UOT 327

SABİR MƏMMƏDLİ
Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi,
Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professoru,
siyasi elmlər doktoru
ORCID ID: 0000-0001-9176-2569
sabir.rm@mail.ru

EHAB İSMAEL
Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi,
Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının doktorantı
ORCID ID: 0009-0002-3089-5530
ehab.ismael.mohamed@bsu.edu.az

"X" PLATFORMASI (KEÇMİŞ "TWİTTER") ÜZƏRİNDƏN DİPLOMATİK GEDİŞLƏRİN MÜASİR XARİCİ SİYASƏTƏ TƏSİRİ

DOI: https://doi.org/10.36719/2708-065X/114/132-138

Bu gün rəqəmsal olaraq bir-birinə bağlı dünyamızda X (keçmiş Twitter) artıq təkcə fikir paylaşmaq üçün bir platforma deyil, ölkələrin diplomatiya aparmaq üçün istifadə etdiyi vacib bir alətə çevrilib. Bu məqalədə dünya liderləri, hökumətlər və diplomatların X-dən istifadə edərək mesajlar paylaşdıqları, ictimai rəyə təsir etdikləri və xarici siyasət qərarlarını birbaşa formalaşdırdıqları araşdırılır. Gündəm təyini, çərçivələmə və yumşaq güc kimi anlayışlardan istifadə etməklə, bu tədqiqat izah edir ki, X sadə bir platformadan daha genişliyə çıxıb və indi siyasi təsir və qlobal ünsiyyətin əsas hissəsidir. Məqalədə real nümunələr əsasında Donald Trampın Şimali Koreya ilə bağlı birbaşa tvitləri, Çinin COVID-19 zamanı apardığı rəqəmsal diplomatiya və həm Rusiya, həm də Ukraynanın müharibə zamanı X-dən necə istifadə etməsi hərtərəfli şəkildə araşdırılır. Bu hallar göstərir ki, X diplomatiyası çox sürətli, birbaşa və bəzən də aqressiv ola bilər. Eyni zamanda, bu məqalədə saxta xəbərlər, deepfake videolar, onlayn təbliğat və medianın etibarlılığına necə təsir etdiyi kimi problemlərdən də danışılır. Nəticə olaraq, məqalə bildirilir ki, X diplomatiyası ölkələrin bir-biriləri ilə açıq şəkildə necə danışdığını dəyişdirib. Bu sahədə daha yaxşı media savadlılığına, platformalar üçün qaydalara və liderlərin sosial medianı ağılla istifadə etməsi üçün yeni yanaşmalara ehtiyac olduğu vurğulanır.

Açar sözlər: X diplomatiyası, rəqəmsal diplomatiya, xarici siyasət, sosial media, ictimai rəy, yumşaq güc, onlayn təbliğat.

Giriş. Bu gün xarici siyasət artıq sadəcə qapalı qapılar arxasında baş vermir. Rəqəmsal platformaların, xüsusilə də X (keçmiş Twitter) kimi sosial medianın yüksəlişi ilə diplomatiya elə bir sahəyə keçib ki, burada qlobal auditoriya hadisələrə reaksiya verə və bəzən prosesə təsir edə bilər. Bir çox prezidentlər, nazirlər və diplomatlar bu platformadan təkcə fikirlərini bildirmək üçün deyil, həm də milyonlarla insana birbaşa mesaj göndərmək üçün istifadə edirlər [14]. X platforması hökumətlərə və liderlərə ənənəvi medianın filtrləri olmadan birbaşa ünsiyyət imkanı verir. Bu sürət və açıq platforma onlara öz mövqelərini daha rahat ifadə etməyə, böhran anlarında tez reaksiya verməyə və beynəlxalq debatlarda fikirlərini paylaşmağa imkan yaradır. Amma bununla yanaşı problemlər də gətirir. Yanlış başa düşülən mesajlar, emosional tvitlər və ya onlayn təbliğat diplomatik gərginlik yarada və ya ictimaiyyəti çaşdıra bilər [1]. Təhlillər X-in müasir diplomatiyanın təbiətini necə dəyişdirdiyini real hadisələr üzərindən göstərir. Eyni zamanda, araşdırmalar bu fəaliyyətlərin "yumşaq güc" və "çərçivələmə" kimi nəzəriyyələrlə əlaqəsini göstərir və rəqəmsal diplomatiyanın beynəlxalq münasibətlərdə necə güclü bir alətə çevrildiyi izah edir [15].

1. Nəzəri bünövrələr: medianın siyasəti necə formalaşır. Media yalnız xarici siyasət haqqında xəbər vermir, həm də onu qurur. Bu güclü amilləri izah edən üç əsas nəzəriyyə var:

a. böhran zamanı gündəmin təyin olunması. COVID-19 pandemiyası dövründə media tərəfindən təhlükəli problemin mahiyyətinin işıqlandırması qlobal siyasətin diqqət mərkəzini kəskin şəkildə dəyişdi. Yoluxma göstəriciləri, vaksinlərə çıxış və karantin başlıqları ictimai və diplomatik gündəmi zəbt etdi [2]. Nümunə: Ümumdünya Səhiyyə Təşkilatının dünya miqyasında yayımladığı mətbuat konfransları liderlərin necə reaksiya verdiyini və necə ünsiyyət qurduğunu formalaşdırdı.

b. çərçivələmə nəzəriyyəsi təcrübədə. Fərqli ölkələr pandemiyanı müxtəlif şəkildə çərçivələdilər:

•Çin bunu dövlət nəzarəti və elmin qələbəsi kimi təqdim etdi [2].

• ABŞ isə, Tramp administrasiyası dövründə, pandemiyanı tez-tez xarici problem kimi təqdim etdi və onu "Çin virusu" adlandırdı, bu isə diplomatik gərginliyi artırdı.

c. ictimai səhiyyə vasitəsilə yumşaq güc. Cənubi Koreya və Tayvan pandemiya dövründə qlobal mediada uğur nümunəsi kimi təqdim olunaraq yumşaq güc qazandılar və beynəlxalq imicləri gücləndirdilər.

2. Diplomatiyada ənənəvi və rəqəmsal medianın qarşılaşdırılması

a. ənənəvi media: hələ də təsirlidir. "BBC", "Al Jazeera" və "France 24" kimi ənənəvi media qurumları hələ də qlobal diplomatiyanı formalaşdıran narrativləri çərçivələməyə davam edirlər. Nümunə: "BBC"-nin Suriyada kimyəvi hücumlarla bağlı apardığı araşdırma reportajları BMT müzakirələrində istifadə olunub və hərbi müdaxilə ilə bağlı ictimai rəyə təsir göstərmişdir [12].

b. rəqəmsal media: real vaxtda diplomatiya. Rəqəmsal media süzgəcdən keçməyən sürətli diplomatiya imkanı yaradır: Əfqanıstandan ABŞ qüvvələrinin 2021-ci ildə çıxarılması zamanı X dünyaya informasiya yaymaq üçün əsas vasitələrdən birinə çevrildi. Həm ABŞ hökuməti, həm də Taliban real vaxt rejimində öz bəyanatlarını və yenilikləri paylaşmaq üçün X-dən istifadə edirdi, bəzən bu paylaşımlar ənənəvi xəbər kanallarından daha tez yayılırdı. Taliban sözçüləri, məsələn, Zabihullah Mücahid, hərbi hərəkətlər və siyasi mesajlar haqqında tvitlər yazırdı, onlar Kabula yaxınlaşdıqca və nəhayət şəhərə daxil olduqca bu mesajlar artdı. Bu tvitlər Talibanın gücünü göstərməyə, dəstək qazanmağa və dünyanın hadisələri necə görəcəyini formalaşdırmağa təsir edirdi [12].

Eyni zamanda, ABŞ Müdafiə Nazirliyi və Dövlət Departamentinin rəsmiləri də evakuasiya prosesi, təhlükəsizlik tövsiyələri və baş verən hadisələrə reaksiya ilə bağlı məlumat vermək üçün X-dən istifadə edirdi. Bu sürətli və birbaşa kommunikasiya, hökumətlərin rəqəmsal dövrdə böhranları necə idarə etdiklərinin yeni bir formasını nümayiş etdirdi [6].

Talibanın X-də aktivliyi olduqca mübahisəli idi. Bir çox insanlar platformanı tənqid edirdi, çünki Taliban nümayəndələrinin azad şəkildə tvit yazmasına icazə verildiyi halda, ABŞ-dan olan bəzi siyasi liderlərin hesabları dayandırılmışdı. Bu tvitlərin təsiri böyük oldu – Taliban özünü təşkilatlanmış bir güc kimi təqdim edə bildi, mesajlarını birbaşa xalqa çatdırdı və ənənəvi medianın filtrindən keçmədən danışdı. Bu həm də ictimai rəyə təsir etdi, sosial media qaydaları ilə bağlı mübahisələr yaratdı və rəqəmsal diplomatiyanın müasir münaqişələrin bir hissəsinə necə çevrildiyini göstərdi [3; 17].

İranda isə həm etirazçılar, həm də hökumət Məhisa Əmini öldürülməsi ilə baş verən etirazlar zamanı Instagram və Telegramdan istifadə edirdilər ki, öz versiyalarını təqdim etsinlər. Aktivistlər tez yayılan videolar və fotolar paylaşırdı, hökumət isə etirazların xaricdən təşkil olunduğunu və təhlükəli olduğunu bildirirdi. Bu da onu göstərdi ki, sosial media rəqəmsal bir döyüş meydanına çevrilib, burada fərqli tərəflər ictimai rəyi və qlobal imici idarə etməyə çalışırdı [8].

3. Müxtəlif vəziyyətlərə dair araşdırmalar: real dünyadan nümunələr

a. Rusiya-Ukrayna münaqişəsi. Rusiya-Ukrayna müharibəsinin ilk günlərində Ukraynalı rəsmilər, o cümlədən Prezident Zelenski, X, Facebook və Telegram kimi platformalardan istifadə edərək dünyaya təcili hərbi və humanitar yardım üçün müraciət etdi. Zelenskinin "Biz azadlığımızı müdafiə edirik. Bizə silahlarla kömək edin, sanksiyalarla kömək edin" yazdığı bir tviti milyonlarla baxış topladı və Qərb siyasətçiləri ilə beynəlxalq media tərəfindən geniş şəkildə paylaşıldı. Bu, tez qərarların verilməsinə – məsələn, hərbi yardım göndərilməsinə və Rusiya banklarının SWIFT sistemindən çıxarılmasına – təsir etdi. Dünyanın müxtəlif yerlərində insanlar da Ukrayna xalqı üçün ianə kampaniyaları başlatdı, çoxu da sosial şəbəkələrdə gördükləri məlumatlara əsaslanaraq. Eyni zamanda, Rusiya da RT (Russia Today) və Telegram kanalları kimi öz rəqəmsal vasitələrindən isti-

fadə edərək əks-narrativ yaymağa başladı. Onlar NATO-nun genişlənməsi ilə müharibəni təhrik etdiyini iddia edirdi və işğala müharibə yox, "xüsusi əməliyyat" deyirdi. Bu mesajlar rusdilli bölgələrdə və Qərb mediasına inanmayan bəzi xarici auditoriyalar arasında geniş yayılırdı [18]. Lakin "The Guardian" və "Reuters" nəşrləri bu təbliğatın Rusiya dəstəkli şəbəkələrə bağlı olduğunu öz araşdırmaları ilə sübut etdilər [20]. Onlar göstərdi ki, Rusiyanın versiyasını yaymaq üçün botlar, saxta hesablar və hətta bəzi təsirli şəxslərdən istifadə olunur. Bu onlayn informasiya savaşı yalnız yerli əhaliyə deyil, həm də bütün dünyada kimin qurban, kimin günahkar olması haqqında ictimai rəyə ciddi şəkildə təsir etdi [14].

b. COVID-19 diplomatiyası. COVID-19 pandemiyası zamanı Çin bir çoxlarının "maska diplomatiyası" adlandırdığı təşəbbüs çərçivəsində fərdi qoruyucu vasitələr (PPE) və vaksinlər bağışlayaraq xüsusilə Afrika, Şərqi Avropa və Latın Amerikası ölkələrinə yardım etdi [17]. Çin rəsmiləri və dövlət mediası X və digər platformalarda yardımın göndərilməsini, razılaşmaları və yerli rəsmilərin yardımı qəbul etməsini əks etdirən şəkillərlə dolu yeniləmələr paylaşdı. Bu tvitlər Çinin sürətli hərəkət edən və məsuliyyət daşıyan qlobal güc imicini formalaşdırmaq məqsədi daşıyırdı. Paylaşımlarda tez-tez "həmrəylik", "dostluq" və "heç kim geridə qalmayacaq" kimi sözlər işlədilirdi və bu ifadələr dünyanın müxtəlif ölkələrindəki Çin səfirlikləri tərəfindən də təkrarlanırdı.

Bu mesajların təsiri bəzi ölkələrdə güclü oldu. Məsələn, Serbiya liderləri Çinə açıq şəkildə təşəkkür etdi və həmin tvitləri paylaşdılar, bu isə ölkədə Çin haqqında müsbət ictimai rəyi artırmağa kömək etdi. Digər hallarda isə bəzi Qərb analitikləri Çin hökumətinin bu yardımını yumşaq güc vasitəsi kimi istifadə etdiyini və virusun Uxanda ortaya çıxmasından sonra öz imicini yaxşılaşdırmağa çalışdığını bildirdi. Həmin tvitlər həm də böhran zamanı ABŞ və Aİ-nin yaratdığı narrativlərə qarşı çıxış etmək məqsədi daşıyan daha geniş səylərin bir hissəsinə çevrildi.

Eyni zamanda, Avropa İttifaqı "#StrongerTogether" ("Birlikdə Güclüyük") kampaniyasına başladı. Bu kampaniya Aİ daxilində birlik ideyasını və pandemiyanın ilk dalğası zamanı ağır zərbə alan İtaliya və İspaniya kimi üzv dövlətlərə göstərilən yardımı önə çıxarırdı [5]. Aİ liderlərinin paylaşdığı tvitlərdə tibbi qruplar, təchizat təyyarələri və birgə fəaliyyətlər nümayiş etdirilirdi ki, bu da Aİ-nin əvvəlcə yavaş hərəkət etməsinə dair tənqidlərin təsirini azaltmağa yönəlmişdi. Bu tvitlər ictimai etimadın bir qədər bərpasına kömək etdi və İspaniya ilə İtaliyadakı yerli mediada geniş yayıldı. Həmin hashtag Avropa həmrəyliyini təşviq etmək üçün geniş istifadə olunsa da, ilk mərhələdəki mənfi reaksiyaları tam aradan qaldıra bilmədi.

Ümumilikdə, həm Çin, həm də Aİ pandemiya dövründə diplomatiyanın bir hissəsi kimi X və oxşar platformalardan istifadə etdilər. Onların paylaşdığı mesajlar beynəlxalq imicə, mediada işıqlandırmaya və bəzən tərəfdaş ölkələrdəki siyasi reaksiyalara real təsir göstərdi.

c. ABŞ-Çin ticarət müharibəsi. 2018–2019-cu illərdə Çin diplomatları X platformasından aktiv şəkildə istifadə etməyə başladılar ki, bu da əhəmiyyətli bir dəyişiklik idi, çünki həmin sosial media platforması Çinin daxilində qadağan olunmuşdu. Bu sahədə ən məşhur nümunələrdən biri Çin Xarici İşlər Nazirliyinin sözçüsü Zhao Lijianın ABŞ ordusunun koronavirusu Uxana gətirmiş ola biləcəyini ehtimalı irəli sürdüyü tvit idi. Bu paylaşım beynəlxalq ictimaiyyətdə şok effekti yaratdı və Çinlə ABŞ arasında ciddi diplomatik gərginliklərə səbəb oldu [3]. Amerika rəsmiləri buna sərt reaksiya verdilər, ittihamları rədd etdilər və bu tviti məsuliyyətsiz adlandırdılar. ABŞ Dövlət Departamenti hətta Çin səfirini çağıraraq rəsmi etirazını bildirdi [17]. Eyni zamanda, Çin dövlət mediası Zhaonun ifadə etdiyi bu versiyanı dəstəkləməyə başladı və oxşar iddiaları öz platformalarında təkrarladı. Həmin tvit dəfələrlə retvit edildi və sosial mediada sürətlə yayıldı.

Bu paylaşım təkcə şəxsi fikir deyildi, əksinə, "Qurd Döyüşçüsü diplomatiyası" (Wolf Warrior diplomacy) adlanan daha geniş strategiyanın bir hissəsi idi. Bu strategiyada Çin diplomatları sosial mediadan daha aqressiv şəkildə istifadə edərək həm ölkəni müdafiə edir, həm də tənqidçilərə hücum edirdilər [6]. Bir çox analitiklərin fikrincə, bu cür mesajlar xüsusilə inkişaf etməkdə olan ölkələrdə Çinə diqqət yetirməyə və onun narrativinin formalaşmasına kömək edirdi. Lakin Qərb ölkələrində bu yanaşma Çinin daha aqressiv görünməsinə səbəb olurdu.

Həmin tvit həmçinin dərin etimadsızlıq yaratdı və beynəlxalq əməkdaşlığa böyük ehtiyac duyulan bir dövrdə diplomatik münasibətlərə zərər verdi. Bəzi mütəxəssislər bildirirlər ki, bu hadisə

ABŞ-Çin münasibətlərini daha da gərginləşdirdi və göstərdi ki, rəqəmsal diplomatiya düzgün idarə olunmadıqda geosiyasi problemləri daha da alovlandıra bilər [22].

4. X diplomatiyası: qlobal dialoq üçün yeni bir arena

ABŞ Prezidenti Donald Tramp, diplomatiyanın aparılması üsulunu tamamilə dəyişdi — o, X platformasını əsas xarici siyasət aləti kimi istifadə edərək diplomatiyanı fərqli istiqamətə yönəltdi. Ən məşhur və eyni zamanda riskli anlardan biri o oldu ki, o, birbaşa Şimali Koreya lideri Kim Çen Ina tvit yazaraq belə dedi: "Məndə də nüvə düyməsi var, amma o, daha böyük və daha güclüdür və mənim düyməm işləyir!" [10].

Bu tvit bütün dünyada çox sayda insanı şoka saldı. Mütəxəssislər və media bunun nüvə müharibəsi riskini artıracağını söylədilər. Şimali Koreya cavab olaraq Trampı "əqli cəhətdən qeyri-sabit bir qoca" adlandırdı və bildirdi ki, bu tvit ABŞ-ın təhlükəli bir şey planlaşdırdığını sübut edir [4]. Avropadakı bəzi diplomatlar isə bu qədər ciddi bir təhdidin açıq şəkildə edildiyinə görə şoka düşdüklərini vurğuladılar.

Lakin bu tvitin qəribə bir təsiri də oldu. Bir çox insan qorxsa da, digərləri bu tvitin iki tərəfi danışıqlara başlamağa vadar etdiyini düşünürdü. Bəzi analitiklər Trampın qeyri-sabit və gözlənilməz tvitlərinin bir təzyiq taktikası kimi işlədiyini deyirdi — əvvəl hədə, sonra razılaşma [14]. Daha sonra o, Kim ilə birbaşa görüşəcəyini də X vasitəsilə elan etdi, klassik diplomatik prosedurlardan istifadə etmədən [21].

Bu cür yanaşma daha sonra "şəxsi dövlət idarəçiliyi" (personalized statecraft) adını aldı. Bu modeldə lider birbaşa özü danışır və mesajı şəxsən yönləndirir, ənənəvi diplomatik vasitələrdən istifadə etmir [16; 20]. Digər liderlər də bu nümunəni izlədilər, məsələn, Zelenski müharibə dövründə tvitlərlə məlumat yayırdı, həmçinin İran, İsrail və Taliban rəsmiləri də dünyaya müraciət etmək üçün X-dən istifadə etməyə başladılar.

Amma yenə də bir çox ekspertlər hesab edirlər ki, beynəlxalq gərginlikləri tvitlərlə idarə etmək təhlükəlidir. Bəzi ABŞ generalları Trampın nüvə düyməsi haqqında tvitindən sonra istənilən cavaba hazır olmaq məcburiyyətində qaldıqlarını bildirirdilər. Bu hadisə göstərdi ki, rəqəmsal diplomatiya bəzən sülhə töhfə verə bilər, amma əgər ehtiyatla istifadə olunmasa, təhlükəni də artıra bilər.

5. Qlobal mediada etik qaydalar

Müasir media diplomatiyası ciddi çətinliklərlə birlikdə gəlir:

- **senzura:** Rusiya Ukrayna müharibəsi zamanı Facebook və BBC-yə girişə qadağa qoydu [19].
- **jurnalistlərin təhlükəsizliyi:** "Sərhədsiz Reportyorlar" təşkilatının məlumatına görə, təkcə 2023-cü ildə münaqişə zonalarında jurnalistlərə qarşı 1000-dən çox hücum baş verib [16].
- **dezinformasiya:** 2016-cı il ABŞ seçkiləri zamanı rus botları sosial mediadan istifadə edərək amerikalı seçicilər arasında qütbləşməni artırdı. Müller hesabatı bu müdaxiləni təsdiqlədi [12].

Media etikası artıq yalnız "nə" dərc olunursa yalnız ona deyil, həm də bu platformaya, alqoritmə və narrativə kimin nəzarət etməsinə də diqqət yetirməlidir.

6. Media savadlılığı xarici siyasət aləti kimi

Media diplomatik silaha çevrildikcə, ictimai maarifləndirmə daha da vacib olur:

- **Finlandiya** məktəblərdə media savadlılığını tədris edir ki, bu da Rusiya təbliğatına qarşı müdafiə tədbiri kimi istifadə olunur [14].
- **Avropa İttifaqı** isə "EUvsDisinfo" adlı platformanı istifadəyə verib ki, bu da Avropa birliyini hədəf alan saxta xəbərlərin ifşasına yönəlib [8].
- **ABŞ Dövlət Departamenti** də münaqişə zonalarında fəaliyyət göstərən jurnalistlərə manipulyasiyanı tanımaq üçün təlim proqramlarını maliyyələşdirir [18].

Rəqəmsal informasiya müharibəsi şəraitində vətəndaşlara manipulyasiyanı tanıtmaq artıq milli müdafiənin bir forması sayılır.

7. Medianın və diplomatiyanın gələcəyi

a. gələcəkdə nə olacaq?

- **süni İntellekt:** Dərin saxta (deepfake) videolar seçkilərə təsir göstərə və ya uydurma hərbi cinayətlər yarada bilər [13]. 2023-cü ildə Pentaqonun guya partladığını göstərən saxta video panikaya səbəb oldu və birja dəyər itirdi. Videonun yalan olduğu sübut olunana qədər təlatüm davam etdi.

- **yeni platformalar:** X-in ciddi alətə çevrilməsi ilə Threads, BlueSky və Telegram kimi rəqiblər meydana çıxıb. Diplomatlar artıq bir neçə platformanı izləməli və onlardan istifadə etməlidirlər.
- **blokçeyn jurnalistikası:** Civil xarakterli platformalar senzura edilə bilməyən mərkəzsiz xəbər otaqları üzərində təcrübələr aparır.

b. hansı tədbirlər görülməlidir?

- Platformaların cavabdehliyini təmin edən daha güclü beynəlxalq tənzimləmə tətbiq olunmalıdır.
- Dövlət təbliğatı əvəzinə müstəqil jurnalistikanı təşviq edilməlidir.
- Diplomatlar və liderlər rəqəmsal diplomatiya bacarıqları üzrə maarifləndirilməlidirlər.

Nəticə. X platforması, artıq sadəcə qısa paylaşımlar üçün yer deyil — o, xarici siyasətdə güclü bir alətə çevrilib. Bu platforma liderlərin, diplomatların və hətta adi insanların qlobal məsələlərdə necə ünsiyyət qurduğunu dəyişdi. Cəmi bir tvitlə ölkə güclü siyasi mesaj göndərə, beynəlxalq böhrana cavab verə və ya hətta danışıqlara başlaya bilər. Bu cür birbaşa və sürətli ünsiyyət əvvəllər mümkün deyildi.

Lakin bütün bu gücə baxmayaraq, X diplomatiyası həm də müəyyən risklər daşıyır. Dezinformasiya, onlayn hücumlar və ya yanlış anlaşmalar ölkələr arasında ciddi problemlərə səbəb ola bilər. Liderlər və hökumətlər bu platformanı məsuliyyətli şəkildə necə istifadə edəcəklərini öyrənməlidirlər, yalnız özlərini göstərmək və ya emosional açıqlamalar vermək üçün yox, pozitiv fəaliyyət üçün.

Rəqəmsal diplomatiya böyüməyə davam etdikcə, X kimi platformaların müasir siyasətə necə təsir etdiyini anlamaq çox vacibdir. Aydındır ki, sosial media beynəlxalq münasibətlərin bir hissəsi olaraq qalacaq, əsas məsələ isə onun necə daha ağıllı, ədalətli və sülhsevər şəkildə istifadə olunmasıdır.

ƏDƏBİYYAT

1. Adesina, O. S. (2017b). Foreign policy in an era of digital diplomacy. Cogent Social Sciences, 3(1). https://doi.org/10.1080/23311886.2017.1297175
2. “American coronavirus”: China pushes propaganda casting doubt on virus origin | Coronavirus | The Guardian. (n.d.-c). Retrieved June 11, 2025, from https://www.theguardian.com/world/2020/mar/12/conspiracy-theory-that-coronavirus-originated-in-us-gaining-traction-in-china
3. Bahar, H. M. (2020d). Social media and disinformation in war propaganda: how Afghan government and the Taliban use Twitter. Media Asia, 47(1–2), 34–46. https://doi.org/10.1080/01296612.2020.1822634
4. BREAKING NEWS - North Korea Tested Its Worst Year Ever Against Trump’s Policy In 2017. (n.d.-e). Retrieved June 11, 2025, from https://catch4all.com/positive/2017/Nuclear/ASOND2017NKdenk.htm
5. Can Journalists Use New Technologies to Build a Trusting, Sustaining Relationship with their Audiences? - National Civic League. (n.d.-f). Retrieved May 26, 2025, from https://www.nationalcivicleague.org/ncr-article/can-journalists-use-new-technologies-to-build-a-trusting-sustaining-relationship-with-their-audiences/?utm_source=chatgpt.com
6. Chen, K. A. (2023g). Digital nationalism: How do the Chinese diplomats and digital public view “Wolf Warrior” diplomacy? Global Media and China, 8(2), 138–154. https://doi.org/10.1177/20594364231171785
7. Comments (0). (n.d.-h). https://www.flickr.com/photos/eu_echo/49890272267
8. Courchesne, L., Rasikh, B., Mcquinn, B., & Buntain, C. (2022i). ESOC Working Paper No. 30 Powered by Twitter? The Taliban’s Takeover of Afghanistan. http://esoc.princeton.edu/wp30.
9. DISINFO DATABASE. (n.d.-j). Retrieved May 26, 2025, from https://euvsdisinfo.eu/disinformation-cases/
10. Donald Trump boasts his nuclear button is “much bigger and more powerful” than Kim Jong-un’s - ABC News. (n.d.-k). Retrieved June 11, 2025, from https://www.abc.net.au/news/2018-01-03/donald-trump-fuels-north-korea-tension-with-nuclear-button-claim/9301054

11. Duncombe, C. (2017l). Twitter and transformative diplomacy: social media and Iran–US relations. International Affairs, 93(3), 545–562. https://doi.org/10.1093/ia/iix048
12. Fact Sheet: What We Know about Russia's Interference Operations | German Marshall Fund of the United States. (n.d.-m). Retrieved June 11, 2025, from https://www.gmfus.org/news/fact-sheet-what-we-know-about-russias-interference-operations
13. Has X Been Dethroned? The Dynamic Landscape of Social Discourse Networks. (n.d.-n). Retrieved May 26, 2025, from https://www.piercom.com/news-insights/x-threads-bluesky-dynamic-social-discourse-network-landscape/?utm_source=chatgpt.com
14. How Finland starts its fight against fake news in primary schools | Finland | The Guardian. (n.d.-o). Retrieved May 26, 2025, from https://www.theguardian.com/world/2020/jan/28/fact-from-fiction-finlands-new-lessons-in-combating-fake-news?utm_source=chatgpt.com
15. How is Trump's reelection likely to affect US foreign policy? (n.d.-p). Retrieved June 11, 2025, from https://www.brookings.edu/articles/how-is-trumps-reelection-likely-to-affect-us-foreign-policy/
16. In 2024, RSF equipped over 640 journalists and 140 media outlets in conflict zones | RSF. (n.d.-q). Retrieved June 11, 2025, from https://rsf.org/en/2024-rsf-equipped-over-640-journalists-and-140-media-outlets-conflict-zones
17. Koblentz, E. (2022r). Use of Twitter Helped Taliban Regain Control in Afghanistan, Researchers Find. https://news.njit.edu/use-twitter-helped-taliban-regain-control-afghanistan-researchers-find
18. Media Literacy and Press Freedom in the 21st Century - United States Department of State. (n.d.-u). Retrieved May 26, 2025, from https://2017-2021.state.gov/media-literacy-and-press-freedom-in-the-21st-century/
19. Putin's crackdown on dissent: Moscow blocks BBC and Facebook over Ukraine war | The Independent. (n.d.-v). Retrieved June 11, 2025, from https://www.independent.co.uk/news/world/europe/russia-ukraine-putin-media-bbc-facebook-b2028941.html
20. Reuters | Breaking International News & Views. (n.d.-w). Retrieved June 11, 2025, from https://www.reuters.com/
21. The Consequences of Trump's Twitter Foreign Policy. (n.d.-z). Retrieved June 11, 2025, from https://www.fairobserver.com/region/north_america/ivan-farias-pelcastre-donald-trump-twitter-diplomacy-us-foreign-policy-news-14771/
22. Trump holds historic meeting with Kim with a tweet, handshake and "flowers of hope" | Reuters. (n.d.-ac). Retrieved June 11, 2025, from https://www.reuters.com/article/world/trump-holds-historic-meeting-with-kim-with-a-tweet-handshake-and-flowers-of-ho-idUSKCN1TV0GL/

САБИР МЕММЕДЛИ
Бакинский государственный университет, Факультет журналистики, профессор кафедры международной журналистики и информационной политики

ЭХАБ ИСМАИЛ
Бакинский государственный университет, Факультет журналистики, докторант кафедры международной журналистики и информационной политики

ВЛИЯНИЕ ДИПЛОМАТИЧЕСКИХ ВЫЗОВОВ ЧЕРЕЗ ПЛАТФОРМУ "X" (БЫВШАЯ "TWİTTER") НА СОВРЕМЕННУЮ ВНЕШНЮЮ ПОЛИТИКУ

В современном мире, связанном с цифровыми технологиями, X-платформа (бывшая Twitter) это не просто место для обмена мыслями, она стала важным инструментом международной дипломатии. В этой статье рассматривается, как X-платформа используется мировыми лидерами, правительствами и дипломатами для обмена сообщениями, является средством формирования глобального мнения и даже прямого влияния на внешнеполитические ре-

шения. Используя такие идеи, как «формирование повестки дня», «мягкая сила», авторы исследования объясняют процесс превращения X из базовой медиа-платформы в инструмент политического влияние и глобальной дипломатии.

В статье использованы такие конкретные факты X-дипломатии, как прямые твиты Дональда Трампа о Северной Корее, цифровая дипломатия Китая во время COVID-19, а также факты использования Россией и Украиной данной платформы во время войны. Эти примеры показывают, насколько быстрой, прямой и порой агрессивной может быть X-дипломатия. В исследовании также говорится о проблемах, связанных с X-платформой, в том числе о поддельных новостях, манипуляциях, онлайн-пропаганде, а также о том, как они влияют на доверие людей к СМИ. В итогой части статьи отмечается, что X-дипломатия изменила способ общения стран друг с другом на публике. Это говорит о том, что нам нужно лучше знать СМИ, раскрывать правила общения в социальных платформах и способствовать тому, чтобы лидеры гуманно использовали социальные сети и не создавали международных проблем.

Ключевые слова: X-дипломатия, цифровая дипломатия, внешняя политика, социальные медиа, общественное мнение, мягкая сила, интернет-пропаганда

SABIR MAMMADLI
Baku State University, Professor, Faculty of Journalism,
Chair of International Journalism and Information Policy

EHAB ISMAEL
Baku State University, Faculty of Journalism,
Doctoral student of the Department of International Journalism and Information Policy

IMPACT OF DIPLOMATIC CHALLENGES VIA PLATFORM "X" (FORMERLY "TWITTER") ON CONTEMPORARY FOREIGN POLICY

Today, in our digitally connected world, X (now called X) is no longer just a place for sharing thoughts, it has become an important tool in how countries do diplomacy. This article looks at how X is being used by world leaders, governments and diplomats to share messages, shape global opinion and even affect foreign policy decisions directly. With using ideas like agenda-setting, framing, and soft power, the study explains how X turned from a basic platform to something that is deeply involved in political influence and global communication.

The paper uses real-world examples like Donald Trump's direct tweets to North Korea, China's digital diplomacy during COVID-19, and how both Russia and Ukraine use X during their war. These examples show how fast, direct and sometimes aggressive X diplomacy can be. It also talks about the challenges that come with it, like fake news, deepfakes, online propaganda, and how it affects people's trust in media. In the end, the article says that X diplomacy has changed the way countries talk to each other in public. It suggests that we need better media awareness, more rules for platforms, and smarter ways for leaders to use social media without causing problems.

Keywords: X Diplomacy, Digital Diplomacy, Foreign Policy, Social Media, Public Opinion, Soft Power, Online Propaganda.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 31 mart 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-ci il.
Rəyçilər: s.e.d. Adil Mirabdullayev, t.ü.f.d. Məmmədağa Bəxışov.

UOT 327

KƏMALƏ RUİNTƏN
Siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Slavyan Universitetinin dosenti
https://orcid.org/0009-0006-1888-5240
k.ruintan@rambler.ru

DİPLOMATİYANIN ONTOLOJİ MAHİYYƏTİ: REALİST, LİBERAL VƏ KONSTRUKTİVİST YANAŞMALARIN MÜQAYİSƏLİ TƏHLİLİ

DOI: https://doi.org/10.36719/2708-065X/114/139-147

Məqalədə realizm, liberalizm və konstruktivizm nəzəriyyələrinin diplomatiyanın ontoloji mahiyyətinə dair yanaşmaları müqayisəli təhlil edilir. Hər üç məktəb beynəlxalq sistemin anarxik strukturunu qəbul etsə də, bu vəziyyətin doğurduğu nəticələri fərqli qiymətləndirir. Anarxiyanı dəyişməz hesab edən realizm diplomatiyanı milli maraqların qorunması və güc balansı uğrunda mübarizənin müvəqqəti aləti kimi görür. Bu yanaşmaya görə, dövlətlər arasında güc uğrunda mübarizəni qadağan etmək mümkün olsaydı, diplomatiya öz-özünə yox olardı. Liberalizm isə iddia edir ki, hətta anarxiya dövründə belə, diplomatiya rasional maraqları idarə etmək, qarşılıqlı asılılığı artırmaq və sülhü qorumaq üçün institusional mexanizm kimi xidmət edir. Konstruktivizmə görə isə anarxiya sabit deyil; dövlətlərin subyektiv düşüncə və davranışlarından asılı olaraq dəyişkəndir. Bu kontekstdə konstruktivistlər diplomatiyanı sadəcə alət deyil, həm də beynəlxalq aləmin "ortaq şüurunu", kimliyini, normalarını və sosial reallığını formalaşdıran dinamik bir proses olaraq qəbul edirlər.

Açar sözlər: diplomatiyanın ontologiyası, realizm, liberalizm, konstruktivizm, anarxiya, müqayisəli təhlil.

Giriş. Müasir dövrdə dövlətlərin öz xarici siyasət məqsədlərinə hərbi güc vasitəsilə nail olmağa çalışması diplomatiyanın çarəsizliyi kimi qiymətləndirilir [2, s.5]. Bu baxımdan diplomatiyaya hələ də ehtiyacın olub-olmadığını, yaxud onun ontoloji mahiyyətinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Digər tərəfdən diplomatiyanın dövlətlərin bir-birini aldatmaq, öz maraqlarına çatmaqda "sərt" gücə yardımçı olan "yumşaq güc" aləti, yoxsa qlobal fəlakətlərin qarşısını ala biləcək bir institut və ya sosial bir proses, yaxud münasibət forması olduğunu araşdırmaq zəruridir. Bu gün baş verən Ukrayna böhranı, Yaxın Şərqdəki gərginliklər, ABŞ-Çin rəqabəti və s. hadisələr göstərir ki, beynəlxalq problemlər yalnız iqtisadi və ya hərbi maraqlardan və rəqabətindən qaynaqlanmır. Onlar həm də dövlətlərin bir-birinə münasibətindən və qarşı dövlətin siyasətini özünə qarşı yönəlmiş düşmən mövqeyi olaraq dəyərləndirməsindən qaynaqlanır. "Bu problemlərin baş verməsi doğrudan da diplomatiyanın iflası kimi qiymətləndirilməlidirmi" kimi sualların yaranması da mövzunu aktual edən məsələlərdəndir.

Digər tərəfdən, süni intellektin, kiber idarəçiliyin və rəqəmsal kommunikasiyanın getdikcə daha çox inkişaf etməsi beynəlxalq münasibətlərin aparılması qaydaları ilə bağlı müxtəlif məzmunlu suallar yaradır və "diplomatiya" anlayışına yeni baxış tələb edir.

Diplomatiyanın ontoloji mahiyyətinin araşdırılması onun nə olduğunu dərk etməyə imkan verir. Diplomatiyanın nə olduğunu dərk etmədən isə onun böhranları həll etmək qabiliyyətini və metodlarını tətbiq etmək və proqnozlaşdırmaq mümkün deyil.

Mövzunun araşdırılmasında transdissiplinar yanaşma, ontoloji analiz, refleksiya, struktur-funksional təhlil, sistemli analiz, diskurs analiz, dialektik, tənqidi təhlil metodlarından istifadə edilərək realizm, liberalizm və konstruktivizm nəzəriyyələrinin diplomatiyanın ontoloji mahiyyətinə dair yanaşmaları araşdırılır və müqayisəli təhlil edilir.

"Diplomatiyanın ontoloji mahiyyəti" anlayışı. Diplomatiyanın ontoloji mahiyyəti onun varlıq səbəbini, beynəlxalq münasibətlər sistemində hansı fundamental reallığa əsaslandığını, sosial dünyanın qurulmasında necə rol oynadığını ifadə edir.

Ontoloji baxımdan diplomatiya varlıqların plüralizmindən - fərqli maraqların, sivilizasiyaların və suveren subyektlərin (dövlətlərin) eyni məkanda birgə mövcudluq reallığından doğur. Yəni, ontoloji olaraq diplomatiya - suveren siyasi subyektlərin (dövlətlərin) anarxik qlobal mühitdə birgəyaşayışını, ünsiyyətini və tarazlığını təmin edən fundamental varlıq forması, dialoq və qarşılıqlı tanınma mexanizmidir. Subyektlərin bir-birini tanıması və qarşılıqlı qəbul etməsi onların bir-birini məhv etmədən, öz varlıqlarını paralel şəkildə qorumasının yeganə yoludur və bu, onlar arasında dialoq vasitəsilə reallaşa bilər. Bu dialoqun diplomatiya yolu ilə həyata keçirilməsi mümkündür. Diplomatiyanın bu mahiyyəti onun sadəcə xarici siyasətin bir aləti deyil, beynəlxalq siyasi varlığın fundamental mövcudluq və ünsiyyət forması olduğunu göstərir.

Qeyd edək ki, diplomatiya təcrübəsi məkan və zamanla bağlı olmaqla mürəkkəb xarakterə malikdir. Diplomatiya onu həyata keçirənlərin özlərini harada hiss etməsindən asılı olaraq öz varlıq (ontoloji) mahiyyətini dəyişir və diplomatiya özü də dəyişikliyə uğrayır. Bununla, diplomatiyanın əhatə dairəsi ilə bağlı müxtəlif bilik formaları və normativ tələblər yaranır [6, s.145]. Bütün diplomatik modellərin, nəzəriyyələrin və normaların yaranma və formalaşma prosesi beynəlxalq münasibətlərin müxtəlif inkişaf mərhələləri ilə bağlı olduğu üçün onların hər biri öz yarandığı dövrün xüsusiyyətlərini özündə əks etdirir.

Diplomatiyanın ontoloji mahiyyətinə dair nəzəri yanaşmalar. *Realist yanaşmaya görə*, beynəlxalq sistemdə ali bir idarəedici mərkəz (dünya hökuməti) olmadığı üçün dövlətlər "anarxiya" şəraitində yaşayırlar. Belə mühitdə diplomatiyanın əsas məqsədi dövlətlərin sağ qalmasını və təhlükəsizliyini təmin etməkdir [4, s.59-61]. Realistlərə görə, eyni zamanda, diplomatiya universal mənəvi dəyərlərə və ya mücərrəd ideologiyalara deyil, "güc kontekstində müəyyən edilmiş milli maraqlara" xidmət etməlidir.

Realistlər diplomatiyanın arxasında hərbi və iqtisadi güc olduqda onun effektli olduğuna inanırlar. Klassik realizmin banisi olan H.Morqentau qeyd edir ki, diplomatiya öz aralarında nizamlı və dinc münasibətlər saxlamağa çalışan suveren dövlətlər arasında güc uğrunda mübarizədən başqa bir şey deyil. Əgər beynəlxalq aləmdə güc uğrunda mübarizəni qadağan etməyin bir yolu olsaydı, diplomatiya öz-özünə yox olardı. Əgər nizam və anarxiya, sülh və müharibə dünya dövlətləri üçün heç bir əhəmiyyət kəsb etməsəydi, onlar diplomatiyadan imtina edə, müharibəyə hazırlaşa və hər şeyin yaxşı olacağına ümid edə bilərdilər [11, s.431].

Realizm müharibəni qaçılmaz hesab edir və bu baxımdan onun təbiəti pessimistdir [4, s.61]. Öz realist baxışları ilə seçilən U.Çörçil[*] hətta düzgün aparılan diplomatiyanın *(iki qütb arasında – K.R.)* müharibənin qarşısını alacağına zəmanət vermədiyini qeyd edirdi. Lakin o belə diplomatiyanın müharibədən salamat çıxmağa ən yaxşı şans olacağına inanırdı [11, s.445].

İngilis beynəlxalq münasibətlər məktəbinin[*] yaradıcılarından olan Hedli Bull *(ing. Hedley Bull)* realizmə yaxın mövqedən yanaşaraq diplomatiyanın əsas funksiyasının dövlətlər arasındakı güc balansını *(ing. balance of power)* qorumaq və böyük dövlətlərin maraqlarını idarə etmək olduğunu qeyd edirdi [5]. H.Morqentau isə diplomatiyanın bilavasitə və dolayısı olmaqla iki mühüm funsksiya həyata keçirdiyini göstərir. Bilavasitə funksiya vasitəsilə o, münaqişələri azaldır və yumşaldır, dolayısı funksiya vasitəsilə "dünya icmasının" yaradılmasına şərait yaradır [4, s.69-70]. Qeyd edilənləri nəzərə alsaq, realist yanaşmaya görə diplomatiyanın *ontoloji funksiyası* digər dövlətlərin maraqları ilə öz dövlətinin maraqları arasında ortaq məxrəc tapmaq, kompromis formalaşdırmaqdır.

H.Morqentau diplomatiyanı milli gücün vacib elementlərindən olduğunu qeyd etməklə, onun hakimiyyətin demək olar ki, beyni *(ing. the brains of national power)* olduğunu vurğulayır [11, s.419, 105].

1970-ci illərdə (iki qütb (kapitalizm və sosializm) arasında yumşalma siyasətindən sonra) klassik realizmin bəzi müddəaları bir sıra aktual məsələlərə cavab verə bilmədiyi üçün bəzi siyasətçilərin tədqiqatlarının təsiri altında klassik realizmə əsaslanan *"struktur realizm" (ing. structural realism)*

---

[*] *Ser Uinston Leonard Spenser Çörçill (ing. Sir Winston Leonard Spencer-Churchill) (1874- 1965). ingilis siyasi və dövlət xadimi, 1940–1945 və 1951–1955-ci illərdə Böyük Britaniyanın baş naziri*

[*] *"ingilis məktəbi" nəzəriyyəsi beynəlxalq münasibətlər nəzəriyyəsində realizm və liberalizm nəzəriyyələri arasında müstəqil cərəyandır və özündə hər iki məktəbin müəyyən əlamətlərini birləşdirir [4, s.96).*

(yaxud *"neorealizm" (ing. neorealism))* adlanan yeni forması yarandı [4, s.72; 3, s.14-15]. Realizm və neorealizm arasında əsas fərqlərdən biri odur ki, klassik realizm nümayəndələri (H.Morqentau) müharibəni insan təbiəti ilə əlaqələndirirlər. Yəni insan eqoizmindən doğan digərləri üzərində hakim olmaq istəyi müharibələrə yol açır. Neorealist yanaşmaya görə isə dövlətlərin davranışı insan təbiətindən asılı olmayaraq beynəlxalq sistemin strukturu tərəfindən müəyyən edilir [7]. Neorealistlər belə hesab edirlər ki, dünya nizamı əvvəldən anarxiya vəziyyətindədir. Bu vəziyyət dövlətlərin fəaliyyətini şərtləndirir [4, s.72; 3, s.77] və dövlətlər arasında inamsızlığın artmasına səbəb olur. Gücün artması dövlətlər tərəfindən onların təhlükəsizliyini təmin edən əvəzolunmaz şərt kimi qəbul edilir. Dövlətlər arasında silahlanma yarışı isə təhlükəsizlik dilemmasına[*] *(ing. security dilemma)* gətirib çıxarır, bu da öz növbəsində gərginliyi artırır [13; 7].

Gücün maksimallaşdırılmasının tərəfdarı olan neorealistlər danışıqların arxasında duran hərəkətverici qüvvəyə diqqət yetirirlər. Onlar hesab edirlər ki, dövlətlərin qlobal əməkdaşlığa çağırışı təbii olsa da, hətta bu əməkdaşlıq belə amerika politoloqu, neorealizm nəzəriyyəsinin nümayəndəsi Kennet Uoltsun *(ing. Kenneth Neal Waltz (1924-2013)) "gücün maksimuma çatdırılması"* konsepsiyasına əsaslanır. Və bir dövlətin gücü həmişə onun danışıqlardakı gücünü müəyyən edəcək, daha güclü dövlətlərin rəhbərlik etdiyi danışıqlar daha az gücü olan dövlətlərin rəhbərlik etdiyi danışıqlardan daha çox effektə malik olacaq. Dövlət nə qədər güclüdürsə onun öz maraqları naminə güzəştə getmək ehtimalı da bir o qədər azdır [7].

Neorealist yanaşmaya əsasən dövlətlərin davranışı beynəlxalq sistemin strukturu tərəfindən müəyyən edildiyi üçün diplomatiya bu strukturu dəyişə bilməz, o sadəcə mövcud güc balansını idarə etmək üçün bir mexanizmdir. Diplomatiya ittifaqlar qurmaq və ya rəqibləri neytrallaşdırmaq vasitəsilə sistemdə tarazlıq yaratmağa xidmət edir.

Nəticə etibarilə, neorealistlər diplomatiyanın imkanlarını klassik realizmlə müqayisədə daha məhdud görürdülər.

Liberal yanaşmaya görə beynəlxalq reallıq yalnız anarxiya və rəqabətdən ibarət deyil. Realizmdən fərqli olaraq, liberallar beynəlxalq mühiti ortaq maraqlar, qarşılıqlı asılılıq və ortaq dəyərlər əsasında formalaşan sosial və hüquqi bir məkan olaraq görürlər.

Liberalizm cəmiyyətin təkamül prosesinə əsaslanır. Liberallar hesab edirlər ki, müharibə mükəmməl olmayan sosial münasibətlərin nəticəsidir, insan isə mükəmməl və tərəqqiyə can atan varlıqdır. Buna görə də müharibə insan təbiətinə ziddir [4, s.72; 3, s.48]. Liberallar dövlətlər arasında müharibələrin qarşısının alınmasına və sülhün yaradılmasına insan təfəkkürü, ağlı, elmi sayəsində nail olmağı real sayırlar. Bu baxımdan liberalizm öz mahiyyətinə görə nikbin xarakter daşıyır [4, s.72; 3 s.41].

Liberal beynəlxalq nizamın necə qurulduğunu araşdıran amerika politoloqu və nəzəriyyəçisi C.Con Aykenberri *(ing. G.John Ikenberry)* diplomatiyanın ontoloji mahiyyətinin dövlətləri ortaq konstitusional qaydalar çərçivəsində bir araya gətirmək və institusional nizam yaratmaq olduğunu qeyd edir [8, s. 60-63].

Beləliklə, liberalizm diplomatiyanı sadəcə dövlətlərin güc aləti kimi deyil, qlobal idarəçiliyi formalaşdıran ortaq qaydalar, beynəlxalq hüquq və institutlar yaradan, münaqişələri sivil qaydada həll edən ali bir varlıq forması kimi görür. Yəni, diplomatiya beynəlxalq əməkdaşlığı və nizamı quran əsas struktur element - institutdur. Liberalizmə görə, diplomatiya yalnız dövlətlərin deyil, həm də beynəlxalq hüququn və qeyri-dövlət aktorların birgə mövcudluq platformasıdır.

1970-ci illərdə neorealizmin geniş yayılmasına cavab olaraq 1980-cı illərdə amerikalı politoloqlar Robert Koheyn *(ing. Robert Keohane)* və Jozef Nay *(ing. Joseph Nye)* tərəfindən ***neoliberalizm*** *(ing. neoliberalism)* nəzəri istiqməti formalaşdırılır [4, s.72; 3, s.86].

Neoliberallar dövlətin rolunun minimallaşdırılmasının tərəfdarıdırlar və əməkdaşlığı təşviq edirlər. R.Koheyn, dövlətlər arasında əməkdaşlıq üçün hegemon dövlətin şərt olmasını irəli sürən

[*] ***Təhlükəsizlik dilemması*** *– paradoksal bir vəziyyəti ifadə edir. Bu anlayış, iki və ya daha çox dövlət arasında bir-birinə münasibətdə daha çox təhlükəsizliyə nail olmaq məqsədilə başlayan, lakin sonda hərbi münaqişə və ya daha çox təhlükəsizliyə gətirib çıxaran rəqabəti ifadə edir. Təhlükəsizlik dilemması beynəlxalq arenadakı anarxiyadan yaranır, çünki dövlətlər bir-birlərinin davranışlarının hansı mənaya gəldiyini — müdafiə və ya hücum meyilli olduğunu başa düşməkdə çətinlik çəkirlər.*

neorealistlərdən fərqli olaraq, əməkdaşlığın hegemon dövlətin olmadığı şəraitdə mümkün olduğu fikrini müdafiə edir. Çünki hegemon dövlətin olmaması dövlətlərə bərabər hüquqlarla çoxtərəfli əməkdaşlıq üçün əlverişli şərait yaradır. J.Nay isə siyasi məqsədə çatmağı güc vasitəsilə mümkün sayan realistlərdən fərqli olaraq, qarşı tərəfi *"yumşaq güc"* tətbiq edərək əməkdaşlığa cəlb etməyin tərəfdarıdır [4, s.72; 3, s.86-88].

Neoliberalizmin nümayəndələri belə hesab edirlər ki, dünyanın daimi anarxiya vəziyyətində olmasının səbəbi mərkəzləşdirilmiş dünya hökumətinin olmamasıdır. Dövlətlər bu vəziyyətdə qalmaq istəmədikləri üçün silahlanma yarışı və təhlükəsizlik dilemmasının* yaratdığı gərginliyi azaltmaq, əməkdaşlığı simulyasiya etmək və tərəflərə müəyyən bir səviyyəyə qədər fayda verəcək qarşılıqlı anlaşmaya nail olmaq məqsədilə birləşirlər. Lakin bu səviyyə diplomatiyada iştirak edən bütün subyektlərin iştirakı ilə müəyyən edilməlidir. Danışıqlar elə bir nöqtəyə çatmalıdır ki, bu, bütün tərəflərin razılığa gəlməsinə imkan versin [7].

Konstruktivist yanaşma. İkiqütblü dünyanın süqutuna aparan hadisələrin baş verdiyi 1980-ci illərin sonlarında realizm və liberalizm məktəblərinin baş verən hadisələri izah edə bilmədiyi bir dövrdə yaranmış *konstruktivizm* isə beynəlxalq sistemi materialist (silah, pul) deyil, sosial reallıq (ideya, kimlik, norma və mədəniyyət) kimi qəbul edir. Konstruktivistlər beynəlxalq aktorların kimliklərinin və maraqlarının təhlil olunmasına xüsusi əhəmiyyət verirlər. Onlar dövlətin davranışının məhz kimliklər, normalar və ideyalar tərəfindən formalaşdığını iddia edirlər. Bu amillər müəyyən edilmədən beynəlxalq aktorların beynəlxalq sistemdə fəaliyyətlərini anlamaq mümkün deyil [4, s.123, 128].

Konstruktivizm məktəbinin nümayəndəsi Aleksandr Uent *(ing. Alexander Wendt)* məşhur *"Anarxiya dövlətlərin ondan nə düzəltdiyidir"** tezisini irəli sürüb [15, s. 70]. Bu o mənadadır ki, anarxiyanın necə bir mühitə çevriləcəyi bu şəraitdə dövlətlərin bir-birinə yanaşmasından, onların bir-bir ilə davranşı və sosial qarşılıqlı əlaqəsindən asılıdır. Yəni dövlətlər öz davranışları, qorxuları, ideyaları və kimlikləri ilə anarxiyanın necə bir mühitə çevriləcəyini şərtləndirirlər. A.Uent əsaslandırır ki, dövlətlər diplomatik münasibətlər, dil və qarşılıqlı təsir vasitəsilə bir-birlərini "düşmən", "rəqib" və ya "müttəfiq" olaraq formalaşdırırlar. Bu fikir göstərir ki, dünya siyasətində anarxiya təbii və dəyişməz xaos deyil, dövlətlərin bir-biri ilə qarşılıqlı münasibətləri, ortaq dəyərləri və inamları əsasında formalaşdırdığı sosial reallıqdır [14; 15]. Bu baxımdan konstruktivizm nəzəriyyəsi mahiyyət etibarilə nikbin xarakterlidir. Müvafiq olaraq, konstruktivistlər müharibəni insanların və dövlətlərin bir-biri haqqındakı ideyalarının, inanclarının və sosial qarşılıqlı əlaqələrinin məhsulu olaraq görürlər.

İsveçdəki Lund Universitetinin *(ing. Lund University)* siyasi elmlər üzrə mütəxəssisləri Krister Yönsson *(ing. Christer Jönsson)* və Martin Holl *(ing. Martin Hall)* diplomatiyaya xüsusilə konstruktivist prizmadan yanaşaraq onu bir metod kimi deyil, tam bir institut olaraq görürlər. Onlar, eyni zamanda, diplomatiyanı XV əsrdə İtaliyada yaranan müasir dövlət sisteminin bir təsisatı olaraq təqdim edən tədqiqatçılardan fərqli olaraq, onu *"insanların son bir neçə yüz ilin suveren, ərazi dövlətlərində yaşamaq təcrübəsindən daha əvvəl və onları (dövlətləri – K.R.) aşan mövcud vəziyyəti ifadə edən əbədi beynəlxalq təsisat"* olaraq qəbul edirlər [9, s.3]. Yəni, diplomatiyanı zamandan asılı olmayan mövcud bir fenomen olaraq görürlər.

Krister Yönsson və Martin Holl diplomatiyanın tarixi şəraitə uyğun dəyişikliklərin baş verə biləcəyi bir sıra vacib, yaxud fundamental aspektlərini araşdırarkən onun mahiyyətini formalaşdıran "*kommunikasiya"*, "*təmsilçilik"* və "*beynəlxalq cəmiyyətin yenidən təşkili"* kimi üç əsas ölçüsünü müəyyən edirlər. Müəlliflər bu ölçülərin diplomatiyanın nəzəri əsaslarını formalaşdırdığını və konstitutiv (təsisedici) xarakter daşıdığını vurğulayırlar [9, s.4]. ABŞ-ın Minnesota Universitetinin professoru Pol Şarp qeyd edir ki: *"İnsan varlığı kim olduğumuz və necə yaşadığımız barədə həmrəylik*

---

* *Beynəlxalq münasibətlər sistemində "təhlükəsizlik dilemması" (ing. security dilemma) dövlətlərin bir-birinə qarşı davranışlarını, niyyətlərini və bu niyyətlərin necə anlaşılacağını izah edən əsas anlayışlardan biridir. İlk dəfə 1950-ci illərdə John Herz və Herbert Butterfield tərəfindən irəli sürülən bu konsepsiyaya görə, bir dövlət öz təhlükəsizliyini təmin etmək üçün silahlanmaya və ya hərbi müttəfiqliklərə yönəldikdə, digər dövlətlər bu tədbirləri təhdid kimi qəbul edir və qarşılıq olaraq oxşar addımlar atırlar. Beləcə, hər iki tərəf öz təhlükəsizliyini artırmaq istəyərkən əksinə daha qeyri-sabit və riskli bir mühit yaranır* [1].

* *Anarchy is what states make of it*

deyil, plüralist təsəvvürlərlə müəyyən edildiyi müddətcə, fərqli qruplar arasındakı münasibətlər davam edəcək. Bu münasibətlər ünsiyyət, təmsilçilik və yenidən təşkil proseslərini əhatə etməlidir. Bu üç elementin imkanları zaman və məkana görə dəyişə bilər. Lakin, özlüyündə onlar diplomatiyanın vacib elementləridir və (bu,) diplomatiyanın özünün beynəlxalq münasibətlərin ən vacib elementi olduğunu göstərirlər" [9, **s**.ıx].

Beləliklə, konstruktivizm nəzəriyyəsində diplomatiya sadəcə mövcud olan materialist maraqları ötürən bir "kanal" deyil. O, reallığın özünü, yəni beynəlxalq sistemi var edən, dövlətlər arasındakı münasibətləri, kimlikləri ("sülhsevər", "böyük güc", "neytral və ya müttəfiq dövlət"), normaları və münasibətləri sıfırdan inşa edən sosial reallıq və interaktiv prosesdir. Diplomatik dil, rituallar və normalar dəyişdikcə, beynəlxalq sistemin özü də dəyişir. Yəni diplomatiya, beynəlxalq münasibətlərin subyektiv dünyasını yaradan və ona forma verən əsas sosial təcrübə olaraq qəbul edilir.

1990-cı illərdə formalaşmağa başlayan ***yeni konstruktivizmin*** *(ing. new constructivism)* dövlətləri əsas götürərək "milli maraqların" formalaşmasını təhlil edən klassik konstruktivizmdən əsas fərqi onun daha çox fərdlərin, diplomatların gündəlik vərdişlərinə (təcrübə nəzəriyyəsi), emosiyalara, dövlətlərin psixoloji kimlik böhranlarına və sosial şəbəkə analizinə diqqət ayırır. Beynəlxalq münasibətlərdə bu istiqamət hazırda qlobal münaqişələrin rəqəmsal və psixoloji tərəflərini izah etmək üçün fəal şəkildə istifadə olunan elmi yanaşmadır [10].

Müqayisəli təhlil. Realizm, liberalizm və konstruktivizm nəzəri məktəblərinin diplomatiyaya baxışını ümumiləşdirib bu üç əsas məktəbin diplomatiyanın mahiyyətinə və varlıq formasına dair fundamental fərqlərə malik olduğunu görürük.

Realizm diplomatiyanı bir güc aləti kimi, liberalizm əməkdaşlıq institutu və qlobal idarəçiliyi formalaşdıran ortaq qaydalar, konstruktivizm isə beynəlxalq aləmin normalarını, dövlətlərin kimliklərini inşa edən sosial qarşılıqlı əlaqə prosesi kimi qəbul edir.

Qeyd etmək lazımdır ki, realistlərdən fərqli olaraq, liberallar və konstruktivistlər diplomatiyanın sadəcə güc tətbiqindən qaçmaq üçün müvəqqəti bir alət olmadığına, onun qlobal nizamın qurulmasında əsas sütun olduğuna inanırlar. Hər iki nəzəri məktəbin nümayəndələri diplomatiyanı qlobal idarəçiliyi və beynəlxalq aləmi formalaşdıran ortaq qaydalar, normalar və təsisatlar sistemi olaraq görsələr də bu ortaq qaydaların yaranması və təsiri ilə bağlı yanaşmada bu iki məktəb arasında əhəmiyyətli fərqlər mövcuddur. Liberallar üçün diplomatiya və onun yaratdığı ümumi qaydalar rasional maraqların idarə edilməsi və mənfəət mexanizmidir. Konstruktivistlər üçün isə diplomatiya həm də beynəlxalq aləmin "ortaq şüurunu", kimliyini və sosial reallığını formalaşdıran bir prosesdir.

Realizm, liberalizm və konstruktivizm nəzəriyyələrinin hər üçü beynəlxalq sistemin strukturunun anarxik olduğu, yəni, beynəlxalq sistemdə dövlətlərin fövqündə duran, mərkəzləşdirilmiş ali hakimiyyətin olmaması fikrindən çıxış edirlər. Lakin onlar anarxiyanın dövlətlərə diktə etdiyi davranışlara və onun nəticələrinə fərqli aspektlərdən yanaşırlar.

Realizmə görə: anarxiya dəyişməzdir; dövlətlər arasında rəqabət və müharibə qaçılmazdır. Anarxiya dövlətləri daimi qorxu altında saxlayır, onları güc balansı yaratmaq və silahlanma yarışına məcbur edir. Dövlət özü özünü qorumalıdır. Sülh isə yalnız müvəqqəti atəşkəsdir;

Liberalizmə görə: anarxiyanın yaratdığı güvənsizliyi beynəlxalq institutlar (təşkilatlar), beynəlxalq hüquq, demokratik idarəetmə və iqtisadi asılılıq (ticarət) vasitəsilə aradan qaldırmaq mümkündür. Yəni, dövlətlər anarxiya şəraitində də ortaq maraqlar tapıb daimi əməkdaşlıq edə bilərlər və beynəlxalq institutlar dövlətlərin bir-birinə olan güvənsizliyini azaldar;

Konstruktivizmə görə: anarxiya sabit deyil. O, dövlətlərin münasibətlərindən asılıdır və vəziyyətə görə dəyişkəndir. Yəni anarxiya (realistlərin iddia etdiyi kimi) avtomatik olaraq müharibəyə və ya (liberalların iddia etdiyi kimi) sülhə yol açmır. Hər şey dövlətlərin bir-birini necə qəbul etməsindən, onların kimliyindən və ideyalardan asılıdır. Dövlətlər bir-birini düşmən görürlərsə təhlükə yaranır, bir-birinə dost kimi yanaşarlarsa bu, dosluq, yaxud əməkdaşlıq yaradır.

Diplomatiyanın məqsədi:

realizmə görə - milli maraqları qorumaq, güc balansını idarə etmək və sağ qalmaq;

liberalizmə görə - qarşılıqlı asılılığı artırmaq, ticarəti inkişaf etdirmək və sülhü qorumaq;

konstruktivizmə görə - yeni normalar və qarşılıqlı güvən yaratmaq və kimlikləri formalaşdırmaqdır.

Liberallar diplomatiyanın açıq aparılmasının tərəfdarıdırlar. Liberalizm nəzəriyyəsinin tərəfdarı olan V.Vilson belə hesab edirdi ki, beynəlxalq aləmdə müşahidə edilən qeyri-sabitliyin və münaqişələrin səbəbi beynəlxalq siyasətin qeyri-demokratik olması ilə bağlıdır. Beynəlxalq siyasətin demokratikliyini isə gizli diplomatiyadan imtina etməklə təmin etmək mümkündür [4, s.42, 61]. Realistlərə görə isə uğurlu diplomatiya ictimaiyyətdən uzaq, gizli və peşəkar diplomatlar tərəfindən aparılmalıdır. Çünki "açıq diplomatiya" siyasi təzyiqlərə açıqdır və kompromisləri çətinləşdirir [4, s.64]. Konstruktivistlər diplomatiyanın açıq və ya qapalı aparılmasına iddia edən konkret mövqe göstərməsələr də nəzəriyyənin mahiyyəti etibarilə onların açıq diplomatiyaya, şəffaflığa və ictimai diplomatiyaya daha meylli olduqlarını demək olar**.** Eyni zamanda, qeyd etmək lazımdır ki, konstruktivist yanaşmaya görə demokratiya üçün zəruri mədəni, tarixi və siyasi şərait olmayan cəmiyyətdə o zorla yeridilməməlidir. Çünki bu, cəmiyyətin inkişafına əks-təsir göstərə bilər [4, s.125].

Neoliberal nəzəriyyəyə görə, diplomatiya milli dövlətlərin gərginliyi azaltmaq üçün təşviq etdikləri əməkdaşlıq və koordinasiya, neorealistlərə görə isə bir dövlətin xarici siyasətinin proyeksiyasıdır. Bu proyeksiyanın intensivliyi onun beynəlxalq ictimaiyyətdəki təsiri ilə müəyyən edilir [7].

Realist yanaşmaya görə diplomatiyanın aktorları yalnız mərkəzi dövlətlər və diplomatlar olsa da neoliberallar dövlətin rolunun minimallaşdırılmasının tərəfdarıdırlar. Liberallar diplomatiyada beynəlxalq hökumətlərarası və qeyri hökumət qurumlarının, həmçinin transmilli şirkətlərin də iştirakını dəstəkləyirlər və əməkdaşlığı təşviq edirlər. Konstruktivistlər ictimai hərəkatları, ideya daşıyıcıları, diplomatik korpusları da diplomatiyanın subyekti olaraq qəbul edirlər.

Rəqəmsal diplomatiyanın nəzəriyyələr baxımından dəyərləndirilməsi və irəli sürülən fərziyyələr. Rəqəmsallaşmanın diplomatiyanın ontoloji mahiyyətini dəyişdiyini demək o qədər də düzgün olmazdı. Lakin rəqəmsallaşmanın diplomatiyaya təsirinə adı çəkilən üç nəzəri məktəbin prizmasından baxsaq qeyd etmək lazımdır bu proses diplomatiyaya metodologiya, subyekt, məna və normalar baxımından öz təsirini göstərib onun imkanlarını müəyyən mənada genişləndirib, yaxud məhdudlaşdırıb. Rəqəmsallaşma dövründə diplomatiyanı göstərilən nəzəriyyələr baxımından təhlil etdikdə aşağıdakıları diqqətə çatdırmaq olar:

Realizm aspektindən baxdıqda rəqəmsallaşma diplomatiyanın ontoloji mahiyyətini dəyişmir, beynəlxalq sistem hələ də anarxikdir, əsas aktorlar dövlətlər olaraq qalır. Bununla yanaşı, güc tətbiqi üçün yeni ***alətlər*** *və* ***mübarizə meydanı*** yaranır. Dövlətlər rəqəmsal texnologiyalardan və onların yaratdığı imkanlardan (məsələn, süni intellektdən) öz milli maraqlarını qorumaq və təsir dairələrini genişləndirmək üçün istifadə edirlər. Bu baxımdan rəqəmsal diplomatiyanın realistlər üçün "sərt gücün" diplomatik davamı olduğunu demək mümkündür. Eyni zamanda, dövlətlər öz rəqəmsal suverenliklərini* qorumağa çalışdıqları üçün diplomatiya burada kibertəhlükəsizlik ittifaqları yaratmaq və kibertəhdidləri dəf etmək funksiyası daşıyır.

Liberal prizmadan dəyərləndirdikdə də rəqəmsallaşmanın diplomatiyanın ontoloji mahiyyətini dəyişmədiyini görürük. Lakin onun subyektlərinin əhatə dairəsi genişlənir. Yeni - "Google", "Meta", "Starlink" və s. texnologiya nəhəngləri kimi qeyri-dövlət aktorları da diplomatiyanın subyektinə çevrilir. Rəqəmsallaşma liberalların mövqeyinə uyğun olaraq, diplomatiyanı cəmiyyət üçün açıq, xalq üçün əlçatan edir, onların da diplomatiyaya fəal şəkildə cəlb edilməsinə imkan yaradır. Eyni zamanda, liberal düşüncələrə uyğun olaraq, sosial şəbəkələr, informasiya axını qarşılıqlı rəqəmsal asılılıq yaradır. Bu asılılıq dövlətləri rəqəmsal platformalarda konsensus axtarmağa və əkəkdaşlığa sövq edir.

Konstruktivist yanaşmadan baxdıqda beynəlxalq sistem hələ anarxikdir, lakin rəqəmsallaşma diplomatiyaya yeni yanaşma formalaşdırır, rəqəmsal mühit isə yeni diplomatik normalar inşa edir.

---

* *Rəqəmsal suverenlik (ing. digital sovereignty) bir dövlətin, təşkilatın və ya fərdin öz rəqəmsal məlumatları, infrastrukturu, texnologiyaları və rəqəmsal mühitdəki fəaliyyətləri üzərində tam nəzarətə və müstəqil qərarvermə hüququna sahib olmasıdır. Bu, dövlət səviyyəsində - onun öz vətəndaşlarının məlumatlarını xarici ölkələrin və ya transmilli texnologiya korporasiyalarının (məsələn, Google, Meta, Microsoft və s.) təsirindən qoruması, öz daxili internet infrastrukturunu idarə etməsi və rəqəmsal sahələr üzrə qanunlar qəbul etməsidir.*

Dövlətlər rəqəmsal məkanda özlərinin yeni imicini və rəqəmsal kimliyini formalaşdırır. Diplomatiyanın dili rəqəmsal simvollar vasitəsilə yenidən kodlaşdırılır. Konstruktivist yanaşmadan baxdıqda alqoritmlər neytral deyil, onlar hansı mövzunun qlobal gündəmə çevriləcəyinə təsir edərək sosial reallığı manipulyasiya edir. Bu iddia "texnofeodalizm" konsepsiyasının* mahiyyəti ilə üst-üstə düşür. Texnofeodalizm seçimlərimizin artıq özümüzə məxsus olmadığını, onların daha çox "bulud" (ing. cloud) adlandırılan maşın şəbəkələri tərəfindən formalaşdırıldığı fikrini irəli sürür. Bu nəzəriyyə görə "bulud" elə bir qapalı geri-dönüş dövriyyəsi yaradıb ki, bu bizi proseslərə təsir etmək imkanından məhrum edir. Biz alqoritmi bizə istədiyimizi tapmaq üçün təlimatlandırırıq, daha sonra isə alqoritm bizə özünün təklif etdiyi şeyləri bəyənməyi öyrədir [12].

Liberal və konstruktivist yanaşmalara əsasən qeyd etmək olar ki, rəqəmsallaşma beynəlxalq sistemi anarxik vəziyyətdən çıxararaq onu vahid rəqəmsal mərkəzə bağlaya, həmçinin beynəlxalq subyektlər arasında qarşılıqlı asılılığı və əməkdaşlığı möhkəmləndirib qlobal sülh mühiti formalaşdıra bilər. Lakin hadisələrə realist mövqedən yanaşdıqda, bu transformasiyanın beynəlxalq sistemi anarxik olmaqdan çıxarıb daha təhlükəli bir xaosa sürükləyəcəyini ehtimal etmək olar. Belə ki, rəqəmsal texnologiyalara hakim olan və süni intellekt alqoritmlərini idarə edən dövlət və ya qeyri-dövlət subyektləri arasında gələcəkdə destruktiv və faciəvi toqquşmalar baş verə bilər. Bu kontekstdə (transmilli korporasiyaların qlobal maraqlarının və resurslarının dövlət maraqlarını üstələdiyini nəzərə alsaq) ənənəvi dövlət-mərkəzli klassik nəzəriyyələrin hüdudlarını aşan yeni bir reallıq yaranır. Nəticə etibarilə, bulud sistemləri, qlobal rabitə xətləri və alqoritmlər kimi qlobal kritik infrastrukturları idarə edən rəqəmsal platforma nəhənglərinin beynəlxalq sistemi fərqli bir "texnofeodalizm" mühitinə sürükləyərək özlərinin qlobal idarəçiliyin əsas aparıcı subyektlərinə çevriləcəyi və dövlətlərin də onlardan asılı vəziyyətə düşəcəyi mühüm bir fərziyyə olaraq nəzərdən keçirilməlidir.

Nəticə. Araşdırmadan belə nəticəyə gəlirik ki, realizm, liberalism və konstruktivizm nəzəri məktəblərinin diplomatiyanın ontologiji mahiyyətinə yanaşmaları bir-birindən fərqlənir. Realizm məktəbinin yanaşmasına görə diplomatiya - güc balansını tənzimləmək, müharibə risklərini idarə etmək və dövlətin milli maraqlarını digər dövlətlərə diktə etmək üçün istifadə olunan praqmatik həyatakeçirmə mexanizmidir. Arxasında hərbi güc olmayan diplomatiya mövcud deyil.

Liberal yanaşmaya görə, beynəlxalq reallıq yalnız anarxiya və rəqabətdən ibarət deyil, o, dövlətlərin deyil, həm də beynəlxalq hüququn digər subyektləri və qeyri-dövlət aktorların birgə mövcudluq platformasıdır. Liberalistlər diplomatiyanı beynəlxalq əməkdaşlığı təmin edən, münaqişələri sivil qaydada həll edən və qlobal idarəçiliyi formalaşdıran ali mexanizm - institut olaraq qəbul edirlər.

Konstruktivizm beynəlxalq sistemi materialist deyil, sosial reallıq kimi qəbul edir. Bu məktəbə görə diplomatiya reallığı yalnız əks etdirmir, o, beynəlxalq münasibətləri yaradır və ona forma verir.

Qeyd etmək lazımdır ki, bu gün baş verən Ukrayna böhranı, Yaxın Şərqdəki gərginliklər və ABŞ-Çin rəqabəti göstərir ki, problem yalnız realistlərin təsəvvür etdiyi kimi iqtisadi və ya hərbi maraqların qorunması və güc balansı uğrunda mübarizə deyil. Problem həm də konstruktivistlərin iddia etdiyi kimi dövlətlərin dünyanı və bir-birini necə "təsəvvür etməsidir". Bu baxımdan, realizm və konstruktivizm məktəblərinin baxışları eyni reallıqda birləşir. Digər tərəfdən isə realistlərin iddia etdiyi "daimi qorxu və rəqabət" təfəkkürü ilə konstruktivizmin irəli sürdüyü "ortaq şüur və normalar" real siyasətdə bir-birilə toqquşur**.**

Liberalizm və onun hadisələrin qarşısını ala biləcək qabaqlayıcı tədbirlər görməyə nail ola bilməyən institusional mexanizmləri isə sanki passiv müşahidəçi mövqeyi tutub. Bu baxımdan, liberalların təklif etdiyi ümumi qaydalar təcrübədə sadəcə heç bir əməli nəticəsi olmayan bəyanat formasından kənara çıxa bilmir.

Rəqəmsallaşmanın diplomatiyaya təsirinə gəldikdə isə liberal və konstruktivist yanaşmalar əsasında aparılan təhlildən belə qənaətə gəlmək olar ki, rəqəmsallaşma beynəlxalq sistemi anarxik

---

* *"texnofeodalizm" (ing.* technofeudalism*) 2000-ci illərin əvvəllərindən başlayaraq rəqəmsal cəmiyyəti araşdıran filosoflar və alimlər arasında illərlə davam edən müzakirələrin nəticəsində formalaşmış bir anlayışdır. Lakin bu anlayış iqtisadçı və Yunanıstanın keçmiş maliyyə naziri Y.Varufakisin "Texnofeodalizm: kapitalizmi nə öldürdü" əsəri vasitəsilə populyarlaşıb. O, kapitalizmin daha mütərəqqi bir sistemlə, keçmişi daha çox xatırladan bir quruluşa - rəqəmsal obrazda olan feodalizmə çevrilməkdə olduğunu iddia edir [17; 16].*

vəziyyətdən çıxararaq onu vahid rəqəmsal mərkəzə bağlaya, həmçinin beynəlxalq subyektlər arasında qarşılıqlı asılılığı və əməkdaşlığı möhkəmləndirib qlobal sülh mühiti formalaşdıra bilər. Lakin hadisələrə realist mövqedən yanaşdıqda, bu transformasiyanın beynəlxalq sistemi anarxik olmaqdan çıxarıb onu "texnofeodalizm" elementlərinin üstünlük təşkil etdiyi yeni və proqnozlaşdırılması çətin olan bir xaosa sürükləyəcəyini də ehtimal etmək olar.

ƏDƏBİYYAT

1. Alakbarzada M. Təhlükəsizlik Dilemması (31.05.2025) URL: https://tr.linkedin.com/pulse/t%C9%99hl%C3%BCk%C9%99sizlik-dilemmas%C4%B1-mahammad-alakbarzada-ph-d-c--rbl8e [15.06.2026].
2. Eyyubov A. Diplomatiyanın əsasları. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010, 86 s.
3. Filip Brayar, Mohammad-Rza Cəlili. Beynəlxalq münasibətlər. Bakı, "Azərbaycan" nəşriyyatı, 2010, 128 s.
4. Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı, 2022, 260s.
5. Bull H. The Anarchical Society: A Study of Order in World Politics. 4th ed. Columbia University Press, 2012, 368 p.
6. Costas M. Constantinou. Between Statecraft and Humanism: Diplomacy and Its Forms of Knowledge // International Studies Review, 2013. *15* (2), 141–162. DOI:10.1111/misr.12037
7. Ghosh K. The Evolution of Diplomacy: From Classical to Modern URL:https://www.academia.edu/11002933/The_Evolution_of_Diplomacy_From_Classical_to_Modern [15.06.2026].
8. Ikenberry G. John. After Victory: Institutions, Strategic Restraint, and the Rebuilding of Order After Major Wars. Princeton, Princeton University Press, 2001. xiii + 293 p.
9. Jönsson C., Hall M. Essence of diplomacy. Palgrave Macmillan, 2005, 216 p.
10. McCourt David M. The New Constructivism in International Relations Theory. 1st ed., Bristol University Press, 2022. 224 p. JSTOR, doi:https://doi.org/10.2307/j.ctv293p48m
11. Morgenthau H.J. Politics among nations: The struggle for power and peace. Alfred A. Knopf, 1948, 650 p.
12. Technofeudalism As Explained By Yanis Varoufakis (november 4, 2023) URL: https://sandersinstitute.org/technofeudalism-explained-with-yanis-varoufakis [15.06.2026].
13. Waltz K.N. Theory of international politics. First Edition. New York: McGraw-Hill, 1979, 250p.
14. Wendt A. Anarchy is what States Make of it: The Social Construction of Power Politics // International Organization, Vol. 46, No. 2 (Spring, 1992), pp. 391-425. URL: http://www.jstor.org/stable/2706858 [15.06.2026].
15. Wendt A. Social Theory of International Politics. Cambridge University Press, 1999, 429 p.
16. What Is Technofeudalism? (12.06.2026) URL: https://forklog.com/en/what-is-technofeudalism/ [15.06.2026].
17. Varoufakis Y. Technofeudalism: What Killed Capitalism. London: Bodley Head, 2023, 304 p.

КЯМАЛЯ РУИНТАН
Доцент Бакинского Славянского Университета,
Доктор философии по политическим наукам

ОНТОЛОГИЧЕСКАЯ СУЩНОСТЬ ДИПЛОМАТИИ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ РЕАЛИСТИЧЕСКОГО, ЛИБЕРАЛЬНОГО И КОНСТРУКТИВИСТСКОГО ПОДХОДОВ

В статье представлен сравнительный анализ подходов реализма, либерализма и конструктивизма к онтологической сущности дипломатии. Несмотря на то, что все три школы признают анархичную структуру международной системы, они по-разному оценивают её последствия. Реализм, считающий анархию неизменной, рассматривает дипломатию как временный

инструмент защиты национальных интересов и борьбы за баланс сил. Согласно этому подходу, если бы было возможно запретить борьбу за власть между государствами, дипломатия исчезла бы сама по себе. Либерализм утверждает, что даже в условиях анархии дипломатия служит институциональным механизмом для управления рациональными интересами, усиления взаимозависимости и поддержания мира. Согласно конструктивизму, анархия не статична, а изменчива в зависимости от субъективных представлений и поведения государств. В данном контексте конструктивисты воспринимают дипломатию не просто как инструмент, а как динамичный процесс, формирующий «общее сознание», идентичность, нормы и социальную реальность международного сообщества.

Ключевые слова: онтология дипломатии, реализм, либерализм, конструктивизм, анархия, сравнительный анализ.

KAMALA RUINTAN
Associate professor of Baku Slavic University
Doctor on Philosophy in Political Science

THE ONTOLOGICAL ESSENCE OF DIPLOMACY: A COMPARATIVE ANALYSIS OF REALIST, LIBERAL, AND CONSTRUCTIVIST APPROACHES

The article provides a comparative analysis of the approaches of realism, liberalism, and constructivism toward the ontological essence of diplomacy. Although all three schools acknowledge the anarchic structure of the international system, they interpret its consequences differently. Realism, viewing anarchy as immutable, perceives diplomacy as a temporary tool for national survival and the balance of power. According to this view, if it were possible to prohibit the struggle for power among states, diplomacy would cease to exist. Liberalism argues that even under anarchy, diplomacy serves as an institutional mechanism to manage rational interests, increase interdependence, and sustain peace. For constructivism, however, anarchy is not static but fluid, depending on states ideas and behaviors. In this context, constructivists conceptualize diplomacy not merely as an instrument, but as a dynamic process that shapes the “shared consciousness”, identity, norms, and social reality of the international realm.

Keywords: ontology of diplomacy, realism, liberalism, constructivism, anarchy, comparative analysis.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 iyun 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: s.e.d. Ramiz Sevdimalıyev, s.e.d. Sabir Məmmədli.

UOT 32:93/94

ŞAHİSMAYIL İSMAYILOV
Azərbaycan Dillər Universiteti, Azərbaycan Universiteti
tarix üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0000-0002-7441-3575
ismayılovsahismayıl@gmail.com

MÜSTƏQİLLİKDƏN SONRA AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI

DOI: https://doi.org/10.36719/2708-065X/114/148-153

Bu məqalədə Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin formalaşması və inkişaf mərhələləri araşdırılmışdır. Tədqiqatın aktuallığı Azərbaycanın regional və beynəlxalq münasibətlər sistemində mövqeyinin güclənməsi, enerji diplomatiyasının genişlənməsi və 2020-ci il Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıqların xarici siyasət strategiyasına təsirinin öyrənilməsi ilə bağlıdır. Araşdırmanın məqsədi müstəqillikdən sonrakı dövrdə Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərini, prioritetlərini və beynəlxalq münasibətlər sistemində rolunu müəyyənləşdirməkdir. Tədqiqat zamanı tarixi-müqayisəli, sistemli təhlil və məzmun analizi metodlarından istifadə edilmiş, Heydər Əliyev və İlham Əliyev dövrlərində həyata keçirilən xarici siyasət strategiyaları müqayisəli şəkildə təhlil olunmuşdur.

Açar sözlər: Azərbaycanın xarici siyasəti, enerji diplomatiyası, beynəlxalq münasibətlər, strateji tərəfdaşlıq, Qarabağ müharibəsi, regional təhlükəsizlik, balanslaşdırılmış diplomatiya.

Giriş. Azərbaycanın xarici siyasəti dövlət müstəqilliyinin bərpasından sonra ölkənin milli maraqlarının qorunması, beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsi və regional təhlükəsizliyin təmin olunması istiqamətində formalaşmışdır. Xüsusilə Ermənistan–Azərbaycan münaqişəsi, regional geosiyasi proseslər, enerji resurslarının beynəlxalq bazarlara çıxarılması və böyük dövlətlərlə münasibətlərin qurulması Azərbaycanın xarici siyasət kursunun əsas istiqamətlərini müəyyən etmişdir.

Mövzu ilə bağlı müxtəlif tədqiqatlarda Azərbaycanın xarici siyasətinin ayrı-ayrı istiqamətləri (enerji diplomatiyası, Türkiyə və Rusiya ilə münasibətlər, eləcə də beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələləri) geniş şəkildə təhlil edilmişdir [1, s.60; 5, s.75; 8, s.82]. Xüsusilə Azərbaycanın enerji strategiyası və regional təhlükəsizlik siyasəti haqqında aparılan araşdırmalar ölkənin beynəlxalq mövqeyinin güclənməsində enerji layihələrinin rolunu ön plana çıxarmışdır. Bununla yanaşı, bəzi tədqiqatlarda NATO, ATƏT-in Minsk Qrupu ilə münasibətlər ayrıca araşdırılmış, Qarabağ müharibəsinin xarici siyasətə təsiri qiymətləndirilmişdir [4, s.45; 6, s.73].

Tədqiqatın əsas məqsədi müstəqillikdən sonra Azərbaycanın xarici siyasətinin formalaşması və inkişaf mərhələlərini təhlil etmək, onun əsas prioritetlərini və beynəlxalq münasibətlər sistemində rolunu müəyyənləşdirməkdir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Azərbaycanın müstəqillikdən sonrakı xarici siyasət kursunun əsas istiqamətlərini araşdırmaq;
- Heydər Əliyev və İlham Əliyev dövrlərində həyata keçirilən xarici siyasət strategiyalarını təhlil etmək;
- Qarabağ münaqişəsinin və 2020-ci il Vətən müharibəsinin Azərbaycanın xarici siyasətinə təsirini araşdırmaq.

Əsas hissə. Azərbaycanın xarici siyasəti müstəqillik əldə etdikdən sonra ölkənin milli maraqlarının qorunması, beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsi və regional təhlükəsizliyin təmin olunması istiqamətində formalaşmışdır [3, s.120]. Xüsusilə enerji siyasəti, beynəlxalq təşkilatlarla əməkdaşlıq, qonşu dövlətlərlə münasibətlər və strateji tərəfdaşlıqlar Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərini təşkil edir [5, s.63]. Müasir dövrdə Azərbaycan balanslaşdırılmış və çoxşaxəli xarici siyasət yürüdərək həm regional, həm də qlobal səviyyədə nüfuzunu

artırmağa çalışır [2, s.16]. Bu siyasət ölkənin iqtisadi inkişafına, siyasi sabitliyinə və beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınmasına mühüm təsir göstərmişdir.

Azərbaycan müstəqilliyinin ilk illərində mürəkkəb siyasi və hərbi vəziyyətlə üzləşmişdir. Xüsusilə Ermənistanla Dağlıq Qarabağ müharibəsi dövründə ölkənin xarici siyasətinin əsas məqsədi ərazi bütövlüyünü qorumaq, beynəlxalq dəstək qazanmaq və dünya dövlətlərini Ermənistanın işğalçı siyasəti barədə məlumatlandırmaq olmuşdur [3, s.117]. Xarici siyasətdə Türkiyə ilə münasibətlər xüsusi yer tutmuş, qardaş ölkə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur [5, s.132]. Bununla yanaşı, ölkə daxilində siyasi qeyri-sabitlik və müharibənin ağır nəticələri xarici siyasətin tam şəkildə həyata keçirilməsinə maneələr yaratmışdır.

1993-cü ildə ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın xarici siyasətində sabitlik və balanslaşdırılmış diplomatik kurs formalaşmağa başlamışdır. Bu dövrdə beynəlxalq təşkilatlarla əməkdaşlıq gücləndirilmiş, atəşkəsə nail olunması üçün diplomatik danışıqlara üstünlük verilmişdir. Heydər Əliyev müharibənin bitməsi üçün səylə çalışırdı. 1994-cü il mayın 5-də imzalanmış Bişkek protokolu Azərbaycan ilə Ermənistan arasında Birinci Qarabağ müharibəsində atəşkəsin əldə olunmasına yönəlmiş mühüm sənəd olmuşdur. Protokol Bişkek şəhərində, MDB Parlamentlərarası Assambleyasının vasitəçiliyi ilə hazırlanmışdır. Sənəd Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ bölgəsinin erməni icmasının nümayəndələri tərəfindən imzalanmışdır.

Bişkek protokolunun əsas məqsədi hərbi əməliyyatların dayandırılması və tərəflər arasında sülh danışıqlarına şərait yaradılması idi.

90-cı illərdə Azərbaycan dövlətinin xarici siyasətində sonralar enerji diplomatiyası kimi tanınan vacib bir istiqamət yarandı. Dünyanın iri şirkətləri ilə 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndən sonra yeni böyük həcmli neft ixracı planlarının reallaşdırılması ölkənin daxili həyatı və xarici siyasətinin yenidən qurulması və canlandırılması üçün açar rolunu oynadı. Bakı-Ceyhan neft, Bakı-Ərzurum qaz əsas ixrac boru kəmərlərinin tikintisinə başlandı. Sonrakı illərdə onların işə salınması nəticəsində Azərbaycan nəinki özünün enerji təhlükəsizliyini təmin etdi, eyni zamanda neft, qaz paylaşdırıcı və tranzit ölkəyə çevrilərək Avropanın enerji təminatında mühüm rol oynamağa başladı [8].

Heydər Əliyev xarici siyasətində Türkiyə ilə münasibətlər xüsusi yer tutmuşdur. Azərbaycan və Türkiyə arasında əlaqələr ortaq tarix, dil və mədəni dəyərlərə əsaslanaraq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir [6, s.144]. Bu münasibətlərin inkişafında Heydər Əliyev ilə Türkiyə prezidenti Süleyman Dəmirəl arasında keçirilən görüşlər mühüm rol oynamışdır. 1994-cü ilin fevral ayında Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri zamanı Ankarada keçirilən görüşdə Ermənistan–Azərbaycan münaqişəsi və regional təhlükəsizlik məsələləri müzakirə olunmuşdur. Türkiyə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini açıq şəkildə bəyan etmişdir [1, s.57].

1996-cı ildə Bakıda keçirilən görüşlərdə Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsi əsas müzakirə mövzularından biri olmuşdur. Bu layihə iki ölkə arasında iqtisadi əməkdaşlığın dərinləşməsinə və Azərbaycanın enerji resurslarının dünya bazarına çıxarılmasına şərait yaratmışdır [4,s.120] 1999-cu ilin noyabrında İstanbul şəhərində keçirilən beynəlxalq sammit çərçivəsində Heydər Əliyev və Süleyman Dəmirəl yenidən görüşmüş, burada strateji əməkdaşlıq və regional layihələr müzakirə olunmuşdur. Bu görüş Azərbaycan–Türkiyə münasibətlərinin daha da möhkəmlənməsinə səbəb olmuşdur [6, s.45] Ümumilikdə, Heydər Əliyevin həyata keçirdiyi xarici siyasət Azərbaycan–Türkiyə münasibətlərini yüksək strateji səviyyəyə qaldırmış və iki ölkə arasında davamlı əməkdaşlığın əsasını qoymuşdur.

Azərbaycan ilə Pakistan arasında münasibətlər dostluq və strateji əməkdaşlıq prinsiplərinə əsaslanır. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuş və Ermənistanı bu günə qədər rəsmi şəkildə tanımamışdır. Bu da iki ölkə arasında siyasi əlaqələrin daha da yaxınlaşmasına səbəb olmuşdur [6, s.162] Azərbaycan ilə Pakistan arasında diplomatik əlaqələr 1990-cı illərin əvvəllərində qurulmuş və sonrakı illərdə sürətlə inkişaf etmişdir. Hər iki ölkə beynəlxalq təşkilatlarda, xüsusilə BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birini dəstəkləmişdir. Azərbaycan da Pakistanın Kəşmir məsələsində mövqeyini dəstəkləyir [4, s.112]

İlham Əliyevin dövründə Azərbaycanın xarici siyasətində NATO ilə əməkdaşlıq əsasən "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində inkişaf etmişdir. Azərbaycan NATO ilə tam üzvlük siyasəti aparmasa da, təhlükəsizlik, hərbi islahatlar və beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak vasitəsilə əməkdaşlığı genişləndirmişdir [4, s.78]. NATO ilə münasibətlərdə əsas məqsəd ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və Qərb standartlarına uyğunlaşma olmuşdur [6, s.37]

ATƏT ilə münasibətlər isə daha çox Ermənistan–Azərbaycan münaqişəsinin həlli ilə bağlı olmuşdur. Azərbaycan ATƏT çərçivəsində ərazi bütövlüyü prinsipini əsas götürərək münaqişənin beynəlxalq hüquq normaları əsasında həllini tələb etmişdir. Prezident İlham Əliyev ATƏT sammitlərində çıxış edərək uzun illər davam edən müzakirələrin nəticəsiz qalmasını tənqid etmiş və daha real yanaşmanın vacibliyini vurğulamışdır [4, s.49].

ATƏT Minsk Qrupu ilə münasibətlər isə daha tənqidi xarakter daşımışdır. Azərbaycan uzun illər bu qrupun münaqişəni həll edə bilmədiyini bildirərək onun effektivliyini sual altına almışdır. Xüsusilə 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycan tərəfi Minsk Qrupunun fəaliyyətinin artıq faktiki olaraq əhəmiyyətini itirdiyini bəyan etmişdir. Prezident İlham Əliyevin mövqeyinə görə, münaqişə hərbi-siyasi yolla həll olunduqdan sonra bu formatın rolu minimuma enmişdir [2, s.112].

İlham Əliyev dövründə Türkiyə ilə münasibətlər strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş və bu əməkdaşlıq xüsusilə Qarabağ münaqişəsi kontekstində daha da güclənmişdir. Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" prinsipi əsasında siyasi, iqtisadi və hərbi sahələrdə sıx əməkdaşlıq etmişdir [6, s.87]. İki ölkə arasında yüksək səviyyəli dövlət səfərləri və görüşlər müntəzəm xarakter daşımışdır. Prezident İlham Əliyev və Türkiyə rəhbərliyi arasında keçirilən görüşlərdə enerji layihələri ilə yanaşı, regional təhlükəsizlik və xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi əsas müzakirə mövzusu olmuşdur. Türkiyə bütün dövrlərdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir [4, s.117].

Qarabağ münaqişəsi Azərbaycanın xarici siyasətində ən mühüm istiqamətlərdən biri olmuşdur. 1990-cı illərdə başlayan münaqişənin nəticəsində Azərbaycan ərazilərinin bir hissəsi işğal edilmişdi. İlham Əliyev dövründə bu məsələ beynəlxalq platformalarda daim gündəmdə saxlanılmış, ATƏT və digər təşkilatlar çərçivəsində Azərbaycanın mövqeyi müdafiə olunmuşdur [3, s.73]. 2020-ci ilin sentyabrında başlanan İkinci Qarabağ müharibəsi Azərbaycan tarixində həlledici mərhələ olmuşdur. 44 gün davam edən müharibə nəticəsində Azərbaycan bir çox işğal olunmuş ərazilərini azad etmişdir. Bu dövrdə Türkiyə Azərbaycanın yanında olduğunu siyasi və mənəvi dəstəklə açıq şəkildə nümayiş etdirmişdir. Bu dəstək Azərbaycan cəmiyyətində və beynəlxalq arenada böyük əhəmiyyət kəsb etmişdir [7].

Müharibənin başa çatmasından sonra imzalanmış üçtərəfli bəyanat (Azərbaycan–Rusiya–Ermənistan) regionda yeni reallıq yaratmışdır. Qarabağ münaqişəsinin hərbi mərhələsi Azərbaycanın xeyrinə başa çatmış, ölkənin ərazi bütövlüyü böyük ölçüdə bərpa edilmişdir. Bu prosesdən sonra Azərbaycan–Türkiyə münasibətləri daha da möhkəmlənmiş və 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi ilə rəsmi müttəfiqlik səviyyəsinə yüksəlmişdir [4, s.123]. Ümumilikdə, İlham Əliyev dövründə Azərbaycan–Türkiyə münasibətləri Qarabağ münaqişəsi fonunda daha da güclənmiş, hərbi-siyasi əməkdaşlıq regional təhlükəsizlik sistemində mühüm rol oynamışdır.

İlham Əliyevin xarici siyasətində Ermənistan ilə münasibətlər əsasən Ermənistan–Azərbaycan münaqişəsi və ərazi bütövlüyü məsələsi üzərində formalaşmışdır. Azərbaycan tərəfi uzun illər Ermənistanın işğalçı siyasətini beynəlxalq hüquq çərçivəsində tənqid etmiş və münaqişənin yalnız ölkənin suverenliyi və ərazi bütövlüyü prinsipi əsasında həllini tələb etmişdir [3, s.56]. İlham Əliyev dövründə Ermənistanla diplomatik münasibətlər faktiki olaraq münaqişənin mövcudluğu səbəbilə məhdud olmuşdur. Azərbaycan ATƏT və digər beynəlxalq platformalarda Ermənistanın işğal etdiyi ərazilərdən çıxmasını əsas tələb kimi irəli sürmüşdür. Bu mövqe uzun illər ərzində dəyişməz qalmış və Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olmuşdur [6, s.137].

2020-ci il İkinci Qarabağ müharibəsi Azərbaycan–Ermənistan münasibətlərində həlledici mərhələ olmuşdur. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan bir çox işğal olunmuş ərazilərini azad etmişdir. Müharibədən sonra imzalanan üçtərəfli bəyanat regionda yeni siyasi reallıq yaratmışdır. Bundan sonra Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması istiqa-

mətində danışıqlara başlamışdır. İlham Əliyevin mövqeyinə görə, gələcək münasibətlər qarşılıqlı tanınma, sərhədlərin delimitasiyası və ərazi bütövlüyünün qarşılıqlı qəbuluna əsaslanmalıdır. Azərbaycan tərəfi regionda davamlı sülhün yalnız beynəlxalq hüquq normalarına uyğun şəkildə mümkün olduğunu bildirir [4, s.21].

Bu siyasətin əsas məqsədi ölkənin iqtisadi müstəqilliyini gücləndirmək, tranzit ölkəyə çevrilmək və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamaq olmuşdur [6, s.83]. Bu istiqamətdə ən mühüm layihələrdən biri Bakı–Tbilisi–Ceyhan neft kəməri olmuşdur. Bu boru xətti Azərbaycan neftinin Gürcüstan və Türkiyə vasitəsilə Aralıq dənizi limanlarına çıxarılmasını təmin etmiş və ölkənin beynəlxalq enerji bazarına inteqrasiyasını gücləndirmişdir. Daha sonra həyata keçirilən Bakı–Tbilisi–Ərzurum qaz kəməri Azərbaycanın qaz ixrac imkanlarını artırmış və Avropa bazarına çıxışını genişləndirmişdir. Bu layihələr Azərbaycanı regionda mühüm enerji ixracatçısına çevirmişdir [3, s.65].

İlham Əliyevin xarici siyasətində mədəniyyət sahəsi "yumşaq güc" (soft power) vasitəsi kimi mühüm yer tutur. Bu siyasətin əsas məqsədi Azərbaycanın beynəlxalq aləmdə mədəni irsini tanıtmaq, ölkənin imicini gücləndirmək və xalqlar arasında dostluq münasibətlərini inkişaf etdirməkdir [4, s.15]. Bu istiqamətdə Heydər Əliyev Fondu xüsusi rol oynayır. Fondun təşəbbüsü ilə müxtəlif ölkələrdə Azərbaycan mədəniyyət günləri, sərgilər, musiqi festivalları və humanitar layihələr həyata keçirilmişdir [9]. Bu tədbirlər Azərbaycan mədəniyyətinin dünya səviyyəsində tanıdılmasına xidmət edir.

Azərbaycanın mədəni xarici siyasətində UNESCO və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq da mühüm yer tutur. Ölkənin muğam sənəti, aşıq musiqisi və Novruz bayramı kimi mədəni irs nümunələri UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu, Azərbaycanın mədəni diplomatiyasının uğurlu nəticələrindən biridir [6, s.12].

İlham Əliyev dövründə Rusiya ilə münasibətlər praqmatik və balanslaşdırılmış xarici siyasət xətti əsasında inkişaf etmişdir. Azərbaycan Rusiya ilə həm siyasi, həm iqtisadi, həm də təhlükəsizlik sahələrində əməkdaşlığı qoruyub saxlamış, eyni zamanda milli maraqlarını prioritet kimi müəyyən etmişdir [3, s.63]. İki ölkə arasında yüksək səviyyəli görüşlər müntəzəm şəkildə keçirilmişdir. Prezident İlham Əliyev və Rusiya rəhbərliyi arasında aparılan danışıqlarda enerji, ticarət, nəqliyyat dəhlizləri və regional təhlükəsizlik məsələləri əsas yer tutmuşdur. Azərbaycan Rusiya ilə iqtisadi əlaqələri, xüsusilə ticarət dövriyyəsini genişləndirməyə maraq göstərmişdir [6, s.98].

Qarabağ münaqişəsi dövründə Rusiya regionda vasitəçi rolunu oynamışdır. 2020-ci il İkinci Qarabağ müharibəsindən sonra Rusiya sülhməramlı qüvvələri müəyyən müddət Qarabağ bölgəsində yerləşdirilmişdir. Bu, iki ölkə arasında təhlükəsizlik və diplomatik əlaqələrin yeni mərhələyə keçməsinə səbəb olmuşdur [4, s.78]. Ümumilikdə, Azərbaycan–Rusiya münasibətləri əməkdaşlıq və ehtiyatlı balans siyasəti üzərində qurulmuş, tərəflər arasında həm qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq, həm də regional məsələlərdə fərqli mövqelər müşahidə olunmuşdur.

İlham Əliyev dövründə Avropa ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin ən mühüm istiqamətlərindən birinə çevrilmişdir. Bu siyasət əsasən enerji diplomatiyası, iqtisadi əməkdaşlıq, nəqliyyat layihələri və siyasi dialoq üzərində qurulmuşdur. Azərbaycan Avropa dövlətləri ilə balanslaşdırılmış münasibətlər saxlayaraq həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi mövqeyini gücləndirmişdir [3]. Azərbaycanın Avropa ilə münasibətlərində ən vacib istiqamət enerji əməkdaşlığıdır. Xüsusilə TANAP və TAP layihələri Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu xeyli artırmışdır. Bu layihələr vasitəsilə Azərbaycan qazı Türkiyə üzərindən Yunanıstan, Albaniya və İtaliya kimi ölkələrə çatdırılır və Avropa bazarına çıxış təmin olunur [6, s.175]. Azərbaycan həmçinin Avropa İttifaqı ilə "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq etmişdir. Bu əməkdaşlıq iqtisadi islahatlar, investisiya mühiti, nəqliyyat dəhlizləri və rəqəmsal inkişaf sahələrini əhatə etmişdir. Avropa İttifaqı Azərbaycanla enerji təhlükəsizliyi və ticarət əlaqələrinin genişləndirilməsində maraqlı tərəf kimi çıxış edir.

Nəticə. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın xarici siyasəti müstəqillikdən sonra milli maraqlara əsaslanan çoxşaxəli və balanslaşdırılmış strateji xətt kimi formalaşmışdır. Qarşıya qoyulan məqsəd və vəzifələr yerinə yetirilmiş, Azərbaycanın xarici siyasətinin əsas inkişaf mərhələləri, prioritet istiqamətləri və beynəlxalq münasibətlər sistemində rolu təhlil olunmuşdur. Araşdırma zamanı irəli sürülən hipotez öz təsdiqini tapmışdır. Müəyyən olunmuşdur ki, balanslaşdı-

rılmış diplomatiya, enerji siyasəti və strateji tərəfdaşlıqlar Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsinə, regional təhlükəsizliyin təmin olunmasına və ölkənin etibarlı tərəfdaş kimi tanınmasına mühüm təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Abbasbəyli A. Azərbaycanın beynəlxalq münasibətlər sistemi. Bakı: Elm, 2017.
2. Əliyev İ. Müstəqil Azərbaycan və xarici siyasət strategiyası. Bakı, 2020.
3. Həsənov Ə. Azərbaycanın xarici siyasəti. Bakı: Zərdabi LTD, 2015.
4. Hüseynova S. Azərbaycan diplomatiyası və regional siyasət. Bakı, 2021.
5. Məmmədov F. Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2018.
6. Qasımov M. Müasir dövrdə Azərbaycanın xarici siyasəti. Bakı: Təhsil, 2019.
7. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. 2025. İnternet resursu: https://mfa.gov.az/az/news/no40525 [03.06.2026].
8. Azərbaycan Respublikası Prezident Kitabxanası. 2023. İnternet resursu: https://files.preslib.az/projects/heydaraliyev/articles/he0962.pdf [03.06.2026].
9. Heydər Əliyev Fondu. 2026. İnternet resursu: https://heydar-aliyev-foundation.org/en/content/blog/55/ACTIVITIES [03.06.2026].

ШАХИСМАИЛ ИСМАИЛОВ
Азербайджанский университет языков, Азербайджанский университет
доктор философии по историческим наукам, доцент

ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА ПОСЛЕ ОБРЕТЕНИЯ НЕЗАВИСИМОСТИ

В статье исследуются формирование и развитие внешней политики Азербайджана после восстановления государственной независимости. Актуальность исследования обусловлена укреплением позиций Азербайджана в системе региональных и международных отношений, расширением энергетической дипломатии страны и влиянием новых геополитических реалий, сформировавшихся после Отечественной войны 2020 года. Цель исследования заключается в определении основных направлений, приоритетов и роли внешней политики Азербайджана в международных отношениях в период независимости. В работе использованы методы историко-сравнительного анализа, системного анализа и контент-анализа. Проведено сравнительное исследование внешнеполитических стратегий, реализованных в периоды президентства Гейдара Алиева и Ильхама Алиева. Результаты показывают, что внешняя политика Азербайджана формировалась на основе защиты национальных интересов, обеспечения территориальной целостности, развития энергетической дипломатии и расширения стратегических партнёрств.

Ключевые слова: внешняя политика Азербайджана, энергетическая дипломатия, международные отношения, стратегическое партнёрство, Карабахская война, региональная безопасность, сбалансированная дипломатия.

SHAHISMAYIL ISMAYILOV
Azerbaijan University of Languages, Azerbaijan University
PhD in History, Associate Professor

FORMATION AND DEVELOPMENT OF AZERBAIJAN'S FOREIGN POLICY AFTER INDEPENDENCE

The research seeks to explore the development and transformation of the Azerbaijani foreign policy strategy after the restoration of its independence. Such relevance of the topic is connected with

the expansion of the role of the state within the context of the international community, the rise in importance of energy policy, and new geopolitical processes that were formed after the Patriotic War of 2020. The key objective of the research includes the identification of the main directions, priorities, and international functions of Azerbaijani foreign policy in the period of post-independence. Historical-comparative analysis, systematic analysis, and content analysis are the methodology for this research. The comparative study of foreign policy strategy under two leaders of the country (Heydar Aliyev and Ilham Aliyev) is carried out.

Keywords: Azerbaijan's foreign policy, energy diplomacy, international relations, strategic partnership, Karabakh War, regional security, balanced diplomacy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 iyun 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Habil Məmmədov, t.e.d. İsmayıl Məmmədov.

UOT 94

TURAN AXUNDOVA
tarix üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universitetinin dosenti
turanakhundova@bsu.edu.az

ƏSGƏR MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin magistrantı
asgermemmedli2020@gmail.com

TÜRKİYƏDƏ MÜDAFİƏ SƏNAYESİNİN İNKİŞAFI VƏ REGİONAL TƏHLÜKƏSİZLİKDƏ ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/114/154-161

Bu gün Türkiyə nə Qərblə əlaqələrini kəsib, nə tamamilə Yaxın Şərqə doğru dönüb, nə də Rusiya oxuna doğru dəyişib. Türkiyə mərkəzdə, öz geosiyasətində cazibə qüvvəsindədir. Artıq keçmişdə ona həvalə edilmiş rolları oynamır: kommunist blokuna qarşı sərhəd məntəqəsi, Asiya ilə Avropa arasında körpü dövləti və ya bu gün Avropa ilə Yaxın Şərqin münaqişə zonaları arasında təcrid olunmuş dövlət. Türkiyənin beynəlxalq sistemdə yüksələn bir güc kimi effektivliyini artırmaq üçün milli təhlükəsizliyinə və milli maraqlarına uyğun olaraq öz "geosiyasi kodlarını" müəyyən etməlidir. Bu baxımdan, Türkiyənin yaxın geosiyasi bölgəsindəki digər dövlətlərlə, xüsusən də sərhəd qonşuları ilə münasibətləri, əlbəttə ki, böyük əhəmiyyət kəsb edir. Geosiyasi təhlükəsizliyə əsaslanan bu münasibət modeli, Türkiyənin həm regional, həm də beynəlxalq sistem səviyyələrində özü üçün nəzərdə tutduğu rolu oynamasına və milli idealı üçün uyğun bir metod yaratmasına imkan verə bilər. Milli təhlükəsizliyinə təhdidlərlə mübarizədə və gələcəkdə oynamaq istədiyi rolu əldə etməkdə Türkiyənin milli müdafiə sənayesi böyük əhəmiyyət kəsb edir və son hadisələr dövlətin bu həqiqətdən xəbərdarlığının təzahürüdür.

Açar sözlər: Türk Dövlətləri, Təşkilatı Beynəlxalq Təhlükəsizlik, Regional Təhlükəsizlik, İnstitusionalizasiya, Təhlükəsizlik İcma, Kollektiv Kimlik.


Giriş. Dövlət təhlükəsizliyini təmin etmək üçün həm daxili, həm də xarici balansdan istifadə edir. Daxili balansı prioritetləşdirən dövlət öz resurslarına güvənərək təhlükəsizliyini təmin edir. Xarici balansı prioritetləşdirən dövlət digər dövlətlərlə ittifaqlar qurmaqla və gücünü artırmaqla təhlükəsizliyini təmin edir. Dövlətlər təhlükəsizliyi təmin etmək üçün hər iki balanslaşdırma metodundan istifadə etsələr də, xarici balans ümumiyyətlə prioritetləşdirilir. Bu, xüsusilə məhdud maddi imkanlara malik ikinci dərəcəli dövlətlər üçün doğrudur, çünki xarici balans təhlükəsizliyi təmin etməyin nisbətən daha ucuz, daha təsirli və daha sürətli yoludur. Türkiyəni nümunə götürsək, görürük ki, o, ənənəvi olaraq təhlükəsizliyini təmin etmək üçün xarici balansı prioritetləşdirib. Soyuq Müharibənin başlanğıcından bəri xeyli müddət ərzində Qərb alyansının bir hissəsi olmaqla təhlükəsizliyini təmin edib. Dövlətin hakim elitası bu seçimi təkcə praktik-maddi səbəblərə görə deyil - xarici balans təhlükəsizliyi təmin etmək üçün daha ucuz, daha təsirli və daha sürətli yol təklif edir - həm də ideoloji-mədəni səbəblərə görə edib: Qərb alyansının bir hissəsi olmaq dövlətə özünü beynəlxalq sistem daxilində Qərb dövləti kimi müəyyən etməyə imkan verir və bununla da elitanın daxili siyasi arenada gücünü legitimləşdirir [1]. Lakin son 20 ildə Türkiyə əks istiqamətdə dəyişərək, təhlükəsizliyinin təmin edilməsində tədricən daxili balanslaşdırmaya daha çox əhəmiyyət verib. Qərb ittifaqına dövlət təhlükəsizliyinin təmin edilməsinin güclü praktik-maddi və ideoloji-mədəni səbəblərini və uzun müddət davam edən bu ittifaqın dövlətin xarici siyasət seçimlərini məhdudlaşdıran struktur elementə çevrildiyini nəzərə alsaq, Türkiyənin heç bir dəyişiklik etmədən eyni şəkildə təhlükəsizliyini təmin etməyə çalışmasını gözləmək olardı. Lakin Türkiyə bu yaxınlarda təhlükəsizlik siyasətində əhəmiyyətli bir dəyişiklik edərək daxili balanslaşdırmaya üstünlük verməyi və bu kontekstdə güclü müdafiə sənayesi infrastrukturu qurmağı seçib. Uzunmüddətli siyasətdən imtina etməsi və Qərb ittifaqının

dövləti məhdudlaşdıran struktur elementə çevrilməsi səbəbindən həyata keçirilməsi çətin olan bu dəyişiklik izahat gözləyən intellektual bir tapmaca olaraq qalır. Bu tədqiqat bu tapmacaya diqqət yetirir, Türkiyənin niyə son zamanlar daxili balanslaşdırma yolu ilə təhlükəsizliyini daha çox təmin etməyi seçdiyi sualına cavab verməyə çalışır, böyük strategiya, ittifaqlar və balanslaşdırma haqqında ədəbiyyatdan istifadə edir və müdafiə sənayesinin bu kontekstdə oynadığı rolu ortaya qoyur.

Soyuq Müharibədən sonrakı dövrdə təhlükəsizlik anlayışı hərbi təhdidlərə əsaslanan klassik yanaşmalardan çoxölçülü və normativ çərçivəyə keçib. Bu transformasiya regional təşkilatların, xüsusən də mədəni və tarixi əlaqələrə əsaslanan təşkilatların beynəlxalq təhlükəsizlikdə daha görünən və funksional olmasına gətirib çıxarıb. Türkiyənin türk dünyasına qarşı aktiv xarici siyasəti Sovet İttifaqının dağılmasından sonra, 1990-cı illərin əvvəllərində başlayıb. Bu dövrdə inkişaf etdirilən "Adriatik dənizindən Çin səddinə qədər Türk Dünyası" vizyonu Ankaranın region ölkələri ilə iqtisadi, mədəni və diplomatik əlaqələri institutlaşdırmaq səylərinin əsasını qoyub. Bu dövrdə qurulan Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və keçirilən Türkdilli Ölkələrin Zirvə Toplantıları Türk Dövlətləri Təşkilatının (TDT) institusional sələfləri hesab olunur [4]. Bu kontekstdə, Türk Dövlətləri Təşkilatı (TDT) mədəni yaxınlığa əsaslanan əməkdaşlıq platforması olmaqla yanaşı, regional təhlükəsizliyin təmin edilməsində daha böyük məsuliyyət daşıyan bir aktyor kimi getdikcə daha çox ortaya çıxır. Təşkilat son illərdə institusionalizasiya və təhlükəsizlik sahəsində əməkdaşlıq yolu ilə tarixi əlaqələrə və ortaq kimliyə əsaslanan həmrəyliyi strateji potensiala çevirməyə çalışır. Bu gün transmilli təhdidlər, enerji təhlükəsizliyi, kiber risklər və regional böhranlar kimi məsələlər regional aktyorlar tərəfindən kollektiv təhlükəsizlik strategiyalarının hazırlanmasını zəruri edir. TDT-nin bu prosesə institusional və diskursiv cavabları təşkilatın klassik mədəni birlik kimliyini aşaraq regional təhlükəsizlik arxitekturasında yeni bir aktyor kimi yüksəlmək potensialını ortaya qoyur.


Türkiyənin milli təhlükəsizlik mühitini qiymətləndirərkən, rejim növü, ideologiyası və bir çox digər aspektlər baxımından fərqli xüsusiyyətlərə malik qonşularının mövcud vəziyyəti, əlbəttə ki, nəzərə alınmalıdır. Türkiyənin sahib olduğu üç hissəli təhlükəsizlik strukturunun mövcudluğundan danışa bilərik; birincisi, Qərbi Avropa və ABŞ-ı əhatə edən müxtəlif çoxmillətli təşkilatların bütövlüyüdür; ikincisi, bölgə dövlətləri də daxil olmaqla, Yaxın Şərq və Şimali Afrikadır və beləliklə, Türkiyənin cənub quru sərhədlərinin təhlükəsizliyini və Şimali Kipr Türk Respublikası da daxil olmaqla Aralıq dənizindəki maraqlarını təmin edir; və nəhayət, üçüncüsü, Qara dənizdən başlayaraq qonşu Qafqaz dövlətlərini də əhatə edən şimala doğru uzanan parçalanmış bir strukturdur [3].

Türkiyənin milli təhlükəsizlik mühitini qiymətləndirərkən, rejim növü, ideologiyası və bir çox digər aspektlər baxımından fərqli xüsusiyyətlərə malik qonşularının mövcud vəziyyəti, əlbəttə ki, nəzərə alınmalıdır. Başqa sözlə, Türkiyənin milli təhlükəsizliyi; Türkiyə qonşularının sayında və ərazisindəki dəyişikliklərdən, eləcə də qonşularının məqsəd və vəzifələrinə uyğun olaraq güc qazanmalarından və ya itirmələrindən, eləcə də işğal altında qalmaq və ya mərkəzi hakimiyyətlərini itirmək kimi vəziyyətlərdən birbaşa təsirlənir [5]. Türkiyənin sərhəd qonşuları ilə bağlı məsələlər üç ölçüdə araşdırılacaq.




Şəkil 1. İlkin Ştatlar - ÜDM (2017-2022 milyard dollar)

Birinci məqam Türkiyə ilə quru sərhədi olan dövlətlərin - Bolqarıstan, Gürcüstan, Ermənistan, İraq, İran, Suriya və Yunanıstanın (yaxınlıq baxımından əsas dövlətlər) iqtisadi və hərbi imkanları (müdafiə resurslarına xərclənən məbləğ və ordularının dünyadakı mövqeyi ilə əlaqədar) ilə bağlıdır. Bu dövlətlərin maddi vəziyyət baxımından Türkiyə üçün təhlükə yaradacağı çox ehtimal olunmur [8].




Şəkil 2. İlkin Dövlətlər - Hərbi Xərclər (2022 - milyard dollar)

İkinci məqam ondan ibarətdir ki, Türkiyənin yaxın geosiyasətindəki regional güclər, yəni qonşuları (təxminən 700 km perimetri daxilində), həmçinin qonşularının qonşuları kimi müəyyən edilə bilər; Rusiya, İsrail, Misir, Səudiyyə Ərəbistanı, İtaliya (yaxınlıq baxımından ikinci dərəcəli dövlətlər) eyni şərtlər altında araşdırılmalıdır.



Şəkil 3. İkinci dərəcəli dövlətlər - ÜDM (2017-2022 milyard dollar)

Qeyd etmək lazımdır ki, bu dövlətlərin bəzilərində Türkiyə ilə rəqabət apara biləcək bir neçə element var [9] Xüsusilə, bu dövlətlərin bəzilərinin nüvə silahına çıxışı və sahib olması Türkiyə üçün əlverişsiz bir tarazlıq yaradır.



Şəkil 4. İkinci dərəcəli dövlətlər - Hərbi Xərclər (2022 - milyard dollar)

Üçüncü məqam, daha inkişaf etmiş ikinci dərəcəli dövlətlər və qlobal güclər qarşısında ilkin dövlətlərin kövrək quruluşudur. Bu dövlətlər Türkiyəyə birbaşa təhlükə yaratmaq qabiliyyətinə malik olmasalar da, onların kövrək strukturları, demoqrafik ziddiyyətləri və düşmənçiliyin ontoloji/tarixi qavrayışları təhdid zonasının formalaşmasını aktivləşdirir. Əlbəttə ki, Türkiyənin milli təhlükəsizlik mühiti yuxarıda konkret rəqəmlərlə ifadə edilən risk və rəqabət sahələrindən daha çoxunu təmsil edir. Demoqrafik problemlərə, qeyri-müntəzəm miqrasiyaya, radikal terrorçu qrupların fəaliyyətinə və bu məsələlərlə mübarizənin Türkiyəyə qoyduğu maliyyə və mənəvi xərclərə diqqət çəkmək xüsusilə vacibdir. Türkiyəni əhatə edən dövlətlərin kövrəkliyi (xüsusən də Ukrayna, Gürcüstan, İraq və Suriyada olduğu kimi) onları işğala daha həssas edir. Türkiyənin sərhəd qonşularının hər hansı ikinci dərəcəli dövlət və ya qlobal güc tərəfindən işğalı və nəticədə yaranan münaqişə, əsasən sərhədlərarası insan hərəkətliliyi vasitəsilə hərbi qüvvələrin yerləşdirilməsini zəruri edən hadisələri təhrik edir və təşviq edir. Buna görə də, Türkiyənin kövrək ilkin dövlətlərini özü ilə ikinci dərəcəli dövlətlər və qlobal güclər arasında bufer rolunu oynaya bilən strukturlar kimi nəzərdən keçirmək mümkündür. Lakin, Türkiyənin milli təhlükəsizliyi, şübhəsiz ki, bufer dövlətlərin taleyinə və şıltaqlığına buraxılmamalıdır. Bu, üç səbəbdən ağlabatan deyil. Birincisi, bufer dövlətlər ideyası müəyyən təhdidləri dövlətin mərkəzindən uzaq tutan bir struktur kimi təsvir edilsə də, sözügedən kövrək və zəif vəziyyətlər böyük bir maneə yaradır. İkincisi, Türkiyə düşmənçiliyi tarixən Ermənistan və Yunanıstan kimi dövlətlərdə kök salmış və dərin kök salmışdır. Bu dövlətlər Türkiyə üçün bufer dövlət olmaqdan uzaq, ilk fürsətdə Türkiyəyə qarşı milli təhlükəsizlik təhdidi yaratmağa və ya heç olmasa Türkiyəni öz tərəflərinə çəkə biləcəkləri hər hansı bir güclə çəkindirməyə çalışacaqlar [6].

ABŞ-ın Yunanıstandakı hərbi mövcudluğunu artırması və Rusiyanın Ermənistanı fərqli səbəblərdən cəzalandırmasına baxmayaraq, İkinci Dağlıq Qarabağ müharibəsində Ermənistana dəstəyi kimi son hadisələr ən aydın və sadə nümunələr arasındadır. Nəhayət, üçüncü səbəb ikinci dərəcəli dövlətlər və qlobal güclərlə bağlıdır. Türkiyə öz milli təhlükəsizliyini ilkin dövlətlərə qarşı qurulan və ya qurula biləcək ikinci dərəcəli dövlətlər və qlobal güclər tərəfindən dominantlıq cəhdlərindən və ya ən azından, qorumalıdır. Çünki belə bir cəhdin nəticələri, xüsusən də Suriyadakı ağır hadisələr nəzərə alınmaqla, birbaşa yaşamaq məsələsinə çevrilir.

Beynəlxalq siyasət güc mübarizəsidir. Beynəlxalq siyasətin əsas məqsədləri nə olursa olsun, güc əldə etmək ən təcili məqsəddir. Güc istəyi beynəlxalq siyasətin fərqləndirici elementidir [9]. Morgentaunun iddiası təbii olaraq bir dövlətin niyə güc əldə etmək ehtiyacına əl atdığı sualını doğurur. Bu sualı Türkiyəyə uyğunlaşdırdıqda, iki tərəfli cavab ortaya çıxır və bu cavablar da bir-birinin səbəbləridir: Türkiyə güc əldə etməlidir [9], çünki milli təhlükəsizlik mühiti təhdidlərlə doludur və eyni zamanda regional liderlik statusunu qorumaq və milli maraqlar baxımından bu sahədə rəqabət apara-

cağı elementlərdə özünü göstərmək lazımdır. Bu halda, əlbəttə ki, Türkiyənin öz müdafiə sənayesini inkişaf etdirməsi və lokallaşdırması təcili və vacibdir.

Suriyada davam edən münaqişə, ABŞ-ın PKK-YPG terror təşkilatına açıq dəstəyi, Türkiyənin özünümüdafiə məqsədilə S-400-lər alması səbəbindən üzləşdiyi embarqolar və nəhayət, Türkiyənin maliyyə öhdəliklərini yerinə yetirməsinə baxmayaraq F-35 qırıcı təyyarə proqramından kənarlaşdırılması, bütün bunlar Türkiyənin müdafiə sənayesinə investisiyalarının müsbət nümunəsi olmuşdur. 2002-ci ildə 1,3 milyard dollar olan Türkiyənin müdafiə sənayesi büdcəsi əhəmiyyətli dərəcədə artmış, aviasiya sektorunun dövriyyəsi 6 milyard dollara çatmış, aviasiya ixracı 247 milyon dollardan təxminən 2 milyard dollara, tədqiqat və inkişaf xərcləri isə 49 milyon dollardan 1,25 milyard dollara yüksəlmişdir. Bundan əlavə, üç türk şirkəti dünyanın və təhlükəsizlik sektorunun ən böyük 100 sənaye şirkəti arasındadır.15 Türkiyənin xərcləri 2007-2016-cı illər arasında orta hesabla 9,7 faiz artmışdır.16 İkitərəfli münasibətlərin getdikcə gərginləşməsi nəticəsində ABŞ-ın NATO müttəfiqi olan Türkiyəyə silah ixracı artmışdır; Türkiyə 2013-2017-ci illər arasında ABŞ silahlarının yeddinci, 2018-2022-ci illər arasında isə iyirmi yeddinci ən böyük alıcısı olub. Bu proses idxalın azalmasına və xarici mənbələrdən asılılığın azalmasına səbəb olub və yerli istehsal olunan silahlara hazırda digər ölkələrin orduları tərəfindən istifadə üçün tələbat var. SIPRI məlumatlarına görə, Türkiyə ixrac nisbətini 2003-2017-ci illər arasında 0,6 faizdən 2017-2022-ci illər arasında 1,1 faizə qaldırıb və bu iki dövrdə ümumilikdə 69 faiz artım göstərib [6].

Bu inkişaf Türkiyə üçün siyasətdən üstündür və müəyyən dövrlər və maneələrlə məhdudlaşmamalı, həm miras, həm də məsuliyyət kimi davam etməli, hətta nəsildən-nəslə inkişaf etməlidir. Keçmişdə Kipr Sülh Əməliyyatını və son hadisələri nəzərə alsaq, Türkiyənin öz gücü və potensialı çərçivəsində təkbaşına mövcud olduğu və dayandığı aydındır. Bugünkü beynəlxalq sistem dost, düşmən, müttəfiq və ya strateji tərəfdaş kimi terminləri qəbul etmir; hər şey sürətlə dəyişən gündəmə uyğun olaraq formasını dəyişir. Buna görə də, belə desək, güclü iradəli Türkiyə öz işlərini özü həll etməlidir.

Türkiyənin müdafiə sənayesinin strukturlaşdırılmasını, infrastrukturunu və imkanlarını, eləcə də onun keçirdiyi transformasiyanı araşdırmaq, Türkiyənin milli təhlükəsizlik mexanizmlərinin, qavrayışlarının və siyasətlərinin transformasiya tarixini ortaya qoyur.

Bu transformasiyanın əsas konturlarını aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Demək olar ki, Türkiyənin özünə təyin etdiyi (və ya başqa bir baxımdan "özünə təyin etdiyi") rol, mövqe və funksiya beynəlxalq sistemdə əhəmiyyətli dərəcədə dəyişib və bu dəyişiklik davam edir. Türkiyənin xarici siyasəti, xüsusən də regional məsələlərdə, beynəlxalq qurumları və əməkdaşlığı prioritetləşdirən liberal institusionalist paradiqmadan ikitərəfli münasibətlərə və ya regional əməkdaşlığa yönəlmiş daha real bir paradiqmaya və güc proyeksiyası imkanlarına üstünlük verənə keçib. Bu keçidin aparıcı aktyorlarından biri, şübhəsiz ki, Türkiyə Silahlı Qüvvələridir (TSQ). Güc proyeksiyası imkanlarının inkişafı, ikitərəfli və ya regional hərbi əməkdaşlıq mexanizmlərinin yaradılması və nəticədə müdafiə ixracatının artması milli müdafiə sənayesinin funksiyasını və əhəmiyyətini birbaşa artıran amillərdir.

2. Türkiyənin, xüsusən də Soyuq Müharibə dövründə NATO alyansı daxilində Sovet təhdidinə qarşı çıxmaq üçün Silahlı Qüvvələrini təchiz etmək üçün demək olar ki, tamamilə xarici hərbi yardıma güvənməsi təkcə hərbi texnikaya, texniki xidmətə, təlimə və doktrinaya deyil, həm də müdafiə sənayesinin qurulmasına və dəstəklənməsinə mane oldu. Ölkənin iqtisadi və siyasi şəraitinin sektorun susqunluğunda oynadığı əhəmiyyətli rolu nəzərdən qaçırmamaq vacibdir. Bu sektor 1930-cu illərdə çiçəklənmişdi. Lakin, 1964-cü ildə baş verən Conson Məktubu hadisəsində hökumətə və cəmiyyətə xoşagəlməz şəkildə xatırlandığı kimi, hərbi güc milli təhlükəsizlik hüquq və maraqlarının müdafiəsində əsas elementdir və özünütəmin etmək, ən azı əməliyyat və logistika baxımından, hərbi gücdən səmərəli istifadə üçün əvəzolunmaz bir zərurətdir [7].

3. Müdafiə sənayesinin xarici siyasətin və milli təhlükəsizliyin fundamental elementi kimi rolu onu sadəcə ordunun ehtiyaclarını ödəyən təchizat mənbəyi olmaqdan daha da yüksəldir. Sektor sadəcə yerdəki ehtiyaclar üçün istehsal edən fabriklər toplusu deyil; o, həmçinin iqtisadiyyat, milli elm və texnologiya infrastrukturu və xarici siyasət kimi sahələrdə əhəmiyyətli çəkiyə malikdir. Bu, müdafiə sənayesi daxilində infrastruktur, tutum, sənaye siyasəti və planlaşdırma baxımından sənaye, bü-

rokratiya, son istifadəçilər və akademiya arasında hərbi-mülki ünsiyyət və koordinasiya mexanizmlərinin sağlam işləməsini zəruri edir. Başqa sözlə, silahlı qüvvələrin ehtiyaclarının müəyyən edilməsindən tutmuş bu ehtiyacları ödəmək üçün malların istehsalına və tədarükünə qədər bütün proses bütün müvafiq hərbi və mülki maraqlı tərəflərin iştirak etdiyi qarşılıqlı əlaqə yolu ilə həyata keçirilməlidir. Çünki silah sisteminin satın alınması (və ya satın alınmaması), daxili inkişafı (və ya inkişaf etdirilməməsi) və istehsalı (və ya istehsal edilməməsi) ilə bağlı qərarlar yalnız hərbi deyil, həm də siyasi, iqtisadi və sənaye ölçülərinə malikdir.

4. Bu məqamda Türkiyənin Rusiya Federasiyasından S-400 hava hücumundan müdafiə sistemini alması və bu qərarın siyasi, hərbi və iqtisadi təsirlərini müzakirə etmək qaçılmazdır. Bu qərar, xüsusən də ABŞ və ümumiyyətlə Qərb ittifaqı ilə münasibətlərində əhəmiyyətli bir dönüş nöqtəsi təşkil edir. Türkiyə satın alma qərarını təcili ehtiyacları və Qərb müttəfiqlərindən birgə istehsal və texnologiya ötürülməsi kimi məsələlərdə məyusluğunu əsaslandırmaqla əsaslandırdı. Bundan əlavə, həm Rusiya, həm də Türkiyə rəsmiləri S-400 sistemlərinin ilkin paketindən sonra birgə istehsal da daxil olmaqla, əlavə alış-verişlərin masada olduğunu bildirdilər. Mətbuatda müxtəlif sistemlər və texnologiya sahələrində əməkdaşlığın da müzakirə olunduğu bildirilirdi. Bu prosesin ən diqqət çəkən görüntüsü, şübhəsiz ki, Prezident Rəcəb Tayyib Ərdoğanın Moskvada keçirilən müdafiə sənayesi sərgisində rusiyalı həmkarı Vladimir Putinlə birlikdə Rusiyanın yeni hazırlanmış Su-57 qırıcı təyyarəsini yoxlaması idi [10].

Bu prosesin daha geniş müdafiə sənayesi texnologiyası və istehsal əməkdaşlığına çevrilmə ehtimalı az görünsə də, S-400 sisteminin hazır satınalma yolu ilə alınması yuxarıda qeyd olunan müdafiə sisteminin istehsalı və ya inkişaf qərarlarının siyasi və strateji təsirinin yaxşı bir nümunəsidir. Bu sistemlər texniki olaraq Türkiyənin hava hücumundan müdafiə erkən xəbərdarlıq və komandanlıq və nəzarət şəbəkəsinə inteqrasiya olunmayacağı üçün logistika, təlim və texniki xidmət üçün Rusiya ilə daimi təchizat kanalı zəruri olacaq. Bundan əlavə, tam işləmək üçün əlavə radar, aşağı hündürlükdə/qısa mənzilli hava hücumundan müdafiə sistemləri və rabitə infrastrukturu tələb olunacağı üçün ya bunların Rusiyadan hazır şəkildə alınması, ya da Türkiyənin mövcud sistemlərinin inteqrasiyası üçün Rusiya müdafiə sənayesi ilə çox dərin və sıx əlaqələrin inkişaf etdirilməsi lazım olacaq. Bu o deməkdir ki, çox diqqətli xərc-fayda təhlili tələb edən bir sıra strateji qərarlar qəbul etmək lazım olacaq və bu, sadəcə hərbi ehtiyaclardan və ya müdafiə sənayesi siyasətindən kənara çıxacaq.

Nəticə. Nəticə olaraq, görünür ki, Türkiyə bu sahədəki imkanlarının və potensialının limitlərini sınaqdan keçirməklə, başqa sözlə, potensial enerjini kinetik enerjiyə çevirmək qabiliyyətini araşdırmaqla müdafiə sənayesini xarici siyasət aləti kimi inkişaf etdirir. Xüsusilə Yaxın Şərq və Şərqi Aralıq dənizi hövzəsində xarici siyasət hərəkətlərinin mərkəzində olan hərbi əməkdaşlıq, təlimlər, bayraq nümayişləri və humanitar yardım kimi qeyri-döyüş əməliyyatlarının nəticələrinin planlaşdırılması, icrası və idarə olunmasında, eləcə də müdafiə sisteminin ixrac fəaliyyətlərində Türkiyə daha böyük müstəqillik nümayiş etdirir. Bu artan impulsun arxasında duran hərəkətverici qüvvə, şübhəsiz ki, milli müdafiə sənayesinin məhsul və imkanlarının üfüqi və şaquli genişlənməsidir. Lakin, kritik altsistemlər və texnologiyalar üçün xarici mənbələrdən asılılıq, insan kapitalının qorunması və inkişafı, uzunmüddətli sektoral sənaye siyasətində sabitlik və maliyyə resursları ilə bağlı mövcud risklər bu genişlənməyə əsas təhdidlərdir.

ƏDƏBİYYAT

1. Aktürk, Şener; “Turkey’s Grand Strategy as the Third Power: A Realist Proposal”, Perceptions, Cilt 25, Sayı 2, 2021, 152-177.
2. Aydın, Mustafa; Türkiye’de Güvenlik Kavramsallaştırması, Uluslararası İlişkilerde Çatışmadan Güvenliğe (Ed. Mustafa Aydın), İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları, 2015.
3. Özdemir, Haluk; Tasarlanmış ve Beliren Üst Stratejiler: Türkiye ve Diğer Orta Büyüklükteki Devletler için Alternatifler, Strateji Düşüncesi: Kuram, Paradoks, Uygulama (Ed. Ali Karaosmanoğlu ve Ersel Aydınlı), İstanbul Bilgi Üniversitesi Yayınları, İstanbul, 2020, 43-75.
4. Özlü, Hüsnü; Türkiye Cumhuriyeti’nde Savunma Sanayii’nin Gelişim Sürecinin Değerlendirilmesi, Cumhuriyetin 100. Yılında Türk Ordusu ve Milli Savunma (Ed. Zekeriya Türkmen), Vakıfbank Yayınları, İstanbul, 2023, 251-278.

5. Sipri, "SIPRI Fact Sheet", https://www.sipri.org/sites/default/files/2023-03/2303_at_fact_sheet_2022_v2.pdf [17.04.2026].
6. T.C. Cumhurbaşkanlığı Savunma Sanayii Başkanlığı, "Savunma Sanayiimiz", https://www.ssb.gov.tr/WebSite/contentlist.aspx?PageID=47&LangID=1 [17.04.2026].
7. Topsakal, İlyas ve Zengin, Alperen Kürşad; "Vol. III. Yükselen Türkiye'nin Milli Güvenliği: Jeopolitik Esneme", Kriter Dergi, https://kriterdergi.com/yazar/alperen-kur-sad-zengin/vol-iii-yukselen-turkiyenin-milli-guvenligi-jeopolitik-esneme [17.04.2026].
8. Zengin, Alperen Kürşad ve Topsakal, İlyas; "Büyük Stratejilerde Örüntü: Türkiye-Rusya İlişkilerinde Akıllı Uyum ve Esnek Rekabet", Güvenlik Stratejileri Dergisi, Cilt 18, Sayı 42, 2022, 387-410.
9. Zengin, Alperen Kürşad; "Ergenekon'dan Misak-ı Milliye Türkiye'nin Büyük Stratejisi", ATASAREN Bülten, Sayı 7, 2023, 23-31.
10. Zengin, Alperen Kürşad; "Türkiye'nin Rusya ile İlişkilerinde Jeopolitik Güvenliğini 'Ker-teriz Almak'", ATASAREN Bülten, Sayı 4, 2021, 53-56.

ТУРАН АХУНДОВА
доктор философии по истории
доцент Бакинского государственного университета

АСГАР МАММЕДЛИ
Магистрант Бакинского государственного университета

РАЗВИТИЕ ОБОРОННОЙ ПРОМЫШЛЕННОСТИ В ТУРЦИИ И ЕЕ РОЛЬ В РЕГИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

Сегодня Турция не разорвала связи с Западом, не повернулась полностью к Ближнему Востоку и не сместилась к российской оси. Турция находится в центре, в опоре своей геополитики. Она больше не играет тех ролей, которые ей были отведены в прошлом: пограничный пост против коммунистического блока, государство-мост между Азией и Европой, или сегодня изолированное государство между зонами конфликтов Европы и Ближнего Востока. Для повышения эффективности Турции как восходящей державы в международной системе ей необходимо определить свои собственные «геополитические коды» в соответствии со своей национальной безопасностью и национальными интересами. В этом отношении отношения Турции с другими государствами в ее непосредственном геополитическом регионе, особенно с соседними странами, имеют большое значение. Такой геополитический подход, основанный на безопасности, может позволить Турции играть ту роль, которую она для себя видит, как на региональном, так и на международном системном уровнях, и создать метод, соответствующий ее национальному идеалу. Турецкая оборонная промышленность имеет огромное значение в борьбе с угрозами национальной безопасности и достижении той роли, которую она хочет играть в будущем, а недавние события являются проявлением осознания государством этой реальности.

Ключевые слова: тюркские государства, Организация международной безопасности, региональная безопасность, институционализация, сообщество безопасности, коллективная идентичность.

TURAN AKHUNDOVA
Associate Professor at Baku State University PhD in History

ASGAR MAMMEDLI
Master's student of Baku State University

DEFENSE INDUSTRY DEVELOPMENT IN TÜRKİYE AND ITS ROLE IN REGIONAL SECURITY

Today, Türkiye has neither severed ties with the West, nor turned completely towards the Middle East, nor has it shifted towards the Russian axis. Türkiye is at the center, at the fulcrum of its

geopolitics. It no longer plays the roles assigned to it in the past: a border post against the communist bloc, a bridge state between Asia and Europe, or today an isolated state between the conflict zones of Europe and the Middle East. In order to increase Türkiye's effectiveness as a rising power in the international system, it must define its own “geopolitical codes” in accordance with its national security and national interests. In this regard, Türkiye's relations with other states in its immediate geopolitical region, especially its border neighbors, are of great importance. This geopolitical security-based approach could allow Türkiye to play the role it envisions for itself at both regional and international system levels and create a method that is appropriate for its national ideal. Türkiye’s national defense industry is of great importance in combating threats to its national security and achieving the role it wants to play in the future, and recent events are a manifestation of the state’s awareness of this reality.

Keywords: Turkic States, Organization of International Security, Regional Security, Institutionalization, Security Community, Collective Identity

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Sevinc Ruintən, t.e.d. Sani Hacıyev.

UOT 94; UOT 32:93/94

MƏMMƏDAĞA BAXIŞOV
Bakı Dövlət Universiteti,
Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti
mammadağabaxışov@bsu.edu.az

LATIN AMERİKASI ABŞ-NİN XARİCİ SİYASƏTİNDƏ (XX ƏSRİN SONU-XXI ƏSRİN BİRİNCİ RÜBÜ)

DOI: https://doi.org/10.36719/2708-065X/114/162-167

Məqalə ABŞ-nin xarici siyasətində Latın Amerikasının yerinin və rolunun təhlilinə həsr olunmuşdur. Latın Amerikası həmişə ABŞ üçün böyük əhəmiyyət kəsb etmiş, onun xarici siyasətində mühüm yer tutmuşdur. Bu region ABŞ-nın əsas ticarət tərəfdaşlarından, həm də qanunsuz narkotik və mühacirət mənbələrindən biridir. Məqalədə müxtəlif sahələrdə ABŞ-nin LA ölkələri ilə əlaqələrindən, regionun problemlərinin həllinə göstərdiyi yardımdan bəhs edilir. Müəllif XX əsrin sonu-XXI əsrin birinci rübündə ABŞ-nın Latın Amerikasında öz siyasətini regionda yaranmış yeni şəraitə uyğunlaşdırmaq və mənafelərini reallaşdırmaq üçün gördüyü işlərə xüsusi diqqət yetirir.

Açar sözlər: Regional əməkdaşlıq, ticarət, qanunsuz mühacirət, Latın Amerikası, sosial-iqtisadi problemlər, strategiya, Karib hövzəsi və Amerikaarası sammitlər.

Giriş. ABŞ-nın Latın Amerikasi ölkələri ilə əməkdaşlığının əsasında coğrafi yaxınlıq və onun mənafeləri dayanır. ABŞ həm də iqtisadi və siyasi problemləri və təhlükəsizlik amillərini nəzərə alır. ABŞ Latın Amerikasinda yerləşən ölkələrin ən böyük ticarət tərəfdaşı və xarici kapital mənbəyidir, regionun 11 ölkəsi ilə azad ticarət sazişi imzalayıb. Latın Amerikası ABŞ üçün böyük mühacir mənbəyidir (leqal və qeyri/leqal). Mühacirətə şərait yaradan əsas amillər coğrafi yaxınlıq, ABŞ-dəki iqtisadi şərait və təhlükəsiz yaşamaqdır. LA ölkələri ilə əlaqələrin daimi elementlərindən biri qeyri/qanuni narkotik dövriyyəsinin məhdudlaşdırılmasıdır. Ona görə ABŞ Meksika, Kolumbiya, Mərkəzi Amerika və Karib hövzəsi ölkələri ilə sıx əməkdaşlıq edirdi.

ABŞ həmişə LA ölkələrində demokratiyanı və insan hüquqlarını müdafiə edir. Kubada, Venesuelada,Nikaraquada və regionun digər ölkələrində korrupsiya məsələlərinə diqqət yetirir.

Latın Amerikasından gizli narkotik axınının məhdudlaşdırılması uzun müddətdir ki, ABŞ-nin region ölkələri ilə münasibətlərində əsas problemlərdən biridir. Meksika və Kolumbiyadan narkotik axını ABŞ-də əhalinin sağlamlığı və təhlükəsizliyi üçün qorxu mənbəyidir. Ona görə ABŞ qeyri-qanuni narkotik dövriyyəsinə qarşı mübarizə məqsədi ilə bir sıra proqramları-2007-ci ildə Meksikanı müdafiə etmək üçün "Merida"2008-ci ildə Mərkəzi Amerikanın regional təhlükəsizlik və 2009-cu ildə Karib hövzəsinin təhlükəsizlik təşəbbüslərini maliyyələşdirmişdi [11, s.124].

ABŞ-nin LA ölkələri ilə münasibətlərində əsas istiqamətlərdən biri həmin ölkələrdə demokratiyanın möhkəmlənməsinə, insan hüquqlarının qorunmasına və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş təşəbbüslərin müdafiə edilməsidir. Region ölkələrinin bir hissəsində demokratik idarəetmə ilə bağlı problemlər mövcuddur. Bu zaman ABŞ hökuməti ilk növbədə Kuba, Venesuela və Nikaraquanı önə çəkir. Latın Amerikasi ölkələrində korrupsiya, məhkəmə sisteminin siyasiləşdirilməsi, cinayətkarlığın artması, iqtisadi inkişafın zəifləməsi və sosial ziddiyyətlərin kəskinləşməsi ABŞ-nın diqqət mərkəzində idi.

Latın Amerikasında ABŞ-nin mövqeyi əvvəlki kimi möhkəm deyildi. Region ölkələrinin mövqeləri möhkəmlənmiş, Çin, Hindistan, Rusiya və Avropa İttifaqı ölkələri ilə əlaqələri genişlənmişdi. ABŞ-nin Yaxın Şərqə və Asiya-Sakit okean regionuna diqqəti artmışdı. ABŞ-də beynəlxalq münasibətlər üzrə Şuranın hazırladığı məruzədə Latın Amerikasındakı dəyişikliklər təhlil edilmiş, onun ABŞ-nin Latın Amerikası siyasətinə təsirinə qiymət verilmişədi. Ekspert qrupu belə qənaətə gəlmişdi ki, ABŞ-nin LA siyasətində ticarətə, demokratiyaya üstünlük verməsi və gizli narkotik dövriyyəsinə qarşı mübarizə mənafelərin reallaşmasını təmin etmir. Qrup tövsiyyə etdi ki, ABŞ öz

diqqətini LA-da dörd mühüm sahəyə-yoxsulluq, ictimai təhlükəsizlik, mühacirət və enerji təhlükəsizliyi sahələrinə yönəltsin. Bu üstün məsələlər ABŞ-nin mənafeləri ilə birbaşa bağlı idi, bu istiqamətlərdə uğur regionda sabitliyə, demokratiyanın möhkəmlənməsinə, iqtisadi artıma və qanunsuz narkotik dövriyyəsinin zəifləməsinə əsaslı təkan verərdi. Bu istiqamətlər həm də qarşılıqlı maraq yaradan sahələrdə ABŞ ilə Latın Amerikası ölkələri arasında dialoqun inkişafına şərait yaradırdı.

ABŞ uzun müddət ərzində Latın Amerikasında Monro doktrinasına istinad etmişdi. Monro doktrinasına görə ABŞ Latın Amerikasında hegemonluq etməli idi [6, s.15]. Son iyirmi ildə ABŞ-də siyasi dairələrin bir qismi Monro doktrinasının köhnəlməsindən danışırdı. Onlar düşünmür ki, Latın Amerikasında ABŞ-nin hegemonluq dövrü başa çatmışdır. Bu amil Latın Amerikasında bir çox cəhətdən müsbət dəyişiklikləri əks etdirir. Latın Amerikasının bütün ölkələrində çoxdan tarixi transformasiya nəticəsində hərbi-avtoritar rejimlər demokratik rejimlərlə əvəz olunmuşdur. Latın Amerikası dünyanın əsas bazarlarından və bir sıra məhsulları (ərzaq, enerji və s.) ixrac edənlərdən biridir.

Latın Amerikası ölkələri hələ öz siyasi böhranlarını tam həll etməyib, yoxsulluğu azaltmaq, rəqabət qabiliyyətini yüksəltmək, qeyri-bərabərliyi azaltmaq üçün zəruri olan tədbirləri kifayət qədər həyata keçirməyib. ABŞ-nin siyasi elitası Latın Amerikası ölkələrinin öz problemlərini necə həll etmək istədiyini başa düşmür, sərbəstliyin artması ilə barışa bilmir. Bu amil ABŞ ilə Mərkəzi və Cənubi Amerika ölkələri arasında gərginliyi artırır. ABŞ hökuməti LA-da vəziyyətə təsir göstərmək, orada mənafelərini region ölkələri ilə qarşılıqlı fəaliyyət şəraitində müdafiə etmək istəyir ki, onların münasibətlərində yeni dövr başlansın. ABŞ-nin LA-ya coğrafi yaxınlığı və sıx iqtisadi əlaqələrini nəzərə alsaq yeni strategiyanın olmaması narahatlıq yaradır.

XXI əsrin birinci rübündə ABŞ ilə Latın Amerikası ölkələri arasında ticarətin həcmi artmışdı. 2019-cu ildə, ABŞ-nin LA ölkələri ilə ticarətinin həcmi 1,9 trilyon dollar məbləğində olmuşdur ki, onun 937 milyard ixracın, 948 milyard dolları idxalın payına düşüb [12]. 1980-ci ildən sonra ABŞ-də Latın Amerikasından gələnlərin sayı dörd dəfə artıb. 2020-ci ildə keçirilmiş siyahıya alınma zamanı ABŞ əhalisinin 19%-i (62 milyon nəfər) özünü LA mənşəli kimi qeyd etmişdi[13]. 1980-ci ildən sonra ABŞ-də ispan dilli əhalinin sayı 47 milyon nəfər artıb ki, onlar səsvermə hüququna malikdir və ABŞ-də siyasi prosesə təsir göstərirlər. Bu gün LA icması ABŞ-də ən böyük, milli azlıq hesab edilir və onlar ABŞ-nin həm məişətinə, həm də mədəniyyətinə böyük təsir göstərirlər [14].

ABŞ-də yaşayan LA-dan olan insanlar həm də öz ölkələrini təmsil edir və ABŞ-nin LA siyasətinə təsir göstərmək imkanına malikdir. Latın Amerikasının böyük ölkələrin mənafeləri təkcə ABŞ ilə iqtisadi, siyasi və təklükəsizlik sahəsində əlaqələrdən asılı deyil. Braziliya Hindistan və Cənubi Afrika ilə birlikdə LA-Cənub Dialoqunun və Böyük 20-liyin iştirakçılarından biridir. Çili və Meksika Avropa İttifaqı və Çin Xalq Respublikası ilə ticarət və investisiya sazişləri imzalayıb. Yəni, LA ölkələri ABŞ ilə yanaşı, digər ölkələrlə də iqtisadi və siyasi əlaqələri genişləndirir.

Soyuq müharibə dövründə ABŞ və Latın Amerikası birlikdə sosializmi çəkindirmək və sol hərəkatlarla mübarizə ilə məşğul idi.1991-ci ildən sonra onlar öz diqqətini liberal iqtisadiyyatın formalaşmasına, demokratiyanın möhkəmlən-məsinə və qeyri-qanuni narkotik dövriyyəsinə. ABŞ-da hakim partiyalar XXI əsrin əvvəllərində də bu üç mühüm istiqaməti ardıcıl şəkildə həyata keçirmişdi. Latın Amerikasında liberal iqtisadiyyata ABŞ nin köməyi 1983-cü ildə "Karib hövzəsi üçün təşəbbüsündə 1992-ci ildə NAFTA-nın yaradılması haqqında sazişdə, 1994-cü ildən başlanmış Amerika Azad Ticarət Zonası" haqqında danışıqlarda öz əksini tapmışdı [8, s.634].

ABŞ-nin Latın Amerikasında demokratiyanın möhkəmlənməsinə yönəlmiş fəaliyyəti Böyük C.Buşun təşəbbüsü ilə Amerika Dövlətləri Təşkilatının 1080 saylı qətnaməsində öz əksini tapmışdı. Qətnamədə deyilirdi ki, ABŞ Latın Amerikasında demokratiyanın möhkəmlənməsinə hərtərəfli yardım göstərir. B. Klintonun prezidentliyi dövründə ABŞ-nin LA-da siyasəti həm də region ölkələrində vətəndaş cəmiyyətinin formalaşmasına və əhalinin siyasi proseslərdə fəal iştirakının təmin olunmasına yönəlmişdi. 1994-cü ildə B. Klinton hökuməti Haitiyə demokratik yolla seçilmiş prezident Y.Aristidin hakimiyyətini bərpa etmək üçün 10 min nəfərlik qoşun hissəsi göndərmişdi. ABŞ 1993-cü ildə Qvatemalada,1996-cı ildə Praqvayda və 2000-ci ildə Ekvadorda demokratiya üçün yaranmış təhlükənin aradan qaldırılması üçün aparılan danışıqlarda iştirak etmişdi.

ABŞ hökuməti XX əsrin 80-ci illərində LA-da qeyri-qanunu narkotika ticarətinə qarşı mübarizəni gücləndirmişdi. 1988-ci ildə Ağ evdə Narkotiklər üzrə nəzarət Milli siyasət İdarəsi yaradılmışdı. Böyük C.Buşun və B.Klintonun dövründə ABŞ-də qanunsuz narkotik ticarətinə qarşı mübarizə üçün daha çox vəsait ayrılmışdı. 1989-cu ildə ABŞ qeyri/qanuni narkotik ticarətində iştirak edən Panama prezidenti M. Noryeqanı ələ keçirmək üçün Panamaya qoşun göndərmiş, P.Eskobarı ələ keçirməyə çalışan Kolumbiya hökümətinə kömək göstərmişdi.

ABŞ prezidenti B.Klinton "Kolunbiya" planını həyata keçirmiş, 2000-ci ildə Kolumbiya hökümətinə kokain istehsalının qarşısını almaq üçün 1,3 milyard dollar pul vermişdi. 2001-ci ildə ABŞ prezidenti kimi fəaliyyətə başlayan Kiçik C.Buş bildirdi ki, Latın Amerikası ABŞ-nin xarici siyasət prioritetlərindən biri olacaq. Kiçik C.Buş Latın Amerikası ölkələrindən, xüsusilə Meksikadan mühacirət haqqında yeni qanunların qəbul ediləcəyini bildirdi.

2001-ci ilin 11 sentyabr hadisələrindən sonra ABŞ-nin bütün diqqəti terrorizmə qarşı mübarizəyə yönəldi [2, s.351]. Ona görə LA ölkləri narazı qaldı ki, ABŞ onların ehtiyaclarına məhəl qoymur. ABŞ-nin LA siyasətinin üç əsas dayağı qalırdı, lakin onun təşəbbüsləri gözlənilən nəticəni vermədi. ABŞ konqresi 2004-cü ildə Çili, 2007-ci ildə Dominkan və Peru ilə imzalanmış ticarət sazişlərini təsdiq etdi. Lakin bütün qitəni əhatə edən azad ticarət zonası yaradılmadı. Kolumbiya və Panama ilə əvvəlki sazişlər qaldı. Qeyri-leqal narkotika ticatərinə qarşı mübarizə davam edirdi. "Kolumbiya planı"na 4 milyard dollar vəsait ayrılmışdı[11,s.165]. Lakin narkotika ticarətinin qarşısını almaq asan deyildi.

2007-ci ildə Meksikada vəziyyət pisləşdi və ABŞ ona 1,4 milyard dollar yardım göstərdi. ABŞ 2001-ci ildə imzalanmış Amerikaarası Demokratiya Xartiyasına əsasən LA ölkələrində demokratiyanın inkişafına hərtərəfli yardım göstərirdi. 2002-ci ildə ABŞ Venesuella prezidenti U.Çavesin devrilməsinə yönəlmiş hərbi çevrilişi dəstəklədi. ABŞ ilə Venesuela arasında gərginlik artdı. ABŞ-nin Nikaraqua və Boliviyadakı səfirləri Venesuela prezidenti U.Çavesin siyasətini tənqid edirdi. Boliviya və Nikaraqua hökümətləri ABŞ səfirlərinin bəyanatını ölkələrinin daxili işlərinə, demokratik proseslərə müdaxilə kimi qiymətləndirdilər. Bu vəziyyət LA ölkələrində ABŞ-nin demokratiyanın inkişafına yönəlmiş siyasətinə inamı zəiflədirdi. ABŞ LA-da cərəyan edən proseslərə istədiyi şəkildə təsir göstərə bilmirdi. Bir sıra LA ölkələrində qeri-qanuni narkotika istehsalı və cinayətkarlığın miqyası artmışdı.

Venesuela prezidenti U. Çavesin siyasəti ABŞ-ni narahat edirdi. U.Çaves 1998-ci ildə ölkənin prezidenti seçilmişdi. U.Çaves neft satışından əldə edilən gəlirləri sosial proqramları maliyələşdirmək üçün istifadə edir və xüsusi dekretlərin köməyi ilə müntəzəm şəkildə öz səlahiyyətlərini artırırdı. U.Çaves Latın Amerikasında ABŞ-nin mövqeyini zəiflətməyə və regiona böyük təsir göstərən xarici siyasət həyata keçirməyə çalışırdı [4, s.169]. O istəyirdi ki, Kolumbiyada fəaliyyət göstərən bəzi təşkilatlar terrorçu deyil, siyasi təşkilat kimi tanınsın.

ABŞ-nin Latın Amerikası ölkələri ilə münasibətlərində yaranmış gərginlik təkcə onun siyasətindəki səhvlərlə deyil, həm də daha dərin dəyişikliklərlə bağlı idi. Lakin əsas prinsiplər dəyişməmişdi: iqtisadiyyətın liberallaşması, demokratiyanın möhkəmlənməsi və narkotik vasitələrin qeyri-qanuni istehsalı və dövriyyəsinə qarşı mübarizə ABŞ-nin LA siyasətində üstün istiqamətlər kimi qalırdı. ABŞ-nin LA ölkələri ilə münasibətlərdə mövqeyinin möhkəmlənməsi və regionda mənafelərinin reallaşması onun Latın Amerikasında cərəyan edən prosesləri düzgün qiymətləndirməsindən aslı idi. LA-da ABŞ-nin həm strategiyası, həm də diplomatiyası region ölkələrində iqtisadi vəziyyətin yaxşılaşmasına kömək etməli idi.

İqtisadiyyatın liberallaşmasına və məqsədli yardım proqramlarının həyata keçirilməsinə baxmayaraq Latın Amerikası əhalinin 37%-i yoxsullardır və LA dünyada ən qeyri bərabər hüquqlu regionlardan biridir. Sosial-iqtisadi çətinliklər siyasi qütbləşmə yaradır və sosial sabitliyi pozur. Bu amil idarəetmə orqanlarının zəifliyini göstərir və iqtisadi inkişafa mane olur. Sosial-iqtisadi problemlər demokratiyaya olan etimadı zəiflədir ABŞ-nin azad və ədalətli seçkilərə ənənəvi diqqəti sosial iqtisadi problemləri həll etmək üçün yetərli deyildi. Latın Amerikası ölkələrinin əhalisi çalışır ki, demokratiya bərabərliyi, sosial ədalətli və inkişafı təmin etsin.

ABŞ Latın Amerikasında qeyri/qanuni narkotika istehsalına və yayılmasına qarşı çoxlu vəsait xərcləmişdi, lakin bu mübarizə səmərəli deyildi. ABŞ-də Latın Amerikası ölkələrindən 20 milyondan artıq qeyri/leqal mühacir yaşayırdı. LA ölkələrindən ağır iqtisadi vəziyyətlə bağlı ABŞ-yə mühacirat artmışdı. ABŞ-nın siyasəti LA ölkələrindən mühacirətin qarşısının alınmasına yönəlmişdi. Mühacirlərin əksəriyyəti Meksikadan və Karib hövzəsi ölkələrindən gəlirdi. İspandilli mühacirlər ABŞ-də sosial strukturun mühüm elementinə çevrilmişdi [10, s.321].

XXI əsrin əvvəllərində Latın Amerikası ölkələrinin iqtisadi inkişafı sürətlənmişdi. 2007-ci ildə LA ölkələrində məhsul istehsalı 5,6% artmışdı. Panama, Argentina və Venesuelada məhsul istehsalı daha sürətlə artırdı. Kolumbiya, Dominikan, Peru və Uruqvayda məhsul istehsalı 7% artmışdı. Kubada nikel və kobalt hasilatı və ölkəyə gələn turistlərin sayı artmışdı. Region üzrə inflyasiya 5,4% idi, Peru və Braziliyada inflyasiya 2007-ci ildə 1,8%-ə və 3,6%-ə enmişdi [15]. Uğurlu vergi siyasəti nəticəsində region ölkələrinin gəliri artmışdı.

Bir sıra Afrika ölkələrində, Cənub-Şərqi Asiya ölkələrində məhsul istehsalı Latın Amerikası ölkələrindən çox idi. Latın Amerikası ölkələri arasında adambaşına düşən milli gəlirə görə Çili birinci yerdə idi [7, s.439]. Çili və Uruqvayda yoxsulluq 20%, Honduras və Nikaraquada 70% idi. Latın Amerikasında iqtisadi və siyasi sabitlikdə maraqlı olan ABŞ problemlərin həllində LA ölkələrinə və onların hökümətlərinə köməyi artırmışdı. Latın Amerikası ölkələrində 2003-2007-ci illəri əhatə edilən və sol partiyaların hakimiyyətə gəlməsi ilə müşayət edilən "sola doğru dönüş" regionun sosial-iqtisadi problemləri və əhalinin idarəetmədən narazılığı ilə bilavasitə bağlı idi.

XX əsrin 90-cı illərində ABŞ Latın Amerikası ölkələri ilə ticarətin genişlənməsinə çalışırdı. ABŞ-nın Beynəlxalq İnkişaf Agentliyi 1990-cı illərdə hər il LA ölkələrinə həm də yoxsulluğu azaltmaq üçün 600 milyard dollar vəsait xərcləyirdi. 1980-ci ildə həmin rəqəm 3 dəfə çox idi. Meksika və Braziliyada hər il sosial proqramlara 2,5 milyard dollar vəsait xərclənirdi. Sosial sahədə ABŞ-nın LA ölkələrinə göstərdiyi yardımın azalması həm də digər sahələrə köməyin artması ilə bağlı idi. ABŞ hər il Latın Amerikasında qeyri/qanuni narkotik dövriyyəsinə qarşı mübarizə məqsədi ilə 1,2 milyard dollar vəsait ayırırdı.

Kiçik C.Buşun prezidentliyi dövründə ABŞ LA ölkələrində inkişafa kömək məqsədilə "Minilliyin çağırış hesabı" adlı yeni plan hazırladı. lakin həmin plan regionda problemləri aradan qaldırmaq üçün yetərli deyildi. Kiçik C.Buşun planı regionun ən yoxsul 7 ölkəsinə yardım məqsədilə hazırlanmışdı. Bu plan əsasında ABŞ Nikaraqua, Honduras, Paraqvay, Salvador, Qayana, Peru ilə ikitərəfli sazişlər imzaladı və onlara yardım göstərdi[3,s.180]. Bu yardıma LA-nın çoxsaylı yoxsulları olan Meksika və Braziliya kimi ölkələrinin də ehtiyacı var idi.

C.Buş hökuməti Venesuela prezidenti U.Çavesin siyasətindən narazı idi. LA ölkələrinin rəhbərləri ilə görüş zamanı ABŞ prezidenti geniş şəkildə sosial ədalətdən danışırdı. Kiçik C.Buşun təşəbbüsü ilə Panamada peşəkar tibb işçiləri hazırlamaq üçün mərkəz yaradıldı. Bu mərkəz Mərkəzi Amerika ölkələrinə xidmət edirdi. ABŞ LA ölkələrinə kiçik və orta biznesə yardım məqsədi ilə kredit verirdi.

Nəticə. XXI əsrin əvvəllərində Latın Amerikasının beynəlxalq mövqeləri xeyli dəyişib. Meksika və Mərkəzi Amerika ölkələrinin Çinlə ticarəti genişlənib. LA ölkələrinin əksəriyyəti Çinə çoxlu məhsul satırdı, lakin Çindən idxal və qazanılan mənfəət az idi. Regionda yaradılımış inteqrasiya təşkilatlarının fəaliyyəti qənaətbəxş deyildi. 2018-ci ildə Venesuela ilə ixtilaflar nəticəsində Cənubi Amerika Millətlər İttifaqı öz fəaliyyətini dayandırdı. Regionda liderlik iddiaları olan Braziliya hökuməti qloballaşmaya mənfi yanaşırdı, Meksika hökuməti isə daxili siyasət məsələlərinə üstünlük verirdi [9, s.348].

D.Trampın prezidentliyi dövründə ABŞ-nın LA ölkələri ilə əlaqələri zəiflədi. ABŞ LA ölkələrindən mühacirətin qarşısını almağa çalışırdı, region üçün yardım məqsədilə ayrılan vəsait xeyli azalmışdı. ABŞ Kubaya və Venesuelaya qarşı yeni iqtisadi sanksiyalar tətbiq etdi, LA ölkələrindən idxal edilən məhsullar və ABŞ-dən pul köçürmələri üçün vergiləri artırdı. C.Baydenin prezidentliyi dövründə ABŞ-nın LA ölkələrindən, xüsusilə Mərkəzi Amerikadan gizli mühacirətə qarşı mübarizəsi güləndi. 2022 –ci ilin büdcəsində Latın Amerikası ölkələrinə 2,1 milyon dollar məbləğində vəsait ayrılmalı idi [1, s.124].

COVİD-19 pandemiyası dövründə LA ölkələrində sosial-iqtisadi vəziyyət daha da pisləşdi. Ona görə ABŞ hökuməti həm də pandemiyanın nəticələrini aradan qaldırmaq üçün LA ölkələrinə kömək etməyə başladı. C.Bayden hökuməti LA ölkələrindən qanuni mühacirət üçün qoyulmuş bəzi məhdudiyyətləri ləğv etmişdi. ABŞ hökuməti Venesuelaya qarşı tətbiq edilmiş sanksiyaları qüvvədə saxladı. 2021-ci ilin avqustunda ABŞ Haitidə zəlzələnin nəticələrinin ləğv edilməsinə kömək göstərdi. C.Bayden hökuməti Kuba ilə münasibətlərin yaxşılaşmasında maraqlı idi. C.Bayden həmişə ABŞ-nin LA ölkələri ilə münasibətlərinin inkişafına çalışırdı. ABŞ region ölkələrində ekoloji problemlərin həllinə və yaşıl iqtisadiyyatın formalaşmasına kömək göstərirdi. ABŞ Latın Amerikasında öz siyasətini həyata keçirmək üçün ADT-nin, digər təşkilatların və müntəzəm şəkildə keçirilən Amerikaarası sammitlərin imkanlarından istifadə edirdi.

ƏDƏBİYYAT

1. Baxışov M.Ə. ABŞ-nın Latın Amerikası siyasəti. Bakı, Füyüzat, 2026, 132 s.
2. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Bakı, AZ.TU-nun mətbəəsi, 2012, 408 s.
3. Baxışov M.Ə. Müasir dünya tarixi (Avropa və Amerika ölkələri). Bakı, BDU-nun nəşriyyatı, 2025, 400 s.
4. Baxışov M.Ə. Amerika ölkələrinin xarici siyasəti. Bakı, Füyüzat, 2023, 224 s.
5. Baxışov M.Ə. Latın Amerikasının yeni və müasir tarixi. Bakı, AZ.TU-nun mətbəəsi, 2013, 296 s.
6. Сударев В.П. Взаимозависимость и конфликт интересов США и Латинская Америка (вторая половинка XX века). М., ИЛА РАН, 2000, 358 с.
7. История новейшего времени стран Европы и Америки (1945-2000 гг.). М., Простор, 2002, 480 с.
8. Современные международные отношения (1991-2020 гг.). (под. ред. Б.Ф.Мартынова). М., Издательство АСТ, 2021, 768 с.
9. Мартынов Б.Ф. Международные отношения в странах Латинской Америки и Карибского бассейна (XX – начало XXI в.). М., Аспект-Пресс, 2019, 416 с.
10. Политические конфликты в Латинской Америке: вызовы стабильности и новые возможности (отв.ред. З.В. Ивановский). М., ИЛН РАН, 2017, 384 с.
11. Современная организованная преступность в Латинской Америке и странах Карибского бассейна. (под. ред. Б.Ф.Мартынова). М., Весь мир, 2017, 267 с.
12. The Office of the United States Trade Representative Western Hemisphere/ 2021/. - URL: https:/ustr./gov/countries-regions/americas/ [02.04.2026].
13. The USAF acis/ The Hispanik population has quadrupled in the past four decades/ USAF act/orq/Septenbe 24. 2021 URL: https:/usafacts./org/ articles/demographics-hispanik-americans/ [02.04.2026].
14. Gonzales J. Harvest of Empire A history of Latinos in America/ penguin Books.2011.416.
15. Economik Commission on Latin Amerika and the Caribben. ECLAC Statistical Yearbook? 2007.

МАМЕДАГА БАХЫШОВ
Доцент кафедры новой и современной истории стран Европы и Америки Бакинского Государственого Университета

ЛАТИНСКАЯ АМЕРИКА ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ США (КОНЕЦ XX ВЕКА - ПЕРВАЯ ЧЕТВЕРТЬ XXI ВЕКА)

Статья посвящена анализу места и роли Латинской Америки во внешней политике США. Латинская Америка всегда имела большое значение для США и играла важную роль в их внешней политике. Этот регион является одним из главных торговых партнеров Соеди-

ненных Штатов, но также источником нелегальных наркотиков и миграции. В статье в различных областях, рассматриваются отношения США со странами ЛА и помощь, которую они оказывают в решении проблем региона. Автор особое внимание уделяет усилиям Соединенных Штатов в Латинской Америке в конце XX и первой четверти XXI веков по адаптации своей политики к новым условиям, сложившимся в регионе, и реализации своих интересов.

Ключевые слова: Региональное сотрудничество, торговля, нелегальная иммиграция, Латинская Америка, социально-экономические проблемы, стратегия, саммиты в странах Карибского бассейна и Ммежамериканские саммиты.

MAMEDAGA BAKHYSHOV
Associate Professor, Department of Modern and Contemporary History of European and American Countries, Baku State University

LATIN AMERICA IN US FOREIGN POLICY (END OF THE 20TH CENTURY - FIRST QUARTER OF THE 21ST CENTURY)

This article analyzes the place and role of Latin America in US foreign policy. Latin America has always been of great importance to the US and has played a significant role in its foreign policy. The region is one of the United States' main trading partners, but also a source of illegal drugs and migration. This article examines various aspects of US relations with the LA countries and the assistance they provide in addressing the region's problems. The author pays special attention to the efforts of the United States in Latin America at the end of the 20th and the first quarter of the 21st centuries to adapt its policies to the new conditions that had developed in the region and to realize its interests.

Keywords: Regional cooperation, trade, illegal immigration, Latin America, socio-economic issues, strategy, Caribbean and Inter-American summits.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Elmira Hüseynova, s.e.d. Adil Mirabdullayev.

UOT 94(479.24)

TALEH CƏFƏROV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (Humanitar fakültələr üzrə) kafedrasının
elmlər doktoru proqramı üzrə qiyabi doktorantı
https://orcid.org/0009-0005- 4833-0679
talehceferov697@gmail.com

QƏRBİ AVROPA ÖLKƏLƏRİNDƏ AZƏRBAYCAN DİASPORUNUN TƏŞKİLATLANMASI VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/114/168-178

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu prosesinə başladı və istiqamətdə atılacaq vacib amillərdən biri də diaspor quruculuğu il bağlı idi. Ermənistanın Azərbaycana elan olunmamış müharibəsi də bir tərəfdən ölkəmizin haqq səsinin bütün dünyaya çatdırılması, həqiqətlərin gün üzənə çıxarılması baxımından olduqca əhəmiyyətli idi. Avropadakı Azərbaycan diaspor təşki-latlarının yaranması, onlara dövlət qayğısının artırılması, onların problemlərinin həllində dövlətin dəstəyinin gücləndirilməsi məqsədilə Avropa Azərbaycanlıları Konqresinin yaradılması təşəbbüsü irəli sürüldü. Diasporun vahid şəkildə koordinasiya olunması məqsədilə bir sıra vacib sərəncam və fərmanlar imzalandı. Dünya Azər-baycanlılarının 5 ildən bir keçirilən qurultayları Azərbaycan diasporunun qarşıya qoyduğu vəzifə və öhdəliklərinin vaxtında yerinə yetirilməsi və aşkara çıxarılan nöqsanların vaxtında aradan qaldırılması baxımdan əhəmiyyətli idi.

Açar sözlər: Azərbaycan diasporu, Avropa Azərbaycanlıları Konqresi, lobbiçilik səyləri, diaspor quruculuğu.

Giriş. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə diaspor quruculuğu işinə diqqət artdı. Əksər sa-hə-lərdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş, yeni bir mərhələ baş verdi. Qısa zaman ərzində diaspor quruculuğu, bu sahənin inkişaf etdirilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycan dövlətini bütün dünya azərbaycanlılarının hamisi elan etdi. 1997-ci ilin martında Prezidentin İcra Aparatı ictimai-siyasi şöbəsində xaricdə yaşayan soydaşlarımızla əlaqələr üzrə sektorun yaradılması bu istiqamətdə atılan ciddi bir addım idi [1, s. 5].

Ulu öndər Heydər Əliyevin "Bütün ölkələrdə soydaşlarımız bir-biri ilə həm-rəy, birgə olmalı, Azərbaycanın, millətimizin, müstəqil ölkəmizin naminə birləşməlidirlər" çağırışına səs verən Almaniyanın müxtəlif şəhərlərindəki Azərbaycan cəmiyyətlərini öz ətrafında birləşdirən Azərbaycan Cəmiyyətləri Federasiyasının 1999-cu il avqust ayının 21-22-də Bakı şəhərində I Qurultayı keçirilidi. Federasiyanın qarşısında duran vəzifələrin həyata keçirilməsinin konkret yollarını müəyyənləşdirmiş oldu [2, s. 22].

Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları Müstəqil Azərbaycan ilə əlaqələrinin möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətlərinin gücləndirilməsi ilə bağlı məsələlərin birgə mübarizəsi zərurətini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 9-10-da Dünya azərbaycanlılarının qurultayının çağırılması üçün 23 may 2001-ci il tarixdə sərəncam verdi [3, s. 129]. 2001-ci il may ayının 23-də ümummilli lider Heydər Əliyevin imzaladığı "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" sərəncamı ilə diaspor quruculuğu işinin təməli qoyuldu [4, s.13].

Qurultayda 37 ölkədən 200-dən çox müxtəlif təşkilatları təmsil edən 406 nü-mayəndə və 63 qonaq iştirak etmişdir. Bu qurultayda Azərbaycan Respublikası 130-dan çox dövlət və ictimai qurumların, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşki-latlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur [5, s. 67].

Bu qurultayın keçirilməsi ölkəmizdən kənarda yaşayan azərbaycanlıların bir araya gətirilməsi, ümummilli problemlərin həllində onların gücünün səfərbər edilməsi üçün böyük əhəmiyyət kəsb etdi. Eyni zamanda, Azərbaycan dövləti ilk dəfə olaraq bəyan etdi ki, ölkəmiz nəinki Azərbaycan Respublikası ərazisində yaşayan 10 milyonluq əhalinin, həm də dünya ölkələrinə səpələnmiş 50 milyondan artıq azərbaycanlının vətənidir. Bu siyasi addımı atmaqla Azərbaycan dövləti dünyaya səpələnmiş azərbaycanlılara sahib çıxmaqla onların hüquqlarının qoruyucusu olduğunu bəyan etdi [2, s. 25]. Qurultayda çıxış edən Ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarını bir çətir altına toplayacaq dövlət qurumunun yaradılmasına ehtiyac olduğunu bildirdi: "Mən qurultayın sonunda belə bir nəticəyə gəldim ki, həqiqətən Azərbaycanda diaspor ilə iş üçün xüsusi bir dövlət orqanı yaradılmalıdır. Güman edirəm ki, biz bu günlərdə belə bir orqanı yaradağıq, əlaqələr daha da genişlənəcək, inkişaf edəcək, irəliyə doğru gedəcəkdir" [5, s. 25].

Müstəqillik illərində qəbul edilən və milli dövlətçiliyimiz üçün strateji əhəmiyyət kəsb edən bütün sənədlərdə xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təminatı diqqət mərkəzində saxlanılmışdır. 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I Qurultayının keçirilməsi diaspor quruculuğu işində böyük addım olmaqla, planetin beş qitəsində yaşayan azərbaycanlıların konsolidasiyasına, xüsusilə soydaşlarımızın və həmvətənlərimizin mütəşəkkil qaydada təşkilatlanmasına rəvac verdi [6, s. 13]. Qurultay azərbaycanlıların müstəqil yaşaya və birləşə bilməyəcəyi ideyasını təbliğ edən antiazərbaycan qüvvələrə sarsıdıcı zərbə vurdu [1, s. 5].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 2002-ci il 5 iyul tarixində "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərmanı ilə Azərbaycan diasporunun fəaliyyətinin koordinasiya edilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin olunması, onların təşkilatlanması baxımından ciddi rol oynadı. Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının birliyinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edən tarixi sənəd idi. Bu sahədə məqsədyönlü, böyük əhəmiyyətli iş aparılması üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı [6, s. 13] və dövlət-diaspor əlaqələrinin saxlanması üçün münbit ideya-nəzəri və təşkilati zəminin hazırlanması işi başa çatdı [1, s. 5].

Diaspor quruculuğunun mühüm sahələrindən biri də xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi idi. 2002-ci il ilin dekabr ayının 27-də qəbul edilmiş və Ulu öndər Heydər Əliyevin 21 fevral 2003-cü il tarixli Fərmanı ilə "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunun qəbulu bir daha təsdiq etdi ki, dünya azərbaycanlılarının milli birliyinin və tərəqqisinin təminatçısı Azərbaycan Respublikasıdır [7]. Qanunda Azərbaycan diasporu ilə bağlı maddələrin həyata keçirilməsi, yeni təşkilatların yaranması, dünya azərbaycanlılarının həmrəyliyinə, dövlətin bu sahədə apardığı ardıcıl siyasətin təbliğinə nail olmaq məqsədilə Diaspor Komitəsinin qarşısında konkret vəzifələr qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidentinin "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə 21 fevral 2003 tarixli 859 saylı fərmanından və Nazirlər Kabinetinin 28 fevral 2003-cü il tarixli 28 saylı sərəncamının 2-ci bəndindən irəli gələn tapşırığa əsasən, həmin qanunun 9, 3-cü maddəsində nəzərdə tutulmuş xaricdə yaşayan azərbaycanlılar və onların təşkilatlarına maddi yardım edilməsi məqsədilə yaradılan dövlət fondlarının vəsaitlərindən istifadə "Qaydalarının" layihəsi hazırlanmışdır. Həmin layihəyə əsasən Azərbaycan Respublikası Milli Diaspora Fondu haqqında əsasnamə" Azərbaycan Respublikasının Prezidenti fərmanı ilə təsdiq edilmişdir [7].

Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yara-dılması bu işin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini özündə ehtiva edirdi. Beləliklə, diaspor təşkilatları arasında əlaqələrin möhkəmləndirilməsinə başlandı. Dövlət Komitəsinin yaradılması Heydər

Əliyevin Azərbaycanın sərhədlərindən kənarda yaşayan azərbaycanlıların həmrəyliyinə, onların doğma Vətənlə bağlayan tellərin sarsılmaz olmasına verdiyi əhəmiyyətin göstəricisi idi. [6, s. 13].

Əsasnaməyə əsasən Azərbaycan Respublikası "Milli Diaspora Fondu" Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi nəzdində fəaliyyət göstərəcəkdir. Fondun məqsədi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq eləcə də müva-fiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə, onların öz milli özgürlü-yünü qoruyub saxlanmasına və inkişaf etdirilməsinə, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və suverenliyinin qorunmasına, möhkəmləndirilməsinə, iqtisadi, sosial, mədəni inkişafına cəlb etmək üçün onlara maliyyə dəstəyi verməkdən ibarətdir [8].

Fondun əsas vəzifələri aşağıdakılardır:

a) Xaricdə yaşayan azərbaycanlıların və onların təşkilatlarının yaratdıqları qurumlara, kütləvi informasiya vasitələrinə beynəlxalq hüquq normaları çərçivəsində öz tarixi vətəni ilə əlaqə yaratmaq və inkişaf etdirmək məqsədi ilə maliyyə təminatı yaratmaq üçün tədbirlər görmək;

b) Beynəlxalq hüquq normalarına uyğun olaraq xaricdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyət və ictimai birliklər yaratmaq hüququnun həyata keçirilmə-sinə yardım göstərmək;

c) Xaricdə yaşayan azərbaycanlıların bir-biri ilə əlaqə yaratmasına, təşkilatlanması işinə dəstək vermək, yaradılan ictimai, mədəni və digər birliklərin Azərbaycan Respublikası ilə əlaqə yaratmasına yardım etmək və s. [9] Azərbaycan icma və birliklərinin daha rahat şəkildə əlaqələrini təşkil etmək və onlar arasında həmrəyliyi təmin etmək məqsədilə Azərbaycan diaspor təşkilatlarının Koordinasiya Şurası təsis edildi. Görünən tədbirlər nəticəsində dünyanın müxtəlif regionlarında azərbaycanlıların fəal təşkilatlanma prosesi geniş vüsət almışdır.

Bu siyasətin davamı olaraq, Azərbaycan ziyalılarından, tanınmış şəxslərdən, dövlət və hökumət nümayəndələrindən ibarət Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması bu sahəyə xüsusi əhəmiyyət verildiyini bir daha təsdiqlədi. Həmçinin elmi-intellektual potensialın formalaşmasına və inkişafına rəvac verdi. 2006, 2011, 2016-cı illərdə Bakı şəhərində Dünya Azərbaycanlılarının ikinci, üçüncü və dördüncü qurultaylarının keçirilməsi, müasir dövrün tələbləri nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il noyabrın 19-da imzaladığı müvafiq sərəncamla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi (DİDK) yaradılması da məhz zərurətdən irəli gəlir və bu sahənin inkişafına öz töhfəsini verir. Göründüyü kimi, DİDK-nin yaradılmasından sonra xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması daha geniş vüsət alıb. Hazırda, bu istiqamətdə ümummilli lider Heydər Əliyev dövlət idarəçilik məktəbi əsasında Azərbaycan diasporu yeni inkişaf mərhələsinə qədəm qoyub [10, s. 66].

Heydər Əliyev istər qurultaya qədərki dövrdə, istərsə də ondan sonra da diaspor işini xüsusi diqqətdə saxlayır, fürsət düşdükcə xaricdə yaşayan soydaşlarımızla yaxından təmasda olurdu. Xarici ölkələrə səfərləri zamanı vaxtının az olmasına baxmayaraq həmin ölkələrdə yaşayan soydaşlarımızla görüşlər keçirən ümummilli lider onlara müvafiq tövsiyələrini verirdi. Bu kimi görüşlər də öz növbəsində soydaşlarımızın təşkilatlanmasına öz müsbət təsirini göstərirdi [4, s. 13].

Azərbaycanlıların ictimai-siyasi fəallığının yüksəldilməsi, cəmiyyətə inteqrasiya prosesində qarşıya çıxan problemlərin aradan qaldırılması, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təbliği metodologiyasını müəyyən etmək də Xartiyanın məqsədləri sırasına daxil idi. Həmrəylik Xartiyası xarici ölkələrdə yaşayan həmvətənlərimizin Azərbaycan dövlətçiliyi və Vətənin milli maraqları ətrafında daha sıx birliyinə nail olunmasını, diasporumuzun digər xalqların diasporları ilə əməkdaşlıq imkanlarının genişləndirilməsini, gələcəkdə güclü Azərbaycan lobbisinin formalaşdırılması üçün real zəminin yaradılmasını tənzimləyirdi [4, s. 13].

Azərbaycan Respublikasının dövlət quruculuğunun əsas öndə duran məsələlərindən biri xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsidir. Azərbaycanda milli dövlətçilik ənənələrinin bərqərar olması, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu

istiqamətində atılan tarixi addımlar dünya azərbaycanlılarının arasında milli birliyin yaradılmasına geniş imkanlar yaradıb [1, s. 7].

Əslində, demoqrafik göstəricilərə görə Azərbaycan diasporu çox böyük diaspor hesab oluna bilər. Belə ki, hər beş nəfərdən biri mühacirətdə yaşayır. Şimali Azərbaycan, Cənubi Azərbaycan və Türkiyə Cümhuriyyətindən olan azərbaycanlı mühacirlərin hesabına hazırda diasporumuz üç amilli bir sistem kimi mövcuddur. Bu üç qol həmin sistemdə müəyyən mənada bərabər şəkildə və yanaşı mövcud olsalar da, onların keyfiyyət göstəriciləri də, diaspor olaraq təsiretmə gücü, potensialı da həmin bu 3 elementin sözügedən sistemdəki xüsusi rolu, çəkisi və yeri də fərqli təsir bağışlayır. Əgər bu 3 qanadı ayrı-ayrılıqda izah etməyə çalışsaq təqribən aşağıdakı kimi qeyd etmək olar. Şimali Azərbaycandan müxtəlif tarixi dövrlərdə nizamsız və pərakəndə şəkildə əsasən siyasi, sosial və iqtisadi səbəblərdən Qərbə mühacirət etmiş soydaşlarımız. Cənubi Azərbaycandan siyasi və iqtisadi səbəblərdən mühacirət etmiş son dərəcə problemli və ziddiyyətli bir qrup. Türkiyə Cümhuriyyətindən məqsədyönlü şəkildə, planlaşdırılmış və icmalaşdırılmış bir qrup həmvətənlərimiz.

Azərbaycan diaspor təşkilatlarının əsas vəzifələrindən biri də, erməni lobbisinin və onların tərəfkeşlərinin dövlətimizə və xalqımıza qarşı apardığı mənfi fəaliyyəti neytrallaşdırmaqdan və haqq səsimizi dünyaya çatdırmaqdan ibarətdir. Bu mübarizədə diasporlarımızın müttəfiqləri dost ölkələrin diasporlarıdır. Söz yox ki, ən böyük dayaq Azərbaycan və Türkiyə diasporlarıdır [1, s. 5].

Əvvəllər diaspora təşkilatlarımız yalnız öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qoruyub saxlamaq, Azərbaycanla əlaqələrini itir-məmək üçün daha çox fəaliyyət göstərirdilərsə, artıq onlar yaşadıqları ölkələrdə Azərbaycanın qarşılaşdığı haqsız problemlərlə bağlı öz səslərini ucaltmağa başlayıblar. Azərbaycan prezidenti İlham Əliyevin ümummilli lider Heydər Əliyevin "bir millət, iki dövlət" prinsipini davam etdirərək, 2007-ci ildə söylədiyi "Bir millətin iki diasporası olmaz" fikirləri bu prosesin daha da sürətlənməsinə təkan verib. [11, s.7].

Fransadakı azərbaycanlı tələbələrin bir cəmiyyət ətrafında birləşmələri 1999-cu ilin noyabr ayında başlandı. Məhz həmin ayda Strasburq şəhərində "Fransadakı Azərbaycanlı Tələbələr Assosiasiyası" (FATA) yaradıldı. 2000-ci ilin mart ayında isə bu assosiasiyanın Parisdə nümayəndəliyi açıldı. Onu da qeyd edim ki, FATA Fransada rəsmi dövlət qeydiyyatından keçib. Daha sonra 2001-ci ildə Qrenobl şəhərində "Fransa-Azərbaycan Elm və Tədqiqatların İnkişafı Assosiasiyası" və ən nəhayət, 2003-cü ilin noyabr ayında Parisdə "Fransa-Azərbaycan Gəncləri Assosiasiyası" yaradıldı. Bundan əlavə, Parisdə "Azərbaycan Evi", Strasburqda "Azərbaycanla Mədəni Əlaqələr Cəmiyyəti", "Azərbaycan Mədəniyyəti Mərkəzi", Qrenoblda isə "Azərbaycan-Fransa Azad Mübadilələr Assosiasiyası" adlı cəmiyyətlər mövcuddur [12].

Dünya Azərbaycanlılarının vahid bir ideya ətrafında birləşdirilməsi məsələsi bu gün də vacib vəzifə olaraq qalmaqdadır. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və konkret prinsipləri müəyyənləşdirilmiş bu böyük ideyanın həyata keçirilməsi prosesi uzun vaxt və gərgin əmək tələb edir. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi bu istiqamətdə mühüm işlər həyata keçirdi. İnteqrasiya prosesləri dünyanın müxtəlif regionlarında yaşayan həmvətənlərimizin daha sıx biləşməsini zərurətə çevirmişdir. Bunlardan biri də 2003-cü ilin aprelində Almaniya Federativ Respublikasının Maynts şəhərində Azərbaycan Diaspor Təşkilatları Rəhbərlərinin I forumu keçirildi. 29 ölkədən 170 nümayəndənin iştirak etdiyi forumda Azərbaycan icma və birliklərinin yalniz vahid milli platformadan Azərbaycan dövlətçiliyinin müdafiəsi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması və s. mühüm məsələlərdə vahid mövqedən çıxış etmələrinin zəruriliyi vurğulanmışdır [13, s. 55].

Forumda səslənmiş təkliflərdən biri də, Avropa məkanında fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin vahid bir təşkilatda birləşdirilməsi ilə bağlı olmuşdur. Avropa birliyinin genişlənməsi kontekstində meydana çıxan yeni ictimai-siyasi proseslər soydaşlarımızın bir təşkilatda birləşməsi məsələsini tarixi zərurətə çevirmişdir. Forumda bir mühüm məqam da nəzərə alınmışdır ki, ermənilərin ən böyük diaspor təşkilatları məhz Avropada fəaliyyət göstərir. Bu konteksdə ermənilərin xalqımıza və dövlətimizə qarşı apardıqları mənfur təbliğatın qarşısını almağın ən optimal yolu Avropa Azərbaycanlılarının ideya-siyasi birliyinin yaradılmasından keçir. Buna görə də diaspor

quruculuğunun ən mühüm vəzifələrindən biri Avropada fəaliyyət göstərən icma və birliklərinin vahid birliyini təşkil etməkdir [13, s. 30]

2003-cü ilin may ayında Türkiyənin İzmir şəhərində keçirilən "Azərbaycan diasporu: reallıqlar və perspektivlər" mövzusunda dünya azərbaycanlıları diaspor təşkilatları rəhbərlərinin növbəti konfransı zamanı Avropada fəaliyyət göstərən icma və birliklərin vahid təşkilatda birləşdirilməsi məsələsi bir daha müzakirə olunmuşdur. Konfransda Avropada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının birləşdirilməsinin zəruriliyi və bu məsələnin bütün dünyada gedən qloballaşma, inteqrasiya proseslərinin tələbi ilə meydana çıxdığı qeyd edilmişdir. Belə bir təklifin səsləndirilməsinə səbəb Avropadakı Azərbaycan icmalarının pərakəndə halda fəaliyyət göstərməsi idi [14, s. 120].

Bu zərurətin nəticəsi olaraq 2004-cü ilin aprelin 17-də Almaniyanın Berlin şəhərində Azərbaycan diasporu üçün son dərəcə əhəmiyyətli hadisə baş verdi. Belə ki, Berlinin məşhur "Hilton" mehmanxanasında Avropa Azərbaycanlıları Konqresinin (AAK) təsis konfransı keçirildi. Toplantı Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə təşkil olunmuşdur. Konfransa Ukrayna, Rusiya Federasiyası, Belarus, İsveç, İsveçrə, Norveç, Danimarka, Finlandiya, Belçika, Avstriya, Hollandiya, Fransa, İspaniya, Çexiya, Polşa, Rumıniya, Macarıstan, Bolqarıstan, Almaniyadakı Azərbaycan icmalarının və diaspor təşkilatlarının nümayəndələri, ABŞ, Özbəkistan, Qazaxıstan və Qırğızıstanda fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin rəhbərləri olmaqla dünyanın 28 ölkəsində fəaliyyət göstərən 50-dən çox diaspor təşkilatından 264 nümayəndə qatılmışdır.

Konfransda həmçinin Azərbaycan prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov başda olmaqla komitənin işçi heyəti, ölkəmizin Almaniyadakı səfiri Hüseynağa Sadıqov, Türkiyə Böyük Millət Məclisinin üzvləri, media rəhbərləri iştirak etmişdir.

Avstriyalı alim Erik Fayql çıxışında diaspor təşkilatlarının əhəmiyyətindən danışaraq Ermənistanın BMT-nin Dağlıq Qarabağ münaqişəsilə bağlı qətnamələrinə əməl etməməsinin arxasında məhz güclü erməni lobbisi dayandığını bildirmişdir. Erik Fayql hesab edirdi ki, Azərbaycan disaporu güclü bir qüvvəyə çevrilməlidir. Konfrans Avropa Azərbaycanlıları Konqresinin Nizamnamə layihəsini müzakirə edərək qurumun rəhbər orqanlarını - Mərkəzi Şura və İcraiyyə Komitəsini formalaşdırdi. Türkiyə-Almaniya İş Adamları Birliyinin prezidenti Bahəddin Qaya Avropa Azərbaycanlıları Konqresinin sədri, Ümumrusiya Azərbaycan Konqresinin icraçı direktoru Natiq Ağamirov və Ukrayna Azərbaycanlıları Konqresinin sədri Oqtay Əfəndiyev sədr müavinləri seçildilər. Avropa Azərbaycanlıları Konqresinin təsis olunması təsdiqləndikdən sonra 50-dən artıq icma və birlik rəhbəri rəsmi razılıq protokolu imzalamış, digər ölkələrdəki cəmiyyət və birlikləri gələcək əməkdaşlığa dəvət etmişdirlər. Konqresin qərargahı və Əlaqələndirici katibliyinin Berlində yerləşməsi qərara alındı. Almaniyada rəsmi qeydiyyatdan keçdikdən sonra Konqres beynəlxalq təşkilatlar qarşısında Azərbaycanın və azərbaycanlıların problemləri ilə bağlı məsələlər qaldırmaq hüququ əldə etmiş oldu [15].

Avropa Azərbaycanlıları Konqresinin təsis yığıncağında Azərbaycan Res-publikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış müraciətdə bir sıra vacib məqamlar diqqəti cəlb edir. Müraciətdə deyilir: "Zati aliləri, cənab Prezident! Biz, "Avropa Azərbaycanlıları Konqresi"nin (AAK) təsis toplantısının iştirakçıları 2004-cü il 17 aprel tarixində Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində toplanaraq Azərbaycan diaspor quruculuğunun çağdaş durumunu və gələcək perspektivlərini geniş müzakirə etdik. Bütün toplantı iştirakçılarının fikri bir məsələdə tam yekdil oldu ki, bu gün dünya azərbaycanlılarının ümummilli ideya – azərbaycançılıq, müstəqil dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında birləşməsi prosesi uğurla davam edir. Biz, xarici ölkələrdə yaşayan azərbaycanlılar, doğma vətənimizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin, iqtisadi yüksəlişin, başlanmış siyasi kursun davamlı olmasını istəyir, hər sahədə Azərbaycana xidmət etməyə və Sizin fəaliyyətinizi dəstəkləməyə hazır olduğumuzu bəyan edirik. Möhtərəm Prezident! Toplantı iştirakçıları hesab edir ki, dünyanın müxtəlif guşələrində fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin təşkilatlanma prosesinin geniş vüsət alması və birgə iş birliyi naminə icma və birliklərin Azərbaycan federasiyaları şəklində formalaşdırılması artıq günün tələbinə çevrilmişdir. Toplantı iştirakçıları

Avropada fəaliyyət göstərən Azərbaycan icma və birliklərinin mövcud imkanlarını, qayğı və problemlərini də geniş müzakirə edərək, belə bir ortaq fikrə gəldilər ki, Avropa ölkələrində məskunlaşmış soydaşlarımızın tarixi Vətənləri ilə əlaqələrinin daha da möhkəmləndiril-məsi, dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması, onların milli, sosial və vətəndaş hüquqlarının müdafiəsi, milli-mənəvi dəyərlərin birgə qorunması və Azərbaycan icma və birliklərinin regionda fəaliyyətlərinin əlaqələndirilməsi məqsədi ilə "Avropa Azərbaycanlıları Konqresi"ni təsis etsinlər. Toplantı iştirakçıları əminliklə qeyd etdilər ki, vətənin hüdudlarından kənarda olan Azərbaycan icmalarının birliyi ideyasının gerçəkləşməsi yalnız Ümummilli liderimiz Heydər Əliyevin milləti və dövləti dirçəltmək naminə apardığı böyük və müqəddəs işə ürəkdən inamları sayəsində mümkün olmuşdur. Sizi əmin edirik ki, "Avropa Azərbaycanlıları Konqresi" doğma Vətənimizin şərəf və ləyaqətini həmişə yüksək tutacaq və quruma daxil olan Azərbaycan icma və birliklərinin xətti ilə Azərbaycan həqiqətlərini, müxtəlif sahələrdə əldə etdikləri uğurları, təmsil etdikləri ölkə əhalisinə və eləcə də dünya ictimayyətinə çatdıracaq, Azərbaycanın iqtisadi qüdrətinin inkişaf etməsi yolunda fəal iştirak edəcəklər. "Avropa Azərbaycanlıları Konqresi" bütün azərbaycanlıları bir araya gətirmək istiqamətində öz fəaliyyətlərini bundan sonra daha da genişləndirəcək və soydaşlarımızın həyatında mühüm əhəmiyyət kəsb edən digər problemlərin həllinə öz töhfəsini verəcəklər [16].

Göründüyü kimi, Avropanın birləşməsi ideyasının meydana çıxması və bu istiqamətdə atılan addımlar yeni ictimai-siyasi situasiya yaradır və təbii ki, Azərbaycan diaspor təşkilatları bu situasiyaya uyğunlaşmalıdırlar. Yəni həmvətənlərimizin təşkilatlanması prosesi daha geniş vüsət almalıdır ki, biz sözügedən qitədə yaşayan azərbaycanlıların qloballaşma prosesindən kənarda qalmasına imkan verməyək. Avropa Birliyinin genişlənməsi soydaşlarımızın bir təşkilatda birləşməsi məsələsini tarixi zərurətə çevirmişdir.

Digər tərəfdən bir mühüm məqamı da nəzərə almalıyıq ki, indi ermənilərin ən böyük diaspor təşkilatları məhz Avropada fəaliyyət göstərir və onlar hətta bu ölkələrdə siyasi proseslərə təsir etmək imkanına malikdirlər. Deməli, Azərbaycan da öz gücünü ortaya qoymalıdır və bunun yeganə yolu Avropa azərbaycanlılarının ideya-siyasi birliyinin yaradılmasından keçir. Hesab edirəm ki, AAK üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəkdir. Bu işdə Azərbaycan dövləti, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi əlindən gələn köməyi əsirgəməyəcəkdir. AAK tam müstəqil bir qurum, qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərəcək və hər hansı kənar müdaxilələrə yol verilməyəcək. Eyni zamanda Konqresin üzvü olan təşkilatların da fəaliyyəti bu qurum tərəfindən məhdudlaşdırılmayacaq və onlar da sərbəst şəkildə fəaliyyət göstərəcəklər. Biz sadəcə olaraq Konqresin fəaliyyətinin daha səmərəli təşkilində zəruri ehtiyac yarananda köməyimizi edəcəyik. AAK Avropadakı Azərbaycan dərnəklərinin, icmalarının, federasiyalarının və bir çox başqa diaspor təşkilatlarının fəaliyytinin koordinasiya olunmasına nəzarət edəcəkdir. Dövlət Komitəsinin isə əsas vəzifəsi bundan ibarətdir ki, Konqresin işinin gücləndirilməsinə, onun strukturlarının formalaşdırılmasına öz dəstəyini əsirgəməsin. AAK mütəmadi şəkildə Azərbaycanda gedən proseslər barədə ətraflı məlumatlandırılacaq, zəruri məsləhətlər alacaqdır. Fikrimcə, bu AAK-ın qarşısına qoyduğu vəzifələrin icrasına əlavə stimul yaradacaqdır [4].

AAK-ın nizamnaməsində də qeyd edilir ki, təşkilatın başlıca məqsədi Avropa ölkələri ərazisində Azərbaycan diasporunun formalaşdırılmasına xidmət etməkdir. Bu regionda azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, sosial və siyasi-hüquqi maraqlarını təmin etmək Konqresin əsas vəzifələrindən biri kimi təsbit edilmişdir. Bunları həyata keçirmək üçün AAK dövrü mətbuatda, elektron kütləvi informasiya vasitələrində fəal təbliğat işi aparacaqdır. AAK-ın fəaliyyət sahələrindən biri də Azərbaycan, Qafqaz və Xəzər bölgələri ilə əlaqəli elmi-tədqiqat işlərini dəstəkləmək, fondlar, tədqiqat institutları, kitabxanalar və arxivlər təsis etməkdən ibarətdir. Xüsusi tapşırıqların icrasını təmin etmək məqsədilə AAK mətbuat bölməsi və komitələr yaratmaq səlahiyyətinə də malikdir. Konqres müxtəlif mövzulara aid konfranslar, diskussiyalar, mətbuat üçün brifinqlər, kurslar, seminarlar, məruzələr, sərgilər, musiqili tədbirlər, təhsillə əlaqəli səfərlər təşkil edə bilər. Təşkilat Azərbaycan Respublikasi ilə yaxşı münasibətlərə malik, Avropada, MDB-də və digər regionlardakı ölkələrdə fəaliyyət göstərən qurumlarla sıx dostluq və əməkdaşlıq münasibətləri saxlayacaqdır [4].

2004-cü ilin aprelində Berlində "Avropa Azərbaycanlıları Konqresi"nin təsis edilməsi müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində əhəmiyyətli hadisələrdən biri idi. Regionda azərbaycanlıların milli-mədəni xüsusiyyətlərini qorumaq, sosial və siyasi-hüquqi maraqlarını təmin etmək konqresin əsas vəzifələrindəndir. AAK-ın fəaliyyət sahələrindən biri də Azərbaycan, Qafqaz və Xəzər bölgələri ilə əlaqəli elmi-tədqiqat işlərini dəstəkləmək, fondlar, tədqiqat institutları, kitabxanalar və arxivlər təsis etməkdir [17, s. 189].

Avropa Azərbaycanlıları Konqresi təsis olunduğu gündən Avropa İttifaqının aparıcı üzv ölkələrində məskunlaşmış Azərbaycan diasporunun imkanlarını, onların təşkilatlanma səviyyəsini, resurslarını, cəmiyyətə inteqrasiya olunmasında qarşılaşdıqları çətinlikləri araşdırmış və bir sıra nöqsanları, zəif tərəfləri üzə çıxarmışdır. Belə ölkələrdən ən başlıcası kimi Almaniya respublikasındakı Azərbaycan diasporunu qeyd etmək olar.

Almaniyadakı soydaşlarımızın təşkilatlanması prosesində bir çox ciddi prob-lemilərin üzə çıxdığını qeyd etmək olar. İlk növbədə, soydaşlarımız Vətənə bağlılıqları ilə seçilsələr də, onlar arasında davamlı birliyin yaradılması istiqamətində müəy-yən çətinliklər ortaya çıxmaqdadır. Bunu soydaşlarımızın mənəvi-psixoloji baxımdan təşkilatlanmağa hazır olmamaları ilə bağlamaq olar. Almaniyadakı vəmvətənlərimizin problemlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Almaniyada yaşayan azərbaycanlılar arasında həqiqi birliyin olmaması və diaspor təşkilatları arasında əlaqələrin zəifliyi;
- Azərbaycanlıların qapalı şəraitdə yaşamağa meyilli olması və soydaşlarımızın cəmiyyətə inteqrasiyası prosesinin həddən artıq zəif getməsi;
- Azərbaycan icmalarının fəaliyyətinin lazımi səviyyədə koordinasiya edilməməsi;
- Azərbaycan diasporuna rəhbərlik etməyə qadir olan və bütün icmalar tərəfindən qəbul olunan liderlərin yoxluğu;
- Maaliyyə imkanlarının məhdud olması;
- Azərbaycanlılarda təşkilatlanma prosesinin zəif getməsi, bütün məsələlərə dövlətin müdaxiləsinin zəruri olması fikrinə əsaslanan psixoloji asılılığın davam etməsi;
- Azərbaycan Respublikasından köçmüş azərbaycanlılarla İran İslam Respublikasından köçmüş azərbaycanlılar arasında psixoloji ziddiyyətlər;
- Almaniyada yaşayan azərbaycanlılar arasında ziyalıların və elm adamlarının azlıq təşkil etməsi;
- Bütün Avropa ölkələri üçün xarakterik olan başqa sivilizasiyaların nümayəndələrinə qarşı münasibətdə müşahidə edilən psixoloji maneələr;
- Avropa Azərbaycanlıları Konqresinin fəaliyyətinin həddən artıq zəif olması, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi sahəsində mövcud olan obyektiv və subyektiv maneələr;
- Azərbaycan icmalarının Almaniyadakı digər xalqların diaspor təşkilatları ilə, o cümlədən yəhudi və türk icmaları ilə əlaqələrinin qənaətbəxş səviyyədə olmamamsı [18, s. 50].

Lakin Almaniyadakı Azərbaycan diasporunun fəaliyyətini gücləndirmək, ölkəmizin tarixi həqiqətlərinin Almaniya ictimaiyyətinə lazımınca çatdırmaq, buradakı erməni diaspor və lobbi təşki-latlarına qarşı yəhudi və türk diasporları ilə səmərəli işin təşkili məqsədilə bir sıra işlərin görülməsi vacibdir. İlk növbədə, Almaniyadakı Azərbaycan icmalarının koordinasiyalı şəkildə fəaliyyətini güc-ləndirmək, Avropa Azərbaycanlıları Konqresində struktur dəyişikliklərinin aparılması və qurumun fəaliyyətində yeni mütəxəssislərin əməyindən yararlanmaq, AAK-ın Avropanın bir sıra iri şəhərlə-rində regional şöbələrinin yaradılması, yəhudi və türk diasporları ilə Azərbaycan icmaları arasında əlaqələrin daha da gücləndirilməsi, Azərbaycan və Türkiyə diaspor təşəkilatlarının iştirakı ilə erməni lobbisinin antitürk fəaliyyətinə qarşı mübarizənin səmərəli təşkili məqsədilə birgə forumun keçirilməsi, Azərbaycan icmalarının fəaliyyətini daha keyfiyyətli təşkil etmək məqsədilə yəhudi və türk diasporunun təcrübəsindən yararlanmaq, türk və yəhudi diasporunun nüfuzlu nümayəndələrinin ölkəmizə səfərlərini təşkil etmək və s.

1995-ci ilin aprel ayında Prezident Heydər Əliyev Belçikanın paytaxtı Brüsseldə və bir sıra Avropa ölkələrində yaşayan soydaşlarımızla görüşmüşdür. Görüşdə Ulu Öndər Avropa ölkələrindəki Azərbaycan nümayəndələrinin təşkilatlanmasına təkan vermək, pərakəndə fəaliyyətdən lobbiçilik

fəaliyyətinə keçmək, Avropa ölkələrinin müxtəlif şəhərlərində yerləşən Azərbaycan cəmiyyətlərinin bir mərkəzdə birləşdirməyin vacibliyini qeyd etmişdir. Beləliklə, 1996-cı ildə Avropa ölkələrində, ilk növbədə Almaniyada Azərbaycan milli-mədəni mərkəzlərinin və cəmiyyətlərinin təşkilatlanması prosesi böyük uğur qazandı. Belə ki, 1996-cı ilin iyul ayının əvvəllərində Berlində Almaniya Azərbaycan Cəmiyyətləri Federasiyası -AACF təşkil olundu [19, s. 335].

Son illər Almaniyada yaşayan həmvətənlərimizin təşkilatlanma sahəsindəki uğurları nəzərə çarpır. İstər yeni icmaların yaradılması, istərsə də onların digər icmalarıla (türk, yəhudi) qarşılıqlı əlaqələrin qurulmasını xüsusi qeyd etmək lazımdır.

Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı mərhələdə Azərbaycan diasporunun Almaniyadakı fəaliyyətinin gücləndirilməsi sayəsində bir sıra diaspor təşkilatları təsis edildi. Bunlara misal olaraq 1988-ci ildə Berlində təsis edilmiş "*Azərbaycan-Almaniya Kültür Dərnəyi*"ni misal göstərmək olar. Təşkilatın yaranmasında məqsəd Azərbaycan mədəniyyəti, incəsənəti və iqtisadiyyatını alman cəmiyyətinə tanıtdırmaqdır. Bu istiqamətdə görüşləcək işlərin maliyyələşdirilməsini təmin etmək məqsədilə xüsusi fond yaradılmışdır. Cəmiyyətin sədri istedadlı rəssam kimi şöhrət qazanmış İbrahim Əşraridir.

Almaniyadakı həmvətənlərimizin 1988-ci ildə təsis etdiyi növbəti diaspor təşkilatı "*Berlin Azərbaycan Kültür Ocağı*"ı adlanır. Dərnək Azərbaycanda baş verən ictimai-siyasi prosesləri diqqət-də saxlamaqla onu alman cəmiyyəti ilə tanış etməkdir. Təşkilatın başlıca məqsədlərindən biri də Azərbaycan mədəniyyətini alman cəmiyyəti ilə tanış etməkdir. Təşkilatın qurucuları əsasən Cənubi Azərbaycandan olan soydaşlarımızdan ibarətdir və onların böyük əksəriyyətini ziyalılar təşkil edir.

Azərbaycanlı mütəxəssislərin Berlində təsis etdiyi növbəti diaspor təşkilatı "*Azərbaycan-Almaniya Akademiyası*"dır. Cəmiyyətin qurulmasında Azərbaycan mədəniyyəti, elmi, incəsənəti ilə maraqlanan əcnəbilər yaxından iştirak etmişdir. Cəmiyyətin məqsədi Azərbaycan elm və mədəniyyətini Qərbi Avropada tanıtmaq, onun Almaniyada inkişafına dəstək olmaqdır. Təşkilatın sədri tanınmış alim Əhməd Yəzdanidir.

Almaniyanın Bonn şəhərində Azərbaycan diasporunun yaratmış olduğu digər diaspor təşkilatı "*Azərbaycan Kültür Ocağı*"dır. Təşkilata doktor Nurəddin Qərəvi rəhbərlik edir. Təşkilatın məqsədi Azərbaycan mədəniyyətini, ədəbiyyatını Avropanın bir sıra ölkələrində yaymaq, təbliğ etməkdir. Təşkilat Azərbaycan ədiblərinin əsərlərini ingilis, fransız, alman dillərində nəşr edərək bu ölkələrin ictimaiyyətinə təbliğ etməkdədir. Həmçinin təşkilatın nəzdində "Savalan" jurnalı da fəaliyyət göstərir [17, s. 190].

Azərbaycan diasporunun Düsseldorf şəhərində yaşayan bir qrup tanınmış nümayəndəsinin təşəbbüsü ilə 1991-ci ilin sentyabrında yaratmış olduğu digər bir təşkilat "*Alman-Azərbaycan Cəmiyyəti*"dir. Cəmiyyətin sədri dünya şöhrətli cərrah, professor Harmen Fon Lissendir. Cəmiyyətin Bakıda nümayəndəliyi də fəaliyyət göstərməkdədir. Cəmiyyətin təşəbbüsü ilə düsseldorflu hüquqşünaslar dəfələrlə öl-kəmizə səfərlər etmiş, humanitar yardımlar gətirmişlər. Cəmiyyətin xətti ilə Qarabağ müharibəsində əlil olmuş 160 həmvətənimiz İranda müalicə almışdır [18, s. 55].

Almaniyanın Frankfurt şəhərində yaradılmış digər Azərbaycan diaspor təşkilatı "*Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti*"dir. Firudin Pərvizniya tərəfindən təsis edilmiş cəmiyyətin əsas fəaliyyət istiqamətlərindən biri mədəni tədbirlərin təşkilidir. Xaricdəki soydaşlarımızın Azərbaycanla əlaqələrini genişləndirməyə çalışan təşkilat bu istiqamətdə bir sıra uğurlar da əldə etmişdir.

2005-ci il noyabrın 28-də Berlində uzun müddət Azərbaycanda yaşamış və sonradan xarici ölkələrə, o cümlədən Almaniyaya mühacirət etmiş yəhudilər və həmvətənlərimiz tərəfindən təsis edilmiş nüfuzlu Azərbaycan diaspor təşkilatlarından olan "*Almaniyada Azərbaycan Evi*"ni xüsusilə qeyd etmək lazımdır. Cəmiyyətin yaradılmasında məqsəd Azərbaycanda doğulmuş, uzun müddət burada yaşamış, təhsil almış yəhudiləri, almanları və ölkəmizə, xalqımıza dostluq münasibəti bəslə-yən digər millətlərdən olan insanları öz ətrafında birləşdirərək təşkilatlandırmaq, Azərbaycan həqiqətlərinin Almaniya ictimaiyyətinə çatdırılmasına, xalqımızın mədəni irsinin təbliğinə töhfə verməkdir [18, s. 55].

Almaniyada fəaliyyət göstərən çoxsaylı diaspor təşkilatlarımız sırasına həmçinin 1988-ci ildə Berlində təsis edilmiş, Məmmədcəfər Cəfərzadənin sədrlik etdiyi "*Odlar Yurdu*" təşkilatını, 2003-cü

ildə Frankfurt şəhərində təsis edilmiş, İbrahim-xəlil Babayevin sədrlik etdiyi "*Almaniyadakı Azərbaycanlılar və Azərbaycanın Dostları Cəmiyyəti*"ni, 1997-ci ildə Koblents şəhərində təsis edilmiş, Ə. Heybətovun sədrlik etdiyi "*Bakı" Mədəniyyət Cəmiyyəti*"ni, 1997-ci ildə Köln şəhərində təsis edilmiş, Ü.Kamalın sədrlik etdiyi "*Azərbaycan Türk Kültür və Dayanışma Dərnəyi*"ni 2003-cü ildə Berlində təsis edilmiş, Nuridə Atəşinin sədrlik etdiyi "*Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyət Mərkəzi*"ni, 1988-ci ildə Berlində təsis edilmiş, Mirqadir Mansurun sədrlik etdiyi "*Ocaq*" *Cəmiyyəti*ni, 1993-cü ildə Kölndə təsis edilmiş, Bahar Kömürün sədrlik etdiyi təşkilatı qeyd etmək olar.

Azərbaycan diasporu təşkilatlarının fəaliyyətində Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında mətbuat orqanlarının və KİV-lərin əhəmiyyətini qeyd etmək yerinə düşər. Həmin illərdə bütün dünyada, o cümlədən Qərbi Av-ropanın bir sıra qabaqcıl ölkələrində - Almaniya, Fransa, Belçika, Hollandiya, Böyük Britaniya, Avstriya, Lüksenburqdakı Azərbaycan icma və birliklərinin nəzdində 27 qəzet, 10 jurnal, 3 radio və 2 televiziya kanalı fəaliyyətə başlamışdır. Bunlara misal olaraq, Almaniya Federativ Respublikasında "Azərbaycan Akademik Birliyi"nin "Azərbaycan" radiosu (2002), Avstriya-Azərbaycan Akademik Birliyinin "Orange FM" radiosu, Almaniyada "Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyət Mərkəzi"nin "Yeni Körpü" jurnalı (2004), Belçikada "Azərbaycan evi"nin "EU-Xəbər" (2004) qəzeti, Fransada "Azərbaycan Fransa Gənclik Asossiasiyası"nın "Körpü Le Pont" jurnalı (2004), "Azərbaycan evi"nin "Azərbaycanın səsi" radiosu (2004) və digər kütləvi informasiya vasitələrinin fəaliyyətə başlaması diaspor quruculuğu sa-həsində qazanılmış nailiyyətlərdən olmuşdur [2, s. 34].

Azərbaycan diasporunun təbliğat işinin əsas istiqamətlərindən biri də xalqımızın yaşadığı tarixi faciələr, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqəti özündə əks etdirən kitablar, broşürlər müxtəlif xalqların dillərinə tərcümə edilərək yayılması, yerli televiziya kanallarının sənədli filmlər sujetləri dünya ictimaiyyətinə nümayiş etdirilməsi olmuşdur. Diaspor təşkilatlarının fəal iştirakı ilə Ermənistanın terrorçu dövlət olduğunu beynəlxalq aləmə çatdırmaq məqsədilə müxtəlif ölkələrdə keçirilmiş mitinqlər, erməni separatçılarının liderlərinin ABŞ və Avropa ölkələrinə səfərlərinə etiraz aksiyaları xüsusilə qeyd edilməlidir.

ABŞ-da yaşayan azərbaycanlılar, türklər 150 milyard dollar sərvətə malikdirlər. Heydər Əliyev məsələni bütün kəskinliyi ilə belə qoyur: "Bəs bu pul hara sərf olunur. Hamısı elə qarınamı sərf olunur. Gərək onlar bunun heç olmasa bir hissəsini özlərinin vətəni olan Azərbaycana ayırsınlar [21].

Heydər Əliyev erməni diasporunun fəaliyyətinə toxunarkən ilk növbədə onların məskunlaşma siyasəti, yerli hakimiyyət orqanlarının işində səmərəli fəaliyyət göstərmələri, təşkilatları və qaydalarına ümummilli mənafe naminə əlbir çalışmaları və bir çox gördüyü işlər daim ölkə başçımızın diqqət mərkəzində saxlanılmışdır. O, Böyük Britaniyada soydaşlarımız qarşısındakı nitqində də bu haqda demişdir: "Biz Azərbaycanı təbliğ etmək, tanıtmaq üçün respublikamızda cürbəcür tədbirlər həyata keçiririk. Amma Ermənistanın buna ehtiyacı yoxdur. Ermənistan üçün bunu Amerikada, İngiltərədə, Fransada, başqa ölkələrdə, yaşayan ermənilər, diasporu edir. Ermənilər bu ölkələrdə yaşadıqları müddətdə özlərinə güclü imkanlar yaradıblar, mövqelər tutublar, böyük sərvətə malikdirlər. Bütün bu imkanlardan istifadə edərək onlar bizimlə qonşu olan və ölkəmizə daim təcavüz etmək əhvali-ruhiyyəsi ilə yaşayan torpaqlarımızı işğal edən kiçik bir Ermənistan Respublikasının bu dövlətlər, ölkələr qarşısında daha da yüksəklərə qaldırırlar [*22*].

Göründüyü kimi, Ulu öndər Heydər Əliyevin düşmən ölkənin 200 illik diaspor təcrübəsindən faydalanaraq Azərbaycan diasporunun da zəif və güclü tərəflərini bilir və diaspordakı nöqsanları, çatışmazlıqların aradan qaldırılması üçün dünya diaspor-larının əməli işindən faydalanmağa tövsiyyə edirdi. Və hər bir həmvətənizmi Azərbaycana dəstək olmağa, onun təəssübünü çəkməyə çağırır və əllərindəki imkanlardan az da olsa Vətənə bağışlamağa səsləyirdi.

Nəticə. XX əsrin sonu-XXI əsrin əvvəllərindən etibarən dünyada "yumşaq güc" ki-mi qəbul edilmiş diaspor fəaliyyəti dövlətin xarici siyasətinin müəyyən edilməsində mühüm amillərdən birinə çevrilmişdir. Dünya diasporlarının təcrübəsindən faydala-nan Azərbaycan diasporu ilk növbədə təşkilatlanma mərhələsindən keçmiş, daha sonra isə siyasi institut kimi özünü doğrultmağa başlamışdır. Azərbaycan diasporunun özəklərindən biri də Avropadakı Azərbaycan diaspor təşkilatlarıdır ki, onların fəaliyyətini daha yaxşı koordinasiya etmək mməqsədilə Avropa

Azərbaycanlıları Konqresi yaradılmışdir. AAK qısa müddət ərzində Avropadakı Azərbaycan diasporlarının buraxdıqları nöqsanları və çatışmazlıqları aşkara çıxardı. Nöqsanların aradan qaldırılması istiqamətində bir sıra əməli addımlar atıldı, xırda diaspor təşkilatları vahid kordinasiyada birləşdirildi.

ƏDƏBİYYAT

1. Abbaslı Tahir. Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi. Paralel.-2015.-2 iyul.-№ 1.-s. 5
2. Diaspor quruculuğu: lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi. Bakı: "Nəşriyyat" şöbəsi, 2023, 358 s.
3. Azərbaycan diaspor təşkilatları üçün sənədlər və məlumatlar toplusu. I kitab, Bakı, Şirvannəşr, 2008, s. 129
4. Azərbaycan-Türkiyə Dərnəkləri Federasiyası //AzərTac.-2004.-3 iyun.
5. Dünya Azərbaycanlılarının I Qurultayı (9-10 noyabr 2001-ci il). Bakı: Azər-nəşr, 2002, səh. 67
6.İsmayılbəyli S. Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi. Olaylar. -2015.-30 iyun.-№ 114.-s.13
7. ARDA.F.2693.Siy.4, s.v. 469, v.10
8. Azərbaycan dövləti bütün dünyada yaşayan azərbaycanlıların siyasi istinad-gahı kimi çıxış edir. Paralel. -2015.-14 iyul.-№ 123.-s.7.
9.ARDA. F.2693.Siy.4, s.v. 469, v.27
10. Babanlı Y. Azərbaycan diasporuna sistemli yanaşmanın nəzəri və praktiki əsasları. Tarix və onun problemləri, 2002, №, s. 64-75.
11.Mühacirətdə yaşayan Azərbaycan diasporu bu gün çox böyük qüvvəni təmsil edir. Palitra. -2015.-15 iyul.-№ 124.-S.7
12. Əliyev Rauf. Fransadakı Diasporumuz güclənir//Xalq qəzeti.-2004.-18 fevral.
13. Azərbaycan diasporu: ensklopedik məlumatlar toplusu. Bakı, 2012, s. 55
14. Əsgərova, Z. Türkiyədə Azərbaycan diasporunun formalaşması (XX əsr). t.ü.f.d., e.d. almaq üçün təqdim edilmiş dissertasiya
15. "Avropa Azərbaycanlıları Konqresi"nin təsis toplantısı iştirakçılarının prezident İlham Əliyevə müraciəti//AzərTac -2004.-26 mart.
16. Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının təsis konfransının iştirakçılarına//Xalq qəzeti:-2004, -27 may.
17. Feyziyev, C. Türk dünyası: 5 kitabda. İkinci kitab: Türk xalqları. -Bakı: Mütərcim, 2017, -328 s.
18. Məmmədov R.R. Azərbaycan diasporu (dərs vəsaiti). Bakı, Zərdabi Nəşr, 2019, 312 s.
19. Arzumanlı, V. Azərbaycan diasporu: (reallıqlar, qayğılar, problemlər). Bakı, Qartal, 2001, 335 s. sitat. 335
20. Məmmədov R.R. Azərbaycan diasporu (dərs vəsaiti). Bakı, Zərdabi Nəşr, 2019, 312 s.
21.Azərbaycan, 6 sentyabr, 1997-ci il.
22.Azərbaycan, 4 avqust, 1998-ci il.

ТАЛЕХ ДЖАФАРОВ
Доцента кафедры Всеобщей истории и технологии преподавания истории АГПУ, доктор философии по истории заочный докторант докторантуры кафедры истории Азербайджана гуманитарного факультета БГУ

ОРГАНИЗАЦИЯ И ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ В СТРАНАХ ЗАПАДНОЙ ЕВРОПЫ

После восстановления независимости Азербайджан начал процесс государственного строительства, и одним из важных шагов в этом направлении было строительство диаспоры. С другой стороны, необъявленная война Армении против Азербайджана сделала крайне важ-

ным донесение правого голоса нашей страны до всего мира и выявление правды. С целью создания азербайджанских диаспорских организаций в Европе, усиления государственной заботы о них и укрепления государственной поддержки в решении их проблем была выдвинута инициатива создания Конгресса азербайджанцев Европы. Для единой координации диаспоры был подписан ряд важных указов и распоряжений. Съезды азербайджанцев мира, проводимые каждые 5 лет, имели важное значение с точки зрения своевременного выполнения задач и обязательств, поставленных перед азербайджанской диаспорой, а также своевременного устранения выявленных недостатков.

Ключевые слова: Азербайджанская диаспора, Конгресс азербайджанцев Европы, лоббистские усилия, строительство диаспоры.

TALEH JAFAROV
PhD in History, Docent of the Department of General History and History Teaching Technology, ASPU, part-time doctoral student in the Doctor of Science program at the Department of Azerbaijani History (Humanities Faculty) of BSU

ORGANIZATION AND CHARACTERISTIC FEATURES OF THE AZERBAIJANI DIASPORA IN WESTERN EUROPEAN COUNTRIES

After restoring its independence, Azerbaijan began the process of state-building, and one of the crucial steps in this direction was related to diaspora building. On the other hand, Armenia's undeclared war against Azerbaijan made it extremely important to convey our country's rightful voice to the entire world and bring the truth to light. In order to establish Azerbaijani diaspora organizations in Europe, increase state care for them, and strengthen state support in resolving their issues, the initiative to establish the Congress of European Azerbaijanis was put forward. A number of important decrees and orders were signed to coordinate the diaspora in a unified manner. The congresses of World Azerbaijanis, held every 5 years, were significant in terms of the timely fulfillment of tasks and obligations set before the Azerbaijani diaspora and the prompt elimination of identified shortcomings.

Keywords: Azerbaijani diaspora, Congress of European Azerbaijanis, lobbying efforts, diaspora building.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 sentyabr 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Sevinc Seyidova, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 32:93/94

ELDAR CƏFƏROV
Bakı Dövlət Universitetinin dosenti
ORCID ID: 0000-0001-8563-697X
eldarjafarov@bsu.edu.az

ELMAR MURADLI
Bakı Dövlət Universitetinin doktorantı
ORCID ID: 0009-0005-5324-0029
elmar.muradli007@gmail.com

MÜASİR SİYASİ TƏBLİĞATIN İNTERNET ALƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/114/179-185

Müasir informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı siyasi təbliğatın forma və vasitələrində ciddi transformasiyalara səbəb olmuşdur. Rəqəmsal kommunikasiya mühitinin əsas komponentləri olan internet və sosial media siyasi aktorların hədəf auditoriyaya təsir imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Tədqiqatda sosial şəbəkələrin kommunikativ xüsusiyyətləri, rəqəmsal mühitdə siyasi təbliğatın transformasiya istiqamətləri, internet texnologiyalarının siyasi idarəetmədə tətbiqi imkanları, eləcə də sosial medianın ictimai-siyasi proseslərə təsiri təhlil edilir. Ərəb Baharı hadisələri nümunəsində sosial medianın kütlələrin səfərbər edilməsində və siyasi mesajların yayılmasında oynadığı rol qiymətləndirilir. Bununla yanaşı, rəqəmsal informasiya mühitində dezinformasiya, manipulyasiya, informasiya çirklənməsi və informasiya təhlükəsizliyi ilə bağlı risklər araşdırılır. Aparılan təhlil göstərir ki, internet əsaslı kommunikasiya vasitələri siyasi təbliğatın effektivliyini artırmaqla yanaşı, siyasi idarəetmə, informasiya təhlükəsizliyi və ictimai rəyin formalaşdırılması baxımından yeni çağırışlar meydana çıxarır.

Açar sözlər: siyasi, təbliğat, kommunikasiya, internet, media, rəqəmsal, kommunikasiya, idarəetmə, informasiya, dezinformasiya, manipulyasiya, rəy.

Giriş. Bəşəriyyətin ən fundamental sosial-psixoloji ehtiyaclarından biri olan ünsiyyət, dövrün tələblərindən və texnoloji inkişafdan birbaşa təsirlənir. İnsanlar daha asan və sürətli ünsiyyət qurmağın yollarını axtarırlar və ünsiyyət metodlarındakı bu dəyişikliklər nəticədə həyatın digər sahələrində də öz təsirini göstərir. Siyasi ünsiyyətin vacib bir sahəsi olan siyasi təbliğat da ünsiyyət metodlarındakı dəyişikliklərin təsiri ilə dəyişən bir sahə kimi ortaya çıxır. Xüsusilə informasiya dövrü adlandırılan dövrümüzdə ünsiyyətin yeni bir ölçüsü kimi təzahür edən sosial media, siyasi təbliğat vasitəsi və metodu kimi tez-tez istifadə olunmağa başlamışdır. Tədqiqatlar və mövcud təcrübələr göstərir ki, siyasi sistemdəki bütün aktorlar, həm siyasətlə məşğul olan və siyasi mexanizmi əllərində saxlayanlar, həm də bu sistemin idarə olunan hissəsi olanlar sosial mediadan fəal şəkildə istifadə edirlər.

Müasir dövrdə sosial medianın sürətli inkişafı siyasi təbliğatın həyata keçirilmə üsullarına, yayılma sürətinə və auditoriya üzərində təsir imkanlarına köklü dəyişikliklər gətirmişdir. Ənənəvi kütləvi informasiya vasitələrindən fərqli olaraq sosial media platformaları informasiyanın qısa zaman ərzində milyonlarla istifadəçiyə çatdırılmasına, müxtəlif auditoriyalar üçün fərdiləşdirilmiş məzmunun hazırlanmasına və ictimai rəyin real vaxt rejimində istiqamətləndirilməsinə şərait yaradır.

Bu xüsusiyyətlər siyasi aktorlara, dövlət qurumlarına, siyasi partiyalara, müxtəlif maraq qruplarına və qeyri-dövlət subyektlərinə öz kommunikasiya strategiyalarını daha çevik və məqsədyönlü şəkildə həyata keçirməyə imkan verir.

Rəqəmsal kommunikasiya texnologiyalarının inkişafı siyasi təbliğatın miqyasını da əhəmiyyətli dərəcədə genişləndirmişdir. Əvvəllər təbliğat əsasən televiziya, radio və çap mediası vasitəsilə həyata keçirilirdisə, hazırda sosial şəbəkələr, videoplatformalar, mesajlaşma tətbiqləri və digər rəqəmsal kommunikasiya vasitələri siyasi mesajların sərhəd tanımadan yayılmasına imkan yaradır.

Alqoritmlərin istifadəçilərin maraqlarına uyğun məzmun təqdim etməsi, hədəf auditoriyaların mikroseqmentləşdirilməsi və fərdiləşdirilmiş siyasi mesajların hazırlanması təbliğatın effektivliyini artıran əsas amillərdən biri hesab olunur. Bununla yanaşı, sosial medianın interaktiv xarakteri istifadəçiləri yalnız informasiya istehlakçısı deyil, həm də onun istehsalçısı və yayıcısına çevirir ki, bu da siyasi təsirin daha geniş coğrafiyada və daha qısa müddətdə yayılmasına səbəb olur.

Müasir informasiya mühitində siyasi təbliğat təkcə ideoloji mesajların yayılması ilə məhdudlaşmır. O, informasiya məkanına sistemli təsir göstərməyi, ictimai rəyin formalaşdırılmasını, emosional reaksiyaların idarə edilməsini, cəmiyyət daxilində parçalanmaların dərinləşdirilməsini və rəqib aktorların legitimliyinin zəiflədilməsini hədəfləyən çoxşaxəli kommunikasiya strategiyasına çevrilmişdir.

Xüsusilə beynəlxalq münaqişələr, seçki kampaniyaları və siyasi böhranlar zamanı sosial media platformaları rəqabət aparan narrativlərin yayıldığı və informasiya üstünlüyü uğrunda mübarizənin aparıldığı əsas məkan kimi çıxış edir. Bu baxımdan sosial media müasir informasiya müharibəsinin və strateji kommunikasiyaların ayrılmaz elementinə çevrilmişdir.

L.Olejnik qeyd edir ki, müasir təbliğat dezinformasiya, trollar, bot şəbəkələri, informasiya təsiri, psixoloji əməliyyatlar, informasiya əməliyyatları və informasiya müharibəsi kimi bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən komponentləri özündə birləşdirən mürəkkəb və çoxsəviyyəli bir hadisədir [10, s.48-49].

Bu komponentlər ayrı-ayrılıqda deyil, vahid kommunikasiya strategiyasının elementləri kimi fəaliyyət göstərir və onların əsas məqsədi informasiya mühitini nəzarət altında saxlamaq, hədəf auditoriyanın davranışına və qərarvermə prosesinə təsir göstərməkdir.

Psixoloji və informasiya əməliyyatları isə cəmiyyətin emosional reaksiyalarına təsir göstərməklə sosial etimadın zəiflədilməsinə, siyasi qütbləşmənin artırılmasına və rəqib tərəfin informasiya üstünlüyünün sarsıdılmasına yönəlir.

Beləliklə, sosial medianın inkişafı nəticəsində siyasi təbliğat yeni texnoloji imkanlar qazanmış, daha dinamik, çevik və təsirli xarakter almışdır. Müasir rəqəmsal platformalar vasitəsilə həyata keçirilən informasiya təsiri artıq təkcə informasiyanın yayılması ilə məhdudlaşmır, eyni zamanda narrativlərin qurulması, ictimai rəyin idarə olunması, siyasi davranışların istiqamətləndirilməsi və beynəlxalq münasibətlərə təsir göstərilməsi kimi daha geniş məqsədlərə xidmət edir. Bu səbəbdən müasir siyasi təbliğatın mahiyyətinin dərk edilməsi üçün onu strateji kommunikasiyalar, rəqəmsal informasiya mühiti və informasiya müharibəsinin ümumi kontekstində kompleks şəkildə təhlil etmək zəruridir.

Sosial media qlobal siyasi mühitə əhəmiyyətli təsir göstərərək dövlətlərə və digər siyasi subyektlərə koordinasiya olunmuş informasiya əməliyyatları həyata keçirməyə, daxili və xarici siyasi gündəliyi formalaşdırmağa və ya manipulyasiya etməyə imkan verir. Bir sıra hallarda hökumətlər sosial mediadan ölkə daxilində ictimai dəstəyi gücləndirmək, həyata keçirdikləri siyasətə legitimlik qazandırmaq və dövlət institutlarına inamı artırmaq məqsədilə istifadə edirlər. Rəqəmsal platformalar vasitəsilə hökumətlər öz fəaliyyətləri barədə məlumatları operativ şəkildə ictimaiyyətə çatdırır, həyata keçirilən islahatları və dövlət proqramlarını təqdim edir, böhran və fövqəladə vəziyyətlər zamanı rəsmi mövqelərini izah edirlər. Bununla yanaşı, sosial media hökumətlərə cəmiyyətin müxtəlif təbəqələri ilə birbaşa kommunikasiya qurmağa, ictimai əhval-ruhiyyəni izləməyə və yaranan informasiya boşluqlarına operativ reaksiya verməyə imkan yaradır [12, s.12]. Müasir münaqişələrdə sosial medianın əhəmiyyəti bu platformaların narrativlərin yayılması, ictimai rəyə təsir göstərilməsi və təsir əməliyyatlarının həyata keçirilməsi məqsədilə necə istifadə olunduğunu daha dərindən araşdırmağı zəruri edir. Sosial medianın informasiya müharibəsinin mühüm döyüş meydanlarından biri olduğunu göstərir [8, s.7]. Nikolos Rab isə hesab edir ki, dezinformasiya ilə bağlı dominant yanaşma sosial medianı problemin əsas mənbəyi kimi qiymətləndirməyə meyllidir [13, s.2].

İnternetin yayılması və eləcə də sosial şəbəkələrin kütləviləşməsi ənənəvi media vasitələrinin təsir imkanlarının azalmasına gətirib çıxarmaqdadır. Ənənəvi mediaya marağın azalması tendensiyası, xüsusilə ani mesajlaşma tətbiqləri və sosial medianın məlumat əldə etməkdə əsas rol oynadığı gənclər arasında nəzərə çarpır.

Sosial şəbəkələrin xüsusiyyətləri. M. Kastells hesab edir ki, qlobal, şəbəkələşmiş strukturlar insanların həyatında mərkəzi rol oynayır və əvvəlki qarşılıqlı ünsiyyət formalarını əvəz edir [1, s.505]. Şəbəkələr müasir sosioloji nəzəriyyələr çərçivəsində nəzərdən keçirilir. B.Uellman qeyd edir ki, "şəbəkə analitikləri insanların və icmaların davranışlarının nizamlı təbiətini öyrənməyə çalışırlar [4, s.315]. Bu isə daha sonra siyasi təbliğat zamanı da istifadə edilir.

Sosial şəbəkənin mahiyyəti ilə bağlı olan digər məsələ isə ondan ibarətdir ki, burada iştirakçılar sabit deyildir [3, s.85]. Yəni, sosial şəbəkə iştirakçıları istədikləri zaman məkana daxil olur, istədikləri zaman isə sosial şəbəkəni tərk edə bilirlər. Bu isə özlüyündə məlumatların dəqiqliyinə təsir edən amillərdən biridir.

Sosial şəbəkələr və təbliğatın transformasiyası. İnsanların və xüsusilə gənclərin internetdən əldə edilən məlumatlara yüksək dərəcədə etibar etdikləri qənaətinə gəlmək olar. Fərqli texnoloji şəraitdə formalaşmış yeni nəsil ictimai-siyasi həyata qədəm qoyur. Beləliklə, rəqəmsal məkan təbliğatın tətbiq oluna biləcəyi yeni bir arenaya çevrilir [5, s. 81].

Eyni zamanda, sosial media və mesajlaşma tətbiqlərinə keçdikcə kommunikasiya formatlarının müntəzəm istifadəsi ilə əlaqəli koqnitiv və siyasi risklər artır. Bunlar siyasi manipulyasiya, fobiyaların yayılması, emosional manipulyasiya, istifadəçilərin dünyagörüşünü təhrif edən fikirlərin və saxtakarlıqların artması və digər amillərdir. Bu səbəbdən, milli maraqları, dəyərləri və ideyaları qorumaq və təşviq etmək üçün onlayn informasiya məkanına hüquqi nəzarət getdikcə daha vacib hala gəlir.

Genişmiqyaslı rəqəmsallaşma kontekstində siyasi təbliğat nəinki cəlbediciliyini qoruyub saxlamış, həm də daha effektiv olmuşdur. Lakin, müasir cəmiyyətin spesifik təbiəti və texnoloji mürəkkəbliyi nəzərə alınmaqla, təbliğat özlüyündə forma və şəkilləri etibarilə transformasiya olunur. Siyasi kommunikasiyaların məcmusu dövlət və sosial-siyasi idarəetmə sistemində fundamental elementdir.

Belə bir şəraitdə qarşılıqlı təsirlərin təbiəti və transformasiyası siyasi və sosial proseslər üzərində tənzimləmə şəklini və nəzarət dərəcəsini müəyyən edir [2., s.73]. Kommunikasiya mexanizmlərindən biri kimi təbliğat da informasiya texnologiyalarının inkişafı səbəbindən transformasiyaya məruz qalır.

Burada xüsusilə bir məqamı vurğulamaq lazımdır ki, sosial şəbəkələrin inkişafı hər bir vətəndaşı ictimai və siyasi prosesin birbaşa iştirakçısına çevirə bilmişdir. Sosial media istənilən şəxsə kontent yaradıcısı olmağa imkan verir. Eyni zamanda, şəbəkə istifadəçilərinə məlumatı şəkilləndirmək və dəyişmək üçün səlahiyyət verir. Bununla da ictimaiyyətin siyasi prosesdə fəal rol oynamasına imkan verir [6, s.123].

Sosial media siyasi ünsiyyətin təbiətini dəyişdirir. Öz istifadəçilərinə fərqli yollarla məlumat əldə etmək üçün vasitələr təklif edir. İstifadəçilər siyasi fiqurlar və rəhbərlər ilə birbaşa əlaqə qura bilmək imkanı əldə edirlər. Bununla da siyasi fəaliyyətlə yeni yollarla məşğul ola bilərlər. Hər bir sosial media platforması tərtibatçılar tərəfindən proqramlaşdırılır, siyasətçilərin və vətəndaşların platformadan siyasi məqsədlər üçün necə istifadə edə biləcəklərinə təsir edən unikal rəqəmsal arxitektura yaranır.

İstifadəçilərin siyasi mesajları dərhal paylaşmaq, bəyənmək imkanı siyasətçilərin seçicilərlə birbaşa ünsiyyəti üçün yeni imkanlar açır. Eyni zamanda, sosial media kampaniyaları televiziya və ya qəzet reklamı kimi ənənəvi platformalarda olmayan risklər daşıya bilər.

Siyasi idarəetmədə internet təbliğat texnologiyalarından istifadənin xüsusiyyətləri və imkanları. Siyasi idarəetmə də daxil olmaqla, istənilən idarəetmə prosesləri müvafiq dəyər-semantik məkan daxilində həyata keçirilir. Siyasi idarəetmənin dəyər-semantik və ideoloji komponentləri məqsədin qoyuluşuna, təbiətinə və idarəetmə nəticələrinin sonrakı izahına təsir edən güclü amil kimi çıxış edir. Öz növbəsində, ictimai şüurda yerləşmiş dəyərlər və mənalar əhalinin sosial-siyasi reallığı qavramasına, eləcə də müəyyən siyasi davranış modellərinin formalaşmasına birbaşa təsir göstərir [10].

Bu baxımdan, dəyər-semantik məkanların formalaşdırılması və qorunması siyasi idarəetmənin ən vacib vəzifələrindən birinə çevrilir. Çünki ənənəvi dəyərlərin və mənaların məhv edilməsi və ya transformasiyası qaçılmaz olaraq sosial-siyasi proseslərin məzmununda əhəmiyyətli dəyişikliklərə səbəb olur. Bir sıra siyasi institutlarının böhranına səbəb olur. Eyni zamanda, istənilən sosial-siyasi dəyərlərin və mənaların ictimai şüura ötürülməsi, yayılması çox önəmli məsələdir [11, s. 54].

Bu baxımdan, ünsiyyət texnologiyaları və ictimai şüura təsir siyasi idarəetmədə mühüm yer tutur. G.İ.Kolesnikovanın qeyd etdiyi kimi, təbliğat hər bir cəmiyyətin siyasi həyatının təbii elementidir [8, s.13]. İnternetin siyasi kommunikasiya vasitəsi kimi inkişafı ictimai şüura təsir imkanlarını daha da genişləndirmişdir. Bu isə milli dəyərlərin və mənəvi prinsiplərin qorunması baxımından siyasi idarəetmə qarşısında yeni vəzifələr qoyur.

Müasir dövrdə internet üzərindən həyata keçirilən təbliğat texnologiyaları qlobal miqyasda geniş tətbiq olunur. İstifadəçilər arasında sürətli əlaqələrin qurulması, müxtəlif kommunikasiya vasitələrinin mövcudluğu və multimedia məzmunundan istifadə internetin siyasi təbliğat imkanlarını əhəmiyyətli dərəcədə artırır [7].

Sosial mediadan istifadəsinin siyasi nəticələrinə dair nümunələr. Sosial medianın ünsiyyət vasitəsi kimi istifadəsi dünya miqyasında sürətlə artır. Bu artıma paralel olaraq, istifadəçilər əvvəllər ənənəvi ünsiyyət kanalları vasitəsilə həyata keçirdikləri bir çox fəaliyyəti sosial mediaya köçürürlər. Bu prosesdə həm təbliğatçılar, həm də hədəf auditoriyaları tərəfindən siyasi təbliğat da sosial media məkanına köçürülür.

Həm milli, həm də yerli siyasətçilər getdikcə sosial mediada görünərək siyasətlərini, məqsədlərini, vədlərini və hərəkətlərini internet vasitəsilə hədəf auditoriyasına çatdırmağa çalışırlar. Yaxın tarixdə buna dair bir çox nümunə var. Sosial media istifadəsinin ən diqqətəlayiq və uğurlu nümunələri arasında Yaxın Şərqdə Ərəb Baharı kimi tanınan diktatura əleyhinə hərəkatlar var. Tədqiqatlar göstərir ki, Ərəb Baharından əvvəl və onun gedişatı zamanı Facebook, Twitter, Instagram və YouTube, xüsusən də etirazçılar tərəfindən kütlələri səfərbər etmək və hərəkatı dünya ictimaiyyətinə tanıtmaq üçün təsirli vasitələr kimi istifadə edilmişdir. Bundan əlavə, bu sosial media vasitələri bu hərəkatların legitimləşməsində təbliğat vasitələri kimi də aktiv rol oynamışdır [9, s. 421].

Sosial medianın təbliğat vasitəsi kimi istifadəsində üstünlükləri olsa da, bəzi mənfi cəhətləri də var. Əsasən, sosial medianın siyasi təbliğat və iştirak vasitəsi kimi istifadəsi fərdləri həssas edir [11, s.5]. Praktikada rast gəlinən digər bir mənfi cəhət, sosial media vasitəsilə aparılan təbliğatın suiistifadəyə çox açıq olmasıdır. Adi vətəndaşlar üçün şəxsiyyətin təsdiqlənməsinin mümkün olmadığı bu sahədə kütlələr dezinformasiya və ya saxta xəbər və məlumatlarla manipulyasiya edilə bilər ki, bu da mənfi nəticələrə gətirib çıxara bilər. S.M.Maci və həmmüəlliflərin yanaşmasına görə, dezinformasiya diskursu yalan məlumatın yayılması ilə məhdudlaşmır, eyni zamanda ictimai rəyin formalaşdırılmasına təsir göstərən dil, ritorika və kommunikasiya strategiyalarını da əhatə edir [14, s.1].

Xüsusilə yüksək sosial həssaslıq dövrlərində oxşar təcrübələr çox ciddi problemlər yarada bilər. Yenə də yuxarıda qeyd olunan səbəblərə görə sosial media ciddi informasiya çirklənməsi yarada və seçiciləri çaşdıra bilər.

Nəticə. Beləliklə, aşağıdakı nəticələri qruplaşdırmaq olar:

- Qlobal internet-kommunikasiya məkanının inkişafı informasiya məzmununun idarə olunması imkanlarını əhəmiyyətli dərəcədə artırmışdır. Bu şəraitdə ictimai şüurda müəyyən sosial-siyasi təsəvvürlərin formalaşdırılması, yayılması və möhkəmləndirilməsi siyasi mübarizənin vacib istiqamətlərindən birinə çevrilmişdir. Bu proseslər insanların siyasi davranışına və qərarlarına birbaşa təsir göstərir;

- Müasir siyasi idarəetmədə internet texnologiyaları təbliğatın əsas vasitələrindən biri kimi çıxış edir. Təbliğatın məqsədi geniş əhali kütləsində müəyyən fikir, baxış və dəyərlər formalaşdırmaq, onları konkret siyasi istiqamətə yönləndirməkdir. İnternet məkanı insanların coğrafi məsafədən və dövlət sərhədlərindən asılı olmayaraq bir-biri ilə əlaqə qurmasına imkan yaradır;

- Yeni media texnologiyalarının inkişafı nəticəsində informasiya mübadiləsi daha sürətli və əlçatan olmuş, məsafə amilinin əhəmiyyəti azalmışdır. Bunun nəticəsində dünyanın müxtəlif ölkələrində yaşayan və eyni baxışları bölüşən insanlar vahid informasiya məkanında birləşə bilirlər;

- Bu vəziyyət xarici təbliğat imkanlarını da genişləndirir. Ənənəvi mediadan fərqli olaraq internet istifadəçilərlə birbaşa ünsiyyət qurmağa şərait yaradır və bu da təbliğatın təsir gücünü artırır. Eyni zamanda internet mühitində hər bir istifadəçi təkcə informasiya alan deyil, həm də onu yayan şəxsə çevrilə bilir;

- Sosial şəbəkələrdə yayılan məzmunun təsir gücü insanların informasiya qəbul etmə psixologiyası ilə də bağlıdır. Tədqiqatlar göstərir ki, istifadəçilər rəsmi qurumların yaydığı məlumatlardan daha çox dostlarının, tanışlarının, izlədikləri şəxslərin və ya eyni maraqları bölüşən onlayn icmaların paylaşdıqları məzmuna etibar etməyə meyllidirlər. Bu etimad hissi informasiyanın daha az tənqidi qiymətləndirilməsinə səbəb ola bilər və nəticədə siyasi mesajların, dezinformasiyanın və manipulyativ məzmunun daha sürətlə yayılmasına şərait yaradır. Xüsusilə emosional məzmun, vizual materiallar və şəxsi təcrübəyə əsaslanan paylaşımlar istifadəçilərin diqqətini daha çox cəlb etdiyindən onların ictimai rəyin formalaşmasına təsiri də artır. Bununla yanaşı, sosial medianın interaktiv xarakteri təbliğatın effektivliyini daha da yüksəldir;

- İstifadəçilərin şərhlər yazması, müzakirələr aparması, müxtəlif qruplarda təşkilatlanması və eyni mövqeni müdafiə edən icmalar yaratması siyasi ideyaların daha davamlı şəkildə yayılmasına imkan verir. Belə mühitdə informasiya yalnız ötürülmür, həm də kollektiv şəkildə yenidən istehsal edilir, müxtəlif şərhlərlə zənginləşdirilir və yeni auditoriyalara uyğunlaşdırılır. Nəticədə sosial media ictimai rəyin formalaşdırılması, siyasi səfərbərlik, seçici davranışının istiqamətləndirilməsi və müxtəlif narrativlərin legitimləşdirilməsi baxımından müasir siyasi təbliğatın ən təsirli kommunikasiya platformalarından birinə çevrilmişdir.

ƏDƏBİYYAT

1. Кастельс М. Информационная эпоха: экономика, общество и культура / пер. с англ. под науч. ред. О. И. Шкаратана. М.: ГУ ВШЭ, 2000., 606 с.
2. Коробов А.А. Цифровая пропаганда и неформальные политические коммуникации: эффект функциональной связи // Вестник Поволжского института управления. 2022, Т.22, №4, С.73-82.
3. Метелева Е.Р. Сетевой подход к управлению развитием городов: базовые понятия, ключевые положения, направления использования // Вопросы управления. 2011, № 2, С. 74-85.
4. Ритцер Дж. Современные социологические теории. 5-е изд. СПб.: Питер, 2002., 688 с.
5. Соловей В.Д. Особенности политической пропаганды в цифровой среде // Гуманитарные науки. Вестник Финансового университета. – 2018. – Т. 8. – № 1 (31). – С. 81–87.
6. Andrejevic M. Public Service Media Utilities: Rethinking Search Engines and Social Networking as Public Goods // Media International Australia. 2013. – Vol. 146, No. 1, P. 123-132.
7. Francesco Pierri, Luca Luceri, Nikhil Jindal, Emilio Ferrara. Propaganda and Misinformation on Facebook and Twitter during the Russian Invasion of Ukraine. 2022. - https://dl.acm.org/doi/epdf/10.1145/3578503.3583597 (accessed: 10.06.2026).
8. Gouliev Z. Propaganda and Information Dissemination in the Russo-Ukrainian War: Natural Language Processing of Russian and Western Twitter Narratives. 2025. - https://www.researchgate.net/publication/392363144_Propaganda_and_Information_Dissemination_in_the_Russo;Ukrainian_War_Natural_Language_Processing_of_Russian_and_Western_Twitter_Narratives (accessed: 10.06.2026).
9. Hunter E. The Arab Revolution and Social Media [Electronic resource]. – Available at: http://flipthemedia.com/index.php/2011/02/the-arab-revolution-and-sosialmedia/ (accessed: 10.06.2026).
10. Lukasz Olejnik. Propaganda: From Disinformation and Influence to Operations and Information Warfare. Boca Raton, FL, CRC Press (Taylor & Francis), 2024, 284 p.
11. Manovich L. The Language of New Media., Cambridge, MA: MIT Press, 2001, 354 p.
12. Mugurtay N., Duygu U., Varol **O.** Politics and Propaganda on Social Media: How Twitter and Meta Moderate State-Linked Information Operations. 2024, p.1-6. - https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=4670530&__cf_chl_f_tk=IIySlNghDAcj2xxjcRV2Cz0L09tfpmKKTUb94uRKPDE-1783433921-1.0.1.1-p27JuB06btZzXU59CreB9gxf4oq0u1xTryCL3H87PLU (accessed: 10.06.2026).
13. Nicholas Rabb. What is the Disinformation Problem? Reviewing the Dominant Paradigm and Motivating an Alternative Sociopolitical View. 2023. -

https://www.semanticscholar.org/paper/What-is-the-disinformation-problem-Reviewing-the-an-Rabb/61f630ac692bc6a74dde85f1ab850ddf4b161959 (accessed: 10.06.2026).
14. Stefania M. Maci, Massimiliano Demata, Mark McGlashan, Philip Seargeant (eds.) The Routledge Handbook of Discourse and Disinformation, London; New York, Routledge, 2024, 454 p.
15. Szajkowski B. Social Media Tools and the Arab Revolts // Alternative Politics. – 2011. – Vol. 3. – No. 3. – P. 420–432.
16. Taylor K. Arab Spring Really Was Social Media Revolution [Electronic resource]. – Available at: http://www.tgdaily.com/software-features/58426-arab-spring-really-was-sosialmedia-revolution (accessed: 10.06.2026).
17. Volkmer I. News in the Global Sphere: A Study of CNN and Its Impact on Global Communication. – Luton: University of Luton Press, 1999. – 272 p.

ЭЛЬДАР ДЖАФАРОВ
Доцент, Бакинский Государственный Университет

ЭЛЬМАР МУРАДЛИ
Докторант, Бакинский Государственный Университет

ИНТЕРНЕТ-ИНСТРУМЕНТЫ СОВРЕМЕННОЙ ПОЛИТИЧЕСКОЙ ПРОПАГАНДЫ

Стремительное развитие современных информационно-коммуникационных технологий обусловило существенную трансформацию форм и средств политической пропаганды. Интернет и социальные медиа, являясь ключевыми компонентами цифровой коммуникационной среды, значительно расширили возможности политических акторов по воздействию на целевые аудитории. В исследовании анализируются коммуникативные особенности социальных сетей, основные направления трансформации политической пропаганды в цифровой среде, возможности применения интернет-технологий в политическом управлении, а также влияние социальных медиа на общественно-политические процессы. На примере событий «Арабской весны» оценивается роль социальных медиа в мобилизации массовых движений и распространении политических сообщений. Одновременно рассматриваются риски, связанные с дезинформацией, манипуляцией, информационным загрязнением и обеспечением информационной безопасности в цифровом информационном пространстве. Проведённый анализ показывает, что интернет-ориентированные коммуникационные инструменты не только повышают эффективность политической пропаганды, но и формируют новые вызовы в сфере политического управления, информационной безопасности и формирования общественного мнения.

Ключевые слова: политический, пропаганда, коммуникация, интернет, СМИ, цифровой, коммуникация, управление, информация, дезинформация, манипуляция, мнение.

ELDAR JAFAROV
Associate Professor, Baku State University

ELMAR MURADLI
PhD Candidate, Baku State University

INTERNET TOOLS OF MODERN POLITICAL PROPAGANDA

The rapid development of modern information and communication technologies has fundamentally transformed the forms and instruments of political propaganda. As the principal components of the digital communication environment, the Internet and social media have significantly expanded the capacity of political actors to influence target audiences. This study examines the communicative

characteristics of social networking platforms, the major directions of the transformation of political propaganda in the digital environment, the opportunities for applying Internet technologies in political governance, and the impact of social media on socio-political processes. Using the Arab Spring as a case study, the research evaluates the role of social media in mass mobilization and the dissemination of political messages. In addition, it explores the risks associated with disinformation, manipulation, information pollution, and information security within the digital information environment. The findings demonstrate that Internet-based communication tools not only enhance the effectiveness of political propaganda but also generate new challenges for political governance, information security, and the formation of public opinion.

Keywords: political, propaganda, communication, internet, media, digital, communication, management, information, disinformation, manipulation, opinion.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 iyul 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Sevinc Yusifzadə, s.e.d. Sabir Məmmədli.

UOT 32:316.77; 32:070; 32.049.5; 32:316.65

ÜLVİYYƏ HAQVERDİ
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-2690-0053
ulviyyahagverdi@gmail.com

ƏHALİNİN TƏBİİ VƏ MEXANİKİ HƏRƏKƏTİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

DOI: https://doi.org/10.36719/2708-065X/114/186-193

Tədqiqat əhalinin təbii və mexaniki hərəkətinin nəzəri əsaslarını kompleks şəkildə təhlil edir və müxtəlif elmi ənənələr çərçivəsində formalaşmış yanaşmaları sistemləşdirir. Tədqiqat göstərir ki, klassik demoqrafik modellər əhali dinamikasının ümumi qanunauyğunluqlarını izah etsə də, müasir dövrdə sosial, iqtisadi və mədəni faktorların təsiri bu modellərin izah gücünü məhdudlaşdırır. Bu baxımdan dünya-sistemləri yanaşması, miqrasiya şəbəkələri nəzəriyyəsi və "istək-imkan" çərçivəsi kimi müasir konsepsiyalar struktur və agentlik arasında qarşılıqlı əlaqəni daha dolğun şəkildə izah edir. Nəticə etibarilə, əhalinin hərəkəti çoxsəviyyəli və kompleks sosial proses kimi qiymətləndirilməli və onun analizi üçün müxtəlif nəzəri yanaşmaların inteqrasiyası zəruri hesab olunur.

Açar sözlər: demoqrafik keçid, miqrasiya nəzəriyyəsi, əhali dinamikası, sosial determinantlar, stoxastik modellər.

Giriş. Əhalinin təbii və mexaniki hərəkətinin nəzəri-konseptual əsaslarının araşdırılması müasir dövrdə həm demoqrafik transformasiyaların sürətlənməsi, həm də qlobal miqrasiya axınlarının intensivləşməsi fonunda xüsusi elmi və praktiki əhəmiyyət kəsb edir. Çünki doğum və ölüm dinamikası ilə miqrasiyanın qarşılıqlı təsiri yalnız əhalinin say göstəricilərini deyil, eyni zamanda yaş strukturu, əmək bazarının formalaşması, sosial təminat sistemlərinin dayanıqlılığı və dövlətlərin iqtisadi inkişaf perspektivlərini müəyyən edən əsas amillərdən biri kimi çıxış edir; xüsusilə demoqrafik keçid mərhələlərinin müxtəlif ölkələrdə fərqli trayektoriyalar üzrə inkişaf etməsi, post-sənaye cəmiyyətlərində aşağı doğum səviyyəsi və əhalinin qocalması kimi problemlərin aktuallaşması, eləcə də qloballaşma və dünya-sistemləri çərçivəsində miqrasiyanın struktur səbəblərinin dərinləşməsi bu sahədə nəzəri yanaşmaların yenidən nəzərdən keçirilməsini və inteqrativ analizlərin aparılmasını zəruri edir; eyni zamanda stoxastik və deterministik modellər vasitəsilə demoqrafik proseslərin riyazi formalizasiyası ilə sosial-mədəni determinantların izah etdiyi davranış modelləri arasında metodoloji sintezə ehtiyac yaranır ki, bu da demoqrafik proseslərin yalnız statistik göstəricilər kimi deyil, çoxsəviyyəli sosial hadisə kimi dərk olunmasını təmin edir və bu baxımdan təqdim olunan tədqiqat həm klassik (Maltusçu, neoklassik), həm də müasir (demoqrafik keçid, dünya-sistemləri, şəbəkə və "istək-imkan" yanaşmaları) nəzəri çərçivələri sistemli şəkildə bir araya gətirərək əhalinin hərəkətinin kompleks təbiətini izah etməyə yönəlmişdir.

Bu baxımdan, tədqiqatın əsas məqsədi əhalinin təbii və mexaniki hərəkətini izah edən əsas nəzəri yanaşmaları sistemləşdirərək onların qarşılıqlı əlaqəsini və analitik tətbiq imkanlarını müəyyənləşdirməkdir. Tədqiqatda müqayisəli-nəzəri analiz, sistemləşdirmə və konseptual ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Eyni zamanda demoqrafik modellər, sosioloji nəzəriyyələr və iqtisadi yanaşmalar inteqrativ şəkildə təhlil edilərək çoxsəviyyəli izah çərçivəsi formalaşdırılmışdır.

Əhalinin təbii hərəkətinin nəzəri izahları. Əhalinin təbii hərəkəti, yəni müəyyən bir ərazi daxilində müəyyən zaman kəsiyində baş verən doğum və ölüm hallarının, miqrasiyadan asılı olmadan məcmusu demoqrafiya, sosiologiya, iqtisadiyyat və riyazi biologiya kimi sahələrdə nəzəri tədqiqatların mərkəzi obyektlərindən biri olmuşdur. Bu prosesləri izah etmək, modelləşdirmək və proqnozlaşdırmaq məqsədilə beş əsas nəzəri yanaşma formalaşmışdır; hər biri fərqli fərziyyələrə, analitik

alətlərə və tarixi köklərə əsaslanır. Ən qədim və bu gün də fundamental əhəmiyyətini qoruyan nəzəri ənənə Maltusçu yanaşmadır; bu yanaşma 1798-ci ildə Tomas Robert Maltus tərəfindən yazılmış "Əhali prinsipi haqqında esse" əsərində irəli sürülmüşdür [10]. Maltusun nəzəriyyəsinə görə, yer kürəsinin daşıma qabiliyyətini aşan insan əhalisini üç əsas amil tənzimləyir: müharibə, aclıq və xəstəliklər. Maltus bu amilləri "müsbət məhdudlaşdırıcılar" adlandırırdı, çünki onlar ölüm səviyyəsini artıraraq əhalinin artımını məhdudlaşdırır. Bunlara qarşı "profilaktik məhdudlaşdırıcılar" dayanır ki, onlar doğum səviyyəsini azaltmaqla əhali artımını tənzimləyir; bu çərçivəyə doğumun planlaşdırılması və subaylıq kimi davranışlar daxildir. Maltusun yanaşmasının əsas məntiqi bioloji çoxalma ilə iqtisadi istehsal arasındakı asimmetriyaya əsaslanır: insan əhalisi həndəsi silsilə ilə artdığı halda, ərzaq istehsalı yalnız ədədi silsilə ilə artır [7]. Bu isə o deməkdir ki, doğumların ölümlər üzərində davamlı üstünlüyü nəhayət kəskin ölüm artımı ilə "tarazlanacaqdır". Bu pessimist proqnoz ən sərt forması ilə empirik olaraq təkzib edilmişdir; XIX və XX əsrlərdə sənaye inqilabının kənd təsərrüfatı və nəqliyyat texnologiyalarına təsiri nəticəsində ərzaq istehsalında baş verən sıçrayış Maltusun proqnozlarını zəiflətmişdir.

Bununla belə, resurslarla məhdudlaşan əhali artımı və daşıma qabiliyyəti məntiqi dəyişdirilmiş formalarda, xüsusilə neomaltusçu ekoloji yanaşmalarda və ölüm səviyyəsini sıxlıqdan asılı funksiya kimi izah edən populyasiya modellərində öz aktuallığını qoruyub saxlamışdır. Demoqrafik keçidin birinci mərhələsində, yəni Maltusçu dövrdə, cəmiyyətin əhali dinamikası əsasən ərzaq təminatı ilə müəyyənləşirdi; tez-tez aclıq baş verir və yüksək ölüm göstəriciləri müşahidə olunurdu.

Əhalinin təbii hərəkətini izah edən ən təsirli sosioloji və demoqrafik nəzəriyyə isə demoqrafik keçid nəzəriyyəsidir; bu nəzəriyyə 1940-cı illərdə amerikalı demoqraf Frank U. Notsteyn tərəfindən sistemləşdirilmiş, lakin onun empirik əsasları 1929-cu ildə Uorren Tompson tərəfindən qoyulmuşdur. Demoqrafik keçid nəzəriyyəsi cəmiyyətlərin bir demoqrafik rejimdən digərinə keçidi zamanı ölüm, doğum və artım səviyyələrinin necə dəyişdiyini ümumiləşdirilmiş şəkildə izah edir. Modelə görə, ənənəvi cəmiyyətlər yüksək və dəyişkən doğum və ölüm səviyyələri ilə xarakterizə olunur və bu göstəricilər bir-birini kompensasiya etdiyinə görə təbii artım demək olar ki, sıfıra yaxın olur. Modernləşmə prosesi başladıqca, ilk növbədə ölüm səviyyəsi azalır; bu, qidalanmanın yaxşılaşması, sanitariya şəraitinin yüksəlməsi və tibbi xidmətlərin inkişafı ilə bağlıdır. Eyni zamanda doğum səviyyəsi müəyyən müddət yüksək qalır və nəticədə əhali sürətlə artır. Daha sonra urbanizasiya dərinləşdikcə, qadınların təhsil səviyyəsi yüksəldikcə, kontraseptiv vasitələr əlçatan olduqca və uşağın iqtisadi dəyəri dəyişərək aktivdən xərclə əlaqəli faktora çevrildikcə doğum səviyyəsi də azalır. Notsteynin ilkin konsepsiyasında cəmiyyətlər yüksək doğum və ölüm səviyyəsindən aşağı səviyyələrə doğru hərəkət edir və bu prosesdə ölüm səviyyəsinin azalması doğum səviyyəsinin azalmasından əvvəl baş verir. Demoqrafik keçid iqtisadi artıma üç əsas istiqamətdə töhfə verir: kapital və torpaq resurslarının "sulanmasının" azalması, insan kapitalına investisiyanın artması və əmək qabiliyyətli əhalinin ümumi əhali içində payının yüksəlməsi. Sonrakı dövrlərdə bu nəzəriyyə daha da genişləndirilmiş, post-sənaye cəmiyyətlərində əvəzləyici səviyyədən aşağı doğum və əhalinin qocalması kimi prosesləri izah etmək üçün dördüncü və beşinci mərhələlər əlavə olunmuşdur [1; 8; 22]. Bundan əlavə, Abdel Omran ölüm göstəricilərinə fokuslanaraq epidemioloji keçid konsepsiyasını irəli sürmüşdür; bu yanaşma yoluxucu xəstəliklərin üstünlük təşkil etdiyi ölüm səbəblərindən xroniki və degenerativ xəstəliklərin üstünlük təşkil etdiyi mərhələyə keçidi izah edir [13].

Əhalinin təbii hərəkətinin stoxastik proses kimi riyazi modelləşdirilməsi üçüncü, daha formal xarakter daşıyan nəzəri ənənəni təşkil edir. Doğum-ölüm prosesi fasiləsiz zamanlı Markov prosesinin xüsusi halıdır; burada vəziyyət dəyişmələri yalnız iki tipdən ibarətdir: "doğumlar" vəziyyət dəyişənini bir vahid artırır, "ölümlər" isə onu bir vahid azaldır. Bu model Uilyam Feller tərəfindən irəli sürülmüşdür. Doğum baş verdikdə proses n vəziyyətindən n+1 vəziyyətinə keçir, ölüm baş verdikdə isə n vəziyyətindən n−1 vəziyyətinə düşür. Doğum-ölüm prosesləri ilk dəfə 1939-cu ildə Feller tərəfindən təqdim edilmiş və sonradan əhali artımı, növbələrin formalaşması, epidemiologiya və digər bir çox nəzəri və tətbiqi sahələrdə modelləşdirmə aləti kimi istifadə olunmuşdur. Stoxastik proseslər nəzəriyyəsi baxımından bu modellər sayılabilən vəziyyət fəzasına və fasiləsiz parametrlərə malik Markov proseslərinin mühüm xüsusi halını təşkil edir. Deterministik yanaşmalarda eyni məntiq diferensial

tənliklər vasitəsilə ifadə olunur: əhalinin dəyişmə sürəti (dN/dt) doğumlarla ölümlər arasındakı fərqə (B − D) bərabərdir [21].

Bu formul daha sonra loqistik tənliyə çevrilmişdir; burada əhali artımı (rN) mühitin daşıma qabiliyyəti ilə (1 − N/K) məhdudlaşdırılır və nəticədə əhalinin aşağı səviyyədən başlayaraq ekoloji həddə doğru hərəkətini təsvir edən S-şəkilli (siqmoid) artım əyrisi əldə olunur. Deterministik modellər əhali çox böyük olduqda tətbiq olunur; lakin əhalinin sonlu olması nəzərə alınmalı olduqda stoxastik modellərdən istifadə edilməlidir, çünki bəzi problemlər yalnız bu çərçivədə həll edilə bilir. Bu formal modellər yalnız nəzəri demoqrafiya üçün deyil, həm də epidemiologiya, təkamül biologiyası və genomika üçün əvəzsizdir; burada doğum-ölüm prosesləri növ yaranması, gen ailələrinin təkamülü və xəstəliklərin yayılma dinamikasını anlamaq üçün riyazi skelet rolunu oynayır.

Digər bir nəzəri yanaşma isə əhalinin təbii hərəkətini yaş strukturu və kohort dinamikası prizmasından izah edir və bu istiqamət ən sistemli şəkildə həyat cədvəlləri analizi və sağqalma nəzəriyyəsi vasitəsilə formalaşdırılmışdır. Həyat cədvəlləri orqanizmin həyat dövrü və hər yaş mərhələsində gözlənilən ömür uzunluğu haqqında mühüm məlumatlar təqdim edir. Bu cədvəllərdə müəyyən yaş qrupunun növbəti ad gününə çatmadan ölmə ehtimalı, müəyyən yaş intervalında sağ qalanların hansı faizinin öldüyü (ölüm səviyyəsi) və hər mərhələ üzrə gözlənilən ömür uzunluğu kimi göstəricilər yer alır [20]. Kohort analizinin əsas ideyası ondan ibarətdir ki, əhalinin yaş tərkibi sadəcə cari vəziyyətin "fotoşəkli" deyil, keçmiş demoqrafik rejimlərin yığılmış nəticəsidir. Müəyyən bir ildə baş verən doğum, ölüm və miqrasiya hadisələrinin sayı mövcud doğum, ölüm və miqrasiya səviyyələri ilə yanaşı, əhalinin hazırkı yaş strukturundan asılıdır; bu yaş strukturu isə əvvəlki demoqrafik göstəricilərin nəticəsidir. Başqa sözlə, mövcud yaş strukturu həm cari, həm də keçmiş demoqrafik göstəricilərin funksiyasıdır, yəni əhalinin demoqrafik tarixinin məhsuludur.

Adətən əhali strukturunu müəyyən edən ən mühüm amil doğum səviyyəsi, xüsusilə də onun zaman üzrə dəyişməsidir. Yüksək doğum səviyyəsinə malik cəmiyyətlərdə yaş piramidası geniş əsasla xarakterizə olunur, yəni gənc yaş qrupları üstünlük təşkil edir; aşağı doğum səviyyəsində isə bu əsas xeyli dar olur. Bu nəzəri ənənə eyni zamanda üç tip sağqalma əyrisini fərqləndirir: I tipdə erkən və orta yaşlarda ölüm səviyyəsi aşağı olur və əsasən yaşlı dövrdə artır (insanlar və əksər məməlilər üçün xarakterikdir); II tipdə ölüm səviyyəsi bütün həyat boyu təxminən sabit qalır; III tipdə isə erkən yaşlarda sağqalma ehtimalı çox aşağıdır, lakin müəyyən yaşdan sonra kəskin şəkildə artır (məsələn, ağaclarda müşahidə olunur) [4; 17; 19].

Daha müasir nəzəri istiqamət doğum və ölüm proseslərinin sosial və mədəni determinantlarına diqqət yetirir; klassik demoqrafik modellər bu amilləri kifayət qədər izah edə bilmir. Demoqrafik keçid nəzəriyyəsi dəyişimin ümumi istiqamətini izah etsə də, ölkələrarası fərqləri və doğum səviyyəsinin azalmasının zamanlamasını açıqlamaqda ciddi tənqidlərə məruz qalmışdır. Mövcud nəzəriyyələrin heç biri doğum keçidlərinin tarixi dinamikasını tam şəkildə izah edə biləcək qədər əhatəli deyil; empirik material olduqca müxtəlifdir və hər bir nəzəriyyə üçün istisna təşkil edən nümunələr mövcuddur. Bu boşluğu doldurmaq üçün sosioloji yanaşmalar sosial diffuziya, normativ dəyişiklik və institusional faktorların reproduktiv davranışa təsirini ön plana çıxarmışdır. Bu yanaşmaya əsasən, doğum qərarları yalnız fərdi rasionallıq və iqtisadi stimullarla izah olunmur; onlar sosial qarşılıqlı əlaqə şəbəkələri, mədəni sxemlər və institusional çərçivələr daxilində formalaşır və bu çərçivələr nəyin mümkün və arzuolunan olduğunu müəyyən edir. Doğum səviyyəsi çoxsaylı sosial, iqtisadi və mədəni amillərin təsiri altındadır və doğumlarla ölümlər arasındakı qarşılıqlı əlaqə demoqrafların "demoqrafik keçid" adlandırdığı prosesi yaradır; bu, iqtisadi inkişafla müşayiət olunan yüksək doğum və ölüm səviyyələrindən aşağı səviyyələrə keçidi ifadə edir. Ölüm səviyyəsi də yalnız tibbi-bioloji faktorlarla müəyyən olunmur; sosial-iqtisadi bərabərsizlik, siyasi-iqtisadi strukturlar və səhiyyə sistemlərinin təşkili bu sahədə həlledici rol oynayır. Bu səbəbdən tibbi biliklərin qlobal səviyyədə paylaşılmasına baxmayaraq, zəngin və kasıb ölkələr arasında gözlənilən ömür uzunluğu fərqləri hələ də böyük olaraq qalır.

Əhalinin mexaniki hərəkətinin nəzəri izahları. Əhalinin mexaniki hərəkəti, başqa sözlə, doğum və ölümlərlə müəyyən olunan təbii hərəkətdən fərqli olaraq, insanların miqrasiya vasitəsilə ərazi üzrə yenidən paylanması demoqrafiya və sosial elmlərin ən zəngin və eyni zamanda ən çox mübahisə doğuran nəzəri sahələrindən birini təşkil edir. Təbii artımdan fərqli olaraq, mexaniki hərəkət yalnız

bioloji və institusional proseslərlə deyil, iqtisadi strukturların, siyasi quruluşların, mədəni şəbəkələrin, coğrafi şərtlərin və fərdi qərarvermənin qarşılıqlı təsiri ilə formalaşır. Miqrasiya üzrə nəzəri ədəbiyyat XIX əsrin empirik ümumiləşdirmələrindən başlayaraq, struktur və agentliyi birləşdirməyə çalışan müasir çoxsəviyyəli yanaşmalara qədər geniş bir spektri əhatə edir və həm daxili miqrasiyanı (eyni dövlət sərhədləri daxilində hərəkət), həm də xarici və ya beynəlxalq miqrasiyanı (dövlət sərhədlərini aşan hərəkət) əhatə edir; analitik baxımdan fərqli olsalar da, bu iki növ oxşar konseptual məntiq əsasında izah olunur. Bu baxımdan, miqrasiya nəzəriyyəsinin ilkin təməli britaniyalı coğrafiyaşünas Ernst Georq Ravenştyn tərəfindən qoyulmuşdur; o, 1885-ci ildə Britaniya əhalisinin siyahıyaalınma məlumatlarını təhlil edərək "Miqrasiya qanunları" adlı işini nəşr etdirmiş, daha sonra isə müşahidələrini iyirmidən çox ölkəyə şamil etmişdir [16]. Ravenşteyn ilk tədqiqatı 1881-ci il Britaniya siyahıyaalınmasına əsaslanırdı və onun "qanunları" əslində həmin dövrün Britaniya və digər ölkə siyahıyaalınmalarına əsaslanan empirik ümumiləşdirmələr idi; bu yanaşma daha çox daxili miqrasiyanı izah edirdi. Onun əsas müddəalarına görə, miqrantların əksəriyyəti qısa məsafələrə köçür, miqrasiya mərhələli şəkildə baş verir (yəni addım-addım miqrasiya), hər bir miqrasiya axını əks-axın yaradır, uzaq məsafələrə köç edənlər əsasən iri ticarət və sənaye mərkəzlərinə yönəlir və miqrasiyanın əsas səbəbi iqtisadi amillərdir. Onun tədqiqatı əsasən təsviri xarakter daşısa və sistemli səbəb-nəticə mexanizmi təqdim etməsə də, sonrakı nəzəriyyələrin qurulmasında bir əsrdən artıq müddət ərzində istifadə olunan anlayış aparatını (məsafə ilə zəifləmə, cəmləşmə və yayılma, mərhələli miqrasiya) formalaşdırdı. 1966-cı ildə Everet S. Li tərəfindən yenidən işlənmiş "itələyici-cəlbedici" modeli bu çərçivəyə daha analitik forma verdi. Linin modelinə əsasən, miqrasiya həm çıxış, həm də qəbul məkanında mövcud olan amillərin mürəkkəb qarşılıqlı təsirinin nəticəsidir və bu proses müxtəlif maneələrlə şərtlənir; hər bir məkan müsbət, mənfi və neytral xüsusiyyətlərə malikdir. Çıxış məkanındakı itələyici amillər olan iqtisadi çətinliklər, siyasi qeyri-sabitlik, ekoloji fəlakətlər və imkanların məhdudluğu insanları köç etməyə məcbur edir, cəlbedici amillər isə onları müəyyən istiqamətlərə yönəldir [12]. Li xüsusi olaraq vurğulayır ki, miqrasiya seçici xarakter daşıyır, çünki yaş, cins və sosial sinif kimi fərqlər insanların bu amillərə reaksiyasını və maneələri aşmaq qabiliyyətini müəyyən edir; təhsil səviyyəsi, qəbul edən cəmiyyət haqqında məlumat və ailə əlaqələri kimi fərdi faktorlar miqrasiyanı sürətləndirə və ya ləngidə bilər. Bu seçicilik ideyası Ravenşteynin yalnız ümumi səviyyədə təsvir etdiyi yanaşmaya sosioloji ölçü əlavə edərək göstərir ki, eyni struktur şərtlər fərqli sosial mövqelərdə olan insanlar üçün müxtəlif miqrasiya nəticələri yaradır.

XX əsrin ortalarında üstünlük təşkil edən neoklassik iqtisadi yanaşma əhalinin hərəkətini əmək bazarlarının məkan üzrə tarazlaşması kimi izah edirdi. Makro səviyyədə, Lyuisin ikisektorlu modeli (1954-cü il) və daha sonra Ranys və Fey (1961-ci il) tərəfindən inkişaf etdirilmiş modellərə əsasən, miqrasiya əmək bazarına təsir edən coğrafi və iqtisadi fərqlər nəticəsində baş verir və bu "istehsal amillərinin qiymətlərinin bərabərləşməsi" prosesi uzun müddətdə göndərən və qəbul edən regionlar arasında əməkhaqqı fərqlərinin azalmasına gətirib çıxarır; nəticədə miqrasiyaya olan stimul tədricən aradan qalxır. Mikro səviyyədə isə neoklassik yanaşma miqrantı rasional fərd kimi qəbul edir; o, xərclər və faydalar arasında hesablamalar apararaq öz insan kapitalından maksimum gəlir əldə edə biləcəyi yerə köçür [3; 6; 9; 15]. Samuel Stoufferin 1940-cı ildə irəli sürdüyü "ara imkanlar" nəzəriyyəsi məsafəyə əsaslanan cazibə modelinə düzəliş gətirərək göstərdi ki, müəyyən məsafəyə köç edən insanların sayı həmin məsafədə mövcud olan imkanların sayı ilə düz, aradakı imkanların sayı ilə isə tərs mütənasibdir; yəni hərəkəti müəyyən edən əsas faktor məsafənin özü deyil, miqrasiya marşrutu boyunca mövcud olan imkan strukturudur. Maykl Todaronun 1969-cu ildə təqdim etdiyi model bu məntiqi inkişaf etməkdə olan ölkələrdə kənddən şəhərə miqrasiyaya tətbiq edərək göstərdi ki, miqrantlar real əməkhaqqına deyil, gözlənilən gəlirə reaksiya verirlər; bu isə şəhərdə iş tapma ehtimalı ilə əməkhaqqının hasilinə əsaslanır və şəhərlərdə yüksək işsizlik olmasına baxmayaraq miqrasiyanın davam etməsini izah edir. Ümumilikdə isə neoklassik yanaşma metodoloji fərdiyyətçiliyə, tam informasiya fərziyyəsinə və fərdi qərarları məhdudlaşdıran struktur şərtləri kifayət qədər nəzərə almamasına görə tənqid olunmuşdur; buna baxmayaraq, onun əsas ideyası olan insanların ümumiyyətlə həyat şəraitlərini yaxşılaşdırmaq ümidi ilə hərəkət etməsi fikri sonrakı nəzəri çərçivələrin əksəriyyətində müəyyən dəyişikliklərlə qorunub saxlanılmışdır.

Neoklassik miqrasiya nəzəriyyəsinə yönəlmiş struktur və dünya-sistemləri tənqidi analitik diqqəti fərdi aktorlardan qlobal kapitalist yığımının arxitekturasına yönəltdi. Dünya sistemləri nəzəriyyəsi deyirdi ki, miqrasiya iqtisadi qloballaşmanın təbii nəticəsidir; bu şəraitdə şirkətlər milli sərhədləri aşaraq fəaliyyət göstərir. Mərkəz ölkələr daha az inkişaf etmiş periferiyadan miqrantları cəlb edir və bu proses tarixi, iqtisadi və siyasi əlaqələrlə şərtlənir; yanaşma miqrasiya modellərinin formalaşmasında qloballaşmanın, müstəmləkəçiliyin və beynəlxalq əmək bazarlarının rolunu ön plana çıxarır. Emanual Vallerşteyn qeyd edirdi ki, kapitalist iqtisadi münasibətlərin periferiyaya nüfuzu sadəcə əməkhaqqı fərqləri yaratmaqla mərkəzə doğru əmək axını təşviq etmir; bu proses eyni zamanda ənənəvi aqrar sosial strukturları dağıdır, kəndli əhalini yerindən edir və hər hansı formal əməkhaqqı müqayisəsi aparılmadan belə miqrasiyaya meyilli hərəkətli proletariat yaradır. Vallerşteynin fikrincə, kapitalist münasibətlərin periferiyaya daxil olması zamanı qeyri-kapitalist cəmiyyət daxilində xaricə miqrasiyaya hazır olan hərəkətli əhali formalaşır; çünki kapitalist müəssisələrin sahibləri və menecerləri torpaq, xammal, əmək qüvvəsi və yeni istehlak bazarları axtarışında ən kasıb ölkələrin ərazilərinə daxil olurlar.

Andre Qunder Frankla əlaqələndirilən asılılıq məktəbi bu arqumenti daha da radikallaşdıraraq bildirir ki, miqrasiya yalnız geridəqalmışlığın nəticəsi deyil, eyni zamanda onun struktur səbəblərindən biridir; çünki periferiyadan əmək miqrasiyası insan kapitalını mərkəzə ötürür və asılı inkişaf modelini təkrar istehsal edir [5]. Bununla bağlı, lakin daha empirik baxımdan ölçülə bilən struktur yanaşma Maykl Piore tərəfindən irəli sürülmüş ikili əmək bazarı nəzəriyyəsində əks olunur; bu nəzəriyyə inkişaf etmiş sənaye iqtisadiyyatlarında miqrant əməyinə olan tələbi onların struktur xüsusiyyətləri ilə izah edir: aşağı əməkhaqqı, pis iş şəraiti və yüksək qeyri-sabitliklə xarakterizə olunan ikinci dərəcəli əmək bazarı seqmentinə ehtiyac yaranır və yerli işçilər bu sahələri doldurmaq istəmədiyindən, göndərən cəmiyyətlərdəki "itələyici" amillərdən asılı olmayaraq, xarici işçi qüvvəsinə davamlı tələbat formalaşır [14].

Müasir dövrün ən inkişaf etmiş nəzəri çərçivələri isə öz növbəsində fərdiyyətçi və struktur yanaşmaların məhdudiyyətlərini aşmağa çalışaraq miqrasiyanı agentlik və strukturun qarşılıqlı təsiri, fərdi istəklər və maddi imkanlar, lokal kontekstlər və qlobal şərtlər arasında baş verən rekursiv münasibətlər nəticəsində formalaşan sosial proses kimi izah edir. 1980-ci illərdə Oded Stark tərəfindən inkişaf etdirilmiş əmək miqrasiyasının yeni iqtisadiyyatı yanaşması analiz vahidini fərddən ev təsərrüfatına keçirərək miqrasiyanı risklərin idarə olunması və gəlir mənbələrinin coğrafi diversifikasiyası üçün kollektiv strategiya kimi şərh edir; bu çərçivədə pul köçürmələri müxtəlif məkanlarda yerləşmiş əmək resurslarının birləşdirilməsi üçün əsas mexanizm rolunu oynayır [18]. Bu nəzəriyyənin tezislərinə əsasən, miqrasiya axınlarını yalnız fərdi işçilərin iqtisadi motivləri ilə izah etmək mümkün deyil; daha geniş sosial vahidlər nəzərə alınmalıdır və miqrasiya kifayət qədər gəliri olmayan ev təsərrüfatlarının riskdən yayınma strategiyası kimi ortaya çıxır, burada xaricdə işləyən ailə üzvlərinin göndərdiyi vəsait əlavə kapital mənbəyi yaradır.

Duqlas Massey ilə əlaqələndirilən miqrasiya şəbəkələri nəzəriyyəsi "kumulyativ səbəblilik" anlayışını irəli sürərək göstərir ki, müəyyən sayda miqrant qəbul məkanında məskunlaşdıqdan sonra miqrasiya prosesi öz-özünü təkrar istehsal edən xarakter alır; çünki yaranmış sosial şəbəkələr sonrakı miqrantlar üçün xərcləri və riskləri azaldır. Uilbur Zelinskinin hərəkətlilik keçidi modeli bu prosesləri cəmiyyətlərin ümumi inkişaf mərhələləri ilə əlaqələndirərək göstərir ki, modernləşmə ilə paralel olaraq miqrasiya davranışları da sistemli şəkildə dəyişir: ənənəvi cəmiyyətlərdə məhdud və əsasən qısa məsafəli hərəkətlərdən sənayeləşmə dövründə kütləvi kənd-şəhər miqrasiyasına, daha sonra isə inkişaf etmiş cəmiyyətlərdə intensiv şəhərlərarası hərəkətə keçid baş verir. Ən yeni nəzəri çərçivə isə Hein de Haas tərəfindən inkişaf etdirilmiş "istəklər - imkanlar" çərçivəsidir; bu yanaşma miqrasiyanı insanların mövcud coğrafi imkan strukturları daxilində köçmək istəkləri və bunu həyata keçirmək imkanları ilə müəyyən olunan funksiya kimi izah edir, insan hərəkətliliyinin həm instrumental, həm də daxili (intrinsik) ölçülərini fərqləndirir və hərəkət etməklə qalmağı miqrasiya agentliyinin birbirini tamamlayan formaları kimi təqdim edir [2; 11; 23]. Bu çərçivədə, insan hərəkətliliyi sadəcə köç aktı kimi deyil, insanların harada yaşamaq barədə seçim etmək qabiliyyəti kimi başa düşülür və bu seçimə yerində qalmaq da daxildir.

Nəticə. Bütün bu nəzəri yanaşmaların ümumiləşdirilmiş təhlili göstərir ki, əhalinin həm təbii, həm də mexaniki hərəkəti sadəcə demoqrafik göstəricilərin dəyişməsi deyil, çoxsəviyyəli və qarşılıqlı təsirlərlə formalaşan mürəkkəb sosial prosesdir; burada riyazi modellər (stoxastik və deterministik yanaşmalar) demoqrafik dinamikanın formal məntiqini izah etsə də, yaş strukturu, kohort effektləri və sosial-mədəni determinantlar bu proseslərin real məzmununu müəyyən edir, miqrasiya nəzəriyyələri isə fərdi seçimlərdən qlobal kapitalist sistemin struktur təsirlərinə qədər uzanan geniş spektrdə səbəbiyyət əlaqələrini ortaya qoyur; eyni zamanda beynəlxalq hüquqi çərçivə bu prosesləri normativ baxımdan tənzimləməyə çalışsa da, onun parçalanmış strukturu, dövlət suverenliyi ilə insan hüquqları arasında davam edən gərginlik və məcburi siyasətə qarşı qadağalarla könüllü siyasət arasındakı incə sərhəd demoqrafik siyasətin həyata keçirilməsini daim mübahisəli edir; nəticədə müasir dövrdə demoqrafik siyasət yalnız doğum, ölüm və miqrasiyanın idarə olunması məsələsi deyil, həm də sosial ədalət, iqtisadi inkişaf, gender bərabərliyi, insan hüquqları və qlobal bərabərsizlik kimi fundamental problemlərin kəsişdiyi bir sahə kimi çıxış edir və bu sahədə effektiv idarəetmə yalnız nəzəri modellərin, empirik analizlərin və hüquqi mexanizmlərin inteqrativ şəkildə tətbiqi ilə mümkün olur.

ƏDƏBİYYAT

1. Caldwell, J. C. Demographic Transition Theory. Springer Dordrecht, 2006. 404 p.
2. De Haas, H. A theory of migration: The aspirations-capabilities framework. Comparative Migration Studies, 2021, 9(1), 8. https://doi.org/10.1186/s40878-020-00210-4
3. De Haas, H. Migration and development: A theoretical perspective (Working Paper No. 9). University of Oxford, International Migration Institute, 2007. URL: https://www.migrationinstitute.org/publications/migration-and-development-a-theoretical-perspective/@@download/file [25.05.2026].
4. Deevey, E. S. Life tables for natural populations of animals. The Quarterly Review of Biology, 1947, 22(4), 283–314. https://doi.org/10.1086/395888
5. Gülalp, H. The Eurocentrism of Dependency Theory and the Question of "Authenticity": A View from Turkey. Third World Quarterly, 1998, 19(5), 951–961. http://www.jstor.org/stable/3992939 [25.05.2026].
6.Harris, J. R., & Todaro, M. P. Migration, unemployment and development: A two-sector analysis. The American Economic Review, 1970, 60(1), 126–142. https://www.jstor.org/stable/1807860 [25.05.2026].
7. Heinsohn, G., & Steiger, O. Understanding the Rationale behind the Malthusian Theory of Population. European Demographic Information Bulletin, 1980, 11(2/3), 72–81. URL: http://www.jstor.org/stable/29734829 [25.05.2026].
8. Kirk, D. Demographic transition theory. Popul Stud (Camb). 1996 Nov;50(3):361-87. doi: 10.1080/0032472031000149536. PMID: 11618374
9. Lewis, W. A. Economic development with unlimited supplies of labour. The Manchester School, 1954, 22(2), 139–191. https://doi.org/10.1111/j.1467-9957.1954.tb00021.x
10. Malthus, T. An Essay on the Principle of Population. London: St. Paul's Church-Yard, 1798. 126 p. URL: http://www.esp.org/books/malthus/population/malthus.pdf [25.05.2026].
11. Massey, D.S., Arango, J., Hugo, G., Kouaouci, A., Pellegrino, A., & Taylor, J.E. Theories of international migration: A review and appraisal. Population and Development Review, 1993, 19(3), 431–466. https://doi.org/10.2307/2938462
12. Niu, F. A push-pull model for inter-city migration simulation. Cities, Volume 131, December 2022, 104005. https://doi.org/10.1016/j.cities.2022.104005
13. Omran A. R. The epidemiologic transition: a theory of the epidemiology of population change. 1971. Milbank Q. 2005;83(4):731-57. doi: 10.1111/j.1468-0009.2005.00398.x. PMID: 16279965; PMCID: PMC2690264.
14.Piore, M. J. Birds of passage: Migrant labor and industrial societies. Cambridge University Press, 1979. 240 p.

15. Ranis, G., & Fei, J. C. H. A theory of economic development. The American Economic Review, 1961, 51(4), 533–565. https://www.jstor.org/stable/1812816 [25.05.2026].
16.Ravenstein, E. G. The Laws of Migration. Journal of the Statistical Society of London, 1885, 48(2), 167–235. https://doi.org/10.2307/2979181
17.Rees, P., Bell, M., Kupiszewski, M., Kupiszewska, D., Ueffing, P., Bernard, A., Charles-Edwards, E., & Stillwell, J. The impact of internal migration on population redistribution: An international comparison. Population, Space and Place, 2017, 23(6), e2036. https://doi.org/10.1002/psp.2036
18.Stark, O., & Bloom, D. E. The new economics of labor migration. The American Economic Review, 1985, 75(2), 173–178. https://www.jstor.org/stable/1805591 [25.05.2026].
19.Tarsi, K., & Tuff, T. Introduction to population demographics. Nature Education Knowledge, 2012, 3(11), 3. https://www.nature.com/scitable/knowledge/library/introduction-to-population-demographics-83032908/ [25.05.2026].
20.Thompson, J. N. Life tables and the rate of population growth. Encyclopedia Britannica. URL: https://www.britannica.com/science/population-ecology/Life-tables-and-the-rate-of-population-growth [25.05.2026].
21. Vishwakarma, P.; Kataria, K. K. On Transient Probabilities of Fractional Birth-Death Process. ArXiv, 2024. URL: https://arxiv.org/pdf/2410.17344 [25.05.2026].
22.Weeks, J. R. Demographic Transition Theory. In The Blackwell Encyclopedia of Sociology, G. Ritzer (Ed.). 2017. https://doi.org/10.1002/9781405165518.wbeosd025.pub2
23. Zelinsky, W. The hypothesis of the mobility transition. Geographical Review, 1971, 61(2), 219–249. https://doi.org/10.2307/213996

УЛЬВИЯ ХАГВЕРДИ
Доцент кафедры Политологии и политического управления
Академии Государственного Управления при Президенте Азербайджанской Республики,
доктор философии по политическим наукам

ТЕОРЕТИЧЕСКИ-КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ ЕСТЕСТВЕННОГО И МЕХАНИЧЕСКОГО ДВИЖЕНИЯ НАСЕЛЕНИЯ

Данное исследование посвящено комплексному анализу теоретических основ естественного и механического движения населения и систематизации подходов, сформировавшихся в рамках различных научных традиций. Исследование показывает, что классические демографические модели объясняют общие закономерности динамики населения, однако в современных условиях влияние социальных, экономических и культурных факторов ограничивает их объяснительный потенциал. В этом контексте современные концепции, такие как мир-системный подход, теория миграционных сетей и концепция «желания–возможности», более полно раскрывают взаимосвязь структуры и агентности. В итоге движение населения следует рассматривать как многоуровневый и сложный социальный процесс, анализ которого требует интеграции различных теоретических подходов.

Ключевые слова: демографический переход, теория миграции, динамика населения, социальные детерминанты, стохастические модели.

ULVIYYA HAGVERDI
Department of Political Science and Political Administration,
the Academy of Public Administration under the President of Azerbaijan Republic,
PhD in Political Science,Associate professor

THEORETICAL-CONCEPTUAL BASES OF NATURAL AND MECHANICAL MOVEMENT OF POPULATION

This study provides a comprehensive analysis of the theoretical foundations of natural and mechanical population movements and systematizes approaches developed within different scientific

traditions. The study demonstrates that while classical demographic models explain general patterns of population dynamics, their explanatory power is limited under modern conditions due to the influence of social, economic, and cultural factors. In this regard, contemporary frameworks such as the world-systems approach, migration network theory, and the "aspiration–capability" framework provide a more comprehensive explanation of the interaction between structure and agency. Consequently, population movement should be understood as a multi-level and complex social process requiring the integration of diverse theoretical approaches.

Keywords: demographic transition, migration theory, population dynamics, social determinants, stochastic models.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 may 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: s.e.f.d. Fəridə Əlirzayeva, s.e.d. Sabir Məmmədli.

UOT 94(479.24)

NİGAR ABBASZADƏ
Bakı Dövlət Universiteti
Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müəllimi,
tarix üzrə fəlsəfə doktoru
abbaszade1988@gmail.com

AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT GƏNCLƏR SİYASƏTİNİN YENİ MƏRHƏLƏSİ (2003-2023-cü illər)

DOI: https://doi.org/10.36719/2708-065X/114/194-199

Gənclər cəmiyyətin sosial həyatında mühüm rol oynayır və gənclər siyasətinin həyata keçirilməsi bu gün hər bir dövlətdə sosial siyasətin əsas sahələrindən biridir. Yeni perspektivlər təqdim etməklə yanaşı, gənclər tez-tez böyüklər üçün əlçatmaz olan birbaşa biliklərə və anlayışlara malikdirlər. Gənclər üzləşdikləri çətinliklər barədə yaxşı məlumatlıdırlar və yeni ideyalar və alternativ həllər təklif edə bilərlər. İlham Əliyevin 2003-cü ildə Azərbaycan Prezidenti seçilməsindən sonra ölkədə gənclər siyasətində yeni bir mərhələ başladı. Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin fərqli xüsusiyyətlərindən biri də gənclər siyasətinin həyata keçirilməsində yalnız dövlət qurumlarının iştirak etməməsi deyil, gənclərin özlərinin də iştirak etməsidir. Hazırda dövlət gənc nəslin sosial müdafiəsi, təhsili və rifahı üzərində fəal şəkildə işləyir, hərtərəfli fəaliyyət planı həyata keçirir. Xüsusilə beynəlxalq təcrübədən istifadə edərək Azərbaycan gənclərinin maraqlarına və ehtiyaclarına diqqət yetirilir.

Açar sözlər: Azərbaycan, İlham Əliyev, gənclər, siyasət, proqram, qanun, forum.

Giriş. Azərbaycan gəncləri ictimai həyatın müxtəlif sahələrində fəal iştirak edir və siyasi, iqtisadi, sosial və humanitar fəaliyyətlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Dövlətin verdiyi geniş imkanlar sayəsində gənclər cəmiyyətdə aparıcı qüvvəyə çevrilmişlər. Dövlət gənclər siyasəti gənclərin bilik, bacarıq və potensialından səmərəli istifadə etmələrinə və cəmiyyətdə layiqli yer tutmalarına imkan verən şərait yaratmaq üçün dövlət tərəfindən həyata keçirilən prinsiplər və tədbirlər sistemidir. Bu, həmçinin müvafiq hüquqi sənədlərdə öz əksini tapır və dövlət qurumları tərəfindən həyata keçirilir. Gənclər cəmiyyətin sosial həyatında mühüm rol oynayır və gənclər siyasətinin həyata keçirilməsi bu gün hər bir dövlətdə sosial siyasətin əsas sahələrindən biridir. Ənənəvi sosial siyasətdən fərqli olaraq, dövlət gənclər siyasəti yalnız koordinasiya mexanizmlərindən ibarət deyil. O, həmçinin gənclərin əmək və yaradıcı potensialını əks etdirən aktiv, innovativ aspektləri də özündə birləşdirir. Bu, gənclər siyasətinin cəmiyyətin inkişafının əsas sahələri üçün strateji resurs kimi qiymətləndirilir.

Cəmiyyətdəki dəyişikliklərin mürəkkəbliyi gənclərin sosiallaşması prosesinə və gənc nəslin həyatının bütün aspektlərinə təsir göstərir. Hətta ənənəvi gənclər problemlərinin mahiyyəti və həlləri də dəyişir. Həyatın hazırkı tempi bu problemlərin tamamilə yeni əsasda həll edilməsini tələb edir. Sosial yönümlü iqtisadiyyata əsaslanan demokratik cəmiyyətin qurulması gənclərin mənəvi və etik inkişafı olmadan mümkün deyil. Bu gün Azərbaycan gəncləri vətənpərvərlik, peşəkarlıq və məsuliyyət inkişaf etdirmək, əvvəlki nəsillərin sosial-mədəni təcrübəsini və dünya sivilizasiyasının nailiyyətlərini mənimsəmək kimi vacib vəzifələrlə üzləşirlər. Bu məqsədlərə çatmaq üçün gənclərin gənclər siyasətində və ümumiyyətlə sosial siyasətdə fəal iştirakı tələb olunur. Maddi və sosial vəziyyətindən asılı olmayaraq, dövlət hər bir gənc vətəndaş üçün şəxsi uğur qazanmaq üçün şərait yaratmalıdır. Yalnız bundan sonra gənclər öz potensiallarını reallaşdıra bilərlər ki, bu da gənclər siyasətinin əsas məqsədidir. Azərbaycanın gənclər siyasəti qabaqcıl qlobal təcrübələrin təhlili və sintezinə əsaslanır.

Gənclərin digər əhali qruplarından fərqlənməsi, onların dövlət və cəmiyyətin yenilənməsinin məqsəd və vəzifələrini bilməsi, ortaq anlayışı və qəbul etməsi, həyat perspektivlərini bu məqsədlərlə

əlaqələndirmələri və dövrümüzün qlobal problemlərinə cavab vermək üçün lazımi keyfiyyətlərə sahib olmaları ilə əsaslandırılır.

Gəncləri dövlət üçün xüsusi bir kateqoriya, strateji resurs kimi nəzərdən keçirərkən xüsusi gənclər siyasətinin həyata keçirilməsinə üstünlük vermək lazımdır.

Gənclərin dövlət idarəetmə sistemində rolu. İdarəetmə tarixindən məlumdur ki, yüksək vəzifəli dövlət məmurları üçün yaş həddi zamanla dəyişir. Lakin müasir dövrdə bu proses fərqli şəkildə tənzimlənir. Bir çox ölkələrin qanunvericiliyində əsas inzibati vəzifələr üçün yaş məhdudiyyətləri olsa da, digərlərində yalnız bilik və bacarıqlar vacibdir.

Gənclik uşaqlıq və yetkinlik arasında bir körpüdür. Buna görə də, gənclik qeyri-sabitdir və daim inkişaf üçün yeni yollar axtarır. Bu dinamik dövr xarakter xüsusiyyətlərinin yeni istiqamətlər və məqsədlər müəyyən etmək, karyera seçmək və ailə məsuliyyətlərini anlamaq üçün lazım olduğu bir mərhələdir. Bu mənada sağlam cəmiyyət sağlam gənclik kimi qəbul edilməlidir. Akademik tədqiqatlar göstərir ki, gənclərin psixoloji xüsusiyyətləri xarakter yetkinliyi, məqsədlərə çatmaq üçün məqsəd və vəzifələrin qoyulması, üsyankarlıq, məsuliyyətə ehtiyac, zövq axtarışı, dinamizm və macəra kimi göstəricilərlə əlaqələndirilir.

Необходимо указать, что значительная часть учителей не имела достаточного опыта педагогической работы. Так, из 18293 педагогов в 1944/45 учебном году почти половина работала в школах менее пяти лет. Поэтому важно было усилить внимание к методической работе. В помощь учителям Наркомпрос начал выпускать методическую литературу, регулярно проводить летние сессии заочников учителей. Значительную помощь в работе им оказывал Институт усовершенствования учителей. В 1942/43 учебном году институт провел 278 лекций и докладов, 83 семинара, двухнедельные курсы учителей начальных школ, полуторамесячные курсы переподготовки учителей семилетних школ [4, с.208].

В директивах Вермахта говорилось что, «когда Грозный, Махачкала, будут в наших руках мы сможем захватит Баку». В 1941 году Азербайджан дал 24 миллиона тонн нефти, в то время как в СССР всего было добыто 31 миллиона тонн нефти. Для сравнения за всю войну Германия по официальным данным израсходовала чуть более 50 миллиона тонн нефтепродуктов. И теперь, если к создавшейся к 1942 году ситуации, добавить то обстоятельство, что при взятии немцами Баку, ко всему свершившемуся СССР потеряла бы более 90% нефти и более 80% нефтеперерабатывающих мощностей, то картина была бы полной и законченной. В 1942 году, Баку был последним оплотом существования СССР [5, с.11].

В годы второй мировой войны наступил самый трудный, кризисный период в развитии образования. Ритм работы в школах был нарушен, часть учителей была призвана в армию, из-за использования школьных зданий в военных целях сеть школ была сокращена. Если в 1941/42 учебном году в 3463 общеобразовательных школах обучалось 569850 учащихся, то в 1944/45 учебном году в результате урона, нанесенного войной, численность школ снизилась до 3233, а численность учащихся в них упала до 482720-ти человек. Война замедлила процесс перехода ко всеобщему семилетнему образованию, который в основном завершился лишь в 50-х годах [6].

Вторая мировая война также сильно замедлила процесс в области профессионально-специального образования. Функционировавшие в эти годы железнодорожные и фабрично-заводские школы (фабрично-заводское обучение) подготовили для народного хозяйства 43 тысячи квалифицированных рабочих. После войны, в восстановительный период было подготовлено 95,5 тысяч квалифицированных рабочих. В 50-е годы в указанной сфере были проведены реформы, была вновь воссоздана сеть профессионально-технических училищ. В 1959 г. на базе системы Государственных Трудовых Резервов был создан Государственный Комитет профессионально-технического образования. В начале этого периода (1940) в республике было создано 32 профессионально-технических заведения. К 1970 г. их число достигло 76-ти и здесь по 150 специальностям обучалось 40,9 тысяч учащихся [6].

До войны на Азербайджанскую ССР приходилось до 80% всей нефтедобычи СССР. В первый же год войны на фронт было отправлено 23,5 млн. тонн нефти. Только летом 1941 года объединение «Азнефть» передало в армию 161 трактор, 1155 грузовых машин, 604 лошадей, на фронт были мобилизованы тысячи нефтяников. В то же время тяготы начального периода войны - отток опытных нефтяников, отсутствие нового нефтяного оборудования из-за перевода машиностроительных заводов на выпуск военной продукции резко отрицательно сказались на объеме производства. Но самым тяжелым ударом явилось возникновение так называемого «второго Баку» в Поволжье и Сибири. Здесь были обнаружены большие запасы нефти, однако не было ни кадров, ни промышленной базы для их разработки. Поэтому во «второй Баку» стали перевозить собственно бакинские предприятия, среди них четыре крупнейших нефтеперегонных завода. Более 10 тысяч бакинских нефтяников с семьями были переселены в Среднюю Азию и к востоку от Уральских гор [2, с.58-59].

В годы войны в системе высшего образования вновь произошли изменения. В 1941 г. Педагогический Институт, Институт Народного Хозяйства, Заочный Педагогический Институт и Институт Физкультуры были объединены в Азербайджанский Государственный Университет. Через некоторое время (1943) Педагогический Институт был отделен от университета и преобразован в самостоятельный институт, двухгодичный Гянджинский Учительский Инс-

титут был преобразован в Педагогический Институт. Спустя некоторое время (1944) Институт Народного Хозяйства был отделен от АГУ. Подобные “слияния“ и “разделения“ происходили после войны и в 50-е годы. В итоге, если в 1945/46 учебном году в республике было 17 вузов, то в 1950/51 учебном году их число достигло 20-ти. Были созданы Азербайджанский Государственный Институт Иностранных Языков (1948), Азербайджанский Политехнический Институт (1950), были ликвидированы двухгодичные педагогические институты (1953) [6].

В годы войны чрезвычайно выросли значение общественных наук, их влияние на идеологическую жизнь страны. Агитационная и пропагандистская работа ученых в значительной мере усилилась. Научные работники в устных выступлениях, на лекциях, в статьях, брошюрах, книгах разъясняли характер и цель войны, информировали о движении сопротивления и оккупационном режиме [1, с.13].

В годы войны работа науки и образования была организована под лозунгом «Все для фронта, все для победы!» К концу войны в Азербайджане было 60 научных учреждений. В научных учреждениях и высших учебных заведениях работали 150 профессоров и докторов наук, 380 доцентов и кандидатов наук. В годы войны свыше 100 ученых были награждены орденами и медалями СССР, 7 ученых были удостоены Государственной премии, 50 человек получили почетное звание «Заслуженный деятель науки Азербайджанской ССР» и «Заслуженный деятель искусств Азербайджанской ССР». Из ученых в годы войны М.А.Миркасимов, Г.Гусейнов, С.Азизбеков, М.Гашгай, Ю.Мамедалиев вели очень эффективную научную и общественно-политическую деятельность. Создание Академии наук Азербайджанской ССР считается важнейшим историческим событием того периода [1, с.13].

Годы войны стали испытанием для области просвещения Азербайджана. Органы образования и педагогические коллективы принимали активное участие в сохранении сети школ, осуществлении обязательного образования, размещении детей, лишившихся родителей, улучшении военно-физической подготовки учащихся, во всенародном движении по оказанию помощи фронту и в проводимой среди населения культурно-политической работе. В годы войны в Азербайджане была сохранена сеть общеобразовательных школ. Если в 1940-1941 учебном году в 3575 школах республики учились 654902 человек, то в 1944-1945 учебном году количество школ было 3233, а учащихся 483581 человек. Как видно, военное время не слишком сильно отразилось на образовании. Несмотря на трудности, не было прекращено в Азербайджане педагогическое образование. В то время в области подготовки педагогических кадров ведущая роль принадлежала Азербайджанскому государственному университету и Азербайджанскому педагогическому университету. В ряде регионов были организованы учительские институты. В 1945-1946 гг. в школах Азербайджана работал 18831 учитель [1, с.13-14].

Заключение. Таким образом, в годы Великой Отечественной войны система образования и воспитания в Азербайджанской ССР, несмотря на колоссальные трудности - нехватку кадров, ухудшение материально-технической базы, сокращение числа школ и учащихся - сумела сохранить свой основной потенциал и выполнить важнейшую патриотическую задачу. Школа не только обеспечила учебный процесс, но и стала центром идейно-политического, военно-физического и трудового воспитания молодёжи, формируя у подрастающего поколения любовь к Родине и готовность к самоотверженной помощи фронту. Приобретённый в тот период опыт организации общественно полезного труда, укрепления дисциплины и методической работы с учителями заложил основу для послевоенного восстановления и дальнейшего развития образования в республике.

ЛИТЕРАТУРА

1. Амрахов, М.И. Культура Азербайджана в годы Второй мировой войны / М.И.Амрахов // Вестник Санкт-Петербургского университета МВД России. – 2005. – №. 2. – С. 9-18.
2. Зейналова, М.Г. Промышленность, транспорт, наука и культура Азербайджана в годы Великой Отечественной войны / М.Г.Зейналова. – 2-е изд. – Баку: IRS Наследие, 2015. – С. 58-63.

3. Лойко, А.И. Ценности евразийской культуры и духовный образ малой Родины к 75-летию Великой Победы / А.И.Лойко. – Минск: БНТУ, 2020. – 216 с.
4. Мехти-Заде, М.М. Очерки истории советской школы в Азербайджане / М.М.Мехти-Заде. – Баку: Маариф, 1962. – 300 с.
5. Талышинская, Л.А. Общественно-политическая, государственная и научная деятельность Азиз Алиева (1920-1962 гг.): автореф. дис. … д-ра филос. по ист.: 07.00.02 / Талышинская Лейла Азер; Бакинский гос. ун-т. – Баку, 2012. – 27 с.
6. Azərbaycan Milli Ensiklopediyasi: [сайт]. – Баку, 2017. – URL: http://ensiklopediya.gov.az/az/terms/20300/cild/12 (дата обращения: 06.12.2025).

İLYAS HACIYEV
Belarus Dövlət Universitetinin
Pedaqogika və təhsilin inkişafı problemləri kafedrasının magistrantı

VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCANDA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İNKİŞAFI

Məqalə Böyük Vətən Müharibəsi illərində Azərbaycan SSR-də sovet təhsil sisteminin və partiya orqanlarının müharibə şəraitində gənc nəslin tərbiyəsinə yönəlmiş fəaliyyətini araşdırır. İnternat məktəblərinin, uşaq yeməkxanalarının, cəbhəçilərin və kimsəsizlərin uşaqları üçün evlərin şəbəkəsi genişləndirilirdi, komsomolçular tərəfindən xüsusi yardım fondları yaradılırdı. Ölkənin müdafiəsi ilə bağlı bütün məktəb fənlərinin tədrisi ilə sovet vətənpərvərlik və düşmənə nifrət ruhunda yenidən qurulmuş təhsil işinə xüsusi diqqət yetirilir. Məktəblilərin ictimai faydalı əməkdə necə fəal iştirak etdiyi göstərilir.

Açar sözlər: Sovet vətənpərvərliyi, Böyük Vətən Müharibəsi, Azərbaycan SSR, SSRİ, Azərbaycan SSR Xalq Maarif Komissarlığı, Qızıl Ordu, təhsil və tərbiyə işləri.

ILYAS HAJIYEV
Master's student, Department of Pedagogy and Problems of Education Development,
Belarusian State University

DEVELOPMENT OF COMPREHENSIVE SCHOOLS IN AZERBAIJAN DURING THE PATRIOTIC WAR

This article examines the activities of the Soviet education system and party organs in the Azerbaijan SSR during the Great Patriotic War, aimed at educating the younger generation under wartime conditions. The network of boarding schools, children's canteens, and homes for the children of frontline soldiers and orphans expanded, and Komsomol members established special aid funds. Particular attention is paid to educational work, which was restructured in the spirit of Soviet patriotism and hatred of the enemy, with the teaching of all school subjects linked to the country's defense. It also shows how schoolchildren actively participated in socially useful work.

Keywords: Soviet patriotism, Great Patriotic War, Azerbaijan SSR, USSR, People's Commissariat of Education of the Azerbaijan SSR, Red Army, educational work.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 may 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Nailə Məmmədova, t.e.d. Qabil Əliyev.

UOT 327

НАДИР МАМЕДОВ
Магистрант факультета международных отношений,
кафедры международного права Белорусского Государственного Университета
nadirmammadov1453@gmail.com

ВЛИЯНИЕ БИПОЛЯРНОЙ СИСТЕМЫ НА РАЗВИТИЕ МЕЖДУНАРОДНОГО ПРАВА В ЭПОХУ ХОЛОДНОЙ ВОЙНЫ

DOI: https://doi.org/10.36719/2708-065X/114/255-258

В статье анализируется влияние биполярной системы на развитие международного права в период холодной войны. Особое внимание уделяется формированию норм безопасности, прав человека и гуманитарного права. Показано, как идеологическое противостояние влияло на формирование правовых норм и институтов.

Ключевые слова: биполярный мир, холодная война, Совет Безопасности, Устав ООН, Женевские конвенции.

Введение. Период холодной войны (1947 - 1991 гг.) характеризуется формированием и устойчивым существованием биполярной системы международных отношений, в рамках которой доминировали два центра силы - США и СССР. Это противостояние оказало глубокое влияние не только на политическую и военную сферу, но и на развитие международного права. В условиях идеологического конфликта и постоянной угрозы глобальной войны международное право приобрело специфические черты, отражающие баланс сил, конкуренцию систем и стремление к предотвращению прямого вооруженного столкновения. Биполярная система предполагала разделение мира на два противостоящих блока: капиталистический и социалистический. Каждая из сторон стремилась легитимировать свою модель общественного устройства через международно-правовые механизмы. Это привело к усилению идеологизации международного права, когда юридические нормы зачастую интерпретировались сквозь призму политических интересов. Западная правовая доктрина опиралась на либеральное понимание суверенитета, приоритет прав человека и свободы международной торговли, тогда как социалистическая концепция международного права акцентировала принципы невмешательства, равенства государств и классово обусловленный характер международных норм [3, с.312]. В отличие от межвоенного периода, отличавшегося институциональной слабостью и фрагментарностью международного регулирования, послевоенная система международных отношений опиралась на более устойчивую нормативную основу, закрепленную в Уставе ООН. И, несмотря на идеологические различия, обе системы формально признавали универсальность Устава ООН, что обеспечивало сохранение единого юридического каркаса международного правопорядка. Сохранялось значение базовых принципов, закрепленных в Уставе ООН, включая суверенное равенство государств и запрет применения силы: Устав ООН, ст. 2 (1), ст. 2 (4).

Одним из ключевых направлений влияния биполярной системы стало формирование и развитие права международной безопасности. Создание системы коллективной безопасности в рамках ООН сопровождалось реальным блокированием ее механизмов из-за противостояния в Совете Безопасности, где право вето активно использовалось обеими сторонами. Юридически вето задумывалось как средство предотвращения одностороннего доминирования и гарант коллективной ответственности великих держав за поддержание мира. Однако в условиях биполярного противостояния оно нередко превращалось в инструмент блокирования решений, что снижало эффективность Совета Безопасности в предотвращении конфликтов. Тем не менее сам факт сохранения функционирования ООН даже в периоды острого кризиса

(Берлинский кризис 1961 г., Карибский кризис 1962 г.) свидетельствовал о стабилизирующей роли международного права как минимального консенсусного пространства [5, p. 294].

Особенностью холодной войны стало смещение акцента с прямых вооруженных столкновений на опосредованные конфликты, что привело к формированию новых правовых конструкций. Военные действия все чаще происходили в форме региональных и внутренних конфликтов с участием третьих государств (Корея, Вьетнам, Афганистан), что поставило вопрос о правовой квалификации таких войн. В международно-правовой доктрине возникли концепции "косвенной агрессии", "военной помощи" и "интернационализированных вооруженных конфликтов", которые отражали стремление адаптировать нормы jus ad bellum и jus in bello к новым реалиям [4, p.734]. В условиях нарастающей угрозы ядерного конфликта международное право получило существенный импульс к развитию в сфере ограничения вооружений и разоружения. Биполярная система, основанная на принципе ядерного паритета, объективно усилила значение правовых механизмов как инструмента поддержания стратегической стабильности. В этот период были заключены важнейшие международные соглашения:

1. Договор о нераспространении ядерного оружия (1968 г.)
2. Договор об ограничении систем противоракетной обороны (1972 г.)
3. Договоры об ограничении стратегических вооружений (ОСВ-1, 1972; ОСВ-2, 1979).

Эти ключевые документы заложили основу современного международного права в сфере контроля над вооружениями. Данные соглашения стали результатом политики взаимного сдерживания и стремления предотвратить ядерный конфликт [4, p.740]. Несмотря на сохранение военно-политического противостояния, указанные международные акты юридически ограничивали масштабы гонки вооружений, способствуя становлению особого режима международной безопасности, основанного на взаимных обязательствах государств и механизмах верификации. Важным направлением развития международного права в период холодной войны стало формирование норм международного гуманитарного права. Ключевую роль в этом процессе сыграли Женевские конвенции 1949 года, закрепившие международные стандарты защиты жертв вооруженных конфликтов (Geneva Conventions III, 1949, art. 13; Geneva Conventions IV, 1949, art. 32, 33). Указанные нормы стали основой современного международного гуманитарного права и получили дальнейшее развитие в последующих международных актах. Женевские конвенции 1949 года закрепили нормы защиты жертв вооруженных конфликтов. Данные конвенции стали важным этапом кодификации гуманитарного права [7, p.1166-1167]. Дополнительные протоколы 1977 года существенно расширили защиту жертв вооруженных конфликтов, включая внутренние конфликты, которые были типичны для эпохи биполярности. Таким образом, международное право постепенно признавало, что границы между международными и немеждународными конфликтами становятся размытыми, а защита личности должна носить универсальный характер [2, с.184].

Формирование биполярной системы сопровождалось созданием военно-политических союзов, институционализировавших противостояние двух сверхдержав. Создание НАТО в 1949 году и Организации Варшавского договора в 1955 году закрепило военно-политическую поляризацию мира, но одновременно способствовало юридическому оформлению коллективной обороны как допустимого исключения из запрета на применение силы, предусмотренного статьей 51 Устава ООН. Эти организации стали примерами того, как международное право адаптировалось к реальности блокового противостояния, не разрушая при этом универсальных принципов правопорядка. Как отмечает британский ученый-юрист Malcolm N.Shaw: "Устав ООН не исключает существование региональных соглашений, занимающихся вопросами поддержания международного мира и безопасности" [7, p. 1163].

Важнейшим элементом правовой структуры биполярного мира стал процесс деколонизации, который, несмотря на сохранявшееся идеологическое соперничество сверхдержав, получил нормативное оформление в рамках системы ООН. Принятие Декларации о предоставлении независимости колониальным странам и народам (Резолюция Генеральной Ассамблеи ООН 1514 (XV) от 1960 г.) стало одним из ключевых международно-правовых актов периода

холодной войны. Увеличение числа независимых государств, привело к расширению круга субъектов международного права и усилению роли Генеральной Ассамблеи ООН. В результате международно-правовая система приобрела более инклюзивный характер, отражающий процесс формирования глобального сообщества суверенных государств. Нормы эффективно функционировали лишь постольку, поскольку совпадали с интересами ключевых акторов. Нарушения прав человека, вмешательства во внутренние дела государств и поддержка авторитарных режимов нередко оправдывались соображениями стратегической необходимости. Это противоречие между нормативными декларациями и политической практикой стало одной из ключевых проблем международного правопорядка второй половины XX века [1, с.389]. Несмотря на значительные достижения, международное право в период холодной войны оставалось ограниченным в своей эффективности. Вооруженные конфликты, такие как Корейская война (1950 – 1953 гг.) и война во Вьетнаме (1955 – 1975 гг.) демонстрировали неспособность международного права полностью предотвратить применение силы. Несмотря на это, именно в условиях холодной войны международное право сохранило свою системообразующую роль. Оно выступало не столько инструментом идеального регулирования, сколько языком диалога и минимального консенсуса, позволяющим избежать прямого столкновения сверхдержав. Как отмечал английский юрист Лаутерпахт Герш, “ценность международного права заключается не в устранении конфликтов, а в создании рамок, в пределах которых конфликт не перерастет в катастрофу” [6, p.421]. Биполярный мир в условиях холодной войны стал ключевой формой международных отношений в рассматриваемую эпоху. Противостояние двух сверхдержав определяло политическую, военную и идеологическую ситуацию в мире, формируя устойчивую, но напряженную систему.

Заключение. Таким образом, биполярный мир и холодная война сформировали особую модель международного правопорядка, в которой универсальные правовые принципы сосуществовали с жестким политическим противостоянием. Международное право в этот период не утратило своего значения, но функционировало в условиях ограниченной эффективности, зависимой от баланса сил и интересов сверхдержав. Вместе с тем именно холодная война стимулировала развитие ключевых отраслей международного права - права международной безопасности, гуманитарного права, принцип разоружения и защиты прав человека. Тем не менее, именно в этот период были заложены основы современного международного правопорядка. Накопленный в этот период правовой опыт стал основой для трансформации международного правопорядка в постбиполярную эпоху и сыграл решающую роль в формировании современной системы глобального управления.

ЛИТЕРАТУРА

1. Киссинджер Г. Дипломатия. Москва, 1997, с. 848.
2. Толстых В.Л. Курс международного права: учебник. Москва, 2019, с. 736.
3. Фархутдинов И. З. Эволюция международного права - от Вестфаля до Версаля. Москва, 2024, с. 484.
4. Brownlie I. Principles of Public International Law. Oxford University Press, 2008, p. 784.
5. Kelsen H. The Law of the United Nations. New York: Frederick A. Praeger, 1950, p. 903.
6. Lauterpacht H. Recognition in International Law. Cambridge University Press, 1947, p. 442.
7. Shaw M. N. International Law. 6th ed. Cambridge University Press, 2008, p. 1542.

NADİR MƏMMƏDOV
Belarus Dövlət Universitetinin Beynəlxalq Münasibətlər fakültəsi,
Beynəlxalq hüquq kafedrasının magistrantı

SOYUQ MÜHARİBƏ DÖVRÜNDƏ BİPOLYAR SİSTEMİN BEYNƏLXALQ HÜQUQUN İNKİŞAFINA TƏSİRİ

Məqalə soyuq müharibə dövründə bipolyar sistemin beynəlxalq hüququn inkişafına təsirini təhlil edir. Təhlükəsizlik, insan hüquqları və humanitar hüququn inkişafına xüsusi diqqət yetirilir.

İdeoloji qarşıdurmanın hüquq normalarının və institutlarının formalaşmasına necə təsir etdiyini nümayiş etdirir.

Açar sözlər: bipolyar dünya, Soyuq Müharibə, təhlükəsizlik Şurası, BMT Nizamnaməsi, Cenevrə Konvensiyaları.

NADIR MAMMADOV
Master's student, Faculty of International Relations,
Department of International Law, Belarusian State University

THE INFLUENCE OF THE BIPOLAR SYSTEM ON THE DEVELOPMENT OF INTERNATIONAL LAW DURING THE COLD WAR

This article analyzes the impact of the bipolar system on the development of international law during the Cold War. Particular attention is paid to the formation of security, human rights, and humanitarian law norms. It demonstrates how ideological confrontation influenced the formation of legal norms and institutions.

Keywords: bipolar world, Cold War, Security Council, UN Charter, Geneva Conventions.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, s.e.d. Adil Mirabdullayev.

UOT 94(479.24)

AYTƏN HƏSƏNLİ
Heydər Əliyev adına Hərbi İnstitut
aytenhesenli24@gmail.com

31 MART SOYQIRIMI

DOI: https://doi.org/10.36719/2708-065X/114/259-264

Məqalədə 1918-ci il mart hadisələrinə gətirib çıxaran yol, Müsavat partiyasının əhali içərisində nüfuzunun güclənməsi, uğur qazanması və bütün bunların fonunda Azərbaycan əhalisinin azadlıq ruhunun daha da artması göstərilmişdir. Xalqın azadlıq ruhunu məhv etmək məqsədi ilə 1918-ci ilin mart ayında Bakıda və digər ərazilərimizdə yerli əhaliyə qarşı geniş miqyasda soyqırım həyata keçirilmiş, bu soyqırımın əhatə dairəsi və nəticələri haqqında məqalədə məlumat verilmişdir.

Açar sözlər: Müsavat partiyası, Evelina gəmisi, Stepan Şaumyan, Təhqiqat komitəsi, Quba memorial kompleksi.

Giriş. 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Bakıda mart soyqırımı planı hələ 1917-ci ildən "Daşnaksutyun" partiyası və Erməni Milli Komitəsi tərəfindən hazırlanırdı. 31 Mart soyqırımına gələn yol hələ XVIII əsrin əvvəllərində I Pyotr zamanında Rusiyanın Qara dənizə və Aralıq dənizinə yiyələnmək üçün hazırladığı planlardan başlamışdı. Kürəkçay, Gülüstan, Türkmənçay müqavilələrindən sonra ermənilərin Qafqaza böyük planlı köçürülmələri gələcəkdə bütün Zaqafqaziyanın qana boyanmasına şərait yaradırdı. Məhz həmin dövrdən ermənilərin sayı Qarabağda kütləvi şəkildə artırılmağa başlanmışdı. Yerli əhali məcburi şəkildə öz ev-eşiyindən çıxarılır, onların yerində ermənilər məskunlaşdırılırdı. Bu proses XX əsrin əvvəllərində də davam etdirilirdi. Qafqaz cəbhəsində hərbi əməliyyatlar zonasından çox sayda erməni Cənubi Qafqaza gətirilmiş, onların çoxu azərbaycanlılara məxsus torpaqlara yerləşdirilmişdi. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Təkcə 1915-ci ilin iyul ayında Qafqaz canişinin sərəncamına əsasən Cavanşir və Şuşa qəzalarına 24 min erməni yerləşdirildi. Bundan sonra ermənilərin Azərbaycan ərazilərində silahlı hücumları daha geniş miqyas almağa başladı.

31 mart soyqırımına aparan yol. 1905-1907-ci illər hadisələri göstərdi ki, XX əsrin əvvəllərinədək Azərbaycan torpaqlarını "dinc" üsullarla zəbt edən erməni millətçiləri artıq rəsmi dairələrin dəstəyi ilə açıq silahlı təcavüzə keçirlər. Bununla belə, həmin vaxt milli ziyalıların başçılığı, milli burjuaziyanın dəstəyi ilə azərbaycanlılar erməni təcavüzünün qarşısını ala bilmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini cismən məhv etmək idi. Azərbaycan xalqının göz yaşları hələ qurumamış, qırğınlar bitər-bitməz ermənilər Rusiyada inqilabi hərəkatdan istifadə edərək öz planlarını rallaşdırmağa başladılar. 1917-ci ilin fevral inqilabı çar hökumətinin süqutu ilə nəticələndi. Bakı Soveti qüvvələrinə rəhbərlik edən S. Şaumyanın erməni hərbi hissələrindən istifadə etməsi bu qırğını daha da dərinləşdirmişdir. Qeyd etmək lazımdır ki, Bakı Soveti də, onun yaratdığı ordu da əsas etibarı ilə ermənilərdən ibarət idi. Məlumdur ki, 1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı nəticəsində Romanovlar sülaləsi devrildi və Müvəqqəti hökumət təşkil edildi. Müvəqqəti hökumət Rusiya xalqlarına müraciətində elan etdi ki, birinci dünya müharibəsi başa çatandan sonra xalqların öz müqəddəratını həll etməsi məsələsinə baxılacaqdır. Lakin 1917-ci ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyəti zorakı yolla ələ keçirməsi Rusiya xalqlarının bu arzularını boşa çıxartdı. Lakin yeni hökumətin bir sıra məsələlərdə mövqeyi çarizmlə müqayisədə qətiyyən dəyişməmişdi. Odur ki, erməni daşnakları bu dəfə bolşevik adı ilə köhnə planlarını həyata keçirməyə başladılar.

Bolşeviklər hakimiyyətə gəldikdən sonra Rusiya Birinci Dünya müharibəsindən çıxdığı üçün əsgərlər döyüş bölgələrini tərk etməyə başladılar. Bu vaxt əsas hərbi əməliyyatların baş verdiyi Qafqaz cəbhəsində olan Rusiya hərbi hissələrinin daxilindəki erməni zabit və əsgərləri silahlarını təhvil

vermədilər. Onlar cəbhədən Azərbaycana, əsasən, Bakıya üz tutdular. S.Şaumyan da azərbaycanlılara qarşı amansız planlarını həyata keçirmək üçün əlindəki hakimiyyətdən və bu hərbi hissələrin gücündən istifadə etdi. Geniş hücumlara keçmək üçün bütün hazırlıqlar görüldü. Bakı Sovetinin ixtiyarında Qırmızı ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə cəmlənmişdi. 1918-ci ilin martında Bakıda siyasi vəziyyət son dərəcə gərgin idi. Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat"ın böyük səs çoxluğu ilə qələbə qazanması bolşevikləri və daşnakları ciddi narahat edirdi. Cənubi Qafqazın ən güclü siyasi partiyasına çevrilən "Müsavat" Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamla mübarizə aparırdı. Şaumyan başda olmaqla bolşevik qüvvələri Erməni Milli Şurası və "Daşnaksutyun" partiyasının rəhbərləri ilə birlikdə "Müsavat"a qarşı əsl müharibəyə başladılar [1]. Martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Belə ki, 1918-ci il martın 17-də silahla ehtiyatsız davranışdan həlak olmuş H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi bolşevikləri təşvişə saldı. Mərhumu dəfn edən müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Paroxodun körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərksilah olunmasını tələb etdi. Dəstənin rədd cavabına tüfənglərdən və pulemyotlardan atılan atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu. Ertəsi gün şəhərin cənub hissəsində erməni əsgərləri göründülər. Martın 31-də səhər tezdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlar başladı. Ermənilərin yalançı vədlərinə inanmış müsəlmanlar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirdilər. Hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçdilər. Müsəlmanlar yaşayan hissədə xristian əhalidən ruslar və gürcülər qalmışdı. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi [3]. Daşnaklar azərbaycanlılara milli ordu yaratmaqda mane olur, Sovetin adından istifadə edərək millətçişovinist siyasətini canfəşanlıqla həyata keçirir, Bakı, Şamaxı və Azərbaycanın digər bölgələrində türkmüsəlman əhalisinə qarşı qırğınlar hazırlayırdılar.

31 mart soyqırımının miqyası. Mart ayının 31-dən aprelin 3-ə qədər ermənilər Bakıda və Azərbaycanın müxtəlif bölgələrində uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirdilər, diri-diri yandırdılar, qocaların, qadınların gözlərini çıxarıb divarlara mıxladılar, qundaqdakı körpələri itlərə atıb parçalatdılar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtdılar. Bakının böyük bir hissəsini xarabalığa çevirdilər. Minlərlə tarixi sənədləri, dəyərli maddi-mənəvi sərvətləri daşıyıb apardılar. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə də xüsusi qəddarlıqla həyata keçirildi. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirildi, şəhər və kəndlər yandırıldı, milli mədəniyyət abidələri dağıdılıb məhv edildi. Təhqiqat Komissiyasının materiallarında bu vəhşiliklər barəsində deyilir: "1918-ci il martın 18-də bir erməni zabiti, yanındakı üç erməni əsgəri ilə "Kaspi" qəzeti redaksiyasının və "İsmailiyyə" müsəlman xeyriyyə cəmiyyətinin binaları arasındakı dalana gəldi və "İsmailiyyə" binasına daxil oldu. Bir azdan binanın pəncərəsində tüstü və alov göründü. Nəinki Bakı müsəlmanlarının iftixarı sayılan, həm də bütün şəhərin yaraşığı olan bu əzəmətli bina yanğından məhv oldu. Yanğını söndürməyə adam yox idi, çünki müsəlmanlar küçəyə çıxa bilmirdilər, onları pulemyotlarla və top-tüfənglə atəşə tuturdular" [4].

Bakıda bir həftə ərzində əksəriyyətini dinc sakinlər və müsəlmanlar təşkil edən minlərlə əhali vəhşicəsinə qətlə yetirilmişdi. Bolşevik-daşnak dəstələri hətta azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə vermirdilər. Cəsədlər yanan binalara atılır, quyulara, dənizə tökülürdü. Bakıda Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tam hakimiyyətinin bərqərar olması qurbanların dəqiq sayının hesablanmasına imkan vermədi. Ermənilər daxildə münaqişə yaratmaq məqsədilə Qubanın yəhudi məhəllələrində evlərə girir, sakinləri öldürür, həmin evlərdən atəş yağdırırdılar ki, guya yəhudilər azərbaycanlıları güllələyirlər. 1918-ci ildə türk-müsəlman əhalisinə qarşı törədilən cinayətləri üzə çıxarmaq Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra mümkün olmuşdur. Belə ki, Milli hökumətin ən mühüm qərarlarından biri daşnak canilərinin törətdikləri cinayətlərin təhqiqi üçün

1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması oldu. Hökumətin iclasında Xarici işlər naziri M.H.Hacinski bu məsələ barəsində çıxışında qeyd etdi ki, 4 aydır ki, erməni cəlladları dinc müsəlman əhalisinin həyatı və əmlakı üzərində görünməmiş vəhşiliklər törədirlər [5]. Bununla yanaşı, zorakılıq törədənlərin yalan xəbərləri nəticəsində Avropa ictimaiyyətində tamam əks əhval-ruhiyyə yaradılır. Buna görə də belə bir təşkilatın yaradılmasına böyük ehtiyac hiss olunur. Həmin təşkilat Fövqəladə Komissiya xarakteri daşımalıdır, həm də bu komissiyanın topladığı sənədlər Azərbaycan, rus, ingilis, fransız, alman dillərində nəşr edilib yayılmalıdır. Vəkil Ələkbər bəy Xasməmmədov Təhqiqat Komissiyasının sədri təyin edildi. Bir neçə ay ərzində Fövqəladə Təhqiqat Komissiyasının üzvüləri tərəfindən zərərçəkmiş yüzlərlə vətəndaş və şahid dindirildi, çoxlu material, maddi dəlil-sübut, fotosənəd toplandı.

Təhqiqat Komissiyası tərəfindən şahid kimi dindirilmiş Bakı şəhərinin sakini A.N.Kvasnikinin ifadəsində deyilirdi: "Bu il martın 31- aprelin 3-də Bakıda baş vermiş hadisələri əsla vicdan əzabı çəkmədən belə şərh etmək olar: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə ətraflarda cismən məhv edilməsi, onların əmlakının hamısının qarət olunması və bütün var-dövlətlərinin və siyasi üstünlüyün ermənilərin əlinə təbii surətdə keçməsi məqsədilə ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi". Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge bu komissiyanın sədrinə "Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlara dair iş haqqında" məruzəsində yazırdı: *"Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər. Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram - doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin sudəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər"* [2]. Bu qırğınlarda təkcə Azərbaycan müsəlmanları deyil, bütün Qafqaz müsəlmanları ziyan çəkmiş oldu. "İsmailiyyə"də Bakı müsəlman xeyriyyə cəmiyyəti, Qafqaz müsəlman komitələri yerləşirdi, burada həmin təşkilatlara məxsus pul və sənədlər saxlanılır, müsəlmanların yığıncaq və qurultayları keçirilirdi. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxtadək burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdü. Mart talanlarında yaxşı təşkil olunmuş hərbi hissələrlə yanaşı erməni ziyalıları, gəncləri də iştirak edirdilər. Təhqiqat Komissiyasının materiallarında göstərilirdi ki, "erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "vətəndaş borcu"nu yerinə yetirirdi. Talançılar hətta öz tanışlarına da rəhm etmirdilər. Şamaxıda böyük hörmət sahibi olan axund Cəfərquluya olmazın işgəncələr verilmişdi. Ermənilər ona axund olduğu məsciddə dəhşətli əzab-əziyyət verərək, bu allah bəndəsinin saqqalının tüklərini bir-bir yolmuş, dişlərini, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Ermənilər axunda pənah gətirmiş saysız-hesabsız qadın və uşağı da öldürmüşdülər. Hacı axundun tamamilə yandırılmış evinin həyətində sonralar Təhqiqat Komissiyasının üzvləri tərəfindən çoxlu miqdarda insan sümükləri aşkar edilmişdi. Qafqaz-İslam ordusu 1918-ci ilin iyulunda Şamaxını ermənilərdən azad edərkən meyitlərin iri sümüklərini yığıb basdırmışdılar. Komissiya üzvləri 1918-ci ilin oktyabr və noyabrında bu barədə hazırladığı məruzədə qeyd edirdilər ki, həyətdə hələ də çürümüş meyitlərin qalıqları qalmaqdadır. 1918-ci ilin ilk aylarından Quba qəzasında müsəlman əhalisinə qarşı başlanan qırğınları faciə adlandırmaq vəhşiliklərin mahiyyətini tam açmır. Minlərlə insanın, dinc əhalinin, qadınların, uşaqların və qocaların əzab və işgəncə ilə qətlə yetirilməsi dəhşətli və ağlasığmaz qırğın idi. Quba faciəsi sırf siyasi məqsəd daşıyırdı. Qırğınlarda erməni daşnak qüvvələri ilə yanaşı, bolşevik əsgərləri də iştirak edirdi. Erməni cəlladları hakimiyyətsizlikdən məharətlə istifadə edərək, Qubada böyük bir qırğın həyata keçirdilər. Bu qırğınlarda əsas məqsəd Azərbaycanda müsəlman əhalisini məhv edərək Sovet rejimi qurmaq idi. Çünki Sovet rejiminə rəhbərlik edən Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi. Quba qəzasında qırğınlar əvvəlcədən düşünülmüş və buna geniş hazırlıq işləri görülmüşdü. Çünki qırğına başlamaq üçün bəhanə milli münaqişə ola bilərdi. Erməni daşnak qüvvələri dünyanın hər yerinə ermənilərin guya müsəlmanlar tərəfindən sıxışdırıldığı barədə teleqramlar göndərirdilər. Qubada yaşayan M.Kasparov, H.Hayrapetov, A.Mukanyans və A.Boqdanov tərəfindən göndərilmiş

teleqramda iddia olunurdu ki, Qubada müsəlmanlar milli ədavət, milli qırğın törədir, erməni və rus kəndlərini dağıdır, kilsələrə od vurub yandırırlar. Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişdilər. Qubaya hücum edənlər içərisində özünü bolşevik kimi qələmə verən və 2 min əsgərə başçılıq edən David Gelovanidən başqa, bolşevik Sturua da olmuşdur. Onun dəstəsində min əsgər var idi. Hamazaspın dəstəsi Qubanın girəcəyindən tutmuş yuxarı hissəsinədək şəhəri odlamağa başladı. Daşnaklar küçədə qarşılarına çıxan bütün adamları ucdantutma gülləyə tutur, yerə yıxılmış yaralıların bədənlərini tüfənglərin süngüləri ilə deşik-deşik edir, gözlərini ovurdular. Beləliklə, Qubada bir neçə saatın ərzində yüzlərlə insan qətlə yetirildi. Şahidlərin biri yazır: "Daşnakların son dərəcə azğınlaşdığını görəndə onlarla qeyri-bərabər döyüşə girməli olduq. Bir gün davam edən atışmada 200-dən çox döyüşçünü itirib, 40 nəfərlə Digah kəndinə tərəf geri çəkildik. Hamazasp bundan həm hirsləndi, həm də bir qədər ehtiyat etdi. Quba camaatını meydana yığıb bildirdi ki; " Mən minlərlə türkün başını kəsən Ərzurum ermənisiyəm, 200-dən çox türk kəndini yandırıb xaraba qoymuşam, uzun müddət türklərlə vuruşmuşam, erməni xalqının mənafeyini müdafiə etmişəm, buraya da ona görə gəlmişəm. Əgər müqavimət göstərsəniz, hamınızı bir nəfər kimi qıracağam". Hamazasp Bakıdan mənfur Şaumyan rejimindən belə bir tapşırıq almışdı: "Quba qəzasında bütün müsəlmanları qırıb məhv etmək, onların yaşayış məntəqələrini dağıtmaq, sonra isə bu qırğını sünni və şiə məzhəbləri arasında toqquşma kimi qələmə vermək". Qırğının canlı şahidlərindən biri yazır: "Ermənilər dindarları Qubanın mərkəzinə gətirdilər. Bu, döyülən insanlar qəzanın ən hörmətli ağsaqqalları sayılırdılar. Hamazasp hamının tanıdığı Quba ermənisi Harunu çağırdı. Harun azərbaycanca dedi ki, sünnilər və şiələr hərəsi bir tərəfə çəkilib üz-üzə dursunlar. Elə o cür də durdular. Aralarında 20-30 metr olardı. Sonra iki tüfəng gətirib dedilər ki, onsuz da sizin hamınızı qıracağıq. Kim sağ qalmaq istəyirsə, dediyimizə əməl etsin. Sünnilər və şiələr növbə ilə bir-birilərinə güllə atsın. Sağ qalanlarla işimiz olmayacaq. Birinci iki nəfəri irəli çıxarıb tüfəngləri onlara verdilər. Biri ləzgi Məhəmməd, o birisi isə şiələrin ağsaqqalı Məşədi Mirsadıq idi. Onların heç biri erməni silahını əlinə almaq istəmirdi. Qundaqla başlarını yarıb onları tüfəng götürməyə məcbur etdilər. İkisi də tüfənglərini qaldırıb bir-birlərini nişan aldı. Hamı məəttəl qalmışdı. Nisbətən cavan olan Məhəmməd heç kimin gözləmədiyi halda geri döndü və bir daşnakı yerə sərdi. Qarışıqlıqdan istifadə edən Məşədi Mirsadıq da bir ermənini öldürdü. Qaçmaq istəyən yüzlərlə adamı pulemyotlarla qırdılar. Ölənlərin çoxu qadınlar və uşaqlar idi. Əvvəlcə Məhəmmədin qollarını kəsdilər, sonra ayaqlarını. Başını kəsib süngüyə keçirdilər və hamı görsün deyə yuxarı qaldırdılar. Məşədi Mirsadığın gözlərini çıxarıb, qollarını sındırdılar və boynunu qırdılar. Həmin gün daşnaklar məscidi dağıdıb, həm sünnilərdən, həm də şiələrdən 20-dən çox din xadimini qətlə yetirdilər".

Müstəqil əcnəbi tədqiqatçılarından biri mart qırğınları haqqında yazırdı: *"Ermənilər müsəlman əhalini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub sakinlərqarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər".* Həmin günlər İranın Bakıdakı konsulu M.S.Marağayinin küçə və həyətlərdən cəsədlərin toplanması və dəfn edilməsi üçün yaratdığı xüsusi komissiya tərəfindən də fotoşəkillər çəkildi. Onların biri - qətlə yetirilmiş insanların cəsədi üzərində duran konsulun özünün təsvir edildiyi şəkil sonralar "Bakı şəhərində müsəlmanların kütləvi qırğını" adlı "poçt-kart" şəklində çap edilərək Bakı şəhərində müsəlmanlara qarşı törədilmiş cinayətlərin sübutu kimi İranda və digər ölkələrdə geniş yayılmışdır. Professor Musa Qasımlı yazır*: "Həmin dövrün statistik məlumatlarından aydın olur ki, bu zaman Bakıda 280-300 min nəfər əhali yaşayırdı. Onun 80-100 min nəfəri azərbaycanlı, digərləri isə çarizmin müstəmləkə siyasəti nəticəsində yerləşdirilənlər idi. Deməli, 80-100 min nəfər azərbaycanlı əhalinin dörddəbiri 20-25 min nəfər edir. Bu rəqəm bəzi amerikan mənbələrində yazılanlar ilə eyniyyət təşkil edir"* [5].

Nəticə. 1918-ci ildə mart soyqırımı hadisələri daima Azərbaycan tarixinin əsas araşdırma mövzularından olub. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı böyük amansızlıqla, qəddarlıqla həyata keçirdikləri soyqırımını araşdırmaq üçün Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən Fövqəladə Təhqiqat Komissiyası (FTK) yaradıldı. Komissiyanın tərkibində azərbaycanlılarla yanaşı, ruslar, yəhudilər və digər millətlərin nümayəndələri də var idi. Qruplara bölünən FTK üzvləri Azər-

baycanın bölgələrində 1918-ci ilin martından başlayan və bəzi bölgələrdə Qafqaz İslam Ordusunun gəlişinə - sentyabradək davam edən soyqırımının geniş təhqiqinə başladılar. Təhqiqat qrupuna daxil olan belarusəsilli fotoqraf, tədqiqatçı Lev Urbanoviç Daşkeviç azərbaycanlılara qarşı erməni-daşnak hərbi birləşmələrinin törətdiyi dəhşətli faciələri fotokamerasının yaddaşına köçürmüşdür. Qətliamın izləri tədqiqatçıları dəhşətə gətirirdi. FTK-nın işinə cəlb edilən fotoqraf Vladimir Sokolov divara kazak çivi ilə mismarlanmış ikiyaşlı uşağı və digər kiçik uşaqları çəkərkən bu vəhşiliyə dözməyərək, bundan sonra erməni cinayətlərinin izlərini çəkməkdən imtina etmişdi. Fövqəladə Təhqiqat Komissiyasının üzvlərinin topladıqları tədqiqat materialları və çəkdikləri fotolar, eləcə də xarici araşdırmaçıların yazılı materialları və fotolar 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı geniş miqyasda, planlı şəkildə soyqırımı törətdiklərini sübut edir. 1920-ci ilin aprelində Azərbaycanda bolşeviklər hakimiyyəti ələ aldılar. 70 il ərzində sovet hökuməti xalqımıza tarixini unudurmağa çalışdı. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları barədə faktlar geniş təqdiqat mövzularına çevrilmədi. Lakin tarix yenidən Azərbaycan xalqının üzünə güldü. XX əsrin sonlarında Azərbaycan yenidən müstəqilliyinə qovuşdu. Xalqımız dövlət müstəqilliyini bərpa etdikdən sonra uzun illər gizli saxlanılan, qadağa qoyulmuş arxiv materiallarının da üzərinə işıq düşdü. Tariximizi olduğu kimi öyrənmək və öyrətmək imkanı yarandı. Aparılan araşdırmalar nəticəsində 1918-ci ildə bolşevik-daşnak birləşmələrinin xalqımıza qarşı törətdikləri dəhşətli cinayətlər, soyqırımları barədə daha geniş məlumatlar ala bildik.

Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanı ilə 31 mart Soyqırım günü kimi qeyd edilməyə başlandı. Ümummilli lider Heydər Əliyevin bu siyasət bu gün də ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xalqımızın yaddaşında soyqırım qurbanlarının xatirəsini əbədləşdirmək məqsədi ilə Prezdident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" yaradılmışdır. 2013-cu ildə isə kompleksin açılışı həyata keçirildi.

ƏDƏBİYYAT

1. Abışov, V. Bakıda Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Bakı: Elm, 2017, 228 s.
2. Həsənov, C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1993, 364 s.
3. İsgəndərov, A. 1918-ci il Mart qırğınının tarixşünaslığı. Bakı: Mürtəcim, 1997, 184s.
4. İsgəndərov, A. 31 mart Azərbaycanlıların soyqırımı günüdür. Bakı: Elm və Təhsil, 2015, 232 s.
5. İsgəndərov, A. Azərbaycan həqiqətləri: 1917-1920. Bakı: Elm və Təhsil, 2012, 232s.

АЙТАН ГАСАНЛИ
Военный институт имени Гейдара Алиева

ГЕНОЦИД 31 МАРТА

В статье показан путь, приведший к мартовским событиям 1918 года, усиление влияния партии «Мусават» среди населения, её успехи и дальнейший рост духа свободы азербайджанского населения на фоне всего этого. С целью уничтожения духа свободы народа в марте 1918 года в Баку и других территориях был совершен масштабный геноцид против местного населения, и в статье представлена информация о масштабах и последствиях этого геноцида.

Ключевые слова: партия «Мусават», корабль «Эвелина», Степан Шаумян, Следственный комитет, мемориальный комплекс «Губа».

AYTAN HASANLİ
Military Institute named after Heydar Aliyev

THE MARCH 31 GENOCIDE

This article examines the developments that led to the March 1918 events, the growing influence and success of the Musavat Party among the population, and, against this backdrop, the streng-

thening of the Azerbaijani people's spirit of freedom. In an attempt to suppress this aspiration for independence, a large-scale genocide was carried out against the local population in Baku and other regions of Azerbaijan in March 1918. The article provides information on the scope and consequences of this genocide.

Keywords: Musavat Party, Evelina ship, Stepan Shaumyan, Investigation Commission, Quba Memorial Complex.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 iyul 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 94(479.24); UOT 32:93/94

NİHAD İBRAHİMOV
Naxçıvan Dövlət Universiteti
nihadibrahimov515@gmail.com

SUVERENLİKDƏN REGİONAL LİDERLİYƏ, POST-MÜHARİBƏ DÖVRÜNDƏ AZƏRBAYCANIN YÜKSƏLİŞİ

DOI: https://doi.org/10.36719/2708-065X/114/265-271

Məqalədə Azərbaycanın post-müharibə dövründə dövlət suverenliyinin tam bərpası və regional lider dövlət kimi yüksəlişi tarixi-siyasi aspektdən təhlil edilir. Tədqiqatda 2020-ci il Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərinin ölkənin siyasi mövqeyinə təsiri araşdırılır. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri, "Böyük Qayıdış" proqramı, nəqliyyat-kommunikasiya layihələri və Azərbaycanın regional təhlükəsizlik sistemində artan rolu elmi yanaşma ilə şərh olunur. Məqalədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kursun milli suverenliyin möhkəmləndirilməsi və beynəlxalq mövqenin gücləndirilməsinə təsiri qiymətləndirilmişdir. Aparılmış təhlillər göstərir ki, post-müharibə mərhələsində Azərbaycan yalnız ərazi bütövlüyünü təmin etməmiş, həm də Cənubi Qafqazda siyasi və iqtisadi proseslərə təsir edən aparıcı regional gücə çevrilmişdir. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, Azərbaycanın regional liderliyi hərbi qələbə ilə yanaşı, geosiyasi, iqtisadi və strateji üstünlüklər əsasında formalaşmışdır.

Açar sözlər: Azərbaycan, Post-müharibə dövrü, Dövlət suverenliyi, Regional liderlik, Qarabağ siyasəti.

Giriş. XXI əsrin ikinci onilliyinin sonlarından etibarən Azərbaycan Respublikasının siyasi və geostrateji mövqeyi Cənubi Qafqaz regionunda əhəmiyyətli dərəcədə güclənmişdir. Xüsusilə 2020-ci il 27 sentyabr tarixində başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi ölkənin müasir tarixində dönüş nöqtəsi olmuşdur. Müharibənin əsas səbəblərindən biri 1990-cı illərin əvvəllərində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın beynəlxalq hüquq normaları ilə tanınmış ərazilərinin işğal olunması və uzun illər ərzində aparılan danışıqlar prosesinin nəticəsiz qalması idi. 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanat nəticəsində Qarabağ regionunun böyük hissəsi, eləcə də Şuşa, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı rayonları işğaldan azad edilmişdir. Xüsusilə 2020-ci il 8 noyabr tarixində Şuşa şəhərinin azad olunması həm hərbi-strateji, həm də mənəvi-siyasi baxımdan müharibənin taleyini müəyyən edən mühüm hadisə hesab olunur.

Post-müharibə mərhələsində Azərbaycan rəhbərliyi azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma proqramlarına başlamışdır. İlham Əliyev tərəfindən 2021-ci ilin yanvar ayından etibarən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, beynəlxalq hava limanlarının tikintisi və nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm layihələr həyata keçirilmişdir. 2021-ci il 26 oktyabr tarixində Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilmiş, daha sonra Zəngilan Beynəlxalq Hava Limanı və Laçın Beynəlxalq Hava Limanı regionun iqtisadi inteqrasiyasını sürətləndirən mühüm strateji obyektlərə çevrilmişdir. Bununla yanaşı, Zəngəzur dəhlizi layihəsi Türk dünyasını birləşdirən mühüm geoiqtisadi təşəbbüs kimi beynəlxalq diqqət mərkəzinə çıxmışdır.

Əsas hissə. 2023-cü il 19–20 sentyabr tarixlərində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ bölgəsində həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkənin konstitusiya quruluşu tam şəkildə bərpa edilmişdir. Bu proses separatçı silahlı birləşmələrin ləğvi və dövlət suverenliyinin tam təmin olunması ilə nəticələnmişdir. 2023-cü il 15 oktyabr tarixində Prezident İlham Əliyevin Xankəndi şəhərində Azərbaycan bayrağını ucaltması ölkənin siyasi tarixində suverenliyin tam bərpasının rəmzi hadisəsi kimi qiymətləndirilmişdir.

Müasir mərhələdə Azərbaycan yalnız hərbi-siyasi qələbə qazanan dövlət kimi deyil, həm də regional enerji və nəqliyyat layihələrinin əsas iştirakçısı kimi çıxış edir. Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın genişlənməsi, Orta Dəhliz layihəsinin inkişafı və Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunun artması ölkənin beynəlxalq nüfuzunu daha da möhkəmləndirmişdir. Bu baxımdan post-müharibə dövrü Azərbaycanın regional lider dövlətə çevrilməsi prosesinin siyasi, iqtisadi və geostrateji əsaslarının formalaşdığı yeni tarixi mərhələ kimi xarakterizə olunur. Müharibə dövründə Cəbrayıl şəhəri (4 oktyabr 2020), Füzuli şəhəri (17 oktyabr 2020), Zəngilan şəhəri (20 oktyabr 2020), Qubadlı şəhəri (25 oktyabr 2020) və strateji əhəmiyyətə malik Şuşa şəhəri (8 noyabr 2020) işğaldan azad edildi. Xüsusilə Şuşa əməliyyatı müharibənin taleyini həll edən hərbi-siyasi hadisə kimi qiymətləndirilir. Şuşanın azad edilməsindən sonra Ermənistan kapitulyasiya xarakterli razılaşmanı qəbul etməyə məcbur oldu və 10 noyabr 2020-ci il tarixində Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri tərəfindən üçtərəfli Bəyanat imzalandı. Bu sənədə əsasən Ağdam rayonu 20 noyabrda, Kəlbəcər rayonu 25 noyabrda, Laçın rayonu isə 1 dekabr 2020-ci ildə Azərbaycana qaytarıldı. Beləliklə, təxminən otuz ilə yaxın işğal altında qalmış ərazilərin böyük hissəsi üzərində Azərbaycanın suveren hüquqları bərpa edildi və regionda yeni geosiyasi vəziyyət yarandı.

Müharibədən sonrakı mərhələdə Azərbaycan dövlətinin əsas prioritetlərindən biri işğaldan azad edilmiş ərazilərin bərpası və həmin ərazilərin ölkənin ümumi sosial-iqtisadi sisteminə inteqrasiyası olmuşdur. Bu məqsədlə 2021-ci il yanvarın 4-də Prezident İlham Əliyevin sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Eyni zamanda, azad edilmiş ərazilərin bərpası üçün dövlət büdcəsindən milyardlarla manat vəsait ayrıldı. 2021-ci il yanvarın 14-də Füzuli rayonunda beynəlxalq hava limanının təməli qoyuldu və cəmi səkkiz ay sonra, 26 oktyabr 2021-ci ildə hava limanı istifadəyə verildi. Bu, müharibədən sonra azad edilmiş ərazilərdə həyata keçirilən ilk iri infrastruktur layihələrindən biri idi. Sonrakı dövrdə 2022-ci ildə Zəngilan Beynəlxalq Hava Limanı, 2025-ci ildə isə Laçın Beynəlxalq Hava Limanı istifadəyə verildi ki, bu da regionun nəqliyyat əlçatanlığını əhəmiyyətli dərəcədə artırdı (5, s.46).

Post-müharibə dövrünün ən mühüm istiqamətlərindən biri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma və bərpa işlərinin həyata keçirilməsi olmuşdur. 2021-ci ildən etibarən Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının tikilməsi, yeni avtomobil yollarının, tunellərin, dəmir yolu xətlərinin və enerji infrastrukturunun yaradılması regionun iqtisadi inteqrasiyasına xidmət etmişdir. Xüsusilə "Böyük Qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi işğaldan azad edilmiş ərazilərin müasir texnologiyalar əsasında yenidən qurulmasının ilk nümunələrindən biri hesab edilir. Bu layihələr Azərbaycan dövlətinin iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, regionun davamlı inkişafına da zəmin yaratmışdır.

Azərbaycanın regional liderliyə yüksəlməsində nəqliyyat və logistika siyasəti xüsusi rol oynamışdır. Ölkə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşərək Avropa ilə Asiya arasında mühüm tranzit mərkəzinə çevrilmişdir. Bakı–Tbilisi–Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Orta Dəhliz marşrutu Azərbaycanın geoiqtisadi əhəmiyyətini daha da artırmışdır. Eyni zamanda, Zəngəzur dəhlizi layihəsi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa quru əlaqəsinin yaradılması baxımından strateji əhəmiyyət daşıyır. Bu layihənin reallaşması yalnız Azərbaycan üçün deyil, bütövlükdə Türk dünyası və Avrasiya məkanında iqtisadi inteqrasiyanın genişlənməsi üçün mühüm imkanlar yaradacaqdır. Post-müharibə mərhələsində Azərbaycanın enerji siyasəti də regional liderliyin əsas sütunlarından birinə çevrilmişdir. Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaş olan Azərbaycan təbii qaz ixracını artırmaqla yanaşı, bərpa olunan enerji mənbələrinin inkişafına da xüsusi diqqət yetirmişdir. Xəzər dənizinin külək enerjisi potensialından istifadə olunması, Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi, xarici investorlarla imzalanan iri enerji layihələri ölkənin enerji diplomatiyasını yeni mərhələyə çıxarmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sistemində mövqeyini daha da möhkəmləndirmişdir.

Azərbaycanın regional liderliyə yüksəlişində diplomatik fəaliyyət də mühüm yer tutur. Ölkə son illərdə həm Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın dərinləşdirilməsində, həm də Qoşulmama Hərəkatına uğurlu sədrliyində fəal rol oynamışdır. Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatı daxilində siyasi, iqtisadi və nəqliyyat əməkdaşlığının genişləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Eyni zamanda, ölkə Avropa İttifaqı, Mərkəzi Asiya dövlətləri, Türkiyə və digər tərəfdaşlarla münasibətlərini daha da inkişaf etdirərək çoxtərəfli xarici siyasət kursunu uğurla davam etdirmişdir. 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri Azərbaycanın post-müharibə dövründə əldə etdiyi ən mühüm siyasi-hərbi nailiyyətlərdən biri olmuşdur. 19–20 sentyabr tarixlərində keçirilən əməliyyat nəticəsində qanunsuz silahlı birləşmələr zərərsizləşdirilmiş, separatçı qurum fəaliyyətini dayandırmış və Azərbaycan öz konstitusiya quruluşunu bütün ərazisində bərpa etmişdir. Təxminən 24 saat davam edən əməliyyat nəticəsində dövlət suverenliyi tam şəkildə təmin olunmuş, Qarabağda separatizmə son qoyulmuşdur. Bu hadisə Azərbaycanın müstəqillik tarixində dövlət hakimiyyətinin bütün beynəlxalq səviyyədə tanınmış ərazilərində tam bərpa olunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Post-müharibə dövründə həyata keçirilən hərbi-siyasi, iqtisadi və diplomatik tədbirlər Azərbaycanın regional güc statusunu əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir. Dövlət suverenliyinin tam bərpası, genişmiqyaslı yenidənqurma layihələri, beynəlxalq nəqliyyat və enerji təşəbbüsləri, eləcə də fəal xarici siyasət kursu Azərbaycanın Cənubi Qafqazın aparıcı dövləti kimi mövqeyini daha da gücləndirmişdir. Bu amillər ölkənin suverenlikdən regional liderliyə keçid prosesinin əsas göstəriciləri kimi qiymətləndirilə bilər (4, s.17).

Azərbaycanın post-müharibə siyasətinin mühüm istiqamətlərindən biri keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının təmin edilməsi olmuşdur. Bu məqsədlə "Böyük Qayıdış" Dövlət Proqramı qəbul edildi. 2022-ci il iyulun 19-da Zəngilan rayonunun Ağalı kəndinə ilk sakinlərin köçürülməsi başlandı və bununla da işğaldan azad edilmiş ərazilərə qayıdış prosesinin praktik mərhələsinə start verildi. Sonrakı illərdə Laçın şəhərinə, Talış kəndinə, Zabux kəndinə, Füzuli, Şuşa və digər yaşayış məntəqələrinə mərhələli şəkildə əhalinin köçürülməsi həyata keçirildi. Bu proses yalnız sosial məsələ deyil, həm də Azərbaycanın həmin ərazilər üzərində real idarəetmə və suverenlik imkanlarının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi.

2023-cü il sentyabrın 19–20-də Azərbaycan Silahlı Qüvvələri Qarabağ bölgəsində lokal xarakterli antiterror tədbirləri həyata keçirdi. Təxminən 24 saat davam edən əməliyyat nəticəsində qanunsuz erməni silahlı birləşmələri tərksilah edildi, separatçı strukturlar fəaliyyətini dayandırdı və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bütün ölkə ərazisində bərpası təmin edildi. 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırdı. Bu hadisə Azərbaycanın dövlət müstəqilliyi tarixində ərazi bütövlüyünün və suverenliyinin tam bərpasının rəmzi kimi qiymətləndirilir. Həmin dövrdən etibarən Qarabağ bölgəsində dövlət idarəetmə strukturlarının formalaşdırılması, infrastrukturun yenidən qurulması və iqtisadi fəaliyyətin bərpası istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməyə başlanmışdır. 2020–2023-cü illər ərzində baş vermiş hərbi, siyasi və iqtisadi proseslər Azərbaycanın yalnız ərazi bütövlüyünü bərpa etməsi ilə məhdudlaşmamış, eyni zamanda onun Cənubi Qafqazın aparıcı siyasi və geosiyasi güc mərkəzlərindən birinə çevrilməsi üçün əlverişli şərait yaratmışdır. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa layihələri, dövlət suverenliyinin tam təmin olunması və regionda yeni əməkdaşlıq formatlarının təşviqi Azərbaycanın post-müharibə dövründə regional liderlik mövqeyinin möhkəmlənməsinə mühüm töhfə vermişdir.

Post-müharibə dövründə Azərbaycanın regional mövqeyinin güclənməsi yalnız hərbi-siyasi qələbələrlə məhdudlaşmayaraq, eyni zamanda institusional idarəetmənin yenidən qurulması və dövlət idarəçiliyində yeni modelin formalaşması ilə müşayiət olundu. 2021-ci ildən etibarən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Prezidentin xüsusi nümayəndəlik institutu yaradıldı ki, bu da mərkəzləşdirilmiş idarəetmə ilə operativ regional inkişafın əlaqələndirilməsinə xidmət etdi. Eyni zamanda, azad edilmiş ərazilərdə dövlət xidmətlərinin elektronlaşdırılması, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi Azərbaycanı postsovet məkanında innovativ idarəetmə modelinə yaxınlaşdırdı (7, s.25).

Bununla yanaşı, 2022–2024-cü illərdə aparılan mina təmizləmə əməliyyatları post-müharibə bərpa prosesinin ən mühüm və strateji komponentlərindən biri olmuşdur. Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatlarına görə, müharibədən sonra azad edilmiş ərazilərdə yüz minlərlə mina və partlamamış hərbi sursat aşkar edilmişdir. Bu problem yalnız humanitar təhlükə yaratmır, həm də iqtisadi reinteqrasiyanın sürətini müəyyən edən əsas amillərdən biri kimi çıxış edir.

Cədvəl 1.

Enerji siyasətinin Azərbaycanın suverenlikdən regional liderliyə yüksəlişinə təsiri

Enerji amili	*Fakt və göstəricilər*	*Azərbaycanın əldə etdiyi üstünlük*	*Regional liderliyə təsiri*
Neft və qaz ehtiyatları	2023-cü ildə 48,7 mlrd. m^3 təbii qaz, 30,2 mln. ton neft hasilatı	Dövlət büdcəsinin və ixrac gəlirlərinin əsas mənbəyinin formalaşması	İqtisadi müstəqilliyin və siyasi qərarvermə imkanlarının güclənməsi
Cənubi Qaz Dəhlizi (SGC)	TANAP, TAP və Cənubi Qafqaz Boru Kəmərinin fəaliyyəti	Azərbaycan qazının Avropa bazarlarına birbaşa çıxışı	Avropanın enerji təhlükəsizliyində strateji tərəfdaş statusunun qazanılması
Avropa İttifaqı ilə enerji əməkdaşlığı	2022-ci ildən sonra qaz ixracının artırılması üzrə yeni sazişlər	Xarici siyasətdə etibarlı tərəfdaş imicinin möhkəmlənməsi	Azərbaycanın geosiyasi əhəmiyyətinin artması
Yaşıl enerji strategiyası	Qarabağ və Şərqi Zəngəzurun "Yaşıl Enerji Zonası" elan edilməsi	Enerji sektorunun şaxələndirilməsi	Regional enerji transformasiyasında lider dövlət kimi çıxış etməsi
COP29-a ev sahibliyi	2024-cü ildə qlobal iqlim gündəliyində aktiv iştirak	Beynəlxalq nüfuzun yüksəlməsi	Enerji istehsalçısından qlobal enerji siyasətində təsirli aktora çevrilməsi
Xəzər Yaşıl Enerji Dəhlizi	Azərbaycan–Qazaxıstan–Özbəkistan enerji inteqrasiyası təşəbbüsü	Elektrik enerjisi ixrac potensialının artırılması	Türk dünyası və Mərkəzi Asiya ilə enerji inteqrasiyasının dərinləşməsi
Qeyri-neft sektorunun inkişafı	2024-cü ildə qeyri-neft ÜDM-nin 6,8% artımı	İqtisadi dayanıqlığın güclənməsi	Regional iqtisadi mərkəzə çevrilmə prosesinin sürətlənməsi

Mənbə: Azərbaycan Respublikası Energetika Nazirliyinin rəsmi statistik hesabatları, SOCAR illik hesabatları, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları və müəllifin analitik ümumiləşdirmələri əsasında hazırlanmışdır.

Cədvəl 1-də Azərbaycanın enerji siyasətinin yalnız iqtisadi resursların idarə olunması deyil, eyni zamanda ölkənin suverenlikdən regional liderliyə keçid prosesində əsas geosiyasi alət olduğunu sistemli şəkildə nümayiş etdirir. Tarixi kontekstdə 2020-ci il Vətən müharibəsindən sonra formalaşan yeni regional reallıqlar Azərbaycanın enerji resurslarını xarici siyasətin strateji dayağına çevirmiş, xüsusilə Cənubi Qaz Dəhlizinin (TANAP–TAP) fəaliyyəti Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunu artırmışdır. 2022-ci ildən sonra Rusiya–Ukrayna müharibəsi fonunda Avropa İttifaqının alternativ enerji mənbələrinə ehtiyacının artması Azərbaycanın siyasi və iqtisadi əhəmiyyətini daha da yüksəltmişdir. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi və COP29-a ev sahibliyi ölkənin enerji siyasətində karbohidrogen asılılığından çıxaraq qlobal iqlim gündəliyinə inteqrasiya olunduğunu göstərir. Xəzər Yaşıl Enerji Dəhlizi kimi regional təşəbbüslər isə Azərbaycanın təkcə enerji ixracatçısı deyil, həm də Avrasiya məkanında enerji inteqrasiyasını formalaşdıran aktor olduğunu sübut edir. Qeyri-neft sektorunun inkişafı isə

iqtisadi şaxələnməni təmin edərək ölkənin dayanıqlı inkişaf modelinə keçidini gücləndirir. Cədvəl göstərir ki, enerji amilləri Azərbaycanın siyasi müstəqilliyini möhkəmləndirməklə yanaşı, onun regional güc mərkəzinə çevrilməsində əsas determinantlardan biri olmuşdur.

Enerji və nəqliyyat layihələrinin sintezi Azərbaycanın regional liderlik modelinin əsas sütunlarından birini təşkil etmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun genişləndirilməsi, Orta Dəhlizin inkişafı və Zəngəzur dəhlizi perspektivi ölkəni Şərq-Qərb və Şimal-Cənub nəqliyyat axınlarının əsas tranzit mərkəzinə çevirmişdir (2, s.33). Bu proses Azərbaycanı təkcə enerji ixracatçısı deyil, həm də beynəlxalq logistika və ticarət sistemində strateji hub statusuna yaxınlaşdırmışdır. 2024-cü ildə Azərbaycanın COP29-a ev sahibliyi etməsi ölkənin beynəlxalq reputasiyasını daha da gücləndirmişdir. Bu hadisə Azərbaycanın həm karbohidrogen resurslarına əsaslanan iqtisadi modeldən, həm də qlobal iqlim gündəliyində aktiv iştirak edən dövlət modelinə keçidini nümayiş etdirmişdir. Xüsusilə bərpa olunan enerji sahəsində imzalanan beynəlxalq sazişlər və Xəzər dənizində külək enerjisi potensialının birgə inkişafı layihələri Azərbaycanın enerji diplomatiyasını yeni mərhələyə çıxarmışdır. 2020–2025-ci illəri əhatə edən dövr Azərbaycanın dövlətçilik tarixində təkcə ərazi bütövlüyünün bərpası ilə deyil, həm də **regional güc mərkəzinə transformasiya prosesi** ilə xarakterizə olunur. Bu mərhələdə Azərbaycan artıq yalnız Cənubi Qafqazda sabitlik yaradan dövlət deyil, eyni zamanda regionun iqtisadi, enerji və nəqliyyat arxitekturasını formalaşdıran əsas aktorlardan biri kimi çıxış edir.

Nəticə. Suverenlikdən regional liderliyə, post-müharibə dövründə Azərbaycanın yüksəlişi mövzusunun araşdırılması göstərir ki, 2020-ci il Vətən müharibəsi və onun nəticələri Azərbaycanın müasir dövlətçilik tarixində yalnız ərazi bütövlüyünün bərpası ilə yekunlaşmayan, eyni zamanda ölkənin regional və qlobal sistemdə rolunun keyfiyyətcə dəyişdiyi strateji dönüş nöqtəsi olmuşdur. 44 günlük müharibə nəticəsində əldə edilən hərbi-siyasi qələbə və 10 noyabr 2020-ci il üçtərəfli Bəyanat regionda yeni geosiyasi reallıqlar formalaşdıraraq Azərbaycanın Cənubi Qafqazda əsas güc mərkəzlərindən birinə çevrilməsi üçün hüquqi və siyasi zəmin yaratmışdır. Bu mərhələ göstərdi ki, dövlət suverenliyi təkcə hüquqi anlayış deyil, həm də real siyasi, hərbi və iqtisadi imkanların sintezidir. Post-müharibə dövründə həyata keçirilən siyasət Azərbaycanın dövlət idarəetmə modelində də ciddi transformasiyalara səbəb olmuşdur. İşğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəlik institutunun yaradılması, "Böyük Qayıdış" Dövlət Proqramının qəbul edilməsi və "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi ölkənin post-konflikt inkişaf modelini formalaşdırmışdır. Bu yanaşma Azərbaycanı yalnız bərpa prosesini həyata keçirən dövlət kimi deyil, eyni zamanda innovativ idarəetmə və planlı regional inkişaf modeli formalaşdıran faktor kimi xarakterizə etməyə imkan verir. Eyni zamanda mina təmizlənməsi və infrastrukturun yenidən qurulması prosesləri regionun sosial-iqtisadi reinteqrasiyasının əsas şərtlərini müəyyən etmişdir. Tədqiqatın nəticələri onu da göstərir ki, Azərbaycanın regional liderliyə yüksəlişində enerji siyasəti həlledici rol oynamışdır. Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması, TANAP və TAP layihələri vasitəsilə Avropa bazarına birbaşa çıxış əldə edilməsi ölkənin beynəlxalq enerji sistemində strateji mövqeyini gücləndirmişdir. Xüsusilə 2022-ci ildən sonra Avropanın enerji təhlükəsizliyi ilə bağlı yaranan böhran şəraitində Azərbaycanın alternativ təchizatçı kimi əhəmiyyəti daha da artmışdır. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi və COP29-a ev sahibliyi ölkənin enerji siyasətində təkcə karbohidrogen resurslarına deyil, həm də bərpa olunan enerji strategiyasına əsaslanan yeni inkişaf mərhələsinə keçdiyini təsdiqləyir. Nəqliyyat və logistika sahəsində həyata keçirilən layihələr də Azərbaycanın regional liderlik mövqeyini möhkəmləndirən əsas amillərdən biri olmuşdur. Bakı-Tbilisi-Qars dəmir yolu, Orta Dəhliz və Zəngəzur dəhlizi perspektivi ölkəni Avropa ilə Asiya arasında strateji tranzit mərkəzinə çevirmişdir. Bu isə Azərbaycanın təkcə enerji ixracatçısı deyil, həm də beynəlxalq ticarət və logistika sistemində mühüm keçid ölkəsi kimi çıxış etdiyini göstərir. Aparılmış araşdırmalar belə bir qənaətə gəlməyə əsas verir ki, Azərbaycan 2020-ci ildən etibarən keçdiyi inkişaf yolu nəticəsində klassik post-münaqişə dövlət modelindən çıxaraq regional liderlik funksiyalarını icra edən aktora çevrilmişdir. Bu transformasiya hərbi qələbə ilə başlayan, iqtisadi modernləşmə, diplomatik fəallıq və enerji siyasəti ilə davam edən kompleks bir prosesdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "*Rəsmi statistik göstəricilər"*, Bakı, 2024, 356 s.
2. Azərbaycan Respublikası Energetika Nazirliyi, "*Enerji balansı və hasilat hesabatları", Bakı, 2023-2024*,124 s.
3. Cornell S.E., "*The International Politics of the South Caucasus*", New York: Columbia University Press, 2017, 512 p.
4. De Waal T., "*Black Garden: Armenia and Azerbaijan Through Peace and War*", New York: New York University Press, 2013, 360 p.
5. Əliyev İ., "*Azərbaycanın xarici siyasəti, post-müharibə dövrünün çağırışları*", Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 2021, 248 s.
6. Həsənov Ə., "*Cənubi Qafqazda geosiyasi proseslər və Azərbaycan*", Bakı: Qafqaz Universiteti Nəşriyyatı, 2022, 312 s.
7. Hüseynov F., "*Azərbaycan Respublikasının enerji strategiyası"*. Bakı: Elm nəşriyyatı, 2020, 276 s.
8. Məmmədov R., "*Post-müharibə dövründə Qarabağın bərpası və regional inkişaf"*, Bakı: Bakı Dövlət Universiteti Nəşriyyatı, 2023, 221 s.
9. SOCAR. "*Annual Report*", Baku: State Oil Company of Azerbaijan Republic, 2024, 198 p.

НИХАД ИБРАГИМОВ
Нахчыванский государственный университет

ОТ СУВЕРЕНИТЕТА К РЕГИОНАЛЬНОМУ ЛИДЕРСТВУ: ВОЗВЫШЕНИЕ АЗЕРБАЙДЖАНА В ПОСТКОНФЛИКТНЫЙ ПЕРИОДА

В статье в историке-политическом аспекте анализируется полное восстановление государственного суверенитета Азербайджана и его возвышение как государства регионального лидера в постконфликтный период. В исследовании рассматривается влияние Отечественной войны 2020–года и локальных антитеррористических мероприятий, проведенных в сентябре 2023-го года, на политическую позицию страны. С научной точки зрения описываются восстановительно–строительные работы, провидимые в Карабахе и Восточном Зангезуре, программа «Великое возвращение», транспортно-коммуникационные проекты и возрастающая роль Азербайджана в системе региональной безопасности. В статье оценивается влияние политического курса, проводимого под руководством Президента Ильхама Алиева, на укрепление национального суверенитета и усиление Международных позиций. Проведенный анализ показывает, что на постконфликтном этапе Азербайджан не только обеспечил свою территориальную целостность, но и превратился в ведущую региональную силу, влияющую на политические и экономические процессы на Южном Кавказе. Основной вывод исследования заключается в том, что региональное лидерство Азербайджана сформировалась на основе не только военной победы, но и геополитических, экономических и стратегических преимуществ.

Ключевые слова: Азербайджан, Постконфликтный период, Государственный суверенитет, Региональное лидерство, Карабахская политика.

NIHAD IBRAHIMOV
Nakhchivan State University

FROM SOVEREIGNTY TO REGIONAL LEADERSHIP, THE RISE OF AZERBAIJAN IN THE POST-WAR PERIOD

The article analyzes the full restoration of Azerbaijan's state sovereignty in the post-war period and its rise as a regional leader from a historical and political perspective. The study examines

the impact of the 2020 Patriotic War and the local anti-terrorist measures implemented in September 2023 on the country's political position. The reconstruction work carried out in Karabakh and East Zangezur, the "Great Return" program, transport and communication projects, and the growing role of Azerbaijan in the regional security system are interpreted with a scientific approach. The article evaluates the impact of the political course implemented under the leadership of President Ilham Aliyev on strengthening national sovereignty and strengthening its international position. The conducted analyses show that in the post-war period, Azerbaijan not only ensured its territorial integrity, but also became a leading regional power influencing political and economic processes in the South Caucasus. The main conclusion of the study is that Azerbaijan's regional leadership was formed on the basis of geopolitical, economic and strategic advantages, in addition to military victory.

Keywords: Azerbaijan, Post-war period, State sovereignty, Regional leadership, Karabakh policy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 iyun 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Musa Rəhimoğlu-Quliyev, t.e.d. İbrahim Zeynalov.

UOT 902

İRADƏ AVŞAROVA
t.ü.f.d.,
Bakı Dövlət Universitetinin dosenti
iradaavshar@icloud.com

"KƏLLƏ KULTU" İLƏ BAĞLI İNANCLAR AZƏRBAYCANIN TUNC DÖVRÜ DƏFN ADƏTLƏRİNDƏ

DOI: https://doi.org/10.36719/2708-065X/114/272-276

Dünyanın bir çox yerlərində aparılan arxeoloji tədqiqatlardan məlum olur ki, qədim cəmiyyətlərdə ruh anlayışı fəlsəfi fikrin əsas problemlərindəndir biri olmuşdur. Məlumdur ki, bəşər tarixi boyu, axirət dünyası ilə bağlı animizm, dualizm kimi müxtəlif inanc və təsəvvürlər mövcud olmuşdur. Arxeoloji tədqiqatlar ruhun ölməzliyini özündə yaşadan təsəvvürlərin Azərbaycan tayfaları arasında da geniş yayıldığını göstərir. "Ölülər və kəllə kultu" anlayışına gəldikdə isə, həmin kult Şərqdə, o cümlədən Mesopotamiya, Şərqi Anadolu, Misir, Altay, Çin, Azərbaycan və s. ölkələrdə yaşamış tayfaların dini dünyagörüşlərində geniş yayılmışdır.

Açar sözlər: arxeologiya, kurqan, qəbir, araba, kəllə.

Giriş. Belə ki, dünyanın müxtəlif dövrlərə aid abidələrində aparılan arxeoloji tədqiqatlardan məlum olmuşdur ki, qədim tayfaların dini dünyagörüşlərində insanın ölümündən sonra yaşaması, onun ruhuna inam və nə vaxtsa yenidən dünyaya gəlməsi ilə bağlı təsəvvürlər mövcuddur. Həmin təsəvvürlərdən biri də "kəllə kutu" ilə bağlanılır.

Azərbaycanda aparılan arxeoloji tədqiqatlar tunc dövrü abidələrində axirət dünyası ilə bağlı təsəvvürlərnin daha geniş vüsət aldığını göstərir. Ərazidə "kəllə kultu" ilə bağlı təsəvvürlərə həm yaşayış yerlərində, həm də qəbir abidələrində rast gəlinir. Əldə olunan kəllələr ehtimal ki, dövrün kosmik aləmlə, tanrılara sitayişlə və məhsuldarlıqla bağlı keçirilən rituallarında ayinlərinin yerinə yetirilməsi zamanı bir atribut kimi istifadə olunmuşdur.

Belə ki, Göbəklitəpə, Tel es-Sultanın Jericho, İordaniyanın Ain Ghazal, Suriyanın Tell Ramad və s. neolit dövrü yaşayış məskənlərində arxeoloji tədqiqatlar zamanı gipslə örtülmüş insan kəllələrinə rast gəlinmişdir. Kəllələr əsasən neolit dövrü evlərinin altında qeydə alınmışdır. Məsələn, Göbəklitəpə abidəsindən 3 insana aid kəllə tapılmışdır. Kəllələrdən birini üzəri düz xətlərlə çızılmış, digər kəllələrdə isə deşiklər açılmişdir, bu da şübhəsiz ki, onların asılması üçün nəzərdə tutulmuşdur [1]. Heç şübhəsiz ki, ölüm sonrası kəllələrin üzərinin gipslə örtülməsi, onların maskaların çıxarılması, dövrün dini-ideoloji baxışları ilə bir başa bağlı olub, qəbilə və tayfada yüksək statusa sahib insanlar üçün nəzərdə tutulmuş "Kəllə kutu"ilə bağlı bir törənddir. Təbii ki, bu cür maskalanmış kəllələr insanın üz gizgilərini özündə yaşadaraq məqsədi daşımaqla yanaşı, dəqiq vizual rol oynayır və ölən insanın simasını unutmamaq, yaşatmaq-əbədiləşdirmək məqsədi daşıyır və həmin kəllələr ölüm sonrası xüsusi rituallarda istifadə olunmaq üçün nəzərdə tutulurdu.

Q.S.İsmayılzadə tədqiqatlarında bu məsələ ilə bağlı öz fikirlərini bildirmişdir; Ona görə, ictimai münasibətlərin inkişaf etdiyi şəraitdə vaxtı ilə nəsli qəbilə və tayfa icmalarının əsasını qoymuş ulu babalara və onların ruhlarına xüsusi etiqad yaranır, bununla bağlı müəyyən mərasimlər keçirilməyə başlanılır [2, s.34-35].

Azərbaycan və onun tarixi ərazilərində insan kəllələrinə daha çox qəbir abidələrində rast gəlinir. Belə ki, ölümlə bağlı təsəvvürlər həmin dövrlərdə yaşamış insanların həyatlarının tərkib hissəsi olmuş və onlar ruhun ölməzliyinə inanmışlar. Ərazi üçün xarakterik olan və eyni səciyyəvi xüsusiyyətləri özündə daşıyan qəbir tipləri (kurqan, daş qutu, torpaq qəbirlər), qəbirlərdə təsadüf olunan antropoloji qalıqlar və avadanlıqlar həmin dövrdə yaşamış insanların etnik mənsubiyyətini, ictimai, iqtisadi, dini, mədəni həyatını öyrənmək baxımından da dəyərli mənbələr sayılır.

Məlumdur ki, Azərbaycan və onun tarixi əraziləri kurqan, torpaq və daş qutu qəbir abidələri ilə çox zəngindir.Belə ki, kurqan, torpaq və daş qutu qəbirlərdə izlənilən dəfn mərasimlərində ayinlərin

keçirildiyini sübut edən ritual xarakterli maddi mədəniyyət nümunələri ilə yanaşı insan kəllələrinə də təsadüf olunur. Kəllələrin qəbirlərə qoyulması ehtimal ki, həm də magiya ilə bağlı olmuş, yaşayan və dünyasını dəyişmiş insanlar arasında əlaqə yaratmaq məqsədi daşımışdır.

Tunc dövründə ölümlərindən sonra tayfada nüfuz sahibi olan insanların, xüsusi ilə tayfa başçılarının və sərkərdələrin kurqanları zənginliyi ilə seçilir. Dövrün dəfn adətlərinə uyğun olaraq, kurqanlarda dünyasını dəyişmiş insanla yanaşı, ona aid olan əşyalar, yemək dolu qablar qoyulur, kurqanlar tayfa başçılarına aid olduqda isə dəfn adəti daha dəbdəbəli keçirilir və tayfa başçısı araba və ya taxt çarpayı üzərində arxası üstə uzadılırdı. Axirət dünyasında onu qorumaq, qulluq etmək üçün, mərhumla birgə ona aid qadınlar, hərbçilər, nökərlər və qullar dəfn olunurdu. Bəzi kurqanların dəfn kamerasında rast gəlinən insana aid kəllələr və ya parçalanmış bədən hissələri tanrılara və tayfabaşçısına qurban gətirilmiş qullara aid oluna bilər. Digər dəfn olunan insalar isə arxası üstə uzadılmış tayfa başçısından fərqli olaraq, bükülü və otuzdurulmuş insan qalıqlarından ibarətdir. Qəbir abidələrində bəzən müxtəlif heyvanların parçalanaraq qəbirlərə qoyulması, qurban gətirilməsi adətinə də rast gəlinir [3, s. 96; 4]. Belə ki, 1952-ci ildə Ermənistan SSR Elmlər Akademiyasının Tarix Muzeyinin Arxeoloji ekspedisiyası tərəfindən Göyçə gölünün qurumuş sahilində e.ə. X-VIII əsrlərə aid on dörd qəbir açılmışdı. 3 saylı daş qutu qəbirdə 3 skeletin olduğu müəyyən edilmişdi. Qəbirin mərkəz hissəsində sağ və sol böyrü üstə, üz-üzə basdırılmış iki skelet və bu cütlüyün ayaqlarının altında otuzdurulmuş vəziyyətdə üçüncü skeletə təsadüf olunmuşdu. Bundan başqa qəbirdə insanlara aid dörd kəllə və digər sümüklərə rast gəlinmişdir.

1956-cı ildə Göyçə gölü sahilində, Ördəkli kəndindən 400 m. şərqdə kurqan və kromlexlərdən ibarət qədim nekropol qeydə almışdı. Gölün cənub sahilində II minilliyin sonlarına aid olunan daş örtüklü 1 və 2 saylı kurqanlar öz zənginliyi ilə seçilir. 1 saylı kurqanın dəfn kamerasının quyusu bir üzü hamarlanmış böyük sal daşlarla işlənmiş, üzərinə ağac tirlər qoyulmuş sərdabə qeydə alınmışdır. Kameranın 2 m. dərinliyində taxtadan hazırlanmış, başı yuxarı dayanmış, böyük, dördçarxlı arabanın üzərində insan skeleti aşkar edilmişdir. Qəbrin orta hissəsində, arabanın altında iki öküz və insan kəlləsinə rast gəlinmişdir [5, s. 66-70; 6, s.146-151].

Göyçə gölünün cənub sahilində tədqiq olunmuş 2 saylı kurqan 1 saylı kurqanla analoji cəhətdən çox yaxındır. Fərqli cəhət ondadır ki, 2 saylı kurqanın qəbir kamerası daş arakəsmə ilə iki hissəyə bölünmüşdür. Şərq tərəfdə olan nisbətən kiçik kamera iki təkərli araba üçün nəzərdə tutulmuşdur. Kamerada həmçinin kiçik arabaya da rast gəlinmişdir. Qərib tərəfdəki kamerada daha iki araba qeydə alınmışdır. Onlardan biri dördtəkərli, digəri isə ikitəkərlidir. Kameranın müxtəlif yerlərində 12 insan dəfninə rast gəlinmişdir (onlardan biri uşaqdır). Şərq tərəfdə olan nisbətən kiçik kamerada araba üzərində üç insan - kişi, qadın və uşaq uzadılmış vəziyyətdə dəfn olunmuşdur. Onların sümükləri üzərində geyimlərinin qalıqları qalmışdır. Qərb tərəfdəki bölmədə olan dördtəkərli arabanın altında və içində hər birində iki insan kəlləsi olmaqla, 4 insan kəlləsi tapılmışdır. Beş kəllə isə kameranın müxtəlif yerlərində qeydə alınmışdı. Dörd təkərli arabanın milinin altına iki öküz və at kəlləsinə təsadüf olunmuşdur [7, s.151].

Azərbaycanda tayfa başçılarına aid olunan kurqanlar və həmin kurqanlarda təsadüf olunan insan kəlləsi bir daha tayfa başçılarının gücünü göstərmək məqsədi daşımışdır. Hər iki kurqan e.ə. II minilliyin sonlarında ərazidə yaşamış əkinçi-maldar tayfalara aid olunur [6, s.153].

Göründüyü kimi, son tunc dövründə kurqanlarda kəllələrin qəbirlərə qoyulması adəti geniş yayılmışdır. Bu adət dövrün dini-ideoloji dünyagörüşlərini, həm də həmin dövrdə baş vermiş ictimai-siyasi hadisələri özündə yaşadır.

Sakral xüsusiyyətlər daşıyan kurqanlar arasında Göygöl kurqanları da mühüm əhəmiyyət kəsb edir. Göy-göl rayonundan cənub qərbə doğru, Gəncəçay sahilində tədqiq olunmuş 3 saylı kurqanda insanlara aid skeletlərə, kəllə və çənə sümüklərinə təsadüf olunmuşdur. Skelet bükülü vəziyyətdə sağ böyrü üstə əlləri qabağa doğru uzadılmış vəziyyətdə qəbir çalasının dərinliyində qeydə alınmışdır. İnsana aid çənə sümüyü isə qabın içərisində, sıxılmış vəziyyətdə skeletin bud sümüyünün yanında qoyulmuşdur. Qəbirə ayrıca qoyulmuş kəllə sümüyünün üzərində çoxsaylı çapıqlara təsadüf olunmuşdur. İkinci insan isə otuzdurulmuş, ayaqları bükülü vəziyyətdə dəfn olunmuşdur. Onun qarşısındakı qaba isə, ona aid alt çənə sümüyü yerləşdirilmişdir. Burada həmçinin bütöv qoyun skeletinə və

öküz sümüklərinə rast gəlinmişdir [8, s.14]. Göründüyü kimi, kurqandakı dəfn adətində ritual ayin yerinə yetirilmişdir.

E.A. Resler tərəfindən Göygöl rayonunda tədqiq olunmuş kurqanlardakı dəfn adətləri Gəncə kurqanlarında tədqiq olunmuş dəfn adətləri ilə çox yaxındır. Onun tədqiq etdiyi № 3 saylı kurqan aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur: üzəri taxta örtüklü, quyu tipli torpaq qəbirlər. Bu qəbirlərdə od ayini ilə bağlı ritualların yerinə yetirilməsi, ölü yandırma və Dovşanlı 12 saylı kurqanında olduğu kimi başsız insanın dəfni mövcuddur. 4 saylı kurqandan isə sarı rəngə boyanmış insan kəlləsi (şübhəsiz ki, bu kurqanlarda da ritual ayin yerinə yetirilmişdir) [8, s.32]. V.B. Baxşəliyev yazır: *"I Kültəpə qəbirlərindən birində kəllənin ayrıca qoyulması adəti ilə rastlanmışdır. O, kəllənin ayrıca qoyulması əcdada sitayişin formalarından biri hesab edir və qeyd edir ki, Ön Asiya abidələrində aparılan araşdırmalarla müəyyən edilmişdir ki, dəfn zamanı qəbilə rəhbərlərinin başı gövdədən ayrılaraq boyanmış və evlərdə düzəldilmiş xüsusi səkilərin üzərində saxlanmışdır. Bəzi tədqiqatçılar kəllənin ayrıca dəfn edilməsini, yaxud evdə saxlanmasını kəlləyə sitayişlə əlaqələndirmişlər"* [9, s.46]. Reslerin tədqiq etdiyi 4 saylı kurqan ərazidə yaşamış tayfaların dini-ideoloji baxışlarının göstəricisidir. Kəllənin (qırmızı) rənglə boyanması adəti Türkiyənin cənub-şərqində, Şanlıurfadan 8 km məsafədə yerləşən Göbəklitəpə məbəd yerində qeydə alınmışdır [4]. Qeyd etdiyimiz kimi qədim dövrlərdə yüksək statusa malik insanların kəllələrdən ritualların əsas atributu kimi istifadə olunurdu (kəllənin sarı və qırmızı rəngə boyanması özündə günəşi simvolizə edirdi). Kəllələrin boyanması kəlləyə sitayişin yanaşı, əcdadın ruhuna inamın təzahürü kimi qəbul oluna bilər.

Göründüyü kimi, tədqiq olunan bir çox kurqanlarında qəbir tipləri və dəfn adətlərində oxşar səciyyəvi xüsusiyyətlər izlənilir. Ehtimal ki, kurqanlarda izlənilən dəfn adətləri özündə eyni soy-kökə malik tayfaların dini-ideoloji dünyagörüşləri ilə bağlı dəfn adətlərini yaşadır.

Beləliklə, arxeoloji artefaktlar əsasında aparılan müqaisəli təhlillər e.ə. III minilliyin ortalarından başlayaraq Azərbaycan tayfaları arasında kurqan dəfn mədəniyyətinin yüksək səviyyədə inkişafından xəbər verir və son tunc dövründə həmin ənənə daha geniş ərazilərdə yayılır.

Tunc dövründə geniş yayılmış torpaq qəbirlərə Azərbaycanın bütün bölgələrində rast gəlinir. Torpaq qəbirlər tikinti materiallarına görə kurqan və daş qutulardan fərqlənir. Qəbirlərdə demək olar ki, yerüstü əlamət yoxdur. Bu tip qəbirlərdə dəfn kurqanlarda olduğu kimi dəbdəbəli olmamışdır.

Qəbirlər, əsasən, çox sadə olub, düzbucaq və oval formalı quyulardan ibarətdir, onların bəzilərinin divarları gillə suvanmışdır.

Torpaq qəbirlərdə də kurqan qəbirlərdəki olduğu kimi, anoloji dəfn adətlərinə rast gəlinir. Məsələn, Naxçıvan yaxınlığında tədqiq olunan torpaq qəbirlərdən birində başı aşağı qoyulmuş yeddi insan kəlləsinə təsadüf olunmuşdur. Bu tip dəfn adəti Qızılburunda da qeydə alınmışdır [10, s.236].

Tunc dövrünün qəbir tiplərindən biri də Azərbaycanın dağlıq və dağətəyi əraziləri üçün xarakterik olan daş qutu qəbirlərdir.

Belə ki, tarixi torpaqlarımız olan Qərbi Azərbaycanın (indiki Ermənistan) Üç kilsə rayonu, Alaqan yaşayış yerinin şimal hissəsində üzərinə düzbucaqlı daş plitələr qoyulmuş, qumla işlənmiş daş qutu qəbirə təsadüf olunmuşdur. Qəbir kamerasının qərb hissəsinin küncündə, qabların arasında dörd insana məxsus kəlləyə təsadüf edilmişdir [7, s.42-45].

İ.İ. Meşşaninovun Naxçıvanın Qızılvəng (Qızılburun) kəndi yaxınlığında tədqiq etdiyi e.ə. II minilliyin ortalarına aid 1 saylı daş qutu qəbirdə 14 insan kəlləsi basdırılmışdır. Kameranın şimal-qərb bucağında bir kəllə, kameranın cənub divarın yanında yeddi kəlləyə təsadüf olunmuşdur. Onlardan bir az aralıda daha altı kəlləyə rast gəlinmişdir. İ.İ. Meşşaninovun fikrincə, kameranın şərq və qərb tərəfdə yerləşdirilmiş kəllələr qadınlara, onların ortasında qoyulmuş kəllələr isə kişilərə məxsusdur [10, s.236].

Gədəbəy rayonunun Zeynallı adlanan nekropolunda 2 saylı daş qutu qəbirdə az yaşlı insana məxsus kəllə və lülə sümüyü aşkar olunmuşdur. Skeletin çənə sümükləri qabın altından tapılmışdır [11]. Göründüyü kimi, dəfnetmə zamanı ritual ayin yerinə yetirilmişdir.

Volqa-Ural ərazisində quyu qəbirlər mədəniyyəti abidələrində o cümlədən Gerasimovka, Nikolayevka, Berejnovka, Mustayeva qəbir abidələrində tunc dövrü insanlarının mənəvi mədəniyyəti ilə bağlı olan kəllələrə rast gəlinir [12, s.592]. Gerasimovkada üzərinə oxra səpilmiş iki kəllə basdırıl-

mışdı. Н.ЛМоргунова Gerasimovkada tədqiq olunmuş kəllələrin yanında sancaqların olmasının sakral məna daşıdığını qeyd edir. Kəllələrin cüt qoyulmasını dəfn mərasimi zamanı ölülərin parçalanması ayini ilə bağlayır [13, s.100]. Tədqiq olunan qəbir abidələrinin dağlıq və ya düzən zonalarda yayılmasından asılı olmayaraq, onların eyni dini-ideoloji dünyagörüşlərdən bəhrələndiyinin şahidi oluruq.

Nəticə. Haqqında məlumat verdiyimiz dəfn abidələri tədqiq olunan dövrlərin tayfalarının dini-ideologi dünyagörüşləri haqqında bəzi nəticələr çıxarmağa imkan verir. Belə ki, arxeoloji tədqiqatlar tunc dövründə Azərbaycan tayfalarının axirət dünyası ilə bağlı təsəvvürlərinin güclü olduğunu, bu səbəbdən də ölənlər üçün müxtəlif tip qəbir abidələri inşa edib, ritual dəfn mərasimləri keçirdiklərini göstərir. Elə həmin səbəbdən də tunc dövrünün qəbir tiplərindən olan kurqan, torpaq və daş qutu qəbirlərdə icra olunan dəfn adətləri maraq doğurmaya bilməz. Belə ki, bəzi tayfaların dəbdəbəli dəfn adətlərinə üstünlük verməsi, tunc dövründə və onun son mərhələsində dəfnlə bağlı adətlərdə kultların geniş yer almasına səbəb olmuş, dövrün tayfalarının animist baxışlarının artması sonunda qəbirlərin müqəddəs yerə çevrilməsinə gətirib çıxarmışdır.Azərbaycan və Qərbi Azərbaycan kurqanlarında təsadü olunan "kəllə kultu" ilə bağlı dəfn adətləri, keçirilən rituallar, kurqan və daş qutu qəbirlərin eyni arealdan bəhrələndiyini bir daha sübut edir.

Kurqan, torpaq, daş qutularda icra olunan dəfn adətlərindən göründüyü kimi, ölüm tunc dövrü insanının həyatının tərkib hissəsi olmuş, elə həmin səbəbdən də tayfa başçıları və tayfada nüfuzu olan insanlar gələcək həyata inanıb, axirət dünyalarını təmin etmək üçün dəfn mərasimləri zamanı ölümlə bağlı ritualların keçirilməsinə xüsusi önəm vermişlər.

Göründüyü kimi tunc dövründə keçirilən dəfn mərasimləri qəbir tiplərindən asılı olmayaraq, əsasən, eyni səciyyəvi xüsusiyyətlər daşımış, mərhumun tayfada tutduğu mövqeyi həmişə önəmli olmuşdur. Tayfa başçılarına aid qəbirlərin möhtəşəm və dəbdəbəli olması, heç şübhəsiz ki, onun ölümündən sonra da gücünü saxlaması ilə bağlı olmuşdur. Tədqiq olunan arxeoloji dəlillərə və əlimizdə olan faktlara əsaslanaraq onu deyə bilərik ki, eneolit dövründən başlayaraq, tunc dövrlərdə belə Azərbaycan və onun tarixi torpaqlarında izlənilən qəbir tipləri və həmin abidələrdə təsadüf olunan dini-ideoloji xüsusiyyətlər daşıyan dəfn adətləri, qəbirlərdən əldə olunan çoxsaylı maddi mədəniyyət qalıqları, oturaq-əkinçi və maldar əcdadlarımıza məxsus təsərrüfat həyatı, etnik mənsubiyyətə aid maddi mədəniyyət nümunələri, dini-ideoloji dünyagörüşlərinin demək tədqiq olunan bütün dövr abidələri üçün xarakterik olması və üst-üstə düşməsi bir daha Azərbaycan və onun qədim tarixi ərazilərində yaşamış tayfaların, əsasən, bir etnik qrupda (nəslitayfalarda) birləşdiyini, oxşar irqi köklərə sahib olduğunu və eyni mədəniyyətlərdən bəhrələndiyini göstərir.

ƏDƏBİYYAT

1. İsmayılov, Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri / Q.S. İsmayılov. – Bakı: Elm, – 1981. – 65 s.
2. Julia Gresre, Jörg Burkhardt, Klaus Schmidt. Modified human crania from Göbeklitepe provide evidence for a new from of Neolithik skull kult // – Science Advances, – Volume 3 issue, 6. – 2017
3. Асланов, Г.М. Древний Мингечаур / Г.М. Асланов, Р.М. Ваидов, Г.И. Ионе. – Баку: Издательство АН Азербайджанской ССР, – 1959. – 191с.
4. В.П. Левашова. Курганы. Что это такое и что в них находится? [Elektron resurs] /URL: http://www.susun.ru/suzunskij_kraeved_museum/kurganychto_jeto_takoe_i_chto_v_nikh_nakhodit sja [01.09.2026].
5. Мнацаканян, А.О. Лчашенские курганы (раскопки 1956 года) // – Москва: КСИА, №85– 1961. – с.60-72.
6. Мнацаканян, А.О. Раскопки курганов на побережье оз. Севан в 1956 г. // – Москва: СА, вып.2. – Издательство Академия Наук СССР, – 1957 – с.146-153.
7. Мартиросян, А.А. Армения в эпоху бронзы и раннего железа / А.А. Мартиросян. – Ереван: Издательство Академия Наук Армянской ССР, – 1964. – 312 с.
8. Гусейнова, М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа (XIV-IX вв. до н.э.) / М.А. Гусейнова. – Баку: Элм, – 1989. – 127 с.

9. Baxşəliyev, V.B. Azərbaycan Arxeologiyası [3 cilddə] / V.B. Baxşəliyev. AMEA Naxçıvan bölməsi. Naxçıvan Dövlət Universiteti,– Bakı: Elm,– c. I.–2006.–239 c.
10. Мещанинов, И.И.Краткие сведения о работах археологической экспедиции в Нагорном Карабахе и Нахичеванском край, снаряженной в 1926 г. // – Ленинград: Сообщ. ГАИМК, – т.1, – 1926 – с.217-240.
11. Göyüşova, T.N. 2018-ci ildə Gədəbəy rayonunda aparılmış arxeoloji tədqiqatların geniş elmi hesabatı // – Bakı: AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Elmi Arxivi, iş № – H-888.– 2018.
12. Файзулин А.А. Культ черепа в погребальной практике ямной культуры Волго-Уральского Междуречья. Известия Самарского научного центра Российской академии наук, м. 16, №3 (2,) 2014.с.592-596.
13. Моргунова Н.Л., Кравсов А.Ю. Памятники древнеямной культуры Илеке. Екатеренбург, Наука, 1994, с.100.

ИРАДА АВШАРОВА
Доктор философии по историческим наукам,
Доцент Бакинского государственного Университета

ВЕРОВАНИЯ, СВЯЗАННЫЕ С «КУЛЬТОМ ЧЕРЕПА», В ПОГРЕБАЛЬНЫХ ОБЫЧАЯХ БРОНЗОВОГО ВЕКА АЗЕРБАЙДЖАНА

Археологические исследования, проведённые во многих частях света, показывают, что в древних обществах понятие души было одной из главных проблем философской мысли. Известно, что на протяжении всей истории человечества существовали различные верования и представления о загробной жизни, такие как анимизм, дуализм, фетишизм. Идеи, связанные с анимизмом, предполагающим бессмертие души, также широко распространены среди азербайджанских племён. Что касается концепции «культа мёртвых и черепа», то этот культ занимает широкое место в религиозных воззрениях племён, проживающих на Востоке, включая Месопотамию, Египет, Анатолия, Китай, Алтай, Азербайджан и других стран.

Ключевые слова: археология, курган, могила, тележка, череп.

IRADA AVSHAROVA
PHD in history,
associate professor of Baku State University

BELIEFS RELATED TO THE “SCULL CULT” IN THE BRONZE AGE BURIAL CUSTOMS OF AZERBAIJAN

Archaeological explorations conducted in many parts of the world shows that the concept of the soul in ancient societies was one of the main problems of philosophical thought. It is known that throughout human history, various beliefs and ideas such as animism, dualism, fetishism existed regarding the afterlife. Ideas related to animism, which holds the immortality of the soul, are also widespread among Azerbaijani tribes. As for the concept of “cult of the dead and skull”, this cult has a wide place in the religious worldviews of tribes living in the East, including Mesopotamia, Anatoliya, Egypt, China, Altai, Azerbaijan, and other countries.

Keywords: archaeology, mound, the grave, cart, skull.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 sentyabr 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Hicran Mahmudova, t.e.d. Qabil Əliyev.

UOT 902

AYSEL İSMAYILOVA
AMEA Naxçıvan Bölməsi, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, elmi işçi
aysel_ismayi@mail.ru

IX-XIII ƏSRLƏRDƏ NAXÇIVANIN İQTİSADİ MƏDƏNİ ƏLAQƏLƏRİNDƏ ŞİRLİ KERAMİKANIN ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/114/277-282

Məqalədə IX-XIII əsrlərdə Naxçıvanın iqtisadi mədəni əlaqələrində şirli keramikanın rolundan bəhs olunur. Orta əsrlər dövründə Naxçıvan Azərbaycanın inkişaf etmiş şəhərlərindən birinə çevrilmişdir. Bunu əsas səbəbi isə, şəhərin karvan yolları üzərində yerləşməsi və Şərq -Qərb ölkələri ilə mühüm ticarət əlaqələri saxlamasıdır. Naxçıvandan keçən ticarət yolları həm Avropa ölkələrinə, həm də Mərkəzi Asiyadan keçərək Çinə və Hindistana gedirdi. Naxçıvan sənətkarlarının istehsal etdiyi şirli keramika nümunələri bu yollar vasitəsilə Hindistana qədər aparılırdı. Naxçıvan ərazisindən aşkar olunan şirli keramika nümunələri üzərində istər texnoloji, istərsə də görünüş baxımından aydın şəkildə izlənilər analogiyalar şirli keramikanın iqtisadi mədəni əlaqələrdə oynadığı mühüm roldan xəbər verir.

Açar sözlər: Naxçıvan, iqtisadi mədəni əlaqələr, şirli keramika, ticarət yolları.

Giriş. Orta əsrlər dövründə Azərbaycanda baş verən sosial-siyasi dəyişikliklər onun iqtisadi və mədəni həyatından da yan ötüşmədi. Sasani-Bizans müharibələri, ərəblərin və Xəzərlərin bölgəyə mütəmadi hücumu və ən əsası isə İslam dininin qəbul edilməsi ilə bağlı baş verən dəyişikliklər ölkənin sənətkarlıq həyatına da mənfi və ya müsbət mənada öz təsirini göstərirdi. IX əsrdən etibarən Xilafətin zəifləməsi nəticəsində Azərbaycanda bir neçə müstəqil feodal dövlətləri meydana gəldi. Yaranan dövlətlərin güclənməsi şəhərlərin daha da canlanmasına, sənətkarlığın və ticarətin artmasına səbəb olurdu. Bu isə ölkənin mədəni-iqtisadi əlaqələrini daha da genişləndirirdi. Bu dövrdə meydana gələn yeni iri ticarət şəhərlərindən biri olan Naxçıvan iqtisadi, siyasi və mədəni mərkəzlərdən birinə çevrilmiş, Azərbaycanın ən böyük şəhərlərindən biri olmuşdu. Naxçıvan orta əsrlərin bütün dövrlərində yüksək inkişaf etmiş ticarət və sənətkarlıq mərkəzi olmuşdur. VII-VIII əsrlərdə ərəb qoşunlarının yaratdığı dağıntılar IX əsrdən etibarən artıq bərpa edilməyə başlanmış, məhsuldar qüvvələr inkişaf etmiş, şəhər böyümüş və canlanmışdır. Artıq, bu dövrdə sənətkarlıq inkişaf etməyə başlamış, sənətkarların hazırladıqları məhsullar Naxçıvan hüdudlarından kənara ixrac edilmişdir. Naxçıvanda sənətkarlığın inkişaf sahələrindən biri də dulusçuluq idi. IX-XIII əsrləri, Naxçıvanda dulusçuluğun, xüsusən də şirli keramika istehsalının yüksək inkişaf etmiş dövrü hesab etmək olar. IX əsrdən başlanan inkişaf XIII əsrdə özünün ən yüksək nöqtəsinə çatmışdır. Naxçıvanda şirli keraika istehsalının dövrünə görə yüksək texnologiyası, rəng müxtəlifliyi və dərin semantik mənaya malik naxış motivləri olmuşdur. Son dövrlərdə Naxçıvanda aparılan qazıntılar nəticəsində böyük miqdarda şirli keramika nümunələri aşkar edilmişdir. Bu nümunələr Naxçıvanda şirli keramikanın hazırlanma texnologiyasını, onun tədqiqini, naxış və bəzək motivlərini, yayılma arealını, inkişaf mərhələlərini və iqtisadi-mədəni əlaqələrdə rolunu müəyyən etməyə imkan vermişdir. Qeyd etmək lazımdır ki, Naxçıvan ərazisində orta əsrlər dövrünə aid yaşayış yerləri məhdud sayda qazıntıya cəlb edilmişdir. Xaraba Gilan şəhər yeri istisna olmaqla, Naxçıvanın orta əsrlər dövrü demək olar ki, arxeoloji cəhətdən geniş araşdırılmamış, şirli keramika da ayrıca tədqiqat mövzusu olmamışdır. Naxçıvan ərazisində aşkar olunan şirli keramika nümunələri əsasında Naxçıvanın Cənubi Qafqaz, Orta Asiya və Yaxın Şərq ölkələri ilə yaratdığı iqtisadi-mədəni əlaqələr geniş şəkildə tədqiqata cəlb edilmişdir.

Təqdim olunmuş məqalədə Azərbaycan Səfəvi dövləti tarixinin Türkiyə tarixşünaslığında tədqiqi və yanaşma xüsusiyyətləri təhlil edilir. Türkiyə tarixçilərinin əksəriyyəti Səfəvi-Osmanlı münasibətlərindəki gərginlik və müharibələrin bütün məsuliyyətini Səfəvi şahlarının üzərinə qoymağa çalışırlar. Belə tədqiqatçılar problemə ciddi yanaşmağa cəhd etsələr də, geniş elmi təhlil əvəzinə çox zaman hadisələrin sadə xülasəsi ilə kifayətlənirlər.

Bəzi Türkiyə tarixçiləri Azərbaycan alimlərinin əsərlərindən kifayət qədər faydalanmır, Azərbaycan tarixini İran və Yaxın Şərq tarixi daxilində əridir və ya təhrif edirlər. Belə tarixçilər tərəfindən xüsusilə Səfəvilər dövlətinin bir qayda olaraq "İran dövləti" kimi qələmə verilməsi, Azərbaycan türklərinin dövlətçilik ənənələrinin inkar olunmasına gətirib çıxarır. Azərbaycan müstəqillik qazandıqdan sonra maraq artsa da, bu ənənəvi subyektiv meyil hələ də tam aradan qalxmamışdır.

Çatışmazlıqlara baxmayaraq, Türkiyə arxivlərindəki zəngin ilk mənbələr sayəsində XVIII əsr Azərbaycan tarixi, xüsusilə də Osmanlı ilə münasibətlərin tədqiqinə müəyyən cəhdlər edilmişdir. Lakin yüz əlli illik qarşıdurma çox vaxt bəsitləşdirilərək sadəcə "sünni-şiə" mübarizəsi kimi təqdim olunmuşdur.

Məqalədə problem Türkiyə tarixşünaslığında xüsusi yeri olan Metin Kunt, Sina Akşin, Ahmet Shimshirgil kimi tədqiqatçıların əsərlərinə müraciət edərək qeyd olunan problem araşdırılmışdır. Tədqiqatçıların əsərlərindən iqtibaslar gətirilərək Səfəvilər və Osmanlı dövlətləri arasında gedən mübarizənin məzhəbdən uzaq olduğunu, əslində hər iki dövlətin Qafqaz və Orta Şərqdə siyasi və iqtisadi cəhətdən möhkəmlənmək uğrunda aparıldığı sübut edilməyə çalışılmışdır.

Açar sözlər: Tarixşünaslıq, Türkiyə, Səfəvi dövləti, Rusiya, Osmanlı dövləti.

АЙНУР ХАДЖИГАДИРЛИ
Доктор философии по истории, доцент
Институт рукописей имени Мухаммада Физули, НАНА

КАВКАЗСКАЯ ПОЛИТИКА РОССИЙСКОЙ И ОСМАНСКОЙ ИМПЕРИЙ В ПЕРВОЙ ПОЛОВИНЕ XVIII ВЕКА В ТУРЕЦКОЙ ИСТОРИОГРАФИИ (на основе книг “История Турции 3. Османское государство” и Ахмета Шимширгиля “Кайы-VII Османская история. Против Священной лиги”)

В представленной статье анализируются исследования по истории азербайджанского государства Сефевидов в турецкой историографии и особенности методологических подходов. Большинство турецких историков стремятся возложить всю ответственность за напряженность и войны в сефевидско-османских отношениях на сефевидских шахов. Хотя подобные исследователи и пытаются серьезно подойти к проблеме, вместо глубокого научного анализа они зачастую ограничиваются простым изложением событий.

Некоторые турецкие историки недостаточно используют труды азербайджанских ученых, растворяя или искажая историю Азербайджана в рамках истории Ирана и Ближнего Востока. Преподнесение государства Сефевидов такими историками, как правило, в качестве «иранского государства» ведет к отрицанию государственнических традиций азербайджанских тюрков. Несмотря на рост интереса после обретения Азербайджаном независимости, эта традиционная субъективная тенденция до сих пор полностью не изжита.

Несмотря на существующие недостатки, благодаря богатым первоисточникам в турецких архивах были предприняты определенные попытки исследовать историю Азербайджана XVIII века, особенно его отношения с Османской империей. Однако полуторавековое противостояние зачастую упрощалось и преподносилось лишь как «суннитско-шиитская» борьба.

В статье данная проблема исследуется на основе обращения к трудам таких исследователей, занимающих особое место в турецкой историографии, как Метин Кунт, Сина Акшин и Ахмет Шимширгиль. С привлечением цитат из их работ предпринимается попытка доказать, что борьба между Сефевидским и Османским государствами была далека от конфессионального фактора и фактически велась за политическое и экономическое укрепление обоих государств на Кавказе и Ближнем Востоке.

Ключевые слова: Историография, Турция, Сефевидское государство, Россия, Османское государство.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 iyul 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: t.e.d. Tahirə Həsənzadə, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24); UOT 930

ZEYNADDIN BAYDAROV
Institute of History and Ethnology of
Azerbaijan National Academy of Sciences
Department of the History of Azerbaijan (7th-14th centuries)
PhD student (2nd year)
ORCID ID: https://orcid.org/0009-0000-1881-7762
zeynaddin.b@gmail.com

THE POLITICAL SYSTEM AND GOVERNANCE OF AZERBAIJAN DURING THE SELJUK PERIOD IN TURKISH HISTORIOGRAPHY

DOI: https://doi.org/10.36719/2708-065X/114/291-295

This article analyzes how the political system and governance model of Azerbaijan during the Seljuk period were conceptualized in Turkish historiography. With the establishment of the Great Seljuk development in the South Caucasus in the 11th–12th centuries, the political-strategic economic and governance structures of Azerbaijan were reshaped as a new empire. The main objective of the study is to determine how the Seljuk state mechanism of Azerbaijan was presented as a material part in the works of Turkish historians, in what theoretical framework the center-administration relations were explained, and on what institutional foundations the practice of regional governance was based. The article examines the approaches of the leadership of Turkish historiography to the iqta system, military-feudal organization, provincial administration, tax mechanisms, and the functioning of judicial-legal structures. At the same time, such theoretically important dimensions as the synthesis of nomadic Turkic political traditions and Islamic state institutions, the basis of the legitimacy of the sultan's power, and the role of the bureaucratic apparatus are examined. The study includes both an interpretation of classical research and modern methodological approaches - both institutional and historical historical perspectives. In Turkish historiography, Azerbaijan is presented not only as a geographical periphery of the Seljuk Empire, but also as a place of strategic disadvantage in political and economic terms. In this context, the article shows that the governance model of Azerbaijan is formed under the influence of local socio-political realities, along with the regional manifestation of the general system. As a result, the study allows us to understand the essence of state-building in the South Caucasus during the Seljuk period in a more systematic and conceptual way.

Keywords: Seljuk Empire, Azerbaijan, political system, governance, turkish historiography, iqta system, turko-islamic state tradition, medieval state formation.

Introduction. Starting from the 11th century, the Seljuk expansion into the Middle East and the South Caucasus initiated a new phase in the political history of Azerbaijan. The consolidation of Seljuk authority in the region was not limited to military dominance; it also entailed the restructuring of existing administrative traditions and the establishment of an imperial political framework. Owing to its strategic location and economic significance, Azerbaijan became an important component of the Seljuk state system. In Turkish historiography, the development of the Seljuk political order in Azerbaijan is generally interpreted as a synthesis of ancient Turkic political traditions and Islamic state institutions. Scholars analyze issues such as the legitimacy of sultanic authority, center–province relations, and the role of the military-political elite within this broader framework. Azerbaijan is portrayed not merely as a provincial unit but as a significant regional space where imperial governance was implemented and institutionalized.

The importance of this topic also lies in the long-term impact of Seljuk administrative principles on subsequent Turkic-Muslim states. Therefore, examining Azerbaijan's political status and governance under Seljuk rule contributes both to regional historiography and to a broader understanding of medieval Turkic-Islamic state traditions. This article aims to systematize Turkish historiographical

approaches to the political system and governance of Azerbaijan during the Seljuk period and to analyze their theoretical and methodological foundations.

Main discussion. Conceptual Analysis of the Political Administration of Azerbaijan during the Seljuk Period in Turkish Historiography. In Turkish historiography, the Seljuk polity is generally described as a distinctive, centralized, and military-feudal system of governance. A substantial body of scholarship has examined the institutional structure of the Seljuk state, its political authority, and its administrative organization [2, 36]. Among the major works addressing these issues is Selçuklu Devletleri Tarihi by A.Sevim and E.Merçil, published by the Turkish Historical Society. In its discussion of state organization, the authors emphasize that Seljuk political authority rested upon older Turkic conceptions of sovereignty, according to which the realm was regarded as the collective patrimony of the ruling dynasty. Within this framework, the sultan emerged as the supreme and singular representative of the state, embodying both political authority and responsibility for public order [8].

Drawing on Nizam al-Mulk's Siyasatnama, Turkish historians underline the religious dimension of Seljuk kingship, highlighting the belief that sovereignty was divinely sanctioned. The sultan, as God's chosen ruler, was entrusted with maintaining justice and stability. This interpretation situates the Seljuk political system within a continuum of pre-Islamic Turkic traditions adapted to an Islamic imperial context [11]. In contrast, some Azerbaijani scholars, such as Rauf Huseynzade, have emphasized the broader Near Eastern administrative heritage of the Seljuk state. In his work The Caucasus and the Seljuks, he argues that Seljuk governance incorporated institutional practices derived from the Sasanian, Byzantine, and Abbasid traditions, presenting the Seljuk polity as a synthesis of multiple imperial models rather than a predominantly Turkic continuation [12, 123-145]. Research further indicates that Seljuk sultans consolidated their authority through mechanisms such as the military iqta system, which allocated land revenues to commanders in return for service, thereby extending control over provinces. The administrative structure of the Great Seljuk Empire evolved into a dual system composed of a central apparatus -organized around the Great Divan- and a provincial framework governed by appointed officials. While the sultan held extensive powers, especially under Tughril Beg and Alp Arslan, the effective penetration of state authority into newly conquered territories remained uneven, reflecting the empire's rapid expansion and its reliance on tribal and military networks [7].

Each province was governed by a vali, who was regarded as the deputy of the sultan and bore responsibility for the full range of administrative, fiscal, and judicial affairs within his jurisdiction. In both the Seljuk and subsequent Atabeg periods, provincial governors were predominantly of Turkic origin. Prior to their appointment, many had served as military commanders, reflecting the close interconnection between military authority and civil administration within the Seljuk political order. The duties of a vali extended beyond mere territorial oversight. He was expected to safeguard public order, ensure the implementation of Islamic legal norms, promote social stability, and uphold justice among the population [9, 60]. Among his principal obligations were the protection of subjects, the enforcement of religiously sanctioned regulations, the maintenance of equitable governance, and the punishment of criminal elements. Thus, provincial administration combined political authority, military command, and moral responsibility within a unified framework of governance [3; 4, 85].

Azerbaijan, as one of the provinces of the Great Seljuk Empire, was integrated into this broader administrative structure. The organization of governance in the region generally corresponded to the imperial model, with centrally appointed officials exercising authority in accordance with Seljuk state principles. While local conditions inevitably influenced practical implementation, the fundamental administrative logic remained aligned with the centralized and military-feudal character of the Seljuk state [2; 6].

In the Seljuk administrative framework, governors appointed to Azerbaijan organized provincial governance in accordance with the central imperial model. Acting as deputies of the sultan, they exercised authority through a structured bureaucratic apparatus that mirrored the institutions of the capital. Provinces were administered via a provincial divan, conceived as a continuation of the central Great Divan. This body operated under the authority of the governor and was typically headed by a vizier [1, 68; 7]. Subordinate financial and supervisory offices—responsible for revenue collection,

fiscal auditing, and oversight—functioned alongside judicial authorities such as qadis. The governor was charged with maintaining order, ensuring the proper collection of taxes, supervising officials, and safeguarding justice. While fiscal rates were determined by central authority, provincial administrators were responsible for their lawful and timely implementation [3, 215-237; 8].

The military dimension constituted a core element of provincial governance. Provincial forces were led by trusted commanders, often bearing titles equivalent to amir sipahsalar, while subordinate officers managed local security. The Seljuk army combined several components, including military slaves (ghulams), troops maintained by iqta holders, contingents supplied by vassal rulers, and Turkmen tribal forces. This structure reflected the broader military-feudal character of the Seljuk state [6; 10]. Below the governor, local administrators—often drawn from established notable families—managed urban and district affairs. These officials oversaw taxation, public order, and municipal matters, functioning as intermediaries between central authority and local society [5, 130]. The iqta system played a pivotal role in sustaining this order by allocating state revenues to military and administrative elites in return for service. However, these grants were conditional rather than hereditary, reinforcing the sultan's ultimate control over land and authority. Overall, Azerbaijan's provincial administration exemplified the integration of centralized Seljuk institutions with regional political realities.

Conclusion. An analysis of Turkish historiography shows that before the Seljuk expansion, Azerbaijan's political order functioned within an administrative framework largely shaped by the legacy of the Arab Caliphate. Governance reflected Islamic political and legal traditions, particularly in taxation, judicial organization, and provincial administration, although regional conditions influenced their practical implementation. The incorporation of Azerbaijan into the Seljuk Empire brought a substantial transformation in political and administrative structures. Turkish historians emphasize that the Seljuks introduced a more centralized and militarily oriented system, reorganizing Azerbaijan as a province integrated into a broader imperial framework. Authority was exercised through governors appointed by the sultan, while the iqta-based system linked fiscal resources to military service, strengthening central control. This transformation is interpreted as a synthesis of pre-Islamic Turkic concepts of sovereignty with Islamic administrative institutions. As a result, the Seljuk period represents a formative stage in the institutional development of political authority and state organization in the South Caucasus.

REFERENCES

1. Aksoy, H. (2024). Selçuklu Yönetiminde Erdebil: Kafkasya'ya Açılan Kapı. Selçuk Üniversitesi Selçuklu Araştırmaları Dergisi, 21, pp. 57-78.
2. Ayan E. (2010). "Kafkasya: Bir Etno-Kültürel Tarih Çözümlemesi". Ordu Üniversitesi Sosyal Bilimler Enstitüsü Sosyal Bilimler Araştırmaları Dergisi, 1(2). pp. 19-50.
3. Azərbaycan tarixi (1998). Yeddi cilddə, II cild (III-XIII əsrin birinci rübü)), Bakı, Elm, p. 596.
4. Burgu, A. (2018). Feridun Nâfiz Uzluk'un Selçuklu Tarihçiliğine Katkıları. Selçuk Üniversitesi Selçuklu Araştırmaları Dergisi, 9, pp. 72-93.
5. Eğilmez, Savaş (2024). "Seljuq-Georgian Relations During the Foundation Period of the Great Seljuq State". History and Historian, 3, issue. 2. pp. 127-134.
6. İ. Ortaylı (2008). Türkiye teşkilat ve idare tarixi. Ankara, p. 164.
7. Köymen M. A. (2011). Büyük Selçuklu İmparatorluğu Tarihi 3. Cilt Alp Arslan ve Zamanı. TTK. Basımevi, Ankara, p. 298.
8. Sevim A., and Merçil E. (2023). Selçuklu Devletleri Tarihi. Siyaset, teşkilat ve Kültür. Ankara: TTK, p. 769.
9. Soofizadeh, A. (2023). Büyük Selçuklular Döneminde Azerbaycan. Selçuk Üniversitesi Selçuklu Araştırmaları Dergisi, 18, pp. 53-72.
10. Tokan, Ö. (2020). Sultan Alp Arslan'ın Merkezi Otoriteyi Sağlama Çabaları: 1. Huttelan Seferi. Journal of Turkish Research Institute, -(69), pp. 463-484.
11. Turan O. (2015). Selçuklular Tarihi ve Türk-İslam Medeniyeti. İstanbul: Ötüken, p. 541.

12. Гусейнзаде Р.А. (2010). Кавказ и Сельджуки. Баку: Кавказ. p.272.

ZEYNƏDDİN BAYDAROV
Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA)
A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu II kurs doktorant

SƏLCUQLAR DÖVRÜNDƏ AZƏRBAYCANIN SİYASİ SİSTEMİ VƏ İDARƏÇİLİYİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

Bu məqalə Səlcuqlar dövründə Azərbaycanın siyasi sistemi və idarəçilik modelinin Türkiyə tarixşünaslığında necə konseptuallaşdırıldığını təhlil edir. XI–XII əsrlərdə Böyük Səlcuq dövlətinin Cənubi Qafqazda təşəkkül tapması ilə Azərbaycanın siyasi-strateji, iqtisadi və idarəçilik strukturları yeni imperiya çərçivəsində yenidən formalaşdırıldı. Tədqiqatın əsas məqsədi Türkiyə tarixçilərinin əsərlərində Azərbaycanın Səlcuq dövlət mexanizminin tərkib hissəsi kimi necə təqdim edildiyini, mərkəz–idarə münasibətlərinin hansı nəzəri çərçivədə izah olunduğunu və regional idarəçilik praktikasının hansı institusional əsaslara söykəndiyini müəyyən etməkdir. Məqalədə Türkiyə tarixşünaslığının aparıcı nümayəndələrinin iqta sistemi, hərbi-feodal təşkilatlanma, vilayət idarəçiliyi, vergi mexanizmləri və məhkəmə-hüquq strukturlarının fəaliyyəti ilə bağlı yanaşmaları araşdırılır. Eyni zamanda köçəri türk siyasi ənənələri ilə İslam dövlət institutlarının sintezi, sultan hakimiyyətinin legitimlik əsasları və bürokratik aparatın rolu kimi nəzəri cəhətdən mühüm ölçülər təhlil edilir. Tədqiqat həm klassik tədqiqatların şərhini, həm də institusional və müqayisəli-tarixi perspektivlər daxil olmaqla müasir metodoloji yanaşmaları əhatə edir. Türkiyə tarixşünaslığında Azərbaycan Səlcuq imperiyasının yalnız coğrafi periferiyası kimi deyil, siyasi və iqtisadi baxımdan strateji əhəmiyyət daşıyan məkan kimi təqdim olunur. Bu kontekstdə məqalə göstərir ki, Azərbaycanın idarəçilik modeli ümumi sistemin regional təzahürü olmaqla yanaşı, yerli sosial-siyasi reallıqların təsiri altında formalaşmışdır. Nəticə etibarilə, tədqiqat Səlcuqlar dövründə Cənubi Qafqazda dövlət quruculuğunun mahiyyətini daha sistemli və konseptual şəkildə anlamağa imkan verir.

Açar sözlər: Səlcuq İmperiyası, Azərbaycan, siyasi sistem, idarəçilik, Türkiyə tarixşünaslığı, iqta sistemi, Türko-İslam dövlətçilik ənənəsi, orta əsr dövlət quruculuğu.

ЗЕЙНАДДИН БАЙДАРОВ
Институт истории и этнологии имени А.А. Бакиханова
Национальная академия наук Азербайджана (НАНА), докторант II курса

ПОЛИТИЧЕСКАЯ СИСТЕМА И УПРАВЛЕНИЕ АЗЕРБАЙДЖАНА В ЭПОХУ СЕЛЬДЖУКОВ В ТУРЕЦКОЙ ИСТОРИОГРАФИИ

В статье анализируется, каким образом политическая система и модель управления Азербайджана в эпоху Сельджуков концептуализируются в турецкой историографии. С формированием Великого Сельджукского государства на Южном Кавказе в XI–XII веках политико-стратегические, экономические и управленческие структуры Азербайджана были перестроены в рамках новой империи. Основная цель исследования заключается в том, чтобы определить, каким образом в трудах турецких историков Азербайджан представлен как составная часть государственного механизма Сельджуков, в каком теоретическом контексте объясняются отношения центра и управления, а также на каких институциональных основаниях базировалась практика регионального управления. В статье рассматриваются подходы ведущих представителей турецкой историографии к системе икта, военно-феодальной организации, провинциальному управлению, налоговым механизмам и функционированию судебно-правовых структур. Одновременно анализируются такие теоретически важные аспекты, как синтез кочевых тюркских политических традиций и исламских государственных институтов, легитимационные основы власти султана и роль бюрократического аппарата. Исследование включает

как интерпретацию классических исследований, так и современные методологические подходы, в том числе институциональные и сравнительно-исторические перспективы. В турецкой историографии Азербайджан представлен не только как географическая периферия Сельджукской империи, но и как регион, обладающий стратегическим значением в политическом и экономическом отношении. В данном контексте статья показывает, что модель управления Азербайджана формировалась под влиянием местных социально-политических реалий наряду с региональным проявлением общей системы. В результате исследование позволяет более системно и концептуально осмыслить сущность государственного строительства на Южном Кавказе в эпоху Сельджуков.

Ключевые слова: Сельджукская империя, Азербайджан, политическая система, государственное управление, турецкая историография, система икта, тюрко-исламская государственная традиция, средневекственное государственное строительство.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 aprel 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 02 oktyabr 2026-cı il.
Rəyçilər: Akademik Nərgiz Axundova.

ƏSMƏD MUXTAROVA
Bakı Dövlət Universitetinin professoru
asmadmukhtarova@bsu.edu.az

TARİX YAZAN VƏ TARİXİ YAŞAYAN ÖMÜR YOLU

DOI: https://doi.org/10.36719/2708-065X/114/296-297



2026-cı ilin sentyabr ayında Azərbaycan elminin və təhsilinin flaqmanı Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti Səidə Əli qızının 80 yaşı tamam olur. Səkkiz onillik bir insan ömrü üçün böyük rəqəmdir. Amma bu səkkiz onillik əgər elmə, Vətənə, təhsilə və gənc nəslin yetişdirilməsinə həsr olunubsa, o zaman bu rəqəm sadəcə təqvim təcrübəsi deyil, əsl qəhrəmanlıq salnaməsidir. Tarix üzrə fəlsəfə doktoru, dosent Səidə xanım Əli qızının həyat yolu da məhz belə bir şərəfli salnamədir. O, həyatını Azərbaycan elminin ən çətin, lakin ən şərəfli sahələrindən biri olan tarix elminə bağlayıb. Bakı Dövlət Universitetinin Tarix fakültəsi illərdir ki, Azərbaycanın ideoloji və elmi sütunlarını formalaşdırır. Bu sütunları uca edənlər isə məhz Səidə xanım kimi fədakar müəllimlərdir. Mənbəşünaslıq kimi dərin səbir, incə detal duyumu və mühakimə tələb edən bir sahədə illərlə tədqiqat aparmaq, mənbələrin qat-qat tozunu aralayaraq həqiqəti üzə çıxarmaq hər adamın işi deyil. Səidə xanım elmi-pedaqoji fəaliyyəti dövründə daim bu elmin keşiyində durub, gənclərimizə təkcə quru tarix deyil, həm də onun ruhunu, sətiraltı həqiqətlərini öyrədib.

80 yaşın zirvəsindən ötən illərə boylananda insan özündən sonra qoyduğu izlərlə ölçülür. Səidə xanım Bakı Dövlət Universitetinin elmi mərkəzlərindən biri olan Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasında çalışır. Və Səidə xanım bu kafedrada sadəcə mühazirə oxuyan, seminar aparan pedaqoq olmayıb. O, özünün məktəbini yaradıb. Onun rəhbərliyi ilə neçə-neçə magistrant, doktorant elm yoluna qədəm qoyub, mənbələrə sevgi ilə yanaşmağın düsturunu öyrənib. Bu mənada Səidə xanım tələbələrinin xatirələrində zərif, incə, lakin dəmir intizama və elmi dürüstlüyə sahib bir şəxsiyyət

kimi qalan müəllimədir. O, illərdir ki, gənclərə tarixçi olmaq üçün əvvəlcə dürüst və vətənpərvər olmaq, Vətəni sevgi ilə öyrənmək lazım gəldiyini öyrədir.

Səidə xanım universitet mühitində hər zaman prinsipiallığı, elmi dürüstlüyü və akademik etika norma və dəyərlərinə sadiqliyi ilə fərqlənib. Kafedradakı gündəlik fəaliyyətində, elmi müzakirələrdə və seminarlarda onun nümayiş etdirdiyi peşəkar mövqe həmkarları üçün hər zaman nümunə olub.

Səidə xanımı yaxından tanıyanlar bilirlər ki, onun portreti sadəcə ciddi elmi terminlərlə, arxiv sənədlərilə çərçivələnmir. Onun ruhunda elmin ciddiliyilə yanaşı misilsiz bir incəlik, bədii zövq və poetik dünya yaşayır. Səidə xanımın çox gözəl qələmi var. Onun elmi-publisistik yaradıcılığı, o cümlədən bədii-poetik düşüncəsinin yekunu olaraq qələmə aldığı əsərlər intellektual diapazonunun nə qədər geniş olduğunu bir daha təsdiq edir. O, elmi ciddiyyətlə bədii sözün estetik gücünü öz yaradıcılığında uzlaşdıra bilən ziyalılardandır. Onun işıq üzü görmüş şeirlər kitabı bunun ən bariz sübutudur. Tarixçi Səidə xanım misralarında zamanla söhbət edir, keçmişin həsrətini, bu günün işığını və gələcəyin ümidini qəlblərə toxunan misralarla dilə gətirir. Onun ürəklərə toxunan danışıq tərzi həmsöhbətlərinin ruhunu qidalandırır. Səidə xanım dinləyicisinin qəlbinə yol tapan, zəkasını işıqlandırmağı bacaran bir müəllim idealıdır.

80 illik yubiley ötən illərin yekunu olmaqla yanaşı, həm də qazanılmış böyük elmi nüfuzun və cəmiyyət qarşısında qoyulan xidmətlərin qiymətləndirilməsi anıdır. Hesab edirəm ki, Səidə xanım bu illər ərzində öz elmi və əmək fəaliyyəti ilə Bakı Dövlət Universitetinin Tarix fakültəsinin tarixinə adını layiqincə yazmışdır.

Kollektivimizin mənəvi sütunlarından olan əziz Səidə xanım, Siz 80 illik yubileyinizi qeyd edərkən əmin olun ki, arxada qoyduğunuz illərin hər biri parlaq izlərlə, xeyirxah əməllərlə və minlərlə insanın qəlbində qurduğunuz sevgi ilə doludur. Sizin həyatınız həm gənc nəsillər, həm də həmkarlarınız üçün əsl örnəkdir. Sizi çox sevirik, sizə dərin ehtiram və hörmətimizi bildiririk. Var olun, hər zaman zirvələrdə olun!

"Tarix və onun problemləri" jurnalının redaksiya heyəti Səidə Əli qızını 80 illik yubileyi münasibətilə təbrik edir, ona elmi yaradıcılıq uğurları arzulayır. Yubileyiniz mübarək, Səidə xanım!

ƏSMƏD MUXTAROVA
Bakı Dövlət Universitetinin professoru
asmadmukhtarova@bsu.edu.az

SEVİNC RUİNTƏN
Bakı Dövlət Universitetinin dosenti
sevinjruintan@bsu.edu.az

ZİRVƏDƏN GÖRÜNƏN VƏ ZİRVƏDƏ GÖRÜNƏN ÖMÜR YOLU: PROFESSOR QABİL ƏLİYEV – 70

DOI: https://doi.org/10.36719/2708-065X/114/298-300



Alimin tanınması üçün onun öz kəşfləri kifayət deyil,
gərək onun özünü də kəşf edənlər olsun

(Əbu Turxan/Səlahəddin Xəlilov)

70 il… Bu, insan ömrünün bütöv bir tarixidir. Bu tarixə zirvədən baxanda keçilən yolun bütün eniş-yoxuşları, sınaqları, geridə qoyulan izlər aydın görünür. Bir müəllimin, alimin ömründə isə bu izlər yalnız şəxsi həyatla məhdudlaşmır: onun ömrünün bir parçası tələbələrinin yaddaşında, elmi əsərlərində, yetişdirdiyi tədqiqatçılarda və illər boyu formalaşdırdığı mənəvi mühitdə davam edir. Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Qabil Əli oğlu Əliyevin 70 illik yubileyi münasibətilə onun ömür yoluna nəzər salmaq da məhz belə bir zirvədən baxışdır və eyni zamanda, zirvəyə baxışdır. Baxaraq gördüklərimizi qısa şəkildə təqdim etməyə çalışaq:

Elm adamı olmaq sadəcə auditoriyada mühazirə demək, arxivlərdə araşdırma aparmaq və ya elmi dərəcələr qazanmaq deyil. Əsl elm adamı odur ki, zamanın çətin sınaqlarından, dəyişən ağır dövrlərdən keçərkən insani xüsusiyyətlərini, obyektivliyini və daxili işığını qoruyub saxlamağı bacarsın. Çünki həqiqətən də hər şeyin əsası əxlaqdır! Qabil müəllim belə insanlardandır. Və o, sadəcə elm xadimi deyil, həm də bütöv bir nəslin formalaşmasında müstəsna rolu olan əsl müəllim, gözəl insan və ziyalı idealıdır.

1956-cı il oktyabrın 13-də Füzuli rayonunun Merdinli kəndində dünyaya gələn Qabil müəllimin həyat yolu zəhmətin, dözümün və elmə olan sarsılmaz sevginin bariz nümunəsidir. Hələ gənclik illərindən tarix elminə bağlanan alim öz elmi yaradıcılığı ilə Azərbaycan tarixşünaslığına, xüsusilə də Qafqaz tarixinin öyrənilməsi istiqamətində, mühüm töhfələr vermişdir. O, Bakı Dövlət Universitetinin Tarix fakültəsində uzun illər apardığı səmərəli pedaqoji və elmi-tədqiqat fəaliyyəti zamanında neçə-neçə gənc tədqiqatçının, tarixçinin hazırlanmasında rol oynamışdır. Onun tədqiqatları, dərslikləri və elmi məqalələri bu gün də akademik dairələrdə böyük hörmətlə qarşılanır. Professor Qabil Əliyev həmçinin respublika daxilində və beynəlxalq səviyyədə keçirilən müxtəlif elmi konfranslarda, simpoziumlarda fəal iştirak etməklə aktual tarixi problemlərin obyektiv elmi izahına da töhfələr vermişdir. Azərbaycan elminin aparıcı nəşrlərindən olan, hər zaman obyektivliyi və elmi ciddiyyəti təbliğ edən "Tarix və onun problemləri" elmi, nəzəri və metodik jurnalın redaksiya heyətinin üzvü kimi onun gördüyü işlər respublikamızda tarix elminin inkişafına verilən dəyərli töhfələrdən sadəcə biridir. Qabil müəllim bu elmi ocaq çərçivəsində də hər zaman obyektivliyin və peşəkarlığın qoruyucularından biri olmuşdur.

Qabil Əliyev haqqında danışarkən onun pedaqoji fəaliyyətinin mənəvi tərəflərindən sükutla ötüb keçmək mümkün deyil. O, dərs dediyi tələbələr üçün sadəcə konkret bir fənni tədris edən müəllim deyil, hər zaman həm də həyat dərsi verən ağsaqqal, etibarlı bələdçi olub. Müasiri olduğumuz zaman sürətlə dəyişir, cəmiyyətdə, həyatda müxtəlif çalxantılar, qlobal və lokal xarakterli problemlər yaşanır. Lakin insan xarakterinin sınağa çəkildiyi bu illər ərzində də Qabil müəllim ləyaqətli, hər zaman obyektiv və ədalətli qalmağı, tələbələrinə münasibətində də hər zaman həqiqi müəllim olmağı bacarıb. Tələbələrinin gözündəki çətinliyi dərhal duyan, hər zaman imkanı daxilində yardıma hazır olan Qabil müəllim illər keçsə də, nə nüfuzundan, nə də insanpərvərliyindən bir zərrə olsun itirməyib.

O, bu səmimi və təmkinli xarakterini təkcə tələbələrinə deyil, iş yoldaşlarına münasibətdə də qoruyub saxlamağı bacarıb. Həmkarları ilə münasibətlərində hər zaman qarşılıqlı hörmətə, səmimiyyətə və yardımlaşmaya üstünlük verən Qabil müəllim kollektivin sevib-seçdiyi ağsaqqal ziyalılardandır. Bütün bu dediklərimiz isə heç şübhəsiz ki, əsl ziyalılığın, zamanın fövqündə dayanmaq bacarığının göstəricilərindəndir.

Qabil müəllimin ömür yoluna nəzər salarkən bir də onun doğulduğu Füzuli haqda bir neçə kəlmə demək istərdik. Təsadüflər zərurətdən yaranan həqiqətlərdir düşüncəsinə əsaslanaraq hesab edirik ki, Füzuli onun üçün sadəcə bioqrafiyasının başlanğıc nöqtəsi deyil, yaddaşının, mənəvi dünyasının və həyat taleyinin ayrılmaz parçasıdır. Tarixçi kimi ömrünü keçmişi araşdırmağa həsr edən bir insanın öz doğma torpağının tarixini bu qədər ağrılı və taleyüklü bir dövrün içindən keçərək yaşaması bu ömrə tamam başqa məna verir. Bir vaxtlar işğal altında qalan doğma torpaqların yenidən azadlığına qovuşmasına şahidlik etmək Qabil müəllimin həyatında yalnız böyük bir milli sevinc deyil, həm də tarixçi kimi keçdiyi ömrün xüsusi bir məqamıdır. Tarixdən yazan, tarixi araşdıran və tarixi öyrədən Qabil müəllimin həyatında tarix yalnız kitab səhifələrində, arxiv sənədlərində və elmi müzakirələrdə qalmayıb. Tarixin bəzi ağrılarını öz nəslinin nümayəndəsi kimi hiss edib, zamanın gətirdiyi böyük dəyişikliklərin şahidi olub. Bəlkə də elə buna görə onun üçün tarix yalnız keçmiş haqqında bilik deyil, yaddaş, insan taleyi və yaşanmış gerçəklikdir. Qabil müəllim sadəcə oxuduğu tarixi deyil, eyni zamanda yaşadığı tarixi öyrədir. Bu mənada onun tarixə toxunuşu sadəcə tarixşünas toxunuşu deyil, eyni zamanda mənbəşünas yanaşmasıdır: o, sadəcə mənbə faktları və elmi faktlarla işləmir, müəyyən məsələlərdə tarixi faktlara birbaşa şahidlik edir.

Alim və müəllim Qabil müəllimin 70 illik həyatının digər bir qürur mənbəyi onun qurub yaratdığı gözəl ailəsidir. Cəmiyyətdə əsl nümunəvi ailə başçısı adını daşımaq, övladlarına ləyaqətli tərbiyə vermək, elmi fəaliyyətlə yanaşı ailə ocağının istiliyini qorumaq hər kəsə nəsib olmur. Qabil müəllim elmi auditoriyalarda qazandığı hörməti və sədaqəti öz ocağında, ailəsində də bərqərar edə bilmiş az sayda xoşbəxt insanlardandır. Onun ailə dəyərlərinə sədaqəti, təmkinli və ləyaqətli duruşu hesab edirik ki, çoxlarına nümunə ola biləcək xüsusiyyətlərindəndir.

Qabil müəllim özünün elmi perdaqoji fəaliyyəti illərində bir sıra mükafatlara da layiq görülüb. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində xüsusi xidmətlərinə görə 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyəti-

nin 100 illiyi (1918-2018)" yubiley medalının; həmçinin elm və təhsilin inkişafı sahəsində yüksək nailiyyətlər əldə etdiyinə, bu sahələrin inkişafına xüsusi töhfə verdiyinə, Universitetin sosial-mədəni həyatında fəal iştirak etdiyinə görə, 2019-cu ildə Azərbaycan Respublikası Təhsil nazirinin əmri ilə təltif edildiyi "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" yubiley medalının onun mükafatları sırasında xüsusi yeri vardır.

Bu gün ömrünün 70 illik zirvəsinə ucalan Qabil müəllim həyatının elə bir mərhələsindədir ki, gördüyü işlərin, yetişdirdiyi tələbələrin və qazandığı təmiz adın qürurunu yaşamaq onun haqqıdır! O, illərin sınağından ləyaqətlə çıxmış, adı onu tanıyanlar tərəfindən gələcək nəsillərə hörmətlə ötürüləcək nadir şəxsiyyətlərdəndir. 70 ilin zirvəsindən geriyə baxanda Qabil müəllimin zəhmətlə qazandığı alimlik, müəllimlik nüfuzu və ən başlıcağı, ləyaqətlə yaşanan bir ömür yolu; zirvənin özündə isə illər keçdikcə daha da aydınlanan bir İnsan – Qabil müəllim özü görünür. Qabil müəllimin ömür yolunu sadəcə bir cümlə ilə ifadə etmək lazım gələrsə, hesab edirik ki, "Elmə, Vətənə, İnsanlığa həsr olunan ömür yolu yaşadı" desək, heç də səhv etmiş olmarıq!

Hörmətli Qabil müəllim! Sizi 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik! Sizə uzun ömür, cansağlığı, elmi-pedaqoji fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq. Yaxşı ki, varsınız, yaxşı ki, illər əvvəl bizim ömrümüzdən keçib bu günümüzə qədər dəyişməz olaraq öz ləyaqətinizlə çoxlarına örnək olmusunuz. Yubileyiniz mübarək olsun!

"Tarix və onun problemləri" jurnalının redaksiya heyəti professor Qabil Əliyevi 70 illik yubileyi münasibətilə təbrik edir, ona elmi yaradıcılıq uğurları arzulayır. Yubileyiniz mübarək, Qabil müəllim!

Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"*adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
TarixVeOnunProblemleri@gmail.com

Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

Электронный адрес журнала "История и ее проблемы":
TarixVeOnunProblemleri@gmail.com

Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the "Used literature" section 10.2-10.4.6 of the current instruction on the "Rules for writing dissertations" of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

Email: **TarixVeOnunProblemleri@gmail.com**

Çapa hazırlayanlar: ***Sevinc Ruintən*** – Bakı Dövlət Universiteti
Zəhra Cəfərli – Bakı Dövlət Universiteti
Şəbnəm Cəfərova – Bakı Dövlət Universiteti
Elmar Axundov – Bakı Dövlət Universiteti
İlham Məmmədov – Bakı Dövlət Universiteti
Şəhla Xələfova – Bakı Dövlət Universiteti
Tərcüməçi radaktorlar: ***Anar Kərimov*** – Bakı Dövlət Universiteti
Aynur Məmmədova – Bakı Dövlət Universiteti
Web-redaktor: ***Ramil Dadaşov*** – Azərbaycan Texniki Universiteti

Yığılmağa verilmişdir: 30.09.2026. Çapa imzalanmışdır: 02.10.2026.
Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23
Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56
E-mail: TarixVeOnunProblemleri@gmail.com